ISSN 2224-0829



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR

İCTİMAİ ELMLƏR SERİYASI

TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR
FƏLSƏFƏ VƏ HÜQUQ ELMLƏRİ
İQTİSAD ELMLƏRİ

Nakhchivan State University
SCIENTIFIC WORKS
SERIES OF SOCIAL SCIENCES

Нахчыванский Государственный Университет
НАУЧНЫЕ ТРУДЫ
СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

2020 № 2 (103)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İSSN 2224-0829

# ELMİ ƏSƏRLƏR

*İctimai elmlər seriyası*

*№ 2 (103)*

- **Tarix, antropologiya və siyasi elmlər**
- **Fəlsəfə və hüquq elmləri**
- **İqtisad elmləri**

**Naxçıvan – 2020**

Naxçıvan Dövlət Universiteti. "Elmi əsərlər".
*İctimai elmlər seriyası. 2020, №2 (103)*

*Jurnal 13 fevral 1997-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. (Şəhadətnamə № 550*)

**BAŞ REDAKTOR:** ***ELBRUS İSAYEV***
*Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAŞ REDAKTOR MÜAVİNİ:** ***MƏFTUN İSMAYILOV***
*Naxçıvan Dövlət Universitetinin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*

**REDAKTOR**: ***SAMİR TARVERDİYEV***
*Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatının direktoru*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

***Tarix, antropologiya və siyasi elmlər üzrə:***

**İsmayıl Muxtar oğlu Hacıyev**
*tarix üzrə elmlər doktoru, professor*
*AMEA-nın həqiqi üzvü*
**Zəhmət Əbülfət oğlu Şahverdiyev**
*tarix üzrə elmlər doktoru, professor*
*AMEA-nın müxbir üzvü*
**İbrahim Ethem Atnur**
*tarix üzrə elmlər doktoru, professor*
**Şamxal Şükür oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Şükür Aloş oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Elçin Dağbəyi oğlu Zamanov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***Fəlsəfə və hüquq elmləri üzrə:***

**Məmməd Hüseyn oğlu Rzayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Qərib Vəli oğlu Allahverdiyev**
*fəlsəfə üzrə elmlər doktoru, dosent*
**Yusif Hüseyn oğlu Hüseynov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Novruzəli Həmzə oğlu Rəhimov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Elman Yusif oğlu Cəfərli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Qəhrəman Novruz oğlu Behbudov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*
**Yunis Fərman oğlu Xəlilov**
*baş müəllim*

***İqtisad elmləri üzrə:***

**Ağarza Ağahəsən oğlu Rüstəmov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Teymur Abbas oğlu Abbasov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Nazim Hidayət oğlu Əhmədov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Müslüm Əli oğlu Cabbarzadə**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Ceyhun İlham oğlu Mahmudov**
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Yuliya Vasiliyevna Cutceva**
*(Rusiya Dövlət Aqrar Universiteti)*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 3-8
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 3-8
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 3-8

# TARİX

**ELBRUS İSAYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.242)**

## TARİXİ İPƏK YOLU VƏ NAXÇIVANIN ŞƏHƏR MƏDƏNİYYƏTİ

*Naxçıvan bölgəsi ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən biri olmuşdur. Şübhəsiz ki, tədqiq olunan bölgədə yaranan ilk şəhər Naxçıvan şəhəri olsa da, zaman keçdikcə bu ərazidə yeni şəhərlər də meydana gəlmişdir. Bu şəhərlərin bəzisi yarandıqdan sonra ticarət və sənətkarlıq mərkəzinə çevrilsə də, bəzilərinin yaranmasında şəhərin salındığı ərazidən keçən ticarət yollarının mühüm rolu olmuşdur.*

***Açar sözlər:*** *Naxçıvan şəhəri, ipək yolu, şəhər mədəniyyəti, ticarət, sənətkarlıq*

Arxeoloji qazıntılar zamanı əldə olunan maddi mədəniyyət nümunələri təsdiq edir ki, Naxçıvan bölgəsi ilkin şəhər mədəniyyətinin yarandığı ərazilərdən biri olmuşdur. Şübhəsiz ki, tədqiq olunan bölgədə yaranan ilk şəhər Naxçıvan şəhəri olsa da, zaman keçdikcə bu ərazidə yeni şəhərlər də meydana gəlmişdir.

Müşahidələrimiz və hazırki zamanda yerləşdikləri coğrafi mövqe də təsdiq edir ki, bu şəhərlər, əsasən, ərazidən keçən mühüm ticarət yollarının üzərində yerləşmişdir. Bu şəhərlərin bəzisi yarandıqdan sonra ticarət və sənətkarlıq mərkəzinə çevrilsə də, bəzilərinin yaranmasında şəhərin salındığı ərazidən keçən ticarət yollarının mühüm rolu olmuşdur.

Arxeoloji tədqiqatlara əsaslanaraq deyə bilərik ki, ilk insanlar arasında ticarət yolları tunc dövrünün əvvəllərindən yaranmağa başlamışdır. Hələ o vaxtdan ən çox ehtiyac duyulan məhsulların mübadiləsi gedirdi. Tayfa daxilində, qonşu tayfalar arasında aparılan bu mal mübadiləsinin miqyası getdikcə daha da genişlənir və ticarətə çevrilirdi. Əvvəlcə bu mal mübadiləsi fasilələrlə olurdu. Lakin sonralar həm fasilələr aradan qalxır, həm də mal gətirilməsinin marşrutu uzadılırdı. Beləliklə də, nisbətən asan və təhlükəsiz istiqamətlərə gedən ticarət yolları təşəkkül tapırdı. Eyni zamanda artıq bu işlərlə məşğul olan xüsusi adamlar - dəllallar, ticarətçilər meydana gəlirdi. Onlar ən zəruri və qiymətli mallar, məsələn, duz, bəzək şeyləri, metallar gətirirdilər. Mis və qalay olan yerlərə tez-tez səfər edirdilər.

Qədim və orta əsr müəlliflərinin əsərlərində verilən məlumatlar da təsdiq edir ki, şəhərlər, əsasən, ərazidən keçən ticarət yollarının üzərində salınmış, ticarət və sənətkarlıq mərkəzləri kimi inkişaf etmişlər. Bu yol üzərində yerləşən yaşayış yerləri və qəbir abidələrində aparılan arxeoloji qazıntılar zamanı küllü miqdarda başqa ölkələrdən gətirilən avadanlıq (pullar, bəzək şeyləri, silahlar, möhürlər, metal və gil qablar, fil sümüyü və rəngli daşlardan hazırlanan fiqurlar və s.) tapılmışdır. Arxeoloji tapıntılar göstərir ki, tarixin bütün dövrlərində bu yoldan istifadə olunmuşdur. Şimalın köçəri tayfaları da (skiflər, sarmatlar, xəzərlər) zəngin cənub ölkələrinə qarətçi hərbi yürüşlər edərkən bu yoldan istifadə etmişlər.

Bu ticarət yolları üzərində daşınan məhsulların dəyərinə görə müxtəlif əmtəələrin adı ilə simvolizə olunurdu. Tarixi mənbələrdə "ipək", "çay", "baharat", "ətriyyat", "şüşə", "Həcc" yolu və s. kimi adlandırılan karvan yolunun ən işlək qollarından biri uzun müddət Şərq və Qərb ölkələrinin böyük maraqla qarşıladıqları Naxçıvan duzunun da daşındığı "Duz yolu" olmuşdur.

Böyük Britaniyadan alınan qalay və sink, Transilvaniyadan qızıl, Bohemiyadan qurğuşun, mis

və digər mallar Çindən və Hindistandan gələn “ipək” və “çay” yolları ilə aparılırdı. Ərəbistandan ətirli maddələr, Baltik və Şimal dənizi sahillərindən gətirilən kəhrəba “ətriyyat” yolu (1, s.13), Naxçıvanın məşhur daş duzu isə məhz “Duz yolları” vasitəsilə dünyanın müxtəlif ölkələrinə çatdırılırdı.

Qədim zamanlardan başlayaraq əhəmiyyətli məişət və müalicə vasitəsi kimi qiymətləndirilən duz demək olar bütün insanlar üçün əvəzolunmaz maddəyə çevrilmişdir.

Qədim Misirdə duzdan həm xörək üçün, həm də balığı və ev quşlarının ətini duzlamaq üçün istifadə edirdilər. Şumerdə duza səcdə var idi. Onun əldə edilməsi və paylanması dövlətin nəzarəti altında aparılırdı. Qədim vaxtlarda Hollandiyada məhbusları cəzalandırmaq üçün onlara duzsuz yemək verərdilər. Nəticədə adamlar bir neçə aydan sonra həyatla vidalaşırdılar. Bu göstərir ki, duz olmadan yaşamaq mümkün deyil, həyat mənasını itirir.

İslam aləmində duzun dəyişməzliyini əsas tutaraq sazişləri duzla təsdiq edirdilər.

Qədim yunan və Roma mütəfəkkirləri duzu yüksək qiymətləndirir və yazırdılar ki, bu maddə çörəkdən savayı bütün qidaları əvəz edə bilər. Onu “Tanrı sovqatı” adlandırırdılar. Dini kitablarda duz sədaqət, müqəddəslik, saflıq, allahlarla xalqlar arasında birlik rəmzi kimi dəyərləndirilir.

Elə bu gün də Naxçıvan ərazisində duz-çörək müqəddəsliyi haqqında el arasında yaşayan aforizmlər bölgənin iqtisadi və mənəvi həyatında duzun yüksək əhəmiyyətini ifadə edir.

Vaxtilə Çində duz pulların olmasından söz açan məşhur italyan səyyah Marko Polo onların necə hazırlanmasını belə təsvir edir: “Duzlu suyu böyük tiyanlarda qatılaşana qədər qaynadır, sonra kiçik paylara ayırıb üstünə imperatorun möhürünü vururlar. Duz pulların metal pullara oxşaması üçün onları kürədə bişirirlər”.

Orta əsrlərdə bir sıra Avropa şəhərlərində vergiləri duzla ödəyirdilər.

Sadaladığımız məlumatlar sübut edir ki, duz sadəcə məişət maddəsi kimi deyil, həmçinin müxtəlif ayinlərin, sənətkarlıq nümunələrinin, dini-ideoloji təfəkkürün formalaşmasında dəyərli məhsul idi. Bu baxımdan qədim və orta əsrlər dövründə yaxın-uzaq ölkələrin Naxçıvan duzuna olan marağı, qədim karvan yollarına (İpək yolunun fəaliyyətindən əvvəl E.İ.) simvolik olaraq “Duz yolu”adı verilməsi məhz bu yolda daşınan məhsullar içərisində ən qiymətli məhsulun duz olmasından xəbər verir.

Naxçıvan ərazisindən keçən karvan yolları boyunca inşa edilmiş karvansaraların, körpülərin, ovdanların və eləcə də bazar meydanlarının qalıqları vaxtilə burada gərgin ticarətin aparılmasını təsdiq edən tarixi şahidlərdəndir. Bu abidələrin günümüzə gəlib çatması, eyni zamanda keçmişdə şəhərlər arasında aparılan ticarət yollarının hansı istiqamətdə getdiyini müəyyən etməkdə bizə köməklik edir.

Böyük İpək yolu üzərində şəhərlər mühüm strateji məntəqə kimi böyük əhəmiyyət kəsb edirdi. Naxçıvan bölgəsində də qədim və orta əsrlər zamanı yaranmış şəhərlər mühüm ticarət, sənətkarlıq və mədəniyyət mərkəzləri kimi inkişaf edirdilər. Həmdullah Qəzvininin verdiyi məlumata görə, XVI yüzillikdə Naxçıvan tüməninə 5 şəhər daxil idi. Bu şəhərlərin Naxçıvan, Əncan, Ordubad, Azad və Maku şəhərləri olduğu göstərilir (2, s.51).

Orta əsrlərdə Azərbaycanın inkişaf etmiş ticarət şəhərləri içərisində Naxçıvan, Ordubad, Azad, Gilan və Qarabağlar şəhərləri xüsusilə fərqlənmişlər. Naxçıvan bölgəsinin şəhərləri içərisində nəinki Azərbaycanda, hətta Yaxın Şərqdə qədim mədəniyyət mərkəzlərindən, şəhər mədəniyyətinin yarandığı ilk ocaqlardan biri olan Naxçıvan şəhəri xüsusi yer tutur.

Tarixi mənbələrdə Böyük İpək yolunun bir qolu da Ekbatandan ayrılıb Albaniya ərazisinə keçdiyi, qədim Qəbələ, Bərdə və Naxçıvandan dolanaraq yenidən Bağdada - əsas yola qovuşduğu göstərilir.

Yaxın Şərqin qabaqcıl mədəniyyət mərkəzləri ilə coğrafi yaxınlıq, eyni zamanda ərazinin mühüm ticarət yollarının keçdiyi əlverişli bir mövqedə yerləşməsi Naxçıvan tayfalarının həyatına çox böyük təsir göstərmiş, burada erkən şəhər mədəniyyəti və sinifli cəmiyyətlərin ünsürləri daha tez meydana gəlmişdir. Hətta Naxçıvan ərazisində zəmanəmizədək mühafizə olunan bir sıra maddi mədəniyyət qalıqları mövcuddur ki, bu abidələr Yaxın Şərq xalqlarının qədim tarixinə, mədəniyyətinə dair bir sıra problem məsələlərin tədqiqi baxımından mühüm elmi əhəmiyyət kəsb edir. Naxçıvan ərazisindəki Çalxanqala və Oğlanqalanın qala divarları ilə Yaxın Şərq ölkələri şəhərlərinin

müdafiə sistemləri arasında, onların planlaşdırılmasında və tikinti texnikasında olan yaxın oxşarlıq dediklərimizə ən tutarlı faktlardan biridir (3, s.52).

Beləliklə, bölgədəki arxeoloji abidələrin tədqiqi bir daha sübut edir ki, Naxçıvan ərazisi hələ e.ə. III-II minilliklərdə Şərq ölkələri ilə sıx iqtisadi-mədəni əlaqələrə malik olmuşdur. Antik müəlliflərin əsərlərinə də nəzər salanda bunu bir daha aydın görmək olur.

Lakin Naxçıvanın bir şəhər kimi təşəkkül tapması, insanların həmin yerdə məskən salması prosesindən xeyli sonralar baş vermişdir (4, s. 9). Naxçıvan ilkin şəhər mədəniyyətinin ən möhtəşəm nümunələrindən biri olmuşdur. Təsadüfi deyil ki, tarixi mənbələrdə Naxçıvan zonasını digər yaşayış məskənlərindən fərqli olaraq, öz möhkəmliyi ilə qədim Şərqdəki şəhər-dövlətlərə bənzədiyi göstərilir.

Naxçıvan şəhəri orta əsrlərdə möhtəşəmliyi ilə diqqəti cəlb etmişdir. XIII əsrə aid "Əcaib əd-dünya" ("Dünyanın qəribəlikləri") adlı əsərdə deyilir: "Orada çoxlu saray, köşk və eyvan vardı. Şəhərin yaxınlığında daşdan qala tikilmişdir. Qalada mədrəsə və məscid vardır... Bütün binalar gəcdən və bişmiş kərpicdən inşa edilmişdir" (5, s.209).

Orta əsrlər dövründə Naxçıvan özünün məhsuldar bazarları ilə də şöhrət tapmışdı. Naxçıvan bazarı böyük və izdihamlı olardı. Burada müxtəlif ölkələrdən gəlmiş tacirlərə təsadüf edilirdi. Bazarda Çindən, Misirdən, İrandan, Türkiyədən, Hindistandan, İraqdan, Orta Asiyadan gətirilmiş müxtəlif növlü mallarla yanaşı, mahir azəri sənətkarları tərəfindən yüksək zövqlə hazırlanmış əşyalar - saxsı və mis qablar, xalçalar, parçalar, zərgərlik məmulatları və s. satılırdı. Yerli ustaların ağacdan hazırladıqları qəşəng məişət və bəzək əşyaları dünyanın bir çox ölkələrinə aparılırdı (6). Yaxın Şərq ölkələrindən öz növbəsində buraya müxtəlif əmtəələr gətirilirdi. Həmin əmtəələr içərisində ədviyyat, müxtəlif ipək parçalar, şirli saxsı qablar, fayans, seladon, metal əşyalar və s. var idi (7, s. 55).

Azərbaycanın çox mühüm strateji məntəqəsi və sənətkarlıq mərkəzi olan Naxçıvan haqqında ərəb, fars və Avropa alim və səyyahlarının əsərlərində də maraqlı məlumatlar verilmişdir.

XIV əsrin ikinci yarısı və XV əsrin əvvəllərində yaşamış orta əsr Şərqinin tanınmış səyyahı, coğrafiyaşünası və astronomu Əbdürrəşid əl-Bakuvinin qeydlərində Naxçıvan şəhəri bağlı-bostanlı, meşəli, meyvəli və çörəkli bir yer, təmiz havası və şirin suyu olan gözəl Azərbaycan şəhəri kimi göstərilmişdir. Eyni zamanda səyyah Naxçıvanda sənətkarlığın və ticarətin inkişafından söhbət açaraq qeyd etmişdir ki, "Naxçıvanın əhalisi nəqqaşlıqla və xələnc ağacından qab-qacaq və müxtəlif əşya düzəltməkdə mahirdir. Bütün bunlar müxtəlif ölkələrə aparılır" (8, s.132).

XVII əsrin məşhur türk səyyahı Evliya Çələbi isə özünün "Səyahətnamə" əsərində XVI-XVII əsrlərdə Naxçıvanın sənətkarlıq və ticarət mərkəzi olduğunu göstərir. Naxçıvan şəhərinin təsərrüfat həyatından bəhs edərək göstərir ki, burada 7 növ pambıq (bəyaz, xaszağı, munlayı, zəfəranı, ləli və s.) bitir, tərifəlayiq taxıl, xüsusilə pərinc, buğda, dörd növ arpa yetişdirilir. Şəhərətrafı bostanlarda lətafətli qovun, qarpız və s. becərilirdi. Naxçıvan üzümü xüsusi şöhrət qazanmışdır. Səyyah şəhərin quruluşu və memarlıq abidələrindən xəbər verərək göstərir ki, şəhərdə 40 məscid, 20 karvansara, 7 gözəl hamam, təqribən 1000 dükan vardır. İmarətlərinin əksəriyyəti gözəldir. Sənətkarlar öz sənət sahələrində çox mahirdirlər. Üzərində naxışlar olan parçalar, süfrə üçün istifadə edilən çitləri dünyada məşhurdur (9, s.118).

Bəzi mənbələrdə isə "Culfa" sözünün orta əsrlərdə fəaliyyət göstərən tacir təşkilatının adı ilə bağlı olduğunun göstərilməsi, bu ərazidə ticarətin mühüm rol oynadığını, hətta şəhərin salınmasının ticarətlə bağlı olmasını söyləməyə bizə əsas verir. Avropa ilə bir çox Yaxın Şərq ölkələrini birləşdirən və Böyük İpək yoluna xidmət edən ən mühüm yollardan biri də məhz Təbriz-Mərənd-Culfa-Naxçıvan yolu idi (10, s.33). Bu yol vasitəsilə Culfa tacirləri Qərbi Avropanın Venesiya, Amsterdam, Marsel şəhərləri, habelə Suriya, Türkiyə və Hindistanda alver edirdilər.

Təsadüfi deyildir ki, Avropada beynəlxalq ticarətin əsas mərkəzlərindən biri olan Venesiyada "Culfa yolu" adlanan küçə yaranmışdır ki, buraya, əsasən, Azərbaycandan, İrandan, xüsusilə Culfadan tacirlər düşürdülər (11, s.54).

Orta əsr ticarət yollarının keçdiyi Naxçıvan ərazisində ticarət-iqtisadi cəhətdən mühüm əhəmiyyətə malik olan şəhərlərdən biri də Ordubad şəhəri idi. Həmdullah Qəzvini yazır ki, Ordubad bağlar arasında qərq olmuş mahal şəhəridir. Burada əla üzüm, dənli bitkilər və pambıq becərilir. Sərin

suyu Qaban (Qafan) dağlarından gəlir, artıq qalan su Araz çayına tökülür (2, s.51).

Xanlıqlar dövründə də Ordubad şəhəri ticarətdə mühüm rol oynamışdır. Ordubad şəhərində 35 topdansatış dükanı fəaliyyət göstərirdi. Ordubad bazarında 85 dükan var idi ki, onlardan 30-da ipək və pambıq parçalar, mahud, çay, qənd, kofe və s. satılırdı. İxrac olunan mallar, əsasən, daxildə istehsal olunan pambıq, çəltik, dəri, küncüt yağı, yun, quru meyvə və s.-dən ibarət idi. Bu mallar içərisində gön-dəri məmulatı mühüm yer tutmuşdur. Tarixi çox qədimlərə gedib çıxan, ancaq Tunc dövründən etibarən müstəqil sənət sahəsinə çevrilən "dabbaqlıq" sənəti, digər Azərbaycan şəhərləri kimi, Ordubadın da təsərrüfat həyatında mühüm yer tutmuşdur. Qədim zamanlardan bölgədə heyvandarlığın geniş yayılması bu ərazidə gön-dəri istehsalının və dəri aşılanması sənətinin inkişafı üçün şərait yaratmış və dabbaqlıq burada müstəqil sənət sahəsinə çevrilmişdi. H.Səfərli bölgənin epiqrafik abidələrindən əldə etdiyi materiallara əsaslanaraq bu sənətin adının bir sıra qəbirüstü abidələr, yer və nəsil adlarında bu günədək saxlandığını göstərir (12, s.14-16). Müəllif göstərir ki, qədim və orta əsrlər dövründə sənətkarlıq irsi xarakter daşımış, bəzən atadan oğula keçmişdir. Keçmişdə hər hansı bir sənət sahəsi ilə bəzən bir ailə, yaxud bütün tayfa məşğul olurdu. Onlar, adətən, bir məhəllədə yaşayırdılar. Ona görə də ayrı-ayrı sənət sahələri ilə bağlı tayfalar və məhəllələr də yaranırdı. Məsələn, Misgərlər məhəlləsində, əsasən, misgərlər, Dabbaqlar məhəlləsində dabbaqlar, Dulusçular məhəlləsində dulusçular yaşayırdı. Ordubad şəhərinin dabbaqları da bu cəhətdən istisna təşkil etmirdilər və əhali arasında "Dabbaqlar" nəsli kimi tanınırdılar. Həmin nəslin törəmələri hazırki dövrdə gön-dəri aşılanması sənəti ilə məşğul olmasalar da, yenə də şəhərdə keçmişdəki kimi "Dabbaqlar" tayfası kimi tanınırlar (12, s.15). Ordubad həm də Azərbaycanda qədim tarixə malik olan ipəkçiliyin yayıldığı ilk ərazilərdən biri olmuşdur. İpəkçiliyin bu ərazidə geniş yayılmasının və inkişafının başlıca faktorları bu ərazidə münbit hava şəraitinin olması və 40-60-gün ərzində baramaqurdularının düzgün qidalandırılmasıdır. Eyni zamanda ipəkçiliyin inkişafında iqtisadi amillərin rolu da böyükdür. Çünki bu dövrdə ipək sürətlə inkişaf edərək digər məhsullarla müqayisədə ən qiymətli mala çevrilmişdir (13, s. 47). Ordubaddan Moskvaya, Nijniqorod yarmarkasına xam və boyadılmış ipək aparılırdı (14, s.96).

Etnoqraf və tarixçi, mənşəcə fransız olan İ.İ.Şopen (1798-1870) Ordubadın ticarət əhəmiyyətindən söhbət açaraq, şəhərin mərkəzində iri bazarın və 6 karvansaranın olduğunu göstərir (15, s. 482).

Qədim və orta əsrlər dövründə beynəlxalq karvan yolları üzərində mühüm məntəqə sayılan yurd yerlərindən biri də indiyədək gəlib çatmayan, adı yalnız mənbələrdə qeyd olunan Azad şəhəridir. Vaxtilə Azad şəhərinin yerinin müəyyənləşdirilməsi müəyyən mübahisələrə səbəb olsa da, sonrakı araşdırmalarda bu şəhərin Ordubad şəhəri ilə Culfa şəhəri arasında yerləşdiyi sübut edilmişdir. Şəhər inkişaf etmiş ticarət və sənətkarlıq mərkəzi olduğundan ətraf ərazi uzun müddət Kiranla (hazırda Naxçıvan-Ordubad şose yolunun sol tərəfində xarabalıqları qalan Azad kəndindən təxminən 6-7 km şimalda yerləşən orta əsr şəhəri Xaraba Gilanla) birlikdə onun adı ilə Azad-Ciran adlanmışdır (16, s.1; 17, s.10). Bundan əlavə, bu şəhərin, həmçinin Culfa şəhərinin ətrafında boyaqçılara satmaq üçün "qırmız" deyilən böcəklər də toplanmışdır. Bu böcəkdən qırmızı rəng alınmış və boyaqçılıqda geniş istifadə olunmuşdur. Bu iş, orta əsrlərdə olduğu kimi, sonrakı dövrlərdə də davam etdirilmişdir.

Tarixin müəyyən inkişaf mərhələsində Naxçıvan bölgəsində şəhərlərin sırasına daha bir şəhər daxil olmuşdur. Bu Əylis şəhəri idi. Orta əsr qaynaqlarına əsaslanan tədqiqatçılar artıq XVI əsrdə Azərbaycan şəhərləri haqqında danışarkən onların sırasında Əylisin də adını çəkirlər (18, s. 211; 19, s.112).

Əylis şəhəri, xüsusilə beynəlxalq ticarətdə mühüm rol oynamışdır. Bu şəhərin tacirləri bir sıra ölkələrə, eyni zamanda Azərbaycan şəhərlərinə gedir, mühüm mallar, xüsusilə ipək alır, onu xarici ölkələrdən gəlmiş tacirlərə satır və yaxud özləri aparıb xarici bazarlarda satırdılar.

Şəhərə çoxlu tacirlər gəlib getdiyindən burada ticarət əhəmiyyətli böyük obyektlər, o cümlədən dükanlar, karvansaralar, körpülər və s. inşa edilmişdi.

Orta əsr müəlliflərindən Əylisli Zəkəriyyə öz "Gündəliyi"ndə XVI-XVII əsrlərdə Əylisdə olan və həmin vaxt inşa edilən bu ticarət mərkəzləri haqqında məlumatlar verir. Həmin ticarət obyektlərinin qalıqları indiyədək gəlib çatmışdır.

Keçən yüzilliyin 20-ci illərində Naxçıvanda olmuş, Azərbaycanı Tədqiq və Tətöbbə Cəmiyyətinin elmi katibi, rus alimi V.Sısoyev həmin abidələri görmüş və yazmışdır ki, burada yarımdağıdılmış vəziyyətdə olan dükan və karvansaralar vardır (20, s.160).

Orta əsrlərdə Əylis şəhərinin mərkəzində ticarət mərkəzi fəaliyyət göstərmişdir. Bu mərkəzdə, orta əsrlərdə olduğu kimi, sonralar da qaynar ticarət getmişdir. Əylisi memarlıq və şəhərsalma baxımından tədqiq edən R.Salayevanın yazdığına görə, bu mərkəz indi Yuxarı Əylisdə hazırda "poçt yolu" adlanan əsas magistral yolun üzərində olan ticarət mərkəzinin yerində olmuşdur (21, s.137).

Orta əsrlər dövründə Azərbaycanın sosial-siyasi, iqtisadi, mədəni, ticarət və sənətkarlıq həyatında özünəməxsus yeri olan yaşayış məskənlərindən biri də Qarabağlar şəhəri olmuşdur. Şərq ölkələri ilə Qərbi birləşdirən Böyük İpək yolunun Naxçıvandan keçən qolları üzərində yerləşən, bu səbəbdən də böyük mədəniyyət, ticarət və sənətkarlıq mərkəzi kimi inkişaf edən Qarabağlar şəhəri haqqında orta əsr qaynaqlarında təəssüf ki, geniş məlumatlar gəlib çatmamışdır. Bu şəhərin varlığı haqqında geniş məlumatı biz məşhur türk səyyahı, XVII yüzilliyin ortalarında Naxçıvanda olmuş Evliya Çələbinin "Səyahətnaməsi"ndən alırıq. Səyahətnaməsində Evliya Çələbi şəhər haqqında belə bir məlumat verir: Qarabağlar şəhəri 50 min nəfər əhalisi, 10 minə qədər evi, 40-a qədər minarəsi, 70 məscidi, karvansaraları, bazarları, hamamları, meyvə bağları, üzümlükləri, yaxşı havası və suyu olan bol nemətli bir yaşayış məntəqəsidir. Səyyah yazır ki, buradakı bağların birində gəzərkən Yazdanqulu adlı bir bağban mənə 26 növ armud verdi. "Mələsə", "Abbasi", "Ordubadi" növlərindən olan armudu yeyəndə adam ağzında nabat dadı hiss edir. Burada "yaqut" rəngli nar yetişir. Bu diyarın əhalisinin hamısı müsəlmandır. Bu diyarda erməni və rum yoxdur (9, s.10-11).

Beynəlxalq ticarət yolları üzərində inşa edilən bir sıra memarlıq abidələrinin bu ərazidə də aşkarlanması şəhərin ticarət əhəmiyyətli bir məntəqə olduğunu sübut etməkdədir.

Beləliklə, bu cür tarixi, elmi faktlar, səyyahların qeydləri bir daha göstərir ki, qədim və orta əsrlər dövründə bir çox dünya dövlətlərinin ciddi marağına səbəb olan Böyük İpək yolunun düyün nöqtəsində yerləşən Naxçıvan ərazisi hər zaman diqqət mərkəzində olmuş və dünyanın bir çox ölkələri, o cümlədən uzaq Qərb dövlətləri ilə geniş əlaqələr qurmuşdur.

## ƏDƏBİYYAT


1. İsgəndər H. Azərbaycanın yol tarixi. Bakı, Azərnəşr, 1995, 128 s.
2. Казвини Х. Нузхат ал-кулуб (материалы по Азербайджану). Перевод с английского З.М.Буниятова, перевод с персидского И.Л. Петрушевского. Баку, Элм, 1983, с.37-65
3. Əliyev V. Qədim Naxçıvan. Bakı, Elm, 1979, 76 s.
4. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikası Azərbaycanın Milli dövlətçilik tarixində: Tar.elm.dok...dis. avtoref. Bakı, 1999, 65 s.
5. عجائب الدنيا -
6. Məmmədov R. Qədim şəhər. "Azərbaycan pioneri" qəz., Bakı, 1967, 20 yanvar
7. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, Elm, 1977, 160 s.
8. Əbdürrəşid əl-Bakuvi. "Abidələrin" xülasəsi və qüdrətli hökmdarın möcüzələri. Bakı, Şur, 1992, 176 s.
9. Çelebi E. Seyehatname. II kitab, Ankara, 1998, s.500
10. Əliyev F.M. XVIII əsrin I yarısında Azərbaycanda ticarət. Bakı, Azərnəşr 1964, 124 s.
11. Mahmudlu Y. Azərbaycan diplomatiyası. Bakı, Azərbaycan diplomatiyası jurnalının nəşri. 1996, 269 s.
12. Səfərli H. Ordubad şəhərində dabbaqlıq sənəti haqqında // NDU Xəbərlər, 2005, №17, s.14-16
13. Пашаев А.М. Город Ордубад в XIX начале XX вв. Баку: Элм, 1998, 200 с.
14. Əliyev F.M. XVIII əsrin II yarısında Şimali Azərbaycan şəhərləri. Bakı, Azərnəşr, 1960, 136 s.
15. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург, Типография императорской АН, 1852, 1231 с.
16. Nemət M. Aza kəndi-Azad şəhəri haqqında // Elm və həyat jurnalı, 1990, №2, s.1-3

17. Səfərli F. Bir daha Azad şəhəri haqqında / Ali Diplomatiya Kolleci Naxçıvan Bölməsi. İctimai elmlər, məqalələr məcmuəsi. Bakı, 1998, №1, s.8-12
18. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, Azərnəşr, 1993, 301 s.
19. Məmmədov S. Azərbaycan XV-XVIII əsrin I yarısında. Bakı, 1981
20. Сысоев В.М. Древности Нахчыванской ССР, Отдельный оттиск из 4-го выпуска Известий «Азкомстарис»а. Баку, 1928, с.123-215
21. Салаева Р. Нахчыван. Наследия архитектуры. Баку, 2002, 137 с.

## SUMMARY

**Elbrus Isayev**

## HISTORICAL SILK ROAD AND URBAN CULTURE OF NAKHCHIVAN

Nakhchivan region was one of the areas where the first urban culture was formed. Undoubtedly, Nakhchivan was the first city to appear in the region under study, but over time, new cities appeared in this area. Although some of these cities became centers of trade and craftsmanship after their establishment, trade routes passing through the area where the city was built played an important role in the creation of some of them.

***Key words:*** *Nakhchivan city, Silk Road, urban culture, trade, craftsmanship*

## РЕЗЮМЕ

**Эльбрус Исаев**

## ИСТОРИЧЕСКИЙ ШЕЛКОВЫЙ ПУТЬ И ГОРОДСКАЯ КУЛЬТУРА НАХЧЫВАНА

Нахчыванский регион был одной из территорий, где сформировалась первая городская культура. Несомненно, Нахчыван был первым городом, появившимся в исследуемом регионе, но со временем здесь появились и новые города. Хотя некоторые из этих городов после их создания стали центрами торговли и ремесел, в создании некоторых из них, где был построен город, сыграли важную роль торговые пути, проходящие через данный регион.

***Ключевые слова:*** *город Нахчыван, шелковый путь, городская культура, торговля, ремесло*

***Məqalə daxil olmuşdur:*** *01 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 9-15
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 9-15
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 9-15

**İSMAYIL HACIYEV**
*ismayil_haciyev@yahoo.com*
*AMEA Naxçıvan Bölməsi*

**UOT94 (479.24)**

# QƏRBİ ZƏNGƏZUR VƏ GÖYÇƏ GÖLÜ ƏRAZİLƏRİNİN ERMƏNİSTAN SSR TƏRKİBİNƏ VERİLMƏSİ SOVET DÖVLƏTİNİN ANTİAZƏRBAYCAN SİYASƏTİNİN TƏRKİB HİSSƏSİDİR

*Məqalədə Rusiyanın-Qacarlar İranı və Osmanlı dövləti ilə apardığı müharibələrdən sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına – Qarabağa, Zəngəzura, Naxçıvana, İrəvana və b. ərazilərə köçürülməsi, ermənilərin tarixi Azərbaycan torpaqlarında yerləşdirilməsindən sonra Qərbi Zəngəzurun və Göyçə gölü ərazilərinin Ermənistan SSR-yə verilməsindən bəhs edilir. XX əsrin əvvəllərində Cənubi Qafqazda dövlətlərin, eləcə də Ararat Respublikasının yaranmasından sonra erməni daşnakları ərazilərini genişləndirmək, bu ərazilərin aborigen əhalisi, azərbaycanlıları yaşadıqları torpaqlardan çıxarılması üçün soyqırıma başlanmış, yüzlərlə kənd və qəsəbələr dağıdılmış, yandırılmış və azərbaycanlılar soyqırıma məruz qalmışlar. Çar Rusiyasının ermənilərlə bağlı siyasətini Sovet Rusiyası, sonra isə Sovet dövləti davam etdirmişdir. Bu siyasət ermənilərin xeyrinə, azərbaycanlıların əleyhinə yönəlmişdi. Ermənistan Respublikası Sovet dövlətinə arxalanaraq Azərbaycanın bir sıra torpaqlarını zor gücünə ələ keçirmişdir. Qərbi Zəngəzur və Göyçə gölü əraziləri Sovet dövlətinin anti Azərbaycan siyasətinin nəticəsində Ermənistan SSR-yə verilmişdir. Ermənistan SSR 9 min kv. km ərazi ilə Azərbaycan torpaqlarında yaradılmış, Sovet dövlətinin anti Azərbaycan siyasəti nəticəsində 29,8 min kv. km əraziyə malik olmuşdur.*

***Açar sözlər:*** *Azərbaycan, Qərbi Zəngəzur, Göyçə gölü əraziləri, Sovet dövləti, anti Azərbaycan siyasəti, erməni daşnakları, soyqırım, itirilmiş torpaqlar*

Ermənistan adlandırılan dövlət tarixi Azərbaycan ərazilərində yaradılmışdır. Tarixin müxtəlif dövrlərində, xüsusilə XIX və XX əsrlərdə ermənilər bu ərazilərə köçürülmüşlər. Onlar bu ərazilərdə möhkəmləndikcə yerli azərbaycanlıları öz tarixi torpaqlarından çıxarmağa çalışmışlar. Ermənistan ərazisində qədim türkmənşəli tayfaların yaşaması barədə tarixi məlumatlar azərbaycanlıların orada eradan əvvəl I minillikdə və erkən orta əsrlərdə yaşadığını göstərir. Ermənistan ərazisində olan coğrafi adların böyük əksəriyyəti azərbaycanlılara məxsusdur. Tarixi İrəvan əyalətlərinin, İrəvan xanlığının və İrəvan quberniyasının yaşayış məntəqə adlarının, demək olar, hamısının türkmənşəli olması bununla bağlıdır.

XIX əsrin əvvəllərində Rusiya-Qacarlar İranı və Osmanlı dövlətləri ilə apardığı müharibədən sonra ermənilər kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülmüşdür. Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: “Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz köçürüb gətirmişik”. Şavrova görə, ermənilərə məskən salmaq üçün hökumət tərəfindən 200 min desyatin xəsinə torpağı ayrılmış və müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı alınmışdır.

Köçürülən ermənilər əsasən Qarabağ, Naxçıvan, İrəvan, Zəngəzur və başqa ərazilərdə yerləşdirilirdi. Bu vaxtlarda ermənilərin dövlətləri olmamışdır. Onların əsas məqsədi bu ərazilərdə erməni millətindən olan əhalinin sayını artırmaq idi. Bu işdə onlara böyük dövlətlər, xüsusilə çar

Rusiyası, daha sonra isə Sovet Rusiyası kömək edirdi.

1918-ci ildə Cənubi Qafqazda müstəqil dövlətlər yarandı. Belə dövlətlərdən biri də İrəvan xanlığı ərazisində yaradılan Ararat Respublikası idi. Bu respublika yaradılarkən onun sahəsi 9 min kv. km idi. Bununla kifayətlənməyən erməni daşnakları qonşu ərazilərə - Azərbaycan torpaqlarına göz dikir və bunları da Ermənistan dövlətinin tərkibində görmək istəyirdilər.

Belə ərazilərdən biri də **Zəngəzur** idi. Türkmənçay müqaviləsindən sonra Zəngəzura çar hökumətinin himəyəsi altında Türkiyə və İrandan kütləvi surətdə ermənilərin köçürülməsinə başlanılmış, beləliklə qədim Azərbaycan torpağı olan Zəngəzurda süni surətdə erməni əhalisinin sayca çoxaldılması siyasəti yeridilmişdir.

Zəngəzur qədim və tarixi Azərbaycan ərazisidir. Ərazinin Zəngəzur adlanması da təsadüfi deyildir. “Zəngəzur” toponimi bu ərazilərdə yaşayan, öz igidliyi və cəngavərliyi ilə seçilən “zəngi” tayfalarının adı ilə bağlıdır [9, s.30]. Zəngi tayfaları tarixdə görkəmli qoşun başçıları və dövlət xadimləri ilə məşhur olan bir türk boyudur. Bu boyla bağlı Azərbaycan ərazisində Zəngilan, Zəngəran, Zəngidərə, Zəngi çayı, Zəngilər, Zəngibasar və başqa onlarla coğrafi adlar mövcuddur. Ərazinin aborigen əhalisi də Azərbaycan türkləri olmuşdur. Ümumiyyətlə, Zəngəzur ərazisində minlərlə türkmənşəli coğrafi adlar məlumdur.

Erməni daşnakları 1917-ci ilin martından Zəngəzur türk-müsəlman əhalisinə qarşı soyqırıma başlamış, yüzlərlə kənd yerlə-yeksən edilmiş, on minlərlə insan məhv edilmiş, doğma yurdlarından didərgin salınmışdır.

1917-ci ilə aid statistik məlumatlara görə Zəngəzur qəzasında azərbaycanlılar 55 faiz, ermənilər isə 44,3 faiz təşkil edirdi [7, s.15]. 1918-ci ildə Zəngəzur qəzasında mövcud olan 222 yaşayış məntəqəsindən 116-sı azərbaycanlılara məxsus idi. Daşnaklar hakimiyyətə gəldikdən sonra azərbaycanlılara qarşı soyqırımını dövlət siyasəti səviyyəsində həyata keçirməyə başladı. Andronikin, Njdenin, Dronun quldur dəstələrinin Zəngəzura basqınları 1918-ci ildə 115 Azərbaycan kəndinin viran qoyulmasına və yandırılmasına, yüz minlərlə insanın qətlə yetirilməsinə, 40 min nəfərdən artıq dinc sakinin öz doğma yurdunu tərk etməsinə səbəb oldu [1, s. 458].

Ermənistan hökuməti tərəfindən ruhlandırılan, maliyyələşdirilən və təchiz olunan Andronik və onun quldur dəstəsi Zəngəzurda yeni-yeni özbaşınalıq və vəhşiliklər törədirdi.

Andronikin Zəngəzurdakı “etnik təmizləmə” fəaliyyəti 1918-ci il noyabrın ikinci yarısında özünün yeni, azərbaycanlı əhali üçün daha faciəli mərhələsinə başladı. Onun quldur dəstələrinin 1918-ci il noyabrın 22-də Zəngəzur qəzasının mərkəzi olan Gorusa soxulması, qəzanın kəndlərini viran etməsi, əhaliyə divan tutması nəticəsində qısa müddətdə burada 30-dan çox azərbaycanlı kəndi dağıdıldı [2, s.449].

Erməni silahlı dəstələrinin azğınlığı getdikcə daha dəhşətli xarakter alırdı. Bu özbaşınalıqlara qarşı qətiyyətli mübarizə aparmaq üçün Xalq Cümhuriyyətinin Nazirlər Şurası 15 yanvar 1919-cu il tarixli iclasında Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə müvəqqəti general-qubernatorluq yaradılmasını qərara aldı. Müvəqqəti general-qubernatorluğa fövqəladə səlahiyyətlər verilməsi nəzərdə tutulmuşdu [2, s.449].

Nazirlər Şurasının iclasında Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru vəzifəsinə təsdiq edildi.

Erməni silahlılarına cavab vermək üçün Zəngəzurun bir sıra müsəlman kəndlərində özünümüdafiə dəstələri təşkil edildi. Həmin dəstələr arasında X.Sultanovun qardaşı Sultan bəyin dəstəsi daha yüksək döyüş qabiliyyətinə malik idi. Avqust ayındakı döyüşlərdə ermənilər xeyli itki vermişdilər.

Azərbaycan hökuməti Zəngəzurda yaranmış qarışıqlığı, ermənilərin pozuculuq hərəkətlərini aradan qaldırmaq üçün müəyyən hərbi-siyasi xarakterli addımlar atmalı, bölgəyə müəyyən sayda hərbi qüvvə göndərməli oldu.

Bu zaman Azərbaycan hökuməti Qərb dövlətlərinin təklifi ilə mübahisəli məsələlərə dair konfransda iştirak etməyə razılıq verdi. Bu məsələ Dövlət Müdafiə Komitəsində də müzakirə olundu. Qəbul edilmiş qərarda silahlı qarşıdurmanın aradan qaldırılması bildirildi.

1919-cu il noyabrın 23-də Azərbaycan və Ermənistan hökumətlərinin sədrləri görüşdülər. ABŞ nümayəndələrinin vasitəçiliyi ilə təşkil edilmiş bu görüş başlıca olaraq ərazi məsələlərinin müzakirəsinə həsr edilmişdi. Azərbaycanla-Ermənistan arasında saziş imzalanır. Sazişi Azərbaycan tərəfdən N.Yusifbəyli, Ermənistan tərəfdən A.Xatisyan, ABŞ nümayəndəsi, müttəfiqlərin Ali komissarının müavini C.Rey və Gürcüstanın Xarici İşlər naziri Gekeçkori imzalayırlar. Saziş 5 bənddən ibarətdir:

1. Ermənistan və Azərbaycan hökumətləri baş verən toqquşmaları dayandırmağı və yenidən silah gücünə əl atmamağı öhdələrinə götürürlər.
2. Ermənistan və Azərbaycan hökumətləri Zəngəzura gələn yolların düzəldilməsi və açılması, onlarla dinc hərəkətlər üçün təsirli tədbirlər görülməsini razılaşdırırlar.
3. Ermənstan və Azərbaycan hökumətləri sərhəd haqqında məsələlər də daxil olmaqla, bütün mübahisəli məsələləri dinc sazişlər yolu ilə həll etməyi öhdələrinə götürürlər. Dinc saziş qeyri-mümkün olduğu halda, hər iki hökumət üçüncü tərəf-münsiflər məhkəməsi sifəti ilə bitərəf şəxs seçməyi və onun qəzalarını məcburi qəbul etməyi razılaşdırırlar: hazırki dövrdə belə bir bitərəf şəxs kimi polkovnik Rey tanınır.
4. Ermənistan-Azərbaycan konfransını 1919-cu il noyabrın 26-da Bakıda açmaq qərara alınır.
5. Bu saziş imzalandığı gündən həqiqi sayılır və respublikaların parlamentləri tərəfindən təsdiq olunduğu vaxtdan isə qüvvəyə minir [11, s.207].

Bu saziş müvəqqəti xarakter daşıyırdı. Çünki sazişə görə dövlətlərarası mübahisəli məsələlərin bütün kompleksini yalnız qarşıdakı Ermənistan-Azərbaycan konfransı həll edə bilərdi. Sazişin nəticələrinə gəldikdə isə onlar Azərbaycan tərəfi üçün faydalı olmadı, əksinə onun siyasi və hərbi maraqlarına xələl gətirdi. Ermənilərin səmimi olmalarına inanan müttəfiqlərin müraciətlərini əsas tutan Azərbaycan hökuməti razılaşdırılmış məsələlərin həllini gözləmədən öz qoşun hissələrini Zəngəzurdan çıxartdı [2, s. 456]. Saziş ərəfəsində və onun bağlandığı günlərdə belə Zəngəzurda hərbi əməliyyatları davam etdirən Ermənistan hökuməti bu şəraitdən faydalanaraq, dərhal bölgəyə əlavə nizami silahlı qüvvələr yeritdi. Nəticədə, Zəngəzur mahalının azərbaycanlı əhalisinə divan tutuldu. Zəngəzurun Oxçu, Şabadin, Pirdavdan, Atqız, Oxçu dərə və b. kəndlərinə amansız cəza verildi, talanlar edildi.

Vəziyyətin gərginləşməsi Azərbaycan Xalq Cümhuriyyətini və mahalın əhalisini ciddi əməli addım atmağa məcbur etdi. Qəzanın əhalisindən ibarət partizan dəstələri yaradılaraq cəbhə xəttində yerləşdirildi. Gəncə batalyonu Zəngəzura göndərildi. Bu tədbirlər sayəsində qısa müddətdə sakitlik yaransa da, bu çox çəkmədi.

1920-ci il aprelin əvvəllərində Tiflisdə keçirilən konfransda Azərbaycanın konfederasiya yaratmaq və onun sərhədlərini birgə müdafiə etmək haqqında təklifinə cavab olaraq Ermənistan nümayəndəsi A.Aqoranyan açıq şəkildə bildirdi ki, Ermənistan İrəvan qəzasından ibarət olan müstəqil Ermənistanın indiki sərhədlərilə razılaşa bilməz.

1920-ci il aprelin 28-də Bakıda dövlət çevrilişi nəticəsində bolşeviklər hakimiyyətə gəldilər. Rusiyanın ordu hissələri Bakını tutduqdan sonra Azərbaycanın Naxçıvan, Zəngəzur və b. bölgələrini də yenidən işğal etmək üçün xüsusi hərbi əməliyyatlar hazırladılar. Bu dövrdə Ermənistanın həmin bölgələrə dair ərazi iddiaları davam etdiyindən onunla Azərbaycan arasında hərbi-siyasi qarşıdurma nəinki səngimədi, əksinə, daha da qüvvətləndi.

1920-ci il aprelin 30-da Azərbaycan SSR XXİK-in müavini M.D.Hüseynov Ermənistan hökumətinə nota göndərdi. Bu notada aşağıdakı tələblər irəli sürülmüşdü: Üç gün müddətində Qarabağı və Zəngəzuru öz qoşunlarından təmizləmək; öz sərhədlərinə çəkilmək və millətlərarası qırğına və ədavətə son qoymaq [11, s.235].

Ermənistan İnqilab Komitəsi bu notanı aldıqdan sonra Rusiyanı məlumatlandırır, Qarabağda və Zəngəzurda erməni qoşunu olmadığını bildirir. Ermənistan həm də bu məsələdə Sovet Rusiyasının vasitəçilik etməsini istəyirdi. Ermənistan Qarabağı və Zəngəzuru özlərininki saydığından yalan məlumatlar verirdi. Onlar həm də Qarabağ və Zəngəzur mahallarının Türkiyə ilə birləşmə ehtimallarını irəli sürməklə Rusiyaya müəyyən eyhamlar çatdırırdı.

Sovet Rusiyası Ermənistanı da özünün asılılığına keçirmək üçün Sovet Azərbaycanının torpaqları hesabına onu sovetləşdirmək istəyirdi. Bunun üçün Azərbaycanın bir sıra ərazilərini mübahisəli sayırdı. Çiçerinin Orçonikidzeyə ünvanlandığı teleqramda bildirirdi ki, "Bakıdakı böyük nüfuzundan istifadə edib Azərbaycan hökumətinin Şərur-Dərələyəz qəzasını deyil, Qarabağ və Zəngəzuru mübahisəli ərazi kimi etirafına nail olmağı xahiş edirik". İyunun 19-u teleqramında bildirirdi ki, Qarabağ, Zəngəzur, Naxçıvan, Culfa nə Ermənistana, nə Azərbaycana birləşdirilməməli, yerli sovetlərin razılığı ilə Rusiya qoşunlarının işğalı altında olmalıdırlar.

N.Nərimanovun, Gürcüstan və Ermənistan rəhbərlərinin Çiçerin və Orconikidzeyə göndərdikləri məlumat maraq doğurur: "Artıq Sovet Azərbaycanının tərkibinə daxil olan, guya mübahisəli sayılan Zəngəzur və Qarabağa gəldikdə isə qətiyyətlə bildiririk ki, bu yerlər mübahisəlidir və bundan sonra da Azərbaycanın hüdudlarında yerləşdirilməlidirlər. Başdan-başa müsəlmanlarla məskunlaşan, bir ildən artıqdır ki, ayrı düşən və yerli əhalinin qüvvələri ilə daşnak hökumətindən müdafiə olunan Culfa və Naxçıvan rayonları həm hərbi cəhətdən, həm də Türkiyə ilə bilavasitə əlaqə məqsədilə bizim qoşunlarla tutulmalı və Azərbaycana birləşdirilməlidirlər" [11, s.238-239].

Orconikidze iyun teleqramında Zəngəzuru Azərbaycan ərazisi kimi qəbul etdiyi halda, Çiçerinə vurduğu iyul teleqramında Zəngəzuru mübahisəli ərazi elan edərək digər bölgələrin... Ermənistana birləşdirilməsi fikrini irəli sürmüşdü [5, s.117; 11, s.241].

Zəngəzurda Sovet hakimiyyəti elan edilsə də XI Ordunun loyal mövqeyi nəticəsində Njde və Dronun silahlı qüvvələri bildiklərini edir, nəticədə ermənilər qəza inqilab komitəsi yaratdılar. Azərbaycan Gorusda Zəngəzur qəza komitəsi yaratdı və komitənin sədri Şirvani, onun müavini isə milliyyətcə erməni olan Qaragözov təyin edildilər [11, s.247-248]. Ancaq təəssüf ki, Zəngəzura Sovet hakimiyyəti tərəfindən heç bir kömək və yardım göstərilmədi.

Moskvaya Zəngəzurun kimin torpağı olması o qədər də maraqlı deyildi. Ona Ermənistanda Sovet hökumətini qurmaq maraqlı idi. Sovet Rusiyası Azərbaycanda Sovet hökuməti qurulduqdan sonrakı aylarda Zəngəzuru, Qarabağ və Naxçıvanı hər bəhanə ilə Azərbaycana qaytarmağın zəruriliyini qeyd edirdisə, artıq Ermənistanda Sovet hökuməti qurulduqdan sonra Sovet rəhbərliyi başqa bir tezislə "yalnız Sovet hakimiyyəti Zəngəzuru Ermənistana birləşdirə bilər və Qarabağa muxtariyyət hüququ verə bilər" tezisi ilə çıxış etməyə başladı.

Ermənistanda Sovet hakimiyyəti qurulana qədər Stalin "Zəngəzur və Naxçıvanı Ermənistanın indiki hökumətinə vermək olmaz" deyirdisə, Ermənistanda Sovet hakimiyyəti qurulduqdan iki gün sonra-dekabrın 1-də Stalin Bakı Sovetində keçirilən iclasda N.Nərimanovu Zəngəzurun Sovet Ermənistanına verilməsi barədə bəyanatla çıxış etməyə məcbur etmişdi. Həmin bəyanatda Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ərazisi elan edilirdi.

Stalin və Orconikidze bu "bəyanatı" tamamilə bəyəndiklərini bildirmişdilər. Orconikidze bu bəyanatı "bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt" kimi qiymətləndirmişdi. Stalin isə fikrini belə ifadə etmişdi: "Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir. Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir" [5, s. 119].

N.Nərimanov yanıldığını, tarixi səhvə yol verdiyini etiraf etmiş, onu millətçilikdə günahlandıranlara cavab olaraq demişdir: "Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti... millətçilik əhval-ruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru almazdı, Gürcüstana müftə neft verilməzdi" [11, s.270].

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ermənilərin Zəngəzuru Azərbaycandan qoparmaq siyasəti daha da fəallaşmış, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra bunu həyata keçirmək mümkün olmuşdu. Sovet Rusiyasının yaxından iştirakı ilə Zəngəzur qəzası torpaqlarının böyük bir hissəsi – 4,5 min kv. km ərazisi Ermənistana ilhaq edilmişdi. Bu tarixi səhvin nəticəsində Zəngəzur mahalı itirildi və hətta Azərbaycanın 1921-ci ildə tərtib olunan xəritələrində belə Ermənistanın ərazisi kimi verildi.

Ermənistan Xalq Komissarları Sovetinin 1921-ci il 20 iyul tarixli qərarı ilə Ermənistan SSR 9-cu qəza olan Zəngəzur qəzasını yaratdı Zəngəzur qəzasının tərkibində indiki Sisyan, Qafan, Gorus

rayonları və Meğri (Mehri) rayonunun bir hissəsi daxil edildi. Zəngəzur bir tarixi vilayət kimi ləğv edildi.

Zəngəzurun Ermənistana verilməsi prosesi sonrakı illərdə də davam etdirildi. 1927-ci ildə Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Azərbaycanın Mehri-Cəbrayıl qəzasının 27 kəndi, Zəngəzur-Kürdüstan qəzasının isə 10 min desyatindən çox yaylaq ərazisi Ermənistana peşkəş edildi. 1929-cu il fevralın 18-də isə Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Zəngilan rayonunun daha 3 kəndi – Nüvədi, Ernəzir və Tuğut kəndləri Ermənistana verilməklə Zəngəzurda daha bir erməni rayonu – Meğru rayonu təsis edildi [11, s.256].

Tarixi Azərbaycan torpaqları olan Zəngəzur qəzasının böyük bir hissəsinin Ermənistana ilhaq edilməsi ilə birgə Azərbaycana daha bir zərbə vurulmuş, Naxçıvan Azərbaycandan ayrı salınmışdı. Ermənilərin məqsədi Naxçıvanı ilhaq etmək idi. Naxçıvanın qəhrəman övladlarının sayəsində ermənilər buna nail ola bilmədilər. 1923-cü ildə Ermənistanın ilk baş naziri O.Kaçaznuni öz hesabatında bunu açıq etiraf etmişdir.

Sovet dövlətinin himayəsi ilə Ermənistana verilmiş Azərbaycan ərazilərindən biri də **Göyçə mahalı** idi.

"Göyçə" toponimi bir vaxt burada yaşamış gokcə/göyçə adlı türk tayfalarının adından yaranmışdır. "Kitabi-Dədə Qorqud"da bu ada "Göyçə dağı" və "Gökçə dənizi" formasında rast gəlirik. "Göyçə" adına ilk dəfə Zeynəddin bin Həmdullah Qəzvininin "Zeyle tarix-e qozide" ("Seçilmiş tarixə əlavə") əsərində rast gəlinir. "Göyçə" adının inzibati-ərazi vahidi kimi işlədilməsinə isə ilk dəfə Qaraqoyunlu hökmdarı Cahanşahın (1436-1467) fərmanında rast gəlinir. "Göyçə vilayəti" adı Cahanşahın, Uzun Həsənin, Şah I İsmayılın fərmanlarında işlədilmişdir.

Tədqiqatlar göstərir ki, I Şah Abbasın 1603-cü ildə İrəvan əyalətini (Çuxursəd bəylərbəyliyini) osmanlılardan geri aldığı hadisələr zamanı həyata keçirdiyi "yandırılmış torpaq" taktikası ilə əlaqədar olaraq burada yaşayan gökçələr Osmanlı imperatorluğuna köç etmiş, amma onların adı həmin ərazidə qalmaqda davam etmişdir [6, s.17].

"İrəvan əyalətinin icmal dəftəri (1728)"ndə İrəvan livasının 15 nahiyədən ibarət olduğu göstərilir ki, bunlardan biri də Göyçə nahiyəsidir. Həmin dövrdə bu nahiyyənin 46 kəndi olmuşdur.

Türkiyə ərazisinə köçürülən göyçəlilərlə bağlı orada onlarla kənd, qəsəbə, məhəllə adları vardır ki, bu adlar sonra da yaşadılmışdır.

Tarixin müxtəlif dövrlərində göyçəlilər öz tarixi torpaqlarını unutmamış, yaranmış vəziyyətlə əlaqədar yüzlərlə göyçəli ailəsi öz dədə-baba torpaqlarına qayıtmış, burada yaşamışlar.

1829-1932-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14354 nəfər əhali qeydə alınmışdı [1; c.1, s.400]. 1828-1829-cu il Rusiya-Türkiyə müharibəsindən sonra 1485 erməni ailəsi Göyçə mahalında yerləşdirildi. Köçürmədən əvvəl isə burada cəmi 15 erməni ailəsi yaşayırdı.

1849-cu il iyunun 9-da I Nikolayın fərmanı ilə 5 qəzadan ibarət İrəvan quberniyası yaradıldı. Bu qəzalardan biri də Göyçə gölü hövzəsindəki əraziləri əhatə edən Yeni Bəyazid qəzası idi. XIX əsrin 30-cu illərinə qədər əhalisinin 98 faizinin müsəlman türklərin təşkil etdiyi Göyçə mahalının etnik tərkibi yeni rus idarəçilərin iradəsi ilə, yəni xarici dövlətlərdən buraya köçürdükləri ermənilərlə onların xeyrinə dəyişdirildi [6, s.40].

Çarizmin həyata keçirdiyi erməni və rusların köçürülməsi siyasətinə baxmayaraq, yenə də qəza əhalisinin üçdə birinə qədərini müsəlmanlar, əsasən, azərbaycanlılar təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ərazi məsələsinə baxıldıqda, Yeni Bəyazid qəzasının 1-ci və 2-ci polis sahələri mübahisəsiz Azərbaycan ərazisi, 3-cü polis sahəsinin bir hissəsi isə mübahisəli ərazilər sırasına daxil edilmiş, Azərbaycan daxilində Göyçə dairəsi yaradılmışdı.

Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. 1919-cu ildə Zod, Daşkənd, Basarkeçər və başqa kəndlərdə azərbaycanlılara qarşı soyqırımları törədilmişdi.

Cənubi Qafqazda sovet hakimiyyəti qurulduqdan sonra respublikalararası sərhədlər sovet-bolşevik rejiminin himayəsi ilə Ermənistanın xeyrinə dəyişdirildi. Göyçə dairəsinin ərazisi, demək

olar ki, bütövlüklə Ermənistana verildi.

Bolşevik Rusiyası Göyçə dairəsini Azərbaycandan qoparıb Ermənistana verdi və keçmiş Göyçə mahalının yerində Hrazdan, Sevan, Klortuni, Kamo, Basarkeçər (Vardeniş) və Krasnoselo rayonları yaradıldı ki, onlardan yalnız sonuncu 2 rayonda azərbaycanlılar yenə də sayca əksəriyyət təşkil edirdilər [6, s.41].

Sovet hakimiyyəti illərində də Göyçədə həyata keçirilən erməni yönlü siyasət, etnik təmizləmə prosesi Ermənistan deyilən qədim Azərbaycan torpaqlarından azərbaycanlıların didərgin salınmasına səbəb oldu.

Beləliklə, bir daha aydın olur ki, Sovet dövləti fəaliyyəti dövründə anti Azərbaycan siyasəti yeritmiş, Azərbaycanın bir sıra tarixi torpaqlarını, o cümlədən Qərbi Zəngəzur və Göyçə gölü ərazilərini ermənilərə vermiş və həmin ərazilərdən azərbaycanlıları didərgin salmışdır. Bu ədalətsizlikləri Azərbaycan xalqı unutmur, öz tarixi torpaqlarına qayıtmaları üçün fəaliyyət göstərirlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. İki cilddə. I cild. Bakı: Lider, 2005, s.400-401; II cild, s.457-462.
2. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı: Elm, 2008, 696 s.
3. Bayramov İ. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: Şərq-Qərb, 2011, 288 s.
4. Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 452 s.
5. Əliyev V. Zəngəzurda qalan izimiz. Bakı: Nurlan, 2004, 295 s.
6. Göyçə mahalının kameral təsviri (Tərcümə, tərtib və ön sözün müəllifi Nazir Əhmədli). Bakı: Elm və təhsil, 2017, 292 s.
7. İsmayılov K. Zəngəzurda Azərbaycan xalqına qarşı soyqırımı (1918-1920). Bakı: Turxan NPB, 2014, 248 s.
8. Mahmudov C., Mahmudov M. Zəngəzur tarixində Şıxlar. Dünən və bu gün. I hissə. Bakı: Mürtəcim, 2018, 448 s.
9. Musa Urud. Zəngəzur. Elmi-publisistik nəşr. Bakı: Nurlar NPM, 2005, 504 s.
10. Musa Urud. Zəngəzur toponimləri. Bakı: Nurlar NPM, 2013, 400 s.
11. Musa Urud. Zəngəzur. Uzaq keçmişdən müasir dövrə qədər. Bakı: Nurlar NPM, 2016, 480 s.
12. Nəcəfli G. Zəngəzur qəzasında türk-müsəlman əhaliyə qarşı erməni soyqırımları yeni arxiv sənədlərində (1918-1920) // XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları. IV Beynəlxalq elmi konfransın materialları. 22-27 aprel 2017-ci il. Lənkəran. AMEA Tarix İnstitutunun elmi əsərləri, Bakı, 2017, №64, 65, 66, s.77-82.
13. Rəhimoğlu. Silinməz adlar-sağalmaz yaralar. Bakı, 1997, 260 s; Eloğlu S. Zəngəzur hadisələri. Bakı, 1992, 58 s.


## SUMMARY

**Ismayil Hajiyev**

### TRANSFER OF WESTERN ZANGAZUR AND THE LANDS AROUND THE GOYCHA LAKE TO ARMENIAN SSR IS AN INTEGRAL PART OF THE ANTI-AZERBAIJANI POLICY OF THE SOVIET STATE

In the article, after the wars of Russia with the Gajar Iran and the Ottoman state, the resettlement of Armenians to the Azerbaijani lands - Karabakh, Zangazur, Nakhchivan, Yerevan and others and after the placement of Armenians in the historical lands of Azerbaijan, the transfer of the Western Zangazur and the lands around the Lake Goycha to the Armenian SSR. At the beginning of the 20th century, after the establishment of states in the South Caucasus, as well as the Republic of

Ararat, Armenian Dashnaks began genocide in order to expand their territories, to expel the aboriginal population, Azerbaijanis from their lands, hundreds of villages and settlements were destroyed and Azerbaijanis were subjected to genocide. The policy of Tsarist Russia on Armenians was continued by Soviet Russia and then Soviet state. This policy was aimed at the benefit of the Armenians, against the Azerbaijanis. Relying on the Soviet state, the Republic of Armenia seized a number of Azerb aijani lands. The Western Zangazur and the lands around the Lake Goycha were transferred to the Armenian SSR as a result of the anti-Azerbaijani policy of the Soviet state. The territory of the Armenian SSR established on the lands of Azerbaijan is 9,000 square meters. km, as a result of the anti-Azerbaijani policy of the Soviet state, its area was 29.8 thousand square meters. km.

***Key words:*** *Azerbaijan, West Zangazur, the lands around the Lake Goycha, Soviet state, anti-Azerbaijani policy, Armenian Dashnaks, genocide, lost lands*

## РЕЗЮМЕ

**Исмаил Гаджиев**

## ПЕРЕДАЧА ТЕРРИТОРИИ ЗАПАДНОГО ЗАНГЕЗУРА И ОЗЕРА ГЕЙЧА В СОСТАВ АРМЯНСКОЙ ССР СОСТАВНАЯ ЧАСТЬ АНТИАЗЕРБАЙДЖАНСКОЙ ПОЛИТИКИ СОВЕТСКОГО ГОСУДАРСТВА

В статье рассматривается массовое переселение армян после войн России с гаджарским Ираном и Османским государством на исторические азербайджанские земли Карабах, Зангезур, Нахчыван, Иреван и др., и передача после этого территорий Западного Зангезура и озера Гейча Армянской ССР. В начале XX века после создания государств на Южном Кавказе, а также Араратской республики, начался геноцид с целью расширения территорий армянских дашнаков, выселения из этих территорий аборигенного населения, азербайджанцев, сотни сел и поселков были разрушены и сожжены, подверглись геноциду азербайджанцы. Политику царской России в отношении армян продолжила Советская Россия, а затем советское государство. Эта политика была направлена на пользу армян, против азербайджанцев. Опираясь на Советское государство, Республика Армения захватила ряд азербайджанских земель. Территории Западного Зангезура и озера Гейча были переданы Армянской ССР в результате антиазербайджанской политики Советского государства. В результате антиазербайджанской политики Советского государства Армянская ССР была создана на азербайджанских землях на территории 9 тыс. кв. км, и овладела территорией 29,8 тыс. кв. км.

***Ключевые слова:*** *Азербайджан, Западный Зангезур, территория озера Гейча, Советское государство, антиазербайджанская политика, армянские дашнаки, геноцид, потерянные земли*

***Məqalə daxil olmuşdur:*** *01 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 16-18
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 16-18
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 16-18

**ZƏHMƏT ŞAHVERDİYEV**
**ZAMİN ƏLİYEV**
*zaminalisoy@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.242)**

# NAXÇIVANIN MUXTARİYYƏT STATUSUNUN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

*XVIII-XIX əsrlərdə yeni himayədarlarının dəstəyi ilə ermənilər Azərbaycanın İrəvan, Qarabağ və Naxçıvana ərazi iddiaları irəli sürməyə başladılar ki, bu iddiaları başda Rusiya olmaqla xristian dünyası həvəslə müdafiyə etməyə başladı. Əslində xristianların bu bölgə ilə bağlı çoxəsrlik maraqları var idi. Əgər qədimlərə getsək, görərik ki, zamanında Roma imperiyası, Bizans İmperiyası, slavyanlar, daha sonra gürcü çarları, Birinci Dünya müharibəsində Antantaya üzv olan dövlətlər, II Dünya müharibəsi zamanı Hitlerin Bakı neftinə maraq duyması və s. Nümunələrin sayını daha da artıra bilərik. Təssüflər olsun ki, arxalarına həmişə güclü dövlətləri alan ermənilər tarixin müəyyən mərhələlərində Azərbaycandan torpaq qopara bilmiş və heç yoxdan var edilmişdilər.*

***Açar sözlər:*** *Muxtariyyət, müstəqillik, iddia, Moskva, Türkiyə, şərait, torpaq*

Sovetlər dönəmində bəzi Azərbaycan ərazilərini mübahisəli ərazilər adlandıran ermənipərəst qüvvələr gələcəkdə bu əraziləri müxtəlif yollarla ermənilərə vermək niyyətini güdürdülər. Lakin Naxçıvanla bağlı belə bir addımı atmaq mümkün olmadı və nəticədə “Naxçıvanın Azərbaycanın himayəsi altında muxtar ərazi” statusu RSFSR-in iştirakı ilə, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin 13 oktyabrında Qarsda bağlanmış 20 maddədən ibarət dostluq müqaviləsində təsbit edildi. Naxçıvan diyarının çox mürəkkəb və gərgin siyasi ziddiyyətlər şəraitində muxtar dövlət statusunun 1921-ci ildə beynəlxalq müqavilələrdə “əks olunması həmin dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir” [1].

Qars müqaviləsi müddətsiz imzalanmış və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz, lakin buna baxmayaraq, Azərbaycan ərazilərinə iddia edən ermənilər və onların havadarları Qars və Moskva müqavilələri ilə barışmaq istəmirlər, hər fürsətdə bu müqavilələri etibarsızlaşdırmaq və son məqamda isə müqavilənin ləğv edilməsinə çalışırdılar.

Qars danışıqları və müqaviləsi, onun ayrı-ayrı maddələri Ermənistan və diaspor erməniləri tərəfindən birmənalı qəbul olunmadı. Əgər “Sovet Ermənistanı” qəzeti “Qars sülh konfransı” adlı yazısında (27.IX.1921) bu danışıqları Ermənistanın müstəqilliyini möhkəmləndirə biləcək bir akt kimi qiymətləndirirdisə, əks mövqedə dayanan qüvvələr və onların mətbu orqanları məsələyə başqa səpkidən yanaşırdılar.

Təbrizdə çıxan “Hayk” qəzetinin “Pərdə götürülmüşdür” adlı baş məqaləsi (13.XI.1921) bu baxımdan olduqca maraqlıdır. Orada yazılırdı ki, şanlı Qızıl ordunun komandanları Sovet federasiyasının tərkibinə daxil olan Ermənistanın mübahisəsiz hissəsini təşkil edən 1914-cü il sərhədlərində belə dayana və hətta balaca Naxçıvanı kamalçıların caynaqlarından qopara bilmədilər.

Məqalədə Qars müqaviləsinin nəinki Ermənistana, habelə Rusiyanın özünə də heç nə vermədiyi və sanki türk qoşunlarının təntənə ilə Moskvaya daxil olaraq məğlub Rusiyaya öz iradələrini diqtə etdirmələri təsiri bağışladığı göstərilirdi. Bu yazı belə bir sonluqla bitirdi: erməni xalqının “xilaskar Rusiyaya” bəslədiyi ümidlər sadəcə yalandır və Rusiya digər imperialist dövlətlərindən özünün fərsizliyi və kütlüyü ilə fərqlənir; Ermənistan da onun qurbanıdır [2].

Naxçıvan Muxtar Respublikasının yaradılması tarixi zərurətdən doğmuş və ilk növbədə qədim Azərbaycan torpaqları olan Naxçıvan diyarı ərazilərinin başqa dövlətin əlinə keçməməsi üçün atılmış mühüm addımdır. Bu isə öz növbəsində Naxçıvan Muxtar Respublikasının timsalında Azərbaycanın cənub-qərb sərhədlərinin toxunulmazlığının da təmin edilməsi deməkdir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası 16 mart 1921-ci il tarixli Moskva müqaviləsi və 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsi kimi beynəlxalq müqavilələr əsasında yaradılması bu muxtar qurumun siyasi-hüquqi statusuna tam təminat verir. Bütün hərbi siyasi və coğrafi əhəmiyyəti ilə bir sırada Moskva və Qars müqavilələri Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasının toxunulmazlığına dair cavabdehliyini təmin edən saziş kimi də əhəmiyyətlidir. Həm də Qars müqaviləsinin "müddətsiz" imzalanması bu beynəlxalq sazişin regionda sülh və təhlükəsizlik üçün təminat verən sənəd kimi faydalı olduğunu bir daha təsdiq edir [3].

Naxçıvanın erməni ərazisi olmasını dünyaya təhrif olunmuş şəkildə çatdıran, ictimai rəyi çaşdıran ermənilər himayədarlarının, diaspor qüvvələrinin, lobbilərinin, güclü maliyyə imkanlarına malik erməni təşkilatlarının yardımı ilə saxta ərazi iddialarını dünyaya "sırımağa" çalışırlar. Bütün dünyada yaşadıqları ərazilərdə separatçılıq fəaliyyətinə üstünlük verən ermənilər Naxçıvanı Ermənistana birləşdirmək üçün bütün məkrli və iyrənc vasitələrdən istifadə edirlər. Saxta tarix yaradıcılığı ilə məşğul olan erməni "tədqiqatçıları", ideoloqları öz əsərlərində yalançı erməni mənbələrə əsaslanaraq yeni saxta mənbələr yaradaraq Naxçıvanı erməni ərazisi kimi təqdim edir, dünya informasiya vasitələrində saxta məlumatlar yayır, Qars müqaviləsinin ləğv edilməsinə çalışır, Naxçıvanın heç olmazsa, mübahisəli əraziyə çevirməyə cəhd edirlər.

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləri bütün Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanda ictimai-siyasi hadisələrin ən mürəkkəb dövrü kimi xarakterizə olunur. 1980-ci illərin axırlarında Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan ərazilərinə erməni iddiaları baş qaldırmış, mərkəzin ikiüzlü siyasəti bu hadisələri qızışdırmışdı. Həmin dövrdə sovet imperiyası rəhbərliyinin Azərbaycanın maraqlarına zidd siyasəti, ermənilərin Naxçıvana ərazi iddiaları və sərhədlərdə hərbi toqquşmalar yaratması muxtar respublikanın həyatına ciddi təsir göstərmişdir. Bu dövrlərdə bütün Azərbaycanda, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanda xalqın azadlıq uğrunda apardığı mübarizəni qələbə ilə başa çatdırmaq üçün siyasi təcrübəyə, diplomatik qabiliyyətə malik rəhbər lazım idi. Belə bir rəhbər Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyev oldu.

1990-cı ilin iyul ayında görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini erməni işğalından və muxtariyyət statusunu ləğv olunmaq təhlükəsindən xilas etdi. 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə Heydər Əliyev hər iki qanunverici orqanın deputatı, 1991-ci il sentyabrın 3-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Ulu öndərin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi bu diyarın taleyini həll etdi. Heydər Əliyevin siyasi fəaliyyəti və artan nüfuzu o dövrdəki iqtidarı ciddi narahat edirdi. Ona görə də naşı siyasətçilər görkəmli dövlət xadimi Heydər Əliyevi hakimiyyətdən kənarlaşdırmaq üçün Naxçıvanın muxtariyyətini ləğv etmək istəyirdilər [3].

Heydər Əliyev Moskva və Qars müqavilələrinin Azərbaycan xalqı üçün önəmini hər fürsətdə dilə gətirirdi. O qeyd edirdi ki: **"Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan vəzifə deyildi. Amma o vaxt milli mənafeyi qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm..."[5].**

Ulu öndərin Naxçıvanın bu günü və gələcəyi üçün gördüyü ən böyük işlərdən biri də qədim diyarın muxtariyyətinin qorunub saxlanılması ilə bağlı atdığı addımları oldu. Bu müqavilələrin önəmini olduqca yaxşı dərk edən ulu öndər Heydər Əliyev Naxçıvanı blokadadan qurtarmaq üçün 1992-ci ilin mart və avqust aylarında Türkiyə və İrana səfərlər etmiş, onlarla müqavilələr bağlamış, xüsusilə Türkiyə rəhbərləri ilə Qars müqaviləsini və onun şərtlərini müzakirə obyektinə çevirməklə beynəlxalq aləmin diqqətini ona cəlb etmişdi. 1995-ci il noyabrın 12-də referendumla qəbul edilmiş, müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası Naxçıvanın muxtariyyət statusunu hüquqi cəhətdən möhkəmləndirdi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, regionu çiçəklənən diyara çevirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvanın muxtariyyət statusunun ölkəmizin müstəqillik tarixində mühüm əhəmiyyətə malik olduğunu bildirərək demişdir: "Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil etmişdir. Bu status imkan verirdi ki, ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdəki siyasi fəaliyyəti dövründə Naxçıvan xalqının suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilsin" [2].

XVIII-XIX əsrlərdə Azərbaycana köçürülən ermənilər XX əsrin əvvəllərindən başlayaraq siyasi və ideoloji mübarizə adı altında terror siyasəti yürütmüş Azərbaycana açıq ərazi iddiaları irəli sürmüş lakin istəklərinə nail ola bilməmişdilər. SSRİ-nin dağılması ərəfəsində və dağılmasından sonra da bu siyasəti rəhbər tutan ermənilərin əsas hədəflərindən biri Naxçıvan idi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ermənilərin Naxçıvanla bağlı planları puça çıxdı. Xüsusən Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik strategiyasının layiqincə yerinə yetirilməsi, düşmənin Azərbaycanla bağlı siyasətində artıq terror dili ilə danışması mümkün deyil.

## ƏDƏBİYYAT


1. Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti H.Ə.Əliyevin Fərmanı. "Respublika" qəz., № 24, 5 fevral 1999-cu il
2. Hacıyev İ. Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. İki sahil, 2019, 24 yanvar, № 15, s. 11-12
3. Həbibbəyli İ. Naxçıvanın muxtariyyət statusu: dərsləri və nailiyyətləri. 525-ci qəzet, 2019, 27 fevral, № 39, s. 4
4. Həşimli H. Heydər Əliyev və Naxçıvan. Şərq qapısı, 201, sayı: 71 (23.233)
5. http://serqqapisi.az
6. https://az.wikipedia.org


## SUMMARY

**Zəhmət Şahverdiyev, Zamin Aliyev**

## THE ROLE OF HEYDAR ALIYEV IN THE PROTECTION OF NAKHCHIVAN'S AUTONOMY STATUS


Nakhchivan, as a part of Armenians' dreams of "Great Armenia" managed to avoid the danger of being a victim of enemy *allegation*s, thanks to Azerbaijan's far-sighted sons.

Especially after the collapse of the Soviet empire, they launched an aggression policy against Azerbaijan, because one of their main targets was Nakhchivan, the ancient Turkish land. Haydar Aliyev's decisive and determined steps prevented the Armenians from implementing this policy.


***Key words:*** *autonomy, independence, claim, Moscow, Turkey, condition, land*

## РЕЗЮМЕ

**Захмат Шахвердиев, Замин Алиев**

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В СОХРАНЕНИИ СТАТУСА АВТОНОМИИ НАХЧЫВАНА


Нахчыван, являющийся составной частью лозунга «Великая Армения» армян, благодаря героизму мужественных сынов Азербайджана частично освободился от опасности стать жертвой вражеских притязаний. Особенно в период, когда развалилась советская империя, армяне начали проводить открытую агрессивную политику, главной их целью была завладение древним тюркским краем – Нахчываном. Решительное и прозорливое действие Гейдара Алиева предотвратило эту политику армян.


***Ключевые слова:*** *автонимия, независимость, претензия, Москва, Турция, обстоятельство, земля.*

***Məqalə daxil olmuşdur:*** *01 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 19-24
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 19-24
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 19-24

**FƏXRƏDDİN CƏFƏROV**
*cəfərov@gmail.com*
**NADİR HÜSEYNBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.242)**

# NAXÇIVAN TƏRƏQQİ İLLƏRİNDƏ (1921-1940-cı illər)

*Məqalədə araşdırılmış arxiv sənədlərindən aydın olur ki, Naxçıvanda Sovet hakimiyyəti qurulduğu ilk günlərdə ölkənin vəziyyəti olduqca ağır idi. Zəngəzurdan, Dərələyəzdən, Vedibasardan, İrandan və sair yerlərdən Naxçıvana gəlmiş minlərlə qaçqın bu vəziyyəti daha da ağırlaşdırmışdır. Qaçqınları nəinki ərzaqla hətta yaşayış mənzilləri ilə təmin etmək lazım idi.*

*Belə çətin şəraitdə demokratik tədbirləri hıyata keçirmək olduqca çətin idi. Buna baxmayaraq sənaye müəssisələri, mədənlər, xan-bəy, mülkədar torpaqları milliləşdirilirdi. Aqrar qanuna görə torpaqların 87 faizi onu əkib-becərən kəndlilərin əlinə keçdi.*

***Açar sözlər:*** *Naxçıvan İnqilab Komitəsi, "Qırmızı Tabor", Zəngəzur, Vedibasar, Zəngibasar, Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi, Cəmşid Naxçıvanski, Əli Səbri Qasımov, Abbasqulubəy Şadlinski*

Bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da Sovet hakimiyyətinin birinci dövrü inqilab komitəsinin təşkil olunması ilə başladı. Naxçıvan İnqilab Komitəsi ilk günlərdən bir sıra təxirəsalınmaz vəzifələri həyata keçirməyə başlayır. Komitə 1920-ci ildə 31 avqust və 25 sentyabr tarixlərində Zəhmətkeşlərə natura ilə əmək haqqı vermək, o vaxt yeganə gəlir mənbəyi olan duz mədənində işləri qaydaya salmaq və duzu hesaba almaq, qaçqınları yerləşdirmək, xalq maarifini və səhiyyə işçilərini qaydaya salmaq, ərzaq sapalağını ləğv etmək, ərzaq məhsullarının respublikadan kənara daşınması üzərində nəzarət qoymaq, mal mübadiləsini təşkil etmək və sair kimi məsələlərlə bağlı qərarlar qəbul edir (1).

Naxçıvanda və Ermənistanda daşnaq hakimiyyətinin yıxılmasına baxmayaraq, onların qalıqları Dərə-ləyəz-Zəngəzur arasında toplanıb Naxçıvana qarşı müharibəni davam etdirirlər. Erevanda 13 fevral 1921-ci ildə başlanmış daşnaq üsyanı Dərələyəz daşnaqlarını yenidən hərəkətə gətirir. Onlar Arpa çayı boyunca Şərura hücum edib, Erevan-Naxçıvan arasını kəsib, Şərur-Qəmərli düzənliyində bolşeviklərin qüvvəsini məhv edib Erevan əksinqilabını gücləndirməyə çalışırlar. Daşnak lideri Kacazuninin yazdığı kimi "Üsyan bolşevikləri Ermənistanın mərkəzindən kənar qəzalara Şərur və Qazağa qovur. Dərhal "Ermənistanı xilas komitəsi yaradılaraq hakimiyyəti ələ alıb və mübarizəni davam etdirir. Bununla da vətəndaş müharibəsi ay yarım uzanır"(2).

Naxçıvanın "Qırmızı tabor"u Arazdəyən-Canaxcı, Arpa xəttində Araz boyunca Qəmərli xəttində şüçaətlə vuruşub düşməni əzirlər. Dərələyəz vuruşmalarında 1921-ci ilin mart-iyun aylarında fövqəladə igidlik göstərənlərdən "Qırmızı taborun" 19 nəfərinə "Qırmızı bayraq"ordeni verilir ki, onların 6 nəfəri naxçıvanlı idi. Qasım Hüseynov, Nəcəf Əliyev, Əkbər Sadiqov, Fətulla Hüseynov, İbrahim Fərzəliyev, Cəlal Məmmədov və "Qırmızı tabor"un komandiri Abbasqulubəy Şadliniskiyə "Qırmızı bayraq" ordeni və başqa təltiflər verilmişdir.

Daşnakların Erevan və Dərələyəz qiyamları yatırılandan sonra Zəngəzurun daşnaklarından təmizlən-məsi qarşıda durur, "Qırmızı tabor" Zəngəzura göndərilir. "Qırmızı tabor"un Zəngəzura hərəkəti ilə əksinqilabi qüvvələr əzilir, orada toplanan daşnak nazirləri, hərbi rəisləri Kacazunin, Andranik, Nijde, Dro və başqaları xaricə qaçır. Bununla da Naxçıvanda və Ermənistanda əksinqilabi qüvvələr birdəfəlik ləğv edilir. Azərbaycan xalqının dinc həyatı bərpa olunur. Dinc quruculuq dövrü başlayır.

1920-1921-ci illər demək olar ki, Naxçıvan mühacirlər ölkəsi sayılırdı. Sürməli, Vedibasar, Zəngibasar, Sərdarabad və s. rayonlardan gələn mühacirlər ilk dəfə Naxçıvanda yerləşdirilir. Həmçinin İrandan gələn azərbaycan mühacirlərini 1921-ci ilin aclıq və yoxsulluq illərində Dərələyəz kəndlərində yerləşdirmək mümkün deyildi. Buna görə Dərələyəz mühacirlərindən müəyyən miqdarda Naxçıvan ərazisində yerləşdirilməsi lazım gəlirdi.

Dərələyəz mühacirləri Şərur qəzasının Mahmudkənd, Ulya Noraşen, Qarxun, Siyaqut, Xanlıqlar, Keşdaz, Ələkli, Verməziyar və s. kəndlərində saxlanıldı, bütün imkan daxilində olan köməkliklər göstərildi.

Naxçıvanda Sovet hakimiyyətinin ilk illərində İnqilab komitəsinin qarşısında duran ən mühüm məsələlərdən biri də aqrar məsələ idi. Burada Azərbaycan hökümətinin torpaq haqqında 5 may 1920-ci il tarixli dekreti həyata keçirilməmişdir. Ona görə də 1921-ci ilin aprel ayında Naxçıvan ölkə partiya təşkilatının I qurultayı bəy-xan torpaqlarının müsadirə edilib kəndlilırin istifadəsinə verilməsi işini mütəşəkkil aparmaq üçün təcrübəli işçiləri və mütəxəssis torpaqşünasları ayırmaq, yoxsul kəndliləri planlı surətdə kənd təsərrüfatı alətləri ilə təchiz etmək, su təsərrüfatından istifadə işini qaydaya salmaq, toxuma ehtiyacı olan yoxsulları toxumla təmin etmək, kəndlilərə aqrotexniki kömək göstərmək, ortabab kəndlilərin siyasi fəallığını artırmaq yolu ilə onları öz tərəflərinə çəkmək və sosializm quruculuğu işinə cəlb etmək haqqında qərar qəbul etdi. Qurultay ölkə İnqilab Komitəsini ləğv edib Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsini yaratdı.

Arxiv sənədlərini incələyərkən məlum olur ki, 1920-ci il iyul ayının 28-də Naxçıvanda Sovet hakimiyyəti elan edildikdən sonra Naxçıvanın siyasi və coğrafi mövqeyi, yəni onun Türkiyə və İran kimi xarici dövlətlərlə həmsərhəd olmasını nəzərə alan RSFSR və Azərbaycan höküməti Naxçıvan ölkəsinə muxtariyyat verilməsi məsələsini irəli sürdülər. Bununla da Naxçıvan muxtariyyətinin həyata keçirilməsi yolunda ilk addım atıldı və Naxçıvan Azərbaycan SSR-nin himayəsi altında Sovet Respublikası elan edildi. Bu vəziyyət 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə dövləti arasında bağlanan Moskva müqaviləsində də təsbit olundu.

Həmin ilin oktyabr ayında RSFSR nümayəndələrinin Zaqafqaziya Sovet respublikalarının və Türkiyənin iştirakı ilə keçirilən Qars Konfransı Naxçıvanın Azərbaycan SSR-nin Muxtar hissəsi kimi tanınması təstiq edildi. 13 oktyabr 1921-ci ildə Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndələrinin iştirakı ilə imzalanan Qars müqaviləsi Naxçıvanın ərazisini və sərhədlərini təstiqlədi. 1922-ci il mayın 22-də AK(b)P MK İcraiyyə Komitəsi tərəfindən təqdim olunmuş Naxçıvan ölkəsi haqqında əsasnaməyə və Naxçıvan SSR Konstitusiya layihəsinə baxdı. Əsasnamədə Naxçıvan ölkəsi haqqında deyilir: "Naxçıvan ölkəsi Azərbaycan SSR-nin protektoratlığı altında respublika elan edilir, Naxçıvan Sovet Sosialist Respublikası adlandırılır".AK(b)P MK-nin təşəbbüsü ilə Naxçıvanın muxtariyyəti haqqında məsələ 1922-ci ilin noyabrında RK(b)P MK Siyasi Bürosunun iclasında müzakirə olundu. 1922-ci ilin dekabırın 12-də I Zaqafqaziya Federativ Sovet Sosialist Respublikaları qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsi olduğu təsdiq edildi.

1923-cü il dekabrın 31-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan ölkəsini Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevirməyi qərara aldı və bu qərarı təsdiq etməyi Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsindən xahiş etdi. 1924-cü il yanvarın 8-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin birinci plenumu Naxçıvan Muxtar ölkəsini Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevirmək haqqında Q.Musabəyovun məruzəsini və Azərbaycan SSR-nin MİK-nin qərarını müzakirə edərək Naxçıvanı Azərbaycan SSR-nin ayrılmaz bir hissəsi saymaqla Naxçıvan Muxtar Sovet Sosialist Respublikası kimi təstiq edildi.

Zaqafqaziya və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitələrinin qərarlarına əsasən 1924-cü ilin yanvar ayının 18-də çağrılan Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin plenumu "Naxçıvan ölkəsi" adını Naxçıvan MSSR-i ilə əvəz etmək haqqında qərar qəbul etdi (3). Plenumun qərarına görə Naxçıvan MSSR-in inzibati ərazisi 3 qəzaya–Naxçıvan, Ordubad və Şərur qəzalarına bölündü. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsindən xahiş edildi ki, Naxçıvan ölkəsinin Naxçıvan MSSR-nə çevrilməsini təsdiq etsin və dekret verilsin (4).

Beləliklə, 1924-cü il fevralın 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan diyarını Naxçıvan MSSR-ə çevirmək haqqında dekret verdi. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin dekretində deyilirdi: "Naxçıvan ölkəsi "Muxtar Sovet Sosialist Respublikası"na çevrilsin, Naxçıvan MSSR dövlət hakimiyyəti aparatı Azərbaycan SSR, ZSFSR və SSRİ Konstitusiyalarına əsasən yerli sovetlərdən, Xalq Komissarları Sovetindən və Mərkəzi İcraiyyə Komitəsindən təşkil edilsin, Naxçıvan MSSR-nin Əsasnaməsinin hazırlanması üçün komissiya təşkil edilsin".

Arxiv sənədlərindən məlum olur ki, Naxçıvan ölkəsinin Naxçıvan MSSR-yə çevrilməsini Zaqafqaziya xalqları böyük rəğbətlə qarşıladılar. Naxçıvan MSSR-nin şəhər və kəndlərində bununla əlaqədar bayram şənlikləri keçirilirdi. 1924-cü ilin aprelində Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan MSSR haqqında yeni əsasnaməni təsdiq etdi. SSRİ-nin ilk konstitutiyasının pirinsipləri əsasında tərtib edilmiş Əsasnamənin birinci maddəsində deyilirdi: "Naxçıvan Sovet Sosialist Respublikası Naxçıvan ərazisinin bütün zəhmətkeşlərinin azad sosialist cəmiyyətidir. Naxçıvan MSSR-nin hüdudları daxilində bütün hakimiyyət ölkənin sovetlərdə birləşmiş zəhmətkeşlərinə məxsusdur". Əsasnamənin ikinci maddəsində göstərilirdi ki, Naxçıvan MSSR Azərbaycan SSR-nin tərkib hissəsidir və muxtar respublika kimi Azərbaycan SSR-ə daxildir. Naxçıvan MSSR-nin dövlət bayrağı və dövlət gerbi də Əsasnamədə təsdiq edilmişdir.

Arxiv sənədlərindən məlum olur ki, 1925-ci il Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin və Mərkəzi İcraiyyə Komitəsinin fevralın 15-də keçirilən iclasında Naxçıvan MSSR inzibati-ərazi cəhətdən 3 qəzaya bölünür. Bu qəzalarda ayrı-ayrı dairələrə bölünürlər. Naxçıvan qəzası; -Tumbul, Əbrəqunus, Cəhri, Şahbuz, və Culfa, Şərur qəzası;- Yengicə, Baş Noraşen, Qıvrax və Sədərək, Ordubad qəzasına isə Aza, Əylis, Parağa dairələrinə bölünür. Xüsusi rayonlaşdırma komissiyasının qərarına əsasən 1925-ci ilin sentyabr ayının 26-da Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi, Naxçıvan MSSR ərazisində olan Naxçıvan, Şərur, Ordubad qəzalarını ləğv etmək haqqında qərar qəbul etdi. Bu qəzalar dairələrə bölündü ki, yaradılmış dairələrdə bilavasitə Naxçıvan MSSR MİK-ə və XKS-ə tabe oldu (5).

Hələ sentyabrın 12-də Naxçıvan MSSR-də olan qəza, dairə və Kənd Sovetlərinin ştatlarına baxan komissiyanın qərarı ilə Sədərək, Yengicə və Baş Noraşen dairələri birləşdirilərək Mərkəzi Baş Noraşen olur. Əylis dairəsi Ordubada köçürülərək Ordubad dairəsi adlanır. Cəhri dairəsi Tumbul dairəsi ilə birləşdirilərək mərkəzini Naxçıvan şəhərinə köçürməklə "Tumbul dairəsi" adlandırılır. Qalan bütün dairələr öz əvvəlki ərazisində və mərkəzlərində saxlanırlar.

1926-cı il aprelin 18-də V Ümumi Naxçıvan Sovetlər qurultayında Naxçıvan MSSR-nin birinci Konstitusiyası müzakirə olundu və yekdilliklə qəbul edildi. Naxçıvan MSSR Konstitusiyasının qəbul edilməsinin böyük tarixi əhəmiyyəti var idi. Konstitusiya Naxçıvan zəhmətkeşlərinin bu illərində qazandıqları tarixi nailiyyətləri qanunvericilik yolu ilə təsbit edir, Naxçıvan MSSR zəhmətkeşlərinin yaradıcı qüvvələrinin daha da tərəqqi etməsi üçün yeni perspektivlər açırdı. Naxçıvan MSSR-nin Konstitusiyası zəhmətkeşlərin öz qüvvəsinə inamını artırdı, onları ölkəmizdə quruculuq uğrunda mübarizəyə səfərbər etdi.

Azərbaycan hökumətinin köməyi ilə Naxçıvanda kənd təsərrüfatının bərpa və inkişafı, eləcə də kooperativləşdirilməsi sahəsində əhəmiyyətli işlər görülür. 1924-1929-cu illər ərzində ölkənin kənd təsərrüfatı yüksəlir və kollektiv təsərrüfat yaradılması səviyyəsinədək qaldırılır.

Naxçıvan ölkə partiya komitəsi və Xalq Komissarları Soveti xalq təsərrüfatının bərpası, zəhmətkeşlərin maddi rifah halının və mədəni səviyyəsinin yüksəldilməsinə, savadsızlığın ləğv edilməsinə, fəhlə və kəndlilərə pulsuz səhiyyə yardımının təşkil edilməsinə də yaxından diqqət yetirirdi.

Qeyd edək ki, 1920-ci ilə qədər Naxçıvan diyarı Çar Rusiyasının bir müstəmləkəsi olaraq, istər iqtisadi və istərsə mədəni cəhətdən olduqca geri qalmışdır. 1917-ci ilə olan məlumata görə 126293 nəfər əhalidən cəmi 4 faizi savadlı idi.

Naxçıvan SSR-də (09 fevral 1924-cü ilə kimi Naxçıvan SSR-i adlanırdı-F.C) ilk məktəblər təşkil edildi. Demək olar ki, xalq maarif sahəsində də böyük inqilab oldu. 1921-1922-ci dərs ilində 2440 nəfər şagirdi əhatə edən 58 məktəb təşkil edildi ki, bu da Naxçıvan ölkəsində çar hakimiyyətinin dövründə açılan məktəblərin sayından artıq idi. Bu vaxta kimi maarif və mədəniyyətdən məhrum olan

zəhmətkeş balaları kütləvi surətdə məktəblərə oxumağa gəldilər. 1921-1922-ci dərs ilində təhsil alan uşaqların 419 nəfəri qızlar idi (6).

İlk illərdə bütün sahələrdə yeni kadrlara artıq ehtiyac olduğu kimi, xalq maarifi sahəsində də böyük ehtiyac var idi. Ölkə məktəblərinin işindəki ən çətin və həlledici məsələ onların peqaqoji kadrlarla təmin edilməsi məsələsi idi. Məktəblilərin miqdarına görə müəllimlərin sayı çox az idi. 58 məktəbdə 1921-1922-ci dərs ilində cəmi 86 müəllim dərs deyirdi. Hər məktəbə bir-iki müəllim düşürdü ki, bu da kifayət qədər deyildi. Məktəblər üçün peqaqoji kadrlar hazırlamaq məqsədi ilə Naxçıvanda qısa müddətli kurslar açıldı.

1922-ci ilin avqust ayının 28-də çağırılan Naxçıvan müəllimlərinin birinci ölkə qurultayı müəllimlərin qarşısında duran çox mühüm və böyük vəzifələləri müəyyənləşdirdi. Qurultayın qərarına əsasən 1922-ci ilin noyabrın 1-dən etibarən Naxçıvan şəhərində müəllimlər seminariyası fəaliyyətə başladı. Bu seminariya 1923-1924-cü dərs ilində Naxçıvan pedaqoji texnikomuna çevrildi. Pedaqoji Texnikomunun yaradılması Naxçıvanın ictimai həyatında çox mühüm rol oynadı. Məktəblərin kadrla təmin edilməsi xeyli dərəcədə yaxşılaşdı (7).

1924-1925-ci dərs ilində Naxçıvan Pedaqoji Texnikomunun nəzdində qızlar üçün şöbənin təşkili Naxçıvan Respublikası üçün çox böyük mədəniyyət olur ki, ilk dəfə olaraq azərbaycanlı qızlar orta pedaqoji təhsil almağa başlayırdılar. Ulu öndərimiz Heydər Əliyev də məhz 1936-1939-cu illərdə bu texnikomda təhsil almışdır.

Dövlətimiz məktəbə və müəllimə olan qayğını günbəgün artırdı. Məktəblərin şəbəkəsi durmadan genişləndirilirdi. Artıq 1925-1926-cı dərs ilində Naxçıvan MSSR-də məktəblərin sayı 80-ə çatdırılmışdı. Bu məktəblərə 7540 zəhmətkeş uşağı cəlb olunmuşdur ki, bunların da 1314 nəfəri qızlardan ibarət idi (8).

Respublikanın xalq maarif sistemində çox mühüm yer tutan savadsızlığın ləğvi məsələsi idi. Belə ki, inqilabdan əvvəl Naxçıvan qəzasında əhalinin 96, Şərur qəzasında isə 98 faizi savadsız idi. Ona görə də hələ 1921-1922-ci dərs ilində məktəblərin yanında 16 savadsızlığı ləğv etmə kursu təşkil edilir ki,bunlara da 268 adam cəlb edilmişdir (7). Artıq 1925-1926-cı dərs ilində təşkil edilmiş bu cür 112 kursda 2811nəfər, 1928-1929-cu dərs ilində 125 savadsızlığı və az savadsızlığı ləğv etmə kurslarına 6025 nəfər adam cəlb edilmişdir (8).

Zəhmətkeşlərin mədəni səviyyəsinin yüksəldilməsində mühüm tədbirlərdən biri də mədəniyyət müəssisələrinin təşkili və genişləndirilməsi idi. İnqilabdan əvvəl sərxoş xanaların və çar çinovniklərinin əyləncəsi üçün ancaq Naxçıvan şəhırində bir kulub var idi. Sovet hakimiyyəti illərində, 1921-ci ildə Naxçıvanda 3 kulub, 4 qiraətxana və bir kitabxana təşkil edilir. Mədəni müəssisələrdə aparılan iş qısa bir müddətdə zəhmətkeşlərin hüsn-rəğbətini qazanır. Zəhmətkeşlərin artan tələbatını ödəmək məqsədi ilə mədəniyyət müəssisələrinin sayı artırılır. 1929-cu ildə 8 klub, 6 qiraətxana, 2 teatr açılır. O zaman radio qovuşağının açılması da böyük nəaliyyət idi.

Naxçıvan zəhmətkeşlərinin mədəni həyatında səhiyyə-sağlamlıq işləri çox mühüm cəhətlərdən biri idi. Sovet hakimiyyəti dövründə Naxçıvanda səhiyyə işlərində əsaslı dəyişikliklər baş verdi. Təkcə 1925-ci ildə Respublikanın şəhər və rayon, nahiyyə mərkəzlərində 45 çarpayılıq 2 xəstəxana, 3 ambulatoriya, 4 həkim məntəqəsi, 5 feldşer məntəqəsi, 1 təcili yardım stansiyası, 1 uşaq ambulatoriyası, 6 mövsümü uşaq yaslısı, 4 aptek və s.açılır. Bu müəssisələrdə 107 nəfər tibb işçisi çalışırdı (9).

Birinci beşilliyin ilk günlərindən başlayaraq Naxçıvanda şərab, saxsı qablar, pambıq təmizləmə zavodları fəaliyyətə başlamışdır. 1929-cu ildə duz mədəni ilə Başbaşı stansiyasını birləşdirən 11 kilometrlik kanat yolu istifadəyə verilmişdi.

Kənd təsərrüfatının kollektivləşmə başlamasının birinci on ilində ellikcə kollektivləşmə başa çatır, kənd təsərrüfatının kollektivləşməsi süətlə inkişaf etməyə başlayır. Bunları rəqəmlərlə müqayisəli ifadə etsək, görürük ki, 1930-cu ildə 73 kolxozda 5454 təsərrüfatın yalnız 7214 hektar əkin sahəsi var idisə, 1939-cu ildə 211 kolxozda 2370 təsərrüfatın 45 min hektardan artıq əkin sahəsi olmuş və kənd təsərrüfatının kollektivləşmə faizi 11-dən 98,3 faizə çatmışdır (10).

1931-1940-cı illərində qəbul edilmiş bir çox müvafiq qərarlar və əməli köməkliklər nəticəsində kolxoz təsərrüfatları, sənaye, mədəni-maarif, səhiyyə, tikinti və abadlıq işləri günü-gündən artmış, zəhmətkeşlərin maddi rifah halı yaxşılaşmışdır.

Sənədlərdə Naxçıvan MSSR üzrə 1931-ci ilin dekabr ayında 8443 təsərrüfatda 177 kalxoz olduğu halda, 1932-ci ildə 10633 təsərrüfatda 139 kalxoz təşkil edilir. 1935-ci ilin fevral ayında kolxozçuların II Ümumittifaq qurultayının qəbul etdiyi kənd təsərüfatı artelinin yeni, nümunəvi nizamnaməsi kolxoz quruluşunun daha da möhkəmlənməsinə səbəb oldu. Nizamnamə kolxozçunun şəxsi mənafeyi ilə bütün artelin ictimai mənafelərini düzgün əlaqələndirdi.

Hökumətin qayğısı, gündəlik əməli rəhbərliyi nəticəsində respublikada mal-qaranın sayı ildən-ilə çoxalmışdır. Təkcə bu faktı göstərmək kifayətdir ki, 1924-cü ildə ümumi mal-qaranın sayı 106641 baş olduğu halda, 1940-cı ildə 227347 başa çatdırılmışdır. Beləliklə, 1940-cı ildə 441 kalxoz fermasında 67341 baş cins və metisləşdirilmiş heyvan olmuşdur. 1924-1925-ci illərdə ümumi əkin sahəsi 35383 hektar olduğu halda, 1940-cı ildə 52945 hektara çatdırılmışdır.

Bu illərdə kənd təsərrüfatından alınan məhsulun miqdarı xeyli artmışdır. 1933-cü ildə 5843,4 ton pambıq yığıldığı dənli bitkilərin ümumi məhsulu 19129 ton olduğu halda, 1940-cı ildə pambıq yığımı 11693,5 tona, dənli məhsul isə 23124 tona çatdırılmışdır.

Naxçıvanda hakimiyyətin ilk illərində olduğu kimi 1931-1940-cı illərdə də muxtar respublika zəhmət-keşlərinə mədəni, maarif, məişət və səhiyyə xidmətləri gündən-günə artmışdır. Belə ki, 1934-1935-ci dərs illərində 981 sinifdən ibarət 165 ibtidai, natamam, orta və orta məktəb olmaqla 23180 şagird təhsil aldığı halda, 1939-1940-cı tədris illərində 202 ibtidai, natamam orta və orta məktəb olmaqla 29693 min şagird təhsil almışdır, ki bunlardan da 13486 nəfəri qızlar idi (11).

Xalq maarifi sahəsində olduğu kimi mədəni maarif ocaqlarının sayı da ildən-ilə artmışdır. 1940-cı ildə 43 klub, 145 kitabxana, 47 qiraətxanası, pionerlər evi, 13 səsli kino-teatr olmuşdur. Bu illərdə muxtar respublikada 4740 nəfərlik uşaq bağçası, 52 ayrı-ayrı siyasi maarif müəssisələri, 2 uşaq evi, 1 dövlət teatrı, rayonlardakı filialları ilə birlikdə 147200 nüsxə buraxılmaqla 1 respublika və 4 rayon qəzeti fəaliyyət göstərmişdir. Vilayət partiya komitəsinin, ali sovet və xalq komissarları sovetinin orqanı olan "Şərq Qapısı" qəzeti 1921-ci ildən fəaliyyət göstərirdi. Bu qəzet Sovet hakimiyyətinin ilk illəri və kollektivləşmə dövründəki fəaliyyətinə görə1931-ci ildə Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin fəxri fərmanı ilə təltif edilmiş, əməkdaşları isə pul və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar (11).

Xalq təsərrüfatının başqa sahələrində olduğu kimi əhaliyə səhiyyə, sağlamlıq xidməti də ildən-ilə yaxşılaşmışdır. Naxçıvan MSSR Səhiyyə Komissarlığı, onun rayon səhiyyə şöbələrinin köməyi nəticəsində 1937-ci ildə 4 xəstəxana, 12 yaşlı, iki doğum evi, 4 dispanser, 16 həkim məsləhətxanası və 30 feldşer məntəqələri açılmışdır. 1940-cı ildə muxtar respublikada 65 nəfər ali təhsilli həkim, 74 nəfər orta tibb işçisi zəhmətkeşlərin sağlamlığı keşiyində dayanmışdır.

Səhiyyə işlərinin düzgün təşkili nəticəsində Naxçıvan MSSR-də bu illərdə uşaq artımı xeyli çoxal-mışdır. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1936-cı ildən 1940-cı ilədək çoxuşaqlı analara dövlət tərəfindən 3 milyon 659 min manat birdəfəlik yardım edilmişdir.

Araşdırılan arxiv sənədlərindən məlum olur ki, Naxçıvanın bu tərəqqi illərində Azərbaycanda olduğu kimi Naxçıvan Muxtar Respublikası da az qurbanlar vermədi. Yüzlərlə naxçıvanlı Stalin repressiyasının qurbanı oldu. 30-cu illərin əvvəllərində keçmiş bəy və xan olanlara və bir çox varlılara "kulak" damğası vurularaq 300-ə qədər naxçıvanlı öz yurdlarından sürgün edildi. Bunlarla yanaşı, neçə-neçə ziyalıları, 50-dən çox yüksək rütbəli, milli qeyrətli naxçıvanlı oğullarımızı 37-də güllələdilər.

1937-ci ilin repressiya qurbanları içərisində: Cəmşid Naxçıvanski, Heydər Novruzov, Qurban Həsənov, Heydər Vəzirov, Abbasqulu Əliyarov, Həsən Səfərov, Hüseyn Cavid, Əli Səbri Qasımov, Muqbil Məmmədov, Əli Fətullayev, Sərdar Cəfərov, Həsən Rəhimov və başqalarının da adları vardır.

Kim idi günahkar? İstintaq materiallarını vərəqlərkən hər şey aydın olur. Vətən oğullarına "panislamcı", "pantürkcü", "əksinqilabçı" və s. damğalarla rus, erməni və üzdəniraq "qeyrətli azərbaycanlı istintaqçıları" azərbaycanlıları güllələdib və sürgün etdirmişlər.

Bu acılı-ağrılı illərin qurbanlarına baxmayaraq, yuxarıda qeyd etdiyimiz kimi Naxçıvan Muxtar Respublikası durmadan tərəqqi edirdi. Naxçıvanın bu tərəqqisini sonrakı illərdə, yəni Böyük Vətən Müharibəsi və müharibədən sonrakı illərdə arxiv sənədləri əsasında tam açıqlığı ilə öyrənəcəyik.

## ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, fond f.63, siy. 1, iş 1
2. NMRDA. f. 314 siy. 5ª.iş. 74
3. NMRDA. f 40 siy. 2. iş. 5
4. Hacıyev İ. Naxçıvan Azərbaycanın Dövlətçilik Tarixindən. Elm nəşriyyatı, Bakı, 2018. s.184
5. NMRDA f. 40 siy.1 iş 180, 307
6. NMRDA f. 1. siy. 1 iş.47
7. NMRDA f1. siy. 1. İş 6.
8. Cəfərov F. Naxçıvan MR-də mədəni quruculuq (1920 iyun -1941-ci illər) Bakı, ADPU nəşri, 2018, s. 64
9. NMRDA f.1 siy. 1. iş 64
10. NMRDA f 1. siy. 1 iş 61
11. NMRDA f.221, siy. 1 iş 32b, 329

## SUMMARY

**Fakhraddin Jafarov, Nadir Huseynbeyli**

**NAKHCHIVAN IN THE YEARS OF PROGRESS (1921-1940)**

It is clear from the archival documents studied in the article that the situation in Nakhchivan was very difficult in the first days of Soviet power.

Thousands of refugees from Zangazur, Daralayaz, Vedibasar, Iran and other places aggravated the situation in Nakhchivan. Refugees had to be provided not only with food but also with housing. It was very difficult to implement democratic measures in such difficult condition. Nevertheless, industrial enterprises, mines, khan-bey, lands owned by khan-bey were nationalized. According to the agrarian law, 87 percent of the land became the property of the peasants who cultivated it

***Key words:*** *Nakhchivan Revolutionary Committee, "Red Tabor", Zangezur, Vedibasar, Zangibasar, Nakhchivan Central Executive Committee, Jamshid Nakhchivanski, Ali Sabri Gasimov, Abbasgulubey Shadlinsky*

## РЕЗЮМЕ

**Фахраддин Сафаров, Надир Гусейнбейли**

**НАХЧИВАН В ГОДЫ ПРОГРЕССА (1921-1940)**

Из архивных документов, рассмотренных в статье, становится очевидным, что в первые дни советской власти ситуация в Нахчыване была очень сложной. Тысячи беженцев из Зангезура, Даралаяза, Ведибасара, Ирана и других мест прибыли в Нахчыван, что усугубило без того сложную ситуацию. Беженцев следовало обеспечить не только едой, но и жильем.

В таких сложных условиях было очень трудно осуществить демократические меры. Тем не менее были национализированы промышленные предприятия, шахты, земельные участки хан-беков и помещиков. Согласно аграрному закону, 87 процентов земли перешло в руки крестьян, которые ее обрабатывали.

***Ключевые слова:*** *Нахчыванский Революционный Комитет, «Красный Табор», Зангезур, Ведибасар, Зангибасар, Нахчыванский Центральный Исполнительный Комитет, Джамшид Нахчыванский, Али Сабри Гасымов, Аббасгулубей Шадлинский.*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *01 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 25-29
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 25-29
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 25-29

**ABDULLA MUSTAFAYEV**
**İLQAR KƏNGƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.242)**

# HEYDƏR ƏLİYEV VƏ NAXÇIVANDA DEMOKRATİK DÖVLƏT QURUCULUĞU

*Ulu öndər Heydər Əliyev böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan əvəzolunmaz liderdir. O, bütün həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. XX əsrin 80-ci illərinin II yarısında keçmiş SSRİ-də cərəyan edən proseslər Naxçıvan MR-in ictimai, iqtisadi və siyasi həyatına öz ağır təsirini göstərdi.*

***Açar sözlər:*** *müstəqillik, Heydər Əliyev, ictimai-siyasi həyat, sərhəd hərəkatı, seçkilər, sosial-iqtisadi inkişaf*

Mərkəzi hakimiyyətin diqtəsi ilə Azərbaycana qarşı təcavüzkarlıq hərəkətlərinə başlayan ermənilərin bir məqsədi də Naxçıvanı ələ keçirmək idi.

Azərbaycanda ictimai-siyasi vəziyyətin gərginləşdiyi bir şəraitdə ictimaiyyətin müəyyən hissəsi çıxış yolunu uzun müddət Azərbaycan KP MK-nın I katibi və SSRİ Nazirlər Soveti sədrinin I müavini işləmiş, o dövrdə isə Moskva tərəfindən siyasi səhnədən uzaqlaşdırılmış Heydər Əliyevin respublikada hakimiyyətə gətirilməsində görürdü. Qorbaçovun hakimiyyətə gəlməsi ilə Moskvada başlanmış demokratikləşmə siyasətinə baxmayaraq, Azərbaycanda ictimaiyyətin bu fikirdə olan qüvvələrinin mövqeyi "Əliyevçilik" kimi qiymətləndirilirdi. Həmin dövrdə həm respublikadakı ictimai-siyasi vəziyyəti, həm də rəhbərlik üçün vacib olan keyfiyyətləri nəzərə alaraq, Heydər Əliyevin şəxsiyyətinə qayıtmaq ən münasib variant olardı. Təbii ki, həmin dövrdə respublikalara rəhbərliyi Moskva təyin edirdi və bu baxımdan Heydər Əliyevin hakimiyyətə gətirilməsi Moskva vasitəsilə mümkün deyildi. Çünki məhz Qorbaçov Heydər Əliyevin siyasi səhnədən uzaqlaşdırılmasının təşkilatçısı olmuşdur. Bütün bunlara baxmayaraq, iqtidar Heydər Əliyevi respublikaya dəvət edərək onun təcrübəsindən istifadə edə bilərdi. Lakin o dövrdə nə iqtidar, nə də müxalifət buna cəhd belə göstərmədilər. Gündən-günə artan erməni təcavüzünün qarşısını almaq üçün tədbirlər görmək əvəzinə, iqtidar ölkədə Heydər Əliyev əleyhinə təbliğat aparmaqla məşğul idi.

1990-cı il yanvar faciəsindən sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyindəki bütün dünyada böyük rezonans doğuran çıxışı ilə Heydər Əliyev böyük siyasətə qayıtmaq niyyətinin olduğunu açıq-aşkar bəyan etdi. Vətəninin və xalqının son dərəcə ağır vəziyyətdə olduğu şəraitdə Moskvanın mərkəzində SSRİ rəhbərliyinin Azərbaycana qarşı apardığı ədalətsiz siyasəti böyük cəsarətlə ifşa edən Heydər Əliyev düşmənlərini böyük qorxuya salmışdı. Doğma vətəninin və xalqının ona ehtiyacı olduğunu nəzərə alan Heydər Əliyev nəyin bahasına olursa-olsun Azərbaycana qayıtmaq qərarına gəlmişdir. Heydər Əliyevin naxçıvanlılar tərəfindən Azərbaycan KP-nin 32-ci qurultayına nümayəndə seçilməsi onun vətənə dönməsini daha da qətiləşdirmişdi. Çünki bütün həyatını xalqına xidmətə həsr edən Heydər Əliyev faciələrlə üz-üzə olan həmvətənlərinin harayına laqeyd qala bilməzdi. Baxmayaraq ki, Azərbaycan KP-nin I katibi A.Mütəllibovun da Heydər Əliyevin qurultaya nümayəndə seçilməsinin qarşısını almaq məqsədilə iştirak etdiyi Naxçıvan şəhər Partiya Komitəsinin konfransı bütün cəhdlərə baxmayaraq, Heydər Əliyevi qurultaya nümayəndə seçmişdi.

Heydər Əliyevin Azərbayacana dönmək istəyi barədə məlumat Qorbaçova, o cümlədən A.Mütəllibova çatdırıldıqda onlar bütün vasitələrlə bu səfərin qarşısını almaq üçün yollar axtarmağa başladılar. Lakin heç bir hədə-qorxu, təhdidlər, teror aktları və s. böyük siyasətçini Vətənə qayıtmaq fikrindən daşındıra bilmədi. Ən yüksək dairələrdən edilən xəbərdarlıqlara baxmayaraq, Heydər Əliyev iyulun 20-də təyyarə ilə Bakıya gəldi. Lakin Bakıda onun yaşamasına imkan verilmədi. Həmin gün axşamçağı Naxçıvan şəhərindəki Azadlıq meydanında (o vaxtkı Lelin meydanı) 80 minə yaxın əhalinin Heydər Əliyevlə görüşü oldu. Onun 1990-cı il iyulun 22-də möhtəşəm qayıdışını doğulub boya-başa çatdığı Naxçıvan torpağı, əhali hədsiz sevgi, məhəbbət və inamla qarşıladı. Naxçıvanlıların öz oğluna olan hədsiz sevgisi ulu öndərin çəkdiyi əzab-əziyyətləri bir anda unutdurdu və böyük siyasətçi vətəni naminə yeni mübarizələrə, ömrünün qalan hissəsini xalqına xidmət etməyə başladı. Ulu öndər həmin günləri belə xatırlayırdı: "1990-ci ilin yayı idi. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da vəziyyət çox ağır idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda, özümü çox rahat hiss etdim. Məni Moskvada təqib edirdilər. Hətta yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdır və onları həyata keçirtmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illərdə çəkdiyim bütün əzab əziyyəti unutdum"/ Xəyanətə yol vermiş mərkəzi hakimiyyətin bütün cəhdlərinə baxmayaraq, naxçıvanlılar qısa müddətdə dahi şəxsiyyəti özlərinə rəhbər seçdilər, onun ətrafında sıx birləşdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dediyi kimi: “Moskvadan Naxçıvana qayıdış o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, Vətənə qayıdış idi, böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi”.

Heydər Əliyev hər zaman olduğu kimi, öz gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Burada muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail oldu.

1990-cı il avqustun 21-də Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyyəti Heydər Əliyevin Rəyasət Heyyətinin Sədri A.Cəlilovun adına yazdığı 10 avqust 1990-cı il tarixli ərizəsini müzakirə edərək " Heydər Əliyev yoldaşın MSSR vətəndaşı hesablanması haqqında " fərman verdi.

1990-cı il sentyabrın 30-da muxtar respublika parlamentinə seçkilər keçirilirdi. Bu zaman Azərbaycanda da parlament seçkiləri keçirilirdi. Bu seçkilərdə Heydər Əliyev 340 saylı Nehrəm seçki dairəsin-dən Azərbaycan SSR, 2 saylı M.F.Axundov seçki dairəsindən Naxçıvan MSSR Xalq deputatı seçildi.

1990-cı il noyabrın 17-də Naxçıvan Parlamenti Heydər Əliyevin sədrliyi ilə öz işinə başladı. Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözləri çıxarıldı. Naxçıvan MSSR Ali Soveti Naxçıvan MR Ali Məclisi adlandırıldı, 1918-1920-ci illərdə mövcud olmuş AXC-nin üçrəngli ay-ulduzlu bayrağı Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edildi. Həmin bayrağın Azərbaycanın dövlət rəmzi kimi qəbul edilməsi üçün Respublika Parlamenti qarşısında təşəbbüs irəli sürürdü. Ulu öndər Heydər Əliyev həmin sessiyadakı çıxışında demişdir: " Naxçıvan MR Ali Məclsinin qərarı ilə ADR-in üçrəngli milli bayrağını Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edirik və Azərbaycan Ali hakimiyyət orqanına bunu çatdırırıq. Eyni zamanda Azərbaycanın Ali hakimiyyət orqanları qarşısında məsələ qoyuruq ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul edilsin". Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov həmin dövrü belə xarakterizə edir: “Ulu öndər Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində müstəqil, demokratik və dünyəvi dövlət yaradılması üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət Bayrağı kimi qəbul olundu”.

Ulu öndərin Naxçıvana və böyük siyasətə qayıdışı imperiya qüvvələri ilə mübarizənin daha da kəskinləşməsinə və Naxçıvandan başlanan Milli Dirçəliş prosesinin bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

1990-cı il noyabrın 21-də Naxçıvan MR Ali Məclisi 1990-cı il yanvarın 19-20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi barəsində" qərar qəbul etdi və ilk dəfə olaraq hər il 20 yanvar gününü Naxçıvan MR-də milli matəm günü kimi qeyd edilməsini rəsmləşdirdi.

Naxçıvan MR Ali Məclisi, həmin gün eyni zamanda " Bakı şəhərində fövqəladə vəziyyətə münasibət barəsində" qərar qəbul etdi və Bakı şəhərində fövqəladə vəziyyətin elan olunmasını əsassız hesab edərək Azərbaycan SSR Ali Sovetindən fövqəladə vəziyyətin götürülməsi üçün qərar qəbul edilməsini xahiş etdi.

1990-cı il dekabrın 3-də Naxçıvan MR Ali Məclisinin sessiyası keçirildi. Sessiyada Naxçıvan MR Nazirlər Sovetinin adının dəyişdirilərək Naxçıvan MR "Nazirlər Kabineti" və Nazirlər Sovetinin sədrinin isə "Baş nazir" adlandırılması haqqında qərar qəbul edildi.

1990-cı il dekabrın 14-də Naxçıvan MR Ali Məclsinin sessiyası "Azərbaycan SSR-in DQMV-də, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında" qərar qəbul etdi. Həmin sessiyada eyni zamanda, yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olundu. Sessiya iştirakçıları yekdilliklə İttifaq layihəsinin xalqımızın iradə və mənafeyinə zidd olduğunu bildirdilər.

1991-ci il yanvarın 14-də Naxçıvan MR Ali Məclisinin sessiyasında "SSRİ sərhəd qoşunlarının Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən bütün bölmə və hissələrinin Naxçıvandakı hərbi sərhəd dəstəsinə tabe edilməsi haqqında", " Naxçıvan Muxtar Respublikasının ərazi bütövlüyünün bərpası barədə Moskva (1921) və Qars (1921) müqavilələrinin iştirakçıları olmuş dövlətlərlə Naxçıvan MR Ali Məclisinin bəyanatı haqqında" və s. məsələlər müzakirə edildi.

Bu dövrdə imperiya rəhbərliyinin ortaya atdığı və Azərbaycan iqtidarı tərəfindən müdafiə olunan SSRİ-nin saxlanılmasına münasibət bildirmək üçün keçirilən referendum mövcud siyasi qüvvələrin məqsədlərini daha aydın dərk etməyə imkan verdi. Azərbaycanın demokratik qüvvələri, hər şeydən əvvəl Heydər Əliyev milli respublikaların müstəqilliyinin qarşısını almağa yönəldilmiş bu siyasəti ifşa etdi, xalqı bu oyunda iştirak etməməyə çağırdı. 1991-ci il fevralın 5-də Azərbaycan Parlamentində ittifaq yönümlü deputatlar birləşərək referendumda iştirak etmək haqqında qərar qəbul etdilər və Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarları separatçılıq hesab edərək Naxçıvana təzyiqləri artırdılar.

Heydər Əliyev imperiyanı qoruyub saxlamağa çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına, Sovet dövlətinə, Azərbaycan iqtidarına açıq etirazını bildirdi, onların riyakar siyasətini ifşa etdi və 1991-ci il iyulun 19-da Kommunist Partiyasının sıralarından çıxdı.

1991-ci il avqustun 19-da Moskvada bir qrup yüksək vəzifəli məmurun dövlət çevrilişi edərək DFVK yaratmasının A.Mütəllibovun müdafiə etməsi qiyamın yatırılmasından sonra Azərbaycanın nüfuzuna xələl gətirdi. Lakin məlum hadisələrlə bağlı Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası çağırıldı və sessiya qiyama öz mənfi münasibətini bildirərək KP-nin, komsomol təşkilatlarının yerli strukturlarının ləğvi və onların əmlakının milliləşdirilməsi barədə qərar qəbul etdi.

1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası keçirildi. Sessiyadakı deputatların təkidli xahişlərində və parlament binası önündə mitinq keçirən xalq kütlələrinin qəti tələbindən sonra Heydər Əliyev Ali Məclisə sədr seçilməsinə razılıq verdi. Sessiya 1991-ci il sentyabrın 8-nə təyin olunmuş respublika prezdentliyinə seçkilərin mürəkkəb dövrdə səhv addım kimi qiymətləndirdi və sentyabrın 4-də Naxçıvan Muxtar Respublikasında seçkiləri dayandırmaq barədə qərar qəbul etdi. Sessiya Muxtar Respublikada KP-nin bütün strukturlarının fəaliyyətinin dayandırılması və partiya təşkilatlarına məxsus olan əmlakın milliləşdirilməsinə dair qərar çıxardı. Xalqı, onun liderini yolundan döndərmək üçün Azərbaycan iqtidarı Naxçıvana ciddi təzyiqlər göstərdi və buraya silahlı qüvvələr yeritdi. Lakin xalq bütün bu təzyiqləri dəf etdi.

1991-ci il sentyabrın 16-da Naxçıvan parlamenti milli ordunun hələ yaradılmadığını, Naxçıvanın isə real düşmən təcavüzü ilə üz-üzə olduğunu nəzərə alaraq "Naxçıvan MR Dövlət Müdafiəsi Komitəsinin yaradılması haqqında" qərar qəbul etdi.

Ulu öndər Heydər Əliyev Naxçıvan MR ərazisində olan Sovet Silahlı Qüvvələri hissələrinin statusu haqqında məsələni Ali Məclisin 1991-ci il noyabrın 2-də keçirilən iclasında müzkirəyə çıxardı. Heydər Əliyevin səyləri nəticəsində 1920-ci ildən etibarən Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyanın axırıncı rus əsgərləri 1992-ci il avqustun 18-də yola salındı. Həmin gün diviziyanın hərbi əmlakının Azərbaycan Milli Ordusunun briqadasına verilməsi barədə akt imzalandı.

1992-ci ilin oktyabr ayının 24-də Azərbaycan Xalq cəbhəsinin Naxçıvan şöbəsinin MR-də ciddi qarşıdurmaya gətirib çıxaran hərəkətlərə yol verməsi Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında müzakirə edilərək dövlət çevrilişi kimi qiymətləndirildi. Oktyabrın 25-də Ulu öndərin Naxçıvan radiosu ilə əhaliyə müraciət etməsi təxribatın qarşısını aldı.

Bu dövrdə respublikada yeni-yeni siyasi partiyalar yaranırdı. Lakin bu partiyalar Azərbayacnın siyasi həyatındakı boşluğu aradan qaldırmağa qadir deyildilər. Ona görə də Azərbaycanın qabaqcıl ziyalıları yeni bir partiyanı-Yeni Azərbaycan Partiyasını yaratmaq qərarına gəldilər. Bu partiyaya Azərbaycanın düşmüş olduğu ağır vəziyyətdən qurtara biləcək yeganə şəxsin - Heydər Əliyevin rəhbərlik edə biləcəyini düşündülər. 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısının Heydər Əliyevə müraciəti oldu. Noyabrın 5-də YAP təşkilat komitəsinin yığıncağı yekdilliklə Heydər Əliyevi sədr seçdi. Ümummilli Liderimizin Naxçıvana gəlişi, xalqın təkidli tələbi və istəyi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu ulu diyarı mətanətlə qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə, ölkəmiz üçün mühüm bir hadisəyə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sözləri ilə ifadə etsək, “Azərbaycanın bu qədim torpağını xilas edən Heydər Əliyev özünə Naxçıvan boyda əbədi, həmişəyaşar abidə ucaltdı”.

Böyük dövlət xadiminin Naxçıvandakı idarəetmə uğurlarını görən xalqımız ölkədəki xaos və anarxiyanı aradan qaldırmaq, Azərbaycan dövlətçiliyini xilas etmək naminə Heydər Əliyevin ölkə rəhbərliyinə gətirilməsini tələb etməyə başladı. Ancaq Ulu Öndər canı qədər sevdiyi doğma Naxçıvandan ayrılmaq istəmirdi. Digər tərəfdən xalqının görkəmli oğlu, alovlu vətənpərvər bu acı hadisələrə laqeyd də qala bilməzdi. Necə ki, qalmadı. Azərbaycanın "olum, ya ölüm" ayrıcında dayandığı, azadlığımızın və müstəqilliyimizin müdhiş təhlükə ilə üzləşdiyi 1993-cü ilin vahiməli iyun günlərində xalqın təkdilli xahişi ilə Heydər Əliyevin ölkəmizin rəhbərliyinə qayıdışı respublikamızı məhv olmaq təhlükəsindən xilas etdi və xalqımızın Milli Qurutuluş Günü kimi tarixə yazıldı. Ümumilli liderimiz "Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib, vətən və xalq naminə çox ağır və məsuliyyətli vəzifəni öhdəsinə götürdü. Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti doğma xalqına sədaqətlə xidmək etmək, onun yolunda hər cür fədakarlıqlara hazır olmaq timsalına çevrildi.

## ƏDƏBİYYAT

1. Əliyev İ. Azərbaycanın strategiyası // Dirçəliş-XXI əsr, 2004, № 82-83. s. 3-7
2. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı, Azərbaycan, 1994, 174 s.
3. Hüseynova İ. Liderlik nümunəsi // Dirçəliş-XXI əsr, 2009, № 130-131, s. 90-98
4. Hüseynova İ. Azərbaycan Qafqazda lider dövlətdir // Dirçəliş-XXl əsr, 2008, № 118-119, s. 344 - 354
5. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, XXI əsr Yeni Nəşrlər Evi, 2005, 433 s.
7. Mehdiyev R. Azərbaycanda siyasət: dünən, bu gün və sabah // Dirçəliş-XXI əsr, 2002, № 49, s. 68-85

## SUMMARY

**Abdulla Mustafayev,**
**Ilgar Kengerli**

## HEYDAR ALIYEV AND A DEMOCRATIC STATE BUILDING IN NAKHCHIVAN

The great leader Heydar Aliyev is an irreplaceable leader who stands above the personalities brought up in Nakhchivan, the homeland of great thinkers, commanders and geniuses. Throughout his life, he was devoted to his homeland and people, contributed to the development and prosperity of his country including Nakhchivan, where he was born and grew up, ensuring the country's security. The events that took place in the former USSR in the second half of the 1980s had a dramatic negative impact on the social, economic and political life of the Nakhchivan Autonomous Republic.

***Key words:*** *independence, Heydar Aliyev, social and political life, border movement, elections, socio-economic development*

## РЕЗЮМЕ

**Абдулла Мустафаев**
**Ильгар Кенгерли**

## ГЕЙДАР АЛИЕВ И ДЕМОКРАТИЧЕСКОЕ ГОСУДАРСТВЕННОЕ УСТРОЙСТВО В НАХЧЫВАНЕ

Великий лидер Гейдар Алиев является незаменимым лидером, стоящим во главе великих мыслителей, полководцев, гениальных личностей, вышедших из древней земли Нахчывана. Всю свою жизнь он служил примером преданности своей родине и народу, оказывал всевозможную помощь развитию, прогрессу, обеспечению безопасности страны, в том чиле Нахчывану, где родился и вырос. Процессы, происходящие в бывшем СССР во второй половине 80-ых годов XX века оказали тяжелое влияние на общественную, экономическую и политическую жизнь Нахчыванской АР.

***Ключевые слова:*** *независимость, Гейдар Алиев, общественно-политическая жизнь, пограничное движение, выборы, социально-экономическое развитие*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *01 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 30-34
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 30-34
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 30-34

**QADİR ƏKBƏROV**
*qadir1976@inbox.ru*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94 (479.242)**

# MUXTARİYYƏTİN İLK ON İLİNDƏ NAXÇIVANDA MAARİF İŞİNİN TƏŞKİLİ VƏ ELM

*Məqalədə bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında sovet rejiminə sədaqətli yeni gənc nəslin yetişdirilməsində bolşevik rejiminin rolundan bəhs edilir. Məlum olduğu kimi, SSRİ-nin iqtisadi mənafeyinə cavab verən, mərkəzdən planlı şəkildə sənaye və kənd təsərrüfatı sahələri üçün yeni savadlı kadrların hazırlanması bolşevik hökumətinin əsas məqsədi idi. Bunun üçün də Sovet İttifaqı daxilində yeni ideoloji iş aparılmalı idi. Bu, iş Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvan Muxtar Respublikası daxilində də aparılmışdır. İlk növbədə savadsızlığı aradan qaldırmaq üçün xüsusi savad kursları və bununla bərabər məktəblər də açılmışdır. Azərbaycanda bu illərdən başlayaraq qadınlar da təhsilə cəlb edilmişdir. Məqalədə Naxçıvan Muxtar Respublikasında 1925-ci ildə yaradılmış elmi mərkəz haqqında da bəhs edilir. Məlumat verilir ki, bu elmi mərkəz Naxçıvan ərazisində yerləşən tarixi abidələrin tədqiqində böyük rol oynamışdır. Bu mərkəzin işində Bakıdan gəlmiş elm adamları da iştirak etmişdir. Rusiyadan Naxçıvana gəlmiş arxeoloqların Qızılburunda araşdırmalar aparması haqqında elmi mərkəzin iclas protokollarında məlumatlar əks edilib.*

***Açar sözlər:*** *bolşevik ideologiyası, savad kursları, məktəb, maarif, elmi mərkəz*

Bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra Azərbaycanda, o cümlədən Naxçıvanda sosialist ideologiyasına sahib olan, sovet rejiminə və mövcud quruluşa sədaqətli yeni gənc nəslin yetişdirilməsi, SSRİ-nin iqtisadi mənafeyinə cavab verən, mərkəzdən planlı şəkildə sənaye və kənd təsərrüfatı sahələri üçün yeni savadlı kadrların hazırlanması bolşevik hökumətinin əsas məqsədi idi. Məlumdur ki, sovet hakimiyyət strukturları Azərbaycanda əhalinin kütləvi şəkildə savadsız olduğunu iddia etmiş, "başdan-başa savadsızlar ölkəsi" adlandırıraq burada savadsızlıqla mübarizə aparmaq üçün əməli tədbirlər həyata keçiriməyə başlamışdırlar. Lakin bir faktı unutmaq olmaz ki, bolşevik rejimi qurulana qədər Azərbaycanda əhalinin bir hissəsi dini məktəblərdə, xeyli hissəsi isə XIX əsrdən fəaliyyət göstərən müxtəlif tipli məktəblərdə-istər qəza məktəbləri olsun, istərsədə ayrı-ayrı şəxslər tərəfindən açılmış üsuli-cədid məktəblərində təhsil almışdılar. Bəhs edilən illərdə sovet ideologiyası dini məktəblərin qarşısında bir sədd çəkirdi. Bu məktəblər bağlanır, yeni məktəb şəbəkəsinin formalaşdırılması üçün həm ideoloji, həm də əməli tədbirlər həyata keçirilirdi. Bu illərdə dövründə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə sovetləşmə siyasət zərbə vursada, bir fakt da var idi ki, maariflənmə işində irəlləyişlər var idi. Buna görə də sonrakı onilliklərdə azərbaycanlıların qeyri millətlərlə yanaşı savadlı mütəxəssisləri yetişmiş, istər iqtisadi, istərsə də sosial-mədəni sahədə fəaliyyət göstərmişlər.

1920-ci il oktyabr ayının 10-da Naxçıvan İnqlab Komitəsinin müxtəlif şöbələri ilə yanaşı Xalq Maarif Şöbəsinin də təsis edilməsi qərara alındı. Qəbul edilmiş qərara əsasən Əbdüləzim Rüstəmov Naxçıvan Xalq Maarif Şöbəsinin müdiri təyin olunur. Müəllimlərin səfərbər olunması, məktəblərin açılması və gecə kurslarının təşkili ona tapşırıldı. 1921-ci ildə Maarif Şöbəsi Naxçıvan SSR Xalq Maarif Komissarlığına çevrildi [4, s. 54].

Bu illərdə Azərbaycanda, o cümlədən Naxçıvanda savadsızlıqla mübarizə işində əməli tədbirlər həyata keçirilmişdir. İlk növbədə savadsızlığı aradan qaldırmaq üçün savad kursları

yaradılmış, sonradan bu kurslar məktəblərə çevrilmişdir. 1922-ci ilin yanvarında Naxçıvan ölkə partiya təşkilatı nəzdində "Savadsızlığa qarşı mübarizə komissiyası" yaradılmış, həmin ilin aprelində Naxçıvan Xalq Komissarları Soveti savadsızlığın ləğvi haqqında xüsusi dekret qəbul etmişdir. Həmin dekretə görə respublikanın 16-50 yaşlı bütün savadsız və az savadlı vətəndaşları onlar üçün açılmış savadsızlığı ləğv etmə məntəqələrində, axşam məktəblərində və kurslarda məşğul olmalı idilər [1, s. 27]. Savad kurslarının fəaliyyəti 1925-ci ildə də davam etdirilmişdir. Naxçıvan Xalq Maarif Komissarlığı heyət şurasının 1925-ci il 1 mart tarixli iclas protokolunda savad kurslarının açılmasına əlavə vəsaitin ayrılması öz əksini tapmışdır [9, v. 16]. Həmin il Naxçıvan Xalq Maarif Komissarlığının 5 dekabr tarixli iclas protokolunda isə Naxçıvanda 104 savad kursunun və 20 ali savad qruplarının açılması üçün müraciət edilməsi öz əksini tapmışdır [10, v. 25].

Göründüyü kimi, 1920-ci illərin birinci yarısında Naxçıvanda xalq maarifini inkişaf etdirmək üçün müəyyən işlər görülmüşdür. Lakin, bu işdə müəllimlərin çatışmaması işləri yetərincə ləngidirdi. Buna görə müəllim kadrlara ehtiyacı nəzərə alan Naxçıvan Xalq Komissarları Soveti 1922-ci il sentyabrın 22-də Naxçıvan şəhərində müəllimlər seminariyası açılması haqqında qərar qəbul etmişdir [12, s. 162]. 1925-ci ilə aid arxiv sənədlərində göstərilir ki, Naxçıvan Muxtar Respublikası ərazisində üç müəllim seminariyası fəaliyyət göstərirdi. Bunlar Ordubad kişi seminariyası, Naxçıvan kişi seminariyası, Naxçıvan qadın seminariyası olmuşdur [8, v. 17]. Naxçıvanda müəllim kadrlarının hazırlanmasında mühüm xidmətləri olan Naxçıvan kişi seminariyası bir il fəaliyyət göstərdikdən sonra, 1923-1924-cü tədris ilində pedaqoji texnikuma çevrildi. Texnikumda pedaqoji şura, metodiki şura, emalatxana, yeməkxana, tələbə komitəsi, musiqi dəstəsi və s. təşkil olunmuşdu [6, s. 424]. 1921-1922-ci illərdə Naxçıvan şəhərində və aryı-ayrı kəndlərdə oğlan və qız məktəbləri yaradılmışdır. Arxiv sənədlərindən aydın olur ki, 1921-ci ildən başlayaraq Naxçıvanda bütün məktəblər pulsuz dərs vəsaitləri ilə təmin edilmişdir [11, v. 7]. 1921-1922-ci illərdə I-və II dərəcələr üzrə 58 məktəb 144 sinif, 4351-tələbə (şagird), 86 müəllim, 3 klub, 4 qiraət koması (qiraət evi), 1 kitabxana, 16 savad kursu (həmin savad kurslarında 268 tələbə var idi) olduğu halda, 1924-1925-ci illərdə I və II dərəcələr üzrə 75 məktəb 210 sinif, 6573 tələbə (şagird), 2 teknikumda 166 tələbə olmuşdur. Həmçinin bu illərdə 154 müəllim fəaliyyət göstərmişdir ki, onlardan 2 nəfəri qadın idi. Muxtariyyatın ilk illərində savad kurslarının sayı 58-ə çatdırılmış və burada 1658 nəfər tələbəyə dərs verilmişdir. 1925-1926-cı illərdə xalq maarifinə 85046 manat vəsait ayrılmışdır. 1928-1929-cu illərdə məktəblərin sayı 78, siniflərin sayı 310 olmuş, müəllimlərin sayı 250 nəfərə çatmışdır. Bu illərdə maarif sahəsinə 474363 manat vəsait ayrılmışdır. 1930-1931-ci illərdə məktəblərin sayı 98, siniflərin sayı 476, 1934-1935-ci illərdə məktəblərin sayı 164, siniflərin sayı 981, təhsil alanların sayı isə 23118 nəfər olmuşdur. 1934-1935-ci dərs ilində məktəblərdə 9669 nəfər qız oxumuşdur [7, v.1-3]. Muxtariyyatın elanından on il sonranı müqayisə etdikdə görürük ki, məktəb binalarının sayı iki dəfə, məktəblərdə təhsil alanların sayı təqribən 4 dəfə artmışdır. 1924-1925-ci illərdə Naxçıvanda oxuyan qızların sayı 1083 nəfər olmuşdur [1, s. 31].

1934-1935-ci illərlə müqayisədə bu rəqəmlərin arasındakı fərqin doqquz dəfədən çox olduğunu müşahidə edirik. Bu illərdə Naxçıvanda oğlan və qız məktəbləri açılmış, qızların məktəblərə cəlb edilməsi işinə xüsusi diqqət yetirilmişdir. İlk vaxtlarda qızların oğlanlarla birgə oxumasına valideyinlərin etirazı olduğu üçün bu məsələ 1926-1927-ci tədris ilinədək uzadıldı. Lakin 1926-1927-ci dərs ilindən Muxtar Respublikanın 25 məktəbində oğlanlarla qızlar birgə oxumağa başladılar. Bu tip məktəblərdən Cəlilkənd (Baş Noraşen), Vənənd kənd, Yuxarı Əylis məktəblərini (Naxçıvan MSSR Xalq Komissarlığının 18 avqust 1926-cı il tarixli əmrinə əsasən oğlan məktəbi ilə qız məktəbi birləşdirilib, I dərəcəli oğlan və qız nümunə məktəbi adlandırılmışdır) göstərmək olar. [1, s. 31; 4, s. 55].

Azərbaycan bolşeviklər tərəfindən sovetləşdikdən sonra bütün sahələrdə xaraktercə dəyişikliklər baş vermişdir ki, bunlardan biri də elm sahəsi idi. Tarixi faktlara əsasən məlumdur ki, Azərbaycanda, o cümlədən Naxçıvanda elmin inkişafı müstəqil fikirlərə, araşdırmalara əsaslanmışdır. Lakin bolşeviklər tərəfindən yaradılmış hakimiyyət strukturları elm sahəsində də bolşevik ideologiyasının əldə rəhbər tutulmasını əsas tələb olaraq göstərmiş və bu yöndə aparılan elmi

araşdırmaların, yazılan elmi tədqiqat əsərlərinin, məqalələrin ictimailəşdirilməsinə xüsusi önəm vermişdir. 1921-ci ilin fevralında Xalq Maarif Komissarlığı nəzdində elm və təhsil sahəsində bütün işə ümumi ideya rəhbərliyi üçün akademik şöbə yaradıldı. Onun tərkibinə Azərbaycan Dövlət Universiteti, Azərbaycan Politexnik İnstitutu, Dövlət Muzeyi, Dövlət Arxivi, Dövlət Kitabxanası və bütün digər elmi xarakterə malik məktəblər, idarələr daxil edilmişdi [2, s. 207].

1921-ci ildən dövlət səviyyəsində arxiv idarələri qurulmağa başlanmış, 1923-cü ilin əvvəlində isə elmi mərkəzin yaradılmasına ilk cəhdlər edilmişdi. Məhz bu dövrdə bir qrup bakılı professorlar Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətini yaratmaq xahişi ilə Xalq Maarif Komissarlığı kollegiyasına müraciət etdilər. 1923-cü il noyabrın 2-də 40 nəfərə qədər görkəmli alim və mütəxəssisin iştirakı ilə cəmiyyətin ilk təsis iclası keçirildi. 1924-cü ildə SSRİ EA Diyarşünaslıq Bürosunun müxbir üzvü olan yazıçı Ə.Haqverdiyev Cəmiyyətin sədri seçildi. Cəmiyyətin Naxçıvan, Dağlıq Qarabağ, Şamaxı, Lənkəran, Gəncə, Zaqatala və Şəkidə şöbələri açıldı [2, s. 209].

Naxçıvan Xalq Maarif Komisarlığının heyət şurasının 1925-ci il 5 aprel tarixli iclasında Naxçıvan Tətqiq və Tətəbbö Cəmiyyətinin smeta və ştatı haqqında məsələ müzakirə edilmişdir. [10, v. 25]. Naxçıvan Tətqiq və Tətəbbö Cəmiyyətinin əsas fəaliyyəti 21 may 1925-ci ildən başlasa da cəmiyyətlə bağlı təşkilati işlər ilin əvvəllərindən aparılmışdır. Belə ki, 1925-ci il mart ayında cəmiyyətin sədri vəzifəsi ilə əlaqədar Naxçıvan Xalq Maarif Komissarlığının iclas protokollarında məlumat əks olunmuşdur [5, s. 94]. Naxçıvanda yaradılmış elmi cəmiyyət bütün fəaliyyətini Naxçıvanın tarixi, etnoqrafiyası, folkloru, coğrafiyasının öyrənilməsinə həsr etmişdir. Cəmiyyətin fəaliyyətində vətənpərvər müəllimlərin və digər ziyalıların fədakar əməyi nəticəsində mühüm elmi nailiyyətlər əldə edildiyi müəyyən edilmişdir. Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılmasında məqsəd Naxçıvanın maddi mədəniyyət abidələrini, etnoqrafiya və tarixini, iqtisadiyyatı və təbiətini ətraflı şəkildə öyrənmək olmuşdur. Bu vəzifəni həyata keçirmək üçün cəmiyyətdə üç bölmə yaradılmışdır: İqtisadi, ictimai və təbii bölmə; arxeoloji bölmə; etnoqrafik, türkoloji, tarix və ədəbiyyat bölməsi [5, s. 4].

Naxçıvanda tarix elminə ən dəyərli töhfələri təqdim etmiş Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti və Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti xüsusilə arxeoloji tədqiatların aparılmasında, tarixi abidələrin tədqiqində əməli tədbirlər görmüşdür. Cəmiyyətin iclas protokollarında bu məsələlərlə bağlı verilmiş qərarlar elmin inkişafına xidmət etdiyinin əsas göstəricilərindəndir. 1926-cı il 20 aprel tarixdə keçirilmiş iclasda Xaraba Gilanda qazıntı işləri aparılmasına başlanılması, Qarabağlar və Təzəkəndə tədqiqat üçün gedilməsi məsələsi müzakirə edilmiş, həmin il iyun ayının 28-də kecirilmiş iclasda isə aparılmış tədqiqat və tapılmış materiallar barədə rus alimi V.Sisoyevin məruzəsi dinlənilmişdir [5, s. 40-47; 6, s. 431]. V.Sısoyev Naxçıvanın tarixi aidələri haqqında “Araz sahilində Naxçıvan və Naxçıvan SSR-in qədim keçmişi” adlı elmi hesabat hazırlamışdır. Hesabatında Mömin xatın və Yüsif Küseyr oğlu türbələrinin hər biri haqqında ayrıca ətraflı məlumat vermişdir [14, s. 87-121]. Azərbaycanı Tətqiq və Tətəbbö Cəmiyyətinin elmi katibi, rus alimi V.Sisoyev həmçinin Ordubad rayonun Gənzə kəndinin mərkəzində inşa edilən Hacı Hüseynqulu məscidi, Ordubad rayonunun Yuxarı Əylis kəndində yerləşən Şah Abbas məscidi barədə də məlumatları elm aləmində işıqlandırmışdır [13, s. 34, 38]. Naxçıvanda fəaliyyət göstərən bu elmi cəmiyyətin mühüm xidmətlərindən biri də bölgədə olan tarixi abidələrin epiqrafik materiallarının tədqiqi ilə bağlı gördüyü işlərdir. Naxçıvan Tətqiq və Tətəbbö Cəmiyyətinin 1926-cı il 28 iyun tarixdə keçirilmiş iclasının 24 №-li protokolundan məlum olur ki, Azərbaycan Tətqiqi və Tətəbbö Cəmiyyətinin göndərişi ilə Naxçıvanda olmuş İsa bəy Əzimbəyov Naxçıvan şəhərində yerləşən Atabəylər dövrünə aid türbələr və onların kitabələri haqqında dəyərli elmi məlumatlar vermişdir [5, s. 46]. İ.Əzimbəyov həmçinin bu illərdə Naxçıvan şəhər İmamzadə Kompleksi barədə də məlumatları elmi ictimaiyyətə çatdırmışdır [13, s. 101]. 1926-cı ildə A.A.Miller və İ.İ.Meşşaninovun rəhbərliyi ilə Naxçıvanda iki ekspedisiya işləmiş və kəşfiyyat xarakterli araşdırmalar aparmışdır. Onlar Qızılburun nekropolunda bir neçə qəbir abidəsi tədqiq etmişlər [2, s. 7]. Bu ekspedisiya ilə bağlı Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyətinin 1926-cı ilin sentyabr ayının 12-də və 25-də keçirilmiş iclasında məruzələr dinlənilmişdir [5, s. 50-53].

Aparılmış elmi tədqiqat işləri və arxiv materialları Naxçıvanın elmi, mədəni mühiti barədə müəyyən məlumatlar əldə etməyə imkan verir. Əvvəldə də qeyd edildiyi kimi, bölgədə görülən hər hansı bir iş sovet ideologiyası çərçivəsində, bolşevizmə xidmət istiqamətində təşəkkül tapırdı. Lakin bununla belə muxtariyyətin elan edilməsindən sonrakı dövrdə Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın ayrı-ayrı kəndlərində maarif işinin təşkili və elmi nailiyyətlərin əldə edilməsi istiqamətində mühüm işlər görülmüşdür.

## ƏDƏBİYYAT


1. Abbasova S. Naxçıvan Muxtar Respublikasında qadın hərəkatının inkişaf tarixi. Bakı: MBM, 2007, 168 s.
2. Azərbaycan tarixi. 7 cilddə, VI c. Bakı, Elm, 2008, 568 s.
3. Baxşəliyev V., Quliyeva F. Naxçıvanın tarixi abidələri. Bakı: Nurlan, 2017, 212 s.
4. Cəfərov F., İsmayılova Z. Naxçıvanın məktəb tarixindən səhifələr. Bakı, ADPU, 2015, 227 s.
5. Xəlilov F. Naxçıvanı öyrənən elmi cəmiyyət. Bakı: Nurlan, 2005, 196 s.
6. Naxçıvan tarixi. 3 cilddə, II c. Naxçıvan, Əcəmi, 2014, 528 s.
7. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi f 1, siy.1, sax.vah.142, v. 1-3
8. NMRDA: f. 1, siy.1, sax.vah. 22, v. 17
9. NMRDA: f. 1, siy.1, sax.vah. 23, v. 16
10. NMRDA: f. 1, siy.1, sax.vah. 23, v. 25
11. NMRDA: f. 1, siy.1, sax.vah. 22, v. 7
12. Rəhimov Y. Naxçıvan: siyasi və sosial-iqtisadi tarixinə dair (XIX-XX əsrin əvvəlləri). Naxçıvan: Əcəmi, 2019, 208 s.
13. Səfərli H.F. Naxçıvanın türk islam mədəniyyəti abidələri. Naxçıvan: Əcəmi, 2017, 216 s.
14. Сысоев В. Нахичевань на Араксе и древности Нах. ССР (отчет о поездке летом 1926 г.) Баку: Известия «Азкомстарис» а, вып. № 4 (тетрадь 2), 1929, с. 87-121


## SUMMARY

**Gadir Akbarov**

## ORGANIZATION OF EDUCATIONAL WORK AND SCIENCE IN NAKHCHIVAN IN THE FIRST TEN YEARS OF AUTONOMY

The article is discussed the upbringing of a new generation of young people with a socialist ideology and loyalty to the Soviet regime in Azerbaijan, including the Nakhchivan Autonomous Republic, after the establishment of the Soviet government. As is well known, the main goal of the Bolshevik government was to systematically train new educated personnel for industry and agriculture in the economic interests of the USSR. For this, a new ideological work had to be done within the Soviet Union. This work was carried out within the Nakhchivan Autonomous Republic, as in all regions of Azerbaijan. First of all, special literacy courses have been opened to eliminate illiteracy. At the same time, schools were opened. Starting from these years, women have also been involved in education in Azerbaijan. The article is also discussed aboud the scientific center established in 1925 in the Nakhchivan Autonomous Republic. It is reported that this scientific center has played a major role in the study of historical monuments located in the territory of Nakhchivan. Scientists from Baku has also been yaken part in the work of this center. The minutes of the meeting of the scientific center contain information about the research of archaeologists from Russia to Nakhchivan in Gizilburun.

***Key words:*** *Bolshevik ideology, literacy courses, school, education, scientific center*

## РЕЗЮМЕ

**Гадир Акбаров**

**В ПЕРВЫЕ ДЕСЯТЬ ЛЕТ АВТОНОМИИ НАХЧЫВАНА ОРГАНИЗАЦИЯ ОБРАЗОВАНИЯ И НАУКИ**

В статье рассматривается воспитание нового поколения молодежи с социалистической идеологией и лояльностью советскому режиму в Азербайджане, в том числе в Нахчыванской Автономной Республике, после установления Советской власти. Как известно, главной целью большевистского правительства была систематическая подготовка новых образованных кадров из центров промышленности и сельского хозяйства в экономических интересах СССР. Для этого необходимо было провести новую идеологическую работу внутри Советского Союза. Эта работа проводилась в пределах Нахчыванской Автономной Республики, как и во всех регионах Азербайджана. Прежде всего, открыты специальные курсы грамотности для ликвидации неграмотности. Тогда же были открыты школы. Начиная с этих лет, в Азербайджане женщины также занимались образованием. В статье также рассказывается о научном центре, созданном в 1925 году в Нахчыванской Автономной Республике. Сообщается, что этот научный центр сыграл большую роль в изучении исторических памятников, находящихся на территории Нахчывана. В работе этого центра также принимали участие бакинские ученые. Протоколы заседаний научного центра содержат информацию об исследованиях в Гызылбуруне археологов приезжих в Нахчыван из России



***Ключевые слова***: *Большевистская идеология, курсы грамотности, школа, образование, научный центр*

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev*
***Məqalə daxil olmuşdur:*** *01 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 35-38
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 35-38
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 35-38

**SÜBHİ KƏNGƏRLİ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:069**

# HEYDƏR ƏLİYEV MUZEYİ

*"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətənidir. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam, buna nail olmağa çalışıram və çalışacağam".*

***Heydər Əliyev***
***Azərbaycan xalqının ümummilli lideri***

*Ümummilli liderimiz, böyük azərbaycanlı, dünya şöhrətli ictimai-siyasi xadim, Azərbaycan xalqının sevimlisi, müasir Azərbaycan Respublikasının qurucusu və memarı, dünya azərbaycanlılarının fəxri Heydər Əlirza oğlu Əliyev Azərbaycana rəhbərlik etdiyi illər ərzində dövlətçilik, ictimai-siyasi, xalq təsərrüfatı, iqtisadiyyat, elm və təhsil, mədəniyyət və incəsənət, cəmiyyətin bütün inkişaf sahələrində yüksək səviyyədə xidmət göstərmiş, gələcək quruculuq yollarını müəyyənləşdirmişdir.*

***Açar sözlər:*** *Heydər Əliyev, muzey, təhsil, elm, xalq təsərrüfatı, quruculuq.*

Ulu öndərimiz Azərbaycanın ayrılmaz hissəsi Naxçıvan diyarının yetişdirdiyi görkəmli şəxsiyyətlər haqqında demişdir: *"Naxçıvan böyük şəxsiyyətlər yetirmiş torpaqdır. Naxçıvan həmişə böyük şəxsiyyətlərlə fərqlənmiş və bu şəxsiyyətlər alimlər, münəccimlər, şairlər, memarlar, dövlət xadimləri olmuşlar. Naxçıvan Azərbaycanın ziyalı yetirən bir diyarı olmuşdur".*

Ümummilli liderimizin söylədiyi bu hikmətə, həqiqətə istinad edərək, fəxrlə deyə bilərik ki, qədim mədəniyyət və elm, dövlətçilik ənənələri olan Naxçıvan torpağı Azərbaycana, dünyaya xalqımızın böyük oğlu, görkəmli şəxsiyyəti Heydər Əliyevi bəxş etmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dediklərindən: *"Ulu öndər Heydər Əliyev öz doğma vətəni Naxçıvanı çox sevirdi. Naxçıvanlılar da həmişə onu sevirdilər və fəxr edirdilər ki, dünyaya Heydər Əliyev kimi dahi şəxsiyyət bəxş etmişlər. Bu gün Heydər Əliyev bizim qəlbimizdə yaşayır. Onun ideyaları, siyasi kursu yaşayır və əbədi yaşayacaqdır".*

Muzeylərimizin qurucusu, yaradıcısı və memarı Heydər Əliyevin fəaliyyətini, keçdiyi həyat yolunu daha dərindən və hərtərəfli mənimsəmək, öyrənmək, yaymaq məqsədilə ulu öndərimizin anadan olduğu Naxçıvan şəhərində qədirbilən xalqımız öz böyük oğluna, sevimli rəhbərinə dərin hörmət və məhəbbət əlaməti olaraq muzey yaratmışdır.

Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il 18 fevral 21-01/S nömrəli Sərəncamına əsasən Naxçıvan şəhərində yaradılmış, 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır.

Sərəncamda göstərilir: *"Bu gün iftixarla fəxr edirik ki, qədim tarixə malik Naxçıvan özünün yetirdiyi böyük mütəfəkkir və şəxsiyyətlərlə tanınır. Məhz belə şəxsiyyətlərdən biri də dünya siyasətçiləri sıralarında öz dəsti-xətti, öz yeri, hörməti və sözü olan Azərbaycan xalqının lideri möhtərəm Heydər Əliyevdir. Bu muzey ümummilli liderimizin şərəfinə Azərbaycan Respublikasında yaradılmış ilk muzeydir".*

Naxçıvanda yaradılmış Heydər Əliyev Muzeyinin ölkəmizin digər bölgələrində yaradılan muzeylərdən fərqli cəhəti ondan ibarətdir ki, ulu öndərimizin həyat və fəaliyyətindən bəhs edən bu muzey onun anadan olduğu, boya-başa çatdığı, əmək fəaliyyətinə başladığı torpaq olmaqla, həm də

dahi şəxsiyyətin haqqında çox zəngin və nadir materialların-eksponatların kifayət qədər olmasıdır. Ekpozisiya ilə tanış olduqca dediklərimizin şahidi oluruq.

Muzey Naxçıvan şəhərində, Heydər Əliyev prospekti və Nizami küçəsinin paralelləri arasında XX əsrə aid monumental bir binada yerləşir.

Bina 1974-cü ildə Şərq–Qərb memarlıq elementlərinin sintezində tikilmişdir. Xatirə-ansambl dövlət mükafatına layiq görülmüşdür (müəllifləri H.Ələsgərov, Ə.Hüseynov və Ə.Əbdürrəhmanovdur). Muzeyin qarşısında Heydər Əliyevin qranitdən heykəli ucaldılmışdır. Abidənin hündürlüyü postamentlə birlikdə 10m-dir (müəllifi Azərbaycanın xalq rəssamı, heykəltəraş-akademik Ömər Eldarovdur). Muzeyin mərkəzi hissəsinin memarlıq bölgələrində, xüsusən ön fasadda və girişdə üzbəüz pəncərə boşluğundakı şəbəkələrdə Əcəmi Naxçıvani ənənələri izlənilir. Muzeyin fasadı Naxçıvan memarlıq məktəbi elementlərilə zənginləşdirilmiş, əlavə sütunlar ucaldılmışdır ki, bu da muzeyə xüsusi əzəmət verir.

Birinci mərtəbədə dəhliz və sahəsi 564 m$^2$ olan ekspozisiya zalı yerləşir. Ekspozisiyada eksponatları nümayiş etdirmək üçün xüsusi şkaflar və vitrinlər qurulmuşdur. Muzeyin ekspozisiyasında ən müasir tələblərə uyğun kompozisiya, dizayn, işıq və milli ornamentlər bir-birini tamamlayır. Yüksək səviyyəli muzey xidməti göstərmək üçün zalda kitabxana yaradılmış, ümummilli liderimiz haqqında çəkilmiş filmləri seyr etdirmək üçün burada televizor və videomaqnitofon yerləşdirilmiş, kompüter dəstləri quraşdırılmışdır.

Heydər Əliyev Muzeyi, müstəqil Azərbaycan Respublikasının yaradıcısı və qurucusu, Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əlirza oğlu Əliyevin ictimai-siyasi fəaliyyətinə dair materialların toplanmasını, komplektləşdirilməsini, mühafizəsini, tədqiq və təbliğini həyata keçirən elmi-tədqiqat müəssisəsidir [bax: Naxçıvan Abidələri Ensiklopediyası. Naxçıvan-2008, s. 165-166].

Ilk olaraq qeyd etməyi lazım bilirik ki, muzey ekspozisiyası ümummilli liderimizin həyat və fəaliyyətinin, ictimai-siyasi, elmi-nəzəri, dövlətçilik irsinin, azərbaycançılıq məfkurəsinin elmi cəhətdən araşdırılıb öyrənilməsi, təbliğ edilməsi və gələcək nəsillərə çatdırılması kimi şərəfli və çox lazımlı bir vəzifəni həyata keçirir. Muzey ekspozisiyaları-eksponatları, guşələri, dərgiləri, stendləri və digər görüntüləri ulu öndərimizin yaşadığı şərəfli həyat yolunu əks etdirir.

Heydər Əliyevin 1990-cı ildə Naxçıvana təməlli qayıdışı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyəti, gördüyü işlər, həyata keçirdiyi tədbirlər, qəbul etdiyi mühüm əhəmiyyətli qərarlar, sərəncamlar, müxtəlif sənədlər, fotolar, filmlər, albomlar və sair vasitələrlə ekspozisiyanın bölmələrində nümunələrlə yüksək keyfiyyətdə nümayiş etdirilir. Əksəriyyəti ilk dəfə olaraq bu muzeydə, bu ekspozisiyada nümayiş olunan sənədlər, materiallar dahi rəhbərin, yorulmaq bilməyən görkəmli şəxsiyyətin, böyük azərbaycanlının həyat salnaməsinin – uşaqlıq və gənclik illərini, təhsil aldığı illəri, rəhbər vəzifələrdə çalışdığı illərdə gördüyü çoxşaxəli, şərəfli və mürəkkəb vəzifələrin yerinə yetirilməsindən bəhs edir. Bütün bunlar və digər nadir sənədlər, ekspntlar muzeyə gələnlərə ulu öndərimizin həyat yolunun, fəaliyyətinin öyrənilməsi üçün çox maraqlı materiallardır.

Ekspozisiyalarda, bölmələrdə xronologiya nəzərə alınmaqla Heydər Əliyevin xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə, elminə göstərdiyi diqqət və qayğı, xarici səfərləri haqqında materiallar, kitablar, qəzet-jurnallar, məktublar, teleqramlar, müvafiq müqavilənamələr, görüşlərin, söhbətlərin materialları, xatirə fotoları və başqa sənədlər, muzey toplantıları və əşyaları elmi cəhətdən əsaslandırılmış, bədii tərtibatla, nəfis şəkildə şkaflarda, vitrinlərdə, guşələrdə, bölmələrdə nümayiş etdirilir.

Ümummilli liderimizin 1969-2003-cü illər ərzində ayrı-ayrı vaxtlarda Naxçıvana gəlişləri, Naxçıvanda iş otağında istifadə etdiyi telefon, qələm, çıraq, müxtəlif əlyazmalar, başqa çox dəyərli və maraqlı eksponatlar, onların fotoları ekspozisiyalarda xüsusilə nümayiş etdirilir.

Ulu öndərimizin 75 illik yubileyinə buraxılmış qızıl qol saatı, qızıl döş nişanı "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan boru kəməri-2005", "Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti", "10 may, Naxçıvan-1998", "Əsrin müqaviləsi", dahi rəhbərin ailə üzvləri ilə çəkdirdiyi fotoşəkillər, geyim paltarları, atası Əlirza Əliyevin, anası İzzət xanımın, həyat yoldaşı Zərifə xanımın, oğlu İlham Əliyevin, nəvəsi Heydər İlham oğlu Əliyevin yağlı boya ilə işlənmiş portretləri muzey

tamaşaçılarında maraq doğurur.

Uzun illər muzey işində çalışan, işləyən bir mütəxəssis kimi, "Naxçıvanda Heydər Əliyev Muzeyi", "Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır", "Naxçıvanda görkəmli şəxsiyyətlərin adlarının əbədiləşdirilməsi və muzeylərinin yaradılmasına Heydər Əliyev qayğısı", "Böyük bəstəkar Üzeyir Hacıbəyova Heydər Əliyev qayğısı" və digər kitab, elmi-metodiki xarakterli məqalə və yazıların müəllifi kimi, ümummilli liderimizin muxtar respublikamızın muzeylərinin fond və ekspozisiyalarının eksponatlarının biblioqrafiyası üzərində iş aparır, biblioqrafik kitabça hazırlamaqla məşğulam. Bu mənada Heydər Əliyev Muzeyində mövcud eksponatlardan (fond və ekspozisiya üzrə) bir neçə nümunəni bu yazıda qeyd etməyi məqsədəuyğun hesab edirəm.

1. "Azərbaycan Prezidenti Heydər Əliyev". Əməkdar rəssam Rəfael Abbasov. Kətan, yağlı boya. 2009, ölçüsü 139x104,5 sm. HƏM-3927/ R-9;

2. "Ulu öndərin dekorativ portreti". Rəssam Akif Həsənov. 2010. HƏM-21152 / T-24;

3. "Portret janrlnda işlənmiş xalça". Heydər Əliyev 75 illiyinə həsr edilib, ölçüsü 247x153sm. HƏM-3478/ T-19. 1996;

4. "Tarix" –xalça. Rəssam Səlahəddin Mahmudov, ölçüsü 221x136sm. 2000. HƏM-73/ T-2;

5. "Yüksəkliyə doğru həyat yolu"-xalça, rəssam Səlahəddin Mahmudov. ölçüsü 244x148sm. 1999. HƏM-74/ T-1;

6. "Heydər Əliyev-80 il"-xüsusi hazırlanmış dekorativ məruzə qovluğu. ölçüsü 30,5x21,8sm. HƏM-292/T-5;

7. Heydər Əliyevin 75 illiyinə buraxılmış "qızıl qol saatı", ölçüsü e.d-3,8sm. HƏM-289/T-3;

8. Heydər Əliyev Naxçıvanda Ali Məclisin Sədri işlədiyi illərdə iş otağında istifadə etdiyi "Yantar" sütunlu saat, ölçüsü hündürlüyü-21sm. HƏM-2228/SA-26;

9. "Sönməz günəş", yağlı boya ilə çəkilmiş portret. Əməkdar rəssam Telman Abdinov. ölçüsü 100x70 sm. HƏM-97/ N-2;

10. Ümummilli liderimizin rəngli muncuqlarla işlənmiş portreti. Rəssam Tahirə Cəlilova. Ölçüsü 73x50 sm. HƏM-97/ N-2;

11. Ümummilli liderimizin ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyevanın yağlı boya ilə işlənmiş portreti. Əməkdar rəssam telman Abdinov. Ölçüsü 70x50 sm. HƏM-306/ R-3;

12. Heydər Əliyevə məxsus üst geyimi – palto. HƏM-430/28-27;

13. Heydər Əliyevə məxsus papaq (baş geyim). HƏM-433/28;

14. Heydər Əliyevə məxsus kostyum. HƏM-434/SA-29;

15. Heydər Əliyevə məxsus qalstuk. HƏM-436/SA-31;

16. Ulu öndərimizin Naxçıvanda istifadə etdiyi neft lampası. HƏM-216/SA-11;

17. Ulu öndərimizin Naxçıvanda istifadə etdiyi telefon aparatı. Ölçüsü 19x5 sm. HƏM-215/SA-10;

18. Ulu öndərimizin üzərində gəzdirdiyi miniatür "Qurani-Kərim" ayəsi, Ölçüsü 85x6,3sm. HƏM-50/S-13;

19. Ulu öndərimizə məxsus eynək. Ölçüsü 15sm. HƏM-3778;

20. Ulu öndərimizin qızıldan hazırlanmış imzası , Ölçüsü 3,5sm. HƏM-291/T-21;

Respublikamızın Prezidenti cənab İlham Əliyev dəfələrlə muzeyi ziyarət etmiş, ekspozisiyalar, muzey haqqında fikirlərini, rəylərini qeyd etmişdir.

Nəticə olaraq deməyi lazım bilirik ki, müstəqil respublikamızın memarı və qurucusu, xalqımızın böyük azərbaycanlısı Heydər Əliyevin həyat yolu ictimai-siyasi, dövlətçilik fəaliyyətindən bəhs edən muzeyin yaradılması və fəaliyyəti muxtar respublikamızın həyatında, onun gələcək inkişaf, tərəqqisində çox mühüm və işıqlı yol göstəricisi olacaqdır.

Ümummilli liderimizin, zəmanəzmizin böyük azərbaycanlısının dediklərindən:

-*"Hər bir insan üçün milli mənsubiyyət onun qürur mənbəyidir".*

-*"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".*

-*"Məm balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qirx nəfər sevinib. Indi bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma*

*canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibəgahımdır. Bütün süurlu ömrümü onun inkişafina, tərəqqisinə həsr etmişəm".*

*-"Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın müstəqilliyi tarixi hadisədir. Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil-qüdrətli Azərbaycan dövlətini çatdırmaqdan ibarətdir".*

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997
2. Heydər Əliyev yolu 1923-2003. Naxçıvan, 2009
3. Heydər Əliyev Muzeyi, Buklet. Naxçıvan, 2007
4. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvanda Heydər Əliyev Muzeyinin rəy kitabında "Ürək sözləri". "Naxçıvan Abidələri Ensiklopediyası", Naxçıvan, 2008
5. Abilxan Bayramov. Heydər Əliyev və muzeylərimiz. Bakı, "Şeir" nəşriyyatı, 1999
6. Naxçıvanda Heydər Əliyev Muzeyinin ekspozisiya materialları. Naxçıvan, 2002
7. Sübhi Kəngərli. Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır. Naxçıvan. "Əcəmi", 2003
8. Naxçıvan Abidələri Ensiklopediyası. Naxçıvan, 2008


## SUMMARY

**Subhi Kengerli**

## HEYDAR ALIYEV MUSEUM

Our national leader, great Azerbaijani, world-famous socio-political figure, beloved of the Azerbaijani people, founder and architect of the modern Republic of Azerbaijan, honorary of the Azerbaijanis of the world Heydar Alirza oglu Aliyev during his years of leadership in Azerbaijan statehood, socio-political, national economy, economy, science and education, culture and the arts, served at a high level in all spheres of development of society, and determined the ways of future construction.

***Key words:*** *Heydar Aliyev, museum, education, science, national economy, creativity.*

## РЕЗЮМЕ

**Субхи Кенгерли**

## МУЗЕЙ ГЕЙДАРА АЛИЕВА

Наш общенациональный лидер, великий азербайджанец, всемирно известный общественно-политический деятель, возлюбленный азербайджанского народа, основатель и архитектор современной Азербайджанской Республики, заслуженный азербайджанцев мира Гейдар Алирза оглу Алиев за годы руководства Азербайджанской государственностью, общественно-политической, национальной экономикой, экономикой, наукой образование, культура и искусство служили на высоком уровне во всех сферах развития общества и определили пути построения будущего.

***Ключевые слова:*** *Гейдар Алиев, музей, образование, наука, народное хозяйство, творчество.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 39-43
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 39-43
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 39-43

**TURAN HƏŞİMOVA**
*turanheshimova@mail.ru*
**VƏLİ BAXŞƏLİYEV**
*velibahshaliyev@mail.ru*
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 94(479.242)**

# NAXÇIVANIN ORTA TUNC DÖVRÜNÜN METAL ƏŞYALARINDA ƏKS OLUNAN İNANCLAR

*Araşdırmalar göstərir ki, bu əşyaların hazırlanması zamanı onların bədii cəhətdən də mükəmməl olmasına fikir verilmişdir. Ortasından qabarıq xətt keçən yastı tiyəli xəncərlərin proporsionallığı bunu sübut edir. Bu baxımdan Çalxanqala kurqanlarından tapılmış xəncərlər xüsusilə diqqəti cəlb edir. Onlar silah olmaqla bərabər, həm də gözəl sənət əsərləridir. Tökmə üsulu ilə hazırlanan xəncərlərin tiyəsi yuxarıda oval çiyinlərlə tamamlanaraq yastı saplaqlara keçid əmələ gətirir. Xəncərlərin ortasından qabarıq xətt keçirilməsi onların möhkəmliyini və bədii xüsusiyyətlərini daha da artırmışdır.*

***Açar sözlər:*** *Naxçıvan, Orta Tunc, bəzək əşyaları, ilanbaşlı bilərziklər, ovsun*

Araşdırmalar göstərir ki, Orta Tunc dövrünün mənəvi mədəniyyəti və ideologiyası metal əşyalarda da əks olunmuşdur. Naxçıvanın Orta Tunc dövrü abidələrində metaləritmə ləvazimatının və metalişləmə emalat-xanalarının qalıqlarının aşkar olunması metal emalının ixtisaslaşdığını təsdiq edir (5, s. 72-75). Bu dövrdə misə müxtəlif aşqarlar qatılması üsulunun mənimsənilməsi yüksək keyfiyyətli metal istehsalı üçün şərait yarat-mışdır. Orta Tunc dövrünün metal məmulatı başlıca olaraq silahlardan (Şəkil 1) və müxtəlif bəzək əşyalarından ibarətdir (Şəkil 2). Silahlar yastı tiyəli xəncərlər, boru dəstəkli nizə ucları və ox ucluqları ilə təmsil olunmuşdur.

Silahlar içərisində Qızılburundan tapılan Ön Asiya tipli xəncər də diqqəti cəlb edir (Şəkil 1, 5). O, olduqca mükəmməl hazırlanmış, dəstəyinin ortasında ağac inkrustasiya üçün çərçivə qoyulmuşdur. Xəncərin tiyəsi boyunca keçən batıq xətlər onun bədii gözəlliyini daha da artırmışdır (Şəkil 1, 5).



Şəкil 1. Orta Tunc dövrünə aid bədii metal məmulatı:
1, 7 – Çalxanqala; 5-Qızılburun; 10 – Şahtaxtı.

Orta Tunc dövrü abidələrindən müxtəlif növ bilərziklər, balıqqulağı və muncuq keçirilmiş sırğalar, üzüklər də aşkar edilmişdir. Bəzək əşyaları içərisində tunc sancaqlar xüsusilə zövqlü hazırlanmaları ilə seçilir (Şəkil 2, 11-20). Onların üzəri qoşa cızma və çərtmə naxışlar sırası ilə bəzədilmiş, yuxarısına isə farfor başlıq taxılmışdır. Sancaqların bəzisi beş çıxıntılı, bəzisi piramidal başlıqlı, bəzisi isə oval başlıqlıdır. Sancaqların biri cızma ornamentlə naxışlanmışdır.

Qeyd etmək istərdik ki, keramika və metal məmulatının naxışlanmasındakı bənzərlik, onların eyni mədəniyyətin məhsulu olduğunu göstərməklə bərabər, cəmiyyətdə yüksək sənətkarlıqla hazırlanmış əşyalara tələbatın get-gedə artdığını da göstərir.

Orta Tunc dövrünə aid metal məmulatının müqayisəli təhlili və onların spektral analizi Orta Tunc dövrü mədəniyyətinin mənşəyi və mədəni mənsubiyyəti ilə bağlı bir sıra məsələləri aydınlaşdırmağa imkan verir.



Şəkil 2. Orta Tunc dövrünə aid bədii metal məmulatı:
1, 2, 3, 6, 9, 11 - 18, 21, 22 – Qızılburun; 4, 5, 7, 8, 10 – Şahtaxtı;
19, 20 – Çalxanqala.

Bu dövrdə metal emalında istifadə olunan mis ərintilərinin çeşidi artmışdır. Əgər Erkən Tunc dövründə başlıca olaraq mis-arsen ərintisindən istifadə edilmişdirsə, bu dövrdə mis ərintilərinin çeşidi artmış və yeddi tipə çatmışdır. Birinci tip azacıq qurğuşun, sink, arsen qarışığı olan mis əşyalarla təmsil olunmuşdur. Digər tiplər mis-arsen, mis-qalay, mis-qalay-qurğuşun, qurğuşun-arsen, mis-qurğuşun-arsen ərintiləri ilə təmsil olunmuşdur. Bu dövrdə mis-arsen ərintilərinin təklikdə tətbiqi azalmışdır. Qurğuşun və qalay qarışığı olan ərintilər isə artmışdır. Arsenin aşqarlayıcı metal kimi istifadəsinin azalması onun zərərli təsirləri ilə izah edilə bilər.

Bu dövrdə iqtisadi mədəni əlaqələrin genişlənməsi Uzaq Şərq ölkələrindən qalay gətirilməsinə şərait yaratmışdır. Texnoloji yeniliklərin tətbiqi, metal emalı ilə məşğul olan sənətkarların ixtisas biliklərinin artması, misə digər aşqarlar qatmağa və metal ərintisinin axıcılığını artırmağa imkan

vermişdir. Bu dövrdə metal əşyaların tərkibində qurğuşundan geniş istifadə edilməsi diqqəti çəkir. Araşdırmalar göstərir ki, qurğuşun metal ərintisinə onun axıcılığını artırmaq məqsədi ilə qatılmışdır. Yüksək zövqlü, qüsursuz metal əşyaların hazırlanması üçün bu əsas şərtlərdən biri olmuşdur.

Araşdırmalar Orta Tunc dövrü metal məmulatının hazırlanmasında ikiüzlü qəliblərdən və mum modelə uyğun olaraq, hazırlanan qəliblərdən istifadə edildiyini göstərir. Çalxanqala, Qızılburun nekropollarından aşkar olunan xəncərlərin olduqca mükəmməl olması onların mum modelə uyğun olaraq, hazırlandığını bir daha təsdiq edir. Çalxanqaladan aşkar olunan saplaqlı, yastı tiyəli xəncərlərin tiyəsi boyunca keçən qabarıq zolaq ona möhkəmlik verməklə bərabər, bədii cəhətdən mükəmməl olmasını da təmin etmişdir. Digər tərəfdən Çalxanqala kurqanlarından aşkar olunan tunc xəncərlərin formaca bir-birini təkrar etməsi onların təkrar istehsalının mənimsənildiyini göstərir. Çalxanqala kurqanlarından aşkar olunan piramidal başlıqlı sancaqlar və Qızılburunun sancaqları onların tək-tək deyil, seriya ilə istehsal edildiyini deməyə əsas verir.

Boru dəstəkli nizə ucluqları ikitərəfli, açıla bilən qəliblərdə hazırlanmışdır. Əşyaların olduqca mükəmməl olması və seriya ilə hazırlanması onların daş qəliblərdə hazırlanma texnologiyasının da mənimsənildiyini göstərir. Bəzi bəzək əşyalarının hazırlanmasında, xüsusilə bilərzik, üzük, sırğa və asmaların istehsalında standart metal çubuqlardan istifadə edilmişdir. Bu əşyaların istənilən formaya salınması üçün müxtəlif texnoloji üsullardan, xüsusilə döymə, yonma, burma və s. istifadə edilmişdir. Qızılburundan aşkar olunan Tunc sancaqlar oyma və cızma üsulu ilə xüsusi kompozisiya ilə naxışlanmışdır. Araşdırmalar Orta Tunc dövrünün əvvəllərindən başlayaraq metalişləmə texnologiyasının standartlaşdığını göstərir. Bu isə metal emalı ilə bağlı xüsusi alət və ləvazimatların olduğunu göstərməklə bərabər, istehsalın stabil inkişafını təmin edən ixtisaslaşdırılmış emalatxanaların olduğundan xəbər verir.

Orta Tunc dövrünün əvvəllərindən başlayaraq mis-arsen ərintiləri ilə bərabər, mis-qalay ərintilərindən istifadə edilməyə başlanması belə ehtimal etməyə imkan verir ki, e. ə. III minilliyin ikinci yarısında mis-arsen ərintilərinin qalaylı tuncla əvəz edilməsi dövrü olmuşdur. Analoji vəziyyət Yaxın Şərq ölkələrində də müşahidə edilmişdir. Anadoluda aparılan araşdırmalar zamanı Assurlu tacirlərin qalay ticarəti ilə məşğul olması və qalay ticarətində Mesopotamiyanın önəmli rol oynadığını göstərmişdir (5, s. 98). Yaxın Şərqdə əldə edilən texnoloji nailiyyətlərin tezliklə mənimsənilməsi Naxçıvan tayfalarının yüksək iqtisadi-mədəni inkişaf səviyyəsi ilə bağlı olmuşdur.

Azərbaycanda, o cümlədən Naxçıvan abidələrində qalaylı tuncun meydana gəlməsi Boyalı qablar mədəniyyətinin yayılması ilə eyni vaxta düşür. Bu fakt şübhəsiz ki, Boyalı qablar mədəniyyətini daşıyan tayfaların Ön Asiya ilə sıx bağlı olduğunu göstərir. Naxçıvanın Orta Tunc dövrü mədəniyyətinin Yaxın Şərq ölkələri ilə sıx iqtisadi-mədəni əlaqələr şəraitində formalaşdığını, həmçinin metal əşyaların tipoloji analizi də göstərir.

Orta Tunc dövrünə aid Qızılburun xəncərləri formaca Yaxın Şərq ölkələrində aşkar olunan xəncərlərlə bənzərdir. A.A.Martirosyanın bu xəncərləri Ermənistandan aşkar olunan xəncərlərlə müqayisə etməsi tamamilə yanlışdır (7, s. 67). Çünki Qızılburun xəncərləri özünəməxsus xüsusiyyətləri ilə fərqlənirlər.

Çalxanqala kurqanlarından aşkar olunan xəncərlərin bənzərlərinə Yaxın Şərq abidələrində rastlanmamışdır. Onlar yalnız bəzi ümumi əlamətlərinə görə Ön Asiya nümunələri ilə müqayisə edilə bilər. Bu baxımdan Qızılburundan aşkar olunan Ön Asiya tipli xəncər maraq doğurur. Bu tip xəncərlər e. ə. II minilliyin ikinci yarısında İran ərazisində və Cənubi Qafqazda geniş yayılmışdır (8, s. 33-84). O.H.Həbibullayev bu xəncəri e. ə. XV-XIV əsrlərə (3, s. 203), V.H.Əliyev isə e. ə. XIV əsrə aid etmişdir (2, s. 122). Ön Asiya ölkələri ilə intensiv əlaqələrin olduğunu, həmçinin Çalxanqala kurqanlarından aşkar olunan piramidal və beş çıxıntılı başlığı olan tunc sancaqlar da sübut edir.

Orta Tunc dövrü abidələrindən az da olsa, qızıl və gümüş əşyaların aşkar edilməsi zərgərlik sənətinin inkişafı haqqında məlumat verir. Bu əşyaların biri V.H.Əliyev (1, s. 70), digəri isə Ə.K.Ələkbərov (4, s. 255) tərəfindən aşkar olunmuşdur. V.H.Əliyev tərəfindən aşkar olunan toqqa dairəvi tunc çərçivə və lövhəşəkilli gümüş üzlükdən ibarətdir. Bu üzlük bir-biri içərisində yerləşdirilmiş üçbucaqlar, üçbucaqların arasında və mərkəzi hissədə relyef dairə ilə naxışlanmışdır

(Şəkil 2, 8). Buna bənzər qızıl üzlüklü toqqa Ə.K.Ələkbərov tərəfindən tədqiq edilən Şahtaxtı qəbirindən aşkar olunmuşdur. At əsləhəsinə aid olan bu toqqa O.H.Həbibullayev tərəfindən nəşr edilmişdir. Onun fikrinə görə, bu əşya yarımşarşəkilli formada olub, naxışsızdır. Bu əşyaların bənzərlərinə qonşu ölkələrdə rastlanmamışdır. Lakin onlardan birinin naxışlanma motivi Cənubi Qafqaz və Şərq ölkələrindən aşkar olunan əşyalarla bənzərdir (6, s. 121).

Araşdırmalar göstərir ki, Naxçıvandan aşkar olunan metal əşyaların əksəriyyəti yerli istehsala aiddir. Bunu əşyaların əksəriyyətinin tərkibində yüksək faizli arsen qarışığına rastlanması, yaşayış yerlərində metalişləmə ocaqlarının və metal emalında işlədilən alətlərinin tapılması da sübut edir.

Orta Tunc dövrünə aid metal məmulatı qədim insanların yalnız estetik zövqünü deyil, həm də ideoloji təsəvvürlərini əks etdirmişdir. Qızılburundan aşkar olunan beş çıxıntılı başlığı olan sancaqlar, yuxarıda qeyd etdiyimiz kimi, insanların dünyanın beş hissəli horizontal quruluşu ilə bağlı təsəvvürlərini əks etdirmişdir. Paltara taxılan, yaxud ritual məqsədlə işlədilən bu tip sancaqlar insanları dünyanın dörd tərəfindən və göydən gələn bəlalardan qorumalı idi.

Qızılburun nekropolunun metal məmulatı arasında olan boyunbağıların bəzisinin bir ucu ilan başı formasında hazırlanmış, gövdəsi isə dərin gəzlərlə naxışlanmışdır. Şübhə yoxdur ki, bu tip boyunbağılar ilana bənzədilmişdir. Belə bəzək əşyalarının hazırlanması, fikrimizə görə, ovsunla bağlı olmuş və praktiki olaraq qoruyucu funksiya daşımışdır. Son zamanlaradək Azərbaycan xalqı arasında yaşayan ovsunlama adəti zamanı ovsunçu ilanı uşağın qoluna və boynuna dolayaraq ovsun mərasimini icra edirmiş. İnanca görə ilan ovsunlanmış uşağa yaxın düşməz, onu vurmazmış. Tunc dövrünün sonuncu mərhələsində və Dəmir dövründə yayılan ilan başlı bilərziklər də, şübhəsiz ki, bu funksiyanı daşımışdır.

Araşdırmalar göstərir ki, Orta Tunc dövrünün metal əşyaları həmçinin o dövrdə yaşayan insanların mənəvi mədəniyyəti və ideologiyasını da əks etdirmişdir. Orta Tunc dövrünə aid metal məmulatı həm qədim insanların estetik zövqü, həm də ideoloji təsəvvürləri ilə bağlı olmuşdur. Arxeoloji abidələrdən aşkar olunmuş beş çıxıntılı sancaqlar, ilanbaşlı bilərziklər və boyunbağılar fikrimizə görə, ovsunla bağlı olmuş və praktiki olaraq qoruyucu funksiya daşımışdır. Paltara taxılan, yaxud ritual məqsədlə işlədilən bu tip sancaqlar və bilərziklər insanları dünyanın bəd qüvvələrindən və bəlalardan qorumalı idi.

## ƏDƏBİYYAT


1. Əliyev V.H. Şahtaxtının tunc dövrü abidələri. Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1974, №4, s. 70-82
2. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bакı, Elm, 1977, 140 s.
3. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм, 1982, 316 с.
4. Алекперов А.К. Крашенная керамика Нахичеванского края и Ванское царство. Советская археология, 1937, № 4, с. 249-264
5. Бахшалиев В.Б. Металлургия и металлообработка на территории древней Нахичевани. Дисс. на соиск. канд. исторических наук, Ленинград, 1986, 187 с.
6. Джапаридзе О.М. Археологические раскопки в Триалети в 1959-1962 г.г., Советская археология, 1964, № 2, с. 102-121
7. Мартиросян А.А. Армения в эпохи бронзы и раннего железа. Ереван, Изд-во АН Арм. ССР, 1964, 313 с.
8. Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. М., 1977, 248 с.

**SUMMARY**

**Turan Hashımova, Velı Bakhshalıyev**

**THE BELIEFS REFLECTED IN MIDDLE BRONZE AGE METAL OBJECTS OF NAKHCHIVAN**

Researches show that the spiritual culture and ideological representations of that time are reflected in metal objects of Middle Bronze Age. Metal products of Middle Bronze Age are connected by esthetic tastes and ideology of ancient people. Five-headed pins, bracelets and necklace with snake heads, as we think, connected with protective functions thus jewelry. The similar pins, bracelets and necklace which are put on a dress have to preserve people against angry spirit and troubles.

***Key words:*** *Nakhchivan, Middle Bronze Age, jewelry, bracelets with snake heads, exorcism*

**РЕЗЮМЕ**

**Туран Гашимова, Вели Бахшалиев**

**ВЕРОВАНИЯ, ОТРАЖЕННЫЕ НА МЕТАЛЛИЧЕСКИХ ИЗДЕЛИЯХ ЭПОХИ СРЕДНЕЙ БРОНЗЫ НАХЧЫВАНА**

Исследования показывают, что на металлических предметах эпохи средней бронзы отражены духовная культура и идеологические представления того времени. Металлические изделия эпохи средней бронзы связаны и эстетическими вкусами и идеологическими представлениями древних людей. Пяти шишечные булавки, браслеты и шейные гривны змеиными головками по нашему мнению практически были связаны заклинанием и имели оберегающее значение. Подобные булавки, браслеты и гривны, надетые на платье должны оберечь людей от злых дух и бедствий.

***Ключевые слова:*** *Нахчыван, эпоха средней бронзы, предметы украшения, змееголовые браслеты, заклинание*

**Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant№ EİF-KETPL-2-2015-1(25)-56/47/5**

***Məqaləni çapa təqdim etdi:*** *AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev*
***Məqalə daxil olmuşdur:*** *01 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 44-50
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 44-50
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 44-50

**NURLANA ƏLİYEVA**
*nurlana_aliyeva@yahoo.com*
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 94(479.242)**

# NAXÇIVANDA ƏKİNÇİLİYİN TARİXİ COĞRAFİYASI (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

*Naxçıvan diyarı qədim zamanlardan kənd təsərrüfatının inkişaf etdiyi regionlardan biri olmuşdur. Hələ e.ə. VI-I minilliklərdə Naxçıvan Azərbaycanın əkinçilik mədəniyyəti ocaqlarından biri idi. Əkinçilik təsərrüfatının inkişafı üçün Naxçıvan diyarında hər cür əlverişli təbii şərait mövcuddur. Münbit torpaq sahələrinə malik olan Naxçıvan dənli bitki növlərinin - yabanı buğda və arpanın ən qədim vətəni hesab edilir. İstər xanlıqlar dövründə, istərsə də XIX-XX əsrin əvvəllərində Naxçıvan diyarının əhalisinin əsas məşğuliyyətlərindən biri əkinçilik idi. Tarixin müxtəlif dövrlərində əkinçiliyin inkişafı eyni səviyyədə olmamışdır. XIX əsrin ikinci rübünədək inkişaf yüksək səviyyədə olsa da, daha sonrakı dövrlərdə əsasən də Türkmənçay müqaviləsindən (1828) sonra qədim türk, oğuz yurdu olan Naxçıvanın tarixi-coğrafiyasında bir neçə dəfə dəyişiklik edilmiş, bu onun kənd təsərrüfatının tarixi coğrafiyasına da təsir göstərmişdir. Buna görə də, kənd təsərrüfatı məhsulları bəzi dövrlərdə azalmış, bəzi dövrlərdə isə artmışdır.*

***Açar sözlər**: Naxçıvan diyarı, XIX-XX əsrlər, əkinçilik, təbii şərait, tarixi coğrafiya, məşğuliyyət*

Naxçıvan Muxtar Respublikasının ərazisi e.ə. VI-I minilliklərdə Azərbaycanın əkinçilik mədəniyyəti ocaqlarından biri olmuşdur. Əkinçilik təsərrüfatının inkişafı üçün Naxçıvan diyarında hər cür əlverişli təbii şərait mövcuddur. Münbit torpaq sahələrinə malik olan Naxçıvan dənli bitki növlərinin - yabanı buğda və arpanın ən qədim vətəni hesab edilir. İri tayfa ittifaqlarının yarandığı tunc dövründə Naxçıvanda əkinçilik təsərrüfatı daha intensiv şəkildə inkişaf etmişdir. Tarixi Naxçıvan diyarında əkinçiliyi inkişaf etdirmək üçün əkin sahələri su mənbələrinə yaxın yerlərdə, çay kənarlarında salınmışdır. Qədim zamanlardan belə Naxçıvanda suvarma əkinçiliyi geniş yayılmışdır. Belə ki, bölgənin təbii-coğrafi və torpaq iqlim şəraiti daha qədimlərdən belə burada suvarma əkinçiliyinin zəruriliyini qarşıya qoymuşdur. T.Bünyadov mənbələrə əsaslanaraq Azərbaycanda, o cümlədən Naxçıvanda suvarma əkinçiliyinin qədim dövrdə formalaşdığını yazır. Eyni zamanda e.ə. I minillikdə kəhriz sisteminin inkişaf etdiyini, onun suvarmada böyük rol oynadığını göstərir [2, s. 24-25]. Ancaq bunlara baxmayaraq, əkinçiliyin əsas sahələrindən olan taxılçılıq süni suvarmaya əsaslanmaqla bərabər, onun demyə (dəmyə) forması da inkişaf etmişdir. Naxçıvan ərazisində suvarma əkinçiliyi əsasən dağətəyi və düzənlik sahələrdə yayılmışdır. Dəmyə əkinçilik isə vilayətin ancaq dağlıq ərazisində mövcud olmuşdur. Aran zonada isə yağışın və şehin az düşməsi suvarma əkinçiliyinə üstünlük verilməsinə səbəb olmuşdur. Ümumiyyətlə, suvarma əkinçiliyi daha məhsuldar olmaqla ona üstünlük verilmişdir.

İstər xanlıqlar dövründə, istərsə də XIX-XX əsrin əvvəllərində Naxçıvan diyarının əhalisinin əsas məşğuliyyəti əkinçilik və maldarlıq idi. Tarixi ədəbiyyatların və dövrün mənbələrinin məlumatına görə, Naxçıvan xanlığında əsas kənd təsərrüfatı sahəsi taxılçılıq idi. Taxılçılıqda əsasən buğda, arpa və darı əkilirdi. Taxılçılıqla demək olar ki, əhalinin əksəriyyəti məşğul olurdu. Hətta maldarlar da öz şəxsi istifadələri üçün taxıl əkirdilər [4, s. 34]. Naxçıvan xanlığının İran tabeliyində olduğu illərdə burada ildə 10 min xalvar buğda toplamışdılar. Ordubad bölgəsində torpağın böyük bir hissəsində də buğda əkilirdi [1, s. 43]. Bütün bunlara baxmayaraq, Rus-İran işğallarının davam etdiyi dövrdə Naxçıvan xanlığı bir neçə dəfə İran və Rusiya qoşunlarının qətl və qarətlərinə məruz

qaldığından əkin sahələri qoşunların tapdağı altında qalmış, əhalinin taxıl ehtiyatı, mal-qarası zorla əlindən alınmış, minlərlə ailə ev-eşiyindən məhrum olmuşdu. Bununla yanaşı, sadə xalq kütləsi hərbi əməliyyatlar səngiyən kimi öz yurdlarına qayıtmış, yüzilliklər boyu məşğul olduğu əkinçilik təsərrüfatını dirçəltməyə başlamışlar. 1826-1828-ci illər ikinci Rusiya-İran müharibəsi zamanı yenidən Naxçıvan ərazisinə, onun təsərrüfatına böyük ziyan vurulmuşdu.

Sonrakı dövrdə Naxçıvan diyarının Rusiya imperiyasının tərkibinə qatılması ilə bölgədə yaranmış siyasi sabitlik təsərrüfat həyatının inkişafına müsbət təsir göstərmişdi. Əyalətin ayrı-ayrı mahalları üzrə kənd təsərrüfatı məhsullarının əkilməsi sahəsində fərqli cəhətlər mövcud olmuşdur. Ancaq, taxıl bütün əyalət üzrə əkilmişdir. Taxılçılıqda payızlıq və yazlıq əkini mövcud idi. Daha çox payızlıq əkinə üstünlük verilirdi. Bu, ildən də asılı idi. İl quraqlıq olduqda torpaqlar şumlanıb yaza hazır saxlanılırdı və erkən yazda yazlıq buğda və arpa əkilirdi. Əgər yazlıq əkin yubadılsa, o taxıl verməz, ot olar. XX əsrin əvvəlində elə bir kənd olmamışdır ki, (istər dağ, dağətəyi, istərsə də aran kəndlərdə) suvarma yolu ilə taxıl, bostan, tərəvəz və digər təsərrüfat sahələri əkilib becərilməsin.

XIX əsrin 30-cu illərindən etibarən əkinçilik təsərrüfatında nəzərə çarpan dəyişikliklər baş verdi. Bu özünü aparıcı əkinçilik sahəsi olan taxılçılıqda da göstərdi [5, s. 81]. İşğaldan sonra Çar hökuməti Şimali Azərbaycanda taxıl istehsalının artırılması üçün XIX əsrin ortalarında bir sıra mühüm addımlar atmışdı. Məsələn, taxılçılıqda məhsuldarlığın artırılması üçün yerli taxıl növlərinə nisbətən daha çox məhsul əldə etməyə imkan verən xarici buğda, arpa və çəltik növlərinin becərilməsinə təşəbbüs göstərilmişdi. Qafqaz canişinliyi Dövlət əmlakı nazirliyinin yardımıyla Novorossiysk diyarından və xaricdən yüksək məhsuldarlığı ilə seçilən taxıl növləri gətirilmişdir [16, s. 160-171].

XIX əsrin ortalarında Şimali Azərbaycanda, o cümlədən Naxçıvanda taxılçılıq məhsulları istehsalında nisbi irəliləyiş baş verir. Naxçıvan bölgəsində taxılçılıq və digər kənd təsərrüfatı məhsullarının tarixi coğrafiyasını araşdırmaq üçün ilk növbədə onun inzibati bölgüsündə baş verən dəyişikliyi nəzərə almaq lazımdır. Çünki tədqiqata cəlb etdiyimiz dövrdə, yəni 1828-1924-cü illərdə Naxçıvan bölgəsinin tarixi coğrafiyasında müəyyən dəyişikliklər baş vermişdir.

AMEA-nın müxbir üzvü Z.Şahverdiyev XIX əsrin ikinci yarısına uyğun olaraq, yazır ki, Naxçıvan bölgəsinin torpaqları yeni inzibati bölgüyə görə Naxçıvan qəzası və Şərur-Dərələyəz qəzasının Şərur sahəsini əhatə edirdi. Lakin qaynaqlarda bütün hesablamalar qəzalar üzrə aparıldığından Şərur üzrə göstəriciləri müəyyənləşdirmək üçün ümumi göstəricinin yarısı Naxçıvana aid edilib Naxçıvan qəzası ilə cəmlənəcəkdir [12, s. 61]. Tarixçi alim Şahverdiyev Z. göstərir ki, Şərur-Dərələyəz qəzasının Dərələyəz bölgəsi dağlıq yerlər olduğundan, burada, əsasən, maldarlıq inkişaf etmişdi. Taxılçılıq, əsasən, Şərurda yerləşirdi. Ona görə də bütövlükdə Naxçıvanda taxıl istehsalı vəziyyətini müəyyənləşdirmək üçün Naxçıvan qəzası və Şərur-Dərələyəzə aid göstəriciləri üst-üstə gəlmək lazımdır. Belə bir hesablama nəticəsində 1870-1875-ci illərdə orta hesabla Naxçıvan bölgəsində 3.072.000 pud, 1880-1885-ci illərdə 2.216.335 pud, 1886-1890-cı illərdə 3.109.397 pud, 1891-1895-ci illərdə 3.430.030 pud, 1896-1900-cü illərdə 3.526.670 pud taxıl məhsulları (buğda, arpa və düyü) istehsal edildiyini müəyyən etmək olar. Bu rəqəmlərdən aydın olur ki, 1870-1900-cü illər arasında ən yüksək istehsala 1896-1900-cü illərdə nail olunmuşdur. Əvvəlki dövrlərdə olduğu kimi taxılçılıq məhsulları içərisində buğda, arpa və çəltik əsas yer tuturdu. Bununla birgə pərinc, darı, vələmir, noxud, kartof da əkilirdi. Buğda becərilməsi ilə bütün bölgədə məşğul olurdular. Arpa istehsalı isə, əsasən, Naxçıvan qəzasında idi. Düyü becərilməsi ilə Şərurda məşğul olurdular [12, s. 62].

Dərələyəz mahalında buğda, arpa, noxud və meyvə yetişdirilirdi. Bu mahalın əkinə yararlı torpaqları əsas etibarı ilə gilli və qara torpaqlar olmuşdur. Diyarın demək olar ki, bütün mahallarında taxıl əkirdilər.

Ancaq bütün bunlara baxmayaraq, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının kənd təsərrüfatı rayonları olsa da, öz taxılları ilə təmin olunmurdular. Əkinçilikdə aqrotexniki tədbirlərin tətbiq edilməməsinin nəticəsi olaraq taxılın məhsuldarlığı xeyli aşağı idi.

Naxçıvan diyarında çox əkilən dənli bitkilərdən biri də çəltik idi. Bu bitki Naxçıvan şəhərinin ətrafında və eyni adlı mahalın 13 kəndində, Əlincə mahalının 6 kəndində və Dərələyəz mahalının qərb

hissəsində əkilib-becərilirdi. Çəltiyi suyun bol olduğu və düzənlik yerlərdə may ayında əkir və oktyabr-noyabr aylarında məhsulu toplayırdılar. Şərur torpağı çəltik bitkisi üçün daha məhsuldar idi. Şərurda Xanlıqlar, Daşarxlar və Şəngirey malikanəsindən başqa, bütün kəndlərdə çəltik əkilirdi [16, s. 88].

Naxçıvan bölgəsi əhalisinin zəngin ənənələrə söykənən əkinçilik mədəniyyətində texniki bitkilərin əkinin də özünəməxsus yeri olmuşdur. Belə bitkilərdən biri də pambıqçılıq idi. Orta əsrlərdə Azərbaycanda pambıqçılığın geniş yayıldığı bölgələr içərisində Naxçıvanın özünəməxsus yeri olmuşdur. Qriqoryev XVII əsrin ortalarında Azərbaycanda, xüsusən Naxçıvanda pambıqçılıq haqqında ətraflı məlumat vermişdir. Təkcə Naxçıvanda pambığın yeddi növü becərilirdi. Tədqiq olunan dövrdə də pambıqçılıq Naxçıvan diyarının əhalisi üçün çox faydalı məşğuliyyət idi və demək olar ki, bütün mahallarda əkilirdi. Əldə olan məlumata görə, Naxçıvan şəhərinin ətrafında və eyni adlı mahalın 20 kəndində Sust, Bulqan, Yarımca, Şıxmahmud, Xəlilli, Kültəpə, Uzunoba, Həsənağa dizəsi, Didivar, Nəzərabad, Nehrəm, Tumbul və.s. Xok mahalının bütün kəndlərində, Əlincə mahalının Ərəzin, Əbrəqunus, Culfa və Şurut kəndində və Ordubad bölgəsinin torpaqlarının 250 xalvarında pambıq əkilirdi [16, s. 70]. Belə ki, 1828-ci ildə Naxçıvan dairəsində 300 xalvar və ya 6 min pud pambıq istehsal olunmuşdur ki, bu da orta hesabla 30000 rubl gümüş pul edir. Yəni bazarda qoyunun satış qiymətinin 2 rubldan 3 rubla qədər olduğunu [16, s. 89] nəzərə alsaq, orta hesabla 10-15 min qoyunun qiyməti qədər gəlir olmuşdur. XIX yüzilliyin 80-ci illərində Naxçıvanda pambıqçılığın inkişafını göstərən faktlardan biri də Naxçıvan, Ordubad və Dərələyəz mahallarından 2 min manatlıq pambıq xammalının ixrac edilməsidir. Ş.Həsənov mənbələrə əsaslanaraq yazır ki, 1884-cü ildə Şərur-Dərələyəzdə hər desyatin əkin sahəsindən 15 pud yerli, 20 pud isə amerikan növü təmizlənmiş pambıq əldə edilmişdir. İstehsal yerində təmizlənmiş yerli növ 6 man 15 qəpiyə, amerikan növü isə 7 manata satılırdı. Satış üçün nəzərdə tutulmuş pambıq kipləri (bağları) Yengicə kəndində xüsusi anbara gətirilir, buradan da İrəvan və Tiflisdən alıcılar gəlib alıb aparırdılar [6, s. 70]. XIX əsrin 80-90-cı illərində Naxçıvan bölgəsində pambıq əkin sahələri artmaqda davam etmişdi. Ümumi məhsulda Şərurun payı daha yüksək idi:1896-1900-cu illərdə 72, 5% olmuşdu [9, s. 63].

Naxçıvan bölgəsində pambıq istehsalının vəziyyəti (pud ilə)

| İllər | Naxçıvan qəzası | Şərur-Dərələyəz qəzası | Cəmi |
|---|---|---|---|
| 1880 | 5427 | 13277 | 18704 |
| 1885 | 11000 | 62980 | 73980 |
| 1890 | 51600 | 156240 | 207840 |
| 1895 | 30000 | 70390 | 100390 |
| 1898 | 25000 | 11000 | 135000 |

Mənbə: Kazımbəyli İ. Naxçıvan əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər, s. 75).

1913-cü ildə Azərbaycanın pambıqtəmizləmə müəssisələrində 1000 nəfərdən artıq fəhlə işləyirdi. Onlardan 130 nəfərə qədəri Naxçıvan qəzasının payına düşürdü [1, s. 23].

Bəhs olunan dövrün əkinçilik təsərrüfatında - önəmli yerlərdən birini bağçılıq, xüsusən üzümçülük tutmuşdur. Bağçılığı inkişaf səviyyəsinə görə üç coğrafi rayona – Ordubad, Naxçıvan və Şərura bölmək olar. Ordubad bağçılığın əsasını təşkil edən meyvəçiliyə görə, nəinki Azərbaycanda, eləcə də bütün Cənubi Qafqazda məşhur idi. XIX əsrin 30-cu illərinə aid məlumatda Ordubad bölgəsində 200 xalvar əkin sahəsində meyvə bağları salındığı bildirilirdi, onun da 30 xalvarı Ordubad şəhəri və ətrafında yerləşmişdi. XIX əsrin 70-ci illərində aparılmış tədqiqatın nəticələrinə görə burada bağlar Gilançay, Üstüpüçay, Dırnısçay, Əylisçay və Ordubadçay ərazilərində yerləşən kəndlərdə (Kələki, Biləv, Gənzə, Danagird və b.) və Ordubad şəhərində idi [12, s. 41].

V.Qriqoryev yazır ki, Ordubad ərazisinin meyvələri öz dadına, keyfiyyətinə görə bütövlükdə Cənubi Qafqazda məşhurdur. Buranın quru meyvəsi İranın Qaradağ əyalətindən tutmuş Tiflis bazarına qədər digər ərazilərdə də bazara çıxarılır. Müəyyən olunmuş qiymətə əsasən yaxşı quru

əriyin bir batmanı (batman ayrı-ayrı şəhərlərdə fərqli olmuşdur. V.Qriqoryevin məlumatında təqribən 13 kq) 1 gümüş rub, albuxara 1,6 rub, şaftalı-50 qəpik. Bu minvalla 2 batman albuxara bazarda bir qoyun qiymətində olmuşdur. Ordubad dairəsində bütövlükdə 300 ha artıq bağ sahəsi olmuşdur ki, bunun da çoxunu meyvə bağları təşkil etmişdir [16, s.107]. Ordubad meyvələrinin əsas satış bazarlarından birini də İrəvan şəhəri təşkil edirdi. XIX əsrin sonlarına aid olan məlumata görə, hər il Ordubaddan İrəvan şəhərinə 15 min pud ancaq qurudulmuş ərik göndərilirdi [7, s.158].

Bağçılıqda əsas yerlərdən birini də üzümçülük tuturdu. Təkcə Naxçıvan şəhərində 45 ha qədər üzüm bağı olmuşdur. Üzüm bağının hər xalvarından orta hesabla 20 tümən və ya 80 rubl gümüş pul əldə edilmişdir (orta hesabla 30-40 qoyun dəyərində). Naxçıvan diyarının tarixinə dair yazılı mənbələrdən biri olan "Naxçıvan şəhəri və Naxçıvan qəzası" (1882) adlı məqalədə bölgənin təsərrüfat sahələrinə aid sanballı faktlar vardır. Qəzada əkinəyararlı torpaqların 53.000 desyatin olduğunu göstərən rus müəllifi Konstantin Nikitin yazır: Naxçıvan qəzasında üzüm bağları daha geniş sahələri əhatə edir. Qafqazda çox az yer olar ki, Naxçıvanda olduğu qədər çoxlu və bol üzüm olsun. Burada özünün rənginə, böyüklüyünə, forma və keyfiyyətinə görə 60 növdə üzüm vardır" [14, s. 134]. Şirinliyinə və tamlığına görə Naxçıvan üzümü xüsusilə seçilirdi. Üzümçülük və bağçılığın yüksək dərəcədə inkişaf etməsi müxtəlif növ bağçılıq məhsulları ilə ticarətin inkişafı üçün əlverişli şərait yaradırdı. Təkcə o faktı göstərmək kifayətdir ki, 1857-ci ildə Ordubad şəhərində ümumi dəyəri gümüş pulla 36 min rubl olan meyvə istehsal edilmişdi. İstehsal edilmiş bu meyvənin əsas satış bazarını Naxçıvan, İrəvan, Tiflis, Aleksandropol və digər şəhərlər təşkil edirdi. Hər il Ordubaddan Naxçıvan şəhərinə ümumi dəyəri 12 min rubl təşkil edən 20 min pud üzüm göndərilirdi [14, s. 135].

Ordubad üzümü öz tamına və formasına görə bölgədən kənarda da seçilir və tanınırdı. XIX əsrin sonu - XX əsrin əvvəllərində Ordubadda becərilən üzüm iki hissəyə: yerli və idxal qruplarına bölünürdü. Qriqoryev qeyd edir ki, Ordubad şirin və dadlı üzüm məkanı kimi Qafqazda tanınırdı [15, s.18]. Ancaq bir məsələni də qeyd edək ki, onun tədqiqatları o dövrkü inzibati-ərazi bölgüsünə uyğun araşdırılmışdır. Ona görə də Şərur və Sədərək bölgələrinin müəyyən əraziləri haqqında məlumatlar verilməmişdir.

Qafqazşünas R.N.İvanov yazırdı ki, 1840-cı ildə Naxçıvan şəhərində 50 desyatin, 1850-ci ildə 84 desyatin, 1866-cı ildə isə artıq 400 desyatin ərazidə üzüm bağı salınmışdır [13, s. 222]. Verilən məlumatlardan belə aydın olur ki, XIX əsrin sonlarında Naxçıvan bölgəsində üzümçülüyün həm əkin sahəsi, həm də ona müvafiq olaraq məhsulu xeyli çoxalmışdı.

Ordubadda tut ağaclarının əkininə xüsusi diqqət verilmişdir. Bu bir tərəfdən ipəkçiliklə bağlıdırsa, digər tərəfdən tutun meyvəsindən doşab, bəkməz hazırlanması, onun qurusunun çərəz kimi istifadə edilməsi ilə əlaqəlidir. Tut ağacı quraqlığa davamlı olmaqla o Naxçıvan əyalətinin bütün məntəqələrində becərilirdi. Tək-tək həyətlər olardı ki, onlarda bir neçə tut ağacı olmasın. Xalq arasında ona "çörək ağacı" da deyilməkdədir. İnsanlar tut qurusundan, dağ armudundan daha çox istifadə etmişlər. Hətta aclıq illərində dağ armudu və tut qurusunu əldaşında (kir-kirədə) çəkib un hazırlamışlar və onu buğda, arpa, hətta darı ununa qatıb çörək hazırlamışlar. V.Qriqoryev o dövrə aid məlumatlarında yazır ki, haliyədə Ordubad dairəsində 100 minə qədər tut ağacı var idi. Bu tut ağaclarının 10%, yəni 10 min ədədi Ordubad şəhərində ipəkçilikdə istifadə olunurdu. Kameral təsvirin məlumatına görə, Dəstə mahalından bütövlükdə 21, Biləv kəndində isə 5 batmanadək xam ipək hazırlanırdı. İpəkçilik, xüsusilə Ordubad bölgəsinə xas idi [16, s. 195]. Ordubad sahibkarlarından H.İ.Hacıyevin, H.M.Babayevin, H.Fərəcovun və başqalarının fabriklərini də qeyd etmək lazımdır [11, s. 22]. Lakin bu o demək deyil ki, başqa bölgələrdə ipəkçilik inkişaf etməmişdir. Y.Rəhimov mənbələrə əsaslanaraq Cənubi Qafqazın mühüm ipəkçilik mərkəzləri içərisində İrəvan quberniyasının- Naxçıvan və Şərur-Dərələyəz mahallarının olduğunu qeyd edir [9, s. 73].

Naxçıvan diyarında, xüsusilə Dərələyəz mahalında əkilən kətandan əsas etibarilə yağ almaq üçün istifadə olunurmuş. Arıçılıq və ipəkçiliklə, əsasən, Ordubad bölgəsində məşğul olurdular [1, s. 23].

Maraqlı məqamlardan biri, hazırda Naxçıvanda becərilməyən məhsullarla bağlıdır. Bunlar içərisində darı və çəltik diqqəti daha çox cəlb edir. Bu məsələdən bəhs edərkən belə düşünmək olar ki, Naxçıvanda çəltik əkilməsi çətin olan məsələlərdəndir. Lakin əsərdə verilən məlumatdan aydın

olur ki, 1828-ci ildə Naxçıvan dairəsində 500 xalvar və ya 160 ton düyü istehsal olunmuşdur [15, s.39]. Eyni müqayisəni bostan bitkiləri ilə apardıqda bəlli olur ki, bir xalvar (1,5 ha) əkin sahəsində min arx məhsul əkilmişdir ki, ondan da 80 rubl gümüş pul əldə olunmuşdur. Təbii ki, gəlir hesablanarkən daha çox satlığa çıxarılan məhsul nəzərə alınmışdır.

Naxçıvan diyarında əkinçilik təsərrüfatından bəhs edərkən bostançılıq təsərrüfatı haqqında da məlumat vermək istərdik. Naxçıvan diyarında, əsasən, qarpız və yemiş əkilən sahələrə bostan deyilirdi. XIX yüzilliyin 20-30-cu illərində bostan daha çox Naxçıvan və Əlincə mahallarında - Naxçıvan şəhərində, Yarımca, Şıxmahmud, Xəlilli, Qulubəydizəsi, Sirab, Nəzərabad, Cəhri, Məzrə, Qoşadizə, Tumbul, Sirab, Didivar, Yamxana, Təzəkənd, Nehrəm, Ərəzin, Əbrəqunus, Bənəniyar, Culfa, Saltaq, Noraşen, Xanağa kəndlərində əkilirdi [16, s. 90]. 1829-cu ildə Naxçıvan dairəsində 50 xalvar (75 desyatin) bostan sahəsi olmuşdur. XIX əsrin 60-cı illərində Naxçıvan şəhəri ətrafında 20 bostan qeydə alınmışdır. Naxçıvan diyarında qovunun, qarpızın xüsusi növləri olmuşdur. Kənd adları ilə adlanan qarpız, qovun növləri vardır ki, bunlardan "Vayxır" qarpızını, "Şahtaxtı" qovununu xüsusilə qeyd edə bilərik. Bölgədə qovunu xüsusi üsulla - tutma üsulu ilə becərirdilər. Belə qovunlar "tutma qovun" adlanırdı. Ş.Həsənov mənbələrə əsaslanaraq yazır ki, XIX yüzillikdə yaxşı tutma qovun Yuxarı Əylis, Aşağı Əylis, Əliabad kəndlərində yetişdirilirdi. Əliabad kənd əhalisi ildə becərdiyi 2000 pud tutma qovundan 400 gümüş manat (1 pud-25 qəpikdən) qazanırdı [6, s.104].

Birinci Dünya müharibəsi, həmçinin daşnak ermənilərinin arası kəsilməyən təcavüz və işğalları, qeyri-sabit hakimiyyət Naxçıvanın demək olar ki, bütün bölgələrində iqtisadiyyata böyük zərbə vurmuşdur. 1914-1920-ci illərdə pambıqçılıq, taxılçılıq, baramaçılıq təsərrüfat sahələri xeyli azalmış, üzüm, meyvə və tut bağlarının çox hissəsi sıradan çıxmışdır. Belə ki, göstərilən dövrdə barama istehsalı 20 min puddan 1,5 puda enmiş, pambıq istehsalı üç dəfə azalmışdı [10, s. 34].

İstər tədqiq edilən dövrdə, istərsə də ondan sonrakı dövrlərdə əkin sahələrini suvarmaq üçün süni suvarmadan geniş şəkildə istifadə edilmişdir. Burada Naxçıvançay, Küküçay, Qahabçay, Cəhriçay, Qarababaçay, Gilançay və s. çayları qeyd edə bilərik. Bundan əlavə, həmin çaylardan çəkilən arx və kanallar vasitəsi ilə də əkin sahələrini suvarardılar. Suvarma zamanı bulaq və kəhriz sularını qeyd edə bilərik. Kəhriz suları ilə həyətyanı sahələrin suvarılması Ordubad şəhəri üzrə xüsusilə geniş yayılmışdır. XX əsrin əvvəllərində Naxçıvan bölgəsində 407 kəhriz qeydə alınmışdır ki, bunlardan 100-dən çoxu Babək və Şahbuz rayonlarının payına düşürdü.

XIX əsrin sonunda Naxçıvan diyarında əkilib-becərilən kənd təsərrüfatı məhsullarının bir qismi satış üçün nəzərdə tutulurdu. Həmin məhsullar daxili bazarda müxtəlif qiymətlərə satılırdı. Ən ucuz dənli bitki darı, ən bahalı kənd təsərrüfatı məhsulu isə pambıq idi. Əldə olan məlumata görə 1884-cü ildə Şərur-Dərələyəzdə 1 pud çəltik 60 qəpiyə satılırmış. Əhalinin tələbatını ödəmək üçün yerli bazarlara çıxarılan kənd təsərrüfatı məhsulları qonşu ölkə və ərazilərə də ixrac edilirdi. İxracatda və xarici ticarətdə Ordubad bölgəsi xüsusi rol oynamışdır [9, s. 65].

Bütün bunlara baxmayaraq, bəzi tədqiqatçılara görə tədqiq olunan dövrdə Azərbaycanda kənd təsər-rüfatı ləng inkişaf edirdi. Bunun başlıca səbəbi yerli əkinçiliyin texniki və aqrotexniki cəhətdən geri qalması, kəndlilərin bəzi təsərrüfat səriştəsizliyi idi. Çar hökuməti Azərbaycanda yalnız Rusiya sənayesinin ehtiyac hiss etdiyi təsərrüfat sahələrinin inkişafına az-çox fikir verirdi [3, s.33].

Nəticə olaraq qeyd edə bilərik ki, XIX əsrin ikinci rübündən, daha doğrusu, Türkmənçay müqaviləsindən (1828) sonra qədim türk, oğuz yurdu olan Naxçıvanın tarixi-coğrafiyasında bir neçə dəfə dəyişiklik edilmiş, bu onun kənd təsərrüfatının tarixi coğrafiyasına da təsir göstərmişdir. Buna görə də kənd təsərrüfatı məhsulları bəzi dövrlərdə azalmış, bəzi dövrlərdə isə artmışdır.

## ƏDƏBİYYAT


1. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin birinci qərinəsi). Bakı, Elm, 1995, 96 s.
2. Bünyadov T. Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair. Bakı, Azərb. SSR. EA. Nəşriyyatı, 1964, 152 s.
3. Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı, Zaman, 1997, 256 s.
4. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı (1747-1828). Bakı, Azərnəşr, 1996, 106 s.
5. Hacıyeva S. XVIII-XIX əsrlərdə Naxçıvanda əkinçilik // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və humanitar elmlər seriyası, 2017, № 3, s.79-84
6. Həsənov Ş. Naxçıvan tarixi-etnoqrafik fenomendir. Bakı, "Xəzər Universiteti nəşriyyatı", 2009, 224 s.
7. Muradov V. XVIII-XX əsrin əvvəllərində Ordubad şəhərinin iqtisadi həyatına dair // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, 2016, № 5 (79). s.13 -17
8. Naxçıvan tarixi 3 cilddə, II cild. Naxçıvan, Əcəmi, 2014, 528 s.
9. Rəhimov Y. XIX əsrin sonlarında Naxçıvan bölgəsinin kənd təsərrüfatı // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, 2018, № 6 (95), s. 61-65
10. Sadıqov S. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, "İrşad mərkəzi" 1995, 144 s.
11. Seyidzadə D. Azərbaycanda XX əsrin əvvəllərində müstəqilliyə aparan yollar. Bakı, Ulduz, 1998, 187 s.
12. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı, Elm, 2008, 264 s.
13. Иванов Р.Н. Нашествие. Москва, Герои Отечества, 2009, 448 с., 39 илл. прил.
14. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд, / СМОМПК (сборник материалов для описания местностей и племен Кавказа), Т. II, Тифлис: Издание Управления Кавказского Учебного Округа, 1882, с. 109-142.
15. Пашаев А. Город Ордубад в XIX-начале XX вв. (историко-этнографическое исследование), Баку, Элм, 1998, 200 с.
16. Статистическое описание Нахичеванской провинции. Григоръев В. СПб, 1833, 263 с.


## SUMMARY

**Nurlana Aliyeva**

### HISTORICAL GEOGRAPHY OF AGRICULTURE IN NAKHCHIVAN (XIX-BEGINNING OF XX CENTURY)


Nakhchivan is one of the regions where agriculture has developed since ancient times. Even in the VI-VII centuries BC, Nakhchivan was one of the regions of agricultural development in Azerbaijan. Nakhchivan has all the necessary favorable natural conditions for the development of agriculture. Nakhchivan, having fertile lands, is considered the oldest native land of cereals species - wild wheat and barley. Agriculture was one of the main occupations of the population of Nakhchivan during the Khanate and in the early 19th and 20th centuries. In different periods of history, the development of agriculture was not the same.

Although up to the second quarter of the XIX century the development of agriculture was at a high level, but in subsequent years, the historical geography of Nakhchivan, the ancient Turkic-Oguz country, underwent significant changes after the Turkmenchay Treaty (1828). Therefore, agricultural production in some periods decreased, and sometimes increased.


***Key words:*** *Nakhchivan Territory, XIX-XX centuries, agriculture, natural conditions, historical geography, occupation*

**РЕЗЮМЕ**

**Нурлана Алиева**

**ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ ЗЕМЛЕДЕЛИЯ В НАХЧЫВАНЕ (XIX-НАЧАЛО XX ВЕКА)**

Нахчыванский край с древних времен был одним из регионов, где сельское хозяйство развивалось. Все еще в VI-I тысячелетии д.н.э. Нахчыван был одним из центров сельскохозяйственной культуры Азербайджана. Нахчыван имеет все необходимые благоприятные природные условия для развития сельского хозяйства. Нахчыван, имеющий плодородные земли, считается старейшей родиной видов пшеницы - дикой пшеницы и ячменя. Одним из основных занятий населения Нахчывана и во времена ханства, и в начале XIX и XX веков было земледелие. В разные периоды истории развитие сельского хозяйства не было одинаковым. Хотя до второй четверти XIX века развитие сельского хозяйства было на высоком уровне, но в последующие годы в исторической географии Нахчывана, древней тюрко-огузской страны в значительной степени произошли изменения после Туркменчайского договора (1828 г.). Поэтому сельскохозяйственное производство в некоторые периоды уменьшилось, а иногда и увеличилось.

***Ключевые слова:*** *Нахчыванский край, XIX-XX века, земледелие, природные условия, историческая география, занимательность.*

***Məqaləni çapa təqdim etdi****: AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev*
***Məqalə daxil olmuşdur:*** *01 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 51-56
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 51-56
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 51-56

**ZEYNƏB QULİYEVA**
*zeyneb.quliyeva.70@mail/ru*
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 94(479.242)**

# ARPAÇAY VADİSİNİN BOYALI KERAMİKASI (ENEOLİT DÖVRÜ MATERİALLARI ƏSASINDA)

*Məqalədə Arpaçay vadisinin eneolit keramikasının boyama və bəzəmə texnikası tədqiq edilmişdir. Arpaçay vadisinin boyalı keramikasının tədqiqi göstərir ki, bu regionun eneolit tayfalarının məşğuliyyətində əkinçilik və maldarlıqla yanaşı dulusçuluq, eyni zamanda boyaqçılıq da mühüm yer tutmuşdur. Xələc, Şortəpə və Ovçulartəpəsindən aşkar olunan boyalı keramika nümunələri Arpaçay vadisində 3 tip naxışlama üsulundan istifadə edildiyini göstərir. Birinci tipə ornamentlərin qırmızı yaxud qara boya ilə qabların birbaşa gili üzərindən çəkilməsi, ikinci tipə ornamentlərin qırmızı anqob üzərindən çəkilərək cilalanması, üçüncü tipə isə cilasız gil təbəqə üzərindən sürmə ilə çəkilməsi üsulu aiddir. Qeyd etmək lazımdır ki, sürmə ilə çəkilənlər əsasən simvolik səciyyə daşımış və az saydadırlar.*

*Arpaçay vadisinin boya naxışlı keramikası Azərbaycanın bir çox abidələrində öz paralellərini tapır. Onların bənzərlərinə tək-tək nümunələrlə olsa da Naxçıvançay vadisindəki abidələrdən Uçan ağıl, Güney ağıl, Yeni yol, həmçinin bir qədər aralıda yerləşmələrinə baxmayaraq, Mil-Muğan düzündəki abidələrin, eyni zamanda Urmiya hövzəsinin həmdövr qabları içərisində rast gəlinməsi bütövlükdə Azərbaycan ərazisində yaşamış tayfaların boyalı qablar istehsalını hələ eneolit dövründən yaxşı mənimsədiyini göstərir.*

*Boya naxışlı qabların bir qismində Xalaf-Übeyd mədəniyyətinin izlərinə rast gəlinməsi Arpaçay vadisinin eneolit tayfalarının qədim Mesopotamiya ənənələri ilə də yaxından bağlılığı əks etdirir. Onlar boyalı qabların istehsalı prosesində Mesopotamiya elementlərindən bəhrələnsələr də yerli ənənələri də qoruyub saxlamışlar.*

***Açar sözlər:*** *Arpaçay vadisi, boyalı keramika, Xələc, Ovçulartəpəsi, Şortəpə*

Arpaçay vadisi Naxçıvanın Ön Asiya, həmçinin Şərqi Anadolu ilə əlaqələrinin həyata keçirilməsində mühüm strateji mövqeyə malikdir. Burada mövcud olmuş qədim mədəniyyətlər qonşu regionlarala sıx mədəni-iqtisadi əlaqələr zəminində formalaşmışdır. Bu əlaqələrin ən qədim izləri Eneolit dövrünə aid maddi-mədəniyyət nümunələrində daha aydın izlənilməkdədir. Boyalı keramika nümunələri bu baxımdan xüsusi diqqətə layiqdir. Bu tip keramika əsasən Xələc, Şortəpə və Ovçulartəpəsi abidələrindən üzə çıxarılmışdır.

Xələc yaşayış yeri Şərur rayonunun eyni adlı kəndi ərazisində, Arpaçayın sağ sahilində yerləşiməklə 0,5 ha sahəni əhatə edir. 1982-ci ildə V.Əliyev və A.Seyidov tərəfindən qeydə alınmışdır [20, 41]. Ayrı-ayrı vaxtlarda S.Aşurov, L.Ristvet, V.Baxşəliyev, K.Morro və digər arxeoloqlar tərəfindən kəşfiyyat qazıntıları aparılarkən az miqdarda Eneolit və Tunc dövrünə aid tapıntılar əldə edilmişdir. Aşkar olunan materiallara əsasən yaşayış yeri vaxtı ilə Son Eneolit dövrünə aid edilmişdir [19, 23-67]. Bunun səbəbini yaşayış yerindən Son Eneolit dövrünə aid keramika nümunələrinin tapılması və qırmızı anqoblu keramikanın mənşəyinin bəlli olmaması ilə izah edən AMEA-nın müxbir üzvü V.Baxşəliyev Şərur rayonunun Eneolit abidələrini dövrləşdirərkən Xələcin boyalı keramikasının Orta Eneolit dövrünə aid olduğunu qeyd etmişdir [8, 79, 85].

Yaşayış yerindən üzə çıxarılan eneolit keramikası əsasən qırmızı və sarı, az miqdarda isə

qəhvəyi və qara rəngli nümunələrlə təmsil olunmuşdur. Əksəriyyəti saman tərkiblidir, qum tərkibli nümunələrə də rast gəlinir. Saman tərkibli olanların bir qismi boyalı nümunələrdən ibarətdir. Boyalı keramika əsasən 2009-cu ildə qazıntılar aparılarkən aşkar olunmuşdur [8, 80]. Onları 2 qrupa bölmək olar. Birinci qrupa sadə boyalı qablar aiddir. Belə qabların hər iki üzünə, bəzən isə yalnız içəri üzünə tünd qırmızı boya çəkilmiş və yaxşı bişirilmişdir (Şəkil 1, 1-2).



Şəkil 1. Xələc yaşayış yerinin sadə boyalı keramikası [3, 38].

Qırmızı boyalı keramika nümunələrinin bəzisi içərisində daraqvari alətin izləri qalmış və hislə örtülmüş, bəzisi isə divarları arasında qəhvəyi rəngli təbəqənin qalması ilə bir-birindən fərqlənir [20, 55]. Bir qism qablar isə qəhvəyi rənglə boyanaraq cilalanmışdır (Şəkil 1,3).



Şəkil 2. Xalac yaşayış yerinin boya naxışlı qabları [11]

İkinci qrupa aid olan qablar boya naxışlı olmaları ilə fərqlənirlər. Onlar kasa və küpə tipli qabların hissələrindən ibarətdir. Belə qabların üzərindəki ornamentlər məzmununa görə 2 tipə ayrılır. Birinci tipə aid olanlar qara, yaxud qəhvəyi rənglə çəkilmiş həndəsi ornamentlərlə təmsil olunur. Onlar özləri də iki fərqli texnika ilə naxışlanmışdır: qabların gil səthinə çəkilənlər və qırmızı anqob üzərindən çəkilənlər [8, 81). Birinci üsulda naxışlar qabın birbaşa saxsısı üzərinə qara rənglə çəkilmişdir. İkinci üsulda isə naxışlar qırmızı anqob üzərindən çəkilməklə yaxşı cilalanmışdır (Şəkil 2).

İkinci tipə aid olan ornamentlər simvol xarakterlidir. Qabın əsasən yuxarı hissəsində və bir nümunədən ibarət olaraq çəkilən belə ornamentlər qabın xüsusi əhəmiyyətini, yaxud onu hazırlayan ustanın damğasını ifadə etmişdir. Xələc qabları içərisində bu cür işarəli qab hələlik bir nümunə ilə təmsil olunmuşdur. Açıq qırmızı rəngli və iri qum qarışıqlı gildən hazırlanan küpə qabarıq gövdəli olub, silindirik boğazı ağız hissəyə doğru tədricən genişlənir. Boğazının gövdəyə birləşdirilən hissəsində qabın birbaşa saxsısı üzərində sürmə ilə buta təsviri çəkilmişdir (Şəkil 3).



Şəkil 3. Xələc yaşayış yerinin buta işarəli eneolit keramikası [3].

Sürmə ilə çəkilən belə işarənin bir qədər böyük ölçülü bənzərinə Ovçulartəpəsindən aşkar olunan küpə tipli qabın gövdəsində də rast gəlinmişdir (Şəkil 5, 4). Butaşəkilli ornamentə Azərbaycanın digər bölgələrindəki həmdövr abidələrdə də rast gəlinmişdir [3, Рис. 5, 9; 9,10] Belə ornamentin tək sayda olması, həmçinin onların çəkildiyi qabların da aid olduqları abidənin materialları içərisində bir nümunə ilə təmsil olunması bu işarənin xüsusi bir məzmun daşıdığını əks etdirir. Sürmə ilə çəkilən ornamentə Ovçulartəpəsində Eneolitin gec mərhələsinə aid qablar üzərində

(Şəkil 5,3) və Son Eneolitin final mərhələsini əks etdirən Yeni yol qabları içərisində də rast gəlinməsi belə ornamentasiyanın digər boya naxışlarla müqayisədə daha gec meydana çıxmasından xəbər verir. Bu faktlar Xələcin boyalı qablarının Eneolitin orta mərhələsi və son mərhələyə keçid dövrünün öyrənilməsində əhəmiyyətli olduğunu göstərir.

Boyalı keramikanın qeydə alındığı digər abidə Şortəpə yaşayış yeridir. Abidə Şərur rayonunun İbadulla kəndi ərazisində, Araz çayının sol sahilində yerləşir. Sahəsi 1500 $m^2$–dir. 1936-cı ildə Ə.Ələkbərov tərəfindən burada aşkar edilən 4 mədəni təbəqənin materiallarından vaxtı ilə Tunc dövrünə aid olan müxtəlif nəşrlərdə bəhs edilmişdir [2, 6-55; 4, 31; 16, 19]. 2010-cu ildə abidənin Şərur rayon Tarix Diyarşünaslıq Muzeyində saxlanılan materialları içərisində eneolit dövrünə aid boya naxışlı qab qeydə alınmışdır [21; 15]. Sarı-çəhrayı rəngli, saman tərkibli gildən hazırlanmış qab yuvarlaq oturacağa və yarımsferik formaya malikdir. Ağzının yaxınlığında yerləşən yuvarlaq çıxıntı sınmışdır. Qırmızı rəngli boya qabın ağız kənarını enli kəmər şəklində çevrələyir. İçərisinə də eyni boya çəkilmiş yuvarlq formalı kasa tipli qabın xaricdən gövdəsində də qırmızı boya ilə çəkilmiş şevronların izləri qalmışdır (Şəkil 4).




Şəkil 5. Ovçulartəpəsinin boya naxışlı qabları [1, 48].



Şəkil 4. Şortəpə yaşayış yerinin boya naxışlı keramikası (ŞTDM, inv.1033).

Bu qabın oturacağından ağız hissəsinə doğru enli xətlərlə çəkilən şüaşəkilli ornamentlərin bənzərlərinə Azərbaycanın digər bölgələrinin eneolit qablarında da rast gəlinir [3, Рис. 3, 1-3,6] Bu tipli boya naxışların Xalacdan, Şortəpədən aşkar olunan nümunələrində Xalaf-Übeyd mədəniyyətinin bəzi elementləri izlənilir. Onların Şərqi Anadolunun Orta Eneolit abidələrində qeydə alınmış nümunələri e.ə. V minilliyin birinci yarısından Anadolu, şimalda Azərbaycan, şərqdə İran, qərbdə Şərqi Aralıq dənizi, cənubda isə Umman körfəzinədək yayılan Ubeyd mədəniyyəti ilə əlaqələndirilmişdir [10, 6]. Bu fikir öz təsdiqini Xələcin boyalı qablarındakı ornament motivlərinin Çolpantəpə, Norşuntəpə ilə ortaq xüsusiyyətlərini bildirən tədqiqat əsərlərində tapır [6, 153].

Boya naxışlı eneolit keramikasının bir qismi Ovçulartəpəsindən aşkar olunmuşdur. Abidə Arpaçayın sol sahilindəki Dizə kəndi ərazisində olub, 10 ha sahəni əhatə edir [18, 43]. Yaşayış yeri 1980-ci ildə V.Əliyev və A.Seyidov tərəfindən qeydə alınmışdır. XXI əsrin ilk illərindən başlayaraq yerli və beynəlxalq çərçivədə arxeoloji tədqiqatlara cəlb edilmişdir. V.Baxşəliyev, S.Aşurov və K.Morronun rəhbərliyi ilə 2014-cü ildədək davam etdirilən arxeoloji qazıntılar nəticəsində xeyli keramika qalıqları içərisində boyalı nümunələr də aşkar edilmişdir. Onların çəkilmə texnikası da Xələc keramikası ilə oxşardır. Bir qismi qabların birbaşa gil səthi üzərinə, digər qismi isə qırmızı rəng üzərindən çəkilmişdir [7, 81]. Naxışların çəkilməsində bir neçə rəngdən istifadə olunmuşdur (Şəkil 5, 1-2). Bir qismi tünd bənövşəyi və qəhvəyi rənglə səliqəli formada çəkilmişdir. Digər qismi isə sürmə ilə bir qədər də qeyri-standart ölçülərdə çəkilmişdir (Şəkil 5, 3-4). 2011-ci ildə Ovçulartəpəsindən tapılan boyalı keramika tədqiqatçılar tərəfindən Übeyd tipi olaraq dəyərləndirilmişdir [13, 76]. Bu tipli keramika nümunələri vaxtı ilə Şortəpə, Xələc yaşayış yerlərində, Mil-Muğan abidələrində də qeydə alınmışdır. Təsadüfi deyil ki, tədqiqatçılar onları boyalı qabların yerli istehsalının nəticələri olduğunu qeyd etmişlər [15; 7, 85].

**Ornamental xüsusiyyətlər.** Arpaçay vadisinin boyalı keramikasında müxtəlif ornament tiplərindən istifadə edilmişdir. Onları rəng tiplərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qırmızı boya ilə çəkilənlər Şortəpədə 1 nümunə ilə təmsil olunmuşdur. Qabın ağız kənarını çevrələyən enli kəmərdən ibarətdir (Şəkil 4). Bu tip naxış Halaf mədəniyyətindən Übeyd mədəniyyətinədək müxtəlif nümunələrdə özünü biruzə vermişdir.

2. Bənövşəyi rənglə çəkilənlər-Ovçulartəpəsinin keramikası içərisində 1 nümunə ilə təmsil olunmuşdur (Şəkil 5,1). Sarı-çəhrayı rəngli küpə tipli qabın boğazını çevrələyən qoşa enli xətlərlə və onların aşağısında 6 incə paralel xətlər kompleksinin kəpənəkşəkilli ornamentlə birləşməsi ilə təmsil olunmuşdur. Fraqmentin digər hissəsi sındığından ornamentlərin tamamını izləmək mümkün olmamışdır. Qeyd etmək lazımdır ki, bənövşəyi, qəhvəyi rəng tonlarından Übeyd tipli qablarda da istifadə edilmişdir.

3. Qara boya ilə çəkilən ornamentlər üstünlük təşkil edir. Onların bir qismi qabın gil səthinə çəkilmişdir. Vaxtı ilə görkəmli arxeoloq O.Həbibullayev I Kültəpənin boyalı keramikasını xarakterizə edərkən gilinin birbaşa səthindən boya ilə naxışlanmış saman tərkibli keramikanın yerli istehsalın məhsulu olduğunu vurğulamışdır [1, 72]. Bu tipli naxışlama texnikası Arpaçay vadisinin Xələc, Ovçulartəpəsi abidələrində də izlənilir. İkinci qismə aid olan ornamentlər qırmızı anqob üzərindən çəkilmişdir. Belə ornamentlər Xələc boyalılarının xarakterik cəhətlərindən olmuşdur. Onlar şaquli, üfüqi, dioqanal şəkildə çəkilən enli xətlər, üçbucaqlar içərisində çəkilən paralel xətlər, şaquli formalı dalğavari xətlər kompleksi bəzən də qırıq-qırıq enli xətlərlə təmsil olunmuşdur (Şəkil 2, 1-5). Bu tipli enli xətlər və şevronlarla təmsil olunan ornamentlərin Mil düzü abidələrindən tapılan nümunələrini Munçayev Təpə Quran yaşayış yerinin keramikası ilə müqayisə etmişdir [14, 127]. Tanınmış arxeoloq İ.Nərimanov isə belə ornamentlərin Zaqafqaziyanın şərq hissəsində-Xəzər dənizindən Naxçıvanadək geniş arealda yayılmasını Arazın cənubundakı abidələrlə əlaqəsinin nəticəsi olaraq dəyərləndirmişdir [15, 126].

4. Sürmə ilə qabın gil səthinə çəkilənlər əsasən simvol-ornamentlərdən ibarət olub səliqəsiz formada çəkilən konsentrik dairələrlə və buta işarəsi ilə təmsil olunmuşdur. Buta işarəli qablardan biri Xələc, digəri isə Ovçulartəpəsi yaşayış yerin ndən aşkar olunmuşdur (Şəkil 3: 5, 4). Onlar səma cisimlərinə sitayişlə bağlı ola bilərdi. Ovçulartəpəsinin sürmə boyalı ikinci qab nümunəsinin üzərindəki qoşa dairələr də bu inancın əlamətlərindən sayıla bilər. Vaxtı ilə Gəmiqaya təsvirləri içərisində bu tipli simvollar qeydə alınmışdır.

Qara rənglə çəkilən ornamentlər daha çox yayılmışdır. Onlar enli xətlər, ziqzaqlar, paralel xətlər kompleksi və digər həndəsi motivlərlə təmsil olunmuşdur. Arpaçay vadisinin boyalı qablarında izlənilən ziqzaqlar, şaquli və üfüqi formada çəkilən düz xətlər, həmçinin onların kiçik formalı nümunələri Əliköməktəpəsinin boyalı qabları ilə analogiya yaradır [9, Tabl. XLVI, 1,8,11,13], həmçinin çəkilmə texnikasına görə Mil düzünün eneolit keramikası ilə oxşardır [14, p. 11]. Şortəpədən tapılan qabın üzərində rast gəlinən ağız kənarının enli kəmər şəkilli boyanması öz oxşarlarını Urmiya hövzəsinin eneolit dövrünə aid boyalı qablarında tapır [11, fig. 4; 110].

Arpaçay vadisinin boyalı keramikasının tədqiqi göstərir ki, bu regionun eneolit tayfaları nın məşğuliyyətində əkinçilik və maldarlıqla yanaşı dulusçuluq eyni zamanda boyaqçılıq da mühüm yer tutmuşdur. Xələc, Şortəpə və Ovçulartəpəsindən aşkar olunan boyalı keramika nümunələri Arpaçay vadisində 3 tip naxışlama üsulundan istifadə edildiyini göstərir. Birinci tipə ornamentlərin qırmızı yaxud qara boya ilə qabların birbaşa gili üzərindən çəkilməsi, ikinci tipə ornamentlərin qırmızı anqob üzərindən çəkilərək cilalanması, üçüncü tipə isə cilasız gil təbəqə üzərindən sürmə ilə çəkilməsi üsulu aiddir. Qeyd etmək lazımdır ki, sürmə ilə çəkilənlər əsasən simvolik səciyyə daşımış və az saydadırlar.

Arpaçay vadisinin boya naxışlı keramikası Azərbaycanın bir çox abidələrində öz paralellərini tapır. Onların bənzərlərinə tək-tək nümunələrlə olsa da Naxçıvançay vadisindəki abidələrdən Uçan ağıl, Güney ağıl, Yeni yol, həmçinin bir qədər aralıda yerləşmələrinə baxmayaraq, Mil-Muğan düzündəki abidələrin, eyni zamanda Urmiya hövzəsinin həmdövr qabları içərisində rast gəlinməsi

bütövlükdə Azərbaycan ərazisində yaşamış tayfaların boyalı qablar istehsalını hələ eneolit dövründən yaxşı mənimsədiyini göstərir.

Boya naxışlı qabların bir qismində Xalaf-Übeyd mədəniyyətinin izlərinə rast gəlinməsi Arpaçay vadisinin eneolit tayfalarının qədim Mesopotamiya ənənələri ilə yaxından bağlılığı əks etdirir. Onlar boyalı qabların istehsalı prosesində Mesopotamiya elementlərindən bəhrələnsələr də, yerli ənənələri də qoruyub saxlamışlar.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 316 с.
2. Алекперов А.К. Исследования по археологии этнографии Азербайджана. Баку: Издательство АН Азербайджанской ССР, 1960, 249 с.
3. Алмамедов Х.И. Крашенная и расписная керамика Азербайджана эпохи энеолита // Археология Кавказа, Тбилиси, 2009-2010, № 2-3, с. 5-18
4. Azərbaycanin erkən əkinçilik dövrü abidələri (son tədqiqatlar) (məsul redaktor: M.Rəhimova). Arxeologiya və Etnoqrafiya İnstitutu, Bakı, 2011, 70 s.
5. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı, Elm, 2008, 304 s.
6. Бахшалиев В.Б. Особенности энеолитической культуры Нахчывана //Azərbaycanın erkən əkinçilik dövrü abidələri, Bakı, 2012, s. 149-157
7. Baxşəliyev V., Morro K., Aşurov S. Son eneolit və ilk tunc dövrünə aid Ovçulartəpəsi yaşayış yeri // Azərbaycanin erkən əkinçilik dövrü abidələri (məqalələr toplusu), Bakı, 2012. 263 s.
8. Baxşəliyev V. Şərur rayonunun Eneolit abidələrinin dövrləşdirilməsi // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin "Xəbərlər"i, 2019, №1, s. 79-89
9. Энеолит СССР. Ответственные редакторы тома: Массон В.М., Мерперт Н.Я. Издательство «Наука», Москва, 1982
10. Harmankaya, S. Türkiye Kalkolitik Araştırmaları Üzerine Bir Değerlendirme // TAY - Türkiye Arkeolojik Yerleşmeleri-3: Kalkolitik, Ege Yayınları, Takım ISBN 975-807- 003-7, Cilt ISBN 975-807-019-3, İstanbul, 1998. s. 1-16 http://www.tayproject.org/downloads/Kalkolitik_SH.pdf
11. Henrickson E. F. Ceramic styles and cultural interaction in the early and middle chalcolithic of the Central Zagros, Iran. University of Toronto (Canada), 1983, 839 p.
12. Kuliyeva Z., Bakshaliyev V.. Chalcolithic Period Culture of Nakhchivan (Azerbaijan) // Türkish Academy of Sciences Journal of Archaeology, Volume: 23, Ankara, 2018, s. 29-52
13. Marro, C. Bakhshaliyev, V. and Ashurov, S. Excavations at Ovçular Tepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: the 2009-2010 seasons). Anatolia Antiqua XIX, , 2011, 53-100
14. Мунчаев Р.М. Кавказ на заре бронзового века, Москва: Наука, 1975, 415 с.
15. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. (Эпоха энеолита VI–IV тысячелетиядон. э.). Баку: Элм, 1987, 260 с.
16. Quliyeva Z. Şortəpə qədim yaşayış yeri // Azərbaycan arxeologiyası və etnoqrafiyası, Bakı, 2009, № 2, 39-42
17. Quliyeva, Arpaçay vadisinin Tunc dövrü arxeoloji abidələri. Bakı, Elm və təhsil, 2014, 192 s.
18. Quliyeva Z. Naxçıvanın son eneolit abidələri. Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, İctimai elmlər seriyası, 2017, № 6 (87), s. 43-50
19. Seyidov A., Baxşəliyev V. Xələc. Bakı, Elm, 2010, 220 s.
20. Seyidov A., Baxşəliyev V., Məmmədov S., Aşurov S. Qədim Şərur. Bakı, 2012, 466 s.
21. Seyidov A. Baxşəliyev V. Şortəpə (İbadulla). Bakı, 2013, 200 s.

## SUMMARY

**Zeynab Guliyeva**

**PAINTED CERAMICS OF ARPACHAY VALLEY**
**(on the basis of eneolytical materials)**

The article deals with painting and ornamenting techniques of eneolithic ceramics of Arpachay Valley. Studying of painted ceramics of Arpachay valley shows that pottery and painting along with husbandary and cattle-breeding had important places in the employment of eneolithic tribes. Samples of painted ceramics found in Khalaj, Shortepe and Ovchular hill indicate that 3 types of patterning techniques were used in Arpachay valley. The first type includes painting the patterns red or black on the clay of pots. The second one implies drawing and polishing of patterns on red surface (angob). The third one means painting with antimony on the lusterless clay layer. It should also be noted that those painted with antimony, bear symbolic character and they are limited. Ceramics with painted ornaments has its own analogues in several monuments of Azerbaijan. Very few samples of its analogues are found in Uchan aghil, Guney aghil, Yeniyol as well as monuments of Mil-Mughan plain and among the pots of the same period in Urmiya basin. This fact shows that all tribes lived throughout Azerbaijan have mastered the production of painted pots even since eneolithic period. The presence of traces of the Khalaf-Ubeid culture in some painted pots reflects the close relationship between the Eneolithic tribes of the Arpachai Valley and the ancient Mesopotamian traditions. Although they benefited from Mesopotamian elements in the production of painted dishes, they also retained local tradition.


***Key words:*** *Arpachay valley, painted ceramics, Halaj, Ovchulartepesi, Shortepe*


## РЕЗЮМЕ

**Зейнеб Гулиева**

**РАСПИСНАЯ КЕРАМИКА АРПАЧАЙСКОЙ ДОЛИНЫ**
**(на основе материалов энеолитского периода)**

В статье исследованы приемы росписи и декорирования энеолитической керамики Арпачайской долины. Изучение расписанной керамики в долине Арпачай показывает, что в занятости энеолитических племен данного региона наряду с земледелием и животноводством важное место занимали гончарное дело крашение. Окрашенные керамические узоры, найденные в Халадже и угодьях Шортепе и Овчулартепеси показывают, что в долине Арпачай было использовано 3 вида декоративных методов. Первый тип включает прямое украшение орнаментов красной или черной краской, второй тип - полировку орнаментов над красных ангов, а третий тип - полировку неполированной глиняной поверхности. Следует отметить, что окрашенные сурьмой, в основном носили символичный характер и имеют небольшое количество. Расписная керамика Арпачайской долины находит свою параллель во многих памятниках Азербайджана. Хотя и на единичных примерах, но все же на таких памятниках Нахчыванчайской долины, как Учан агыл, Гюней агыл, Ениуол, в том числе и находящихся в некоторых отдаленных памятниках плато Миль-Муган, а также встреченные среди посуд того периода у бассейна реки Урмия схожих керамик, свидетельствуют о хорошем освоении племен, проживавших на территории Азербайджана, расписной керамики до периода энеолит.

Присутствие следов культуры Халаф-Убейд в некоторых расписных горшках отражает тесную связь между энеолитическими племенами долины Арпачай и древними месопотамскими традициями. Хотя они извлекли выгоду из месопотамских элементов в производстве расписных блюд, они также сохранили и местные традиции.


***Ключевые слова:*** *Арпачайское долина, расписная керамика, Халадж, Овчулартепеси, Шортепе*

---

***Məqaləni çapa təqdim etdi***: *AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev*
***Məqalə daxil olmuşdur:*** *01 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *10 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 57-61
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 57-61
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 57-61

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**MƏMMƏD RZAYEV**
**ABBAS ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 32:316**

## MÜASİR QLOBALLAŞMA ŞƏRAİTİNDƏ İCTİMAİ HƏYATIN HUMANİSTLƏŞMƏSİ

*Müasir qloballaşma şəraitində şəxsiyyətin və cəmiyyətin humanist prinsiplər əsasında inkişaf edərək təkmilləşməsi maddi tələbatların ödənilməsi və mənəvi tələbatların fasiləsiz yüksəlməsi kimi mühüm amilləri əhatə edir. Şəxsiyyətin azad inkişaf göstəriciləri həmin amillərdən çox asılıdır. Bu prosesdə belə bir məqama da xüsusi diqqət yetirilməlidir ki, insanın şüuru şəxsiyyətin mahiyyətinə dərindən nüfuz etdikcə, yuxarıda sözügedən amillərin mürəkkəbliyi və rəngarəngliyi daha aydın aşkara çıxır. Bu zaman həm də məlum olur ki, şəxsiyyət və cəmiyyət tərəfindən məqsəd səviyyəsində elan edilən oriyentirlər sabah üçün və gələcəkdə daha yüksək məqsədi həyata keçirməkdə vasitəyə çevrilə bilər. Beləliklə, şəxsiyyətin humanist məqsədi onun özünün və üzvü olduğu cəmiyyətin tərəqqisinə kömək edir, onun mühüm amili rolunu oynayır.*

***Açar sözlər:*** *şəxsiyyət, humanizm, qloballaşma, cəmiyyət, müasir şəxsiyyət, milli özünüdərk, siyasi sfera*

Müasir bəşəri problemlərin əsas xüsusiyyətlərindən biri odur ki, bu problemlər qlobal xarakter daşıyır və onlar bütün dövlətlərin birgə fəaliyyəti nəticəsində öz həllini tapır. Buna nail olmaq üçün sosial problemlərin həm milli, həm də qlobal səviyyədə idarə edilməsi daha yüksək səviyyəyə qaldırılmalıdır. Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev 7 sentyabr 2000-ci ildə Nyu-York şəhərində Minilliyin Zirvə görüşündəki çıxışında göstərmişdir ki, dünya inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür.

Şəxsiyyətin humanist məqsədinin əldə olunması mürəkkəb proses olub, iqtisadi, sosial və mənəvi-mədəni amillərin bütöv kompleksini əhatə edir. Burada iqtisadi və sosial tərəflərin rolunu şişirtmək doğru olmazdı. Çünki mənəvi sferanı inkişaf etdirmədən, insanların şüurunu yüksəltmədən əsl tərəqqiyə nail olmaq qeyri-mümkündür. Müasir dövrdə şəxsiyyətin şüurunu inkişaf etdirmək lazımdır ki, o humanist məzmunlu yeni cəmiyyət quruculuğu prosesini şüurlu və məqsədyönlü tənzim edərək, onu idarə edə bilsin. Həm də nəzərdə tutmaq lazımdır ki, cəmiyyətin inkişafının əvvəlki mərhələlərində icitimai şüur varlığın bilavasitə təsiri altında formalaşırdısa, sonrakı dövrlərdə bu təsir vasitələnmiş xarakter daşıyır, yəni dövlət, siyasi və hüquqi münasibətlərdən keçərək baş verir. Bunun əvəzində ictimai şüurun varlığa təsiri getdikcə daha çox bilavasitə xarakteri alır (1, s. 478).

Deyilənlərdən aydın olur ki, formalaşmaqda olan açıq cəmiyyətin tərəqqisi hər bir fərdin ictimai həyatın bütün sahələrindəki fəaliyyətinin cəmiyyətin ümumi humanist məcrasına yönəlməsindən çox asılıdır.

Cəmiyyətin humanistləşməsi yolu müasir elmi-texniki və sosial-siyasi nailiyyətlərin geniş miqyasda tətbiq olunmasından keçir. Lakin nəzərdə tutulmalıdır ki, bu iki böyük amilin məzmununda söhbət təkcə humanist yox, həm də antihumanist tərəflərin də sosial tərəqqinin humanist əsaslar üzərinə keçirilməsindən gedir. İndi bütün cəmiyyət qarşısında, eləcə də hər bir şəxsiyyət qarşısında humanist məqsədlər irəli sürülməsinə nail olmaq həmişəkindən daha

vacibdir. Bu isə həmin subyektlərin malik olduğu bütün qüvvələrdən maksimum istifadə etməklə humanizim idealını qoruyub saxlamağı və inkişaf etdirməyi nəzərdə tutur (2, 164).

Müasir şəxsiyyətin humanist məqsədi öz məzmunu etibarilə xeyli yüksəlmiş və zənginləşmiş şəkildə çıxış edir. Belə ki, əvvəllərdə şəxsiyyətin hərtərəfli inkişafı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi ali humanist məqsəd hesab olunurdu. İndi isə bu vəzifələr daha çox humanist xarakter daşıyan məqsədlərin yerinə yetirilməsində bir vasitəyə çevrilməkdədir. Bu onunla izah edilir ki, hazırda cəmiyyətdə epoxal miqyaslı dəyişikliklər baş verir, köhnə ənənəvi baxışlar dağılır və yeni demokratik və ümumbəşəri məzmunlu dəyərlər yaranır, prinsipcə yeni dünyagörüşü formalaşır. Həmin dünyagörüşü kompleks və sintetik təfəkkürə əsaslanır. O, insanda humanist keyfiyyətlərin tam dolğunluğu ilə üzə çıxarılmasına kömək edir, insanın daxilində antihumanist meyillərin baş qaldırmasına imkan vermir. Əksinə, burada özünü göstərən humanist tərəfləri inkişaf etdirir. Bunu da əlavə edək ki, əgər cəmiyyətdə təhsil və tərbiyə işi düzgün təşkil olunursa, onda insanın mahiyyətindəki humanist və antihumanist xassələrin fəaliyyəti, onun sintetik təfəkkürü vasitəsilə səmərəli tənzim olunur və birinci qəbildən olan cəhətlər, ikincilərin hesabına daha da tərəqqi edir (3, 241).

Müasir qloballaşma prosesi çərçivəsində cəmiyyətin və təbii ki, burada yaşayan şəxsiyyətin humanistləşməsi prosesində yetişməkdə olan nəslin təhsili və tərbiyəsi ilə bağlı məsələlər müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir. Əlbəttə, cəmiyyət özünün bütün inkişafı mərhələlərində bu və ya digər dərəcədə təhsil ilə bağlı problemləri həll etməyə cəhd göstərir. Lakin ictimai inkişafın dönüş xarakterli məqamlarında, daha dəqiq desək, keçid dövrlərində bu problemin rolu və əhəmiyyəti daha da artır. Buna görə də hazırda cəmiyyətimizin bütün pillələrindən olan təhsil və tərbiyə sistemlərində əsaslı islahatlar aparılır, onları yeniləşməkdə olan cəmiyyətin tələblərinə, məqsəd və vəzifələrinə uyğun səviyyəyə yüksəldilməsinə səylər göstərilir. Amma nəzərdə tutmaq lazımdır ki, insanların şüurunun dəyişilməsi çox mürəkkəb və uzunsürən prosesdir, ona nail olmaq üçün bəzən bütün bir nəslin yeniləşməsi müddəti tələb olunur. Bundan fərqli olaraq, insanların tələbatı nisbətən yüksək sürətlə dəyişilir. Buna görə də açıq cəmiyyət quruculuğunun sosial, siyasi və iqtisadi sahələrdə qarşıda duran çətin və mürəkkəb vəzifələrinin uğurlu həllində yeni şüurun, dünyagörüşünün və mənəvi keyfiyyətlərin olması çox vacibdir. Bunun üçün isə təhsil sistemini səmərəli təşkil etmək, onun ümumbəşəri, milli və qabaqcıl mədəni ənənələrlə zənginləşməsinə nail olmaq tələb olunur. Həmin keyfiyətlərin təhsil sistemində özünə möhkəm yer tutması, cəmiyyətin və ayrıca bir şəxsiyyətin humanistləşməsinə və tərəqqisinə böyük təsir göstərir (4, 231).

Müasir cəmiyyətin artmaqda olan demokratikləşməsi şəxsiyyətin humanistləşməsinə real şərait yaradır. Bu onunla izah edilir ki, öz mahiyyətinə görə demokratiya humanizm ilə sıx vəhdətdədir. Həqiqi demokratik prinsiplərin mövcudluğu və fəaliyyəti humanist keyfiyyətlərdən ayrılmazdır. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, indi həyata keçirilməkdə olan cəmiyyətin ardıcıl və hərtərəfli demokratikləşdirilməsi xətti, həm də şəxsiyyətin getdikcə daha çox humanistləşməsinə sürətləndirici təsir göstərir.

Milli özünüdərk və insanların ümumbəşəri keyfiyyətlər əsasında birləşməsi demokratiyanı daha da humanistləşdirir. Belə ki, öz xalqının qorunub saxlanılması və inkişafı kimi ali humanist məqsəd ətrafında birləşən cəmiyyət, həm də başqa xalqların problemlərini dərindən hiss edir və onların mənafelərinə hörmətlə yanaşır.

Nəzərdə tutmaq lazımdır ki, müasir cəmiyyətdə bütövlükdə ictimai həyatın humanistləşməsi meyli baş verməkdədir. Açıq, vətəndaş cəmiyyətinin prinsipləri qərarlaşdıqca, bu meyl daha da sürətlənir. Humanizmin əsasında duran həyatın qorunmasına qayğı göstərmək, onu daim təkmilləşdirmək, insan tərəfindən ətraf mühitin və öz mahiyyətinin dərk olunmasında yeni nailiyyətlər qazanmaq, digər insanlara hörmət və s. Keyfiyyətlər şəxsiyyətin sosial fəallığının yüksəlməsinə, özünü daha dolğun və yaradıcı surətdə reallaşdırılmasına güclü müsbət təsir göstərir.

Müasir dövrdə şəxsiyyətin hümanistləşməsi meyli həm də özünün hərtərəfliliyi ilə səciyyələnir. Bu onda ifadə olunur ki, humanist prinsiplər onun siyasi, sosial, iqtisadi və mədəni-intellektual fəaliyyətinin bütün sahələrində həyat normasına çevrilməkdədir. Cəmiyyət inkişaf

etdikcə, ictimai həyatın bütün sferalarında humanizmin genişlənməsi üçün şərait yaranır. Əlbəttə, bütün bu proseslər asan və rəvan getmir, müəyyən çətinliklər və ziddiyyətlər ilə müşayiət olunur.

Siyasi sferada humanizm ən çox bunda ifadə olunur ki, siyasi fəaliyyətin bütün forma və tərəflərində siyasi mənafelərin reallaşdırılması ilə yanaşı, insana hörmət və qayğı ön plana çəkilir. Ölkənin qəbul etdiyi qanunvericilik sənədlərində və normativ hüquq aktlarında şəxsiyyətin ləyaqətinin toxunulmazlığı elan edilir, onun geniş hüquqları və azadlıqları təsbit olunur. Xarici siyasət sahəsində və beynəlxalq münasibətlərdə də mübahisəli məsələlərin dinc danışıqlar yolu ilə aparılması meyillərinin artması, dövlətlər arasında münasibətlərdə müharibələrə mümkün qədər yol verilməməsi, bu və ya digər səbəblərdən müharibə başlandıqda isə onun gedişində ümumi humanist normaların gözlənilməsi, bu barədə müvafiq beynəlxalq konvensiyalara əməl olunması bunu sübut edir.

Yuxarıda deyilənlərdən heç də belə nəticə çıxarmaq olmaz ki, guya müasir cəmiyyətdə real humanizmin tətbiqi üçün tam şərait yaradılmışdır. Buna hər şeydən əvvəl cəmiyyət də qloballaşmanın doğurduğu neqativ cəhətlərdən irəli gələn səbəblər, habelə digər amillər (məsələn, fəaliyyətin intensivliyinin artması, həyatın ritminin sürətlənməsi, əsəb gərginliyinin çoxalması, urbanizasiya nəticəsində şəxsiyyətin fəaliyyəti üzərində nəzarətin zəifləməsi və s.) mane olur.

Şəxsiyyətin humanizmi haqqında zəmanəmizin görkəmli filosoflarından olan E.Fromun baxışları daha çox maraq doğurur. Onun fikrincə, humanizm, insanın daxili təbiətindən irəli gələn sevməyə və yaşamağa olan cəhd kimi özünü göstərir. O, humanizmin məzmununu varlığın nəyə malik olmağı ilə müqayisədə üstünlüyü ideyası əsasında açır. Froma görə nəyəsə malik olmaq müəyyən bir prosesdə bitkin formaların üstün rol oynadığını göstərir və beləliklə də, bu prosesdə şəxsiyyətin yaradıcılıq imkanlarını məhdudlaşdırır. Fromun fikrincə, nəyəsə malik olmaq cəhdi sevgi prinsipi ilə də bir araya sığmır. Bu yola düşən şəxsiyyət başqa insanların cəhdlərini pozur, əsarət altına alır və məhdudlaşdırır, başlıcası isə o öz şəxsi maraqlarını yerinə yetirmək naminə dünyadakı təbii əlaqələri dağıdır. Buna görə də insan dünyaya əsl dəyər kimi yanaşmalı, onu mənimsəmə yolu ilə dağıtmağa yox, bu dünyada özünü reallaşdırmağa cəhd göstərməlidir. Onun fikrincə, insan nəyəsə sahib olmağa yönəldikdə, gələcəkdə əldə edəcəyi nəticəyə yekun nöqteyi-nəzərindən yanaşır. Beləliklə də, bu halda gələcək sanki keçmiş kimi çıxış edir. Bunun əksinə olaraq, insan varlıq mövzusuna istiqamətləndikdə sevgi, sevinc və həqiqətə nail olmaq yaşantıları, gələcək zaman baxımından deyil, burada və indi özünü göstərir. Sonuncu isə zamanın fövqündə durur və belə yönüm daha üstün rol oynayır. Onun üstünlükləri şəxsiyyətin bütün insan nəsli ilə vəhdətdə olduğunu hiss etməsinə kömək edir, öz varlığının dağınıq və hissə xarakter daşıdığı haqqında təsəvvürləri aradan qaldırmasına müsbət təsir edir (5, s.132-135).

From belə hesab edir ki, müasir dünyada insanın özgələşməsinin əsas səbəbi insanın varlığı deyil, nəyəsə malik olmağa köklənməsidir. Buna görə də onun fikrincə, insanın şüurunu dəyişdirmək zəruridir. Əlbəttə, o, həyata aktiv fəaliyyət münasibətindən yanaşmağı da inkar etmir. Lakin o, qərb insanı üçün səciyyəvi olan bu ustanovkanı Şərq təfəkkür tərzinə xas olan keyfiyyət – dünyanı sakitcə seyr etməklə qavramağın üstünlükləri ilə əlaqələndirməyə çalışır (4, s.366).

Müasir qloballaşma şəraitində şəxsiyyətin humanistləşməsi meyli həm də bütün sağlam düşüncə sahibi olan insanlarda bəşəriyyətin gələcək taleyi ilə bağlı yaranmış qayğılar ilə bağlıdır. Akademik T. Oyzerman yazırdı: «Qlobal problemlərin yaranması, insanların dünyagörüşündə, siyasi, dini və və sair əqidələrində müxtəlifliyə baxmayaraq, humanizmin indi mövcud olan bütün formalarının birləşməsi üçün real əsas kimi çıxış edir» (5 , s.65).

Müasir dünyada humanizmin inkişafı üçün ümumi əlverişli şərait yaradıldığını da qeyd etməmək olmaz. Belə ki, onlarca ölkələrin xalqları dinc yollarla müstəmləkə zülmündən azad olurlar, totalitar rejimin dağılması nəticəsində keçmiş müttəfiq respublikalar milli müstəqillik əldə edərək artıq demokratik, azad cəmiyyət qurmaq yolu ilə sürətlə irəliləyirlər. İstilik-nüvə müharibəsi təhlükəsinə qarşı, müxtəlif problemlər kompleksini (ekoloji böhranın aradan

qaldırılması, aclığın və yoxsulluğun azadılması, müxtəlif ölkələrin inkişaf səviyyəsi üzrə kəskin fərqlərin ləğvi, beynəlxalq terrorizmə və digər ümumi bəlalara qarşı birgə mübarizə aparmaq zərurəti və s.) həll etməyin zəruriliyi fikri ictimai rəydə getdikcə daha çox yer tutmaqdadır. Geniş planda yanaşdıqda bütün bu və digər nailiyyətlər müasir bəşəriyyətin əksər hissəsinin şüurunda yüksək əxlaqi keyfiyyətlərin daha da möhkəmləndirilməsi sayəsində əldə olunmuşdur.

İnsanın mahiyyətinin sosial münasibətlərin inkişafı ilə əlaqəli dəyişdiyi haqda ümümsosioloji qanun sübut edir ki, insanların fəaliyyət məqsədləri hər bir konkret tarixi mərhələdə başqalarından fərqlənən, özünəməxsus məzmuna malik olur. Buna görə də humanizmin sadəcə şəxsiyyətin özinkişafına şərait yaradılmasına və yaxud başqa insanı öz məqsədini həyata keçirmək üçün vasitə kimi istifadə edilməsi tələbinə müncər edilməsi doğru olmazdı. Çünki hər bir konkret dövrdə humanizmin məzmunu spesifik cəhətlər və çalarlar ilə zənginləşir ki, bunları nəzərə almaq zəruridir. Deyilənlər sübut edir ki, şəxsiyyətin humanizmi kimi mürəkkəb məsələni formal və ümumi prinsiplərdən çıxış etməklə düzgün həll etmək qeyri-mümkündür. Nəzərdə tutmaq lazımdır ki, real və əsl humanizm müxtəlif prinsipləri bir-biri ilə əlaqəli şəkildə götürməyi və uzlaşdırmağı tələb edir. Eynilə də hər bir konkret cəmiyyətdə şəxsiyyətin özünü ifadə etməsi üçün mövcud olan azadlığın səviyyəsi ilə həmin dövrün sosiomədəni normalarının, onun fəaliyyət və davranışına verdiyi tələblər ilə nə dərəcədə uzlaşdığını konkret təhlil etmək vacibdir. Bu sosiomədəni dünyalar müxtəlif əlaqələrlə ümumbəşəri, dünya mədəniyyətinə doğru inkişaf edir. Müxtəlif mədəniyyətlərin nailiyyətlərinin qarşılıqlı mübadilə edilməsi ümumbəşəri mədəniyyət yaradır. Bizim dövrümüzdə ölkələrin və xalqların ümumbəşəri birliyə doğru təkamülü prosesi baş verir. Bu proses qloballaşmanın mahiyyətini təşkil edir (7, 421).

Öz məzmununu sosial varlığın obyektiv prosesləri ilə formalaşdıran humanizm cəmiyyət ilə şəxsiyyətin qovuşmasının əsas mənəvi amilini təşkil edir. Humanizm cəmiyyətin inkişafının əsas mahiyyətinə, bütün insanların əqidəsinə çevrildikdə mümkün olur. Müasir qloballaşma şəraitində cəmiyyət ya bu obyektiv zərurəti dərk edib antropogen sivilizasiyanın tələbləri səviyyəsinə yüksəlməli, ya da tarixin səhnəsindən silinib getməlidir.

## ƏDƏBİYYAT


1. Спиркин А.Г. Основы философии. М., 1988, 521 s.
2. Ayhan Aydın. Düşüncə tarixi və insan doğası. İstanbul, Alfa, 2000, 296 s.
3. Ramazan Abacı. Yaşamın kalitelendirilmesi. İstanbul, 2005, 248 s.
4. Rzayev M. Rəhimov. N. Qloballaşma və şəxsiyyət. Bakı, ATU, 2010, 252 s.
5. Фром Э. Иметь или быть. М., Прогресс, 1990, 411 с.
6. Ойзерман Т.И. Материалистическое понимание истории: плюсы иминусы. // Вопросы философии, 2001, № 2, с.4-12
7. İmanov H. Fəlsəfənin əsasları. Bakı, Turan evi, 2007, 442 s.


## SUMMARY

**Mammad Rzayev, Abbas Ahmadov**

## PERSONALITY FACTOR IN SUSTAINABLE HUMAN DEVELOPMENT


Human being stands in the center of sustainable human development concept proposed by United Nations Organization at the beginning of the XX century.

In this regard, when studying human problems, the human position in society and its well-being should be considered. Creating such condition is very important for both modern and future generations. Therefore, when it comes to human development, the sustainability of this development is also taken into consideration. From this point of view, in this article, the authors aimed to study the problem of formation of personality in the transformation process in the economic life of society in the condition of sustainable human development. The article substantiates that in recent years, the role of personality in our country has increased, thanks to the efforts made to formulate complex

economic, organizational and political preconditions to ensure a sustainable and dynamic transition of national economy. Radical changes in economic life, the establishment of market relations led to such a stage of economic development that they provided broad opportunities for the comprehensive development of personality in the process of steady and sustainable development. Recently, sufficient cadre potential has been formed in the socio-economic, scientific and technical spheres, the institutional and legal base of the starting capital has been created, due to the work done to form complex economic, organizational and political conditions to ensure the transition of the national economy to sustainable and dynamic development in Azerbaijan. Our country has already entered such a period of economic development that its future acceleration is directly related to a large extent to the nature, scale and effectiveness of structural policy implemented, which opens wide opportunities for the comprehensive development of personality in the process of consistent and sustainable development.

***Key words**: transformation, personality, sustainable, economic, sphere, social, property, law*

## РЕЗЮМЕ

**Мамед Рзаев, Аббас Ахмедов**

## ФАКТОР ЛИЧНОСТИ В УСЛОВИЯХ УСТОЙЧИВОГО РАЗВИТИЯ ЧЕЛОВЕКА

В центре концепции устойчивого развития человека, выдвинутой Организацией Объединенных Наций в начале XX века, стоит человек. По этой причине при анализе человеческой проблемы следует учесть положение человека в обществе, его благосостояние. Создание такой обстановки очень важно и для современных, и для будущих поколений. Поэтому, когда говорим о развитии человека, следует учесть и устойчивость данного развития.

С этой точки зрения авторы в своих анализах в условиях устойчивого развития человека приводят на плоскость анализа проблемы формирования личности в процессе трансформации, шедшей на экономической жизни общества.

В статье обосновано, что за последние годы с целью обеспечения в Азербайджане перехода национальной экономики к последовательному и динамическому развитию, благодаря комплексным экономическим, организационным, политическим мероприятиям, связанным с формированием первичных условий, повысилась роль личности в нашей стране.

Коренные изменения, происходящие в экономической жизни, установление рыночных отношений привели к такому этапу развития экономики, что они открыли широкие возможности для всестороннего развития личности в процессе последовательного и устойчивого развития.

За последние годы с целью обеспечения в Азербайджане перехода национальной экономики к последовательному и динамическому развитию, благодаря комплексным экономическим, организационным, политическим мероприятиям, в нашей стране на достаточном уровне сформирован потенциал кадров в социально-экономической, научно-технической сферах, создана институциональная и правовая база стартового капитала. Уже на современном периоде наша страна вошла в такой период экономического развития, что ее будущее ускорение непосредственно связано в значительной степени с характером, масштабом и эффективностью осуществляемой структурной политикой, что открывает широкие возможности всестороннему развитию личности в процессе последовательного и устойчивого развития.

***Ключевые слова:** трансформация, личность, устойчивое, экономическое, сфера, социальная, собственность, право*

---

***Məqalə daxil olmuşdur:** 03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:** 12 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 62-66
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 62-66
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 62-66

**RAFİQ RƏHİMOV**
**NADİR HÜSEYNBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479.242)**

# KƏNGƏRLİLƏR NƏSLİ REPRESSİYA İLLƏRİNDƏ

*Repessiyalara məruz qalan nəsillər içərisində Kəngərlilər də az olmamışdır. Qədim türk tayfalarından olan Kəngərlilər 4-5-ci əsrlərdən etibarən Azərbaycanda məskunlaşmağa başlamışlar. XI əsrdə Səlcuqlar İranı və Cənubi Qafqazı tutarkən kəngərli tayfaları da bu yürüşdə yaxından iştirak etmişlər. Xanlıqlar dövründə kəngərlilər Naxçıvanın ictimai-siyasi həyatında mühüm rol oynamışlar. Elə sovetləşmə illərində də kəngərlilərin bir çoxu Azərbaycanın müstəqilliyini bərpa etmək üçün antisovet təbliğatı apararaq sovet hökumətinə qarşı çıxmışdır. Bəziləri sovetləşmənin ilk illərindən təqiblərə məruz qaldığından Türkiyədə, İranda və başqa yerlərdə mühacirət həyatı yaşamağa məcbur olmuşdu.*

***Açar sözlər:*** *repressiya, sürgün, məhkumluq, ataş, mühakimə, cinayət məcəlləsi, etiraz, istintaq*

Göründüyü kimi, 1920-1950-ci illərdə kəngərlilər nəslinin ən tanınmış nümayəndələri də repressiyaların məngənəsindən yaxa qurtara bilməmişdi. 20-ci illərdə və 30-cu illərin əvvəllərində kəngərlilər nəslinin nümayəndələri, əsasən, zorakı sosializm quruculuğuna, dini dəyərlərimizin təqibinə, haqsız ittihamlara, bolşeviklərin və ermənilərin bu diyardakı özbaşınalığına, kollektivləşməyə qarşı çıxmaqda və Naxçıvan üsyanının təşkilatçıları olmaqda günahlandırılırdılarsa, 30-cu illərdə onlar daha çox İrana və Türkiyəyə casusluqda, SSRİ əleyhinə gizli təşkilatlar yaratmaqda, sovet əleyhinə təbliğat aparmaqda, pantürkizm və panislamizmdə ittiham edilirdilər. Müttəhimlərin böyük əksəriyyəti yuxarıda sadaladığımız cinayətlərin bir neçəsində müqəssir bilinirdi. Belə ki, 1937-ci ildə həbs edilən Kəngərlinski Əlimərdan bəy Qara oğlu casusluqda və sovet əleyhinə təbliğat aparmaqda günahlandırılırdı.

Bəyliyə münasibət o qədər pis idi ki, hətta hər hansı bir istintaqı aparmaq üçün yerlərə göndərilmiş məktublarda müttəhimin ictimai mənşəyi xüsusilə nəzərə alınır və onun yoxlamasını məhz bu istiqamətdə aparmağı tapşırırdılar. Aydınlıq üçün MTN-in arxivində olan bir fakta müraciət edək: «Bakı şəhəri 17 oktyabr 1940-ci il. İttiham olunan Kəngərlinski Məzəddin Eyyub oğlu haqda 4882/42420 №-li arxiv işi. Az.SSR XDİK-ın Ordubad rayon şöbəsinə istintaqa göndərilsin. Bütün şahidlərdən bir də M.Kəngərlinskinin əksinqilabı fəaliyyəti haqqında soruşulsun, onun ittiham olunanlarla əlaqələri dəqiqləşdirilsin; RİK-dən onun sosial-mənşəyi ilə bağlı arayış toplamaq (bəy olması haqda). Qərarı 5 günə icra etmək. Az.SSR XDİK-ın müstəntiqi Həsənov.

Azərbaycan SSR XDİK-in istintaq materiallarından aydın olur ki, Ə.Q.Kəngərlinski Naxçıvanda olan İran konsulu K.K.Səfərəlibəyovla və ittiham edilmiş qohumu Kəngərlinski Miribrahim Mirheydər oğlu ilə sistematik əlaqə saxlamışdır. Bu ünsiyyət zamanı Ə.Kəngərlinski İran konsuluna casusluq xarakterli məlumatlar vermişdir. Bundan başqa, o, hökumətin tədbirlərini nüfuzdan salan antisovet təbliğat aparmışdır. Bu mücərrəd ittihamlardan aydın olmur ki, «casusluq xarakterli məlumatlar» və «hökumətin tədbirlərini nüfuzdan salan antisovet təbliğat» dedikdə nə nəzərdə tutulur. Nə istintaq işində toplanmış təhqiqat materialları, nə müttəhimin özünün, nə də şahidlərin verdiyi ifadələrdə bu məsələ axıra kimi aydınlaşdırılmamış və Azərbaycan SSR XDİK üçlüyünün 26 avqust 1937-ci il tarixli qərarı ilə 1870-ci il təvəllüdlü Kəngərlinski Əlimərdan bəy Qara oğlu əmlakı müsadirə olunmaqla ən yüksək cəzaya – güllələnməyə məhkum edilmişdi.

16 aprel 1966-ci ildə Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası (sədr T.Qəhrəmanova, üzvlər M.Əhmədov və S.Rəzzaqov) Azərbaycan SSR XDİK üçlüyünün 26 avqust 1937-ci il tarixli qətnaməsinə dair protesti üzrə işə yenidən baxmış onun üzərindən «vətən xaini» damğasını götürmüşdür.

1966-cı il kollegiyasının qərarında bildirilir ki, Kəngərlinski Azərbaycan SSR XDİK-in Naxçıvan diyarı üzrə tərtib olunmuş siyahısına əsasən həbs edilmişdir. 1937-ci ildə dindirilmiş şahidlər Q.N.Qəhrəmanov və P.A.Şirinov Kəngərlinskinin əksinqilabi casusluq fəaliyyəti haqqında konkret heç nə deməyiblər. Kəngərlinski özü ifadə verib ki, o, Səfərəlibəyovu uşaqlıqdan tanıyır, onunla dostluq münasibətləri vardır. Miribrahim Mirheydər oğlu ilə isə yaxın qohumdur. Adları çəkilmiş şəxslərlə hər hansı cinayət əlaqəsinin olmasını Kəngərlinski qəti surətdə inkar etdi.

Azərbaycan SSR DTK orqanları tərəfindən aparılmış yoxlama zamanı şahidlər – Şahbuz rayonu Kükü kəndinin sakinləri Sultanov N.M., Allahverdibəyov K.A., Hüseynov İ.D., Cəfərov Ə.K., Qasımov Q.A. dindirilmişlər. Onlar göstəriblər ki, məhkumu yaxşı tanıyırdılar. O, varlı adam idi, lakin siyasətlə maraqlanmırdı, onun tərəfindən hər hansı antisovet söhbətlər eşitməyiblər.

Yuxarıda deyilənlərə əsaslanaraq və Azərbaycan SSR CPM-nin 409-411-ci maddələrini rəhbər tutaraq Azərbaycan SSR Ali Məhkəməsinin Məhkəmə Kollegiyası müəyyən etmişdir ki, Azərbaycan SSR XDİK üçlüyünün Kəngərlinski Əlimərdan Qara oğlu barəsindəki 26 avqust 1937-ci il tarixli qətnaməsi ləğv edilsin, təqsiri sübut olunmadığına görə onun barəsindəki işin icraatı dayandırılsın. Protest yerinə yetirilsin.

Biz Kəngərlinskilərin növbəti qurbanlarından olan Kəngərlinski Yaqub Paşa İsmayıl oğlunun istintaq işini bilərəkdən heç bir ümumiləşdirmə aparmadan kiçik ixtisarla təqdim edirik.

Azərbaycan SSR XDİK üçlüyünün 26 avqust 1936-cı il tarixli qərarı ilə 1876-cı ildə Naxçıvan şəhərində anadan olmuş, keçmiş bəy olan Kəngərlinski Yaqub Paşa İsmayıl oğlu ən yüksək cəzaya – güllələnməyə məhkum edilmiş və bir neçə gündən sonra hökm icra olunmuşdur.

30 avqust 1966-cı ildə işə yenidən baxan məhkəmə kollegiyası hesab etmişdir ki, Kəngərlinskinin məhkum olunması üçün şahidlər M.Otayanın və M.Qədimovun ifadələri əsas götürülmüşdür. Onların ifadələrinə görə Y.Kəngərlinski İran konsulluğunun nümayəndəsi Səfərəlibəyovla əlaqə saxlayıb, antisovet təbliğat aparıb, xalq düşməni Vəzirovla yaxın əlaqədə olub və onu tərifləyib. Göstərilən şahid ifadələri ümumidir, konkret deyil.

1966-cı ildə dindirilmiş şahidlər Y.Kəngərlinskini keçmiş bəy kimi xarakterizə etsələr də, antisovet məzmunlu təbliğat aparmadığını bildirmişlər.

Deyilənləri əsas götürən cinayət işləri üzrə Məhkəmə Kollegiyası müəyyən etmişdir ki, Azərbaycan SSR XDİK üçlüyünün Kəngərlinski Yaqub Paşa İsmayıl oğlu haqqında çıxardığı 26 avqust 1937-ci il tarixli qərarı ləğv edilsin və sübut olunmadığına görə iş bağlansın, müttəhimə ölümündən sonra bəraət verilsin.

İrana casusluqda ittiham olunan növbəti kəngərli qurbanlarından biri də Kəngərlinski Əkbər Aslan oğlu idi. O, İranın xeyrinə antisovet təbliğat aparmaqda ittiham edilərək 11 fevral 1938-ci ildə həbs olunur. 14 avqust 1938-ci ildə Zaqafqaziya dəmiryol məhkəməsi tərəfindən 5 il müddətinə azadlıqdan məhrum edilmişdir. Ə.Kəngərlinski də özünü müqəssir bilmədiyinə görə şahid ifadələri əsasında ittiham edilmişdir. Şahid sözlərinə görə «Kəngərlinski Əkbər mütəmadi olaraq Sovet hökumətindən narazılıq edir, İranda vəziyyəti tərifləyirdi, Sovet hökumətinin qarşıdakı müharibədə məğlub olacağı barədə fitnəkar şayiələr yayırdı. Deyirdi ki, gizli surətdə İrana dayısının yanına gedəcək, ...tezliklə Culfadan Arazdəyənə kimi bircə türk də qalmayacaq, bu ərazi İrana məxsus olacaq».

Lakin müttəhimin narazılığının nədə ifadə olunması, bu faktı kimlərin təsdiq etməsi, Kəngərlinskinin antisovet təbliğat aparması barədə şahid heç nə deyə bilməyib. Bundan əlavə, müttəhim məhkəmədə və öz ifadələrində onunla qəsdi-qərəzi olan bir şahidin ifadəsini rədd edib. Şahidi ikinci dəfə dindirmək mümkün olmamışdır, ona görə ki onun özünü də Ussuri vilayətinin

Razdolnaya stansiyasındakı həbs düşərgəsinə sürgün etmişdilər. Bu idi repressiv aksiyaların əsas mahiyyəti və surət mexanizmi. Burada şahid qismində dindirilən də, üzləşmədə iştirak edən də məhv edilməyə məhkum idi.

İkinci şahid də Kəngərlinski haqqında anoloji ifadə verib: «Mənim Kəngərlinski ilə tanışlığım müddətində təqribən 1931-1932-ci illərdə Culfa stansiyasında o, tez-tez Sovet hökumətindən narazılıq edirdi. Dəmiryolçularla söhbətində deyirdi ki, tezliklə müharibə olacaq, Sovet hökuməti məhv olacaq. Bu söhbətləri mən dəmiryolçulardan eşitmişəm, amma kimdən eşitdiyim yadımda deyil».

Şahid bu ifadələri ona məlum olmayan dəmir yolçulardan eşitdiyini bildirir və onların kimliyini göstərmir. O özü şəxsən müttəhimdən antisovet sözlər eşitmədiyini bildirir. Cinayətin hüquqi əsaslarını şahidlərin ifadələrində axtarmaq təşəbbüsü və təcrübəsi də yalnız Sovet hüquq-mühafizə orqanlarının təcrübəsinin məhsulu idi.

Bir neçə şahidi: A.K.Mirzəyanı, S.S.Qriqoryanı, A.K.Musayevi, Ə.Q.Köçərlini, Q.İ.Areşkini və A.D.Minasyanı dindirərkən müttəhim Kəngərlinski antisovet təbliğat aparmağı barədə faktlar müəyyən olunmamışdır. Göründüyü kimi, şahidlərin də, ittiham edən müstəntiqlərin də böyük əksəriyyəti ermənilər idi. Həmin illərdə (elə ondan sonrakı illərdə də) ermənilər azərbaycanda istədiklərini etmək hüququna malik idilər. Azərbaycanda həyata keçirilən repressiyalarda bu qədər aktiv olan ermənilər təbii ki, Ermənistanda daha çox azərbaycanlının qətlinə fərman vermiş və etnik təmizləmə siyasəti aparmışlar.

Kəngərlilər nəslinin bir çox üzvləri də ailəlikcə birlikdə Sibirə və Qazaxıstana sürgün edilmişdir. Tarixçi alim Əli Əliyev yazırdı: «1937-ci ilin avqustun 10 günündə Naxçıvan Muxtar Respublikasında 9950 nəfər həbs edilir. 500 ailə sürgünə məhkum olunur (əksəriyyəti sadə adamlardır, Hüseyn Qədir oğlu Kəngərli, Aydın Əmircan oğlu Kəngərli, Zəhra Məhəmməd qızı Səfibəyova (Naxçıvan), Qazıbəyov Əhmədbəy Hacıməmməd oğlu, Rəhimov İsmayıl İsmayıl oğlu, Cəlilov Nəsrulla (Noraşen), Muxtarov Həbib Kəlba Məmməd oğlu, Sadıxov-Tağıyev Məşədi Rzaqulu Sadıx oğlu (Ordubad) və onlarla digər ailələr sürgün edilirlər.

Təqdim etdiyimiz faktlardan bir daha aydın görünür ki, 30-cu illərin qərəzli və məqsədli istintaqları kimi, 50-ci illərdən sonra həyata keçirilən reablitasiya (etiraf) tədbirləri də dəqiq və axıracan aparılmamışdır. Burada diqqəti çəkən başqa bir mühüm məqam ondan ibarətdir ki, SSRİ-də və Azərbaycanda repressiyalar vahid ssenariyə əsasən həyata keçirildiyi kimi, reablitasiyalar da düşünülmüş vahid ssenari ilə aparılırdı. Hətta bir çox hallarda bu ssenarilərin şahid ifadələri ilə (həm 1937-də, həm də 1956-da) çıxış edən muzdlu iştirakçıları da eyni adamlar olurdu.

İrana və Türkiyəyə casusluqda ittiham yalnız ayrı-ayrı şəxslərə qarşı deyil, eyni zamanda islami dəyərlərin və türkçülüyün əsaslarını sarsıltmağa yönəldilmiş siyasi aksiya idi. İnsanları islami dəyərlərdən və türkçülükdən uzaq salmaq isə onun köklə, yaddaşla əlaqəsini qırmağa yönəldilmişdi və məqsəd yeni sovet adamı, sosialist təlimini qeydsiz-şərtsiz qəbul və təbliğ edən manqurt hazırlamağa xidmət edirdi. «Azərbaycanda pantürkizm fərdi ittihamlardan ümummilli və ümumtürk ittihamlarına doğru ağrılı bir yol keçmişdi. Sovetlər birliyində yaşayan digər xalqlardan fərqli olaraq, Azərbaycan xalqı 30-cu illərin repressiyalarında öz millətinin və öz dilinin adını itirmişdi. Türk dili və türk milləti anlayışlarının repressiyası milləti kökündən ayrı saldı. Eyni zamanda bu anlayışlar sonralar Sovet cəmiyyəti daxilindəki «bəraət» prosesindən kənarda qaldı».

Az.SSR XDİK üçlüyünün 21 oktyabr 1938-ci il qərarına əsasən 1887-ci il təvəllüdlü, Naxçıvan şəhərinin sakini, bitərəf, orta təhsilli, həbsə qədər Naxçıvan tibb texnikumunda hesabdar işləyən Kəngərlinski Fərəc Ağanəsir oğlu həbs edilir. O, bəy mənşəili olduğuna görə 1925-ci ildə 4 ay yarım islah evində olmuşdur. F.Kəngərlinskinin həbsi üçün yeganə sənəd Molla Tağı Şirəliyevin dindirilmə protokolundan çıxarış olmuşdur. Molla Tağı Şirəliyev «Məzlumları müdafiə» təşkildatının yaradıcılarından olduğu üçün həbs edilmiş və dindirmə zamanı həmin təşkilatın üzvlərindən biri kimi Kəngərlinskinin də adını çəkmişdi. Lakin M.Q.Qasımov, A.K.Əliyev öz ifadələrində T.Şirəliyevin göstərdiklərini təsdiq etməmişdir. Maraqlıdır ki, molla Tağı da Kəngərlinskinin kim tərəfindən bu təşkilata cəlb edildiyini bilmədiyini qeyd edirdi.

Görünür, molla Tağının özündən də bu ifadə yalnız fiziki işgəncələr vasitəsi ilə alınmış və bunların hamısı cəzalandırılmışdır.

Bu təşkilatın fəaliyyətinə gəldikdə isə qeyd olunur ki, «Məzlumları müdafiə» gizli təşkilat olsa da, o, sovet hökuməti əleyhinə heç bir təbliğat aparmır. Onun qarşısında duran əsas vəzifə məzlumlara maddi yardım göstərməkdən ibarətdir. Lakin XDİK əməkdaşları bu təşkilata siyasi don geydirərək onun sovet hökuməti əleyhinə işlədiyini sübuta çalışırlar. Şahid ifadələrindən də aydın görünür ki, onların heç biri dövlətin əleyhinə antisovet təbliğatı aparmamışlar.

Bunlardan başqa, 1883-cü il təvəllüdlü, Naxçıvan MSSR Əbrəqunis rayonunun Saltax kənd sakini Kəngərlinski – Məmmədov Mirağa Məmməd oğlu Sovet hakimiyyətinə düşmən mövqedə dayandığına, yəni sovet hakimiyyətinin devrilməsinə cəhd edərək əhali arasında əksinqilabi, təxribatçı şaiyələr yaydığına görə Azərbaycan SSR cinayət məcəlləsinin 72-ci maddəsilə məsuliyyətə cəlb edilmişdi.

Dövlət çevrilişində ittiham edilənlər arasında Naxçıvan şəhər sakini, 1889-cu il təvəllüdlü Kəngərlinski Soltan Əsəd oğlu və 1887-ci il təvəllüdlü Bənanyarski Qəmbər Əli oğlu da var idi. Bu istintaq işindən aydın görünür ki, onların evində axtarış aparılmış, lakin istintaq üçün əhəmiyyət kəsb edən heç nə tapılmamış və istintaq müddətində Kəngərlinski, eləcə də Bənanyarski özlərinin günahkar saymamışdır. Lakin buna baxmayaraq məhkəmə kollegiyası onların hər birini 3 il müddətinə azadlıqdan məhrum etmişdir.

Bunlarla yanaşı, kəngərlilər nəslindən olan İrərəvan da 5 illik gimnaziyasını bitirmiş Həmid Kəngərlinski , Hacıqabıl dəmiryolunun fəhləsi Kəngərlinski Bəhmən Tərxan oğlu, heç bir təhsili olmayan Kəngərlinski Səid Nuri oğlu və onlarla başqaları 30-cu illərin siyasi repressiyaların məngənəsindən yaxa qurtara bilməmişdir.

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, sovet hökumətinin hüquq-mühafizə orqanları tərəfindən tətbiq edilən siyasi repressiyalar planlı, düşünülmüş və vahid ssenari əsasında həyata keçirilirdi.

Biz yuxarıda məsuliyyətə cəlb edilmiş şəxslərin nə zaman reablitasiya olunmaları barədə də məlumat verdik. Həqiqətən də, Stalinin ölümündən sonra ictimai-siyasi həyatda bir qədər yumuşalma müşayiət olundu. Bu illərdə 20-50-ci illərin cinayət işlərinə yenidən baxıldı və minlərlə adam bəraət aldı. Bu işin icrası SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 avqust 1955-ci il tarixli Fərmanında əvvəllər SSRİ ərazisində XDİK, DİN orqanlarının xüsusi müşavirələri və üçlükləri, habelə xüsusi məhkəmələri tərəfindən məhkum olunmuş şəxslərin işlərinə yenidən baxılması məsələsi öz təsbitini tapmışdır. Fərmandan irəli gələn məsələlərin icrası əyalətlərdə aidiyyatı orqanlara həvalə edilmişdir.

Azərbaycan SSR Ali Məhkəməsi Rəyasət Heyəti və Məhkəmə Kollegiyası həmin illərdə cinayət məsuliyyətinə cəlb edilmiş şəxsləri müxtəlif çalarlar üzrə müəyyənləşdirmiş və onların bir çoxunu reablitasiya etmişdir.

1955-ci ilin avqustundan dekabrına qədərki dövrdə Azərbaycan SSR Ali Məhkəməsi Rəyasət Heyəti və Məhkəmə Kollegiyası tərəfindən «Əksinqilabi iş» adı altında 2024 nəfərə qarşı 918 işə yenidən baxılmışdır. Onlardan: 1829 nəfərə qarşı 770 işə xitam verilmiş, 127 iş üzrə 171 adamı cəzası azaldılaraq və məhkumluğu üzərindən götürülərək azad edilmişdir, 21 iş üzrə 24 adamın cəzası azaldılmış, lakin məhkumluqları üzərlərindən götürülməmişdir.

Eyni zamanda Azərbaycan SSR Ali Məhkəməsi Rəyasət Heyəti və Məhkəmə Kollegiyası tərəfindən müəyyən edilmişdir ki, əksinqilabi-millətçi, pantürkist, panislamist cinayətlərə görə ittiham edilmiş şəxslərə qarşı qaldırılmış cinayət işlərinin çoxuna Azərbaycan SSR XDİK-in xüsusi müşavirələri və üçlükləri tərəfindən qeyri-məhkəmə qaydasında baxılmış və çoxlu qanun pozuntularına yol verilmişdir.

Reablitasiya tədbirləri sonrakı illərdə də aparılmış və minlərlə adamın günahsız olduğu sübuta yetirilmişdir. Reablitasiya sənədlərinin özü də göstərir ki, repressiya qurbanlarına verilmiş bu bəraətlər formal xarakter daşımışdır. Daha doğrusu, 50-ci illərdə Sovet hökuməti repressiyaya məruz qalanların günahını İ.V.Stalində və ona yaxın dairələrdə axtardığına görə əsl həqiqətləri yenə də pərdələmiş və həmin sənədləri xalqdan gizlətmişdir. Digər bir tərəfdən isə

hakimiyyəti qoruyub saxlamaq üçün totalitar rejimin özünə də bəraət qazandırmış və müəyyən islahatlar aparmaqla onun ömrünü bir qədər də uzatmışlar. Maraqlıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin bərpası, milli-mənəvi və dini dəyərlərin müdafiəsi, bir sözlə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə qoşulanların repressiyaya məruz qalan nümayəndələrinin demək olar ki, bir çoxuna bəraət verilməmiş və onların adları heç yerdə çəkilməmişdir. Bu mənada repressiya qurbanlarının əsl bəraəti də onların idealı uğrunda apardığı mübarizə reallaşdıqdan, Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra baş tutdu.

## ƏDƏBİYYAT

1. MTH архиви: ПР-30991
2. MTH архиви: ПР-30296
3. MTH архиви: ПР-32292
4. MTH архиви: ПР-31724
5. MTH архиви: ПР-30343
6. MTH архиви: ПР-34826
7. MTH архиви: ПР-21774
8. MTH архиви: ПР-24358
9. MTH архиви: ПР-21773

## SUMMARY

**Rafig Rahimov, Nadir Huseynbayli**

## THE KANGARLY CLAN DURING REPRESSION YEARS

The article explores the reasons of the annihilation of intellectuals of national ideas, who played an important role in the socio-political life of Nakhchivan, as well as the Kangarly clan during the repressions and the main essence of the total political campaigns against the nationalism. On the basis of archival materials, the article states that they were subjected to repression by being accused of the violation of socialism, persecution of religious values, unfair accusations, Bolsheviks 'and Armenians' tyranny in this land, counteraction to collectivism, and being the organizers of the Nakhchivan rebellion.

***Key words:*** *repression, exile, conviction, shooting, judgment, criminal code, protest, investigation*

## РЕЗЮМЕ

**Рафик Рагимов, Надир Гусейнбайли**

## КЛАН КАНГАРЛЫ В ГОДЫ РЕПРЕССИИ

На основе архивных материалов исследованы причины уничтожения рода Кенгерлинцев в период репрессии наряду с интеллигенцией, обладающей национальным сознанием и играющей важную роль в общественно-политической жизни Нахчывана, раскрыта основная суть тотальных политических акций, направленных пртив всего национального, обосновывается мысль, что эти насильственные акты способствовали тоталитарному социалистическому строительству, преследованию религиозных ценностей, несправделивому осуждению, произволу большевиков и армян на этом крае, обвинению людей в организации восстания в Нахчыване, выступлении против коллективизации, в результате чего многие подвергались к репрессиям.

***Ключевые слова***: *репрессия, ссылка, осуждение, расстрел, приговор, уголовный кодекс, бек, пртест, расследование.*

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 67-71
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 67-71
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 67-71

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 321:330.342.22; 321 (1-773)**

# MÜASİR İNFORMASİYA CƏMİYYƏTİNDƏ HAKİMİYYƏTİN İQTİSADİ VƏ SİYASİ FORMASI ARASINDA MÜNASİBƏT MƏSƏLƏSİNƏ DAİR (İNKİŞAF ETMİŞ KAPİTALİST ÖLKƏLƏRİN MİSALINDA)

*Məqalədə müasir informasiya cəmiyyətində hakimiyyətin iqtisadi və siyasi forması arasında münasibətlər araşdırılır. İnformasiya inqilabının ictimai həyatın bütün sahələrinə nüfuz etdiyi, informasiya inqilabı qanunlarının diktəsi ilə siyasi məkanın yeni qaydalar və prinsiplərlə formalaşmağa başlanması, bu gün siyasi hakimiyyətin idarə olunmayan informasiya axınında mövcud olması və bununla bağlı cəmiyyətdə yaranmış problemlər aydınlaşdırılır, informasiyanın şəbəkə axınlarının siyasi hakimiyyətin institutlarına dağıdıcı təsir göstərməsi göstərilir. Birinci növbədə informasiya inqilabının cəmiyyətin iqtisadi sturukturuna təsiri geniş şərh edilir.*

*Hakimiyyətin siyasi ierarxiya institutlarının iqtisadiyyatın təşkilinin şəbəkə forması ilə ziddiyətə girməsi, siyasi və iqtisadi qarşıdurma meylin müasir cəmiyyətin əsasını dağıtmamağı üçün siyasi hakimiyyətin sturuktur və təşkilatlarına yenidən baxılması müəyyənləşdirilir.İnformasiya şəbəkə sturukturu və kapital epoxasında aktual məsələlərin mərkəzləşdirilmiş həlli prinsipinin işləməməsi, eyni zamanda siyasi hakimiyyətin şəbəkə prinsipi üzrə qurula bilməsi əsaslandırılır.*

*Terrorizm, narkobiznes kimi qlobal problemlərin kəskinləşməsi hakimiyyətin yüksək səviyyəsində yubatmadan, operativ və dəqiq siyasi qərarların qəbul edilməsi şəraitində hakimiyyət səlahiyyətlərinin bölüşdürülməsi informasiya inqilabının obyektiv tələbi olması isbat edilir.*

***Açar sözlər:*** *informasiya cəmiyyəti, informasiya inqilabı, iqtisadiyyat, korporasiya, siyasi hakimiyyət, iqtisadiyyatda informasiya inqilabı, biznesdə informasiya inqilabı, sahibkar, biznes*

Müasir cəmiyyətdə informasiya texnologiyalarının doğurduğu səbəbdən informasiya inqilabı köklü dəyişikliklər prosesi kimi həyata keçir. Belə ki, informasiya inqilabı ictimai həyatın bütün sahələrinə nüfuz edir. Bizim gözlərimizin qarşısında informasiya inqilab qanunlarının diktəsi ilə siyasi məkan yeni qaydalar və prinsiplərlə formalaşmağa başlayır. İnformasiya inqilabı yeni informasiya paradiqma çərçivəsində siyasi fəlsəfənin bütün əsas problemlərini yenidən araşdırmağı tələb edir. Müasir siyasi prosesin əsas faktoru informasiya ideyasıdır. İnformasiya texnologiyalarının təsiri ilə siyasi hakimiyyətin köhnə institutları dağılır və bu da öz növbəsində müasir cəmiyyətdə yeni münaqişələrin və ziddiyyətlərin inkişafına yardım edir.

Göstərmək lazımdır ki, siyasi fəlsəfənin mühüm vəzifələrindən biri dünyanın müasir xəritəsindəki münaqişələri tədqiq etməkdir ki, bunların da içərisində informasiya texnologiyalarının təsiri nəticəsində yenicə formalaşmaqda olan siyasi sistem ilə iqtisadiyyatın şəbəkə forması arasında zidiyyət mühüm yer tutur. Gələcək siyasi inkişaf müasir dövrün bu ziddiyyətinin həllindən asılıdır.

Klassik politologiyanın təsvir etdiyi siyasi həyatın mənzərəsi bu gün mücərrəd təqdim olunur və bizim müşaiyiət etdiyimiz siyasi reallıqdan uzaqdır. Siyasi münasibətlərin klassik mənzərəsi təşkilata, mərkəzləşmə və hakimiyyət iyerarxiya münasibətlərinin prinsiplərinə söykənir. Hakimiyyətin yuxarı pilləsində olan monarx və ya prezident müşavirlər və ya siyasi institutların təqdim etdiyi siyasi informasiyalara malikdirlər. İstənilən halda bu siyasi informasiya nizamlanan, məhdudlaşan və idarəedilən informasiya idi.

İnformasiya inqilabı hakimiyyətin öhdəsinə qlobal informasiya axını təqdim edir. Yüksək texnologiya və kütləvi kommunikasiya virtual məkanı istifadə edərək ani olaraq yeni informasiyanı

siyasi fəaliyyət sferasına çevirir. İnformasiya, yeni informasiyaya buraxılan siyasi hakimiyyətin ehtiyatıdır.

Hakimiyyət bu informasiya axınından öz məqsədləri üçün istifadə edə bilər, ancaq o da məlumdur ki, hakimiyyət bu ehtiyatlardan tam idarə etmək gücünə malik deyil. Siyasi hakimiyyət özünün yeni ehtiyatlarına tam nəzarət edə bilməz. İnformasiya ilə istənilən hərəkət məhdud xarakter daşıyacaq. Çünki bir kanalda gizli olan informasiya, başqa informasiya axını tərəfindən açıla bilər.

Bu gün siyasi hakimiyyət idarə olunmayan informasiya axınında mövcuddur, bu da hakimiyyətin mövcudluğunu onun kimi idarəolunmayan edir.

İnformasiya cəmiyyətində sosial istiqamətli korporasiyalar liderliyə can atırlar. Artıq bu gün o sahibkarlar daha çox nailiyyət qazanır ki, o maksimum yüksək texnoloji proseslərə və sistemlərə yönəlmişlər, özlərinə ən yaxşı ekspertləri cəlb edirlər və özləri də yeniliyə münasibətdəki fəaliyyətlərində görkəmli qabiliyyətə malikdirlər. Bu sahibkarlar öz korporasiyaları qarşısında iqtisadi yox, sosial məqsəd qoyurlar. Onlar çalışırlar ki, biznesdə özlərini reallaşdırsınlar, yaradılmış texnologiyalarla ictimai rəğbət qazansınlar və cəmiyyətdə yüksək iqtisadi göstəricilərə nail olsunlar. Əksinə, o sahibkarların ki, qarşılarına təmiz iqtisadi xarakter daşıyan məqsəd qoyularsa, onlar iqtisadi yarışda uduzurlar.

Beləliklə, gələcək özü inkişaf edən korporasiyalarındır. Bu cür korporasiyaların sosial funksiyaları onların əsas fəaliyyəti ilə bağlıdır. Birinci ona görə ki, onlar müasir cəmiyyətin kreativ potensialını inkişaf etdirirlər. Bununla bərabər, informasiya ziddiyətində hakimiyyətin qüdrətini, əzəmətini xüsusi qeyd etmək lazımdır. Hakimiyyətin qüdrəti əvvəlki həddindən ağıla gəlməz qədər artmışdır. Prezidentin əlində olan nüvə düyməsi planeti bir anda məhv etməyə qadirdir. Ancaq hakimiyyət bu qüdrətdən bir dəfə istifadə edə bilər, çünki bu hakimiyyətin özünün tam məhvinə gətirəcək. Beləliklə, hakimiyyət və hakimiyyətsizlik müasir informasiya cəmiyyətinin iki tərəfi olur.

Yuxarıda deyilənlərdən belə görünür ki, müasir informasiya cəmiyyətində siyasi hakimiyyətin iyerarxiya institutları informasiyanın şəbəkə axını arasında mövcuddur. İnformasiyanın şəbəkə axınları siyasi hakimiyyətin institutlarına dağıdıcı təsir göstərir. Siyasi partiyalar, parlamentlər, konqreslər, dövlət şuraları bürokratik strukturlar informasiya axınına qarşı dura bilməlidir.

Yuxarıda qeyd edildiyi kimi, informasiya inqilabı cəmiyyət həyatının bütün sahələrinə təsir edir. E.Tofflerin qeyd etdiyi kimi ,"informasiya dalğası özü ilə bərabər dünya haqqında təsəvvürü, öz xüsusi üsulu ilə şərh etməyi, məkan, məntiq, səbəbiyyət gətirdi" (4, c.34).

Birinci növbədə informasiya inqilabı iqtisadiyyata, müasir cəmiyyətin iqtisadi strukturlarına təsir etdi. Ancaq iqtisadi hakimiyyət iqtisadiyyatda informasiya inqilabına operativ cavab verdi. Transmilli monopo-liyaların və kiçik biznesin daxilində idarəetmənin şəbəkə strukturları yaradıldı.

İnformasiya inqilabı iqtisadiyyatda V.İnozemcevin qeyd etdiyi kimi, istehsalatı desentralizasiyaya, kütləvisizliyə, fraqmentasiyaya gətirdi: Bu dəyişikliklər bazarın tələbinə çevik cavab verən sistemə keçid idi. Bu sistem isə istehsalın həcmini operativ dəyişməyi, kadr siyasətinin hərəkətli olmasını, maşın parkının tez dəyişdirilməsini, çevik texnoloji prosesləri özündə birləşdirməyi tələb edir (2, c.273).

Biznesdə informasiya inqilabı mərkəzləşmiş idarəetmədən modul təşkilata keçid deməkdir. Bu təşkilatın əsasını böyük olmayan strukturların müvəqqəti konfiqurasiyası birləşdirir. Bu da öz növbəsində biznesin yeni informasiya mühitinə uyğunlaşmasına imkan verdi, idarəetmənin şəbəkə forması idarəetmənin aşağı səviyyəsində qərar qəbul etməyə şərait yaratdı. Qərar qəbuletmə prosesində bölünmə baş verdi. Bundan başqa, yeni strukturun üstünlüyü ondan ibarətdir ki, korporativ həmrəkliyin möhkəmlənməsi və yaradıcı notenşadan fəal istifadə edilməsi baş verdi. Müasir biznesin müvəffəqiyyəti sahibkarların şirkət haqqında əsas biliyə malik və onun fəlsəfəsinin daşıyıcıları olmaları ilə bağlıdır. Müasir sahibkar birinci növbədə öz şirkətinə özünün mülkiyyəti kimi yox, özünün yaradıcılığı kimi baxır, məhz bu sahibkara müvəffəqiyyət və cəmiyyətdə hörmət qazandırır.

Beləliklə, iqtisadiyyatda idarəetmənin şəbəkə prinsipindən istifadə edilməsi əsl inqilabi nəticəyə gətirdi. Korporasiyalar ki, əvvəllər özlərində vertikal sturukturu əks etdirirdilər, onlar

kollektivlərin horizontal şəbəkə məcmusuna çeviridilər. Hər bu cür kollektiv özünün məqsədi, dəyəri, motivi və lideri olan faktiki formalaşmış təşkilatı əks etdirir.

İqtisadiyyatda inqilabi dəyişiklik müasir cəmiyyətin sosial strukturuna da təsir etdi. Yeni şirkətlər ilk hədəflərinə görə sosial adlandırıldı, yəni onların ilk məqsədi qeyri-iqtisadi istiqamət adlandırıldı. Bu da cəmiyyəti sosiallaşmaya və siyasiləşməyə gətirdi. V.İnozemcev qeyd edir ki, müasir korporasiyalar iqtisadi strukturlardan daha çox sosial strukturlara çeviriliblər. Ona görə ki, müasir şəraitdə korporasiyalar nümayəndəli ictimai müəssisə kimi fəaliyyət göstərirlər: onların ictimai funksiyası kollektiv kimi heç də onun iqtisadi funksiyasında geri qalmır (2,c.273).

Müasir qabaqcıl korporasiyaların dərinliklərində əməkdaşların kreativ potensialının hərtərəfli unikal inkişafı üçün şərait yaradılmışdır, etibar və qarşılıqlı kömək atmosferası isə vətəndaş əməkdaşlığının yeni formasını irəli sürmüşdü. Bu şəraitdə korporasiya üzvləri daha çox dərəcədə dövlət liderlərindən çox öz liderlərinə orontasiya istiqamət götürürlər. Bu isə təhlükəli siyasi qarşıdurma yaradır. Müasir korporasiyaların çoxu formal olaraq, hələlik, ənənəvi siyasi hakimiyyətə sadiqliyini saxlayırlar, ancaq nəzərə almaq lazımdır ki, ənənəvi siyasi hakimiyyət öz təbiətinə görə iqtisadi təşkilatların yeni formasına düşməndir (1 c. 176).

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, hakimiyyətin siyasi iyerarxiya institutları iqtisadiyyatın təşkilinin (təşkilatın) şəbəkə forması ilə ziddiyətə girir. Müasir informasiya cəmiyyətində hakimiyyətin iki formasının (siyasi və iqtisadi) daxili münaqişəsi məhz bundan ibarətdir və ölkələrin siyasi və ictimai elitalarının ictimai əminamanlığı onların bu münaqişəni nə dərəcədə həll etmələrindən asılıdır.

Siyasi və iqtisadi qarşıdurma meylin müasir cəmiyyətin əsasını dağıtmamağı üçün siyasi hakimiyyətin struktur və təşkilatlarına yenidən baxılmalıdır. Aydın məsələdir ki, güc metodu ilə iqtisadi sferada yeni yaranmış formalarla mübarizə etmək faydasızdır.

Bu gün, hələlik, siyasi hakimiyyətin institutları informasiyanın və biliyin köhnə sistemini əks etdirirlər. Müasir hökumətlər ixtisaslaşdırılmış problemlərlə məşğul olan nazirliklər sisteminə malikdirlər. Bu formada parlamentlər də analoji şəkildə komitələrə bölünüblər, bu komitələr də aktual problemlərlə ayrılmış və ixtisaslaşmış şəkildə məşğul olurlar. Ancaq müasir şəraitdə bütün problemlər o qədər qarşılıqlı asıllıqdadırlar ki, onları mərkəzləşdirilmiş şəkildə həll etmək mümkün deyil. İnformasiyanın şəbəkə və kapital epoxası zamanı mərkəzləşmə ali bürokratik iyerarxiyanın yeni yüksək dərəcəsini yaratmaqla bərabər, yeni idarəetmə problemlərinə aparır. Eyni ilə də kordinasiya komitələrinin yaradılması da problemləri həll etmir, nəticədə ancaq yeni bürokratik strukturların yeni səviyyəsi yaranır, hakimiyyətin ənənəvi siyasi institutu ləng qərar qəbul edir və qəbul etdiyi qərar informasiya cəmiyyətindəki dəyişikliklərə uyğun gəlmir. Beləliklə, informasiya şəbəkə strukturu və kapital epoxasında aktual məsələlərin mərkəzləşdirilmiş həlli prinsipi işləmir. Eyni zamanda siyasi hakimiyyət şəbəkə prinsipi üzrə qurula bilər. Bu məsələdə müasir korporasiyaların təcrübəsindən istifadə etmək olar ki, bu da mərkəzləşdirilmiş siyasi idarəetmədən modul siyasi təşkilata keçid deməkdir. Bu təşkilatın əsasında müvəqqəti konfiqurasiyada birləşən, böyük olmayan strukturlar durur.

Bu siyasi sistemin desentrilizasiyası deməkdir, yəni qərarların çoxu hakimiyyət vertikalının aşağısında qəbul edilir. Daha çox mühüm milli və transmilli qərarlar isə dövlətlərin prezidenti və hökumətinin öhdəsində qalır. Siyasi qərarların belə bölüşdürülməsi cəmiyyətin siyasi sisteminin stabilləşdirilməsi işində mühüm addım ola bilər.

Siyasi qərarların ayrılması problemin həllində elektron kommunikasiya vasitələri mühüm imkanlara malikdir. Bir neçə müasir şəhərlər yerli problemləri həll etmək üçün "elektron ratuşa" və "elektronnaya meriya" dialoq kommunikasiya sistemindən istifadə edirlər. Bu siyasi demokratiya inkişafı məsələsində əhalinin marağını artırır, siyasi liderlərin köməyi təmin edir və yerlərdə müasir hakimiyyət böhranları aradan qaldırmağa kömək etdi.

İndiki zamanda bütün dünyada şəhər icmaları yeni, qeyri-bürokratik və baha olmayan özünüidarəetmə forması axtarır. Niderlandiya, İsveçrə, Kanada, Finlandiya, Yaponiya və Almaniyada "Gələcəyin birləşmiş kommunası" adlı hərəkat inkişaf edir. Burada əsas ideya müasir informasiya

kommunikasiya vasitələrindən istifadə etməklə yeni ictimai özünüidarəetməkdən ibarətdir. Şəhərin müxtəlif rayonlarında vətəndaşların istənilən məsələ üzrə müraciət etmələri üçün xidmət büroları açılır. Vətəndaşlar bu bürolara öz şəhər quruculuğuna aid təkliflərini verirlər və bu təkliflər də şəhər sovetlərində müzakirə olunur. Bundan başqa, əhali üçün şəhər administrasiyası ilə "bir başa xətt" rabitə açılır.

Qeyd etmək lazımdır ki, son illərdə eyni vaxtda mərkəzi şəbəkələrin gücünü azaltmaqla kommunika-siya sistemlərinin desentirilizasiyası baş vermişdir. Bu kabellərin bölüşdürülməsi, disklərin, kompüterlərin, flaş-kartların, şəxsi elektron postların, sosial şəbəkələrin hesabına olmuşdur. İnformasiya selinin desentiri-lizasiyası siyasi qərarların bölünməsinin əsasıdır.

Bundan başqa, bütün ölkələrdə hökumət böyük həcmdə məsələlər həll edirlər. Ancaq terrorizm, narkobiznes kimi qlobal problemlərin kəskinləşməsi və s. hakimiyyətin yüksək səviyyəsində yubatmadan, operativ və dəqiq siyasi qərarlar qəbul etməyi tələb edir. Hətta güc təşkilatları çox yükləndiklərinə görə mühüm siyasi qərarlar qəbul etmək üçün mütəxəssislər hesablamışdırlar (3, c. 376). Ona görə də siyasi qərarların bölüşdürülməsi yaranmış şəraitdən çıxmağın yeganə yoludur.

Beləliklə, hakimiyyət səlahiyyətlərinin bölüşdürülməsi informasiya inqilabının obyektiv tələbidir.

## ƏDƏBİYYAT


1. Друкер П.Эпоха разрыва: ориентиры для нашего меняющегося общества. М. Вильямс, 2007, с. 176
2. Иноземцев В. За пределами экономического общества. М.: Наука, 1998, с.273
3. Ларичев О.И. Теория и методы принятия решений. М., 2003, с.376
4. Тоффлер Э. Третья волна. М.: АСТ, 2002, с.34


## SUMMARY

**Garib Allahverdiyev**

## ON THE RELATIONSHIP BETWEEN THE ECONOMIC AND POLITICAL FORMS OF POWER IN THE MODERN INFORMATION SOCIETY

The article studies the relationship between economic and political forms of power in modern information society. It is noted that the information revolution has penetrated into all spheres of public life, a political space is starting to form with new rules and principles with the dictates of the laws on the information revolution, and the current existence of political power in an uncontrolled information flow and problems created by them in society are clarified. The destructive influence of network flows on institutions of political power has also been emphasized. First of all, the influence of the information revolution on the economic structure of society is widely commented. The article notes that the political power hierarchy institutions should not be in conflict with the network form of the organization of the economy and political-economic confrontation needs to be revised to avoid the collapse of the modern society. Failure to achieve centralized solution of current issues in the information network structure and capital epoch, as well as the possibility of establishing political power on the basis of the network principle are studied. It is proved that the distribution of power in the context of prompt and accurate political decisions is an objective requirement of the information revolution without exacerbating global problems such as terrorism and drug trafficking.

***Key words:*** *information society, information revolution, economy, corporation, political power, information revolution in economics, information revolution in business, entrepreneur, business*

## РЕЗЮМЕ

**Гариб Аллахвердиев**

## К ВОПРОСАМ ОТНОШЕНИЯ МЕЖДУ ЭКОНОМИЧЕСКОЙ И ПОЛИТИЧЕСКОЙ ФОРМАМИ ВЛАСТИ В СОВРЕМЕННОМ ИНФОРМАЦИОННОМ ОБЩЕСТВЕ

В статье рассматривается взаимосвязь экономических и политических форм власти в современном информационном обществе. Отмечается, что информационная революция проникла во все сферы общественной жизни, по диктату законов об информационной революции начинает формироваться политическое пространство с новыми правилами и принципами,выясняются сегодняшнее существование политической власти в неуправляемом информационном потоке и проблемы созданные с ними в обществе, подчеркивается разрушительное влияние сетевых потоков информации на институтов политической власти. Прежде всего, широко откомментируетсявлияние информационной революции на экономическую структуру общества.

Определяется пересмотр структур и организаций политической власти во избежание коллапса современного общества путем политического и экономического противостояния политическим иерархическим институтам власти сети. Обосновывается разработка централизованных принципов решения актуальных вопросов информационной сетовой структуры в капитальной эпохе, в то же время возможность построения по сетовому принципу политической власти.

Доказано, что распределение власти в контексте быстрых и точных политических решений является объективным требованием информационной революции без обострения глобальных проблем, таких как терроризм и оборот наркотиков.

***Ключевые слова:*** *информационное общество, информационная революция, экономика, корпорация, политическая власть, информационная революция в экономике, информационная революция в бизнесе, предприниматель, бизнес*

***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 72-79
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 72-79
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 72-79

**ŞAMXAL MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 327(4/9)**

# XIX ƏSRİN SONLARI VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ CƏNUBİ QAFQAZDA "ERMƏNİ MƏSƏLƏSİ" VƏ TOQQUŞAN RUS-ERMƏNİ MARAQLARI

*XIX əsrin sonu-XX əsrin əvvəllərində erməni siyasi-klerikal dairələri ilə Rusiya imperiyasının hakim dairələri arasında ziddiyyətlər gərginləşdi. Həmin ziddiyyətlərin düyün nöqtəsi «erməni məsələsinin» həll edilməməsi idi. Bütün XIX əsr ərzində Rusiyanın «Yaxın Şərq» siyasətinə alət olan ermənilər Rusiyadan «erməni dövlətinin» yaradılması üçün dəstək ala bilmədilər. Rusiya ermənilərə dəfələrlə vəd etdiyi «Qafqazda yarımmüstəqil erməni dövlətini yaratmaqda maraqlı deyildi» Kəskinləşən ixtilaflar konteksində XX əsrin əvvəllərində Cənubi Qafqazı erməni terroru bürüdü. Onsuz da beynəlxalq və daxili vəziyyəti təhlükəli olan çar hökuməti ermənilərin kütləvi terror və itaətsizlik hərəkatından qorxuya düşərək güzəştə getdi və ermənilərin bir sıra tələblərini yerinə yetirdi. Öz növbəsində «erməni dövləti» barədə tələblərini bir müddət təxirə salan erməni siyasi-klerikal dairələri çarizmlə barışdı. İmperiya qüvvələri ilə erməni terroru Cənubi Qafqazın türk-müsəlman əhalisinə qarşı öz qüvvələrini birləşdirdilər.*

***Açar sözlər:*** *"Erməni dosyesi", "erməni məsələsi", Yaxın Şərq siyasəti, "qamçı və kökə siyasəti", erməni separatizmi, erməni terroru, siyasi-klerikal dairələr*

Rusiya imperiyası ilə ermənilərin Cənubi Qafqazdakı təqribən 300 illik siyasi əlaqələrinin tarixi təkzibedilməz bir surətdə göstərir ki, bütün vaxtlarda tərəfləri bir-biri ilə bağlayan ümumi maraqlarla yanaşı, onları ayıran, bəzənsə qarşı-qarşıya gətirən xüsusi maraqlar da mövcud olmuşdur. Başqa sözlə, deyilərsə, günümüzdə olduğu kimi keçmişdə də erməni-rus münasibətləri həmişə hamar müstəvidə olmayıb, ziddiyyətli məcrada inkişaf etmişdir. Bu da tərəflərin geosiyasi maraqlarının nə dərəcədə qarşı-qarşıya gəlməsi və ya bir-birini şərtləndirməsi ilə bağlı olmuşdur. Erməni hakim dairələrinin ambisiyalı tələblərinin, Rusiyanın imperiya maraqları ilə toqquşduğu XIX əsrin sonları, XX əsrin əvvəlləri də bu baxımdan istisna deyildir. Bu dövr ərzində tərəflər arasında ziddiyyətlərin düyün nöqtəsi isə "erməni məsələsi"nə münasibət olmuşdur.

Demək lazım gəlir ki, orta çağlardan etibarən tərkibində ən müxtəlif etnosların və konfensiyaların yaşadığı Osmanlı imperiyasında "erməni məsələsi" deyilən bir problem olmamışdır. Yalnız yeni dövrdə, Rusiya imperiyasının gücləndiyi, Cənubi Qafqaz və Balkanlarda işğalçılıq siyasətinə başladığı, Osmanlı imperiyasının isə durmadan zəiflədiyi bir tarixi şəraitdə "erməni məsələsi" ortaya atılan bir bəhanə idi. Bəhanə Rusiyanın hakim dairələri tərəfindən çar I Pyotr və II Yekaterina zamanı meydana çıxarılmış, əvvəl ermənilərə, sonra isə Qərb dövlətlərinə hazır şəkildə təqdim edilmişdi. Erməni dini-siyasi dairələri bu məsələdən dərhal ikiəlli yapışmış, Qərb dövlətləri isə özünün "Yaxın Şərq" siyasətində Türkiyəyə təzyiq vasitəsi kimi istifadə etmişdir. XIX əsrin 70-ci illərindən "erməni məsələsi" artıq beynəlxalq problemə çevrilmişdi.

Məsələnin qısaca mahiyyəti bundan ibarətdir ki, guya bir müsəlman dövləti olan Osmanlı imperiyasında xristian ermənilər sıxışdırılır, dini ayrı-seçkiliyə məruz qalır, təqib olunur, onların hüquqları pozulur və s. Rusiya və xristian Qərb, Türkiyəni məcbur etməlidir ki, islahatlar keçirsin, ermənilərin hüquqlarını bərpa etsin, onlara muxtariyyət versin, bu yöndə gördüyü işlər haqqında Qərb dövlətlərinə hesabat versin və s.

Göründüyü kimi, Türkiyədə separatizmə dəstək vermək, bu ölkənin daxili işlərinə qarışmaq, öz müstəmləkəçilik tələblərini ona zorla qəbul etdirmək kimi geosiyasi maraqlara xidmət edən

qondarma "məsələ", heç də ermənilərə olan xoş münasibətdən irəli gəlmirdi. Bu, qeyd edildiyi kimi bir bəhanə idi və bu bəhanə altında ruslar xırda silahlı qarşıdurmalar, qalmaqallar nəzərə alınmazsa, yalnız XIX əsrdə Türkiyə dövləti ilə üç müharibə aparmış, Krım müharibəsinə rəvac vermiş, bu dövləti çoxsaylı diplomatik təzyiqlərə məruz qoymuşdu. Erməni dini-siyasi dairələri də öz xudbin millətçi-separatçı maraqları naminə həmişə, təbəəsi olduğu Osmanlı dövlətinə xəyanət etmiş, hərbi əməliyyatlar zamanı Rusiyanın yanında yer almış, türklərin ardıcıl məğlubiyyətlərini şərtləndirmişdi.

1877-1878-ci illərin sonuncu rus-türk müharibəsi birləşmiş rus-erməni qüvvələrinin qələbəsi ilə başa çatsa da, San-Stefano sülh müqaviləsi qaliblərə gözlənilən nəticələri vermədi. Rusiyanın Balkanlarda və Qara dəniz boğazlarında həddindən artıq güclənməsini istəməyən Qərb dövlətləri Berlin konqresində onu güzəştə getməyə və müharibənin bir sıra uğurlu nəticələrindən imtina etməyə məcbur etdilər. Rusiya Qərbin təzyiqi qarşısında işğal etdiyi torpaqların bir hissəsini geri qaytarmağa məcbur oldu və "erməni məsələsi" də Rusiyanın inhisarından çıxarıldı, beynəlxalq problemə çevrildi.

Bu dövrlərdən etibarən hər dəfə Qərb dövlətlərinə Türkiyəyə təzyiq etmək lazım gəldikdə "erməni məsələsi" ortaya qoyulurdu. Tanınmış türk tarixçisi və siyasi xadimi Kamuran Gürün yazırdı: "XIX əsrin II yarısından başlayaraq "erməni məsələsi" tədricən dünya ictimai şüuruna yeridilməyə başlandı. Lakin əsl həqiqətdə erməni kilsəsi, erməni terror təşkilatları və bu təşkilatlarla əlaqəli olan ermənilərin bir hissəsinin böyük səylərinə baxmayaraq, heç bir dövlət üçün "erməni məsələsi" heç vaxt məsələ olmamışdı. Bununla bərabər, bütün böyük dövlətlərin dəftərxanalarında "erməni dosyesi" (sənəd və materiallar toplanmış qovluq-Ş.M.) saxlanılırdı. Lazım gəldikdə həmin "dosye" rəfdən götürülür, vərəqlənir, çirkin məqsədlər üçün istifadə olunur, sonra astaca örtülür, növbəti istifadə üçün yerinə qaytarılır. Erməni ictimaiyyəti hesab edir ki, "dosye"yə müraciət olunması "məsələ"nin həllini yaxınlaşdırır və heç cür başa düşmək istəmirlər ki, əvvəlkilərə yeni vərəqlərin əlavə edilməsi vəziyyəti yalnız ağırlaşdırır və "qisas" illüziyaları elə illüziya olaraq qalır. Vaxt olmuşdu ki, Rusiya Türkiyənin şərq vilayətlərini tutmuş, bildirmişdi ki, burada ermənilərə yer yoxdur, Rusiyada yakut məsələsi olmadığı kimi, erməni məsələsi də yoxdur; vaxt olmuşdu ki, Fransa Kilikiyanı tutmuş və bildirmişdi ki, burada erməni muxtariyyatı yaratmaqdan söhbət belə gedə bilməz və bura erməni miqrasiyası axınının yolunu bağlamışdı" (13, s.7).

Beləliklə, ermənilər Rusiyanın tərəfində birbaşa iştirak etdikləri bütün müharibələrdə olduğu kimi, bu sonuncu müharibənin nəticəsində də özlərinin başlıca məqsədinə-Cənub-Şərqi Anadoluda Rusiyanın himayəsi altında yarımmüstəqil erməni dövlətinin yaradılmasına nail ola bilməmişdilər. Berlin Konqresi Şərqi Anadolunun heç bir vilayətində erməni əhalisinin çoxluq təşkil etmədiyinə istinad edərək, onların muxtariyyat arzularını reallaşdırmadı. Bir tərəfdən öz aralarında ixtilafları olan, digər tərəfdən Osmanlı dövlətinin ciddi müqaviməti ilə rastlaşan Qərb dövlətləri və Rusiya ermənilər üçün muxtariyyət əldə edə bilmədilər.

Əsl həqiqətdə isə Rusiya imperiyasının mütləqiyyət rejimi və müstəmləkəçilik üsuli-idarəsi şəraitində "dövlət içərisində dövlət" ideyası baş tuta biləcək bir istək deyildi. Həmin əsrdə Bolqarıstanın müstəqilliyi naminə külli miqdarda itkilər verən Rusiya əliboş qalmışdı. Müstəqil Bolqarıstanın hakim dairələri ona dəstək olan Rusiyanın yox, Almaniyanın yanında yer almışdı. Bundan "dərs alan" Rusiya hakim dairələri "ikinci Bolqarıstan" istəmirdilər.

Ona görə də II Yekaterina zamanından erməniləri əldə saxlamaq üçün onlara verilənə "müstəqil erməni dövlətçiliyi" vədi, elə vəd olaraq qalmaqda idi.

Bununla belə, bütün XIX əsr ərzində Rusiyanın Osmanlı imperiyasına qarşı vaxtaşırı apardığı müharibələrin və hərbi əməliyyatların gedişində kifayət qədər silah və təcrübə toplayan, türk ordusunun və jandarmeriyasının çatışmazlıqlarına və zəif cəhətlərinə bələd olan ermənilər özləri də böyük bir qüvvəyə çevrilmişdilər.

San-Stefano sülh müqaviləsi və Berlin konqresinin məlum maddələri ilə xeyli imtiyazlar əldə edən, "erməni məsələsi"ni beynəlxalq problem səviyyəsinə qaldıran separatçı və millətçi dairələr, rusların "erməni dövlətçiliyi" məsələsində maraqlı olmadığını da dərk edirdilər. Ona görə də həmin dairələr öz qüvvələri-çoxsaylı terror təşkilatları vasitəsilə Osmanlı torpaqlarında müstəqil erməni dövləti qurmaq istəklərini reallaşdırmağa cəhd göstərdilər. Olduqca qısa müddət ərzində Türkiyə

ərazilərini, ardınca isə Cənubi Qafqazı separatçı-millətçi qurumlar və onların terror şəbəkəsi bürüdü. Terrorçular və onların havadarları "Qərbi Ermənistan" adlandırdıqları Türkiyənin bir sıra vilayətlərini Rusiya imperiyasının tərkibindəki "Şərqi Ermənistan"a birləşdirməklə "Böyük Ermənistan" yaratmağı hədəfləyirdilər.

Lakin məhz həmin dövrlərdə-XIX əsrin 80-ci illərinin əvvəllərindən etibarən milli-müstəmləkə zülmünü gücləndirən çar hökuməti ilə ambisiyalı tələblərlə çıxış edən erməni siyasi-klerikal dairələrinin Qafqazdakı maraqları toqquşmağa başladı. Məsələ bundadır ki, çar II Aleksandrın rus inqilabçı-terrorçuları tərəfindən öldürülməsindən sonra imperiyanın daxili həyatında siyasi irtica və idarəçilikdə mərkəzləşdirmə gücləndi. Yeni çar III Aleksandr imperiyanın ucqarlarında idarəçiliyi daha da təkmilləşdirmək, mərkəzləşdirməni gücləndirmək, inqilabi hərəkatla mübarizəni genişləndirmək məqsədilə bir sıra tədbirlər görməyə başladı. Bu sıradan 1844-cü ildə təsis edilmiş Qafqaz canişinliyi ləğv edildi, əvəzində Qafqazın baş hakimi vəzifəsi yaradıldı. Bu vəzifəyə 1882-ci ildə knyaz Dondukov-Korsakov təyin edildi.

Təqribən 9 illik hakimliyi dövründə onun çar III Aleksandr ilə yazışmaları, imperatora ünvanlanmış qeydləri, hesabatları, məruzələri və s. göstərir ki, artıq həmin dövrlərdə Cənubi Qafqazın ictimai-iqtisadi həyatında "erməni amili" özünü qabarıq şəkildə büruzə verməkdə idi. "Qafqazda siyasi vəziyyətə dair oçerklər" adlı bir yazısında Dondukov-Korsakov imperatorun diqqətini Cənubi Qafqazın etnik tərkibi məsələsinə yönəldir, regionda gürcülərlə müqayisədə ermənilərin artan gücünü və nüfuzunu göstərirdi: "Gürcü ünsürünün maddi və mənəvi yenişi ilə yanaşı, ermənilərin nüfuzu və gücü sürətlə artmaqdadır" (4, v.7). Daha sonra fikrinə davam edən knyaz yazırdı: "Ermənilər çox yaxşı başa düşürlər ki, torpaqlar kimin əlindədirsə, o da nüfuz sahibidir. Ona görə də sistemli şəkildə, yorulmadan bu sahədə sosial-siyasi çevrilişə hazırlaşırlar. Zaqafqaziyada iri torpaq mülkiyyətçiliyinə keçilməsi ermənilər üçün siyasi əhəmiyyət kəsb edir" (4, v.7).

Dondukov-Korsakov məktubunda imperatora habelə baş qaldırmaqda olan erməni separatizmi barədə məlumat verirdi: "Son zamanlarda erməni ziyalıları içərisində doğrudur, hələlik dumanlı şəkildə olsa da, hansısa bir muxtariyyət və qədim Hayastan sərhədlərinin bərpası barədə separatizm cəhdləri nəzərə çarpmaqdadır" (4, v.8).

Qeyd etmək lazım gəlirki, "həmin vaxtlara qədər Rusiya Qafqazın "erməniləşdirilməsində" maraqlı idi, erməniləri regionda baş verən hərbi-siyasi aksiyalara cəlb edirdi. Lakin indi get-gedə aydın olurdu ki, erməni separatizmi öz fəaliyyətini həm də Rusiya dövlətçiliyi əleyhinə istiqamətləndirir. Beləliklə, Qafqazdakı "erməni məsələsi" Osmanlı imperiyası və Rusiyada eyni məcrada inkişaf edirdi" (10, s.23).

Təhlükəni dərk edən hakim, onun qarşısını almaq üçün təklif edirdi: «Bizə əlverişli deyilmi ki, Kiçik Asiya ermənilərinin Sisdəki erməni patriarxlığının başçılığını bərpa etmək barədəki istəklərindən faydalanaraq, Eçmiədzin və Sis taxt-tacları arasına ədavət salmaqla erməni xalqının rus və türk hissələrinin siyasi və mənəvi pərakəndəliyinə nail olaq?" (4, v.9).

Dondukov-Korsakov yaxın vaxtlarda işğal edimiş Karsın məskunlaşdırılması üzrə erməni hərəkatını nəzərə çatdırır, onların İrəvandan Ərzuruma qədər olan əraziləri tamamilə ermənilərlə məskunlaşdırmaq planlarından xəbər verirdi: "Berlin traktatının bağlanması ilə yeni birləşdirilmiş əyalətlərin məskunlaşdırılması, İrəvandan Ərzuruma qədər bütöv erməni vilayətinin yaradılması məqsədilə Zaqafqaziya ermənilərinin güclü hərəkatı başlanmışdır. Əlahəzrətin mənə etibar etdiyi bu ölkəyə gəldikdən sonra birinci tədbirim, bu siyasi cəhdin həyata keçirilməsinə yol verməmək üçün ermənilərin Kars vilayətinə davam edən axınının qarşısını qəti olaraq almaq olmuşdur" (4, v.23).

Cəmi bir il sonra-1883-cü ildə Dondukov-Korsakovun çara ünvanlanmış növbəti qeydlərində ermənilər arasında təhlükəli meyllərinin artması göstərilirdi: "Xaricdə və ya Eçmiədzin Ruhani Akademiyası deyilən bizim ali təhsil müəssisəsində yetişdirilən gənclərdən ibarət erməni ziyalıları içərisində təəssüf ki, siyasi separatizm meylləri özünü göstərməkdədir" (5, v.4).

Həmin dövrlərdə Rusiya hakim dairələrin "Rusiya ruslar üçündür" şüarı Erməni şovinist-millətçi liderlərinin "Böyük Ermənistan" maraqları ilə qarşı-qarşıya gəlirdi. Qafqazın baş hakimi "Ermənilər" adlı qeydində özünün əvvəlki fikirlərinə qayıdaraq yazırdı: "Onlar təəssüf ki, rus

hökumətinə öz bağlılıqları ilə fərqlənmir və ümumiyyətlə, siyasi sədaqətlilik baxımından kifayət qədər etibarlı deyillər" (6, s. 285).

Yüksək rütbəli çar məmuru imperiyanın yeni istila etdiyi Cənubi Qafqaz torpaqlarında ermənilərin öz dövlətlərini yaratmaq iddialarını görür, lakin bunu mənasız iş adlandırırdı: "Bu fikir nəzəri baxımdan nə qədər mənasızdırsa, o dərəcədə də əməli əhəmiyyət kəsb etmir" (6, s. 286).

Dondukov-Korsakovun mülahizələrinə əsasən demək olar ki, Rusiyanın hakim dairələri bəhs edilən vaxtlarda "erməni məsələsi"nin mövcudluğunu görürdü, lakin onun genişlənməsinin qarşısını almaq üçün lazımı addımlar atılmadı. Bu faktiki olaraq vəziyyətin daha da kəskinləşməsinə gətirib çıxardı.

Əksinə, baş hakimin fikirləri və fəaliyyəti bir sıra nüfuzlu dairələri, o cümlədən böyük knyaz Mixail Nikolayeviçi qane etmədiyindən 1890-cı ildə istefaya göndərildi və az sonra bu vəzifəyə qraf S.A.Şeremetyev təyin edildi (1891-1896).

S.Şeremetyev öz fəaliyyəti ərzində əməli olaraq "erməni məsələsi" ilə məşğul olmadı, erməni separatizminin və terrorunun qarşısını almaq üçün lazımi addımlar atmadı. Məhz onun səhlənkarlığı və təhlükəni dərk etməməsi nəticəsində vəziyyət böhran həddinə çatdı. Beləliklə, XIX əsrin 80-90-cı illərində Qərbin və Rusiyanın Türkiyə əlehinə fəal surətdə maliyyələşdirdiyi və silahlandırdığı erməni terror təşkilatları, həmin təşkilatlarda birləşən erməni milllətçi və seperatçı dairələri "erməni məsələsi"ni Berlin konqresinə qoşulan dövlətlərin deyil, Rusiyanın deyil, özlərinin qüvvələri ilə həll etməyi qərara aldılar. Həm də məsələnin həlli silahlı yolla olmalı, "Böyük Ermənistan" qonşu xalqların torpaqları hesabına qurulmalı idi.

Həmin dörlərdə "Qnçaq", "Daşnaksütyun" və digər terror təşkilatlarında birləşən ermənilərin törətdiyi silsilə qiyam, üsyan və silahlı toqquşmalar Şərqi Anadolunu bürüdü. Lakin XIX ərin sonlarına doğru Türkiyə dövlətinin gördüyü qəti tədbirlər, habelə havadarlarından açıq dəstək ala bilməmək nəticəsində erməni terrorçuları öz məqsədlərinə çata bilmədilər.

Erməni siyasi-klerikal dairələri hesab edirdilər ki, "sədaqətlə xidmət etdikləri" Rusiya imperiyası lazımi məqamda onlara dəstək vermədi. Buna görə də həmin dairələr çarizmdən narazı idilər. Bu narazılıq özünü müxtəlif şəkildə göstərirdi. Xüsusilə bir sıra erməni məktəblərində "Böyük Ermənista"nın tarixi xəritəsinin asılması, kilsə ayinlərinin erməni dilində aparılması, Erməni kilsə mülklərinin talan edilməsi hesabına Türkiyədəki terror təşkilatlarına böyük miqdarda vəsait ötürülməsi Rusiya hakim dairələrin istəklərinə uyğun gəlmirdi. Xüsusilə erməni terrorunun başında dayanan kilsə xadimləri narazı idilər. Bu narazılığı erməni keşişləri gizlətmirdilər. Daxili İşlər Nazirliyi polis Departamentin 4 iyun 1891-ci il tarixli sənədində Qafqazdan xeyli uzaqlarda-Zakaspi vilayətində belə, erməni ruhanilərinin təxribatçı fəaliyyəti öz əksini tapmışdı: "Zakaspi vilayətinin rəisi xəbər verir ki, Aşxabad şəhərində tanınmış erməni kilsəsinin keşişi Ter-Vaskanov mayın əvvəllərində ibadət mərasimində diakonlara (kiçik kilsə xidmətçiləri-Ş.M.) əmr vermişdi ki, duaetmə zamanı "Padşahımız İmperator Aleksandr Aleksandroviç" kəlməsi əvəzinə "Rus Çarı" ifadəsini işlətsinlər. Sonra da Ter-Voskanov əlavə etmişdi ki, "Padşah imperator bizim çarımız deyil, Rus çarıdır" (3, v.58). Bütün bunlar mütləqiyyətin səbr kasasının daşmasına doğru aparırdı. Ona görə də Ermənilərin Qafqazdakı mövqelərini zəiflətmək məqsədilə Qafqazın baş hakimi knyaz Q.Qolitsının birbaşa dəstək verməsi ilə bir sıra tədbirlər görüldü: kilsə məktəbləri bağlandı, erməni milli məktəbləri kilsədən alınıb Maarif Nazirliyinin tabeliyinə verildi, onların erməni xeyriyyə cəmiyyətləri bağlandı, erməni qəzet-jurnallarının nəşri dayandırıldı, hətta 1903-cü ildə erməni-qriqoryan kilsəsinin əmlakına həbs qoyuldu, özünüidarə hüquqları məhdudlaşdırıldı. Erməniləri artıq dövlət qulluğuna götürməməyə başladılar. Ermənilər siyasi cəhətdən etibarsız elan olundular və s.

Əlbəttə, ermənilərə münasibətdə çarizmin siyasətinin bu qədər kəskin dəyişməsi, Qolitsının antierməni siyasətçi olmasında deyildi. Ənənəvi olaraq çar hökuməti erməniləri özünün Yaxın Şərq siyasətinə alət etdikdə onları himayə edirdi. Erməni siyasi-klerikal dairələrinin imperiya siyasətinə müxalifətdə olduğu zamanlarda isə onlara münasibət dəyişir, ermənilər sıxışdırma və təqiblərə məruz qalırdılar. Rusiya ermənilərə münasibətdə ardıcıl olaraq "qamçı və kökə siyasəti" yeridirdi.

Hadisələrin bu məcrada inkişafı zəminində XX əsrin əvvəllərində Rusiya və Qərb dövlətlərinin Osmanlı imperiyasına qarşı davam edən ümumi düşmənçiliyi şəraitində İngiltərənin silah və pulla təchiz etdiyi Daşnaksütyun komitələri yenidən Rusiyanı Türkiyə ilə hərbi qarşıdurmaya cəlb etmək, Osmanlı imperiyasında üsyanlar və qiyamlar qaldırmağa cəhd göstərdilər. Bu baxımdan Rusiyanın Ərzurumdakı baş konsulunun katibi Averyanovun şifrəli teleqramlar vasitəsilə göndərdiyi xəbərlərdən məlum olur ki, ruslarla türklərin arasındakı münasibətlərin gərginləşməsində ermənilər mühüm rol oynayırdılar: "Rusiya təbəəsi olan ermənilər bizim ermənilərə (Türkiyə təbəəsi olan ermənilər-Ş.M.) xəbər verirlər ki, tezliklə rus qoşunları Ərzurum vilayətini tutacaqlar" (8, v.11). "Bizim ermənilər rus ermənilərini inandırırlar ki, bizdə müharibə üçün hər şey hazırdır, ruslar tələsməlidirlər ki, Həmidiyyə alayları toplaşmamışdan əvvəl Ərzurum vilayətini tutsunlar" (8, v.12).

Averyanov habelə Qafqaz Hərbi dairəsinin qərargah generalı Y.F.Şkinskiyə ünvanlanmış 20 mart 1903-cü il tarixli raportunda bu münasibətlə yazırdı: "Mənim etibarlı mənbədən aldığım məlumata görə, martın əvvəllərində Tiflisdə ermənilərlə hökumət qüvvələri arasında silahlı toqquşma olmuşdur… Tiflis erməniləri ona görə qarışıqlıq salmışdılar ki, rusları tezliklə Türkiyə ilə müharibəyə məcbur etsinlər. Sərhəd postlarındakı rus zabitləri öz aralarında danışırlar ki, rus təbəəsi olan mühüm vəzifəli erməni məmurların da üzv olduğu erməni komitələri rus hökumətini məcbur edəcəklər ki, Türkiyəyə qarşı qəfil hərbi əməliyyatlara başlasın. Bizim və rus ermənilərinin arasında belə bir möhkəm inam var ki, erməni milislərinin (terrorçu erməni silahlı qrupları-Ş.M) ardınca rus qoşunları sərhəddi keçəcəklər" (8, v.12).

Qeyd etmək lazım gəlir ki, erməni dini-siyasi liderlərinin bütün istəklərinə, erməni terror təşkilatlarının bütün cəhdlərinə rəğmən Rusiya hakim dairələri bu dəfə ağıllı tərpəndilər və ermənilərin avantürasına getmədilər. Rusiyanın açıq hərbi dəstəyini ala bilməyən erməni terrorçuları kütləvi üsyanlara cəsarət etmədilər. Bir tərəfdən imperiya hakimiyyət qurumları tərəfindən həmin dövrlərdə ermənilərin sıxışdırılması, digər tərəfdənsə çarizmin Türkiyə ilə müharibədən boyun qaçırması erməni siyasi-klerikal dairlərinin qəzəbinə səbəb oldu. Eçmiədzin kilsəsi üzrə prokuror A.Frenkel Rusiya Müqəddəs Sinoduna 1907-ci ildə təqdim etdiyi arayışda yazırdı: "İntibahnamələrdə "Türkiyə" kəlməsi "Rusiya" kəlməsi ilə əvəz olundu. Neçə illər əvvəl rusiya təbəələri olan ermənilər Türkiyəyə silah və könüllülər apardığı halda, indi türkiyə erməniləri-"fidailər" rusiya sərhədlərini keçməyə başlamışdılar" (14, s.147).

Partlayışlar, küçə ixtişaşları, qatar qəzaları, siyasi qətllər, terrorçu və quldur erməni qruplarının polislə toqquşmaları, erməniləri qane etməyən hökumət nümayəndələrinin öldürülməsi kimi hadisələr Cənubi Qafqaz şəhərlərini bürüdü. Siyasi baxımdan yüksək səviyyədə təşkil olunmuş, mütəşəkkil, bir çoxlarının silahlı oluğu, demək olar ki hamılıqla siyasi-klerikal dairələrin arxasınca gedən yüz minlərlə erməninin ayağa qalxması hökumətə yaxşı heç nə vəd etmirdi.

Ermənilərin çarizmə qarşı müxalifətdə olduğu həmin dövrlərdə baş verən hadisələrin nəticəsində bir çox yüksək rütbəli hökumət məmurları, çoxsaylı polis əməkdaşları erməni terrorunun qurbanı oldular. 1905-ci il mayın 11-də Bakı qubernatoru Nakaşidze erməni terrorçuları tərəfindən öldürüldü. "Knyaz Nakaşidzenin faciəli ölümü bir ildırım kimi bütün Qafqazı silkələdi. Heç kim şübhə etmirdi ki, bu erməni inqilabçı komitələrinin işidir" (11, s. 289). Knyaz Nakaşidzenin öldürülməsindən sonra "Daşnaksütyun"un Bakı mərkəzi komitəsi "Bakı şəhər əhalisinə" adlı intibahnamə buraxmışdı. İntibahnamədə Nakaşidzenin öldürülməsi barədə qürurla bildirilirdi: "Mayın 11-də, çərşənbə günü, saat 3-də, günün günorta çağı, şəhərin mərkəzində, Parapetdə Bakı qubernatoru knyaz Nakaşidze edam edilmişdir. Erməni Daşnaksütyun inqilabi partiyası onu ölümə məhkum etmişdi. Hökm Daşnaksütyun partiyası tərəfindən, indiki halda intiqam olaraq icra edilmişdir" (7, v.56).

Erməni terrorçuları hətta Qafqazın baş hakimi knyaz Q.Qolitsının özünə də sui-qəsd etmiş, onu yaralamışdılar. Arxiv sənədlərindən məlum olur ki, "nəinki erməni siyasi-klerikal dairələri, eləcə də böyük iqtisadi gücə malik erməni sənaye-ticarət dairələri də hökumətə qarşı müxalifətdə idilər. Məsələn, Daxili İşlər Nazirliyi Polis Departamentinin araşdırmaları göstərmişdi ki, məşhur Bakı neft sənayeçisi A.Mantaşev "Daşnaksütyun"un fonduna gümüş pulla 1 milyon rubl pul köçürmüşdü ki,

bu da partiyanın 165 min nəfər üzvünün bütün il ərzində keçirdiyi vəsaitə bərabər idi" (1, v.60). Erməni terror hərəkatında iştirak edənlər arasında bu cür varlı ermənilər isə az deyildi.

Baş verənlər, habelə intibahnamənin məzmunu "Daşnaksütyun"un Rusiya imperiyasının qanunlarına və hökumətinə açıq meydan oxuması demək idi.

Rus-Yapon müharibəsindəki ağır məğlubiyyət, beynəlxalq aləmdə işləri yaxşı getməyən və ölkədəki inqilabi hadisələr nəticəsində mövqeləri ciddi surətdə zəifləyən çar hökuməti hadisələrin bu cür inkişafından qorxuya düşərək güzəştə getməli oldu. İctimai və hökumət dairələrində ermənipərəst mövqeyi ilə tanınan qraf Vorontsov-Daşkov Qafqaz Canişinliyinə gətirildi.

Vəzifəyə gətirildikdən sonra Vorontsov-Daşkov, Tiflis erməni burjuaziyasının rəhbəri, "Daşnaksütyun"un fəal xadimlərindən olan Mesrop vasitəsilə erməni siyasi-klerikal dairələrinə yol tapa bildi. Bu işdə onun milliyyətcə erməni və Mesropla yaxın münasibətləri olan arvadı Yelizaveta Qriqoryevna mühüm rol oynadı. Bir qədər sonralar bu tanışlıq vasitəsilə Vorontsov-Daşkov Tiflisin mühüm sənaye-ticarət vəzifələrinə erməniləri gətirdi və əvəzində Bakının Balaxanı mədənlərində çar hökumətinin xeyir-duası ilə zəngin neft yataqlarına sahib oldu (12, s.184).

Vorontsov-Daşkov Rusiyanın imperiyapərəst və böyük dövlətçilik düşüncəsinə sahib olan, ermənilərin Osmanlı dövlətinə qarşı istifadə edilməsinə tərəfdar siyasətçilərdən biri idi. O, çara yazırdı: "Qafqazda türklərlə olan münasibətlərimizin tarixi müddətində, Böyük Pyotr zamanından indiyə qədər rus siyasəti, müharibələrdə bizimlə birlikdə olan ermənilərə dostca münasibət bəsləmək olmuşdu" (9, s.234).

Yeni canişinin qızğın fəaliyyəti nəticəsində qısa müddətdə ermənilərə qarşı mübarizə zəiflədi və 180 dərəcə dəyişdi. O, məlum siyasi məqsədlərlə erməni millətçilərini və erməni milli burjuaziyasını himayə etməyə başladı. 1905-ci ilin iyununda İ.Vorontsov-Daşkov erməni liderlərindən ibarət nümayəndə heyətini qəbul etdi. Nümayəndə heyətinin Vorontsov-Daşkova təqdim etdiyi ərizədə ermənilərin Rusiya qarşısında xidmətləri sadalanır, təqib olunmaları, sıxışdırılmaları səbəbindən narazılıq ifadə olunurdu. Ərizənin mətni ilə qabaqcadan tanış olan Vorontsov-Daşkov ermənilərə söz verdi ki, onlara hər cür yardım edəcək, eyni zamanda tələb etdi ki, terrorçuluq fəaliyyətinə son qoysunlar.

1905-ci il avustun 1-də çar II Nikolayın imzaladığı fərmanla Erməni kilsəsinin müsadirə edilmiş əmlakı geri qaytarıldı, bununla bərabər, erməni milli məktəblərinin yenidən açılmasına icazə verildi. 1905-ci il oktyabrın 1-də Qafqaz hərbi-dairə məhkəməsində Nakaşidzenin qatillərinin işinə baxıldı. "Məhkəmədə qətl iştirakçılarından dördünün təqsiri sübut olundu və onlar edam cəzasına məhkum edildilər. Lakin çarın 21 oktyabr 1905-ci il tarixli manifestindən sonra ali hərbi məhkəmə edam cəzasını 15 illik katorqa ilə əvəz etdi. Qətlin beşinci iştirakçısı olan Ağacanyans həmin dövr yetkinlik yaşına çatmadığından, yalnız 1907-ci ildə mühakimə edildi və bəraət aldı" (11, s.16-17).

Ermənilərin rus yerli hakimiyyət və inzibati orqan nümayəndələrinə qarşı total mübarizəsinə gəldikdə isə, bu "Daşnaksütyun" və digər terrorçu partiyalarının strateji məqsədlərinə daxil deyildi. Bu mübarizə sırf taktiki xarakterdə olub, hökumətə öz gücünü göstərmək və ondan öz maraqları naminə güzəştlər əldə etmək məqsədləri güdürdü. Bunu daşnakların aşağıdakı fikirləri təsdiq edir: "Hökumətlə müharibəni rahatlıqla Tiflisə və ya hətta Peterburqa keçirmək olar, tatarlarla müharibəni isə başqa yerə köçürmək olmaz" (1, v.52).

Çar hökumətinə öz gücünü göstərib, onunla barışan və "Erməni dövləti" yaratmaq barədə planlarını bir qədər sonraya saxlamalı olan erməni siyasi-klerikal dairələri yeni döyüşlərə hazırlanmağa başladılar.

Öz zərbəsinin istiqamətini Cənubi Qafqazın yerli türk-müsəlman əhalisinə qarşı yönəldən erməni terror qurumları 1905-1907-ci illərdə regionda soyqırım və deportasiyanın birinci böyük dalğasını başladılar.

## ƏDƏBİYYAT


1. AR PİI SSA, f.276, siy.8, iş 265
2. AR PİI SSA, f.276, siy.8, iş 256
3. РГИА (Российский Государственный Исторический Архив). Ф.821 ор.7, д. 206
4. РГИА (Российский Государственный Исторический Архив). Ф.932, ор.1, д. 296
5. РГИА (Российский Государственный Исторический Архив). Ф.932, ор.1, д. 311
6. РГИА (Российский Государственный Исторический Архив). Ф.932, ор.1, д. 319
7. РГИА (Российский Государственный Исторический Архив). Ф.857, оп.1, д.1117
8. РГВИА (Российский Государственный Военно-Исторический Архив) ф.1300, оп.10, д.313
9. Sadıqov Həsənbala. Erməni məsələsi: xəyanəti, deportasiyanı, soyqırımını və işğalı pərdələyən yalan. Bakı, «Adiloğlu», 2012, 576 s.
10. «Армянский вопрос» на Кавказе. По материалам российских архивов и изданий. В трех томах. Том первый.1724-1904. С-Петербург, «Академия исследования культуры», 2011, 713 с.
11. «Армянский вопрос» на Кавказе. По материалам российских архивов и изданий. В трех томах. Том второй. 1905-1906. С-Петербург, «Академия исследования культуры», 2011, 614 с.
12. Вердиева Хаджар, Рауф Гусейнзаде. «Родословная» армян и их миграции на Кавказ с Балкан. Эссе, Баку, 2013, 216 с.
13. Кямуран Гюрюн. Армянское досье. Баку, Язычы, 1993, 176 с.
14. Справка прокурора Ечмиадзинского Синода А. Френкеля представленная в 1907 г. Святейшему Синоду.//Известия АН Азербайджанской ССР Серия истории, философии и права. 1989, №2


## SUMMARY

**Shamkhal Mammadov**

## THE “ARMENIAN PROBLEM” IN THE SOUTH CAUCASUS IN THE LATE *19th* AND *EARLY 20th CENTURES* AND CLASHING OF RUSSIAN-ARMENIAN INTERESTS


In the late XIX and early XX centures, conflıcts between the armenıan polıtıcal-clerıcal and rulıng cırcles of the russian empire became tensed. The main reason for these contradictions is that the "Armenian problem" has not been resolved. Throughout the nineteenth century, Armenians, being instruments of Russia's Middle East policy, could not get any support from Russia to create an “Armenian state”. Russia “was not interested in creating a semi-independent Armenian state in the Caucasus”. In the context of escalating conflicts, Armenian terror spread over the South Caucasus at the beginning of the 20th century

Fearing mass terror and disobedience of the armenians, the tsarist government, whose international and domestic situation was already dangerous, compromised and met some of their demands.

In turn, the armenian political-clerical circles, which for some time postponed their demands on the "armenian state", were reconciled with tsarism. The Armenian terror and and imperial forces joined their power against the Turkish-Muslim population of the South Caucasus.


***Key words:*** *”Armenian Document”, “Armenian Problem” Middle East policy, “whip and cake policy”, armenian separatism, armenian terror, politico-clerical circles*

## РЕЗЮМЕ

**Шамхал Мамедов**

## «АРМЯНСКИЙ ВОПРОС» НА ЮЖНОМ КАВКАЗЕ КОНЦА XIX- НАЧАЛА XX ВЕКОВ И СТАЛКИВАЮЩИЕ РУССКО-АРМЯНСКИЕ ИНТЕРЕСЫ

В конце XIX и начале XX веков конфликты между армянскими политико-клерикальными и правящими кругами российской империи напряглись. Корень этих конфликтов заключался в том, что «армянская проблема» не была решена. На протяжении всего XIX века армяне, будучи инструментами в политике России на Ближнем Востоке, не могли получить поддержку от России по созданию «армянского государства». Россия не была заинтересована в «создании полуавтономного армянского государства на Кавказе», неоднократно обещанного ею армянам. В контексте эскалации конфликтов Южный Кавказ в начале XX века был окутан армянским террором. Царское правительство, международное и внутреннее положение которого без того было опасным, в страхе перед массовым террором и неповиновением армян уступило и выполнило ряд требований армян. В свою очередь, армянские политико-клерикальные круги, которые какое-то время откладывали свои требования к «армянскому государству», были примирены с царизмом. Армянский террор с имперскими силами объединил свои силы против турецко-мусульманского населения Южного Кавказа.



***Ключевые слова:*** *«армянский документ», «армянский вопрос», политика Ближнего Востока, «политика кнута и лакомого куска», армянский сепаратизм, армянский террор, политко-клерикальные круги.*

---

***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 80-83
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 80-83
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 80-83

**VAQİF QURBANOV**
**QƏHRƏMAN BEHBUDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 339.5.34**

# BEYNƏLXALQ KOMMERSİYA ARBİTRAJININ ANLAYIŞI VƏ İŞLƏRƏ BAXILMASI QAYDASI

*Beynəlxalq kommersiya arbitrajı xarici elementli mülki hüquqi mübahisələrə baxan bir orqandır. Bu orqan Birləşmiş millətlər təşkilatının qərarı əsasında yaradılmışdır. Bu orqan hər şeydən əvvəl tərəflər arasında bağlanan müqavilə əsasında yaradılır və fəaliyyət göstərir. Onların fəaliyyəti Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş və təstiq olunmuş nümunəvi nizamnamə əsasında həyata keçrilir. Bütün məsələlər tərəflər arasında bağlanmış müqavilə əsasında tənzimlənir. Məqalədə Beynəlxalq kommersiya arbitrajının anlayışı, təşkil olunma qaydası, arbitraj sazişinin forması və məzmununa anlayış verilmişdir.*

***Açar sözlər:*** *Beynəlxalq, kommersiya, arbitraj, müqavilə*

Beynəlxalq kommersiya arbitrajının anlayışı “Beynəlxalq kommersiya haqqında” Azərbaycan Respublikası qanununun 1-ci fəslində verilmişdir. Orada deyilir ki, bu qanunun tətbiq dairəsi Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əməl edilməklə beynəlxalq ticarət arbitrajına tətbiq edilir. Eyni zamanda bu qanunun müddəaları (8,9,35 və 36-cı maddələri istisna olmaqla) yalnız arbitrajın yeri Azərbaycanda olduğu halda tətbiq edilir.

Beynəlxalq kommersiya arbitrajı xarici elementli mülki hüquqi mübahisələrə baxılması vasitəsidir. Beynəlxalq kommersiya arbitrajına ayrıca məhkəmə orqanı və ya mübahisələrin həlli üzrə təşkilat qismində baxmaq olmaz, bu bir sistemdir. Bu məsələ ilə bağlı bir sıra mövqelər mövcuddur. Bi sıra alimlər beynəlxalq kommersiya arbitrajını münsiflər məhkəməsi kimi müəyyən edir, digərləri əksinə buna bir proses kimi baxırlar (kommersiya mübahisələrinin müəyyən formada araşdırılmasının qeyri-dövlət proseduru kimi).

Beynəlxalq ticarət hüququ üzrə Birləşmiş Millətlər Təşkilatının komissiyası (YUNSİTRAL) 1985-ci ildə beynəlxalq ticarət arbitrajı haqqında nümunəvi qanun qəbul etmiş, sonradan həmin akt Birləşmiş millətlər Təşkilatı Baş Məclisi tərəfindən bəyənilərək dövlətlərin öz qanunvericiliyində istifadə üçün tövsiyə etmişdir. Bir sıra dövlətlər bi nümunəvi qanun əsasında müvafiq qanunlar qəbul ediblər (Avstriya, Bolqarıstan, Almaniya, Macarıstan, Misir, İran, Litviya,Ukrayna və s.).

Nümunəvi qanunun müddəalarına uyğun olaraq, Azərbaycan Respublikasının “Beynəlxalq arbitraj haqqında” Qanunu qəbul edilmişdir. Azərbaycan Respublikasının “Beynəlxalq arbitraj haqqında” Qanununa əsasən arbitraj aşağıdakı hallarda beynəlxalq sayılır:

1. Arbitraj sazişi bağlandıqda onun tərəfləri ayrı-ayrı dövlətlərdə yerləşərsə;
2. Tərəflər öz müəssisələrinin olduğu dövlətlərin hüdudlarından kənarda yerləşərsə;
3. Ticarət münasibətlərindən irəli gələn öhdəliklərin əsas hissəsinin icra edilməli olduğu hər hansı yer və yaxud mübahisə predmetinin sıx əlaqəli olduğu yer tərəflərin öz müəssələri olduğu dövlətin hüdudlarından kənarda yerləşərsə;
4. Tərəflər razılığa gəlmişlər ki, arbitraj sazişinin predmeti birdən çox dövlətlə əlaqədardır.

Beləliklə, Beynəlxalq kommersiya arbitrajı beynəlxalq iqtisadi əqidələr əsasında əmələ gələn xarici elementli mülki-hüquqi mübahisələrə baxılmasının qeyri-dövlət prosedurunu, arbitr orqanlarının təşkili, arbitrlərin seçilməsi prosedurasını, qeyri-dövlət arbitraj qərarlarının tanınması və icrasının xüsusi qaydalarını özündə əks etdirən sistemdir.

Beynəlxalq kommersiya arbitrajı bir sıra əlamətlərə malikdir:

a) mülki hüquq münasibətlərində xarici elementlərin möcudluğu;

b) mübahisələrə baxan orqanın qeyri-dövlət xarakterə malik olması;

c) tərəflərin arbitraj sazişinin olması.

Hüquq ədəbiyyatında beynəlxalq kommersiya arbitrajının hüquqi təbiəti ilə bağlı bir sıra müxtəlif nəzəriyyələr mövcuddur. Bununla bağlı müqavilə, prossessual və qarışıq nəzəriyyələri qeyd etmək olar.

Müqavilə nəzəriyyəsinin tərəfdarları arbitraj sazişinə mülki-hüquqi müqavilə kimi baxırlar, onların fikrincə, mübahisənin arbitraj məhkəməsinə verilməsi haqqında saziş mülki-hüquqi öhdəliklər müəyyən edir. Tərəflər bu sazişdə arbitrajın növünü (ad hok və ya arbitraj institutu), mübahisənin hansı arbitraj məhkəməsinə aidiyyatını, arbitrlərin seçilməsini, baxılma vaxtını və yerini, tətbiq olunacaq hüquq normalarını və s. razılaşdıra bilərlər və bu proses iki mərhələdən ibarətdir:

1) müqavilənin bağlanması (mübahisənin baxılmasına səlahiyyətli orqanın seçilməsi haqqında tərəflərin sazişi);

2) müqavilənin icrası (arbitraj qərarının çıxarılması).

Elmi ədəbiyyatda, hətta müqavilə nəzəriyyəsi çərçivəsində də müxtəlif yanaşmalar fərqləndirilir.

Prosessual nəzəriyyənin tərəfdarları hesab edirlər ki, beynəlxalq kommersiya arbitrajı prosessual təbiətə malikdir. Bu nəzəriyyəyə görə, arbitraj məhkəməsi dövlət ədalət mühakiməsinin bir formasıdır və bu arbitraj araşdırmasının bütün ünsürləri və mərhələləri, mübahisələrin arbitraja verilməsi ilə bağlı arbitraj sazişi də daxil olmaqla, prosessual hüququn predmetidir, arbitraj araşdırması nəticəsində çıxarılan qətnamə isə dövlət məhkəməsinin qətnamələri ilə eynidir. Müqavilə nəzəriyyəsindən fərqli olaraq, prosessual nəzəriyyənin tərəfdarları hesab edirlər ki, beynəlxalq kommersiya arbitrajında bütün məsələlərə mübahisələrin baxıldığı dövlətin mülki prosessual qanunvericiliyi tətbiq edilməklə baxılır.

Elmi ədəbiyyatda göstərilir ki, həm müqavilə, həm də prosessual nəzəriyyənin natamamlığı keçən əsrin 50-ci illərində bu istiqamətdə yeni nəzəriyyənin-qarışıq nəzəriyyənin meydana gəlməsinə səbəb olmuşdur.

Qarışıq nəzəriyyəyə əsasən isə beynəlxalq kommersiya arbitrajında həm maddi hüquq, həm də prosessual hüquq iştirak edir. Arbitraj sazişinin bağlanmasında tərəflərin hüquq və fəaliyyət qabiliyyəti və bu sazişin formasının müəyyən edilməsi ilə bağlı məsələlər maddi hüquq normaları ilə tənzimlənir. Arbitraj qərarlarının qəbulu və icrası məsələləri isə prosessual məsələ hesab edilir.

Arbitraj sazişinin anlayışı və forması "Beynəlxalq Arbitraj haqqında" Azərbaycan Respublikası Qanunun II fəslində verilmişdir. Orada deyilir ki, arbitraj sazişi – müqavilə xarakteri və ya başqa xarakter daşıyıb-daşımamasından asılı olmayaraq, hər hansı bir konkret hüquq münasibəti ilə əlaqədar tərəflər arasında yarana biləcək mübahisələrin hamısını və ya mübahisələrin arbitraja verilməsi barəsində tərəflərin razılığıdır.

Mübahisənin kommersiya arbitrajına verilməsi haqqında saziş həm beynəlxalq kontraktda ayrıca norma kimi nəzərdə tutula bilər, həm də ayrıca müqavilə qismində ona əlavə edilə bilər.

Bu baxımdan beynəlxalq arbitraj sazişinin iki növü mövcuddur : 1)arbitraj qeydi-şərti – beynəlxalq kontraktda müəyyən edilmiş norma; 2) münsif qeydi – tərəflərin mübahisənin arbitraja verilməsi barədə beynəlxalq kontraktdan ayrı saziş.

Bu təsnifat "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikası Qanununda öz əksini tapmışdır. Qanunun 7-ci maddəsinə əsasən arbitraj sazişi müqavilədə arbitraj qeydi – şərti kimi və yaxud ayrıca saziş kimi bağlana bilər.

Tərəflərin sazişi bir halda mübahisə yaranmamışdan əvvəl (kontraktın bağlanması zamanı) digər halda isə mübahisənin yaranmasından sonra mümkündür. Ona görə də hüquq ədəbiyyatında bəzən arbitraj sazişinin üç növünə rast gəlmək olar:

1) kontraktda öz əksini tapmış arbitraj qeydi – şərti;

2) müqavilənin bağlanması (mübahisənin baxılmasına səlahiyyətli orqanın seçilməsi

haqqında tərəflərin sazişi);

3) müqavilənin icrası (arbitraj) qərarının çıxarılması.

Elmi ədəbiyyatda, hətta müqavilə nəzəriyyəsi çərçivəsində də müxtəlif yanaşmalar fərqləndirilir.

Prosessual nəzəriyyənin tərəfdarları hesab edirlər ki, beynəlxalq kommersiya arbitrajı prosessual təbiətə malikdir. Bu nəzəriyyəyə görə, arbitraj məhkəməsi dövlət ədalət mühakiməsinin bir formasıdır və arbitraj araşdırmasının bütün ünsürləri və mərhələləri mübahisələrin arbitraja verilməsi ilə bağlı arbitraj sazişi də daxil olmaqla, prosessual hüququn predmetidir, arbitraj araşdırması nəticəsində çıxarılan qətnamə isə dövlət məhkəmələrinin qətnamələri ilə eynidir. Müqavilə nəzəriyyəsindən fərqli olaraq, prosessual nəzəriyyənin tərəfdarları belə hesab edirlər ki, beynəlxalq kommersiya arbitrajında bütün məsələlərə mübahisələrin baxıldığı dövlətin mülki prosessual qanunvericiliyi tətbiq edilməklə baxılır.

Elmi ədəbiyyatda göstərilir ki, həm müqavilə, həm də prosessual nəzəriyyəsinin natamamlığı keçən əsrin 50-ci illərində bu istiqamətdə yeni bir nəzəriyyənin-qarışıq nəzəriyyənin meydana gəlməsinə səbəb olmuşdur.

Qarışıq nəzəriyyəyə əsasən isə beynəlxalq kommersiya arbitrajında həm maddi hüquq, həm də prosessual hüquq iştirak edir. Arbitraj sazişinin bağlanmasında tərəflərin hüquq və fəaliyyət qabiliyyəti, bu sazişin formasının müəyyən edilməsi ilə bağlı məsələlər maddi hüquq normaları ilə tənzimlənir. Arbitraj qərarlarının qəbulu və icra edilməsi məsələləri isə prosessual məsələ hesab olunur.

Arbitraj sazişinin anlayışı və forması "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikası qanununun 7-ci maddəsində verilmişdir. Orada deyilir ki, arbitraj sazişi – müqavilə xarakteri və yaxud başqa xarakter daşıyıb – daşımamasından asılı olmayaraq, hər hansı bir konkret hüquq münasibəti ilə əlaqədar tərəflər arasında yaranabiləcək münasibətlərin hamısının və ya müəyyən mübahisələrin arbitraja verilməsi barədə tərəflərin sazişidir.

Arbitraj sazişi müqavilədə arbitraj müqaviləsi və yaxud razılaşması kimi bağlanıla bilər.

Qanunun yuxarıda qeyd olunan maddəsinin tələbinə əsasən arbitraj müqaviləsi yazılı formada bağlanır.

Müqavilə o halda yazılı formada bağlanmış hesab olunur ki, o, tərəflərin imzaladıqları sənəddə qeyd edilmişdir və yaxud məktub mübadiləsi və yaxud belə sazişin təsbit olunmasını təmin edən teletayp və elektron rabitəsinin başqa vasitələrindən istifadə olunmaqla bağlanmışdır və digər tərəf buna etiraz etmir. Arbitraj qeyd – şərtinə müqavilədə istinad edilməsi arbitraj sazişi hesab olunur, bu şərtlə ki, müqavilə yazılı şəkildə bağlanmışdır və bu istinad həmin qeydi-şərti müqavilənin bir hissəsinə çevirir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Konstitusiyası
2. AR MPM-si "Digesta" nəşriyyatı. Bakı, 1917-ci il
3. Qafarov Z. Ataxan Əbilov."Beynəlxalq xüsusi hüquq"akı, "Qanun" nəşriyyatı. 2007
4. AR Ailə Məcəlləsi
5. AR Ticarət gəmiçiliyi Məcəlləsi
6. "Beynəlxalq xüsusi hüquq haqqında" AR Qanunu
7. "Beynəlxalq arbitraj haqında" AR-nın 18 noyabr 1999-cu il tarixli qanunu

**SUMMARY**

**Vagif Gurbanov, Gahraman Behbudov**

**THE CONCEPT OF INTERNATIONAL COMMERCIAL ARBITRATION AND THE PROCEDURE FOR CONSIDERATION OF CASES**

International commercial arbitration is a body that deals with civil law disputes with an external element. It was established by the decision of the United Nations Organization. This body is established and operates primarily on the basis of an agreement between the parties. Their activity is carried out on the basis of a model charter adopted and approved by the United Nations. All issues are regulated by the agreement signed between the parties. The article provides an overview of the concept of international commercial arbitration, the procedure for its organization, the form and content of the arbitration agreement.

***Key words:*** *International, commercial, arbitration, contract*

**РЕЗЮМЕ**

**Вагиф Гурбанов, Гахраман Бехбудов**

**ПОНЯТИЕ МЕЖДУНАРОДНОГО КОММЕРЧЕСКОГО АРБИТРАЖА И ПОРЯДКИ РАССМОТРЕНИЯ ДЕЛ**

Международный коммерческий арбитраж является органом, который занимается иностранными гражданскими спорами. Этот орган создается по решению Организации Объединенных Наций. Этот орган создается и действует главным образом по соглашению сторон. Их деятельность основана на типовом уставе, принятом и утвержденном Организацией Объединенных Наций. Все вопросы регулируются соглашением сторон. В статье определяется понятие международного коммерческого арбитража, порядок организации, форма и содержание арбитражного соглашения.

***Ключевые слова:*** *Международный, коммерческий, арбитражный, контрактный*

---

***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 84-91
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 84-91
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 84-91

**BAĞIR BABAYEV**
*baqirbabayev59@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 1(092)**

# ƏHMƏD BƏY AĞAOĞLUNUN SİYASİ BAXIŞLARINDA "ÜMMƏTÇİLİK"DƏN MİLLƏTÇİLİYƏ KEÇİDİN XÜSUSİYYƏTLƏRİ

*XX əsrin başlanğıcında zamanın yenilikçi ruhu Rusiya imperiyasının tərkibində müstəmləkə əsarətinin acıları altındakı coxmilyonlu türk-müsəlman xalqlarını, o cümlədən də Azərbaycan türklərini öz fəlakətli vəziyyətlərini dərk etməyə, beləliklə də, məhv olmaqdan xilas yolu kimi oyanmağa, dirçəlməyə və milli birliyə nail olmağa səsləyirdi. Zaman o vaxta qədərki axarında dəyişməz qalsaydı, Rusiya əsarətindəki türk-müsəlmanlar iki yolla: ya zorakı xristianlaşmaya-ruslaşmaya tabe olub, assimilyasiyaya uğramalı, ya da ki, gözlənilən fəlakətlərə-təhlükələrə boyun əyib, imperiyaya təslim olub, məhvə doğru getməli olacaqdı.*

***Açar sözlər:*** *Əhməd bəy Ağaoğlu, türk-müsəlmanlar, İslam, dini kimlik, türkçülük, milli kimlik*

“Çar Rusiyasında xristian olmayanların assimilyasiyası siyasəti həmişə gündəmdə olmuşdur. Bu siyasət xristian-laşdırma və ya ruslaşdırma olaraq həyata keçirilirdi” (2, 778). Bu siyasət Azərbaycanın “güclü bir xristian dövləti olan çar Rusiyası tərəfindən işğalından etibarən başlamışdır (17, 385). Lakin zamanın istiqlala aparan digər yeganə yolu isə millətin bu təhlükəni-fəlakəti dərk etməklə imperiyanın hakim millətindən tamamilə fərqli olduğunu anlayıb, dini-milli kimliklərinə sahiblənib, birdəfəlik əsarətdən qopub ayrılmağa hazır olmaqdan keçirdi. Ona görə də “milli zülmün güclənməsi, ucqarlarda yaşayan xalqların hüquqlarının hər cür tapdalanması milli məsələnin tezliklə həllində maraqlı olan bütün ictimai təbəqələri birləşməyə sövq edirdi” (9, 110-111).

Çar Rusiyası bütün türk-müsəlmanları daim təhlükədə saxlamaq üçün Azərbaycan türklərinin onlarla yaranacaq birliyinə mane olur, öz imperiya siyasətində onlar arasında etnik-dini zəmində kəskin qarşıdurmalar yaratmağa çalışırdı. Hələ də Azərbaycanda şiə və sünni ayrımçılığı milli birliyi parçalama gücünü özündə saxlayırdı. Tarixdən məlum olduğu kimi, çar Rusiyası Azərbaycan türklərinin dini kimliyi ilə yanaşı, milli kimliyini də sıradan çıxarırdı. Onlar türk deyil, müxtəlif adlarla çağırılırdılar. İmperiya dairələri özünün dağılmaq təhlükəsinin qarşısını almaq üçün onların dini kimliyinə əl uzadırdı. Lakin “XX əsrin əvvəllərində sosial ziddiyyətlərin kəskinləşməsi bütün Azərbaycan cəmiyyətini həm siyasi və həm də ideoloji cəhətdən” (9, 110) fəallaşdırdı.

Azərbaycanın Rusiya imperiyasının əsarətində olduğu dövrdə XIX əsrin ikinci yarısının sonlarına doğru Azərbaycan türklərinin identikliyinin, milli varlığının, milli kimliyinin əsasını milli etnik mənsubiyyəti deyil, dini regional özünəməxsusluq təşkil edirdi. Tədqiqatçılara görə, bu xüsusiyyət Azərbaycan türkləri də daxil olmaqla bütün türklər-müsəlmanlar üçün tipik, xarakterik hal idi. “Beləliklə də, müsəlman ölkələrində milli özünüdərkin-milli şüurun meydana gəlməsi bir neçə əsr özünü gecikdirdi. Dünyəvi sivilizasiyanın formalaşması isə yalnız XIX əsrin ortalarında yalnız bir qisim müsəlman ölkələrində, xüsusilə də Rusiya imperiyasının türkləri arasında baş verdi” (6, 121). Bundan əvvəlki dövrlərdə olduğu kimi, XIX əsrin sonlarında da İslam Azərbaycan əhalisinin dini kimliyinin əsasını təşkil etməkdə idi. Çünki bu dövrdə Azərbaycanda milli identiklik-milli kimlik axtarışı dini kimlik-ümummüsəlman kontekstində davam etdirilirdi. Azərbaycan türklərinin də çox böyük əksəriyyəti İslam əqidəli idi, onlarda islam dünyagörüşü-düşüncəsi üstünlük təşkil edirdi.

XX əsrin əvvəllərində Azərbaycanda ziyalıların əməli fəaliyyətlərində türkçülüyün nəzəri əsaslarının yaranması özünü göstərirdi. Tədqiqatçıların qənaətlərinə görə, müstəmləkə imperiyasının

açıq, gizlin yollarla tabeliyindəki türklərə-müsəlmanlara qarşı yeritdiyi siyasət türklərin milli mənsubiyyətini vacib problem olaraq gündəmə gətirdi. Çar Rusiyasının təbəələri olan çoxmilyonlu türk-müsəlmanların yaşadıqları ucsuz-bucaqsız nəhəng coğrafiyada imperiyanın dəyişməz düşmən siyasəti türklərin düçar olduğu qeyri-sabit vəziyyətin çox təhlükəli olduğunu göstərirdi. Bu cür gözlənilən və gözlənilməz fəlakətlərdən xilas yolu kimi, bütün təhlükələri aşıb keçəcək türklərin birliyi-vəhdəti ideyası-türkçülük ortaya gətirildi. Belə təhlükəyə qarşı mövcudluğunu qoruya biləcək milli hisslərin yenicə yaranmağa başlanması təhlükənin dərk edilənliyinə sübut idi. Azərbaycan ziyalıları öz doğma yurdlarının-vətənlərinin hansı təhlükələrlə üz-üzə qala biləcəyini görə bildiklərinə görə aydınlıqla milli intibah ideyalarının vacibliyini ortaya gətirirdilər. Onlar cəmiyyətdə baş qaldıra biləcək oyanışı görməkdə olduqları üçün bu oyanışa, milli özünüdərkə təkan verirdilər.

XIX əsrin sonlarındakı Azərbaycan ziyalıları maarifçilik hərəkatını ən yüksək zirvəyə çatdırdılar. Bu dövrün ziyalıları cəmiyyətdə təhsildən məhrum qalan həmvətənlərinin arasında ideyalarını yaymağa müvəffəq olmaq istəyirdilər. XX əsrin başlanğıcında isə ziyalılar arasında əhəmiyyətli dərəcədə türklük-türkçülük ideyalarının ortaya çıxması baş verirdi. Elə bu mənada Azərbaycan türklərinin millət kimi formalaşmasında Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabidən başlanan tarixi estafeti davam etdirənlər Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə oldular. Bu görkəmli xadimlər Azərbaycandakı milli identiklik axtarışında öz əməli yaradıcı fəaliyyətlərində dini identikliyin o zamana qədərki şəriksiz ağalığını sındırdılar. XIX əsrin sonu- XX əsrin əvvəllərinin iki böyük Azərbaycan mütəfəkkiri - Əhməd bəy Ağaoğlu və Əli bəy Hüseynzadə ilk dövrlərdə islamçı ideologiyanın yayılmasında, sonralar isə bu iki nəhəng fikir adamı təkcə Azərbaycanda deyil, eləcə də bütün türk dünyüsında siyasi türkçülüyün yaranmasında və formalaşmasında çox böyük xidmətlər göstərib, həlledici rol oynadılar.

Əhməd bəy Ağaoğlu Azərbaycan xalqının XX əsrin əvvəllərindəki milli-demokratik hərəkatının ən görkəmli nümayəndələrindən biridir. Lakin əsasən elm adamlarına, tədqiqatçılara məlum olan bir görkəmli xadim kimi onun Azərbaycan xalqının qarşısında göstərdiyi nəhəng, əzəmətli və heç zaman unudulmayacaq xidmətləri həm xalqımızın müxtəlif geniş təbəqələri arasında, digər tərəfdən isə bütünlüklə ziyalılar arasında hələ də tam aydınlığı ilə ətraflı öyrənilməmişdir. Halbuki tarixi ədalət naminə Azərbaycan türklərinin milli oyanışında, dirçəlişində, milli özünüdərkin yaranmasında, formalaşmasında və inkişafında bu görkəmli şəxsiyyət bir mütəfəkkir, ictimai-siyasi xadim kimi fəxr ediləcək, qürur duyulacaq xidmət nümunəsidir. “Şərq xalqlarının milli-azadlıq hərəkatında və mədəni yüksəlişində görkəmli xidmətləri olmuş xadimlərdən” (14, 7), millətimizin və vətənimizin tarixi taleyini dəyişənlərdən biri kimi Ağaoğlu, hər şeydən öncə, özünü müsəlman kimliyinə təslim edən, türklüyündən-türk kimliyindən xəbərsiz saxlanılan millətimizə türkçülük ideyalarını aşılayanlardan olmuşdur.

Ağaoğlunun yaradıcılığını tədqiq edərkən önəmli məqamların “Azərbaycandakı yeniləşmə hərəkatı ilə bağlı olduğunun şahidi oluruq” (1, 26). O, "Azərbaycan türklərinin milli kimlik şüurunun inkişafında müstəsna rol oynamış şəxsiyyətlərdəndir” (8, 624). Bununla belə, bu nəhəng şəxsiyyət alim və mütəfəkkirlərin zəngin irsindən bəhrələnərək, islamşünaslıq elminin siyasi, ideoloji, etnik, iqtisadi, hüquqi-fəlsəfi cəhətlərinə toxunaraq, mənəvi və ictimai mahiyyətini açır və təsdiq edirdi ki, İslam hər hansı bir millətin inkişafına tamamilə uyğun gəlir“ (9, 202).

Bu dövrün islamçı ideologiyası Azərbaycan türklərinin-müsəlman cəmiyyətinin dövrün tələblərinə uyğunlaşdırmağa yönəldilən bir addım atması demək idi. Halbuki isalmçı ideologiyaya sovet tarixşünaslığı həmişə və hər yerdə neqativ mövqedən yanaşmış, onun üstün, əhəmiyyəti cəhətlərini kölgə altında qoyub, bilərəkdən, qərəzli mövqedən, haqsız olaraq onu açıq-aşkar, kəskin pisləmişdir. Sovet tarixçiləri onu cəmiyyətə mühafizəkar feodal dairələrin ideologiyalari kimi təqdim etməyə çalışmışlar. Tədqiqatçılar haqlı olaraq, göstərirlər ki, “islamçılığın feodal mənşəli olması haqqında söhbət gedə bilməzdi, ona görə ki, bu ideologiyaların baniləri feodal aristokratiyası deyildi, əslində onun baniləri XIX əsrin ikinci yarısında meydana gələn, tarix səhnəsinə çıxan yeni müsəlman intelligensiyası-ziyalıları idi” (10, 51-52).

Belə hesab olunur ki, “Azərbaycanda modern milli kimlik axtarışı çarlıq hâkimiyyəti altında,

XIX yüzilliyin II yarısından etibarən başlamış və bu dönəmin sonuna gəldikdə ümmət anlayışından millət anlayışına keçiş önəmli ölçüdə tamamlanmıştır. Bu dönəmdə türklük təməl kimlik olarak ön plana çıxmışdır" (18, 429). "Azərbaycan xalqının müsəlman bir toplum olaraq qeyri-müsəlman bir idarəçilik altında olması, dini ayrı-seçkiliyə və haqsızlıqlara uğraması da milli kimlik axtarışının sürətlənməsinə yol açmıştır" (7, 523). XX əsrin başlanğıcında Rusiya hökuməti tərəfindən bir sıra güzəştlər edildikdə "Azərbaycanda milli kimlik uğrunda yeni axtarışlar başlanıldı. Əhməd bəy Ağaoğlunun bu dövrkü əsərlərinin başlıca mövzusu Rusiya müsəlmanlarının vəziyyətinə həsr olunmuşdu. Bu əsərləri ilə böyük nüfuz qazanan Ağaoğlu "Həyat" qəzetinin səhifələrində Qafqaz müsəlmanlarının hüquqlarının müdafiəçisi kimi çıxış edir, İslam dini daxilindəki məzhəb ayrı-seçkiliyinin aradan qaldırılmasının Rusiya imperiyasındakı bütün türk-müsəlmanların həyatında və gələcək talelərindəki əhəmiyyətli rolunu əsaslandırırdı" (12, 26). O, "öncə Əli bəy Hüseynzadə ilə birlikdə türkcə ilk gündəlik qəzet olan "Həyat"ı, daha sonra isə müstəqil olaraq gündəlik "İrşad" qəzetini çıxarmağa başlamışdı. Hər iki qəzetdə o, çar Rusiyasına qarşı və türklərin siyasi hüquqları uğrunda mübarizə, türklər arasında birlik yaratmaq məqsədi ilə sünni-şiə düşmənçiliyinə son qoymaq qayəsini ön plana çəkmişdir" (13, 248).

XX əsrin əvvəllərinin yenilikçi ruhunun təsirindən dövrün digər Azərbaycan ziyalıları kimi, Ağaoğlunun baxışlarının da islamçılıqdan türkçülüyə tədricən təkamül olur. Bu prosesə təsir edən amillərin biri də Bakıda Azərbaycan türklərinin sərvət sahiblərinin milli mənafeyi üstün tutmaqla millətinin maddi-mənəvi inkişafına saysız-hesabsız yardımlar göstərməyə dönmədən səy etməsi də olmuşdur. Onların millətin oyanışı, cəhalətdən xilası yolunda və müstəmləkə təzyiqinə, zorakılığına dirəniş gücünə sahib olmaq üçün səxavətlə öz kapitalından istifadə etməsi, bu vaxtdan başlayaraq milli ziyalılara hərtərəfli maddi-mənəvi dəstək nümayiş etdirməsi danılmaz faktlarla təsdiqini tapmışdır. Onların Avropada, Türkiyədə, Rusiyada təhsil alıb vətəninə dönən Azərbaycan ziyalılarına qucaq açmaları açıq şəkildə özünü büruzə verməyə başladı. Milli ziyalıların baxışlarının, nəzəri və əməli fəaliyyətlərin əsasında dayanan isə türklüyün-milli kimliyin, millətin özünü tanımasının İslamla bağlılığı idi. Onlar türklüyün İslamla vəhdətində türkçülük ruhunu önə keçirdilər.

Ağaoğlunda islamçılıqdan türkçülüyə keçid dövründə hələ milli amalından xəbərsiz, milli şüuru oyanmamış Rusiyadakı türklərin-müsəlmanların bir toplum halında bir-birilərinə ögeylik-doğmalıq münasi-bətlərindən irəli gələn təhlükələr qalırdı. Belə təhlükəli vəziyyət Rusiyadakı türklərin-müsəlmanların sünni-şiə, yəni məzhəb ayrımçılığı ilə üz-üzə qalmasına səbəb olub, milli birliyin yaranmasına böyük təhlükə hesab olunurdu. Rusiyanın imperiya siyasəti də bunu dəstəkləyirdi. Məhz Ağaoğlu da daxil olmaqla milli aydınlarımız türklük identifikasiyasını-türk milli kimliyini irəli sürməklə hiss edilən dini ayrımçılıqdan yaxa qurtarmağı vacib hesab edirdilər. Onlar türk-müsəlmanların arasındakı məzhəb, təfriqə ayrı-seçkiliyini aradan qaldırmaq üçün vahid milli birlik-türklük ideyasını irəli sürür, eləcə də bu amala sarılmaqla dövrün, zamanın tələblərinə uyğun olaraq, türklərin-müsəlmanların birliyi uğrunda fədakar mücadiləyə hazırlanırdılar. Xüsusilə də XIX əsrin sonlarından başlayaraq Rusiya təhsil müəssisələrinin məzunları olan Azərbaycan ziyalıları əhəmiyyətli dərəcədə yeni ideyaları əldə rəhbər tutmaqla türk-müsəlman cəmiyyətini yeniləndirməyə çalışırdılar.

Çar Rusiyasının türklərə-müsəlmanlara qarşı yeritdiyi həm milli, həm də dini ayrı-seçkilik siyasəti Ağaoğlunun da milli kimlik düşüncəsinə təsir göstərməyə bilməzdi. Rusiya işğalından sonra Azərbaycan cəmiyyətindəki İslam və türklük ənənələrinə yad ənənələrin təsirindən yaxa qurtarmaq mümkün olmadı. Çünki Rusiya hökumətinin yeritdiyi müstəmləkə siyasəti ilə bölgədəki müsəlman və türklərin yerli maraqları nəzərə alınmadı, onların çoxminillik ənənələrinə qarşı təcavüzkarlıq edilməyə başlanıldı.

Əvvəlcə vahid "İslam ümməti"ni-vahid dini birliyi önə çəkən Ağaoğlu sonradan da dinin millət əlaməti olaraq birinci olmadığının fərqini görməkdə idi. Millətin daha çox dilinin, tarixinin, adət-ənənələrinin, mədəniyyət birliyinin məhsulu olduğu aydın olurdu. Ona görə də Rusiyadakı türklərin-tatarların vahid birliyinin önə çıxarılması ilə onların sahibləndiyi mədəni-mənəvi dəyərlər digər tərəfdən dini-əxlaqi dəyərlərlə birlikdə qəbul edilirdi. Əhməd bəy Ağaoğlunun Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Məmməd Əmin Rəsulzadə və digər aydınlarla birlikdə dini, irqi, milli kimlik ideyasını

dəstəkləmələrinin nəticəsində Rusiyadakı türklər-müsəlmanlar özlərini daha çox yalnız hiss etməkdən birdəfəlik qurtuldular. Bu zamanki milli ideyalar aradan zaman keçdikcə dövrün tələblərinin təsiri ilə vahid ideologiya şəklində müəyyənləşdirilib zamana, dövrə uyğun öz təsdiqini tapdı.

Ağaoğlunun siyasi düşüncələrində millətin oyanışı əsas problemlərdən idi. XX əsrin əvvəllərində Rusiya imperiyasında türk-müsəlmanların milli şüurunun oyanması və milli birliyinin möhkmlənməsi zərurəti dövrün, şəraitin, zamanın mürəkkəbliyindən irəli gələn əsas tələblərdən idi. Türklərin bu oyanışı və birliyi cəmiyyətin məzlum xalqlarının zamanın tələbinə səs verməsi demək olacaqdı. Bu məsələ ətrafında bir sıra zəruri, ciddi irəliləyişlərin olacağı da istisna edilmirdi. Ağaoğlu bu sahədə ciddi fəaliyyət göstərib, müasiri olduğu cəmiyyətdəki ictimai fikrin inkişafından doğan tələb kimi, zamanın irəli sürdüyü və onun mahiyyətini təyin edən amillərdən biri kimi, rəngarəng yaradıcılığında ümmətçilikdən millətçiliyə keçidə yol almış oldu. Burada Rusiya imperiyasının türk-müsəlmanlarla bağlı vacib həllini gözləyən milli məsələni, ümumiyyətlə, tamamilə unutması, yada salmaq isdəməməsi, onu imperiyaya xas olan təzdə "əritmək" istəməsi Ağaoğlunun görüşlərinə təsirsiz ötüşə bilməzdi. Ona görə də onun türkçülüklə-millətçiliкə bağlı görüşlərinin inkişafı onun bu sahədəki fəaliyyətinin ciddiyyətindən xəbər verirdi: "xalq arasından çıxmış həyatın çətinliklərini özlərinin, yaxınlarının və qohumlarının üzərində hiss etmiş" (4, 335) Ağaoğlu tarixi inkişaf qanunauyğunluqları kontekstində millətçiliyə-türkçülüyə keçiş etdi.

Ağaoğlu türkçülüklə bağlı əsərlərində türklərin Şərqdə oynadığı önəmli rolu vurğulayarkən, diqqəti onların tarixən böyük qüdrətinə yönəldir və göstərir ki, "Şərqin ən önəmli parçası türklərin əlində" (5, 24) olmuşdur. "Bir tərəfdən Tuna çayından Çin ölkələrinə qədər, digər tərəfdən Misir hüdudundan Qafqaz dağlarına qədər və üçüncü tərəfdən Qıpçaq çölündən Hindin ortasına qədər türkün əlindədir" (5, 14). Ağaoğluna görə, "türklərin tək hakim olduğu bu ərazilər-bu coğrafiya "genişlikdə Avropanın iki-üç misli" (5, 14) qədər idi. Deməli, tədqiqatçılara görə, Ağaoğlu "türklüyü Anadolu və Qafqaz hüdüdları ilə məhdudlaşdırmır, Balkanlardan tutmüş Uzaq Asiyaya qədər yaşayan bütün türksoylu xalqları böyük türk ailəsinin bir parçası olaraq görmüşdür" (1, 59).

Ağaoğlu tarixin səhifələrini vərəqləyib türklərin qüdrətli, nəhəng dövlətlər-imperiyalar qurduqlarını göstərir, onlara qarşı aşağılayıcı iddiaların əsassızlığını sübut edir. Müəllif burada özünün türkçülük əhval-ruhiyyəsini əks etdirərək, Balkanlardan Çinin hüdudlarına qədər uzanan, "bu geniş dünyanın sahibləri" olan türklərin yaratdıqları türk dövlətlərinin adlarını sıralayır: "Qərbdə Osmanlı türkləri, ortada ağqoyunlular, qaraqoyunlular, qacarlar, əfşarlar və s. Şərqdə özbəklər, elxanilər, Hinddə gürganilər" (5, 14).

Ağaoğlu türklərin şanlı tarixində hansı səbəblərdən, hansı problemlərlə üzləşib toqquşmalarını, bir dövlətin o biri türk dövlətini süquta uğratmasını göstərir. O, öz baxışlarında bu sübutu ilə ondan ibrət dərslərini öyrənməyin vacibliyini qeyd edir. "Fəqət nə çarə ki, bu türk elləri yıpranmış və əskimiş olan yaşayış tərzlərini saxlamaqla bərabər dayanmadan bir-birlərilə savaş edirlər, dayanmadan bir-birini yıxırlar, bir-birini zəiflədirlər. O qafillərdir ki, başı üzərlərinə qədər soxularaq fürsət gözləyən və ilk fürsətdə son zərbəni endirməyə hazırlanan düşmənləri belə görməz olurlar" (5, 14).

Ağaoğlu türklərin parçalanmalarını göstərərkən, əslində o dövrdə qəribə də olsa "böyük türk ellərində böyük insanların da əskik" (5, 14) olmadıqlarını xəbər verirdi. Lakin dövrün yetişdirdiyi belə görkəmli xadimlər arasında yalnızca "Səlim və Nadir istisna edilməklə, kimsənin ağlına türk məmləkətlərini birləşdirmək, türk ellərini yoğurub, xəmirləyib bir tək varlıq halına gətirmək fikri gəlmir" (5, 14). Orta əsrlərdən ta yeni dövrədək türklərin tarix salnaməsini tədqiq edən Ağaoğlu göstərir ki, bu birliyin-türk ellərinin vəhdətinin qayğısını çəkməyənlərin və bu birliyə səy göstərməyənlərin tez-gec nəticədə necə böyük fəlakətlərə yol açdığını qocaman tarix çox sonralar sübuta yetirdi. O, təəsüflə yazırdı ki, "bu xəta və bu qəflət türk üçün fəlakətli bir tale yazdı" (5, 15).

Yəni Ağaoğlunun türkçülük baxışları, türkçülüyü, türk millətçiliyi hər şeydən əvvəl, Rusiyanın imperiya siyasətinin açıq şəkildə onun xalqına, millətinə və vətəninə gətirdiyi sonsuz saydakı bəlaların nəticələrinin sosial həyatda özünü qabarıq büruzə verməsinin nəticəsində formalaşmışdı. Bu, Azərbaycan türkləriylə birlikdə müsəlman türklərinə hakim çar imperiyasının daha çox təhlükə yaratması, bütün türk-müsəlmanların sabahkı gələcək həyatları üçün heç bir əminliyin olmamasından

irəli gəlirdi. Bu səbəbdən milli kimliyin axtarışı, türk kimliyinə sahiblik istəyi məhz Rusiya imperiyasının türklərə-müsəlmanlara daha böyük təhlükə mənbəyi olduğuna bir sübut idi. Yəni imperiyanın onlara qarşı səciyyəvi siyasəti belə nəhəng qüvvəyə və onun mənfur düşmənçiliyinə qarşı türklərin vahid birliyinin yeganə direniş gücü yarada biləcəyinə dərin inam yaradırdı. Belə təhlükənin yaxınlığı onda milli hisslərin-türkçülüyün yaranmasını bir daha gücləndirir və sürətləndirirdi. Doğma vətənində Ağaoğlunun fəaliyyəti istər-istəməz onun öz xalqı, milləti üçün, eləcə də bütün türk-müsəlman ellərində milli-mənəvi oyanışın həsrətini yaşadırdı.

Ağaoğlu milliyyətçilik düşüncəsinə keçidlə türk milliyyətçiliyinə möhkəmliklə bağlanmışdı. Əvvəlcə bir şiə aydını kimi görünən Ağaoğlu hələ milliyyətçiliyi aydınlıqla vurğulaya bilməzdi. Ona görə də Ağaoğlu vətəninə dönənə qədər, xüsusilə də XX yüzilliyin başlanğıcındakı yenilikçilik havası onu artıq gözlənilə biləcək türkçülüyə keçid üçün əlverişli şərait yaratmış oldu. Onun “türkçülüyə əsl keçişi doğma yurduna dönərkən İstanbul və sonra isə Azərbaycan mühitində baş vermişdir” (16, 54).

Vətənə döndükdən sonra Ağaoğlunda türkçülüyə keçid və milliyyətçiliyin güclənməsi özünü göstərməyə başladı. Bu, heç də təsadüfi deyildi. Çünki Avropa, xüsusilə Fransa həyatı dövründə o, türk milliyyətçiliyindən uzaq olmuşdur. Ağaoğlu vətənindəki xalqına-Rusiya müsəlmanlarına imperiyanın şovinist millətçilik-panslavist siyasəti ilə yanaşı, dini ayrı-seçkiliyin-ruslaşdırma, xristianlaşdırma siyasətinin güclü zərərli təsirlərini gördüyündən, nəticə etibarilə dini mənsubiyyətdən-dini kimlikdən etnik-milli kimliyə “müsəlman cəmaətdən milli kimliyə” (15, 54) qəti olaraq birdəfəlik geridönməz keçid etmişdir.

Azərbaycanın XX əsrin əvvəllərindəki çox mürəkkəb və ziddiyətli dövründə Ağaoğlunun sosial-siyasi baxışlarının islamçılıqdan türkçülüyə keçidindəki təkamülü bu böyük mütəfəkkirin yaradıcılıq yolunun aramsız, fasiləsiz inkişafda olduğundan xəbər verir. Onun baxışlarında türkçülüyün təbliği, türklüyün müdafiə olunması fərqli, qabarıq görünən köklü, prinsipial dəyişikliklərin olacağını xəbər verirdi. Həqiqətən də o, bundan sonra İslam dünyasının parçalanmasını ürək yanğısı ilə ortaya çəksə də, İslam birliyindən daha çox ümumilikdə türklərin vahidliyinin-birliyinin vacibliyini önə keçirmiş, ona keçilməz möhkəm sədd çəkən imperiya despotizminə qarşı dayanacaq gücdə olan türk birliyinin sipər olacağını isbata yetirmişdir. Burada sübut edilirdi ki, heç bir ayrı-seçkilik, dini ixtilaf türklərin unudulmaqda olan vahidliyinə, birliyinə, vəhdətinə kölgə salmamalıdır və onların ümumi mənafeyinin qeydinə qalmaq bu birlik yolunda atılacaq addımların daha möhkəm, sabit, qırılmaz və yenilməz olacağımndan xəbər verir.

Ağaoğlu tərəfindən dini kimliyin nilli kimliklə yerinin dəyişdirilməsi türklüyün-türkçülük missiyasının önə keçməsi-liderliyin türklüyə verilməsi ana vətəni Qafqazın Rusiya əsarətindəki gərgin vəziyyəti ilə bağlı olmasından irəli gəlirdi. Ağaoğlundakı türkçülük ruhu yeni bir düşüncə tərzi, fikir meyarı olmaq etibarilə qurtarıcı, xilasedici bir ruh idi. Bu ruh imperiya əsarətindəki bütün türk-müsəlmanları birləşdirmək ümidi ilə onlara təsir göstərəcək fenomen idi. Belə türkçü ruh-türkçülük konsepsiyası ümumilikdə dini etiqadı-dini kimliyi ilə eyni ölkədə yaşayanlardan türk-müsəlmanların hamılıqla digər dinin-xristianlığın daşıyıcıları olan irticaçı imperiya qüvvələrindən fərqli olduqlarını ilkin olaraq onlara daha yaxşı anlada biləcəkdi.

Türk milli kimliyi İslam dini kimliyi ilə sintez təşkil edərək onun uğur qazanmaq imkanlarına güc verəcəkdi. Ağaoğluna görə, türklərin milli ruhu türklükdür, türklərin gücü bundadır. Bu ruh, bu bağlılıq İslamla birləşdikdə millətin uğurlarını şərtləndirir. Belə bağlılıq, güclü birlik bütün türk-müsəlmanları hazırkı vəziyyətdə məhv olmaqdan xilas edəcək, belə mənəvi-əxlaqi bağlar onları parçalanmaqdan qoruyacaqdı. Bu, Azərbaycan da daxil olmaqla bütün türk-İslam birliyini qurtaracaq yenilməz bir potensial gücdür və bundan ötrü hər zaman düşünməyə və düşündürməyə dəyərdi. Əgər bunlar gerçəkləşərdisə, vətəni Azərbaycan da daxil olmaqla bütün türk-müsəlmanların Rusiya imperiyasına direniş gücü sonda onları xilas edəcək gücə çevriləcəkdi.

Ağaoğlu “Rüs müsəlmanı” idi (1905-ci ilə qədər hələ “türk” kəlməsi yerinə bu ifadəni işlədirdi) (11, 130). O, “rus imperatorluğunun müsəlman təbəəsi idi” (16, 46). Ağaoğlu milli-mədəni kimliklə bağlı olaraq, düşdüyü mühitin təsirlərindən yan ötüşə bilməzdi. O, Rusiya müsəlmanları ilə bağlı ictimai həyatda dəyişikliklərin həyata keçirilməsinin tərəfdarı kimi çıxış edirdi. Onun əsas

məqsədlərindən biri Rusiya müsəlmanlarının oyanışı, milli özünüdərki-maariflənməsi problemi idi.

1905-ci il inqilabı və ondan sonrakı illərdə Ağaoğlunun dünyagörüşündə çox ciddi dəyişikliklərdən xəbər verəcək yeni ideyalar, konsepsiyalar ortaya çıxmağa başladı. Onun düşüncələrinin formalaşmasına fəal təsir göstərən ictimai mühitin təbiətindən doğan bir sıra problemlər öz vacib və labüd həllini gözləməkdə idi. Müstəmləkəçi imperiyanın şovinist ayrı-seçkilik siyasətinin Ağaoğlunun düçüncələrinə dərin təsiri olduqca açıqca görünürdü. Tarix sübut etdi ki, Ağaoğlu türklərin əlbir, həmrəy olmalarının, vahid birliyinin gələcək günlərdə amansız imperiya qüvvələri ilə çarpışmalara hazır olmaq üçün qarşıda dayanan vacib, təxirəsalınmaz tədbirlərdən biri hesab etməkdə çox haqlı idi. Bu mənada onun türkçülük baxışlarında ümumtürk birliyinə, vəhdətinə dərin inam ruhu güclü idi. O, türklərin həmrəyliyinin, birliyinin yaradılmadığına görə nə qədər bəlalara düçar olduqlarını çox böyük təəssüf hissi ilə göstərirdi.

Ağaoğlunun 1905-ci il inqilabına yaxınlaşan illərdə, xüsusilə də 1905-ci ildən başlanan sonrakı yaradıcılığında qırmızı xətlə keçən türkçülük-türklük ruhudur. O, cəmiyyətin durumunu, zamanın ab-havasını və dünya imperiyalarının bölüşdürücülük maraqları ilə bağlı olaraq, bu proseslərin fonunda milli kimliyin vəziyyətini önə çəkərkən dini-İslam kimliyi ilə onun aralarında bir bağlılığın varlığını açıqcasına göstərirdi. Ağaoğlu göstərirdi ki, türk-müsəlmanların hamısının imperiya əsarəti altında bitib-tükənmək bilməyən bəlaları onlar arasında vahid birliyin yaranmasına, dirəniş gücünün tapılmasına doğru inkişaf edəcək, dini kimliyi, dini ayinləri, adət-ənənələri də onlar arasında güclü birlik hisslərini yaradacaqdır. Yusuf Akçuranın fikrincə, “Əhməd Ağaoğlu türk milliyyətçiliyi fikrinə bütün müsəlmanların, hətta bütün şərqlilərin həyatı, səadəti, istiqlal və istiqbalı qaygısıyla bir neçə mərhələdən keçərək gəlmişdir” (3, 177).

Ağaoğlunda XX əsrin başlanğıcında getdikcə türk təssübkeşlik ortaya qoyulurdu. Bu dövrdə Ağaoğlu türklərin müsəlman dünyasının tarixindəki danılmaz tarixi xidmətlərini, orta əsrlər dövründə bütün türk-müsəlman dünyasına dağıdıcı yürüşlər edən Avropanın birləşmiş qüvvələrinə-səlibçilərə qarşı sarsıdıcı zərbələr endirən, onları Şərqdən qovub çıxaran türklərin islam aləminin ümid-pənahı olduğunu göstərirdi: “Əgər İslam səlib yürüşlərinin qarşısında duruş gətirmişdisə, əgər o, qüvvətli dini təbliğatlarla müşayiət olunan sürətli müstəmləkə fütuhatı dövründə birdəfəlik yoxa çıxmamışdısa, onlar məhz türk-tatarların sayəsində mümkün olmuşdur” (4, 328).

Ağaoğlunun qənaətinə görə, bu dövrdəki türk-müsəlman birliyinin yetirdiyi qəhrəmanlar və onların əfsanəvi qəhrəmanlıqları danılmazdır. Daha sonrakı dövrlərdə də türk-tatar xalqları “Konstantinopoldan tutmuş Çinə və Hindistana qədər, Şərqi Türküstandan tutmuş Afrika Tripolisinə qədər bütün müsəlman aləmində hakim xalqlar” (4, 329) olmuşlar. Bütün çətinliklərə baxmayaraq, Qərbin böyük zorakı gücü qarşısında Şərqi və müsəlman aləmini ümidsiz qoymayan, onları xilas edən yenə də türklər olmuşlar: “İlk səlib yürüşlərindən başlayaraq bu günə qədər Qərbə qarşı uzun və ağır mübarizəni aparanlar da türk-tatarlar olmuşdur” (4, 329).

Türklərin bu dövrdən başlayan qəhrəmanlıqları sonralar da nəticə etibarilə olduqca ağır, eləcə də şərəfli bir xidmət nümunəsinə çevrildi. Belə ki, onlar inanılmayacaq qədər çətin bir işi bacardılar. Ağaoğlu bunu nəzərdə tutaraq yazırdı ki, türklər “müsəlman dünyasını az-çox müdafiə etmiş, onu tam parçalanmaqdan qorumuşlar” (4, 329). Ağaoğlu böyük təəssüf hissi ilə yazırdı ki, “bu xalq hələ də bir ağ günə çıxmayıb” (4, 329), lakin o, yenə də türklərin gözəl gələcək quracaqlarına tam əminliklə inanaraq deyirdi ki, onların “bütün həyatı hələ irəlidədir” (4, 329). Ağaoğlu türk nəsillərinin fəxri olan dünyaca şöhrətli görkəmli xadimləri tanıtdırır və onları dünya mədəniyyətinin, elminin, incəsənətinin inkişafı və çiçəklənməsindəki əvəzsiz xidmətlərini göstərirdi. Avropanın dünyaya qəddar kimi tanıtmaq isdədiyi türk xaqanlarının Hülakünün, Teymurləngin elmin, ədəbiyyatın, incəsənətin inkişafına himayədar olduqlarını bildirirdi.

Ağaoğlu türklüklə-türk kimliyi problemi ilə bağlı bildirirdi ki, “İslamın xarici və daxili qüvvələrin təsiri ilə durğunluq mərhələsi XVII-XVIII əsrləri əhatə edir” (4, 328). Belə tarixi dövrləşmədən sonra o, İslam aləminin XII əsrdən bu günə qədərki geriləməsinin bir səbəbini də türklərlə əlaqələndirirdi. Ağaoğlu göstərirdi ki, “türk-tatarlar XII əsrdən indiyə qədər İslamın istinadgahı olmuşlar” (4, 328). Burada türklərin və türklüyün İslam tarixindəki mühüm xidmətləri

göstərilərkən İslamın nədən getdikcə tənəzzül etməsi fikri ortaya gətirilirsə, digər tərəfdən isə türklərin böyük rolu önə çıxarılırdı. Ağaoğlunun fikrincə, "tam əminliklə demək mümkündür ki, əgər türk-tatarlar olmasaydı, hazırkı halında İslam da mövcudluğunu qoruya bilməzdi" (4, 328).

Ağaoğlu türklərin-müsəlmanların cəhalətdən xilasının yollarını göstərirdi. Onun yaşadığı sosial-siyasi mühit özlüyündə bu oyanışın vacibliyini qətiyyətlə gətirib ortaya qoymuşdu. Bu oyanış yalnız türklər üçün deyil, eləcə də bütün müsəlmanlar üçün həyatda yaşamaq, var olmaq mücadiləsi üçün vacib idi. Azərbaycan ziyalılarından biri kimi Ağaoğlu xalqını oyandıracaq, sonrakı mübarizəyə hazırlayacaq, eləcə də, onu qoruyacaq, müdafiə edəcək ideyalar-prinsiplər irəli sürürdü. Bu ideyalar gündən-günə daha sürətlə inkişaf edən dünyanın gedişinə, zəmanəyə, tarixi inkişafa uyğun olub, bütün türk-müsəlman cəmiyyətlərinin daha geniş, əhatəli şəkildə oyanışına yol açacaqdır. Bununla da vahid birliyi yaranacaq bütün türklər-müsəlmanlar əvvəlcə cəhalətin, sonra isə imperiya müstəmləkəçiliyinin bütün ağır, acı köləliyindən birdəfəlik qurtulub azadlığa qovuşub, rahatlıqla azad nəfəs alacaq və Rusiya imperiyasındakı türklər-müsəlmanlar hər iki əsarətdən tamamilə xilas olub, bundan sonra dünyanın tərəqqisinə qoşulacaqlar.

## ƏDƏBİYYAT


1. Akalın Gülsərən. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. Bakı, AzAtaM, 2004, 164 s.
2. Akifoğlu Vugar. Azerbaycan"da milli direniş (1917-1930). DTCF Dergisi 57.2 (2017): 776-795. Ankara Üniversitesi ...dergiler.ankara.edu.tr › dergiler
3. Akçura Yusif. Türkçülük. Türkçülüğün Tarihi Gelişimi. İlgi Kültür Sanat. Ankara, 2015
4. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Ön sözün, izah və şərhlərin müəllifi Vilayət Quliyev. Bakı, "Şərq-Qərb", 2007, 392 s.
5. Ağaoğlu Əhməd. İran və inqilabı. Elmi redaktoru, ön söz və şərhlərin müəllifi Vaqif Sultanlı. Bakı, Azərnəşr, 2009, 152 s.
6. Алекберли Фарид. К истории этнонима "тюрк" в Азербайджане. В сборнике: «Тенгри и тамга: наследники тюркского мира», Баку, 2010, стр. 104-126
7. Asker Ali. Azerbaycan'da Milli Kimlik İnşasında Sosyo-Ekonomik Etkenler ve Millet Olgusunun Fikri Temelleri (19. Yüzyılın Sonu–20. Yüzyılın Başı). Yeni Türkiye, 75, s. 516-535
8. Asker Ali. Mübariz ziyalı və hüquqçu kimi Əhməd bəy Ağaoğlu şəxsiyyəti. Azərbaycan Şərqşünaslıq Elminin İnkişaf Yolları. Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, 27-28 iyun 2013, Bakı, 846 s. (s. 624-626)
9. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. "Elm". 2008. 696 səh.
10. Балаев Айдын. От этнографии к этнологии: современные этнологические исследования в Азербайджане (Сборник статей). НАНА, Институт Археологии и этнографии. Баку, 2013, стр. 51-82.
11. Holly Shissler. İki İmparatorluk Arasında. Ahmet Ağaoğlu ve Yeni Türkiye (Çeviren: Taciser Ulaş Belge), 1. Baskı. İstanbul Bilgi Universitesi Yayınları, 2005
12. Жигульская Д.В. Эволюция политических взглядов Ахмед бека Агаева (Агаоглу). Проблемы востоковедения. Москва, 2018/4 (82), стр. 25-30
13. Mədətoğlu Aydın (Qasımlı). Türkçülər (Tarixi – siyasi-ideoloji oçerklər). Bakı, 2014. 497 səh.
14. Mirəhmədov Əziz. Əhməd bəy Ağaoğlu. Bakı, Ərgünəş, 2014, 264 səh.
15. Свентоховский Тадеуш. Русское правление, модернизаторские элиты и становление национальной идентичности в Азербайджане. Азербайджан и Россия. Общества и государства. - ...old.sakharov-center. ru/ publications /azrus/az_002.htm
16. Süleymanlı Mübariz. Əhməd Ağaoğlunun ilk elmi əsəri: Şiə dinində Məzdəki inancları. Bakı, 2007. 129 s.
17. Tağıyev Kövser. Siyasi tarihi bağlamında Azerbaycan'da din eğitiminin gelişimi. Uluslararası Sosyal Araştırmalar Dergisi. Cilt: 6 Sayı: 28. Güz 2013, s.380-398
18. Turan Refik. Kuzey Azerbaycan'da modern ulusal kimliğin gelişim sürecine genel bir bakış. TAED-61, - Türkiyat Araştırmaları Enstitüsü Dergisi- Ocak- 2018 Erzurum, s. 429-461

## SUMMARY

**Bagir Babayev**

## FEATURES OF THE TRANSITION FROM "SUMMA" TO NATIONALISM IN THE POLITICAL VIEWS OF AHMED BEKA AGAOGLU

Starting from the historical relay race from Mirza Fatali Akhundzade and Hasan bey Zardabi, Ahmed Bey Agaoglu and Ali Bey Huseynzade continued in the formation of the Azerbaijani Turks. At the beginning of the twentieth century the ideas of Turkism arose significantly. Ahmed bey Agaoglu is one of the most prominent representatives of the national democratic movement of the Azerbaijani people at the beginning of the twentieth century. For the sake of historical justice, this prominent person, public and political figure has a large role in the national awakening, revival, formation and development of Azerbaijani Turks. Agaoglu, as one of those who changed the historical fate of our nation and homeland, first of all, he introduced the ideas of Turkism to our people, who remained in Muslim identity and did not know about Turkic identity. In the revolution of 1905 and in subsequent years, which will indicate serious changes in the worldview of Agaoglu, new ideas and concepts began to appear. In his work, beginning after 1905, the Turkish spirit that crosses the red line. It emphasizes the state of society and the state of national identity among these processes affecting the common interests of world empires. He emphasizes the state of national identity against the background of these processes, clearly demonstrates the relationship between religious-Islamic identity and national identity

***Key words:*** *Ahmed Bek Agaoglu, Muslim Turks, Islam, religious identity, Turkish, national identity*



## РЕЗЮМЕ

**Багир Бабаев**

## ОСОБЕННОСТИ ПЕРЕХОДА ОТ "УММЫ" К НАЦИОНАЛИЗМУ В ПОЛИТИЧЕСКИХ ВЗГЛЯДАХ АХМЕДА БЕКА АГАОГЛУ

Начиная исторической эстафеты с Мирза Фатали Ахундзаде и Гасана бека Зардаби в формировании азербайджанских турок продолжали Ахмед бей Агаоглу и Али бей Гусейнзаде. В начале двадцатого века значительно возникли идеи тюркизма. Ахмед бек Агаоглу является одним из самых ярких представителей национально-демократического движения азербайджанского народа в начале XX века. Ради исторической справедливости этот видный личность, общественный и политический деятель имеет большую роль в национальном пробуждении, возрождении, становлении и развитии азербайджанских турок. Агаоглу, как один из тех, кто изменил историческую судьбу нашей нации и родины, прежде всего он представил идеи тюркизма нашему народу, который оставался в мусульманской идентичности и не знал о туркской идентичности. В революции 1905 года и в последующие годы, которые будет указывать на серьезные изменения в мировоззрении Агаоглу, начали появляться новые идеи и концепции. В его творчество, начинающая после 1905 года, турецкий дух, который пересекает красную линию. В нем подчеркивается состояние общества и состояние национальной идентичности среди этих процессов, затрагивающих общие интересы мировых империй. Он подчеркивает состояние национальной идентичности на фоне этих процессов, четко демонстрирует связь между религиозной-исламской идентичностью и национальной идентичностью.

***Ключевые слова:*** *Ахмед бек Агаоглу, турки-мусульмане, ислам, религиозная идентичность, турецкий язык, национальная идентичность*



***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 92-97
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 92-97
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 92-97

**GÜLÇİN AĞAYEVA**
*gulcin.agayeva001@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 349:556.18] (4/9)**

# XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU PROBLEMİ VƏ SAHİLYANI DÖVLƏTLƏR ARASINDA DƏNİZDƏ SİLAHLANMA YARISININ ORTAYA ÇIXMASI

*SSRİ-nin dağılması ilə Xəzərsahili müstəqil dövlətlərin sayı ikidən beşə yüksəlmişdir. Bu isə Xəzərin hüquqi statusu və dənizdə silahlanma kimi bir problemi də özü ilə gətirmişdir. Müxtəlif maraq və siyasət istiqamətləri olan bu dövlətlərin hər biri öz siyasətinə uyğun şəkildə status məsələsini həll etməyə çalışmışdır. Nəticədə 20 ilin üzərində həllini gözləyən bir problem ortaya çıxmışdır. Uzun müzakirələrdən sonra sahilyanı dövlətlərin razılığı ilə Aktauda yeni Konvensiya qəbul olundu və Xəzər dənizi öz statusunu qazanmış oldu. Məqalənin yazılma səbəbi Xəzər dənizinin hüququ statusunun bir problem şəkilində ortaya çıxma səbəbləri, dövlətlərin buradakı fərqli maraqları, məsələnin həlli və nəticələri, sahilyanı dövlətlər arasında müstəqillik qazanmalaqla başlayan silahlanma yarışı və onun mahiyyətini izah etmək və nəticələrini araşdırmaqdan ibarətdir.*

***Açar sözlər:*** *Xəzər dənizinin hüququ statusu, Aktau Konvensiyası, Xəzərdə silahlanma yarışı*

Azərbaycan ərazilərindən qədim dövrlərdən bəri neft çıxarılmaqdadır. Bu neftdən yanacaq kimi, tibbi sahələrdə və s. məqsədlər istifadə olunmuşdur. Dənizlərdən neft çıxarılmağa başlanılması ilə Azərbaycanın dünyada əhəmiyyəti daha da artmışdır. XIX əsrin 90-cı illərindən başlayaraq Bakı Rusiya imperiyasında istehsal edilən neftin 95%-ni, dünya neft hasilatının isə yarıya qədərini – ildə təxminən 11 milyon ton neft istehsal edirdi (1, s. 661). Müasir dövrdə isə dünya neft rezervinin 17 %-i Xəzər dənizindədir. O, Körfəzdən sonra neft ehtiyatına görə dünyada ikinci yeri tutur və burada təxminən 30 milyard ton neft olduğu güman olunmaqdadır (8, s. 468).

Tarixdə Sankt-Peterburq, Rəşt, Gülüstan və Türkmənçay müqavilələrində Xəzər dənizi ilə bağlı maddələrə rast gəlinir. Lakin bu müqavilələrin heç birində onun hüquqi statusu barədə müddəalar əks olunmamışdır. Bu müqavilələr əsasən Rusiyanın hərbi uğurlarının ardından imzalandığı üçün Rusiyaya Xəzərdə imtiyazlar vermiş və hər müqavilədə bu imtiyazlar artmışdır (2, s.10).

Xəzərin hüquqi statusu məsələsinə ilk dəfə 1921-ci il fevralın 26-da Moskvada imzalanmış Rusiya-İran müqaviləsində toxunulmuşdur. 26 maddədən ibarət olan bu müqavilənin 3-cü maddəsində deyilirdi ki, "yüksək səviyyədə danışıq aparan tərəflər 1881-ci ildə sərhəd komissiyası tərəfindən müəyyən edilmiş sərhəd xəttini İran və Rusiya arasında su sərhədi kimi qəbul etməyə razıdırlar, bu sərhəd qorunmalı və toxunulmaz qəbul edilməlidir". SSRİ və İran arasında içində Xəzər dənizi ilə bağlı maddələr olan ikinci müqavilə isə 25 mart 1940-cı ildə Tehranda imzalanan "Ticarət və dənizçilik haqqında" müqavilədir. Bu müqavilənin 12-ci maddəsinin 4-cü bəndi tərəflərə öz sahillərində 10 dəniz mili genişliyindəki sahədə balıqçılıq hüququ tanımışdır (2, s. 10).

1970-ci ildə SSRİ Neft və Sənaye Nazirliyi Xəzər dənizini öz daxilindəki sahilyanı dövlətlər arasında aşağıdakı faizlərlə bölünməsi haqqında qanunu təsdiqlədi: orta xətt prinsipi üzrə Rusiya 19%, Qazaxıstan 29,6%, Azərbaycan 20% və Türkmənistan 16% olmaqla milli sektorlara bölündü (3, s.34). Milli sektorlara dəqiq rəqəmlərlə baxsaq əgər, Xəzərin təqribən 113 min $km^2$-i Qazaxıstanın, 80 min $km^2$ -i Türkmənistanın, 80 min $km^2$-i Azərbaycanın, 64 min $km^2$-i Rusiyanın payına düşmüşdür (2, s.11).

Sovet Rusiyasının dağılması ilə Xəzər danizinin sahilyanı müstəqil dövlətlərinin sayı 2-dən

5-ə qalxdı. Bu beş dövlətin hər biri fərqli xarici investitorları cəlb edərək dünya bazarına cıxmağa çalışdı ki, nəticədə Xəzərin hüquqi statusu kimi bir problem ortaya çıxmış oldu. Xəzər dənizi ilə bağlı bağlanmış yuxarıdakı müqavilələrin heç birində status məsələsi tam olaraq müəyyən olunmamışdı. Bu qeyri-dəqiqlik dənizdən daha çox pay qoparmaq istəyən dövlətlər üçün bəhanə oldu.

Sahilyanı dövlətlər arasında 1992-1993-cü illərdə görüşlər keçirilmiş, lakin bir razılığa gəlmək mümkün olmamışdır. 1994-cü ilin əvvəllərində danışıqlar davam edərkən Azərbaycan Qərb şirkətləri ilə razılaşmış və dənizdə araşdırmalar başlatmışdır. Azərbaycanın bu addımı məsələni qızışdırmış və Rusiya ilə İranın ciddi narazılığına səbəb olmuşdur. 28 aprel 1994-cü il tarixində Rusiya bununla bağlı İngiltərəyə nota göndərmişdir. İran da bənzər narahatlıqlar keçirmiş və sərt bəyanatlar vermişdir. Ancaq 20 sentyabr 1994-cü il tarixində Azərbaycanla Qərb şirkətləri arasında Xəzərdə neftin çıxarılması ilə əlaqədar imzalanan “Əsrin Müqaviləsi”nə Rusiya və İran neft şirkətlərinin cəlb edilməsi bu ölkələrin sərt mövqeyini bir qədər yumşaltmışdır (2, s. 11-12). Rusiyanı təmsil edən LUKoil şirkəti müqavilədən 10% investisiya payı aldı, İrana isə Azərbaycan öz payından 5%lik hissə təklif etdi. Lakin ABŞ və Qərb dövlətlərinin bəzilərinin ciddi etirazı nəticəsində konsorsiumda iştirak etməyinə baxmayaraq, İrana pay verilmədi (1, s. 667 ).

Xəzərin hüquqi statusu ilə bağlı ilk əsas razılaşma 1996-cı il noyabrın 6-da Aşqabad zirvə toplantısında əldə edildi. Xarici İşlər Nazirləri səviyyəsində keçirilən bu görüşdə məsələnin hüquqi həlli üçün Xüsusi İşçi Qrupunun yaradılması haqqında qanun qəbul olundu (2, s. 12-13). 1996-cı il 16 sentyabrda Azərbaycan və Qazaxıstan arasında (4), 1998-ci ildə Rusiya və Qazaxıstan arasında, 2001-ci il 29 yanvarda Azərbaycan və Rusiya arasında (5) Xəzər dənizində əməkdaşlığın prinsipləri üzrə Birgə Bəyanatlar qəbul olundu. 2003-cü il mayın 14-də Astanada Azərbaycan, Rusiya və Qazaxıstan arasında "Xəzərin dibinin ora xətt üzrə milli sektrlara bölünməsi, su səthinin ümumi istifadəsi" haqqında üçtərəfli saziş imzalandı. Bununla üç dövlət arasında Xəzərin statusu barədə razılıq əldə olunduğunu, geriyə sadəcə iki dövlət qaldığını demək mümkün idi.

Xəzər dənizinin statusuna dair Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Görüşününün (Xəzər sammiti) keçirilməsi haqqında razılıq əldə olundu. 2002-ci il Aşqabadda, 2007-ci il Tehranda, 2010-cu il Bakıda, 2014-cü il Həştərxanda və 2018-ci il 12 avqustda Aktauda olmaqla 5 sammit keçirildi və sonuncu sammitdə dövlətlər Xəzərin hüquqi statusu ilə bağlı son qərarı qəbul etdilər (6).

Xəzərin hüquqi statusunun son nəticəsinə gəlməzdən əvvəl illərdən bəri davam edən statusla bağlı 3 fikrə nəzər salaq:

1. Göl prinsipi (border lake) - Xəzər beynəlxalq göllər haqqında Konvensiyaya dayanaraq, orta xətt prinsipinə əsaslanan milli sərhədlərə uyğun olaraq, bölünməsini nəzərdə tutan prinsipdir. Yəni hər bir sahilyanı dövlət öz ərasi daxilində dənizin səthində və dibində müstəqildir (7, s. 154).

2. Dəniz prinsipi (open sea) - 1982-ci il beynəlxalq dəniz konvensiyasına əsasən hər dövlətin sərhəddindən başlayaraq 12 dəniz mili qədər dənizə uzanan məsafə dövlətin daxili suları hesab olunur (7, s. 154). Daxili dəniz sularının hüquqi rejimi müvafiq dövlət tərəfindən daxili qanunvericilik vasitəsilə müəyyən olunur. Bu sularda dövlətin icazəsi olmadan hər hansı təsərrüfat fəaliyyəti ilə məşğul olmaq və tədqiqatlar aparmaq əcnəbilərə qadağandır (16, s. 241). Dövlətin daxili sularından sonra ortada qalan bölumün dibindən və səthindən isə beş sahilyanı dövlət ortaq istifadə etməlidir (7, s. 154).

3. Condominium prinsipi-İran tərəfindən irəli sürülən və Türkmənistan tərəfindən dəstəklənən bu prinsipə əsasən Xəzər beş sahilyanı dövlər arasında 20% olmaqla bərabər bölünməlidir (7, s. 154). Orta xətt prinsipi nəzərə alınaraq, dövlətlərin milli sərhədlərinə əsasən yox, bərabərlik prinsipi ilə dövlət sərhədləri müəyyənləşməlidir (8, s. 470).

2003-cü il mayın 14-də Astanada Azərbaycan, Rusiya və Qazaxıstan arasında əldə olunan razılığa əsasən Xəzər dənizinin dibi göl, səthi isə dəniz prinsipi ilə istifadə olunurdu. Lakin bu bütün sahilyanı dövlətlər tərəfindən qəbul olunmuş prinsip deyildi. 12 avqust 2018-ci ildə Qazaxıstanın Aktau şəhərində keçirilən Xəzər sammitində satusla bağlı 5 sahilyanı dövlət arasında razılaşma əldə olundu. Bu razılaşmaya görə Xəzər dənizdir və ona 1982-ci il Dəniz hüququ haqqında konvensiya tətbiq olunmalıdır. Lakin birinci maddədə Xəzərin dəniz olması ilə yanaşı, su hövzəsi sözü də istifadə

olunmuşdur: "Xəzər dənizi tərəflərin quru əraziləri tərəfindən əhatə olunan su hövzəsidir" (9, maddə 1). 24 maddədən ibarət olan Aktau yekun sənədində 12 dəniz mili 15 dəniz mili ilə əvəz olunub (9, maddə 7). Yəni dövlətlərin dənizin içinə doğru 15 dəniz mili məsafəsi dövlətin daxili suyu hesab olunur və dövlətlər bu ərazi daxilində həm dənizin dibinin, həm də dənizin səthinin istifadəsində tam müstəqildirlər. Milli sərhəddin bitdiyi yerdən hər sahilyanı dövlət üçün 10 dəniz mili genişliyində balıq ovlamaq üçün sahə ayrılmışdır (8, s. 270), (9, maddə 9). Aktau Konvensiyasında, həmçinin dənizə birbaşa sahili olmayan dövlətlərin Xəzərdə silahlı qüvvə saxlaya bilməməməsi haqqında maddə də öz əksini tapmışdır (8, s. 271).

Xəzər dənizinin huquqi statusunun həll olunması bugün sahilyanı dövlətlər arasında uzun illərdən bəri davam edən silahlanma yarışını bir qədər yumuşaltmışdır. Çünki Yekun Konvensiyada Xəzərin xüsusi dəniz statusu almasına baxmayaraq, burada birbaşa sahili olmayan dövlətlərin donanma saxlamaq hüququ qadağan olunurdu. Beləliklə, Rusiyanın illərdən bəri ehtiyat etdiyi Çin və NATO təhlükəsininin Xəzər dənizindən gəlmə ehtimalı aradan qalxmış və dənizdə tam olaraq öz üstünlüyünü təmin etmiş oldu (10). Eyni zamanda Xəzər dənizi sahilyanı olmayan bütün dövlətlərin hərbi gücləri üçün də qapadılmış oldu (13).

Lakin 20 ilə yaxındır ki, Xəzər dənizində sahilyanı dövlətlər öz donanmasını yavaş-yavaş artıraraq silahlanma yarışı başlatmışdılar. Dövlətlər arasında silahlanma yarışına ayrı-ayrılıqda nəzər salaraq baxaq:

SSRİ dağılmazdan əvvəl Xəzər dənizində donanma saxlamaq məsələsi bir sıra Rusiya-İran müqaviləsində öz əksini tapmişdir. Bu sahədə əsas müqavilələrdən biri 1813-cü il Gülüstan müqaviləsidir. Bu müqavilədə hər iki dövlətin xəzərdə gəmiçilk hüququ tanınırdı. Müqavilənin 5-ci maddəsinə görə Rusiya dənizdə gəmiçiliklə yanaşı, hərbi donanma saxlamaq hüququ da qazanırdı. 1828-ci il Türkmənçay müqaviləsində də bu maddə yenidən əks olunmuşdu (3).

Əslində Rusiya və İran arasında imzalanan heç bir müqavilədə iki dövlətin sərhədləri tam olaraq əks olunmamışdır. Lakin bu sahədə əsas müqavilə 1921-ci ll fevralın 26-da Sovet Rusiyası və İran arasında imzalanan dostluq müqaviləsidir. Bu müqavilədə hər iki tərəfə bərabər gəmiçilik və balıqçılıq, enerji resurslarından istifadə etmək hüququ verilirdi. Donanma saxlamaq hüququ isə Rusiya dominant olmaqla, İrana da verilmişdir. Ümümiyyətlə, SSRİ dağılana kimi Xəzər dənizində üstünlük Rusiyanın əlində olmuşdur.

SSRİ dağıldıqdan sonra SSRİ-nin Xəzərdəki donanması dörd Xəzərsahili dövlət arasında bölünməli idi. Lakin Türkmənistan və Qazaxıstan öz paylarından imtina etdiyinə görə SSRİ dəniz donanması 70%lik Rusiya, 30% isə Azərbaycan olmaqla paylaşıldı. Bundan sonra Rusiya Xəzərin ən böyük dəniz gücünə sahib ölkəsinə çevrildi. ABŞ və qərb dünyasının buradakı fəaliyyətlərini özünə qarşı təhlükə olaraq görən Rusiya 1998-ci ildən sonra dəniz donanmasını artırmağa başladı. İlk əvvəl, Dağıstanda və Ermənistanda dəniz gücünə dəstək verə biləcəyi hava uçuş bazaları yaratdı, ardınca donanmanı yeniləməyə başladı. 2002-ci ilin fevralında dənizdə bir sıra əməliyyatlar həyata keçirtdi. Buna cavab olaraq isə, ABŞ Qazaxıstan, Türkmənistan və Azərbaycana donanmalarını gücləndirmək üçün yardımların vacibliyini vurğuladı (7, s. 155-158).

2013-cü ildə Rusiya 2020-ci il dövlət silahlanma proqramına görə Xəzər dəniz donanmasının 2018-ci ilədək 90%-inin yenilənəcəyini elan etdi (15). 2019-cu ilə gəldikdə isə Rusiya Xəzərdəki donanma-sının təxminən 76% yeniləmişdir (14).

Rusiya dənizdə güclənmək üçün ilk əvvəl Buyan və Buyan-M adlı gəmiləri artırmağa başladı. 2012-ci ildə isə bu kateqoriyadan olan ən müasir hərbi gəmi “Mahacqala” istifadəyə verildi. Gələcəkdə bunların sayının 10-a qədər artırılması nəzərdə tutulur. 2012-ci ildə eyni zamanda “Dağıstan” adlı hərbi gəmi (korvet) də fəaliyyətə başlamışdır ki, 300 km uzaqlıqda və hətta hərəkətdə olan hədəfləri vura biləcək olan bu gəmi Xəzərsahili dövlətlərin heç birində yoxdur. 2013-cü ildə Rusiyanın dəniz donanmasına 5 savaş gəmisi və iki yardımçı hərbi gəmilər, “Uglich” ve “Grad Sviyajek” adlı raket gəmiləri də əlavə edilmişdir (11).

Rusiyanın Xəzər dənizində donanmasının gücləndirməsinin əsas səbəbi öz daxili təhlükəsiz-liyindən əlavə, buradakı hərbi qüvvələrindən Yaxın Şərq, Qafqaz və Orta Asiya üçün istifadə edə

biləcək olmasıdır. GPV-2027 Dövlət Silahlanma Proqramına əsasən Rusiya ekranoplan, yəni raket daşıyan gəmiləri təkmilləşdirəcəkdir. Ekranoplan Rusiyanın Xəzər və Qaradənizdə patrul rolu oynamasını təmin edəcək (13).

Xəzərin ən güclü donanmaya sahib olan dövləti Rusiyadan sonra İrandır. İran dənizdə yüksək sürət və manevra qabiliyyətinə malik raket gəmilərdən və mini dənizaltından ibarət moskit donanmasına üstünlük verməkdədir (15). İranın Xəzərdə 4 ayrı donanması fəaliyyət göstərir: Bunlardan birincisi Ənzəlidir. Burada avtomat silahlarla donatılmış 12 keşikçi gəmisi, 25 sürət kateri, 11 hücümbotu vardır. Ikinci donanma Nousehrdədir. 400 personalın fəaliyyət göstərdiyi bu bazada 4 keşikçi gəmisi, avtomat silahlı 12 qayığı vardır. Bender-Gezdə yerləşən 3-cü bazada 280 əsgər, 12 keşikçi gəmi və 30 qayıq, Bender Xomeyni adlanan dördüncü bazada isə 10 keşikçi gəmisi və 25 teknesi vardır. 2013-cü ilin martında İranın dəniz qüvvələrinə "Camaran-2" adlanan, yeni tip radar, daha mükəmməl bağlantı sistemi və helikopter pisti olan hərbi gəmiləri fəaliyyətə başlamışdır (7, s. 166-169). İranın hazırda Xəzər dənizində ən güclü gəmisi C-802 anti-gəmi raketləridir (10).

Rusiya və İrandan sonra güclü donanma ardıcıllıqla Azərbyacan, Qazaxıstan və Türkmənistana məxsusdur. 1992-ci ilin avqustunda yaradılmış Azərbaycan hərbi dəniz qüvvələri 2500 personallıq 39 gəmidən ibarətdir. Azərbaycanın ən güclü gəmisi 1040 tonluq 159A layihəli "Bakılı" bələdçi gəmisi və sonralar aldığı Gabriel adlanan anti-gəmi raketləri və Green Pine adlanan radar sistemidir. Bundan başqa, Dəniz Qüvvələrinin balansında qayıqəleyhinə artilleriya kateri, qayıqəleyhinə "Araz" kateri, keşikçi gəmiləri, 1400M "sərhədçi" layihəli kater, HDQ-nin balansına 3 ədəd 12650 layihəli əsas tral və 2 ədəd 1258 layihəli reyd gəmiləri, amfibiya qüvvələri qrupuna 3 ədəd Polşa istehsalı və 2 ədəd 106 və 106L layihəli gəmi, 1785 layihəli desant kateri daxildir (7, s. 158-161). Bundan başqa, Azərbaycan Dəniz Qüvvələrinin yardımçı donanması 20-dən artıq müxtəlif gəmilərdən daxildir.

Qazaxıstan dənizdə donanma yaratmağa 2000-ci illərdə başlamışdır. Rusiya-Qazax sərhəddi yaxınlığında yeni yataqların kəşfi zamanı rus hərbi gəmilərinin sərhəddə yığışması Qazaxıstanın bu fikrə gəlməsinə səbəb olmuşdur. Ardınca 2002-ci ildə Türkiyə ilə olan danışıqlarda qazax əsgərlərinin Türkiyənin dəniz və hava qüvvələrində təlim keçməsi barədə razılıq əldə olundu (15). 2003-cü ildə isə Qazaxıstan donanması yaradıldı. Bu donanma 3000 personallıq 14 hərbi hərbi gəmidən ibarətdir. Qazaxıstan eyni zamanda Cənubi Koreyadan da gəmilər almaqdadır. Qazaxıstan son dönəmlərdə isə dəniz gücünü daha da artırmağa başlamışdır. 2012-ci ildə Qazaxıstan hökuməti 2013-2015-ci illər üçün müdafiə xərclərinin təxminən 8.6 mlrd dollar artıracağını elan etmışdır. 2012-ci ildə isə Qazaxıstan ilk öz hərbi gəmisini inşa etdi. 2013-cü ildə Qazaxıstan 2 yeni raket gəmisini öz donanmasına daxil etdi (11). Qazaxıstanın hazırda Xəzərdəki ən güclü silahı Barrier-BK raket sistemidir (10).

Türkmənistan prezidenti Berduməhəmmədov 2010-cu ildə Türkmənistan dəniz donanmasının yaradılması və 2015-ci ilədək yüksək inkisaf səviyyəsinə çatdırılması haqqında qərar imzalamışdır. 2011-ci ildə isə Türkmənistan dəniz donanması yaradılmışdır. O, 10 kiçik hərbi gəmidən ibarətdir, ən inkişaf etmiş gəmiləri "Sobol" və "Molniya" adlı patrul gəmiləridir (7, s. 161-164). Türkmənistan əsas hərbi gəmilərini Rusiya və Ukraynadan, patrul gəmilərini isə Türkiyədən alır. Stokolm Beynəlxalq Sülh Araşdırma İnstitutu (SIPRİ) Türkmənistan müdafiə xərclərinin 240 milyon dollar olduğunu elan etmişdir. Həmçinin 2015-ci ildə Türkmənbaşı şəhərinin dəniz akdemiyası mərkəzinə dönüşdürülməsi nəzərdə tutulmuşdur (15). 2012-ci ildə Tükmənistan ilk dəfə Xəzər dənizində qaz və neft yataqlarına qarşı hər hansı bir təhlükəyə cavab verə biləcək gücdə olduğunu göstərmək üçün hərbi təcrübələr keçirmişdir (12).

Nəticə olaraq demək mümkündür ki, Xəzərdə silahlanmanın birinci səbəblərindən biri Rusiyadır. Rusiyanın öz donanma gücünü artırması digər dövlətlərdə müdafiə üçün dəniz donanmalarını gücləndirmək kimi bir fikir yaranmasına və bu sahədə fəaliyyətlərə başlamasına səbəb olmuşdur. Bu zaman belə bir sual ortaya çıxır: bəs rəqib dövlətlərin silahlanması Rusiyanı narahat etmirmi? Demək, mümkündür ki, bu Rusiya üçün qlobal bir təhlükə deyil, hətta bəzi tərəflərdən bir qədər onun mövqeyinə uyğundur. Çünki sahilyanı dövlətlərin hər birinin silahları Rusiya ilə

müqayisədə həm say, həm də səviyyə baxımından aşağıdadırlar. Və dəniz donanma təchizatının və silahlarının Rusiyadan alındığını nəzərə alsaq, maddi cəhətdən onun lehinədir. Silahlanma yarışı Rusiyanın mövqeyinə bir qədər uyğundur dedikdə, Rusiyanın gələcək üçün qurduğu Avrasiyaçılıq siyasətinə Xəzərsahili dövlətlərin hər birinin mütləq daxil olacağını düşündüyünü nəzərə alarsaq, Xəzər donanmalarının güclü olması Rusiyanın gələcək məqsədlərinə zidd olmadığını görərik.

Xəzərin hüquqi statusu məsələsi bütün sahilyanı dövlətlər üçün müsbət sonluqla nəticələndi. 12 avqust 1918-ci il Aktau Konvensiyasına əsasən hər dövlət 15 dəniz mili məsafədə müstəqillik əldə etdi və araşdırmalar üçün hər dövlətə 10 dəniz millik məsafə isə ərazi dənizi olaraq verildi. Nəticədə hər sahilyanı dövlət 25 mil dəniz ərazisi qazanmış oldu. Ortada qalan hissə isə sahilyanı dövlətlər üçün açıq və tərəfsiz bölgə elan olundu. Xəzər dənizinin dibi isə beynəlxlaq hüquq qaydaları nəzərə alınmaqla, yanaşı və qarşı-qarşıya yerləşən dövlətlər arasında razılaşmalar yolu ilə müəyyən edilir (9, maddə 8). Müddətsiz olaraq imzalanan bu Konvensiyada (9, maddə 24) dövlətlərin razılığı ilə dəyişikliklərin və ya əlavələrin edilməsi də nəzərdə tutulmuşdur (9, maddə 18).

## ƏDƏBİYYAT


1. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, "Azərbaycan" nəşriyyatı, Bakı, 2005
2. Aslanlı Azar. "Geosiyasi rəqabət və geoiqtisadi maraqlar zəminində Xəzər hövzəsinin "Qordi Düyünü", Konrad-Adenauer-Stiftung (KAS) Cənubi Qafqaz üzrə Regional Proqram, Bakı, 2014
3. Zhaıssenbayev, Kazbek, "Hazar havzası enerji kaynakları ve bölgesel politikalar 1991-2004", (Yüksek Lisans Tezi, Tez Danışmanı Doç. Dr. Mustafa Aydın), Ankara, 2004
4. Xəzər dənizi məsələləri üzrə Birgə Bəyanat https://www.ardda.gov.az/uploads//images/qanunvericilik/Beynalxalq%20müqavilələr/Xezer-denizi-meseleleri-Birge-Beyanat.pdf
5. Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyanatı https://ardda.gov.az/uploads//images/qanunvericilik/Beynalxalq%20müqavilələr/AR-RF-xezer-beyanati.pdf
6. "Xəzərin hüquqi statusu: Aktau sammitinin tarixi və geosiyasi özəllikləri", Bakı, 16 avqust 2018, Newtimes.az http://newtimes.az/az/economics/5728/
7. Oğan, Sinan, "HAZAR'DA TEHLİKELİ OYUNLAR: Statü Sorunu, Paylaşılamayan Kaynaklar ve Silahlanma Yarışı", Avrasya dosyası, Türkmənistan özəl, s. 143-183, Yaz 2001, Cild 7, №7
8. Özsoy, Bahar, "Hazar denizi meselesi bağlamında türk cumhuriyetleri arasındaki siyasi ve ekonomik ilişkiler", MANAS Sosial Araşdırmalar Dərgisi 2009, cild 8, №1,
9. "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 12 fevral 2019-cu il, № 1488-VQhttp://e-qanun.gov.az/framework/41551
10. "What the new Caspian Sea deal means for military balance in the region", World Econimic Forum, 12 Sep 2018 https://www.weforum.org/agenda/2018/09/what-a-new-caspian-sea-deal-means-for-military-balance-in-the-region/
11. KUCERA, JOSHUA "The Great Caspian Arms Race", JUNE 22, 2012 https://foreignpolicy.com/2012/06/22/the-great-caspian-arms-race/
12. Gokkus, Beraat, Hazar Denizi'nin statüsü 20 yıllık müzakereler sonunda belli oldu, 12/08/2018 https://tr.euronews.com/2018/08/12/hazar-denizi-nin-statusu-20-yillik-muzakereler-sonunda-belli-oldu
13. Aliyev, Nurlan, "Military Benefits of the Caspian Sea Convention for Russia's Power Projection Capabilities", Eurasia Daily Monitor Volume: 15 Issue: 135, September 26, 2018

https://jamestown.org/program/military-benefits-of-the-caspian-sea-convention-for-russias-power-projection-capabilities/
14. Aliyev, Nurlan, "Russia's Military Capabilities in the Caspian", The Central Asia-Caucasus Analyst, February 21, 2019 https://www.cacianalyst.org/publications/analytical-articles/item/13558-russias-military capabilities-in-the-caspian.html
15. Özbay, Fatih, "Hazar'da Güvenlik İkilemi Ve Silahlanma Yarışı" https://docplayer.biz.tr/9950529-Doc-dr-fatih-ozbay-hazar-da-guvenlik-ikilemi-ve-silahlanma-yarisi-istanbul-teknik-universitesi.html
16. Hüseynov Lətif, "Beynəlxalq hüquq", s. 239-259, Qanun Nəşriyyatı, 2-ci nəşr, Bakı, 2012

**SUMMARY**

**Gulchin Aghayeva**

**THE PROBLEM OF LEGAL STATUS OF THE CASPIAN SEA AND THE EMERGENCE OF MARITIME ARMS RACE AMONG COASTAL STATES**

With the collapse of the USSR, the number of independent Caspian states increased from two to five. And it brought the problem of the legal status of the Caspian Sea, as well as armament at sea. Having different interests and policies, each of these countries, has sought to resolve the status quo in accordance with their policies. As a result, a problem arose that awaits its solution for more than 20 years. After a long discussion, with the consent of the coastal states, a new Convention was adopted in Aktau, and the Caspian Sea gained its legal status. The article explores the causes of the problem of the legal status of the Caspian Sea, such as the various interests of the states related to the problem, the solution and consequences of the issue, the armament, which began with the independence of the coastal states, and consideration of its consequences.

***Key words:*** *legal status of the Caspian Sea, Aktau Convention, armament in the Caspian Sea.*

**РЕЗЮМЕ**

**Гюльчин Агаева**

**ПРОБЛЕМА ПРАВОВОГО СТАТУСА КАСПИЙСКОГО МОРЯ И ВОЗНИКНОВЕНИЕ ГОНКИ ВООРУЖЕНИЙ В МОРЕ МЕЖДУ ПРИБРЕЖНЫМИ ГОСУДАРСТВАМИ**

С распадом СССР число независимых Прикаспийских государств выросло с двух до пяти. А это привело с собой проблему правового статуса Каспийского моря, а также вооружение в море. Каждая из этих стран, имеющая разные интересы и направления политики, стремилась решить статус-кво в соответствии со своей политикой. В результате возникла проблема, ожидающая свое решение более, чем 20 лет. После продолжительного обсуждения с согласия прибрежных государств в Актау была принята новая Конвенция, и Каспийское море приобрело свой правовой статус. Предпосылками написания статьи являются причины возникновения проблемы правового статуса Каспийского моря такие, как различные интересы государств в отношении моря, решение и последствия вопросов, гонки вооружений, которая началась с приобретения независимости прибрежных государств, и рассмотрения ее последствий.

***Ключевые слова:*** *правовый статус Каспийского моря, Конвенция Актау, гонка вооружения в Каспии.*

***Məqaləni çapa təqdim etdi:*** *Tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 98-102
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 98-102
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 98-102

**KAMRAN VƏLİZADƏ**
*kvelizadeh@yahoo.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 32:130.3; 32:316.63**

# SOSİAL FƏLSƏFƏDƏ SİYASİ ŞÜUR KATEQORİYASI HAQQINDA

*Antik dövrdə dövlət və dövlət hakimiyyətinin yaranması ilə siyasi şüur da meydana gəlmişdir. Hətta qədim Yunanıstanda siyasət bütün ictimai şüur formalarına nüfuz etmiş, siyasətin fəlsəfəsi yaranmış, etika, fəlsəfə və siyasətin, siyasi şüurun qarşılıqlı münasibətləri məsələsi Sokrat, Platon, Aristotel və ellinizm fəlsəfəsinin bir çox nümayəndələrinin diqqət mərkəzində olmuşdur.*

***Açar sözlər:*** *Siyasi şüur, dövlət, hakimiyyət, siyasilik, funksiya, cəmiyyət*

Bir çox tədqiqatçılar, o cümlədən Azərbaycan tədqiqatçısı İ.Məmmədzadə qədim yunan mütəfəkkirlərinin problemin qoyuluşuna görə müasir siyasi fəlsəfəyə yaxın olduqlarını göstərirlər: "Biz qeyd etməyi lazım bilirik ki, fəlsəfə etika problemindən başlayır, etika isə siyasi həyata təsir etməyə və onu təşkil etməyə cəhd edir. Etika siyasəti ideal olan, olmalı olanı nəzərdən keçirməyə, onun dəyər təhlilini verməyə cəhd edir" (1, 27). Müəllif məhz Platonun və Aristotelin əsərlərini siyasətin, siyasi zəkanın (şüurun) tənqidi-dəyər tədqiqinə həsr olunduğu üçün yüksək qiymətləndirir.

Siyasi şüura müraciət etmədən cəmiyyətin siyasi həyatını fəlsəfi cəhətdən tam təhlil etmək olmaz. "Siyasi şüur - siyasi təsisatların siyasi münasibətlərinin və fəaliyyətinin, cəmiyyətin bütün siyasi həyatının insanların şüurunda əks olunmasıdır (2). Siyasi şüurun əsas əlamətlərindən biri çoxsahəli, daxili ziddiyyətlərə malik olmasıdır. Siyasi şüur siyasi fəaliyyəti şərtləndirərək kütləvi, qrup və fərdi siyasi şüura ayrılır. Problemə fəlsəfi yanaşma siyasi şüurda adi və nəzəri səviyyələrin fərqlənməsini tələb edir. Bundan başqa, siyasi milli şüur da mövcuddur.

Adi siyasi şüur cari siyasi hadisələr haqqında, dövlətin ictimai həyatda rolu, siyasi partiyaların fəaliyyəti haqqında təsəvvürləri, dünyagörüşü stereotiplərin mənimsənilməsini, hakim siyasi mifləri və fərdi sağlam düşüncəni özündə əks etdirir. Müasir Azərbaycan sosial, fərdi siyasi şüuru özündə yeni dəyərləri və dünyagörüşü qaydaları, sosial-siyasi yönümləri ənənəvi elementləri birləşdirir. D.Y.Əmirov yazır: "Adi siyasi şüurun tədqiqini onun ənənə və stereotiplərə əsaslanmasına bağladıqda o, xüsusi aktuallıq kəsb edir" (3). Deməli, adi siyasi şüurun tədqiqinin aktuallığı ənənə və müasirliyin vəhdətilə əlaqədardır. Müasir siyasi təcrübə göstərir ki, adi siyasi şüurda baş verən dəyişikliklərə adekvat sosial-fəlsəfi refleksiya zərurətə çevrilib.

Siyasi şüurda əks olunan sosial gerçəklik-cəmiyyət həyatı daim transformasiyaya məruz qalır. Buna görə də D.İ.Dubrovski sosial şüura bir neçə aspektdən yanaşır: O, şüura, düşüncəyə qnoseoloji (hazır biliklərin mənimsənilməsi və onların əsasında yeni biliklərin əldə edilməsi), ontoloji (mövcudluqla onun haqqındakı biliklərin uyğunluğu), aksioloji (mövcud dəyərlərin-etik, estetik və s. təhlili), praksioloji (fəaliyyətin nə dərəcədə faydalı olması) baxımından yanaşaraq onun tarixən dəyişkən bir hadisə olduğunu, onun bir tərəfdən gerçəkliyə əsaslandığını, digər tərəfdən bu gerçəkliyi yaratdığını aşkara çıxarmış olur (4, 19). Bir sözlə, sosial şüur cəmiyyətin inikası olub, burada baş verən dəyişikliklərin insan beynində əks olunmasıdır. Azərbaycan tədqiqatçısı A.Şirinov haqlı olaraq, dəyişiklikləri şüur amili ilə əlaqələndirir. Sosial gerçəkliyin dərk olunması və həqiqətin aşkara çıxarılması prosesi təbiət obyektlərinin öyrənilməsi prosesindən qat-qat çətindir. Çünki sosial obyektin özü dinamik və dəyişkən olmaqla yanaşı, həm də burada böyük dəyişkənlik sürətinə malik olan psixika və qismən dəyişkən olan şüur amili vardır. Burada şüurun kreativ, obıvatel və marginal səviyyələri ilə rastlaşırıq. Məhz bu səviyyələr ictimai şüurun bütün formalarını öz çərçivəsinə salır və bütövləşmiş dünyagörüşü və ideologiya əmələ gətirir. Kreativ

şüur siyasi və ziyalı elitaya məxsus olduğu üçün, əlbəttə bu, azlıq təşkil edir. Lakin bu azlıq əksəriyyətə təsir göstərə bilmək imkanına və üsullarına malik olmalıdır. Onun kreativ olub-olmamasının göstəricisi də elə bu təsir edə bilməsi ilə ölçülür. Bu təsir heç də elə fikrin söylənilməsi anında deyil, zamanın axını, yaxud cəmiyyətin sonrakı inkişafı prosesində özünü göstərir" (5, 290). Müəllif sosial şüurun strukturunu və burada bütün şüur səviyyələrinin vəhdət təşkil etdiyini diqqətə çatdırır.

Nəzəri siyasi şüurun məzmununda siyasi ideologiya və baxışların elmi sistemi əsas yer tutur ki, bunlar da siyasi maraqları əks etdirir və siyasi konsepsiyalara əsaslanır. Bununla əlaqədar olaraq, mühafizəkar, radikal, liberal, demokratik, islahatçı və digər siyasi şüur növləri mövcuddur.

Siyasi şüur insanların siyasi fəaliyyətinin bilavasitə maraqlarının təzahürüdür. Cəmiyyətin siyasi şüuru yekcinsli deyil, bütün sosial qüvvələr arasında münasibətləri əhatə edir. "Gerçəkliyin siyasi qiymətləndirilməsi bu qiymətləndirmənin daşıyıcılarını (fərdin, sosial qrupun və təbəqənin) müəyyən ictimai quruluşda tutduğu konkret vəziyyətdən asılıdır. Cəmiyyətdə dövlət hakimiyyəti uğrunda daim siyasi maraqların toqquşması baş verir. Dövlət hakimiyyəti quruluşu-siyasi təfəkkürün mərkəzi problemidir... Məhz siyasi maraqlar hər şeydən əvvəl bütün ictimai fəal birliyin, xüsusilə sosial toqquşmaların əsasıdır. Bu mübarizədə bütün hamısı-elm də, din də, fəlsəfə də siyasi şüurun obyekti ola bilər" (6). Deməli, siyasi şüurun obyekti olan elm, din və fəlsəfə ideoloji diskussiya sferasına cəlb olunur. Yalnız cəmiyyətin sosial iqtisadi həyatı deyil, mənəvi həyatı da siyasi maraqlardan müəyyən qədər asılıdır.

Fəlsəfə öz mahiyyətinə görə siyasidir, öz tarixi missiyasını yerinə yetirir, sosial fəlsəfə müəyyən sosial-siyasi funksiyanı həyata keçirir, ictimai-siyasi realllığı qiymətləndirir. Məlum olduğu kimi, fəlsəfi sistemin ayrılmaz tərkib hissəsi olan siyasi fəlsəfəni siyasi təlimlərdən fərqləndirmək lazımdır. "Siyasi şüurun formalaşması müxtəlif səviyyəli prosesləri özündə birləşdirir və ona görə də onun öyrənilməsi elmlərarası tədqiqatların aparılmasını tələb edir. Belə ki, siyasi fəlsəfə üçün siyasi şüur ictimai şüurun bir hissəsidir və ona görə də onu təhlil etməyin əsas metodu ictimai şüuru ictimai varlıqla müqayisə etməkdən ibarətdir " (7, 215).

Müəlliflər göstərirlər ki, siyasi sosiologiya siyasi şüurda ideoloji və kütləvi şüuru ayırır və öz diqqətini mühafizəkar, liberal, reformist, inqilabi və s. şüur tiplərinin məzmununu açıqlamağa yönəldir. Müstəqilliyə qədəm qoyduğumuz bir dövrdə respublikamızda baş verən siyasi dəyişikliklər praktikası kütləvi siyasi şüurun bütün tiplərini siyasi sosiologiya metodları ilə qeydə alıb öyrənməyi tələb edir. Lakin bu zaman unutmaq olmaz ki, siyasi sosiologiyanın vəzifəsi siyasi şüurun tiplərini ayırmaqla başa çatır. Şəxsiyyətin siyasi şüurunun öyrənilməsi isə bu halda diqqətdən kənarda qalır. "Siyasi şüuru öyrənən elmlərdən biri olan siyasi psixologiyanın köməyi ilə siyasi şüurun ictimai məzmununu onun fəaliyyət göstərməsinin fərdi mexanizmləri ilə birləşdirmək mümkün olur. Bu məqsədlə siyasi-psixoloji tədqiqatlarda siyasi şüuru və onun formalaşdırılması mexanizmlərini qeydə almaq üçün psixoloji kateqoriyalardan (niyyətlər, mənafelər, tələbat, orientasiyalar, stereotiplər və s.) geniş istifadə olunur. Lakin onun özü də şəxsiyyətin siyasi şüurunun qanunauyğunluqlarını tam aça bilmir. Belə ki, siyasi psixologiya çərçivəsində ümumsosioloji və sosial-psixoloji qanunauyğunluqların fərdi və kütləvi səviyyədə necə qavranıldığı açılmamış qalır" (7, 216). Müəlliflər qeyd edir ki, müvafiq nəzəri model işlənib hazırlanmadığından, hələ də bizdə siyasi şüurun formalaşması haqqında bəsit təsəvvürlər qalmaqda davam edir. Empirik tədqiqatlar onu öyrənərkən çox vaxt birölçülü nəticələrdən istifadə edirlər ki, bu da etibarlı proqnoz nəticələri verə bilmir. Məsələn, fərdin siyasət haqqında məlumatlılıq dərəcəsinə əsasən onun siyasi şüurunun vəziyyəti göstərilir. Göründüyü kimi, siyasi fəlsəfə siyasi şüurun tədqiqində əsas yer tutan bir sahə, fəlsəfə və siyasətin qarşılıqlı əlaqəsinin tərəflərindən biridir.

H.Şirəliyev və F.F.Abbasov siyasi şüuru belə müəyyənləşdiriblər: "Siyasi şüur sosial gerçəkliyin siyasətlə bağlı hissəsinin subyekt tərəfindən qavranılması, siyasi sistemin onun üçün subyektiv obrazıdır. Unutmaq olmaz ki, siyasət haqqında insanın əsas bilikləri və təsəvvürləri yalnız fərdi şüurun məhsulu deyildir. Şəxsiyyət sosiallaşma prosesində əldə edilən biliklər, orientasiyalar, niyyətlər və s. birlikdə siyasi mentaliteti yaradır (mentalitet, yaxud mentallıq anlayışı insanın eyni mədəniyyətə malik mikromühitə mənsub olmasını nəzərdə tutur). O, kütləvi siyasi şüur səviyyəsində formalaşır, sonra fərd onu özününküləşdirir və bu ona imkan verir ki, özünü bu və ya başqa siyasi

tam ilə eyniləşdirsin" (7, 216). Müəlliflər siyasi şüurun formalaşmasında obyektiv və subyektiv xarakterli amillərin mövcudluğu ilə yanaşı, siyasi şüurun strukturunun mürəkkəb olduğunu da göstərirlər.

Rusiya tədqiqatçıları S.V.Patruşev və L.E.Filippova təsdiq edirlər ki, "Google"də axtarış zamanı "siyasi şüur" anlayışı 94 min dəfə xatırlanır (8, 15).

Siyasi şüur anlayışı, onun strukturu siyasi və fəlsəfi elmlər tərəfindən araşdırılmışdır. Siyasi şüurun strukturunda ideoloji (ideoloji doktrinalar), psixoloji (dəyərlər, əhval-ruhiyyələr), idrakı (siyasət haqqında biliklər, siyasi hadisələrə maraq) və motivasion (tələbatlar, qaydalar) nəzəri və adi refleksiya səviyyələri fərqlənir. Siyasi şüur subyektindən asılı olaraq, elitar (siyasi elita, ideologiya, dil, təbliğat və təşviqat) xalq (sağlam məna, fərdi və kollektiv təcrübənin dərk olunması) siyasi şüuruna ayrılır. Siyasi şüur bir-birilə vəhdətdə olan fərdi və kütləvi siyasi strukturdan ibarətdir. Siyasi şüurun strukturunda siyasi dəyərlər - əsaslı mental şüur, mücərrəd ideallar, ideal davranış, ideallar haqqında təsəvvürlərdə əsas yer tutur. V.Levefr dəyərlərin iki növünü - ali əxlaqi dəyərləri (etiqad, inam, ləyaqət, ədalətlilik) və maddi dəyərləri fərqləndirir (9, 52). Göründüyü kimi, siyasi dəyərlər özündə sosial-qrup təsəvvürləri və konkret siyasi qaydaları əks etdirir.

Qərbi Avropada müasir tip siyasi şüurun formalaşması Yeni dövrdə çoxtərkibli və nisbi uzunmüddətli prosesin gedişində baş vermişdir. M.İlyin qeyd edir ki, siyasi şüurun modernləşməsinə sürətlə reallaşmanı ("gözlənti üfüqlərinin" və tarixi təfəkkürün təzahürü), demokratikləşməni (əhali arasında yeni normativ standartların yayılması), ideologiyalaşmanı (partikulyarizmdən universalizmə anlayışların ümumiləşdirilməsi və təsisatların modelləşdirilməsi); siyasiləşməni (anlayışların əks-təsiri, miflərin diskursların planlaşdırılmış və məqsədyönlü fəaliyyəti kimi siyasi proseslərə təsiri) daxil edir" (10, 23). Müəllif siyasi şüurunsekul-yarlaşmasının, siyasi dünyagörüşünün suverenləşmə-sinin, milli-dövlətin özünüdərkinin konstitusionallaşmasının da baş verdiyini, bu proseslərin dövlətə və vətəndaş cəmiyyətinə münasibətdə ikili standartlardan istifadə edilməsinə müraciət edildiyini də diqqətə çatdırır.

Azərbaycanda XIX əsrdə siyasi şüur kəndlilər və ağalar arasında, eyni zamanda ənənəvi və modernist dünyagörüşü arasında parçalanma şəraitində formalaşdı. Bu dövrdə siyasi şüuru qərbçilər, türkçülər, islamçılar, azərbaycançılar, marksislər təmsil edirdilər. Azərbaycanda ənənəvi mədəniyyət islam dininin təsiri altında idi. Cəmiyyətdə yuxarı təbəqələr arasında mühafizəkar, liberal və inqilabçı tip siyasi şüur mövcud idi. Eyni zamanda siyasi şüurun liberal-demokratik və inqilabi tipinə təbəqələrin kütləvi meyli yaranırdı. Bu dövrdə ziyalı təbəqələrdə avropalaşma istiqamətində inkişaf gedirdi. Lakin Azərbaycan sivilizasiyasında ənənəvi, arxaik təfəkkür və davranış hələ də üstünlük təşkili edirdi. Məhz müasir Azərbaycan siyasi şüurunda səthi modernizm və dərin arxaizm arasındakı ziddiyyətləri əks etdirən dualizmi bununla izah etmək olar. Burada iqtisadi, sosial və siyasi innovasiyalar arxaik meyarlar sisteminə uyğun qiymətləndirilir. "Kütləvi siyasi şüur özündə rasional izahı tələb olunan bir-birinə zidd qaydaları və yönümləri birləşdirir: burada demokratiyaya müsbət yanaşma və qayda yaratmaq çağırışları... dövlətin möhkəmləndirilməsi... ədalətli, düzgün seçkilərin keçirilməsi əsas yer tutur" (11, 57). Müəllif bununla yanaşı, müasir sosiumu bir çox əsaslara; sinfi, əmlak, ideoloji, milli, regional, dini əsaslara görə fərqləndirir. Siyasi şüurda ənənəviliyin (arxaikliyin) və müasirliyin əsasında sosial təcrübənin differensiallaşması durur. Dualist siyasi şüur alternativ inkişafı qiymətləndirmədə çətinlik yaradır.

XIX əsrdə Azərbaycan siyasi şüurunun inkişafı üçün yeni intellektual-mədəni mühit yarandı. "Müxtəlif yönümlü ideyalar-milli ideya, ideologiyalar, mühafizəkar, dini, müasir, siyasi, millətçi cərəyanlar, təşəkkül tapdı və inkişaf etdi (12, 89). Deməli, bu dövrün siyasi şüurunun daşıyıcıları olan ziyalılar təbəqəsi ənənəvi islam ideyalarına sadiq qalanlardan, islahatçı və modernist baxışların tərəfdarlarından ibarət idilər. Bu dövrdə avropapərəst, millətçi, xalqçı, maarifçi, liberal, antiliberal, marksist siyasi şüuru təmsil edən ziyalılar təbəqəsi formalaşırdı.

Müasir Azərbaycan güclü dövlət və liberal iqtisadiyyat quruculuğu yolu ilə inkişaf edir. "Hansı məqamdasa bu obyektiv mərhələ zəif mülki həyat ilə vətəndaş şüuru şəraitində inkişafedərsə, dövlət burada istiqamətverici rol oynamalıdır. Bu rol milli dövlət və milli şüur qurulucuful prosesi

gedişində yerinə yetirilir" (13, 3). Müəllif milli dövlət və siyasi milli şüur quruculuğu prosesinin, islahatların dəyişikliyə, transformasiyaya gətirib çıxaracağını güman edir.

Siyasi şüurun hərəkət mexanizmi siyasət haqqında biliklərdən başlayaraq onların praktiki tətbiqinə, insanların inamlarına, siyasi etiqadlar sisteminə, siyasi dünyagörüşünə, dəyərlərə, siyasi ideallara, yönümlər sisteminə, praktiki fəaliyyətə və yeni biliklərə doğru gedir. Ə.Tağıyev siyasi şüurla siyasi milli şüurun bağlılığından bəhs edərək yazır: "Tarixin keçid mərhələlərində insanların siyasi şüuru əvvəlki dinc dövrlərə nisbətən yüksəlir. Siyasi milli şüur da belədir. Milli müstəqillik hərəkatı, milli etnik proseslərin inkişafı, millətlərin və xalqların həyatında baş verən yeni hadisələr onların siyasi fəallığını artırır. Ona görə də XX əsrin sonu siyasi milli şüurun oyanışı, milli hərəkatların əvvəllərdə olduğundan fərqli dərəcədə genişlənməsi və milli etnik proseslərin milli müstəqilliyə doğru dönüş xarakteri alması ilə səciyyələnir. Dövrümüz hakim millətlərlə məzlum millətlərin, istismarçı millətlərlə istismar olunan millətlərin, yüksək inkişaf etmiş millətlərlə zəif inkişaf etmiş millətlərin sosial-iqtisadi, siyasi-mənəvi və hərbi sahələrdə kəskin qarşıdurması şəraitində onların tədrici inkişafdan inqilabi dəyişikliklərə, milli təbəddülatlara qədəm qoyması şəraitində yaşayır" (14, 90). Müəlliflər siyasi şüur və siyasi milli şüurun müxtəlif dövrlərdə tədrici inkişaf şəraitində dəyişdiyini göstərirlər.

Ə.Tağıyev və M.Şükürov eyni zamanda siyasi şüurun siyasi fəaliyyətlə əlaqədar olduğunu da qeyd edirlər: "Siyasi şüur və siyasi fəaliyyət biri-birilərilə qırılmaz əlaqədə olan anlayışlardır. Siyasi şüur yüksək olan cəmiyyətlərdə siyasi fəaliyyətlə məşğul olan liderlər daha tez başa düşülür, onların işi asanlaşır, xalqın azadlıq mübarizəsindən öz məqsədləri üçün istifadə etməyə çalışan müxtəlif qruplaşmalar elə bir fəaliyyət göstərə bilmirlər. Bu mənada istər cəmiyyətin, istərsə də millətin siyasi şüur səviyyəsinin öyrənilməsi müstəqillik qazanmış Azərbaycan xalqı üçün müstəsna əhəmiyyətə malikdir. Respublikanın müstəqil milli inkişaf yoluna qədəm qoyması xalqın və xüsusən gənclərin siyasi şüur səviyyəsinin artırılmasını zəruri edir. İctimai şüurun tərkib hissəsi olmaqla siyasi şüurun təqdim olunması, milli siyasi şüurun komponentlərinin öyrənilməsi müstəqil həyata qədəm qoymuş yeni milli kadrların siyasi fəaliyyətinə müsbət təsir göstərə bilər" (14, 95). Müəlliflər göstərirlər ki, demokratikləşmə prosesində insanların siyasi şüurunun artması, siyasi proseslərdə sosial və geniş iştirakı siyasi fəaliyyətin dinamikasının yüksəlməsinə səbəb olur.

Bütövlükdə siyasət, mədəniyyət, eləcə də onu təşkil edən hər bir ünsür şəxsiyyətin siyasi fəallığın yüksəldilməsi baxımından tükənməz potensial imkanlara malikdir, əsas məsələ onları tam dolğunluğu ilə reallaşdırmaqdadır. Belə ki, cəmiyyətin siyasi mədəniyyəti özündə siyasi və mədəni keyfiyyətləri sintez edərək insanların siyasi səviyyəsini, onların demokratik cəmiyyətdə yaşamağa və fəaliyyət göstərməyə nə dərəcədə hazır olduğunu əks etdirir (15, 157).

Şəxsiyyətin siyasi fəaliyyəti və fəallığı onun siyasi şüuru ilə sıx vəhdətdə çıxış edir. İnsanların siyasi şüuru mövcud siyasi münasibətlərin və siyasi institutların fəaliyyətinin, bütövlükdə siyasi sistemin inikası olmaqla, onun siyasi davranışı və hərəkətlərinin çox mühüm tənzimləyicisi kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. Əliyeva Z. Azərbaycan və fransız maarifçiliyi: qarşılıqlı əlaqələr. Bakı, Səda, 2010, 224 s.
2. Rzayev M.H. Müasir şəxsiyyət (sosial-siyasi təhlil), Bakı, MMC, 2015, 534 s.
3. Şirəliyev H.İ., Abbasov F.F. Politologiya. Bakı, Bilik, 1993, 244 s.
4. Şirinov A. Sosial zaman və sosial məkan. Bakı, Təknur, 2012
5. Tağıyev Ə. Şükürov M. Etnopsixologiya. Bakı, Elm, 2000, 165 s.
6. Амиров Д.Ю. Социально-философский анализ политиского созтания: Диссертация… кандидата философских наук. Новинномск, 2010, (175 с.) //http://www/liв.иa.ru.net/diss/cont/378624.html.
7. Дубровский Д.И. Проблема «друго го сознания» //Вопросы философии. 2008. №1, С.19.(с.13-26)
8. Ильин М.В. Умножение идеологии или проблема переводимости политического сознания// Полис. Политические исследование. Москва,1999, №4

9. Левефр В.А. Высшие ценности и формальная теория выбора//Рефлексивные процессы и управ- ления. М., 2009, Т.9
10. Леденева В.Ю. Эволюция массового политического сознания в условиях трансформации российкого общества (социологический анализ) Дисс… доктор. соц.наук Москва: РАГЛ, 2004, 467 с.
11. Мамедзаде И.Р. Введение в этику. Баку: Муаллим, 2004, с.27 (160 с.)
12. Мамедзаде И.Р. Опыт интерпретации морали. Баку: Муаллим, 2006, 168 с.
13. Патрущев .С.В., Филиппова Л.Е.Дуализм массового сознание и типология массовой политики//Politikalscience (RU), 2017, №1, с.15
14. Политическое сознание. Философ 2.//http^//filosof 2.ru/duxovnaya-zhizn-obshhestra/160-sozname.html/
15. Социальная философия. Политическая жизнь общества.// http^//socfil.parad.ru/glaza_5_4/htm/

## SUMMARY

**Kamran Valizada**

## ABOUT THE CATEGORY OF POLITICAL CONSCIOUSNESS IN SOCIAL PHILOSOPHY

The article analyzes the category of political consciousness, which plays a large role in social philosophy. The author notes that political consciousness is a direct manifestation of people's political activities and interests.

The articles discusses the notion of political consciousness and its structure from historical point of view and arrives at the conclusion that the mechanism of political consciousness includes knowledge of politics and practical research, people's beliefs, political belief systems, political outlook, values, political ideals, practical activities and new knowledge.

***Key words:*** *Political Consciousness, state, power, politics, function, society*

## РЕЗЮМЕ

**Камран Велизаде**

## О КАТЕГОРИИ ПОЛИТИЧЕСКОГО СОЗНАНИЯ В СОЦИАЛЬНОЙ ФИЛОСОФИИ

В статье анализируется категория политического сознания, играющая важную роль в социальной философии. Автор отметил, что политическое сознание является проявлением прямых интересов политической деятельности людей.

Концепция политического сознания и его структура рассматриваются в историческом плане и делается вывод в том, что действующий механизм политического сознания, начиная со знаний о политике, направлен на ее практическое исследование, убеждения, системы убеждений, политические взгляды, ценности, политические идеалы, практическую деятельность и новые знания.

***Ключевые слова:*** *Политическое сознание, государство, власть, политика, функция, общество*

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 103-106**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 103-106**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 103-106**

**AYSEL ABBASOVA**
*aycel.abbasova@gmail.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 351.07:34; 351.073; 351.077**

# AZƏRBAYCANIN ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ

*Məqalədə müasir dövrün ən mühüm məsəslələrindən biri olan enerji təhlükəsizliyi anlayışından bəhs edilir. Azərbaycanın enerji təhlükəsizliyi siyasəti və bu siyasəti həyata keçirmə yolları araşdırılmışdır. Həmçinin Azərbaycanın enerji siyasəti Avropa dövlətləri baxımından dəyərləndirilmiş və 1994-cü ildən başlayaraq günümüzə qədər həyata keçirilmiş layihələrdən bəhs edilmişdir. Nəticədə son dövrlərdə Azərbaycan enerji təhlükəsizliyinin neft və qazdan asılılığını azaltmaq üçün alternativ enerji mənbələrinə yönəlməsi məsələlərinə toxunulmuşdur.*

***Açar sözlər:*** *enerji, alternativ enerji, TANAP, təhlükəsizlik, siyasət, neft, qaz, milli təhlükəsizlik*

Soyuq müharibədən sonrakı dövrə nəzər salsaq görərik ki, bu dövrdə enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyi ilə əlaqələndirilməyə başlanılmışdır. Buna görə də enerji təhlükəsizliyi beynəlxalq siyasətdə dövlətlərin əsas maraq dairələrindən biri olaraq önə çıxmışdır. Dövlətlərin enerji strategiyalarının və siyasətinin əsas hədəfi "enerji təminatı təhlükəsizliyinin iqtisadi, sosial və ətraf mühit təhlükəsizliyinə zərər vermədən, mümkün olan ən aşağı xərclə" təmin edilməsidir. Enerji təhlükəsizliyinin ən əhəmiyyətli faktorları arasında isə "enerjinin fasiləsiz axışının təmin edilməsi, mənbə müxtəlifliyinin artırılması və enerji mənbələri üçün alternativ tranzit yollarının" yaradılması yer tutur. Bu hədəfin reallaşması istiqamətində tətbiq olunacaq metod ölkə və mənbədən asılı olaraq, müxtəliflik göstərə bilər (1).

Azərbaycan Respublikası Cənubi Qafqazın yeganə ölkəsidir ki, zəngin karbohidrogen ehtiyatlarına, inkişaf etmiş yanacaq-energetika infrastrukturuna və özünü tam təmin edən enerji sisteminə malikdir. Ölkənin təkcə milli və regional səviyyədə deyil, həm də dünya enerji sistemində getdikcə həlledici bir vəsiləyə çevrilməsi, transmilli enerji bazarlarında özünəməxsus yer tutması və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı onun regional və planetar geosiyasi, geoiqtisadi mövqeyinin möhkəmlənməsinə xüsusi təsir göstərməkdədir. (2, s.133)

Geosiyasi ədəbiyyatda hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyinin mühüm tərkib hissələrindən biri kimi dəyərləndirilir. Enerji təhlükəsizliyi dedikdə, bütün ölkənin, onun vətəndaşlarının, cəmiyyətin, iqtisadiyyatın yanacaq və enerji təchizatı vasitəsilə xarici və daxili təhdidlərdən müdafiəsi nəzərdə tutulur. Xarici təhdidlərə geosiyasi, xaricdən qaynaqlanan makroiqtisadi xarakterli problemləri, daxili təhlükəsizliyə isə ölkənin milli enerji sektoru ilə birbaşa bağlı olan məsələləri aid edirlər.

Enerji təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri aşağıdakılardır:
- strateji və mühüm obyektlərin enerji ilə etibarlı təmin olunması;
- sərf edilmiş yanacaq ehtiyatlarının yerinin doldurulması;
- yanacağın və enerji növlərinin diversifikasiyası (şaxələndirilməsi);
- ekoloji tələblərin nəzərə alınması;
- enerji ehtiyatlarından səmərəsiz istifadənin qarşısının alınması;
- daxili və xarici bazarlarda enerji ehtiyatlarının lazımi gəlir gətirməsi və səmərəli ixrac üçün azad iqtisadi şəraitin yaradılması və s. (3)

Enerji təhlükəsizliyi siyasəti enerji istehsal edən və enerji idxal edən ölkələrdə fərqli yollarla

həyata keçirilir. Enerji istehsal edən ölkələr üçün bu əsasən istehsal edilmiş enerjinin dünya bazarlarına təhlükəsiz və alternativ yollarla çıxarılmasıdır. 1973-cü il birinci neft böhranından sonra Amerika və Avropa ölkələri daha sabit və təhlükəsiz enerji mənbələrinə yönəlməyə başladılar. 1991-ci ildə SSRİ-nin süqutu və Azərbaycanın yenidən müstəqilliyini bərpa etməsi Xəzər neftinin diqqət mərkəzinə çıxmasına səbəb oldu.

Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsasları, onun təmin olunması prinsipləri öz əksini "Əsrin müqaviləsi"nin imzalanması ilə başlanan və 1994-cü ildən həyata keçirilən yeni neft strategiyasında tapmışdır. Bu layihə ilə Azərbaycan nefti Gürcüstan və Türkiyə vasitəsi ilə dünya bazarlarına çıxarılmağa başlanılmışdır. Bununla Azərbaycan Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynamağa başlamışdır.

Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizlik məsələsidir. Bu gün ölkələr çalışırlar ki, öz təbii resurslarını müxtəlif yollarla dünya bazarlarına çıxarsınlar. Ancaq təbii qaynaqlarla zəngin olmayan ölkələr isə çalışırlar ki, onlara resurslar müxtəlif yerlərdən gətirilsin. Azərbaycan bu istiqamətdə də önəmli addımlar atmışdır və həm nefti, həm qazı şaxələndirilmiş yollarla dünya bazarlarına çıxarır. (4)

Hazırda Avropada enerji daşıyıcılarına tələbat gündən-günə artır. Avropa ölkələri bu tələbatı ödəmək üçün Azərbaycan ilə bu sahədə əməkdaşlığa can atır. Məhz buna görə də uzun illər Azərbaycan qazının Avropaya nəqli istiqamətində davam edən müzakirələr ən etibarlı yol olan Trans-Anadolu qaz kəməri (TANAP) marşrutunun seçilməsi ilə nəticələnmişdir. 2011-ci il oktyabrın 25-də Türkiyənin İzmir şəhərində "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" saziş imzalanmışdır. 2012-ci il iyunun 26-da isə İstanbul şəhərində "Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair" saziş imzalanmış və 2012-ci il noyabrın 20-də Azərbaycan Respublikası Milli Məclisi tərəfindən hər iki müqavilə ratifikasiya olunmuşdur. TANAP layihəsinin inşasında məqsəd Azərbaycanın "Şahdəniz" yatağının ikinci fazasından hasil olunan təbii qazın Avropa bazarlarına nəqlinin təmin edilməsidir. Sevindirici haldır ki, bu layihə Azərbaycanı Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirəcəkdir. (5)

TANAP anlaşması tarixi bir anlaşmadır. Bu, digər önəmli layihələrə təkan verdi. TANAP layihəsi "Cənub" qaz dəhlizinin tərkib hissəsidir. "Cənub" qaz dəhlizi bu gün dünya miqyasında ən böyük enerji layihələrindən biridir. "Cənub" qaz dəhlizinin sərmayə tutumu 45 milyard dollardır və dörd önəmli layihədən ibarətdir. Birincisi, TANAP-dır ki, bizim qazı Gürcüstan-Türkiyə-Yunanıstan sərhədinə çatdırır. Digəri Cənubi Qafqaz qaz kəməridir ki, Azərbaycan qazını Türkiyə sərhədinə gətirir. Üçüncüsü, Trans-Adriatik kəməridir və nəhayət, dördüncüsü, "Şahdəniz" qaz yatağının ikinci fazasının işlənməsidir.

Bu gün "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Azərbaycan və Türkiyə bu layihənin icrasında liderlik keyfiyyətlərini göstərirlər və bu, enerji təhlükəsizliyi üçün çox önəmli bir layihədir. (4)

Azərbaycanın transmilli və daxili enerji siyasəti, bu sahədə həyata keçirilən tədbirlər, reallaşdırılan vəzifələr və enerji təhlükəsizliyinin təmin olunması ilə bağlı digər məsələlər 2003-2014-cü illərdə qəbul olunmuş bir çox rəsmi dövlət sənədlərində də əks olunmuşdur. Bunların sırasında "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununu, "Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə" Dövlət Proqramını, "2005-2015-ci illərdə ölkənin yanacaq-enerji kompleksinin inkişafı" Dövlət Proqramını, "Şahdəniz -2" təbii qaz layihəsini və s. göstərmək olar. (3)

Müasir dünyanın inkişaf etmiş ölkələrində ənənəvi enerji mənbələrinin getdikcə tükənməsini və onlardan istifadə zamanı ətraf mühitə külli miqdarda ziyan vurulmasını nəzərə alaraq, ekoloji cəhətdən təmiz alternativ (bərpa olunan) enerji mənbələrindən (su, günəş və külək enerjisi, termal sular, biokütlə enerjisi) istifadəni günü-gündən genişləndirirlər. Yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da ekoloji cəhətdən

təmiz, alternativ (bərpa olunan) enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. Bu, istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə yanaşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarının xeyli azaldılması deməkdir. Ölkənin təbii potensialından istifadə etməklə, alternativ enerji mənbələrinin elektrik və istilik enerjisi istehsalına cəlb olunması elektroenergetikanın inkişafında mütərəqqi dəyişikliklər etməyə imkan yaradır. Külək enerjisi digər alternativ enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjisi ilə müqayisədə özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə daha sərfəli hesab olunur (2, s.141).

"Respublikamızın bərpa olunan enerji mənbələri potensialı nəzərə alınmaqla, 2030-cu ilə qədər elektrik enerjisi istehsalının qoyuluş gücündə su elektrik stansiyaları da daxil olmaqla, bərpa olunan enerji mənbələrinin payının əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə 2018-2020-ci illərdə külək enerjisi üzrə 350 MVt, günəş enerjisi üzrə 50 MVt və bioenerji üzrə 20 MVt olmaqla bərpa olunan enerji mənbələri üzrə 420 MVt yeni generasiya gücünün istifadəyə verilməsi hədəf olaraq müəyyənləşdirilib. (6)

Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunması ölkə səviyyəsində davamlı şəkildə aşağıdakı vəzifələrin həyata keçirilməsini nəzərdə tutur:

1. ölkə iqtisadiyyatının və əhalinin uyğun qiymətlərlə enerji ehtiyatları ilə davamlı təmin olunması;
2. ölkənin enerji təminatı sahəsində risklərin azaldılması və baş verə biləcək böhran hallarının qarşısının alınması;
3. enerji ehtiyatlarından faydalı istifadə olunması və itkilərə yol verilməməsi;
4. enerji daşıyıcılarının istehsalı, neft-qaz məhsullarının çıxarılması, emalı və nəqli zamanı itkilərin azaldılması;
5. enerji sektorunun potensialından istifadə zamanı səmərəliliyin artırılması;
6. müasir texnoloji vasitələrdən istifadə etməklə energetikanın ətraf mühitə texnogen təsirinin azaldılması və s. (2, s.137)

Mütəxəssislər Azərbaycan tipli ölkələrin özünün bütün iqtisadi inkişafını, sosial-mədəni problemlə-rinin həllini neft amilinin üzərində qurmasını birmənalı mənfi qiymətləndirir və belə ölkələrin gələcək inkişaf perspektivlərinin ürəkaçan olmayacağını proqnozlaşdırırlar. Odur ki, ölkənin iqtisadi inkişafı və təhlükəsizliyində neft gəlirlərindən asılılığın azaldılması, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına nail olunması və s. kimi işlər indiki halda çox ciddi əhəmiyyət kəsb edir, bugünkü və gələcək nəsillərin firəvan həyatının təmin edilməsində önəmli rol oynayır. Bu mənada Prezident İlham Əliyevin "neft gəlirlərindən istifadə etməklə, qeyri-neft sektorunun inkişafının təmin olunması, ölkənin bütün regionlarının infrastrukturlarının yenidən qurulması, əksər sosial-iqtisadi və əmək ehtiyatlarının işə salınması və səmərəli istifadəsi Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsasını təşkil etməlidir"-fikri bu gün və gələcəkdə ölkənin iqtisadi təhlükəsizliyinin mühüm amili olaraq, onun milli təhlükəsizliyinin əsas vəzifələrindən birinə çevrilməlidir (7).

## ƏDƏBİYYAT


1. Geoiqtisadiyyat, enerji və beynəlxalq təhlükəsizlik- http://newtimes.az/az/views/1104
2. Əli Həsənov. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, 2016
3. Əli Həsənov. Azərbaycanın enerji təminatı və təhlükəsizliyi siyasəti. Geostrategiya jurnalı, 2013
4. Prezident İlham Əliyevin 23-cü Dünya Enerji Konqresində çıxışı https://president.az/articles/21345
5. Azərbaycan Respublikasının müasir enerji siyasətinin uğurları https://azertag.az/xeber/Azerbaycan_Respublikasinin_muasir_enerji_siyasetinin_ugurlari-70164
6. Energetika naziri Pərviz Şahbazov. "Azərbaycanda enerji təhlükəsizliyi tam təmin edilib"- http://aia.az/24834-nazir-azerbaycanda-enerji-tehlukesizliyi-tam-temin-edilib.html
7. Azərbaycan qəzeti 19 yanvar 2010-cu il

**SUMMARY**

**Aysel Abbasova**

**AZERBAIJAN ENERGY SECURITY POLICY**

The article deals with one of the most important issues of our time-the concept of energy security.The article studies the energy security policy of Azerbaijan and the ways of its implementation. Azerbaijan's energy policy is also evaluated from the perspective of European countries and the author studies projects that have been implemented since 1994 to the present day. The author also deals with the use of alternative energy sources to reduce its dependence on oil and gas.

***Key words:*** *energy, alternative energy, TANAP, security, politics, oil, gas, national security.*

**РЕЗЮМЕ**

**Айсель Аббасова**

**ПОЛИТИКА ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА**

В статье говорится ободном из важнейших вопросов нашего времени–о понятии энергетической безопасности. Рассматривается политика энергетической безопасности Азербайджана и пути ее реализации. Энергетическая политика Азербайджана также оценивается с точки зрения отношения к проблеме европейских стран, речь идет о проектах, реализуемых, начиная с 1994 года, и продолжающихся по сей день. В результате рассмотрены вопросы, как за последние годы Азербайджан уделяет особое внимание на энергетической безопасности иальтернативному источнику энергии для снижения своей зависимости от нефти и газа.

***Ключевые слова:*** *энергия, альтернативная энергия, TAHAP, безопасность, политика, нефть, газ, национальная безопасность.*

***Məqaləni çapa təqdim etdi:*** *Tarix üzrə fəlsəfə doktoru, dosent Şamxal Məmmədov*
***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 107-115
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 107-115
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 107-115

**AYTƏKİN QƏHRƏMANOVA**
*aytekin1962@mail.ru*
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 330.567.2/4; 330.59; 330.12**

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KƏND ƏHALİSİNİN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ DÖVLƏT SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ (SOSİAL SİYASƏT)

*Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsinin, onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalır. Dövlətin həyata keçirdiyi sosial siyasətin məzmunu onun ölkənin iqtisadi bazisinə əsaslandığını, dayanıqlı olduğunu, eyni zamanda mükəmməl normativ-hüquqi bazaya, elmi-nəzəri biliklərə söykəndiyini və dünya təcrübəsinə əsaslandığını göstərir.*

***Açar sözlər***: *sosial siyasət, sosial müavinət, ədalətlilik prinsipi, məşğulluq, dövlət proqramları, sosial müdafiə, kənd əhalisi*

Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsində xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi onun sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalmaq Azərbaycan dövlətinin ən mühüm vəzifələrindən biri kimi göstərilmişdir [1, s.8]. Konstitusiyasının 15.1-ci maddəsində Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldil-məsinə xidmət etdiyi göstərilir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradılacağına zəmanət verdi [1, s.8]. Bununla da insan amili ölkəmizdə sosial-iqtisadi inkişafin bütün sferalarında həyata keçirilən islahatların ana xəttini təşkil etdi.

Konstitusiyanın sosial məsələlərlə bağlı digər 38-ci maddəsi Azərbaycan vətəndaşlarının sosial təminat hüquqlarını əks etdirir. Burada qeyd edilir ki, hər kəsin sosial təminat hüququ vardır və hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir, təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir [1, s.15].

Sosial siyasət dövlətin, yerli hakimiyyət orqanlarının, müəssisə və təşkilatların əhalini işsiz-likdən, istehlak qiymətlərinin artımından müdafiə edən kompleks sosial iqtisadi tədbirlər sistemidir [4, s.114-118].

Əhalinin maddi-rifah halının yüksəlməsi, onun sosial təminatının gücləndirilməsi məqsədi ilə hələ müstəqilliyin ilk illərində dövlət sosial sahədə müəyyən sərəncam və fərmanlar imzalamışdır. Bunlara misal olaraq, 1992-ci il 7 sentyabr tarixdə “Aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi haqqında”, 27 dekabr 1992-ci il tarixdə “Uşaqlı ailələrin sosial müdafiəsi haqqında”, 1992-ci il 3 iyun tarixdə “Büdcə təşkilatları və idarələrin işçilərinin əmək haqlarının artırılması haqqında” və digər sərəncam və fərmanları göstərmək olar. Lakin ölkənin istər iqtisadi, istərsə də sosial sahədə apardığı islahatlar ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır.

Respublikamızda ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından, daxili sabitliyin təmin edilməsindən sonra sosial sahədə əhəmiyyətli addımlar atılmışdır. Müstəqilliyin ilk illərində ayrı-ayrı kateqoriyalı şəxslərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar: “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” (3 sentyabr 1993-cü il), “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında” (6 dekabr 1993-cü il), tarixdə “İşləməyən pensiyaçılara kompensasiya verilməsi barədə”

(22 noyabr 1993-cü il), “Fəhlə və qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi haqqında” (29 iyun 1993-cü il), “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” (22 noyabr 1993-cü il) “Veteranlar haqqında” (28 iyun 1994-cü il) və digər qanunlar qəbul edilmiş, şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı fərman və sərəncamlar imzalanmışdır.

1995-ci ilin dekabr ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında yekdilliklə Ali Məclisin Sədri seçilən Vasif Talıbov Heydər Əliyev ideyalarına sadiq olaraq muxtar respublikada quruculuq işlərini həyata keçirməyə başladı. 1996-cı ildən etibarən muxtar respublikada əhalinin aztəminatlı təbəqəsinə dövlət diqqət göstərir və 2000-ci ildə əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsini təmin etmək üçün pensiya və müavinətlərin ödənilməsinə 57 milyard 300 milyon manat vəsait yönəldilmişdir [14, s.45].

Vətəndaşların sosial müdafiəsini gücləndirmək, əhalinin həyat səviyyəsini və pensiya təminatını yaxşılaşdırmaq, insanların layiqli həyat səviyyəsinə nail olması məqsədi ilə 17 iyul 2001-ci il tarixli sərəncamla “Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası”nı, 2003-cü il fevral ayının 20-də ”Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. Həmin ildə muxtar respublikada pensiya və müavinətlərin ödənilməsinə 81 milyard manat [14, s.56], 2004-cü ildə 81 milyard, 900 milyon manat [15, s.67] vəsait ayrılmışdır.

Ölkədə irimiqyaslı neft-qaz layihələrinin gerçəkləşməsi və bu istiqamətdə ölkəmizə maliyyə vəsaitlərinin daxil olması sosial islahatların daha da gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi üçün şərait yaratmışdır. 2003-cü il 4 avqust tarixdə pensiya sistemində islahatların aparılmasına aid “Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında” fərman imzalanmışdır. Bu fərmanla Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli orqanlarının pensiyaların və pensiyalara əlavə olunan müavinətlərin təyin olunması, maliyyələşdirilməsi və ödənişinə nəzarət üzrə funksiyaları onların həyata keçirilməsini təmin edən müvafiq maddi-texniki baza və ştat vahidləri ilə birlikdə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna verildi [2]. Sosial müavinət sisteminin sığorta-pensiya sistemindən ayrılması istiqamətində ən həlledici hadisə iki qanunun - "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası qanunlarının qəbulu olunmuş və 2006-cı il yanvarın 1-dən qüvvəyə minmişdir. Qəbul olunan hər iki qanun ölkəmizdə sosial siyasətin yeni əsaslarla qurulmasını nəzərdə tutmuşdur.

Sosial siyasətin tərkibi kimi aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının göstərilməsinin məqsəd və prinsiplərini, təyin olunmasının hüquqi əsaslarını və bu sahədə yaranan münasibətləri tənzimləyən "Ünvanlı dövlət sosial yardımı haqqında" (21 oktyabr 2005-ci il) qanun qüvvəyə mindikdən sonra onun ünvanlılıq, ədalətlilik, bərabərlik kimi prinsiplərinə əməl olunur. Qanunun 3-cü maddəsi “**Sosial yardım almaq hüququ olan ailələr”** adlanır. Burada qeyd edilir ki, sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün müvafiq icra hakimiyyəti orqanında dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s.) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər [26]. Sosial yardımın əsas məqsədi aztəminatlı ailələrin sosial müdafiəsinin təmin edilməsindən ibarətdir.

Əhalinin aztəminatlı təbəqəsinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan pensiya islahatlarının əsasını isə fərdi uçot sisteminin yaradılması və ünvanlılıq prinsipinə üstünlük verilməsi təşkil edir. Məhz bu istiqamətdə aparılan tədbirlərin nəticəsidir ki, 2005-ci ildə pensiya və müavinətlərin ödənilməsinə 101 milyard 180 milyon 500 min manat vəsait ayrılmışdır [16, s.41]. İqtisadi sahədə əldə olunmuş nailiyyətlər əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması üçün əlverişli şərait yaratmış, 2006-cı ildə pensiya və müavinətlərin ödənilməsinə 23 milyon 545 min manat vəsait (17, s.37), 2007-ci ildə 2 min 473 ailəyə 1 milyon 955 manat məbləğində ünvanlı sosial yardım, 41 milyon 407 min manat pensiya və müavinət [18, s.25], 2008-ci ildə isə bu rəqəmin sayı 55 milyon 459 min manat [19, s.28] olmuşdur.

Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında sosial təminat sahəsində dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri kimi sosial müavinətlərin ünvanlılığı təmin edilməsi, əlillərə, müharibə veteranlarına, gənc ailələrə, əhalinin aztəminatlı ailələrinə xüsusi diqqət göstərilməsi nəzərdə tutulmuşdur. Proqramda əsas etibarilə aztəminatlı ailələrə sosial yardımın göstərilməsi üçün müvafiq tədbirlərin davam etdirilməsi, əlillərin və şəhid ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması, ana və uşaqların sosial müdafiəsinin və mühafizəsinin gücləndirilməsi, uşaq və ailə mərkəzlərinin, o cümlədən xüsusi istirahət mərkəzlərinin və uşaqlar üçün ixtisaslaşmış xidmət müəssisələrinin yaradılması, əhalinin sağlamlığının yaxşılaşdırılması, əhalinin reproduktiv sağlamlığının yaxşılaşdırılması və ailə planlaşdırılması xidmətinin inkişafı [8, s. 27] nəzərdə tutulmuşdur. Bunun nəticəsidir ki, 2009-cu il ərzində adambaşına aylıq gəlirləri yaşayış meyarından az olan ailələrə 3 milyon 447 min manat [20, s.35], 2010-cu ildə isə Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiya və müavinətlərin ödənilməsinə 69 milyon 327 min manatdan çox vəsait ayrılmışdır [21, s.32].

İqtisadi sahədə əldə edilən nailiyyətlərin nəticəsində 2011-ci ildə muxtar respublika büdcəsinin gəlirləri 53 milyon 933 manat olmuşdur. Bundan əlavə, müxtəlif mənbələrdən 29 milyon 731 min manat toplanaraq muxtar respublikanın sosial-iqtisadi inkişafına sərf edilmişdir. Muxtar respublika üzrə pensiya və müavinətlərin ödənilməsinə yönəldilmiş vəsaitin 48,5 faizi, yaxud 41 milyon 295 min manatı məcburi dövlət sosial sığorta haqqı şəklində toplanmışdır [22, s.16]. 2013-cü ildə pensiya və müavinətlərin ödənilməsinə yönəldilmiş vəsaitin 51 faizi, yaxud 52 milyon 915 min manatı məcburi dövlət sosial sığorta haqqı şəklində toplanmışdır [24, s.16].

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin verdiyi məlumata görə muxtar respublikada 2014-cü ildə sosial müavinətlərə və ünvanlı dövlət sosial yardımına 13510926 manat vəsait sərf olunmuşdur ki, bundan 3443011 manatı ünvanlı dövlət sosial yardımıdır. Bu yardım muxtar respublika üzrə 2976 ailənin 11787 ailə üzvünü əhatə edib ki, bu da muxtar respublika əhalisinin 2,68 %-ni təşkil etmişdir. 10067915 manatı isə bütün növ müavinətləri əhatə etmişdir. Görülən tədbirlərin nəticəsində 2015-ci ildə muxtar respublika üzrə aztəminatlı ailələrin sayı 2715, ailə üzvlərin sayı isə 10570 nəfər təşkil edib ki, bu da muxtar respublika əhalisinin 2.38 %-ni əhatə edib. 2015-ci ildə muxtar respublika üzrə sosial müavinətlərə və ünvanlı dövlət sosial yardımına 13876204 manat vəsait sərf olunmuşdur. Bundan 3269119 manatı ünvanlı dövlət sosial yardımını, 10607085 manatı isə bütün növ müavinətləri əhatə etmişdir. 2014-cü illə müqayisədə, 2015-ci ildə ödənilən vəsait 365278 manat artmışdır [7]. Buna səbəb Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamı ilə müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması və bir sıra yeni növ müavinət və təqaüdlərin təsis edilməsidir.

2016-cı ildə sosial müavinətlərə və ünvanlı dövlət sosial yardımına 14489967 manat sərf olunmuşdur ki, bundan 2692465 manatı ünvanlı dövlət sosial yardımını, 11797502 manatı isə bütün növ müavinətləri əhatə edir. 2016-cı ildə muxtar respublika üzrə aztəminatlı ailələrin sayı 2043 olmuşdur ki, onlarda olan ailə üzvlərin sayı isə 7797 nəfər təşkil etmişdir. Bu da muxtar respublika əhalisinin 1,74 %-ni əhatə etmişdir [7].

2017-ci ildə bütün növ ödənişlərə 13 330 324,0 manat sərf olmuşdur ki, bundan 1608 513,0 manatı ünvanlı dövlət sosial yardımını, 11721811 manatı isə müavinət və təqaüdləri əhatə edir. İl ərzində aztəminatlı ailələrin sayı 903, ailə üzvlərin sayı isə 3228 nəfər təşkil edir. Bu da muxtar respublika əhalisinin 0,71 %-ni əhatə edir [7].

2018-ci ildə isə bu sahəyə 14812548 manat sərf olunub ki, bundan 653164.0 manatı ünvanlı dövlət sosial yardımı əhatə edib [7]. Dövlət tərəfindən verilən bu yardımdan kənd əhalisi də bəhrələnmişdir.

Deyilənlərdən aydın olur ki, ildən-ilə ehtiyac meyarının məbləğinin və muxtar respublika əhalisinin artmasına baxmayaraq, ünvanlı dövlət sosial yardımı alan əhalinin sayı muxtar respublika əhalisinin faiz nisbəti ilə müqayisədə ilbəil azalmışdır. Buna səbəb isə yaradılan yeni iş yerləri hesabına aztəminatlı ailələrdə əmək qabiliyyətli ailə üzvlərinin fəal əməyə və özünüməşğulluq tədbirlərinə cəlb olunmasıdır.

Muxtar respublikada əhalinin işlə təmin olunması, yeni iş yerlərinin yaradılması üzrə görülən

tədbirlərin uçotu 2003-cü ilin oktyabr ayından aparılmağa başlanmışdır. 01 oktyabr 2003-cü il tarixdən 2005-ci ilədək olan dövr ərzində muxtar respublika üzrə 8349 nəfər işlə təmin olunmuşdur [16, s.55-56]. Əhalinin işlə təmin olunması, özünəməşğulluq sahəsində muxtar respublika rəhbərliyi tərəfindən Dövlət Proqramları imzalanmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 30 may tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)", 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"ı, 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"ı, təsdiq edilmişdir. Təsdiq edilən proqramlarda muxtar respublikada vətəndaşların məşğulluğunun təmin olunması, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması, onun rəqabət gücünün artırılması öz əksini tapmış, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmışdır.

Əhalinin, xüsusilə kənd əhalisinin məşğulluğunun təmin olunmasında muxtar respublika ərazisində fəaliyyət göstərən məşğulluq mərkəzlərinin və il ərzində keçirilən əmək yarmarkalarının, eyni zamanda yeni yaradılan kənd mərkəzlərinin də rolu böyükdür. Belə ki, hər yaradılan yeni kənd mərkəzləri idarəçiliyin mərkəzləşdirilmiş qaydada təşkilinə və sakinlərin zəruri xidmətlərə çevik təminatına imkan verməsi ilə yanaşı, eyni zamanda yeni iş yerlərin açılması deməkdir. 1996-cı ildən etibarən muxtar respublikada quruculuq işlərini həyata keçirən muxtar respublika rəhbərliyinin uğurlu fəaliyyəti nəticəsində kəndlərdə inzibati binalar, kənd mərkəzləri tikilərək istifadəyə verilmiş, hər istifadəyə verilən kənd mərkəzlərində yeni iş yerləri açılmışdır. Əvvəlki illərdə olduğu kimi muxtar respublikanın kəndlərində tikinti-quruculuq işləri davam etdirilmiş, 2006-cı ildə 9 kənd mərkəzi [17, s.15], 2007-ci ildə 7 [18, s.7], 2008-ci ildə 15 kənd mərkəzi tikilmiş və 2 kənd mərkəzinin tikintisi başa çatmış [19, s.12,13], 2009-cu ilin sonunda 9 kənd, 3 qəsəbə [20, s.11], 2012-ci ildə 14 [23, s.11], 2013-cü ildə 20 kənd mərkəzi tikilmiş və yenidən qurulmuş, ümumilikdə muxtar respublikada kənd mərkəzlərinin sayı 104-ə çatdırılmışdır [24, s.11].

Muxtar respublikada rayonların tarazlı inkişafının təmin edilməsi, kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması, kəndlərdə məşğulluğun təmin edilməsi istiqamətində görülən işlər 2014-cü ildə də davam etdirilmiş, digər tikinti obyektləri ilə yanaşı, 8 kənd və 8 xidmət mərkəzi də tikilib istifadəyə verilmişdir.

Muxtar respublikanın rayon və kəndlərində əhalinin məşğulluğunun artırılması məqsədi ilə 2015-ci ildə kənd xidmət mərkəzlərində 46 kişi bərbər, 37 qadın bərbəri və 5 dərzi olmaqla ümumilikdə, 88 nəfər, 2016-cı ildə 42 kişi bərbər, 31 qadın bərbəri və 6 dərzi, 2016-cı ildə 42 qadın bərbəri və 6 dərzi, 2017-ci il ərzində 72 nəfər işlə təmin olunmuş, 2018-ci ildə kənd xidmət mərkəzlərində gözəllik salonu və dərzi sexlərinin kadr təminatı ilə bağlı peşə kursları təşkil edilmiş və vakant yerlər üzrə 49 kişi bərbər, 73 bərbər-manikürçü və 16 dərzi olmaqla, 138 nəfər işlə təmin olunmuşdur. Ailə əməyinə əsaslanmaqla uzun müddət ünvanlı dövlət sosial yardımı alan 107 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün iribuynuzlu və xırdabuynuzlu mal-qara verilmişdir [7].

Onu da qeyd etmək lazımdır ki, kəndlərdə yaranan emaledici müəssisələr, ailə təsərrüfatları və digərləri kənd əhalisinin özünəməşğulluq sahəsində mühüm rol oynayır.

Görülən işlərin nəticəsində muxtar respublikada 2019-cu ildə 245 nəfərin sosial müdafiəyə ehtiyacı olmuşdur ki, onlardan 79 nəfəri Şərur, 12 nəfəri Babək, 59 nəfəri Ordubad, 14 nəfəri Culfa, 11 nəfəri Şahbuz, 11 nəfəri Kəngərli, 57 nəfəri isə Naxçıvan vətəndaşıdır [7].

Muxtar respublika üzrə 2019-cu ilin iyun ayında müavinət, təqaüd və sosial yardım alanların ümumi sayı 19154 nəfər olmuşdur ki, bunlardan 3905 nəfəri Naxçıvan, 4618 nəfəri Şərur, 3226 nəfəri Babək, 2035 nəfəri Ordubad, 1874 nəfəri Culfa, 1412 nəfəri Kəngərli, 1118 nəfəri Şahbuz, 966 nəfəri isə Babək rayonun vətəndaşlarıdır [7].

Deyilənlərdən aydın olur ki, muxtar respublikanının kənd əhalisinin həyat səviyyəsinin

yüksəldil-məsinə dövlət daim qayğı göstərir və onların rifah halının yüksəldilməsini təmin edir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hər bir ölkədə əhalinin yaşayış tərzi, ləyaqətli həyat səviyyəsi, hər şeydən əvvəl, həmin ölkənin sosial-iqtisadi inkişafından, xüsusilə onun regionlarının təbii sərvətlərindən səmərəli istifadə edilməsinə yönəldiləcək inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsin-dən və ətraflı inkişaf proqramlarının işlənib hazırlanmasından və həyata keçirilməsindən xeyli asılıdır. İqtisadi və sosial sahələrin kompleks şəkildə inkişafı məqsədilə Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı ilə bağlı 2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci illəri əhatə edən Dövlət proqramları qəbul edilmişdir. Müvafiq dövlət proqramlarının muxtar respublikada icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramlarının uğurla həyata keçirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun ardıcıl və yorulmaz fəaliyyəti, məqsədyönlü və qətiyyətli mövqeyi nəticəsində muxtar respublikada iqtisadiyyatın bütün sahələrində hərtərəfli sürətli inkişafa nail olmuş, sahibkarlıq fəaliyyətinin inkişafına, əlverişli investisiya mühitinin formalaşmasına, yeni istehsal sahələrinin yaradılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldil-məsinə və rifah halının yaxşılaşdırılmasına əhəmiyyətli təsir göstərmişdir. Həmçinin muxtar respublikada real sektorun inkişafı, iqtisadiyyatın diversifikasiyası, sürətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmış [9, s.10], görülən işlər nəticəsində mühüm nailiyyətlər əldə edilmişdir. Muxtar respublikada ixracyönümlü və rəqabətə-davamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafı sürətləndirilmiş, kənd əhalisinin məşğulluq səviyyəsinin və gəlirlərinin artırılması istiqamətində, infrastruktur təminatı, o cümlədən sosial və kommunal infrastukturun daha da inkişaf etdirilməsi yolu ilə əhalinin məskunlaşmasında uğurlu nəticələr əldə edilmişdir.

Dövlətin sosial siyasətinin ən mühüm tərkib hissələrindən biri təhsil sahəsidir. Qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərində digər sahələrdə olduğu kimi təhsil sahəsi də dərin böhrana sürüklənmişdi. Ölkədə gedən ictimai-siyasi proseslər təhsil sahəsinə də öz mənfi təsirini göstərmişdir. Təsildə geriləmənin səbəblərindən biri də də 1992-ci ildə qəbul edilmiş "Təhsil Qanunu" olmuşdur. Təhsil quruculuğunda səriştəsizliyin, yalançı pafosun ən bariz nümunəsi olan həmin Qanun təhsilimizə vurulan ağır zərbə idi [3, s.88]. Lakin buna baxmayaraq, 1991-ci ildə Şərur rayonunun Kosacan kəndində 216 yerlik məktəb tikintisi və 240 yerlik Şahbuz Qəsəbə məktəbinin genişlənməsi, 1992-ci ildə Şərur rayon Qaraburc kəndində 190, Axaməd kəndində 216, Babək rayonunun Xıncab kəndində 240, Culfa rayonunun Teyvaz kəndində 198 yerlik məktəb tikilib və ya genişlənib istifadəyə verilmişdir. Ümumiyyətlə, 1991-ci ildən 2001-ci ilə qədər muxtar respublikanın kəndlərində 47 məktəb tikilmiş, 1 məktəb genişləndirilərək istifadəyə verilmişdir. 1997-ci ildən 2001-ci ilə qədər isə əsaslı təmir edilən və yenidən qurulan orta məktəblərin sayı 18 olmuşdur. 2001-ci ilə qədər muxtar respublikada istifadəyə verilmiş ümumtəhsil məktəblərin 16-cı ucqar dağ və sərhəd kəndlərinin payına düşmüşdür. [3, s.98,99,100, 121].

Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra təhsilə, elmə göstərilən diqqət və qayğı elə ilk vaxtlardan özünü göstərdi. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" sərəncam imzalayan dövlət başçısı, 1999-cu ilin iyulunda "Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramını" imzaladı. Həmin Proqramda Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, eyni zamanda milli təhsil ənənələrinə sədaqət və varisliyə əməl olunması nəzərdə tutulurdu. Bununla yanaşı, 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 42-ci maddəsində bütün vətəndaşların pulsuz icbari ümumi orta təhsil almaq hüququ təsbit olunmuşdur [1, s.16]. Ölkə prezidentinin göstərişinə əsasən orta ümumtəhsil məktəblə-rinin şagirdlərinin pulsuz dərsliklərlə təmin edilməsi təhsilə dövlətin qayğısının ən bariz nümunəsidir. Həmzə Cəfərova əsaslanıb deyə bilərik ki, Azərbaycanda təhsil tarixində ilk dəfə ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı 1993-cü ildə təsdiq olunmuşdur [3, s.89].

Ümummilli liderin ideyalarını ardıcılıqla həyata keçirən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 5 sentyabr 2009-cu il tarixli "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Fərman imzalamışdır.

1996-cı ildən başlanan quruculuq siyasətinin davamı kimi 2000-ci ildə cəmiyyətin tərəqqisinin, elmin, mədəniyyətin, mənəviyyatın ən qüdrətli vasitəsi rolunu oynayan təhsilə qayğı artmış Babək rayonunun Sirab kəndində 624, Qoşadizə kəndində 320, Şərur rayonunun Dərvişlər kəndində 216, Şərur rayonunun Gümüşlü kəndində 216, Qortçulu kəndində 216, Şahbuz rayonunun Biçənək kəndində 320, Keçili kəndində 504, Culfa rayonunun Şurut kəndində 60, Ordubad rayonunun Aza kəndində 320 yerlik məktəblərin tikintisi davam etdirilmiş, Sədərək rayonunun Heydərabad qəsəbəsində 1176, Şərur rayonunun Havuş kəndində 60, Şərur rayon mərkəzində 480, Culfa rayonunun Ərəfsə kəndində 372, Babək rayonunun Yuxarı Buzqov kəndində 60, Aşağı Buzqov kəndində 340, Babək rayonunun Kərməçataq kəndində 120 yerlik məktəb tikilib istifadəyə verilmişdir. Bununla yanaşı, Babək rayonunun Kültəpə kəndində Kültəpə kənd orta məktəbinin köhnə binasının təmir edilməsi və orada rayon musiqi məktəbinin yeni şəbəkəsinin yaradılması, Nehrəm-Qızılvəng zonasında ibtidai məktəb binası, Qaraxanbəyli kəndində Kooperativlər Cəmiyyətindən alınmış inzibati binanın məktəb binasına uyğunlaşdırılması və əsaslı təmiri, Uzunoba kənd məktəbində əlavə sinif otaqlarının tikintisi nəzərdə tutulmuşdur [13, s.3, 4, 11, 35].

2002 Şərur rayonunun Kürdçülü kəndində 320 yerlik, Babək rayonun Şəkərabad kəndində 320 yerlik, həmin rayonun Qaraxanbəyli kəndində 420 yerlik, Ordubad rayonunun Nürgüt kəndində 110 şagird yerlik, Şahbuz rayonunun Keçili kəndində 504 şagird yerlik, Culfa rayonunun Yaycı kəndində 504 yerlik yeni orta məktəb binaları tikilərək istifadəyə verilmişdir [10, s.34].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 17 fevral 2003-cü il tarixli "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqramının təsdiq edilməsi haqqında" sərəncamından irəli gələn vəzifələr Naxçıvan Muxtar Respublikasında dönmədən həyata keçirilir. 2003-2004-cü illərdə muxtar respublikada 29 ümumtəhsil məktəb tikilmişdir ki, bunun da 16-sı kəndlərdə idi. Belə ki, 2003-cü ildə Şərur rayonunun Şəhriyar kəndində 432, Babək rayonunun Araz kəndində 62, Aşağı Uzunoba kəndində 324, Şahbuz rayonunun Külüs kəndində 318, Ordubad rayonunun Dırnıs kəndində 458, Çənnəb kəndində 198, Kələki kəndində 176, Culfa rayonunun Boyəhməd kəndində 110, Əlincə kəndində 252, yerlik məktəb binası [14 s.53], 2004-cü ildə isə 11 məktəb tikilmişdir. [15, s.20].

Muxtar respublikada həyata keçirilən elm və təhsil islahatlarının uğurlu nəticəsidir ki, 2005-ci ildə Naxçıvan Muxtar Respublikanın Şərur rayonunun Qarahəsənli kəndində 216, Həmzəli kəndində 192, Gümüşlü kəndində 156, Yuxarı Yaycı kəndində 144, Həmzəli kəndində 192, Babək rayonunun Hacıvar kəndində 252, Vayxır kəndində 324, Çeşməbasar kəndində 252, Ordubad rayonunun Kotam kəndində 110, Aza kəndində 216, Culfa rayonunun Xoşkeşin kəndində 144, Şahbuz rayonunun Ayrınc kəndində 144, Gömür kəndində 144 şagird yerlik məktəblər tikilib istifadəyə verilmişdir. Bununla yanaşı, Heydər Əliyev fondunun dəstəyilə Kəngərli rayonunun Xıncab kəndində144 şagird yerlik məktəb tikilmiş, Şahtaxtı kəndində akademik Zərifə Əliyeva adına 594 şagird yerlik orta məktəb binası yenidən qurularaq istifadəyə verilmiş, Ordubad rayonunun Biləv kəndində 192 şagird yerlik məktəb tikintisi davam etdirilmişdir [12, s.22-23]. Ümumiyyətlə, 2000-2005-ci illərdə tikilən məktəblərin sayı 59, şagird yerlərinin sayı 17770 nəfər olmuşdur [5, s. 41]. Məktəblərin 16-sı rayon mərkəzlərində və kəndlərində tikilmişdir.

Hər bir millətin gələcəyi onun təsilindədir amilini əsas götürərək 2006-cı ildə Ordubad rayonunun Biləv Kəndində 216 şagird yerlik, Şahbuz rayonunun Mahmudoba kəndində isə 144 yerlik məktəb binaları tikilərək istifadəyə verilmişdir. Bundan başqa, 2006-cı ildə Şərur rayonunun Tənənəm kəndində 216 yerlik, Babək rayonunun Qaraqala kəndində 234 yerlik, Ordubad rayonunun Bist kəndində 156 yerlik, Culfa rayonunun Göydərə kəndində 306 yerlik, Kəngərli rayonunun Böyükdüz kəndində 288 şagird yerlik məktəb binaları tikilmişdir. Yeni məktəb binalarının tikintisi ilə yanaşı, mövcud bir çox orta təhsil müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Şərur şəhərində 1350 yerlik 2 nömrəli məktəb, həmin rayonda 342 yerlik Cəlilkənd orta məktəbi,

Ordubad şəhərində 430 yerlik İnternat məktəbi, Culfa rayonunun Saltaq kəndində 318 yerlik, Sədərək rayonunun Heydərabad qəsəbəsində 200 yerlik, Qarağac kəndində 160 şagird yerlik orta məktəb binaları əsaslı təmir və yenidənqurma işləri aparılaraq istifadəyə verilmişdir [10, s. 34].

Təhsilə göstərilən qayğının davamı olaraq rayon və kəndlərdə 2007-ci ildə 6 məktəb yenidən qurularaq, 2008-ci ildə 7 məktəb tikilərək, 4 orta məktəb əsaslı təmir və yenidənqurma işləri aparılaraq, 2009-cu ildə 10 məktəb binası yenidən qurularaq, 2010-cu ildə 6 məktəb binası tikilərək, 3 məktəb binası yenidən qurularaq istifadəyə verilmişdir.

Ümumiyyətlə, 2002-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasında 98 təhsil ocağı tikilib əsaslı təmir olunmuşdur ki, onun da 76-sı rayon və kənd yaşayış məntəqələrində idi. Muxtar respublikada həmin dövrdə 30 təhsil müəssisəsi təmir edilib və yenidən qurulduqdan sonra istifadəyə verilmişdir ki, onlardan da da 17-si muxtar respublikanın rayon və kəndlərində yerləşirdi. [3, s.150-157].

Təhsil sahəsində aparılan islahatların nəticəsidir ki, rayon və kənd məktəblərinin məzunlarının bir neçəsi yüksək bal toplayaraq Prezident təqaüdünə layiq görülmüşlər. Bunlara misal olaraq, Culfa rayon Gülüstan kənd orta məktəbinin məzunu Allahverdiyev Məhəmməd Əli oğlu 2007-ci ildə 680 balla III qrup Azərbaycan Respublikası Prezident Yanında Dövlət İdarəçilik Akademiyasının Benəlxalq münasibətlər fakültəsinə, 2009-cu ildə Salahlı Aygül Habil qızı Şahbuz rayonu Kükü kənd orta məktəbinin məzunu 695 balla I qrup Bakı Dövlət Universitetinin Kompüter elmləri ixtisasına, Məmmədova Elvira Vidadi qızı Şərur rayonu Dəmirçi kənd 2 saylı orta məktəbinin məzunu 671 balla IV qrup Azərbaycan Tibb Universitetinin Müalicə işi üzrə ixtisasına, Səfərova Zümrüd Rasim qızı Babək rayonu Kərimbəyli kənd orta məktəbinin məzunu 660 balla I qrup Naxçıvan Dövlət Universitetinin Riyaziyyat və informatika müəllimliyi ixtisasına daxil olmuşlar. 2010-cu ildə isə iki abituriyent Abdinova Ayşən Maşallah qızı Şərur rayonu, Qarxun kənd orta məktəbinin məzunu, 675 balla III qrup Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının hüquq fakültəsinə, Feyzullayev Bünyad Qurban oğlu Culfa rayonu Dizə kənd orta məktəbinin məzunu 680 balla I qrup Milli Təhlükəsizlik Akademiyasına daxil olub Prezident təqaüdünə layiq görülmüşlər [3, s.164].

Təhsilə göstərilən qayğı sonrakı illərdə də davam etmiş, 2011-ci ildə muxtar respublika kəndlərində 8 orta məktəb binası, 2012-ci ildə 16 məktəb binası, 2013-cü ildə 23 məktəb binası tikilmiş, yenidən qurma və əsalı təmir edilərək, 2014-cü ildə 12 məktəb binaları, 2015-ci ildə 13 məktəb binaları tikilmiş və yenidən qurularaq, 2016-cı ildə 13 məktəb binası tikilmiş və yenidən qurularaq, 2017-ci ildə 7 məktəb binaları, 2018-ci ildə 7 məktəb binaları tikilmiş, yenidən qurularaq istifadəyə verilmişdir (2011-2018-ci illərin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasələri).

Qloballaşan proseslərin gücləndiyi, informasiya texnologiyalarının həyatın bütün sahələrinə nüfuz etdiyi bir dövrdə təhsili texnologiyalarsız təsəvvür etmək mümkün deyil. Prezident İlham Əliyevin 21 avqust 2004-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Ümumtəhsil məktəblərin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" (2005-2007-ci illər) və 10 iyun 2008-ci il tarixli "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" Ali Məclisin Sədri Vasif Talıbovun diqqətdə saxladığı məsələlərdəndir. Demək olar ki, bu gün muxtar respublikanın bütün ümumtəsil məktəblərinin hamısı informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunub. 2018/2019-cu tədris ilində muxtar respublikada 216 ümumtəsil məktəbləri fəaliyyət göstərmiş və onların 193-ü rayon və kəndlərdə fəaliyyət göstərir. Rayon və kənd məktəblərində şagirdlər 3808 kompüterdən istifadə edirlər [11.6]

Müasir tələblərə cavab verən, bütün informasiya-kommunikasiya avadanlıqları ilə təmin olunan muxtar respublikanın ümumtəsil məktəblərinin məzunlarının səsi ölkəmizin ali məktəbləri ilə yanaşı, dünyanın ən qabaqcıl universitetlərindən gəlir. Bu isə maddi kapitalın insan kapitalına çevrilməsi sahəsində dövlətin gənclərə göstərdiyi qayğının bariz nümunəsidir.

Nəticə etibarı ilə demək olar ki, dövlətin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun maddi-rifah halının, həyat səviyyəsinin yüksəldilməsi durur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Konstitusiyası. Bakı, Qanun, 2009, 67 s.

2. Azərbaycan, 2010-cu il, 7 may
3. Cəfərov H. Naxçıvanda təhsil: İnkişaf yolu və imkanları. Bakı, Elm və təhsil, 2011, 336 s.
4. Hacızadə F.M. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006, 590 s.
5. Həbibbəyli İ., Hacıyev İ. İntibahın 15 ili. Naxçıvan, Əcəmi, 2010, 278 s.
6. Xalq qəzeti, 2019-cu il, 30 yanvar
7. Naxçıvan Muxtar Respublikası Əhalinin Əmək və Sosial Müdafiəsi Nazirliyinin məlumatı (illər üzrə)
8. Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Naxçıvan, Qızıl Dağ MMC-nin mətbəəsi, 2009, 61s.
9. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Naxçıvan, Əcəmi, 2014, 63 s.
10. Naxçıvan Muxtar Respublikasının 95 illiyinə həsr olunmuş konfrans materialları. Naxçıvan, NDU, 2019, 326 s.
11. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi, 13 sentyarb, 2019
12. 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan, "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 2006, 262 s.
13. 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafın qısa xülasəsi. Naxçıvan, Əcəmi, 46 s.
14. 2003-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, Əcəmi, 2004, 61 s.
15. 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları haqqında. Naxçıvan, Əcəmi, 2005, 75 s.
16. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, Əcəmi, 2006, 158 s.
17. 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2007, 196 s.
18. 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2008, 110 s.
19. 2008-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2009, 196 s.
20. 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi 2010, 184 s.
21. 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2011, 95 s.
22. 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2012, 87 s.
23. 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2013, 85 s.
24. 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının social-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2014, 95 s.
25. 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının social-iqtisadi inkişafının xülasəsi. Naxçıvan, Əcəmi, 2015, 71 s.
26. Sosial.qov.az > post > wnvanl;-dovlt-sosial yardım

## SUMMARY

**Aytakin Gahramanova**

## NAKHCHIVAN BRANCH OF THE AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES, INSTITUTE OF HISTORY, ETHNOGRAPHY AND ARCHEOLOGY

In the years of independence, raising the standard of living of the rural population of Nakhchivan Autonomous Republic as a part of the state policy (social policy) The article talks about

the reforms carried out after the restoration of independence in Azerbaijan, the complete establishment of the foundations of statehood, as well as the strengthening of the economy, more dynamic improvement of social welfare and improving the living standards of the rural population of the Nakhchivan Autonomous Republic. The formation of a socially oriented national economy based on market relations, the privatization of state property and, in this regard, the formation of an appropriate legislative framework, the strengthening of social security, insurance and social services, the development of education, health and culture systems that can be accessible to all, are aimed at creating a successful social protection model in the country.

As a result of accurate scientific approaches to work and the application of advanced world wide experiences, issues such as the creation of decent working conditions for every able-bodied person, high social protection of the population, successful solution for the employment problems, the formation of an optimal infrastructure act as an exemplary position in terms of social policy strategy implemented by Azerbaijan and its high efficiency.In our country, in conditions of protection of macroeconomic stability, information is given about the reduction of poverty in the country, minimization of unemployment, sustainable increase of financial resources allocated from the state budget to social spheres, development of human resources, social infrastructure and as a result, the result of increasing the standard of living of the population.

***Key words:*** *social policy, social benefits, the principle of justice, employment, state programs, social rotection, rural populat*

**РЕЗЮМЕ**

**Айтекин Кахраманова**

**ПОВЫШЕНИЕ УРОВНЯ ЖИЗНИ СЕЛЬСКОГО НАСЕЛЕНИЯ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ В ГОДЫ НЕЗАВИСИМОСТИ КАК СОСТАВНОЙ ЧАСТИ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ (СОЦИАЛЬНАЯ ПОЛИТИКА)**

В статье говорится о реформах, осуществляемых после восстановления независимости в Азербайджане, полной перестройке основ государственности, а также усилении экономики, более динамичном улучшении социального благосостояния и повышении уровня жизни сельского населения Нахчыванской Автономной Республики. Формирование социально-ориентированной национальной экономики на основе рыночных отношений, приватизация государственной собственности и в связи с этим формирование соответствующей законодательной базы, усиление социальных обеспечений, страхование и социальные услуги, развитие систем образования, здравоохранения и культуры, которые могут быть доступны всем, направлено на создание в стране успешной модели социальной защиты.

Такие вопросы, как создание достойных условий труда, высокая социальная защита населения, успешное решение проблемы занятости, формирование оптимальной инфраструктуры, выступают в качестве образцовых с точки зрения реализуемой сегодня Азербайджаном стратегии социально-ориентированной политики, а также высокой ее эффективности в результате применения научных подходов и передового мирового опыта. В условиях сохранения макроэкономической стабильности в стране дается информация о сокращении бедности, минимизации безработицы, постоянном увеличении финансовых средств, выделяемых из государственного бюджета в социальные сферы, развитии человеческого капитала, социальной инфраструктуры и, как следствие, повышении уровня жизни населения.

***Ключевые слова:*** *социальная политика, социальное обеспечение, принцип справедливости, занятость, государственные программы, социальная защита, сельское население*

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 116-121
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 116-121
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 116-121

**RƏŞAD ƏSGƏROV**
*Azərbaycan Milli Elmlər Akademiyası*

**UOT: 001-057.4**

# AZƏRBAYCAN FƏLSƏFƏ TARİXİ ELMİNDƏ HEYDƏR HÜSEYNOV ŞƏXSİYYƏTİ

*Azərbaycan fəlsəfə tarixi elminin banisi və təşkilatçısı akademik Heydər Hüseynov təxminən 20 illik gərgin elmi-tədqiqat fəaliyyəti müddətində 300-ə yaxın məqalə, kitab və monaqrafiya çap etdirmişdir. Heydər Hüseynov çoxcəhətli elmi-ictimai fəaliyyəti ilə fəlsəfi və ictimai fikir tarixi, ədəbiyyat və sənət, estetika məsələlərini əhatə edərək, mədəniyyətin aktual problemlərinin tədqiqinə nail ola bilmişdir.*

***Açar sözlər:*** *dialektik materializm, tarixi materializm, milli fəlsəfə, Azərbaycan fəlsəfi fikri, milli-azadlıq, mənəvi-dəyərlər*

Heydər Hüseynov həm istedadlı pedaqoq, həm də görkəmli yaradıcı filosof-alim idi. O, tələbələrin dərslik və dərs vəsaitlərinə ciddi ehtiyacını nəzərə alaraq fəlsəfə sahəsində “Dialektik materializm”, “Dialektika və metafizika”, “Marksist dialektik metod”, “Dialektik və tarixi materializm haqqında” ilk dərs-likləri işləyib hazırlamış və birinci növbədə bu sahədə təhsil alan tələbə və gənclərin milli dərsliklərlə təminatına öz töhfəsini vermiş oldu.

Xüsusilə qeyd etməliyik ki, bu kitablarda kifayət qədər dövrün ideoloji və siyasi tələblərindən irəli gələn çatışmazlıqlar var idi. Hazırki dövrdə fəlsəfi fikir tariximizin və təfəkkür tərzimizin inkişafında baş verən sürətli dəyişmələr və yeniliklər bəşəriyyətin fəlsəfi düşüncəsini hədsiz dərəcədə kamilləşdirmişdir. Nəzərə almalıyıq ki, Heydər Hüseynovun birbaşa təşəbbüsü ilə ərsəyə gələn həmin dərsliklər və dərs vəsaitlərinin hazırlandığı dövrdə Azərbaycanda bu sahədə ana dilimizdə heç bir dərslik və dərs vəsaiti yox idi. Məhz H.Hüseynovun gərgin əməyi nəticəsində həmin dərs vəsaitləri rus dilindən tərcümə edilərək Azərbaycan elmi ictimaiyyəti üçün çap edilir və Azərbaycan oxucusu da ilk dəfə olaraq metafizika, dialektika, fəlsəfi metodologiya haqqında milli dildə oxumağa başlayır və onda fəlsəfi təfəkkür formalaşırdı.

Öz elmi-fəlsəfi yaradıcılığında Azərbaycan fəlsəfi fikrinə böyük önəm verən Heydər Hüseynov yaşadığı dövrün mürəkkəbliyinə baxmayaraq, Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrini sistemli şəkildə tədqiq etmiş və “Azərbaycanda XIX əsr fəlsəfi və ictimai-siyasi fikir tarixindən” adlı fundamental tədqiqat əsərini uğurla yazıb, başa çatdırmışdır. Monaqrafiyada qədim dövrlərdən başlayaraq XIX əsrin əvvəllərinə qədər Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixinin geniş icmalı verilmiş, Mirzə Kazımbəy, Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabinin dünyagörüşü təhlil edilmişdir.

Azərbaycanda fəlsəfi və ictimai fikir tarixinin mühüm məsələlərini tədqiq edib, sanballı monaqrafiyalar çap etdirdiyinə görə 1944-cü ildə Heydər Hüseynova fəlsəfə elmləri doktoru alimlik dərəcəsi verilmişdir. Heydər Hüseynovun təşkilatçılıq fəaliyyəti nəticəsində qısa müddət ərzində ikicildlik “Azərbaycan ədəbiyyatı tarixi” hazırlanıb nəşr olunmuşdur. Onun fəlsəfənin müxtəlif məsələlərinə dair əsərləri Azərbaycan dilində ali məktəb üçün ilk dərsliklərdən olmuşdur. 1945-ci ildə Azərbaycan Dövlət Universite-tinin tarix fakültəsi nəzdində fəlsəfə şöbəsi yaradılması da akademikin adı ilə bağlıdır. 1939-45-ci illərdə Heydər Hüseynov SSRİ EA Azərbaycan filialının sədr müavini, 1945-ci ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmiş, 1945-50-ci illərdə Azərbaycan EA-nın vitse-prezidenti və Partiya Tarixi İnstitutunun direktoru, Azərbaycan Dövlət Universitetinin fəlsəfə kafedrasının müdiri vəzifəsində işləmişdir. 1947-ci ildə Heydər Hüseynov Azərbaycan SSR

Ali Sovetinə deputat seçilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci ildə elm sahəsində görkəmli əsərlər üçün Stalin mükafatları verilməsi haqqında qərarına əsasən Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan SSR Elmlər Akademiyasının ictimai elmlər şöbəsinin sədri Heydər Nəcəf oğlu Hüseynova, Azərbaycan SSR EA-nın Dil İnstitutunun direktoru Yusif Abbas oğlu Mirbabayeva, yenə həmin İnstitutun lüğət və istilahlar şöbəsinin müdiri Əliheydər Əliabbas oğlu Orucova 1940-46-cı illərdə nəşr olunan “Rusca-Azərbaycanca lüğət” üçün ikinci dərəcəli Stalin mükafatı verilmişdir (6).

Stalin mükafatına layiq görülmüş Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü Heydər Hüseynova yazdığı məktubda SSRİ Elmlər Akademiyasının prezidenti, akademik Vavilov deyirdi: Stalin mükafatı almanız münasibətilə sizi təbrik edirəm. Bu, sizin elmi işlərinizə yüksək qiymət verildiyini göstərir. Yeni müvəffəqiyyətlər arzu edirəm. Yaratdığınız rus-azərbaycan lüğəti rus xalqının mədəniyyətini daha dərindən öyrənməkdə Azərbaycan alimlərinin görəcəkləri böyük və nəcib işin yalnız kiçicik bir hissəsidir... (6).

Çoxsaylı təbrik teleqramları və məktubları alan akademik Heydər Hüseynova Azərbaycan Dövlət Universitetinin rektoru, professor Abdulla Qarayev yazır: O, öz elmi fəaliyyətində həmişə Azərbaycan Dövlət Universitetinə bağlı olmuş, indi də onun qabaqcıl kafedralarından birinin – fəlsəfə kafedrasının rəhbəridir. Onun Yusif Mirbabayev və Əliheydər Orucov yoldaşlarla birlikdə yazdığı azərbaycanca-rusca lüğət tələbələrimizə həmişə kömək etmiş və böyük rus xalqının zəngin dilini öyrənməkdə istiqamət vermişdir...

Heydər Hüseynovun gərgin və zəhmətkeş əməyi nəticəsində 1949-cu ildə Bakıda rus dilində nəşr edilmiş “XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən” kitabı öz dövrü üçün olduqca sanballı və ilk sistemli tədqiqat əsəri idi. O, bu əsərdə XIX əsr Azərbaycan ictimai-siyasi fikrini geniş tədqiqat obyektinə çevirmiş və fəlsəfə tarixi sahəsində özündən sonrakı tədqiqatlar üçün geniş zəmin hazırlamışdı. Elmi tədqiqat işini öz dostlarına və tanışlarına göndərdikdən sonra Heydər Hüseynovun ünvanına Rusiyanın, Gürcüstanın, Estoniyanın, Qazaxstanın, Özbəkistanın görkəmli alimləri məktublar yazaraq əsərə yüksək qiymət verdiklərini bildirmişlər. Bunlardan akademik İ.Kraçkovskini, akademik E.Bertelsi, akademik K.Bakradzeni, estoniyalı akademik Krusu xüsusi qeyd etmək olar. Azərbaycan alimlərindən isə Məmməd Arif, Mehdi Hüseyn, Mirzə İbrahimov əsər haqqında yüksək fikir söyləmişlər. Kitab Moskvada yazıçılar ittifaqının baş katibi işləyən, məşhur yazıçı Aleksandr Fadeyevin xoşuna gəlmişdi və o “Mükafat komissiyası üzvlərini” qətiyyətlə inandıra bilmişdi ki, əsər bütün parametrlərinə görə Stalin mükafatı laureatı adına layiqdir (3).

SSR İttifaqı Nazirlər Sovetinin 1949-cu ildə ədəbiyyat və incəsənət sahəsində görkəmli əsərlər üçün Stalin mükafatları verilməsi haqqında qərarına əsasən “Ədəbi tənqid və sənətşünaslıq sahəsində” xidmətlərinə görə Hüseynov Heydər Nəcəf oğluna “XIX əsr Azərbaycanda fəlsəfi və ictimai fikir tarixindən” kitabı üçün III dərəcəli Stalin mükafatının verilməsi haqqında qərar qəbul etmişdir (9). Bu mükafat Heydər Hüseynova verilən sayca II Stalin mükafatı idi.

Fikrimizcə, Azərbaycan xalqının fəlsəfə tarixi bu zamana qədər az öyrənilmişdi və Heydər Hüseynovun əsəri xalqımızın fəlsəfə tarixinin yaradılması işinə öz töhfəsini vermiş oldu. Məhz bu əsərin nəşr edilməsindən sonra Azərbaycan fəlsəfə tarixi sahəsində yeni-yeni tədqiqatlar üçün zəmin yarandı və bu ənənə sonralar daha da inkişaf etdirildi.

H.Hüseynov öz tədqiqatında əsasən, XIX əsrdən bəhs etsə də, ondan əvvəlki dövrlərə də böyük yer vermişdir. Müəllif göstərmişdir ki, Azərbaycan xalqı hələ qədim zamanlardan elm və mədəniyyət aləminə görkəmli adamlar vermişdir. Bu adamların-ictimai xadimlərin, şair və filosofların, mütəfəkkirlərin, sənətkarların yaratdığı əsərlər dünya mədəniyyətinin inkişafında müəyyən rol oynamışdır. Heydər Hüseynovun tədqiqatı Azərbaycanda fəlsəfi və ictimai fikir tarixini öyrənmək sahəsində ilk qiymətli əsərdir (11, 14).

H.Hüseynovun əsərinin əhəmiyyəti, hər şeydən əvvəl ondan ibarətdir ki, bu əsərdə əlyazmalar fondunun indiyə kimi məlum olmayan arxiv materiallarından geniş istifadə edilmişdir. Burada biz, hələ heç yerdə çap edilməyən və ilk dəfə olaraq Heydər Hüseynov tərəfindən öyrənilən bir sıra çox mühüm sənədlərlə tanış oluruq. Bu sənədlər, Azərbaycan xalqının tarixinin bir sıra keçmiş

səhifələrinə parlaq işıq salır. Müəllif arxiv fondlarını dərindən öyrənmək və marksist təhlili yolu ilə ilk mənbələrdən geniş istifadə etməklə böyük iş görmüşdür.

H.Hüseynovun "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" adlı bu əsəri görkəmli mütəxəssislər və geniş ictimaiyyət tərəfindən yüksək qiymətləndirilsə də o, rəsmi dairələrdə böyük narazılıq yaratmışdı. Bu narazılığa səbəb isə o idi ki, müəllif əsərdə XIX əsrin birinci yarısının siyasi-iqtisadi səciyyəsini verərkən Rusiyanın Qafqazı zəbt etmək məqsədi ilə apardığı müharibədə öz torpaqlarının müdafiəsinə qalxmış Qafqaz xalqlarının azadlıq hərəkatını müsbət qiymətləndirmişdir.

Yuxarıda sadalanan fikirləri ümumiləşdirərək biz Heydər Hüseynovun fəaliyyətini müxtəlif mərhələlər üzrə ayırsaq, xüsusi ilə qeyd edəbilərik ki, birincisi, Heydər Hüseynov Azərbaycan Elmlər Akademiyasının ilk yaradıcılarından biri və ilk Vitse-Prezidenti idi. Heydər Hüseynov Akademiyanın ilk Vitse-Prezidenti seçilənə qədər Elmlər Akademiyasının ictimai və humanitar elmlər bölməsinə rəhbərlik etmiş və bu sahədə ciddi uğurlara nail olmuşdur.

İkincisi, məhz Heydər Hüseynovun bilavasitə təşəbbüsü və gərgin əməyi nəticəsində Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə İnstitutu yaradılmışdır. Əlbəttə, Fəlsəfə İnstitutu bir vaxtlar "İnstitut", "Fəlsəfə filialı" kimi fəaliyyət göstərsə də, sonralar Akademiyanın "Tarix İnstitutunun nəzdində sektor" kimi fəaliyyətini davam etdirmişdir. Sonralar müxtəlif ad və forma dəyişikliklərinə məruz qalmasına baxmayaraq, bu tədqiqat mərkəzi AMEA-nın Fəlsəfə İnstitutu kimi adını saxlaya bilmiş və ictimai elmlər arasında tədqiqat aparan aparıcı elmi tədqiqat institutuna çevrilmişdir.

Üçüncüsü, Heydər Hüseynovun ardıcıl və inadkar təşəbbüsü ilə milli-mənəvi mədəniyyətimiz və intellektual inkişafımızın tarixində əlamətdar bir hadisə baş verdi. 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin nəzdində "fəlsəfə" şöbəsi yaradıldı. Təəssüflər olsun ki, bu şöbə bəzi ideoloji səbəblər üzündən 1955-ci ildə bağlanıldı. Lakin Heydər Hüseynovun təşəbbüsü ilə yaradılmış "Fəlsəfə" şöbəsi öz fəaliyyəti ilə, ümumiyyətlə, mədəniyyətimizin tərəqqisində, Azərbaycanda fəlsəfənin və fəlsəfi fikrin inkişafında, ziyalılarımızın fəlsəfi təfəkkürünün cilalanmasında, fəlsəfi tədqiqatların daha da geniş vüsət almasında əvəzsiz müsbət rol oynamışdır.

Məhz Heydər Hüseynovun bilavasitə təşəbbüsü və zəhməti hesabına ərsəyə gəlmiş "fəlsəfə" şöbəsi sonralar Azərbaycan elmi ictimaiyyəti və fəlsəfə elmimiz üçün bir çox kadrların hazırlanmasında mühüm rol oynamışdır. Məhz bu kadrların sonrakı fəaliyyəti nəticəsində fəlsəfə elminin müxtəlif istiqamətləri Azərbaycanda intişar tapmış və inkişaf etmişdir. Bu kadrlar arasında akademik Firudin Köçərlini, akademik Aslan Aslanovu, AMEA-nın müxbir üzvləri Ziyəddin Göyüşovu, Məqsəd Səttarovu və digərlərini göstərmək olar. Universitetin fəlsəfə şöbəsi və AMEA-nın Fəlsəfə İnstitutu Azərbaycanda fəlsəfə üzrə elmi kadrların yetişdirilməsinə böyük əhəmiyyət vermişdir. Görkəmli akademik Aleksandr Osipoviç Makovelskinin Bakı Dövlət Universitetində və Akademiyanın Fəlsəfə İnstitutundakı fəaliyyəti dövründə burada gələcəyin istedadlı tədqiqatçı filosof-alimləri formalaşırdı. Beləliklə də, Heydər Hüseynovun Azərbaycanda fəlsəfi fikir tarixi üzrə kadr hazırlamaq planı öz müsbət nəticələrini verməkdə idi.

Heydər Hüseynov elmi-pedaqoji fəaliyyəti dövründə bütövlükdə Azərbaycan elminə, onun tərəq-qisinə, xüsusilə də XX əsrdə Azərbaycanda fəlsəfənin istər bir tədris sahəsi kimi formalaşmasına, istərsə də metodoloji, xüsusi ideoloji istiqamətli elm sahəsi olaraq vətəndaşlıq qazanmasına böyük töhfələr vermişdir. Bəhs etdiyimiz dövrdə birinci olaraq məhz onun sayəsində Azərbaycanda fəlsəfə elmi təsisatlanmış, xüsusi nüfuz və hörmət qazanmışdır.

Dördüncüsü, Heydər Hüseynovun fəaliyyət istiqamətlərindən biri də mədəniyyət və ədəbiyyat sahəsindəki fəaliyyəti idi. Azərbaycan sovet mədəniyyətinin bütün sahələri ilə maraqlanan Heydər Hüseynov bədii ədəbiyyata da xüsusi məhəbbət bəsləyirdi. O, Azərbaycan Sovet Yazıçıları İttifaqının üzvü idi. Onun ədəbiyyat və mədəniyyət haqqında məqalələri müntəzəm surətdə dövrü mətbuatda nəşr olunurdu. 1943-cü ildə çıxan "Azərbaycan ədəbiyyatı tarixi"nin müqəddiməsində H.Hüseynov Azərbaycan ədəbiyyatının ən gözəl xüsusiyyətlərini saymaqla, özünün də bu ədəbiyyata məftun olmasının səbəblərini göstərərək yazırdı: "Ədəbiyyat öz səhifələrində xalqımızın bütün tarix boyu yaratdığı yüksək bəşəri ideyaları, fəlsəfi fikirləri, elmi prinsipləri hifz etmiş, qərinələrdən-qərinələrə,

nəsillərdən-nəsillərə ən böyük bir hədiyyə olaraq təqdim etmişdir... Buna görə də ədəbiyyatımız xalqımızın fəxridir" (1, 7-20).

Ədəbiyyatla fəlsəfənin vəhdəti tarixən mövcud olmuşdur. Məhz antik dövrün filosofları da öz fəlsəfi mühakimələrini ədəbi əsərlərin müəyyən hissəsində verməyə üstünlük vermişlər. Buna misal olaraq, Platonun əsərlərində, Lukretsinin poemasında və s. verilən fəlsəfi fikirləri göstərə bilərik. Heydər Hüseynov da Azərbaycanda ilk dəfə olaraq fəlsəfənin ədəbiyyatla bağlı inkişafını, Azərbaycan xalqının fəlsəfi fikrinin əsrlər boyu yalnız fəlsəfi traktatlarda deyil, həmçinin bədii ədəbiyyatla sıx şəkildə inkişaf etdiyini əməli olaraq göstərmişdir. Heydər Hüseynovun ədəbi-tənqidi məqalələri ədəbiyyatı dərindən sevən bir insanın qələmindən çıxmış əsərlər idi. Bir alim kimi H.Hüseynov nəzəriyyəni təcrübədən ayırmır, əksinə ədəbiyyatın nəzəri məsələlərini onun ictimai tərbiyəvi rolu mövqeyindən işıqlandırmağa çalışırdı.

Heydər Hüseynova məxsus müsbət xüsusiyyətlərdən biri də onun öz işində ardıcıl, inadkar və eyni zamanda, yaxşı bir təşkilatçı olması idi. O, nəinki özü təşəbbüskar idi, hətta başqalarının da irəli sürdüyü dəyərli təşəbbüsləri dərhal qiymətləndirir və irəli sürülən əhəmiyyətli ictimai-mədəni tədbirlərin mütləq yerinə yetirilməsi üçün lazımi şərait yaradırdı.

"Çap olunan şey qalacaqdır" deyə təkrar edən Heydər Hüseynov nəşriyyat işinə xüsusi əhəmiyyət verirdi. İstər Elmlər Akademiyasında, istər Azərbaycan Dövlət Universitetində (Bakı Dövlət Universiteti), istərsə də sonralar partiya tarixi İnstitutunda o kabinetinə girən hər bir şəxsi ən əvvəl masasının üstündəki təzəcə çapdan çıxmış kitablarla sevindirməyə çalışırdı. Bu akademikin elmə, biliyə olan sonsuz məhəbbətinin göstəricisi idi.

Heydər Hüseynova verilən "Stalin mükafatının" geri alınması ilə bağlı respublika rəhbərliyi səviy-yəsində keçirilən müşavirədən sonra akademikə qarşı təzyiq və təqiblər daha da sürətlənmişdi. Bu mono-qrafiyaya qarşı mətbuatda davamlı olaraq çıxış edən ziyalılar arasında Süleyman Rüstəm, Ənvər Məmmədxanlı, Sabit Rəhman, Məmməd Rahim, Ə.Əbülhəsən, Rəsul Rza, Cəfər Xəndan kimi görkəmli Azərbaycan yazıçıları da var idi. Əlbəttə, onlar öz məqalələrində Heydər Hüseynovun əsərini tənqid etməklə Azərbaycanın o zaman şəriksiz lideri olan Mircəfər Bağırovun gözündə daha da ucalmağı yox, bəlkə də gələcəkdə onlara qarşı irəli sürülə bilən təqib və tənqidlərdən özlərini sığortalayırdılar (11, 16).

Məşhur müşavirədən sonra Heydər Hüseynovdan asılı olan, onunla dostluq edən bir çox adam Mircəfər Bağırovun qorxusundan akademiklə əlaqəni kəsməyə, mümkün qədər kənar gəzməyə başladılar. Axı akademiki burjua millətçiliyində, pantürkizmdə, panislamizmdə günahlandırmışdılar (11, 54).

Mir Cəfər Bağırovun ardıcıl səyləri nəticəsində böyük alimə verilmiş Stalin mükafatı ləğv olunur, onun "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri marksist-kommunist ideologiyasına qarşı olan ziyanlı bir əsər kimi qiymətləndirilməyə başlayır. Şimali Qafqaz Xalqlarının mübariz lideri Şeyx Şamil hərəkatını mütərəqqi hərəkat kimi göstərdiyinə görə akademik kəskin tənqidlərə və "ifşalara" məruz qalır, onun əsərində bir çox məddahlar tərəfindən səhvlər, nöqsanlar axtarılır. Heydər Hüseynovun bütün əsas vəzifələri, yüksək elmi adları əlindən alınır, respublikada çağırılan "ideoloji müşavirələr"də tənqid və qınaq obyektinə çevrilir, onunla ciddi elmi əməkdaşlıq edən, dostluq saxlayan görkəmli ziyalılar, elm və mədəniyyət xadimləri təqib olunmağa başlayırlar. Əsərə geniş rəy yazmış A.O.Makovelski və M.A.Dadaşzadə xüsusi olaraq siyasi qınaq obyektinə çevrilirlər, 1950-ci ilin yanvar ayının axırlarında Heydər Hüseynovun yaxın dostu, həmkarı Yusif Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasının prezidenti vəzifəsindən azad olunur. Heydər Hüseynovun gənclik dostu Azərbaycan Dövlət Universitetinin rektoru Abdulla Qarayev vəzifəsindən kənarlaşdırılır. Akademikin ətrafında cərəyan edən bu dözülməz ab-hava, kəsilmək bilməyən tənqidlər, siyasi təqiblər böyük alimi çox ağır psixoloji sarsıntıya salır. Davamlı olaraq Heydər Hüseynov ətrafında mənfi hadisələr davam etməkdə idi. Üstəlik də 1950-ci ilin 13 avqustunda Heydər Hüseynovun böyük qardaşı Yaqub Hüseynov həbs olunur. Çıxılmaz psixoloji gərginliyə düşən Heydər Hüseynov 1950-ci ilin 15 avqustunda həyatla vidalaşır.

Heydər Hüseynov görkəmli ictimai-siyasi xadim, filosof alim kimi onu sevənlərin qəlbində

daim yaşayacaq. Mir Cəfər Bağırovun hakimiyyətdən getməsindən sonra respublikada yeni siyasi hakimiyyətin formalaşması, sonralar isə SSRİ-nin dağılması Heydər Hüseynova, onun elmi-fəlsəfi irsinə münasibətin müsbət istiqamətdə dəyişməsinə gətirib çıxardı.

Azərbaycan Respublikası müstəqilliyini yenidən əldə etdikdən sonra tarixi keçmişimizə, fəlsəfi və ictimai-siyasi fikir tariximizə, milli-mənəvi və dini dəyərlərimizə yanaşmada yeni baxışlar formalaşdı. Bütün bunların nəticəsində də Heydər Hüseynov bəraət aldı, əsərləri yenidən çap olunmağa başladı, onun “Azərbay-canda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən” adlı çox dəyərli və sanballı əsəri ilk dəfə olaraq doğma Azərbaycan dilinə tərcümə olundu, onun haqqında elmi əsərlər, monoqrafiyalar işıq üzü gördü. Böyük alimin 100 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi sərəncamı ilə 2009-cu ildə təntənə ilə qeyd olundu. Hal-hazırda Heydər Hüseynovun fəlsəfi irsinə dair doktorluq dissertasiyaları yazılmaqdadır. Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsində akademik Heydər Hüseynovun adını daşıyan auditoriya vardır. Böyük alimin anadan olmasının 110 illik yubileyi ilə əlaqədar respublikada elmi tədbirlər keçirilmiş, bir sıra yeni nəşrlər çapa hazırlanmışdır. Azərbaycan fəlsəfi və ictimai fikir tariximizə baş ucalığı gətirmiş Heydər Hüseynov qəlbimizdə daim yaşayacaq və onun elmi irsi yeni tədqiqatlar üçün zəmin olacaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyatı tarixi, Birinci cild, Bakı, EA AzF Nəşriyyatı, 1943, 290 s.
2. Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və incəsənət Arxivi. Fond N:514, siyahı N:1
3. Ədəbiyyat qəzeti 18 iyul 1950-ci il N:20 (597)
4. Heydər Hüseynov. Biblioqrafiya. Bakı, 1965, 48 s.
5. Heydər Hüseynov. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı, Zəkioğlu, 2006, 544 s.
6. “Kommunist” qəzeti 1 iyun 1948 N:108 (7805)
7. “Kommunist” qəzeti 14 may 1950-ci il N: 96 (8308)
8. “Kommunist” qəzeti 21 iyul 1950-ci il N: 145 (8357)
9. “Kommunist” qəzeti 8 mart 1950-ci il N:48 (8260)
10. Mirzəyeva Şükufə. Heydər Hüseynov. Bakı, 1957, 37 s.
11. Sabir Əsədov. Heydər Hüseynov. Bakı, Azərbaycan nəşriyyatı 1998, 96 s.


## SUMMARY

**Rashad Asgerov**

### IN THE HISTORY OF PHILOSOPHY OF AZERBAIJAN HEYDAR HUSEYNOV'S PERSONALITY


The activities of academician Heydar Huseynov are very great in organizing the history of the philosophy of Azerbaijan and expanding its teaching as a discipline. As a result of his direct activities, the Institute of Philosophy was created in our country, and a faculty of philosophy was organized at Baku State University. The first textbooks and teaching aids taught at Baku State University for students were written and put into effect as a result of the hard work of Heydar Huseynov. During his scientific and pedagogical activities, Heydar Huseynov made a great contribution as a whole to the science of Azerbaijan, especially to the establishment of the philosophy of Azerbaijan in the twentieth century, both a methodological and a special ideological scientific direction. For the first time in that period, philosophy was scientifically substantiated in Azerbaijan, thanks to Heydar Huseynov, with whom she gained special authority and respect.

The study of Heydar Huseynov is not limited to the study of classical representatives of world philosophical thought, he also conducted important research on the study of philosophical thinking in Azerbaijan. His studies of 19th-century educators are still the basis for new research in philosophy.


***Key words:*** *dialectical materialism, historical materialism, national philosophy, philosophical views of Azerbaijan, national-liberty, moral-values*

## РЕЗЮМЕ

**Рашад Асгаров**

## В ИСТОРИИ ФИЛОСОФИИ АЗЕРБАЙДЖАНА ЛИЧНОСТЬ ГЕЙДАРА ГУСЕЙНОВА

Деятельность академика Гейдара Гусейнова очень велика в организации истории философии Азербайджана и расширении ее преподавания как дисциплина. В результате его непосредственной деятельности в нашей стране был создан Институт философии, а в Бакинском Государственном Университете организован факультет философии. Первые учебники и учебные пособия, преподававшиеся в Бакинском Государственном Университете для студентов, были написаны и введены в действиев результате тяжелой деятельности Гейдара Гусейнова. За время своей научно-педагогической деятельности Гейдар Гусейнов внес большой вкладв целом в науку Азербайджана, особенно в становление философии Азербайджане XX веке, как методологической, так особой идеологической научной направление. В первые в тот период в Азербайджане была научно обоснована философия, благодаря Гейдара Гусейнова, которой она приобрела особый авторитет и уважение.

Исследовании Гейдара Гусейнова не ограничивается изучением классических представителей мировой философской мысли, он также провел важные исследования по изучению философского мышления в Азербайджане. Его исследования педагогов XIX века до сих пор являются основой для новых исследований в области философии.



***Ключевые слова:*** *диалектический материализм, исторический материализм, национальная философия, философия Азербайджана, национально-свобода, нравственные ценности*

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 122-129
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 122-129
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 122-129

**ELNURƏ ƏZİZOVA**
*elnuraazizova@ait.edu.az*
*Azərbaycan İlahiyyat İnstitutu*

**UOT 94; 930.85**

# ƏRƏBDİLLİ MƏQTƏL YAZIÇILIĞINDA ORİJİNALLIQ MƏSƏLƏSİ: "MƏQTƏLÜL-HÜSEYN" VƏ "NURUL-EYN Fİ MƏŞHƏDİL-HÜSEYN" ƏSƏRLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİNƏ DAİR BƏZİ QEYDLƏR

*Bu məqalədə müqayisəli analiz metodundan istifadə olunaraq ərəbdilli "məqtəl" ədəbiyyatının ən məşhur nümunəsi, Orta əsrlər ərəb tarixçisi Əbu Mixnəfə (v. 157/773) nisbət edilən "Məqtəlül-Hüseyn"lə Əbu İshaq əl-İsfərayiniyə (v. 418/1027) aid edilən "Nurul-eyn fi məşhədil-Hüseyn" əsəri tədqiq olunmuşdur. Məqalədə göstərilmişdir ki, müəyyən dəyişikliklər edilməsinə və Əbu Mixnəfin adının qeyd olunmamasına baxmayaraq, digər "məqtəl"lərlə müqayisədə "Nurul-eyn fi məşhədil-Hüseyn"ə ən yaxın ərəbdilli "məqtəl" məhz "Məqtəlül-Hüseyn" əsəridir. Məqalədə eyni zamanda təsbit edilmişdir ki, "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərini "Məqtəlül-Hüseyn"dən fərqləndirən əsas xüsusiyyət, məzhəb nöqteyi nəzərindən əsərdə edilən bəzi dəyişikliklərdir. Həmçinin məqalədə göstərilmişdir ki, məzhəb fərqliliklərinə və bunun "məqtəl" əsərlərindəki təzahürlərinə baxmayaraq, Kərbəlada şəhid olmuş həzrət Hüseyn müsəlman toplumları birləşdirici bir dəyər, "məqtəl" yazma ənənəsi isə bu dəyərin nəzəriyyədən təcrübəyə ötürüldüyü təzahür forması olmuşdur.*

***Açar sözlər:*** *məqtəl, Əbu Mixnəf Lut ibn Yəhya, Əbu İshaq əl-İsfərayini, Məqtəlül-Hüseyn, Nurul-eyn fi məşhədil-Hüseyn*

Sosial elmlərin müasir tədqiqat metodlarından istifadə etməklə "məqtəl" əsərləri üzərinə ilk elmi araşdırma 1882-ci ildə alman şərqşünas H.F.Vüstenfeld həyata keçirilmişdir. Vüstenfeld ərəbdilli "məqtəl"lərin ən geniş yayılmış nümunəsi olan Əbu Mixnəfə aid edilən "Məqtəlül-Hüseyn" əsərinin əlyazma nüsxələri üzərində apardığı bu tədqiqatla, müsəlman Şərqinin siyasi tarixində mühüm bir hadisə olan Kərbəla ilə əlaqəli yazılmış "Məqtəlül-Hüseyn" əsərinin bir müəllifə aid edilən nüsxələri arasında tarixi dövr içərisində yaranmış dəyişikliyə diqqət çəkmişdir (25, s. v-vii). "Məqtəl" əsərlərinin tarixi inkişaf prosesi ilə əlaqəli bir digər önəmli tədqiqat, alman şərqşünas Sebastien Güntherin Əbül-Fərəc əl-İsfəhaninin "Məqatilüt-Talibiyyin" əsəri əsasında yazdığı məqaləsidir. S.Günther öz tədqiqatında ilk nümunələri siyasi tarix əsərləri kimi yazılan "məqtəl" növünün, tədricən siyasi və sosial səbəblərlə tarixi-ədəbi növün xüsusiyyətlərini mənimsədiyini irəli sürmüş və bu prosesin mərhələləri üzərində durmuşdur (9, s. 192-212). Güntherin daha çox tarixi-ədəbi növə aid etdiyi ikinci dövr "məqtəl" əsərlərinin bəzi nümunələri üzərinə yazdığı doktorluq dissertasiyasında Khalid Sindavi, bu əsərlərin daha çox agioqrafiya xüsusiyyətləri daşıdığını irəli sürmüşdür (21, s. 79-104). "Məqtəl" sahəsinin iki əsəri kimi "Nurul-eyn fi məşhədil-Hüseyn" və "Qürrətül-eyn fi saril-Hüseyn"ə dair məqaləsində G.Kanazi, sözügedən əsərləri tarixi Kərbəla hadisəsinin folklordakı təzahürü olaraq dəyərləndirmişdir (14, s. 23-36). Bununla birlikdə qeyd etmək lazımdır ki, ümumilikdə müsəlman Şərqinin, xüsusilə türkdilli xalqların düşüncəsinin təşəkkülündə mühüm rol oynamış ərəbdilli "məqtəl" əsərlərinin yazılma prosesi həm beynəlxalq elmi ictimaiyyətdə, həm də ölkəmizdə bəzi istisnalarla (6, s. 35-47; 7, s. 232-238) kifayət qədər araşdırılmamışdır. Əbu Mixnəfə və Əbu İshaq əl-İsfərayiniyə aid edilən "məqtəl" əsərləri arasındakı müqayisəli təhlil, bu sahədəki mövcud problemlərə toxunma və onların həllinə töhfə verəcək müəyyən məqamlara aydınlıq gətirmə baxımından əhəmiyyət kəsb edir.

**1. Əbu Mixnəfə aid edilən "Məqtəlül-Hüseyn"**

İraq bölgəsinin məşhur tarixçisi olan Əbu Mixnəfin Raşidi xəlifələr və Əməvilər dövrünün siyasi hadisələri, irtidad döyüşləri, fəthlər, vətəndaş müharibələri başda olmaqla İslam tarixinin erkən dövrünə dair otuzdan çox kitab və risalə yazdığı qeyd olunur (11, s. 105-106). Lakin, Əbu Mixnəfin tarix sahəsindəki şöhrətini məhz "məqtəl" sahəsinə borclu olduğunu demək mübaliğə sayılmaz. Ərəbdilli "məqtəl" müəllifləri arasında Əbu Mixnəfin özünəməxsus yeri ilk növbədə xəlifələr başda olmaq üzrə, siyasi motivlərlə qətl edilmiş şəxslərə dair çoxsaylı "məqtəl" əsərinin müəllifi olması ilə əlaqəlidir. "əş-Şura vəl-məqtəl Osman" "Məqtəli Əli", "Məqtəl Hücr ibn Ədi", "Məqtəlül-Hüseyn", "Məqtəl Abdullah ibn Zübeyr", "Məqtəl Səid ibnül-As", "Məqtəl Məhəmməd ibn Əbu Bəkr vəl-Əştər və Məhəmməd ibn Hüzeyfə" Əbu Mixnəfin mənbələrdə adı keçən "məqtəl" əsərlərindən bir neçəsidir (11, s. 105-106; 23, s. 155-156; 18, s. 245; 20, c. 1, s. 308-309; 24, s. 99-100). Əbu Mixnəfi "məqtəl" sahəsində məşhurlaşdıran ən önəmli səbəb isə, ümumilikdə "məqtəl" ədəbiyyatının ən geniş yayılmış növünə çevrilən həzrət Hüseynin şəhadətinə həsr olunmuş "Məqtəlül-Hüseyn"lə birbaşa əlaqəlidir. Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" əsəri klassik ərəb mənbələrində Kərbəla hadisəsiylə əlaqəli ən mötəbər və təfsilatlı istinad mənbəyi hesab olunur. Bu əsərdəki rəvayətlərin böyük hissəsi ilk növbədə ət-Təbəri (v. 310/922) "Tarixül-ümən vəl-müluk", Xəlifə ibn Xəyyatın (v. 240/850) "Tarix", Bəlazürinin (v. 279/892) "Ənsabül-əşraf", Əbu Hənifə əd-Dinəvərinin (v. 282/895) "əl-Əxbarüt-tival", Məsudinin (v. 346/957) "Mürucuz-zəhəb"i kimi klassik ərəb-islam tarixçilərinin əsərlərində qorunub saxlanmışdır. Xüsusilə, Təbərinin tarix əsərində, Yezid ibn Müaviyənin hakimiyyətə gəlməsindən Kərbəla hadisəsinə qədərki hicri 60-61-ci illərin hadisələrinin təsvirində Əmmar əd-Düxninin, Əvanə ibn Həkəmin, İbn Şəbbənin, Vaqidinin müxtəlif rəvayətlərindən istifadə olunsa da, hadisələrin geniş təsviri Əbu Mixnəfin rəvayətlərinə istinadla nəql edilir (22, c. 5, s. 322-462).

"Məqtəlül-Hüseyn"in orijinal versiyası müstəqil şəkildə müasir dövrə çatmasa da zamanla İslam dünyasında Əbu Mixnəfə nisbət edilən və klassik tarix mənbələrindən təfsilatlarına görə fərqlənən "Məqtəlül-Hüseyn" adlı çoxsaylı əlyazma nüsxələri təşəkkül etmişdir. Tarixi və tarixi-ədəbi növdə yazılmış ərəbdilli, farsdilli və türkdilli "məqtəl"lərdə əksər hallarda Əbu Mixnəfə istinad edilərək, həmin "Məqtəlül-Hüseyn" nüsxələrindən istifadə olunmuş, bu şəkildə Əbu Mixnəf həm də müsəlman Şərqində məqtəl əsərlərinin mötəbərliyi artırmaq adına ən çox müraciət olunan raviyə çevrilmişdir. Qeyd etmək lazımdır ki, Əbu Mixnəfə nisbət edilən müasir dövrə gəlib çatmış "Məqtəlül-Hüseyn" əsəri ərəb-islam tarixçiliyinin adları yuxarıda qeyd olunan klassik mənbələrindəki Əbu Mixnəfin rəvayətlərindən məzmun və üslub nöqteyi nəzərindən fərqlənir. Bu rəvayətlərin müqayisəli təhlili göstərir ki, Əbu Mixnəfə aid edilən "Məqtəlül-Hüseyn" zamanla şifahi ədəbiyyat məhsuluna çevrilmiş və oxunduğu auditoriyanın dini təmayüllərinin, həmçinin ədəbi-mədəni mühitinin təsirinə məruz qalmışdır (6, s. 34-47).

İlk dəfə 1882-ci ildə Əbu Mixnəfə aid edilən "Məqtəlül-Hüseyn"in Leyden, Berlin, Qota və Sankt-Peterburq əlyazmaları üzərində tədqiqat apararaq elmi ictimaiyyətə təqdim edən Vüstenfeld də bu problemə toxunmuşdur. O, "Məqtəlül-Hüseyn"in əlyazmaları arasındakı fərqliliyin əsərin müqayisəli nəşrini həyata keçirməyə imkan verməyəcək dərəcədə böyük olduğunu qeyd etmiş və daha mötəbər hesab etdiyi hicri 23 cəmadiyəlaxır 998-cu il (miladi 29 aprel 1590-cı il) tarixli Qota nüsxəsi əsasında əsəri Alman dilinə tərcümə etməklə kifayətləndiyini bildirmişdir (25, s. v-ix). Vüstenfelddən təxminən bir əsrə yaxın sonra, 1971-ci ildə nəşr etdirdiyi Əbu Mixnəfə dair doktorluq dissertasiyasında Ursula Sezgin Vüstenfeldin sadəcə tərcümə ilə kifayətlənməsini doğru hesab etmədiyini bildirmiş, Vüstenfelddən sonra aşkarlanmış "Məqtəlül-Hüseyn" əlyazmalarının da diqqətə alınaraq əsərin tənqidli nəşrinin önəmini bir daha elmi ictimaiyyət qarşısında qaldırmışdır (24, s. 117).

Əbu Mixnəfin "məqtəl" sahəsində şöhrətinin səbəbi yalnız "Məqtəlül-Hüseyn"in əlyazma nüsxələrinin kəmiyyət çoxluğu deyil. İslam dünyasında açıq şəkildə Əbu Mixnəfə nisbət edilən və H.F.Vüstenfeldin vurğuladığı kimi, aralarında mühüm fərqliliklər olan müxtəlif "Məqtəlül-Hüseyn nüsxələrindən başqa, "Məqtəlül-Hüseyn"ə müəyyən dəyişikliklər etməklə müxtəlif adlı "məqtəl" nümunələri də yazılmışdır. Hilləli məşhur İslam alimi İbn Tavusun "Məlhuf əla qətlət-tüfuf" əsəri, Əbu Mixnəfin "Məqtəlül-Hüseyn"i əsasında yazılmış XIII əsrə aid "məqtəl" nümunəsidir. İbn Tavus,

əsərin müqəddimə qismində və sonlarına doğru özünü əsərin “toplayıcısı” (əl-cami) adlandırır (13, s, 86, 230). Bu, “Məlhuf”la əlaqəli müxtəlif mülahizələrə səbəb olmuşdur: 1) İbn Tavus “Məlhuf”u müstəqil bir əsər olaraqmı yazdı? 2) Yoxsa, o, mövzuya dair başqa bir əsərindən rəvayətləri xülasə edərək topladı? 3) Yaxud, o, özündən əvvəlki başqa bir müəllifin “məqtəl” əsərini xülasə etdi? Vüstenfeld “Məqtəlül-Hüseyn” üzərinə tədqiqatında ilk dəfə Leyden əlyazmasının üzərində Əli ibn Musa ibn Cəfər ibn Məhəmməd ibn Tavus əl-Həsəninin “bu kitabın toplayıcısı” olduğuna dair ifadələrə diqqət çəkmişdir (25, s. vi). Türkdilli “məqtəl”lərin şahəsəri sayılan “Hədiqətüs-süəda” əsərində M.Füzuli dövrünün məşhur ərəbdilli “məqtəl”ləri arasında Əbu Mixnəfin “məqtəl” əsəri ilə yanaşı, “Məsrəi-Tavusi” ifadəsi ilə İbn Tavusun “Məsrə” adlı “məqtəl”inin adını çəkmişdir (17, s. 31). İbn Tavusun həyatı və elmi fəaliyyəti haqqında yazdığı “Orta əsrlər müsəlman alimi iş başında: İbn Tavus və kitabxanası” (“A Medieval Muslim Scholar at Work: Ibn Tâwûs and His Library”) adlı monoqrafiyasında Etan Kohlberq də İbn Tavusun “məqtəl” mövzusunda “Məlhuf əla qətlət-tüfuf” və “Məsrəüş-şeyn fi qətlil-Hüseyn” adlı iki əsəri ilə əlaqəli fikir müxtəlifliyinin mövcudluğuna diqqət çəkir (16, s. 43-44). Kohlberqin də vurğuladığı kimi, sözügedən əsərlərin əlyazmaları üzərində aparılacaq müqayisəli tədqiqatlar, həm Əbu Mixnəfə nisbət edilən “Məqtəlül-Hüseyn”in əlyazmalarının müqayisəsinə, həm də onunla İbn Tavusun “Məlhuf” və yaxud “Məsrə” adlı “məqtəl” əsəri arasındakı əlaqənin təhlilinə imkan verəcəkdir.

Əbu Mixnəfə aid edilən “Məqtəlül-Hüseyn”də hadisələr Müaviyə ibn Əbu Süfyanın hakimiyyəti həzrət Həsəndən aldığı dövrdən başladılır (5, s. 5). Müaviyənin hakimiyyəti dövründə həzrət Əli tərəfdarları ilə həzrət Hüseyn arasındakı münasibətlərdən və bu çərçivədə həzrət Hüseyn-Müaviyə məktublaşmasından bəhs edilir (5, s. 6-12), Müaviyənin vəfatı və Yezidin hakimiyyətə gəlməsi ilə Kərbəlaya aparan hadisələr ardıcıl şəkildə nəql olunur (5, s. 13).

**2. Əbu İshaq əl-İsfərayiniyə aid edilən “Nurul-eyn fi məşhədil-Hüseyn”**

Məşhur Şafii-Əşəri alimi Əbu İshaq Rüknüddin İbrahim ibn Məhəmməd ibn İbrahim əl-İsfərayini (v. 418/1027) Xorasan bölgəsindəki İsfərayen şəhərində dünyaya gəlmiş, təhsilini Bağdadda dövrün məşhur fiqh və kəlam alimlərinin yanında tamamladıqdan sonra Xorasanın bir digər şəhərində, Nişaburda müəllimlik fəaliyyətinə başlamışdır. Əbu İshaq əl-İsfərayininin tədris fəaliyyəti üçün xüsusi olaraq mədrəsə tikilməsi (10, c. 1, s. 367; 12, c. 1, 312; 19, c. 6, s. 69; 27, c. 13, 101; 28, c. 9, 292) onun öz dövrünün məşhur alimi olduğunu göstərir. Xüsusilə fiqh sahəsində müctəhid dərəcəsindəki alimlərdən sayılan, “şeyx”, “imamül-əllamə”, “rüknüddin” kimi elmi titullarla tanınan Xorasan bölgəsinin məşhur alimi əl-İsfərayininin (3, c. 1, s. 170; 27, c. 13, s. 101) fiqh, kəlam və hədisə dair adları mənbələrdə keçənləri əsərlərin bunlardır: “əl-Cami fi üsulid-din vər-rəd əlal-mülhidin”, “Əqidə”, “Ədəbül-cədəl”, “əl-Müxtəsər fir-rədd əla əhlil-itizal vəl-qədər”, “Təcizül-mötəzilə”, “əl-Vəsf vəs-sifə”, “Təliqə fi üsulil-fiqh”, “Məsailüd-dövr”, “Təhqiqüd-dəavi”, “əl-Müxtələf fi üsulil-fiqh”, “əl-Vəsf vəs-sifə”, “Şərhül-itiqad”, “Tərtibül-məzhəb”, “Şərhül-tərtib”, “Şərhül-füru”, “Məalimül-İslam” (2, c. 1, s. 8; 3, c. 1, s. 170-171; 12, c. 1, s. 312-314; 19, c. 6, s. 69-70; 28, c. 9, s. 292-293)

Əbu İshaq əl-İsfərayiniyə aid əsərlər arasında keçməyən, lakin ona aid edilən (2, c. 1, s. 8) “Nurul-eyn fi məşhədil-Hüseyn” Əbu Mixnəfə aid edilən “Məqtəlül-Hüseyn” mətni əsasında təşəkkül edən “qeyri-ənənəvi bir məqtəl nümunəsi”dir. Qeyri-ənənəvilik, ilk növbədə “Məqtəlül-Hüseyn”lə əlaqəli digər “məqtəl”lərdən fərqli olaraq, bir ravi kimi Əbu Mixnəfə istinad edilməməsində özünü göstərir. Digər tərəfdən, “Nurul-eyn fi məşhədil-Hüseyn” müəyyən hissəsinə görə Əbu Mixnəfə nisbət edilən “Məqtəlül-Hüseyn” başda olmaqla, digər “məqtəl”lərdən məzmun cəhətdən fərqlənir. Bu fərqlilik bariz şəkildə əsərin başlanğıcından etibarən həzrət Hüseynin Kufəyə getmək üçün Hicazdan yola çıxdığı dövrə qədərki hadisələrdə görünür. Əsərin həmin hissəsində həzrət Peyğəmbərin vəfatından sonra Raşidi xəlifələr, onların ardından Müaviyə ibn Əbu Süfyanın hakimiyyətə gəldiyi qeyd olunur. Qısa müddət Mədinədə xəlifəlik edən və həmin dövrdə həzrət Hüseyn başda olmaqla Haşim oğullarına qarşı maddi-mənəvi dəstəyini əskik etməyən Müaviyə Şamda məskunlaşmağa qərar verir. Dəməşqi paytaxt seçən Müaviyə həzrət Hüseyn başda olmaqla Haşim oğullarını da özü ilə birlikdə aparır. Müaviyənin hakimiyyəti dövründə ümumilikdə Haşim oğulları, xüsusilə həzrət Hüseyn hər baxımdan xəlifənin diqqət

və qayğısı ilə əhatə olunur. Vəfatı yaxınlaşan Müaviyə oğlu Yezidi çağıraraq xalqa və həzrət Hüseynin rəhbərliyində Haşim oğullarına qarşı hörmət və qayğı göstərməyi vəsiyyət edir (4, s. 2-6). Lakin, Müaviyənin vəfatından sonra verdiyi sözü yerinə yetirməyən Yezid əxlaqi və siyasi cəhətdən xəlifəyə uyğun olmayan həyat tərzi sürür, bundan əlavə, həzrət Hüseyn və Əhli-Beyti diqqət və qayğıdan uzaq tutur. Bu vəziyyətdən son dərəcə məyus olan həzrət Hüseyn Dəməşqdən Hicaza getmək barəsində Yezidə məktub yazır, cavab məktubunda gördüyü laqeydlik və hörmətsizliyə görə Dəməşqdən çıxır (4, s. 7-9), əvvəlcə qardaşı Məhəmməd ibn Hənəfiyyənin yanına Mədinəyə, qısa müddət orada qaldıqdan sonra Məkkəyə gedir. Həmin dövrdə "Məkkə xəlifəsi" olan Abdullah ibn Zübeyr həzrət Hüseynə və yaxınlarına böyük ehtiram göstərir, ona xəlifə olmağı təklif edir. Zöhd həyatı yaşamağa üstünlük verən həzrət Hüseyn bu təklifi qəbul etmir və Məkkədə həyatını ibadətlə keçirir (4, s. 10). Yezidin hakimiyyətindən narazı olan İraq əhalisi, xüsusilə kufəlilər həzrət Hüseynə bir neçə dəfə məktub göndərərək xəlifə olması üçün dəvət edirlər. Əvvəl məktublara əhəmiyyət verməyən həzrət Hüseyn son məktubla Kufəyə doğru yola çıxmağa qərar verir. (4, s. 11-14). "Bacısı" Sükeynənin və Abdullah ibn Zübeyrin təkidlərinə baxmayaraq az sayda tərəfdarı ilə birlikdə Mədinəyə gedən həzrət Hüseyn, orada qardaşı Məhəmməd ibn Hənəfiyyənin və Abdullah ibn Abbasın etirazlarına önəm vermir və Kufəyə doğru yola çıxır (4, s. 15-19).

Ərəbdilli "məqtəl" əsərləri ümumilikdə dəyərləndirildiyi zaman, "Nurul-eyn fi məşhədil-Hüseyn"in özünəməxsus tərəfi olaraq görülən bu hissə, həm də onu "Məqtəlül-Hüseyn"dən ayıran əsas fərqdir. Əsərin Kərbəla hadisəsindən etibarən sonuna qədərki qismi təfsilatlar istisna edilərsə, məzmun baxımından "Məqtəlül-Hüseyn"lə paraleldir.

**3. "Məqtəlül-Hüseyn" və "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərlərinin müqayisəsi**

Həm hadisələrin gedişatı, həm də həzrət Hüseyn başda olmaq üzrə hadisələrdə iştirak edən mühüm siyasi simalarla əlaqəli ifadə və yorumlar, ilk baxışda "Məqtəlül-Hüseyn" və "Nurul-eyn fi məşhədil-Hüseyn"in bir-birindən müstəqil "məqtəl"lər olduğunu düşündürəcək qədər fərqlidir. Bununla birlikdə, ümumi məzmun baxımından iki əsər arasındakı ən mühüm fərqlilik, yuxarıda qeyd olunduğu kimi, həzrət Hüseynin Kufəyə getmək məqsədilə Hicazdan çıxışına qədərki hadisələrdə özünü göstərir. Əsərin mövzuya giriş xarakteri daşıyan qismində üzərində durulan səhabə nəslinin fəziləti, Raşidi xəlifələrin hakimiyyətə gəlmə ardıcıllığının həm də fəzilət ardıcıllığını müəyyənləşdirdiyi yanaşması, Müaviyə ibn Əbu Süfyanın Əhli-Beytə böyük hörmət göstərən ideal bir müsəlman kimi təsvir olunması kimi məqamlar (4, s. 5-7) bu fərqliliklərin ən bariz nümunələridir. Bundan əlavə, başlanğıcda Yezid ibn Müaviyənin xəlifəliyinə hər hansı bir etirazı olmayan, lakin müsəlmanların məruz qaldıqları zülmün hesabını axirətdə verə bilməməkdən narahat olduğu üçün kufəlilərin dəvətinə cavab verən həzrət Hüseyn, həzrət Hüseynə maddi-mənəvi və siyasi mənada dəstək verən Abdullah ibn Zübeyr, əsərdə Əhli-Beyt mənsublarından daha çox ön plana çıxarılan Məhəmməd ibn Hənəfiyyə portreləri "Nurul-eyn fi məşhədil-Hüseyn"i məzhəb nöqteyi-nəzərindən "Məqtəlül-Hüseyn"dən fərqləndirən dəyişikliklər hesab edilə bilər. Təsadüfi deyil ki, məhz Raşidi xəlifələrlə əlaqəli qisminə istinadla bəzi tədqiqatçılar "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərini Şafii-Əşari alimi Əbu İshaq əl-İsfərayininin yazdığı müstəqil "məqtəl" hesab etmişlər. (15, s. 7, 8, s. xxiv; 26, c. 22, s. 515-516; 1, s. 14).

Daha əvvəl qeyd olunduğu kimi, Əbu Mixnəfə nisbət edilən "Məqtəlül-Hüseyn"lə İsfərayiniyə nisbət edilən "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərləri həzrət Hüseynin Hicazdan çıxışına qədərki hadisələrin gedişatı baxımından fərqlilik göstərsə də, Kərbəla hadisəsindən Yezid ibn Müaviyənin vəfatına qədərki hadisələr diqqətə alındıqda mühüm paralellik müşahidə olunur. Mövcud ifadə fərqlilikləri, rəvayətlərin bəzən qısaldılması, uzadıldığı və yaxud cüzi dəyişikliklər edilməsi nəzərə alınmaqla birlikdə, iki əsər arasında müştərək rəvayətlər böyük yekun təşkil edir. Kufədə Müslim ibn Əqilin və ona qarşı Ubeydullah ibn Ziyadın fəaliyyətləri (4, s. 12-30; 5, s. 32-60); Kərbəlada yaşanan hadisələr (4, s. 37-55; 5, s. 61-157); Übeydullah ibn Ziyad ilə Ümmü Gülsümün və Zeynəbin dialoqu (4, s. 57-58; 5, s. 164-166), Əli ibn Hüseyn Zeynəlabidini qətletmək istəyən Übeydullaha Zeynəbin mane olmasını (4, s. 58; 5, s. 167-168), Ubeydullahın əskərlərinə qarşı şücaətlə döyüşən kor Abdullah ibn Əfifin qəhramanlıq hekayəsini (4, s. 58-59; 5, s. 169-174), səhabədən Zeyd ibn Ərqamın həzrət Hüseynin Kufədə nümayiş etdirilən başını təsvir etməsini (4, s. 59; 5, s. 175), Əhli-Beyt

mənsublarının Kufədən Dəməşqə gedərkən yolda qarşılaşdıqları hadisələri (4, s. 60-64; 5, s. 175-191); Yezidin sarayında baş verənləri (4, s. 65-71; 5, s. 192-218), Əhli-Beytin Mədinəyə qayıtması ilə əlaqəli rəvayətəri (4, s. 72-73; 5, s. 218-227) buna misal göstərmək olar.

Tarixi hadisələrin ardıcıllığı və hadisələrdə iştirak etmiş şəxslər diqqətə alındıqda, qeyd olunan iki əsər arasındakı rəvayətlər arasındakı paralellik açıq şəkildə görünsə də, rəvayətlərin təfsilatında müəyyən dəyişikliklər müşahidə olunur. Bəzən bu dəyişikliklər daha az əhəmiyyət daşıyır və əsərin yazılma məqsədi və yaxud oxunduğu auditoriyanin təmayülü haqqında önəmli məlumat vermir. Məsələn, hər iki əsərdə təsvir olunduğuna görə, Kərbəla hadisəsindən sonra Kufəyə gətirilən Əhli-Beytə mənsub uşaqların vəziyyətinə acıyan kufəlilər mərhəmət göstərərək onları yedirtmək istəmişlər. “Nurul-eyn”dəki rəvayətə görə kufəliləri qınayan Ümmü Gülsüm verdikləri “çörəyi” özlərinə tərəf atmışdır (4, s. 56). “Məqtəlül-Hüseyn”də keçən ifadələrə görə isə Ümmü Gülsüm “bizə sədəqə yeməyin haram olduğunu bilmirsinizmi?” deyərək, kufəlilərin uşaqlara verdikləri “qoz və xurmanı” alıb onların üzərinə atmışdır (5, s. 161).

Şifahi ədəbiyyata xas olan bir üslub, məqtəl”i oxuyan/dinləyən auditoriyanın zövqünə uyğun olaraq müəllifin ədəbi yöndən müdaxiləsi kimi görünən bu cür dəyişikliklərdən başqa, əsərdə müəllifin təmayülünə bağlı olaraq məqsədli şəkildə həyata keçirildiyini düşündürən dəyişikliklər də vardır. Məsələn, qarşısına həzrət Hüseynin başı gətirildiyi əsnada Yezidin qarğanın qarıldamasına verdiyi reaksiyanı təsvir edən rəvayətdə təfsilatla əlaqəli belə bir dəyişikliyin nümunəsini görmək olar. “Nurul-eyn”də keçən ifadəyə görə, əlindəki çubuqla həzrət Hüseynin dişlərinə vuran Yezid sarayın balkonundan eşitdiyi qarğa səsini bəd əlamət kimi yozumlamış və əhval-ruhiyyəsi pozulmuşdur (4, s. 66). Eyni hadisə ilə əlaqəli “Məqtəlül-Hüseyn”də keçən rəvayətə görə isə, qarğanın səsini eşidən Yezidin nəinki keyfi pozulmuş, əksinə, qarğanın qarıldamasının heç bir şeyi dəyişdirmədiyini, Bədrdə öldürülənlərin intiqamını aldıqlarını, ayrıca Əli ibn Əbu Talibdən öz intiqamlarını aldıqlarını əks etdirən uzun bir şeir oxumuşdur (5, s. 198-199).

“Nurul-eyn” və “Məqtəlül-Hüseyn” arasında bu qəbildən dəyişikliyə nümunə göstəriləcək başqa rəvayətlər də mövcuddur. Məsələn, “Məqtəlül-Hüseyn”də haqqında danışılan həzrət Həsənin hakimiyyəti Müaviyə ibn Əbu Süfyana verməsinə qarşı kufəlilərin reaksiyasına, hakimiyyəti dövründə Müaviyə ibn Əbu Süfyan ilə həzrət Hüseyn arasındakı tədbirli münasibətlərə (5, s. 5-10), “Nurul-eyn”in Muaviyənin hakimiyyət dövrü ilə əlaqəli hissəsində toxunulmur (4, s. 4-6). Bənzər bir yanaşmanı Kufə məscidində həzrət Əliyə qarşı nalayiq sözlər deyən Übeydullah b. Ziyada qarşı çıxan görmə qüsurlu Abdullah ibn Əfiflə əlaqəli hekayədə də görmək mümkündür. Hər iki əsərdə də Abdullah ibn Əfifin məsciddəki müxalifətinin ardından Übeydullahın hərbi dəstəsinə qarşı qəhramanlıqla savaşdığından və sonunda ələ keçirildiyindən bəhs olunur. “Məqtəlül-Hüseyn”də keçən rəvayətə görə, Übeydullahın hüzuruna gətirildiyi zaman öldürüləcəyini bilən Abdullah ibn Əfif, “Siffin döyüşündə Əmirəl-mömininin ordusunda vuruşarkən gözlərini itirdikdən sonra ən böyük arzusunun ən şərli insan tərəfindən qətlə yetirilmək” olduğunu deyir (5, s. 171). Eyni rəvayətin “Nurul-eyn”dəki versiyasında Siffin döyüşündən bəhs olunmaması (4, s. 59), həzrət Əli ilə Müaviyə ibn Əbu Süfyan arasındakı silahlı mübarizəni xatırlatdığı üçün həmin hissənin məqsədli olaraq rəvayətdən çıxarıldığını düşündürür.

Haşim oğulları ilə Üməyyə oğulları arasındakı rəqabətə dair başqa bir nümunə, ilk dövr İslam tarixinin mübahisəli simalarından biri, Mərvan ibn Həkəmlə əlaqəlidir. “Məqtəlül-Hüseyn”də keçən rəvayətə görə, Kərbəla şəhidlərinin başları və əsir edilmiş Əhli-Beyt mənsubları Yezidin hüzuruna gətirildiyi zaman, yanında oturan Mərvan ibn Həkəm həzrət Hüseynin qanıyla qəlbinin şəfa tapdığına dair şeir oxumuşdur (5, s. 197-198). “Nurul-eyn”də isə nəinki Yezidlə əlaqəli qismdə, ümumiyyətlə əsərdə Mərvan ibn Həkəmlə əlaqəli hər hansı bir rəvayətə rastlanmır.

Son olaraq, “Nurul-eyn fi məşhədil-Hüseyn” və “Məqtəlül-Hüseyn” əsərlərində İmamiyyə nöqteyi-nəzərindən mühüm inanc doktrinası hesab olunan imamət mövzusuna dair məlumatlar iki əsərin mənşəyinin eyni olduğuna dair önəmli göstərici hesab oluna bilər. Bu rəvayətlərdən biri həzrət Hüseynin Kərbəlada şəhadət anıyla əlaqəlidir. Digər bir çox “məqtəl”də olduğu kimi, hər iki əsərdə də kuliminasiya nöqtəsini təşkil edən bu faciəvi anın ardından baş verən fövqəltəbii hadisələrə yer

verilir. Bu çərçivədə hər iki "məqtəl"də göydən bir səsin "imam oğlu imam, imamın qardaşı, imamların atası qətledildi" dediyi nəql olunur (4, s. 50; 5, s. 147). İmamət kontekstində iki əsər arasındakı bir digər paralellik həzrət Hüseynin atının hekayəsində görülür. Hər iki əsərdə qəhramanlığı dastan üslubunda təsvir olunan atın həzrət Hüseynin şəhadəti xəbərini Əhli-Beytin çadırlarına çatdırdıqdan sonra Fəratın sularında qeyb olduğu bildirilir və Mehdi ilə birlikdə zühur edəcəyi qeyd olunur. "Məqtəlül-Hüseyn"də "Sahib əz-Zəman dövründə zühur edəcək" şəklində keçən ifadə, "Nurul-eyn"də müəyyən dəyişikliklə, "deyilənə görə Mehdi (ə.s), üzərində ikən xüruc edəcək" şəklindədir (4, s. 52; 5, s. 152). Mövzu ilə əlaqəli bir digər nümunə, Kərbəla hadisəsindən sonra Əhli-Beyt mənsublarının Kufədən Dəməşqə aparılması zamanı xristian rahibin iştirakı ilə baş verən hadisədə görülür. Karvandan aldığı məlumatlardan həzrət Hüseynin qətledildiyini öyrənən rahib "... bu əlamətlər göründüyü zaman ya bir peyğəmbərin, ya da bir vəsinin qətlediləcəyini xəbər verən mənbələr doğru buyurub", - demişdir (4, s. 63; 5, s. 189).

İki əsər arasındakı əlaqəni və rəvayətlərdəki dəyişiklikləri göstərən nümunələrin sayını artırmaq mümkündür. Bu da öz növbəsində Əbu Mixnəfə nisbət edilən "Məqtəlül-Hüseyn" nüsxələrindən biri (və yaxud bir neçəsi) əsasında, lakin hədəf kütlənin dini təmayüllərinə uyğun olaraq yorumlanmış yeni bir "məqtəl" mətni meydana gətirildiyini və "Nurul-eyn fi məqtəlil-Hüseyn" adıyla təqdim olunduğunu düşündürür. Digər tərəfdən "Nurul-eyn"in giriş qismində Əbu İshaq əl-İsfərayini olaraq göstərilən müəllifinin ya "Məqtəlül-Hüseyn" nüsxələrindən birinin Əbu İshaq əl-İsfərayini adlı müstənsixi olduğunu, lakin daha güclü ehtimalla əsərin Şafii müsəlmanlar arasında populyarlığını artırmaq üçün hicri 418-ci ilin Aşura günündə vəfat etmiş Şafii-Əşəri alimi Əbu İshaq əl-İsfərayiniyə aid edildiyini irəli sürmək mümkündür.

Özündən sonra ərəbcə, farsca və Türkcə bir çox "məqtəl"ə üslub və məzmun baxımından təsir etməsi səbəbilə mühüm mənbə sayılan Əbu Mixnəfə nisbət edilən "Məqtəlül-Hüseyn" əsəri ilə daha az tanınmış Əbu İshaq əl-İsfərayiniyə nisbət edilən "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərləri arasındakı müqayisə, hər iki əsərin də eyni mətn əsasında inkişaf etdirildiyini göstərir. Xüsusilə həzrət Hüseyinin Hicazdan Kufəyə doğru çıxışından sonrakı hadisələr kontekstində iki əsər arasında paralelliyin fövqündə bənzərlik olduğu açıqdır. Bu bənzərlik həm məzmun və hadisələrin cərəyan etmə ardıcıllığı, həm də rəvayətlərin təqdim olunduğu şifahi ədəbiyyata aid üslub və dil nöqteyi-nəzərindən müşahidə olunur.

Məqalədə təhlil edilən nümunələr əsasında bu nəticəyə gəlinmişdir ki, Əbu Mixnəfə nisbət edilən çoxsaylı əlyazma nüsxəsi olan "Məqtəlül-Hüseyn" əsasən İmamiyyə məzhəbinə mənsub ərəbdilli müsəlmanlar arasında populyarlaşmış, İsfərayiniyə nisbət edilən "Nurul-eyn fi məşhədil-Hüseyn"in isə "Məqtəlül-Hüseyn"dən adaptasiya edilmiş bir "məqtəl" nümunəsi kimi daha dar çərçivədə, Şafii məzhəbinə mənsub ərəbdilli müsəlmanlar arasında oxunmuşdur. Bununla birlikdə, hər iki əsərlə əlaqəli gələcək tədqiqatlar müxtəlif məzhəblərə aid müsəlmanlar arasında "məqtəl" əsərlərinin təşəkkülünü şərtləndirən dini, siyasi və ictimai məsələlərə də aydınlıq gətirəcəkdir.

Son olaraq, iki əsərin qarşılıqlı müqayisəsi həm də onu göstərir ki, məzhəb baxımından bəzi fərqli görüşlərə sahib olmalarına və bu fərqliliyi "məqtəl" əsərlərində də əks etdirmələrinə baxmayaraq, müsəlman toplumların dini-ictimai təfəkkürünün formalaşması prosesində Məhəmməd Peyğəmbərin Kərbəlada şəhid olmuş nəvəsi həzrət Hüseyn və onun timsalında Əhli-Beyt birləşdirici bir dəyər olmuşdur. "Məqtəl" yazma və oxuma ənənəsi isə bu dəyərin nəzəriyyədən təcrübəyə keçmiş müşəxxəs forması kimi qəbul edilmişdir.

## ƏDƏBİYYAT

1. Ayğan. Fadıl. Muhammed b. Ca'fer es-Sanhaci'nin "Şehru Akideti Ebî İshak el-İsferayini" Adlı Eserine Göre Ebu İshak el-İsferayini'nin Kelami Görüşleri (MÜSBE yayınlanmamış yüksek lisans tezi), İstanbul, 2006, 241 s.
2. Bağdadlı İsmail Paşa. Hədiyyətül-arifin (red. Kilisli Rıfat Bilge və İbnülemin Mahmud Kemal İnal). Ankara: Milli Eğitim Bakanlığı, 1951-1955, 2 c.

3. Dəməşqi. Əbu Bəkr ibn Əhməd. Təbəqatüş-şafiiyyə. Beyrut, Aləmül-kütüb, 1407, 4 c.
4. Əbu İshaq əl-İsfərayini. İbrahim ibn Məhəmməd. Nurul-eyn fi məşhədil-Hüseyn, Tunis, Mətbəətül-mənar, 1960, 112 s.
5. Əbu Mixnəf Lut ibn Yəhya. Məqtəlül-Hüseyn və məsrəü əhli beytihi və əshabihi fi Kərbəla. Qum, Əmir, 1316, 231 s.
6. Əzizova. Elnurə. Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" adlı əsəri tarixi mənbə kimi // Azərbaycan Dövlət Pedaqoji Universiteti Tarix, insan və cəmiyyət, Elmi-nəzəri və elmi-metodik jurnal. 2019, 1 (24), s. 34-47.
7. Əzizova. Elnurə. Orta Əsrlər ərəb mənbəşünaslığında "məqtəl" əsərlərinin təşəkkül prosesi və "Məqtəlül-Hüseyn"lər // Odlar Yurdu Universitetinin Elmi və pedaqoji xəbərləri, 2019, N 51, s. 232-238.
8. Güngör. Şeyma. Fuzulî: Hadikatü's-Sü'eda. Ankara, Kültür ve Turizm Bakanlığı Yayınları, 1987, 504 s.
9. Günther. Sebastian. Maqatil Literature in Medieval Islam // Journal of Arabic Literature. XXV Leiden, E.J.Brill, 1994, pp. 192-212.
10. İbn Kəsir. Əbülfida İmadüddin İsmail. Təbəqatül-füqəhaiş-şafiiyyin. Qahirə, Məktəbətüs-səqafətid-diniyyə, 2004, 2 c.
11. İbn Nədim. əl-Fihrist. Beyrut, Darül-mərifə, 1978, 528 s.
12. İbn Səlah. Osman ibn Əbdürrəhman Əbu Amr. Təbəqatül-füqəhaiş-şafiiyyə (red. Mühyiddin Əli Nəcib). Beyrut, Darül-beşâiril-insaniyyə, 1992, 2 c.
13. İbn Tavus Əbül-Qasım Radiyüddin Əli ibn Musa. Kitabül-məlhuf əla qətlət-tüfuf (red. Faris Təbriziyan). Darül-əsvə, 1414, 264 s.
14. Kanazi. George J. The Massacre of al-Husayn b. Ali: Between History and Folklore. Studies in Canonical and Popular Arabic Literature (ed. Shimon Ballas, R. Snir). Toronto, York Press, 1998, pp. 23-36.
15. Karahan. Abdülkadir. Anadolu Türk Edebiyatında Maktel-i Hüseyin'ler. Edebiyat Fakültesi Türkoloji Disiplini Mezuniyet Travayı, 1938-1939. 50 s.
16. Kohlberg Etan, A Medieval Muslim Scholar at Work: Ibn Tâwûs and his Library, Leiden, Brill, 1992, 470 s.
17. Məhəmməd Füzuli, Hədiqətüs-süəda, Bakı: Şərq-Qərb, 2005, 381 s.
18. Nəcaşi Əbül-Abbas Əhməd ibn Əli. Ricalün-Nəcaşi: əhadül-üsulir-ricaliyyə. Beyrut, Darül-ədva, 1988, 502 s.
19. Səfədi. Səlahüddin Xəlil ibn Aybək. əl-Vafi bil-vəfəyat. Beyrut, Daru ihyait-turas, 2000, 29 c.
20. Sezgin. Fuat. Geschichte des arabischen Schrifttums. On cilddə. I cild. Leiden, E.J.Brill, 1967.
21. Sindawi K. The Image of Husayn Ibn Ali in "Maqatil" Literature // Quaderni di studi arabi. Vol 20/21 (2003). pp.79-104.
22. Təbəri. Əbu Cəfər Məhəmməd ibn Cərir. Tarixüt-təbəri: Tarixül-üməm vəl-müluk (red. Məhəmməd Əbül-Fəzl İbrahim). Beyrut, Darü Süveydan, 1967, 11 c.
23. Tusi Əbu Cəfər Məhəmməd ibn Həsən. əl-Fihrist. Beyrut, Müəssəsətül-vəfa, 1983, 253 s.
24. Ursula Sezgin. Abu Mihnaf: ein beitrag zur historiographie der umaiyadischen zeit. Leiden, E.J.Brill, 1971, 251 s.
25. Wüstenfeld Heinrich Ferdinand. Der Tod des Husein ben Ali. Ein historischer Roman aus dem Arabischen. Göttingen, 1883, 213 s.
26. Yavuz. Salih Sabri. "İsferâyînî, Ebû İshâk". TDV İslam Ansiklopedisi. İstanbul, 2000, c. 22, s. 515-516.
27. Zəhəbi. Şəmsəddin Əbu Abdullah. Siyər Əlamin-nübəla. Qahirə: Darül-hədis, 2006, 18 c.
28. Zəhəbi. Şəmsəddin Əbu Abdullah. Tarixül-İslam və vəfəyatül-məşahir vəl-əlam (red. Bəşşar Əvvad Məruf). Beyrut: Darül-ğarbil-İslami, 2003, 15 c.

**SUMMARY**

**Elnura Azizova**

**ISSUE OF ORIGINALITY IN ARABIC MAQTALS: SOME NOTES ON THE MUTUAL ANALYSIS OF MAQTAL AL-HUSAYN AND NÛR AL-‘AYN FÎ MASHHAD AL-HUSAYN AZERBAIJAN INSTITUTE OF THEOLOGY, DEPARTMENT OF RELIGIOUS STUDIES**

Applying the comparative analysis method, this article examines the correlation between the *Maqtal al-Husayn*, the most popular example of Arabic maqtals which is attributed to the medieval historian Abu Mikhnaf (d. 157/773) and *Nur al-‘Ayn fi Mashhad al-Husayn* attributed to the prominent Shafii-Ashari scholar Abû İshâq al-İsfarâini (d. 418/1027). As a result of the study it has been determined that although some changes are made and the name of Abu Mikhnaf is not mentioned, *Nur al-‘Ayn fi Mashhad al-Husayn* is the closest maqtal to *Maqtal al-Husayn* in comparison with other Arabic maqtals. Additionally, it has been pointed out that the most important characteristic differentiating *Nur al-‘Ayn fi Mashhad al-Husayn* from *Maqtal al-Husayn* is changes made to the former in the sectarian context. Finally, the article reflects that despite the sectarian differences and their reflections in the maqtals, Husayn who was martyred in Karbala, has been a unifying value in Muslim societies and the tradition of maqtal writing was the material result of this value transformed from theory to practice.

***Key words:*** *Maqtal literature, Arabic maqtals, Abu Mikhnaf, Maqtal al-Husayn, Abu İshaq al-İsfaraini, Nur al-Ayn fi Mashhad al-Husayn*

**РЕЗЮМЕ**

**Ельнура Азизова**

**ВОПРОС ОРИГИНАЛЬНОСТИ В АРАБСКИХ МАКТАЛАХ: НЕКОТОРЫЕ ЗАМЕТКИ О СРАВНИТЕЛЬНОМ АНАЛИЗЕ МАКТАЛ АЛЬ-ХУСАЙН И НУР АЛЬ-АЙН ФИ МЕШХЕД АЛЬ-ХУСАЙН**

Применяя метод сравнительного анализа, в этой статье исследуется корреляция между Мактал аль-Хусейном, наиболее популярным примером арабских макталов, приписываемым средневековому историку Абу Михнафу (ум. 157/773) и Нур аль-Айн фи Мешхед аль-Хусайн приписываемым выдающемуся ученому Шафиту-Ашариту Абу Исхаку аль-Исфараини (ум. 418/1027). В результате исследования было установлено, что, хотя в произведении были сделаны некоторые изменения и имя Абу Михнафа не упоминается, Нур аль-Айн фи Мешхед аль-Хусайн является ближайшим к Мактал аль-Хусейну по сравнению с другими арабскими макталами. Кроме того, было отмечено, что наиболее важной характеристикой, отличающей Нур аль-Айн фи Мешхед аль-Хусайн от Мактал аль-Хусайн, являются некоторые изменения, внесенные в первую в сектантском контексте. Наконец, в статье показано, что, несмотря на сектантские различия и их отражение в макталах, Хусейн, принявший мученическую смерть в Кербеле, стал объединяющей ценностью в мусульманских обществах, и традиция написания макталов стала материальным результатом этой ценности, преобразованной из теории в практику.

***Ключевые слова****: литература Мактал, арабский мактал, Абу Михнаф, Мактал аль-Хусейн,* Абу *Исхак аль-Исфараини, Нур аль-Айн фи Мешхед аль-Хусейн*

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 130-135
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 130-135
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 130-135

**NİGAR HÜSEYNOVA**
*AMEA-nın Fəlsəfə İnstitutu*

**UOT: 016: 297(479.24)**

# MÜASİR AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA TOLERANTLIQ PRİNSİPLƏRİNİN ROLU

*Qərblə Şərqin, müxtəlif sivilizasiyaların qovşağında yerləşən müasir Azərbaycanda əsrlər boyu mədəni müxtəliflik mühiti, zəngin milli mədəniyyət formalaşmışdır. Dünyaya nümunə olan bu ölkədə müxtəlif mədəniyyətlərin nümayəndələri qarşılıqlı anlaşma, dincilik və dialoq şəraitində yaşayırlar. Təsadüfi deyildir ki, azərbaycanlılara tarixən xas olan tolerantlıq milli mədəniyyətindən, dilindən və dinindən asılı olmayaraq, Azərbaycan Respublikasının hər bir vətəndaşının həyat tərzinin və fəailiyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu gün Azərbaycan xalqının bir çox ölkələrə nümunə ola biləcək tolerantlıq modelini movcud ədəbi-bədii, elmi-fəlsəfi, siyasi-hüquqi mənbələr və sənədlər də təsdiq edir.*

***Açar sözlər:** Azərbaycan, milli mədəniyyət, inkişaf, tolerantlıq prinsipləri, bədii mədəniyyət, ənənəvi və müasir mədəniyyət, geosiyasi mərkəz, güclü dövlət, milli özünüdərk*

Azərbaycanda tolerantlıq dövlət siyasəti səviyyəsində həyata keçirilir.

XXI əsrin mədəniyyət həyatının əsas paradiqmalarından sayılan tolerantlıq humanizm, sərbəst mədəni özünüifadə vasitəsi olub, Azərbaycanın bütün vətəndaşlarının mədəni özünəməxsusluğunun qorunması hüququ kimi real gerçəklikdə öz təcəssümünü tapmışdır. Azərbaycanın mədəni müxtəlifliyə malik milli mədəniyyəti Şərq və Qərb dəyərlərinin, unikallığın və universallığın vəhdəti şəklində inkişaf edərək bütün dünyada multikulturalizm və tolerantlıq nümunəsi hesab olunur.

**Milli özünüdərk və tolerantlıq problemi.** Bu gün Azərbaycan xalqının mədəniyyətində milli özünüdərk problemi dərin sosial-fəlsəfi əhəmiyyət kəsb edir. Etnomədəni proseslərin hərtərəfli öyrənilməsi mədəni paradiqma kompleksini özündə əks etdirən ənənəvi mədəniyyəti və milli ideyanın araşdırılmasını zərurətə çevirir.

Bu mənada milli ideya etnosun özünüdərkinin ideologiyalaşmış sahəsi kimi çıxış edir. O, millətin ideya-mənəvi həyatının spesifik fenomenidir, milli özünüdərkinin struktur komponentidir. “Milli ideya azərbaycanlıların özlərini identikləşdirməsinə, xalqın zəngin mədəniyyətini və onun tarixi irsini əks etdirən dünyagörüşünə əsaslanır” [5, 32].

Bu gün Azərbaycanın ictimai-fəlsəfi şüurunda, özünüdərkində, mənəvi və mədəni özünəməxsus-luğunda tolerantlıq mühüm yer tutur. Məlum olduğu kimi, çoxmədəniyyətlilik şəraitində tolerantlığın formalaşdırılmasında aşağıdakı məqamlar əsas götürülür:

- ✓ “ öz xalqının mədəniyyətinin başqa mədəniyyətə inteqrasiyasının əsas şərti kimi hərtərəfli, dərindən mənimsənilməsi;
- ✓ dünyada çoxmədəniyyətlilik haqqında təsəvvürlərin formalaşması;
- ✓ mədəni fərqlərə müsbət münasibətin tərbiyə edilməsi;
- ✓ başqa xalqların mədəniyyətinə inteqrasiya üçün şəraitin yaradılması;
- ✓ müxtəlif mədəniyyətlərin nümayəndələrilə səmərəli qarşılıqlı əlaqə vərdişləri və bacarıqlarının təşəkkülü və inkişaf etdirilməsi;
- ✓ gənclərin əmin-amanlıq, dözümlülük, humanist millətlərarası ünsiyyət ruhunda tərbiyələndirməsi” [8,18]. Göründüyü kimi, tolerantlığın yaradılmasında əsas məqsəd başqa mədəniyyətlərə, mədəni fərqlərə, mədəniyyətlərarası münasibətlərə dözümlülüyün formalaşdırılmasıdır.

Azərbaycanlıların özünüdərkində milli mədəniyyətin mənəvi dəyərləri vasitəsilə tolerant şüur

və davranış formalaşır, çoxmədəniyyətliliyə adaptasiya, öz mədəniyyətlərinə olduğu kimi başqa mədəniyyətlərə də hörmət və məhəbbət yaranır. Deməli, tolerantlıq Azərbaycan ənənəvi və müasir milli mədəniyyətinin tərkib hissəsidir. Azərbaycanlılar arasında tolerantlığın səviyyəsinin yüksək olmasının səbəbi isə xalqımızın zəngin ünsiyyət və davranış mədəniyyətinə, mənəviyyata malik olmasıdır. Ona görə də bizim xalqın nə özünüdərkində, nə də mədəniyyətində millətçilik, irqçilik, ayrı-seçkilik və s. mənfi cəhətlər təzahür etmir. Ümumiyyətlə, Azərbaycanın milli mədəniyyətinin mövcudluğunda və inkişafında, millətlərarası ünsiyyət və onun tərkib hissəsi olan tolerantlıq mühüm rol oynayır. Azərbaycanlılar tolerantdırlar, deməli, onlar öz ləyaqət hisslərini, adət-ənənələrini, milli-mənəvi dəyərlərini, bir sözlə, milli mədəniyyətlərini qoruyub saxlaya bilirlər, həmçinin digər xalqların - həm Azərbaycanda yaşayan milli azlıqların, eyni zamanda dünya xalqlarının mədəniyyətləri və ənənələrinə hörmət etməyi bacarırlar. Bu unikal ümumbəşəri dəyər azərbaycanlıların milli mədəniyyətində mühüm yer tutur.

Azərbaycan xalqının tarixən formalaşmış özündərkini, müdrikliyini əks etdirən milli xarakterinə uyğun idealları vardır. Onun milli xarakterinin təşəkkülü xalqın mədəni unikallığını, ənənələrini, adətlərini və qanunlarını əks etdirir. Həyat və təcrübə göstərir ki, azərbaycanlılar ilk növbədə öz mədəniyyətlərini, adətlərini, ənənələrini, dillərini bildikləri, sevdikləri və hörmət etdikləri üçün başqalarının da mədəniyyətlərinə, dillərinə və ənənələrinə tolerant münasibət bəsləyirlər. Azərbaycanın təkrarsız milli fikir və mədəniyyətində unikal və universal dəyərlər vəhdət təşkil edərək başqa mənəvi dəyərlərə dözümlü münasibəti, qeyri-zorakılığa əsaslanan ictimai həyatı ilə fərqlənir. Bu mənada ölkədə milli mədəniyyət, adət-ənənələr vasitəsilə tolerantlığın formalaşdırılması prosesi təbii və labüd hal olaraq baş verir. Əksər mədəniyyətşünas alimlərimizin fikrincə, Azərbaycan mədəniyyəti üçün xas olan əsas cəhətlər aşağıdakılardır:

–“ tolerantlıq;

–multikulturalizm;

–dialoq və əməkdaşlıq;

–milli olanla qlobal olanın uyğunlaşdırılması;

–şovinizm və irqçiliyin bütün təzahürlərinə qarşı barışmazlıq”[6,7].

Həmçinin bütün xalqımızda, o cümlədən gənc nəsildə mərhəmət, qarşılıqlı hörmət, xeyirxahlıq və nəciblik hisslərinin, etnik və mədəni tolerantlıq keyfiyyətlərinin aşılanması nəticəsində yeni humanist davranış qaydaları və yeni dəyər sisteminin yaranması xüsusi əhəmiyyət kəsb edir. “Eyni zamanda, milli mədəniyyətlərdən biri də tolerant şəxsiyyətin formalaşmasının zəruri əsasıdır. Onun başlıca vəzifələrindən biri də yetişməkdə olan gənc nəslə öz doğma mədəniyyətini hifz edərək, bu mədəni dəyərlərin dünya mədəniyyətləri sırasında layiqli yer tutmasının zəruriliyini və vacibliyini aşılamaqdır. Hər şeydən əvvəl, bəşəriyyətin klassik mənəvi mədəniyyətinin, eləcə də ən yüksək mənəvi dəyər prioritetlərindən olan tolerantlıq da daxil olmaqla milli ənənələrin spesifikliyinin qorunub saxlanması vacib məsələdir” [8,19]. Göründüyü kimi, böyüməkdə olan gənc nəslin mənəvi tərbiyəsində tolerantlıq ideyaları milli-mədəni dəyərlərlə ahəngdarlıq təşkil edir. Bu mənada mədəni fərqlərdə dözümlülük və qarşılıqlı hörmət hissinin aşılanması tolerantlığın təbliği baxımından böyük əhəmiyyət kəsb edir.

Milli-mədəni dəyərlər sistemində müxtəlif millətlərin nümayəndələri arasında qarşılıqlı münasibət-lərin oxşar və fərqli xüsusiyyətlərinin təhlili zamanı nəzərə almaq lazımdır ki, mədəni tolerantlıq bir çox komponentlər əsasında təşəkkül tapmışdır. Həmin komponentlər sırasında öz xalqının mədəniyyət tarixini, ünsiyyətdə olan etnosların milli mədəniyyətlərini, öz doğma dilini və millətlərarası ünsiyyət dilini bilməyi göstərmək olar. “Tolerantlıq insanlar arasında ideal münasibətlər kimi səciyyələndirilir, bu və ya digər xalqın mədəniyyət xəzinəsinə mədəni norma və mənəvi dəyər kimi daxil olur” [10, 273]. Ümumiyyətlə, müxtəlif xalqlar üçün ümumi həyati məkan ideyası sosiomədəni sahədə inteqrasiyanı, ideyaların və dəyərlərin formalaşmasını tələb edir. Şübhəsiz ki, bu proseslərdə tolerantlıq mühüm rol oynayır.

**Mədəniyyət, milli identlik və tolerantlıq.** Müasir qlobal transformasiya və ictimai həyatın bütün sahələrində ciddi radikal dəyişikliklərin baş verdiyi indiki dövrdə milli mədəniyyətlərdə

identlik problemi də xüsusi aktuallıq kəsb edir. Xalqın dəyər yönümündə və idealındakı dəyişikliklərə tolerantlıq da təsir edir. Əsrlər boyu Azərbaycan çoxmillətli, çoxmədəniyyətli dövlət kimi təşəkkül tapmış və inkişaf etmişdir. Azərbaycan xalqının milli vəhdətinin möhkəmlənməsində xalqların, milli azlıqların etnomədəniyyətinin inkişafının təmin edilməsi əsas vasitələrdən biri kimi çıxış edir. Milli siyasətin inkişaf meyillərində etnik identiklik, milli, mili-mədəni identiklik, milli özündərk və milli mədəniyyətin əsaslandırılması əsas yer tutur. Bu məsələ ilə bağlı Akademik R.Mehdiyev Azərbaycanda "güclü dövlətin" əlamətlərini belə səciyyələndirir:

– Azərbaycan bütün etnoslarının dövlət ideologiyası olan, tolerantlıq və multikulturalizm kimi dövlət səviyyəsində möhkəmləndirilən elementlərə sahib olan güclü milli azərbaycançılıq ideologiyasına malikdir;

– milli mədəniyyəti, elm və təhsili inkişaf etdirir;

– öz müstəqil fəaliyyətində milli maraqlara və dövlət maraqlarına əsaslanan qeyri-hökumət (vətəndaş) strukturlarını hər vasitə ilə dəstəkləyir;

– radikal qrupların, xüsusən başqa dövlətlər, yaxud beynəlxalq təşkilatlar və s. tərəfindən maliyyələşdirilən qrupların fəaliyyətinin qarşısını qanuna müvafiq olaraq bacarıqla alır."[4]

Azərbaycanda ideyaların plürailizminə onun Şərq və Qərb arasındakı geosiyasi mövqeyi və ölkədə müxtəlif xalqların və mədəniyyətlərin min illərlə birgə yaşaması təsir edir. ABŞ-ın görkəmli dövlət xadimi və siyasətçisi Zbiqnev Bjezinskinin fikrincə, "geosiyasi mərkəzlər öz coğrafi mövqeyindən asılıdır. Coğrafi mövqe bir sıra hallarda onlara ya mühüm rayonlara çıxışa nəzarət, ya da fəaliyyətdə olan mühüm geosiyasi şəxslərə resursların əldə olunmasında rədd cavabı verməyin mümkünlüyü baxımından xüsusi rol ayırır. Başqa hallarda geosiyasi mərkəz dövlətin, yaxud hətta geosiyasi məkanda həyati əhəmiyyət daşıyan regionun sipəri ola bilər. Bəzən geosiyasi mərkəzin mövcudluğunun özü qonşuluqda geostrateji fəaliyyət göstərən daha fəal şəxslər üçün, demək olar, çox ciddi siyasi və mədəni nəticələr verir" [7,55]. Azərbaycan da geosiyasi mərkəz kimi çıxış edərək təkcə milli təhlükəsizliyini, suverenliyini deyil, dilini və milli mədəniyyətini müdafiə edir. Başqa sözlə, qlobal transformasiya şəraitində dövlətin gücü daha da artaraq xalqın mədəniyyətinin milli özünəməxsusluğunu qoruyub saxlayıb, gələcək nəsillərə ötürəcəkdir.

Azərbaycanın mədəniyyət eləcə də, milli özündərk tarixi həm də ümummilli mənəvi-mədəni dəyərlərin tarixidir. Əslində Azərbaycanın çoxmədəniyyətliliyi onun milli təhlükəsizliyinin əsas amilidir. Xalqımızın tarixi və mədəniyyəti Avropa və dünya mədəni xəzinəsinin tərkib hissəsidir. Yeni Azərbaycanın vətəndaşının normal özündərki üç komponentin vəhdətindən ibarətdir. Birincisi, bu, öz etnosuna, öz xalqına mənsubluq hissi, öz milli ənənələrinə, öz xalqının tarixinə məhəbbət və hörmətdir, öz milli mədəniyyətini və doğma dilini mənimsəmək cəhdidir. İkincisi, bu, çoxmədəniyyətli Azərbaycan cəmiyyətinə mənsubluq hissi, Azərbaycan vətənpərvərliyi, milli (etnik) şöhrətpərəstlikdən, etnik müstəsnalıqdan imtina etməkdir. Üçüncüsü, bu, Avropa və dünya birliyinə mənsubluq, yalnız öz xalqının, çoxmillətli ölkəsinin deyil, bütün dünyanın taleyinə görə məsuliyyət hissidir.

Bu gün sosial fəlsəfədə "ümumbəşəri dəyərlər" ətrafında ciddi diskussiyalar davam etməkdədir. Bəzi tədqiqatçılar ümumbəşəri dəyərlərin milli-mənəvi sərvətlərə əks olduğunu göstərirlər. Əslində "ümumbəşəri" və ya universal dəyərlər dünyada dincliyə, əmin-amanlığa, əməkdaşlığa, tolerantlığa, mədəniyyətlərin qarşılıqlı təsirinə kömək edir. Onlar milli dəyərlərə qarşı deyildir, onun sisteminə daxildir, onlar xalqın bütün mədəni tarixi ərzində təbii olaraq təşəkkül tapmışlar. Mədəniyyətlərin qarşılıqlı münasibətlərində ümumbəşəri humanist dəyərlər, tolerantlıq prinsipləri müxtəlif yaradıcı cərəyanların, istiqamətlərin, məktəblərin, hətta ayrı-ayrı sənətkarların yanaşı mövcudluğuna imkan verən amil kimi çıxış edir. Tolerantlıq ideyaları təkcə mədəniyyətlər arasında deyil, bütövlükdə sosial həyatda münaqişələrin aradan qaldırılmasına kömək edir. Lakin kosmopolitizm və ya beynəlmiləlçilik ümumbəşərilikdən tamamailə fərqlənir. Bütün xalqlar kimi azərbaycanlıların da vətənə məhəbbəti-vətənpərvərlik ictimai-fəlsəfi şüurun kateqoriyası kimi milli hisslərə yad olan kosmopolitizmə qarşı durur.

Azərbaycanın bədii milli mədəniyyəti elə bir sağlam yaradıcı fenomendir ki, o, sivilizasiyanı sağlamlaşdırır və sosial ziddiyyətlərin həllinə tolerant yanaşır. Bununla da milli mədəniyyətimiz

dünyanın ahəngdarlığına öz töhfəsini vermiş olur. Deyilənlərin bir növ təsdiqi olaraq milli bədii mədəniyyətimiz həm də özünün təzahürü formasına görə ictimai şüurun digər formaları ilə əlaqədar olan ümumi komponentdir. Digər ictimai şüur formaları ilə müqayisədə dünyanın hissi qavrayışına əsaslanan bədii yaradıcılıq daha az rasionaldır. Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi olan bədii yaradıcılıq xalqın milli xarakterini və mentalitetini ifadə edir. Deyilənlərin bir növ təsdiqi olaraq milli bədii mədəniyyətimiz aşağıdakı ictimai qarşılıqlı münasibətləri əks etdirir:

– onun yüksək mənəvi prinsipləri, nəcibliyin, tolerant münasibətin də daxil olduğu humanist istiqamətləri vardır;

– bu mədəniyyətdə xalqımızın milli xarakterinin ən ali xüsusiyyətləri - xeyirxahlıq, etibarlılıq, dözümlülük təcəssüm olunmuşdur;

– xalqımızın milli bədii mədəniyyətinin məzmunu əsasən azərbaycanlı mənəvi nüvəsindən daha genişdir, çünki bu mədəni xəzinəyə Azərbaycan məkanındakı bütün xalqların və milli azlıqların mənəvi sərvətləri, eləcə də milli bədii mədəniyyətimizin zənginlikləri daxildir;

– milli bədii yaradıcılıq dəyərləri ənənəvi olaraq islamla sıx əlaqədardır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın da daxil olduğu Şərq müsəlman mədəniyyəti məhz islam əxlaqı əsasında inteqrasiya olunmuşdur. Təsadüfi deyildir ki, Qərb ölkələrinin mədəniyyətlərinin inteqrasiyasının əsasında da xristianlıq məfkurəsi durur.

**Tolerant çoxmədəniyyətlilik paradiqması.** XX əsrin ikinci yarısında və sonlarından başlayaraq dünyada, o cümlədən Azərbaycanda yeni proses-tolerant çoxmədəniyyətlilik paradiqması yaranmaqdadır. Bu paradiqma təkcə öz mədəni - etnik mühitini deyil, milli mədəniyyətlərin bütün imkanlarının dinc birliyinə əsaslanan qlobal sosiumun dəyər yönümləri sistemini əks etdirir. Çoxmədənilik tolerantlığı xalqın dünya mədəniyyətinə məqsədyönlü qovuşması, müxtəlif xalqların mədəniyyətlərinin mədəni-tarixi və müasir təcrübəsinin mənimsənilməsi prosesidir. Çoxmədənilik tolerantlığı qlobal transformasiyanın, inteqrasiyanın, açıq cəmiyyətlərin təsiri altında meydana gəlmişdir. Bu baxımdan Azərbaycanın çoxmədəniyyətli tolerantlıq mühitində dillərin, dinlərin, mədəni dəyərlərin, sosiomədəni amillərin vəhdəti özünü göstərir. “Azərbaycanda yaşayan xalqlar müxtəlif dil ailəsinə mənsub olan dillərdə danışırlar. Azərbaycan Respublikasının Konstitusi-yasında Azərbaycan dilinin rəsmi dövlət dili elan olunmasına baxmayaraq, ölkə əhalisinin danışdığı digər dillərdən də azad şəkildə istifadə olunması və onların inkişaf etdirilməsi üçün şəraitin yaradılması təsbit olunmuşdur” [2]. Azərbaycanda əhalinin 150-200 min nəfəri rus dilini öz doğma dili hesab edir. Buraya etnik ruslarla yanaşı, azərbaycanlılar - ləzgilər, avarlar, ukraynalılar, yəhudilər və s. aiddir.

Azərbaycanın tolerantlıq modeli milli mədəniyyətlərin dəyərləri, ideyaları və ideallarının əsasları üzərində qurulur. Tolerantlıq pinsipləri mədəniyyətlərdə ayrı-seçkiliyə qarşı durur. “Bu konsepsiya etibarlılıq və qarşılıqlı inam mühiti yaratmaq kimi funksiya yerinə yetirir. Məhz bu vəzifə müasir dünyanın inkişafında, müxtəlif xalqların, mədəniyyətlərin birgə mövcudluğu üçün əsas prioritet şərtdir” [1,345]. Tolerantlığın əsas məzmunu həm də millətlər və mədəniyyətlər arasında dialoqdan ibarətdir. Ölkəmizdə birgə, dinc, yanaşı yaşamanın əsasını açıq və ya gizli qarşıdurmalar deyil, mədəniyyətlərin müxtəlifliyinin, çoxmədəni tolerantlığın inkişafı təşkil edir. Etnoeqoizmdən, ksenofobiyadan uzaq olan çoxmillətli Azərbaycanda yaşayan bütün xalqlar tam bərabər hüquqlara malik olduğu halda, monoetnik Ermənistanda açıq-aşkar, qərəzli şəkildə milli azlıqların etnik təmizləmə, terror və zorakılığa məruz qalma siyasəti həyata keçirilir.

“Azərbaycan üçün fərqli baxışlara, adətlərə, vərdişlərə dözümlülük mövqeyi bəsləmək, əlbəttə, təbiidir. Burada xalqların, millətlərin, dinlərin xüsusiyyətlərinə tolerant münasibət xasdır” [3]. Azərbaycan xalqı aborigen azərbaycanlılardan, Azərbaycandan başqa vətəni olmayan avtoxton, eləcə də öz tarixi vətənləri olan alloxton milli azlıqlardan ibarətdir.

Müasir dövr tolerantlıq şəraitində ölkəmizdə milli azlıqlar öz maddi və mənəvi mədəniyyətlərini, dillərini, mentalitetlərini, milli xarakterlərini, tarixi yaddaşlarını, etnik özünüdərketmələrini, etnopsixologiyalarını, etnik identiklərini və mədəni özünəməxsusluqlarını sərbəst qoruyub saxlayırlar. Azərbaycan mədəni müxtəlifliyinin vəhdətinə, tolerantlığına, humanizminə, milli-etnik tərkibinin müxtəlifliyinə görə dünyanın ən nadir ölkələrindən sayılır.

Azərbaycanda müxtəlif xalqların ortaq mədəniyyəti milliliklə ümumbəşəriliyin vəhdətinə əsaslandığından tarixən formalaşmış müxtəlif mədəniyyətlər müasir dövrdə də öz yüksək inkişaf mərhələsini yaşayır.

Müasir dövrdə qədim tarixi köklərə malik, müxtəlif mədəniyyət və sivilizasiyaları qarşılıqlı hörmət və etimad əsasında birləşdirən, özünəməxsus cəhətlərilə fərqlənən, ölkənin milli-mədəni müxtəlifliyini təmin edən Azərbaycan özünün tolerantlıq modeli və dəyərləri ilə bütün dünyaya nümunə olmuşdur.

**Nəticə.** Azərbaycan milli mədəniyyəti ənənəviliyin və müasirliyin, millilik və ümumbəşəriliyin birliyinə əsaslanan mədəniyyətdir. Bu baxımdan Azərbaycanın milli mədəniyyətini onun dili, dini, mənəviyyatı, mədəni-mənəvi, maddi mədəniyyət nümunələri, ədəbiyyatı, incəsənəti, folkloru təşkil edir.

Şərqlə Qərbin sintezindən ibarət Azərbaycanın mili mədəniyyəti dünyanın mədəniyyət xəzinəsinə tolerant prinsiplərilə daxil olmuşdur. Zəngin, unikal milli-mənəvi dəyərlərilə fərqlənən Azərbaycan mədəniyyətində zərdüştilik, xristianlıq, islam mədəniyyətləri, Şərq, Qərb, Qafqaz, İran, slavyan, ümumtürk mədəniyyətləri ehtiva olunduğundan Azərbaycan mədəniyyəti öz harmonik inkişafını tolerantlıq prinsipləri əsasında bu gün də davam etdirməkdədir. Xalqımızın qlobal transformasiya şəraitinə, yeni sosiomədəni reallığa uyğun olaraq, milli şüurunda tolerantlıq prinsipləri əsasında yaranan mədəni müxtəlifliyin ahəngdar inkişaf modeli dünya mədəni məkanına nümunə ola biləcək ən optimal inteqrasiya vasitəsidir.

## ƏDƏBİYYAT


1. Hacıyev A.N., Məmmədov İ.M. Multikulturalizmə giriş. Bakı, Mütərcim, 2018, 372 s. ebooks. azlibnet. az. book 11 nat. 24.01.2019.pdf.
2. Heydər Əliyev Fondunun rəsmi səhifəsi.heydar-aliev-fundation org.
3. Kunina İ.Qafqazda multikulturalizm: Azərbaycan modeli.// Multikulturalizm: nailiyyətlər və problemlər.//http://bakuforum.az/az/multikulturalizm-nailiyyetler-ve-problemler/?fid=2258/10.02/2016
4. Mehdiyev R. Güclü Azərbaycan dövləti qloballaşma şəraitində milli ideyanın təcəssümü kimi //https: azertac.az./store/files/butia faykllar/ ramiz mehdiyev. naviy.polf. 15.07.2019
5. Mehdiyev R. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi //AMEA-nın Fəlsəfə İnstitutunun “Elmi əsərləri”, “Scientific works”, Bakı, 2011, N1(16), s.17-34
6. Tağıyev Ə. Milli kimlik və multikultural proseslər. Bakı, Gənclik, 2017, 204 c.
7. Бжезинский З. Великая шахматная доска. Москва, Международное отно-шение. 2009, 280 с.
8. Каракотова С.М., Кейчуева Д.М. Формирование этнической и межконфессиональной толерантности личности средствами духовной культуры // Международный журнал прикладных фундаментальных исследований, 2014, №4, с. 17-26
9. Леонтев А.А. Россия: многокультурность и толерантность // Век толерантности. Выпуск 1-2. tolerance.ru/ VT -1-2 rossiya php. Rr Page-VT
10. Толерантность и культура межнационального общения. Учебно-методи-ческие пособие. Краснодар: Просвещение-Юг, 2009, 307 с.


## SUMMARY

**Nigar Huseynova**

### THE ROLE OF THE PRINCIPLES OF TOLERANCE IN THE DEVELOPMENT OF MODERN AZERBAIJANI CULTURE

The article examines the socio-philosophical aspects of the idea of tolerance in the national culture of Azerbaijan, penetration into the Azerbaijani community and the implementation of such values as national identity, identity, cultural diversity and pluralism. The process of turning our country into one of the rare places in the world due to the unity, tolerance and humanism of the existing cultural diversity is based on the principles and principles of the common culture of different

peoples living on the basis of nationality and synthesis. Other problems are analyzed in a socio-philosophical context.

**The aim** is to study the role of the principles of tolerance in the development of modern Azerbaijani culture from a socio-philosophical point of view.

**Methodology -** The article uses systemic, dialectic, theoretical, cultural and political approaches.

**Scientific novelty -** The role of the principles of tolerance in intercultural relations in Azerbaijani philosophy is carefully analyzed based on new sources.

***Key words:*** *Azerbaijan, national culture, development, principles of tolerance, art culture, traditional and modern culture, geopolitical center, strong state, national identity*

## РЕЗЮМЕ

**Нигяр Гусейнова**

## РОЛЬ ПРИНЦИПОВ ТОЛЕРАНТНОСТИ В РАЗВИТИИ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ

В статье рассматриваются социально-философские аспекты идеи толерантности в национальной культуре Азербайджана, проникновения в азербайджанскую общину и реализации таких ценностей, как национальная идентичность, самобытность, культурное разнообразие и плюрализм. Процесс превращения нашей страны в одно из редких мест в мире благодаря единству, терпимости и гуманизму существующего культурного разнообразия основан на принципах общей культуры разных народов, живущих на основе синтеза национальностей и анализа других проблем в социально-философском контексте.

**Целью** является изучение роли принципов толерантности в развитии современной азербайджанской культуры с социально-философской точки зрения.

**Методология -** В статье использованы системные, диалектические, теоретические, культурные и политические подходы.

**Научная новизна** - Роль принципов толерантности в межкультурных отношениях в азербайджанской философии тщательно анализируется на основе новых источников.

**Ключевые слова:** *Азербайджан, национальная культура, развитие, принципы толерантности, художественная культура, традиционная и современная культура, геополитический центр, сильное государство, национальная идентичность*

***Məqaləni çapa təqdim etdi:*** *Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:*** *03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *12 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 136-141
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 136-141
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 136-141

**AZAD BAYRAMOV**
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**UOT: 94(479.24)**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN XARİCİ SİYASƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ

*Yüz illik yubileyinin təntənə ilə qeyd edilməsi Cənab Prezident tərəfindən göstəriş verilən Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik ölkə olmaqla bir çox ilklərin əsasını qoydu. Az bir zaman içərisində yenicə istiqlaliyyət əldə etmiş gənc ölkənin qarşısında duran ən mühüm məsələlərdən biri də Azərbaycanın Xalq Cümhuriyyətinin de-fakto tanınması yolunda yorulmadan, səylə çalışması idi. Yaranmış çətin şəraitdə istər qardaş Osmanlı Türkiyəsi ilə, istər Avropa ilə, istərsə də Rusiya ilə münaibətləri qaydaya salmaq, mehriban qonşuluq siyasəti yeritmək, Avropa ölkələri tərəfindən Azərbaycanın müstəqilliyini tanıması yolunda əlindən gələni əsirgəməmək Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin başlıca istiqamətləri idi. Cəmi 23 aylıq hakimiyyət dövründə Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin ən mühüm nailiyyəti isə elə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin istər dünyanı yenidən bölmək uğrunda təşkil olunnmuş Paris sülh konfransında iştirak edən dövlətlər tərəfindən, istərsə də qonşu dövlətlər tərəfindən de-fakto tanınması idi.*

***Açar sözlər***: *xalq, parlament, siyasət, xarici, nazir, Türkiyə, konfrans, dünya*

Milli Şuranın mayın 28-də keçirilən ilk iclasında çıxış edənlər Azərbaycanın müstəqil respublika elan edilməsinin vacib olduğunu bildirdilər. İclasda Azərbaycanın istiqlaliyyətinin elan edilməsi haqqında qərar qəbul olundu və altı bənddən ibarət olan "İstiqlal bəyannaməsi"ndə müstəqil dövlətin xarici və daxili siyasətinin əsas istiqamətləri göstərildi [1]. Azərbaycan Respublikası yarandığı ilk gündən etibarən fəal xarici siyasət kursu həyata keçirməyə başladı. Azərbaycan Xarici İşlər Nazirliyi Osmanlı hökumətinin Xarici İşlər Nazirliyinə Azərbaycan Milli Şurasının və F.X.Xoyskinin başçılıq etdiyi hökumət kabinəsinin yaradılması haqqında məlumat verdi. Mayın 30-da isə Nazirlər Şurasının sədri F.X.Xoyskinin Azərbaycan Respubilkasının yaranması ilə bağlı məlumatı radioteleqrafla bütün ölkələrin Xarici İşlər Nazirliklərinə göndərildi. Həmin dövrdə yenicə müstəqilliyini elan etmiş dövlətin beynəlxalq münasibətlər sisteminə qoşulması prosesi asan deyildi və müxtəlif çətinliklərdən keçirdi. Hətta bunu nəzərə alaraq, xarici işlər naziri M.H.Hacınski Türkiyə Xarici İşlər Nazirliyinə müraciət edərək Osmanlı dövlətinin Avropa ölkələrində, eləcə də Moskvada fəaliyyət göstərən türk səfirlikləri vasitəsilə Azərbaycanla Avropa dövlətləri arasında vasitəçi olmağa razılıq verib-verməməsini soruşurdu [2]. Qeyd olunmalıdır ki, həmin vaxt müxtəlif ölkələrdəki türk səfirlikləri Azərbaycan Respublikasının yaradılması haqqında dünya ictimaiyyətinə məlumatın çatdırılmasında mühüm rol oyna-mışdır.

`Batum danışıqlarının yekununda, iyunun 4-də Türkiyə, Azərbaycan və Ermənistan arasında "Sülh və dostluq" haqqında müqavilə imzalandı. Azərbaycan Respublikasının xarici dövlətlərlə imzaladığı bu ilk müqavilədə Azərbaycanla Osmanlı hökuməti arasında daimi sülh və dostluq əlaqələrinin bərqərar olacağı, Azərbaycan, Gürcüstan və Ermənistanın öz aralarında tezliklə sərhədləri müəyyən edəcək protokol imzalaya-caqları, əgər ehtiyac olarsa, dinclik və asayişi möhkəmləndirmək, ölkənin asayişini təmin etmək üçün Osmanlı hökumətinin Azərbaycan Respublikasına hərbi yardım göstərəcəyi bildirilirdi [9]. Müqavilədə Azərbaycan hökumətinin onun sərhədyanı ərazilərində yaradılmış silahlı quldur dəstələri tərksilah etməyi öz üzərinə götürdüyü, konsulluq kovensiyası məsələsi, dəmiryol yüklərinin daşınmasında tərəflərin öhdəlik götürmələri,

Brest-Litovsk müqaviləsinin tərəflər arasında qüvvədə olduğu qeyd edilirdi. 4 iyun müqaviləsini imzalamaqla aydın oldu ki, Azərbaycan yenicə istiqlaliyyət əldə etməsinə baxmayaraq, beynəlxalq nüfuz qazanmaq üçün böyük cəhdlər göstərir. Sonradan 4 iyun müqaviləsinə əlavə olaraq iki saziş də imzalandı. Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanan birinci saziş Bakı-Batum neft kəməri ilə bağlı idi və tərəflər razılığa gəlirdilər ki, öz ərazilərində neft kəmərinin təhlükəsizliyini təmin etsinlər. Bu saziş Azərbaycanın neft sənayesinin inkişafına mühüm təsir göstərərək, onun dünya bazarına çıxarılmasına təminat yaradırdı. Dəmir yollarına aid olan ikinci saziş isə Osmanlı Türkiyəsi, Azərbaycan, Gürcüstan və Ermənistan arasında imzalandı. Sənəddə keçmiş Rusiya dövlətinin mülkiyyəti olan dəmir yolu nəqliyyat vasitələrinin müqaviləni imzalayan tərəflərin ərazi hüdudlarına müvafiq olaraq onlar arasında bölüşdürülməsi nəzərdə tutulurdu.

Azərbaycan Respublikasının 1918-ci ilin yayında Bakının azad edilməsi ilə bağlı apardığı diplomatik mübarizə özünün tarixi əhəmiyyəti ilə seçilir. Həmin dövrdə Bakı Osmanlı İmperiyası, Almaniya, Böyük Britaniya və Sovet Rusiyası arasında geosiyasi mübarizə məkanına çevrilmişdi [3]. Sovet Rusiyası Azərbaycan hökumətinə bolşeviklərin yaratdığı Bakı Xalq Komissarları Soveti vasitəsilə təsir göstərirdi. Azərbaycan üçün bu cür çətin və mürəkkəb bir dövrdə Almaniya ilə Sovet Rusiyası arasında Brest-Litovsk müqaviləsinə əlavə olaraq 27 avqust sazişi imzalandı.

Xarici işlər naziri Əhməd Nəsim bəy Azərbaycan, Gürcüstan və Ermənistan arasındakı münasibətlərin qarşılıqlı razılıq və anlaşma əsasında formalaşmasının vacib olduğunu qeyd edirdi [6].Ə.M. Topçubaşov türk ordusunun Bakını azad etdiyinə, Azərbaycan ordusunun yaradılmasındakı köməyə, həmçinin Nuru paşanın rəhbərlik etdiyi İslam Ordusunun Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərinə görə hərbi nazir Ənvər Paşaya öz təşəkkürünü bildirdi. Ə.M. Topçubaşov Tələt Paşa kabineti istefa verdikdən sonra da yeni hökumət üzvləri ilə görüşlər keçirmiş və Azərbaycanın milli maraqlarının müdafiəsi uğrunda fəal diplomatik mübarizə aparmışdır. Onun bu müddət ərzində İstanbulda keçirdiyi çoxsaylı görüşlər və diplomatik danışıqlar Azərbaycan Respublikasının müstəqil xarici siyasət aparmağa qabil olduğunu göstərirdi. 1918-ci ilin payızında Almaniya-Türkiyə blokunun dünya müharibəsində məğlub olması və oktyabrın 30-da Türkiyənin Mudros barışığının ağır şərtlərini qəbul etməsi Azərbaycan Respublikası üçün arzuedilməz hadisə oldu [7].

Mudros müqaviləsinin 11-ci maddəsində Türkiyə ordusunun tezliklə Azərbaycanı və Zaqafqaziyanı tərk etməsi nəzərdə tutulurdu [8]. Azərbaycandakı türk ordusunun dəstələrinə bir həftədən gec olmayaraq Bakını, bir aydan sonra isə bütün Azərbaycanı tərk etmələri haqqında ultimatum verildi. Müqavilənin 15-ci maddəsinə görə, Türkiyənin nəzarəti altında olan Zaqafqaziya dəmir yolu müttəfiqlərin nəzarətinə verildi. Həmçinin bu müqavilə müttəfiqlərin Batumu tutmasına da şərait yaradırdı. Yaranmış vəziyyətdən çıxış yolu tapmaq üçün nəyin bahasına olursa-olsun, yenidən diplomatik danışıqları davam etdirmək və Azərbaycanın beynəlxalq vəziyyətinin yaxşılaşdırılması yönündə mühüm tədbirlər görmək vacib idi. Mudros müqaviləsinin şərtləri noyabrın 3-də rəsmi şəkildə elan edildikdən bir gün sonra Ə.M.Topçubaşov sənədin Azərbaycanla bağlı hissəsinə etiraz əlaməti olaraq, Osmanlı Hökumətinin Xarici İşlər Nazirinin müavini Rəşad Hikmət bəyə nota göndərdi. Etiraz notasında Osmanlı hökumətinin Azərbaycan Respublikasını tanımasına baxmayaraq, Bakı şəhəri haqqında maddənin Mudros müqaviləsinə daxil edilməsinin beynəlxalq hüququn prinsiplərinə zidd olduğu bildirilir və Mudros barışığında Azərbaycanın mənafeyinə zidd olan məsələləri həll etmək üçün Azərbaycan hökumətinin birbaşa və yaxud Osmanlı hökumətinin vasitəçiliyi ilə diplomatik danışıqlar aparması zəruri hesab edilirdi [9].

Milli Şuranın noyabrın 16-da keçirilən iclasında Azərbaycanın müstəqilliyini tanımaq barədə bütün dünya dövlətlərinə müraciət qəbul edildi. İclasın qərarına əsasən Nazirlər Şurası sədrinin general V.Tomsona göndərdiyi teleqramda bildirilirdi: "Hökumət əmindir ki, müttəfiq ordunun Azərbaycana gəlməsi Azərbaycan hökumətinin daxili işlərinə qarışmadığı surətdə istiqlaliyyətimizə və məmləkətimizin təmamiyyətinə xəta toxunmaz"[10]. General V.Tomson cavab teleqramında Azərbaycan hökuməti ilə əməkdaşlığa hazır olduğunu qeyd edirdi. O, sonrakı çıxışlarında da Böyük Britaniya komandanlığının Azərbaycan hökumətinə və onun Baş nazirinə böyük ehtiramgöstərdiyini, yeni koalisyon hökumət təşkil olunana qədər hazırkı höku-mətin Azərbaycanda yeganə qanuni

hökumət olaraq qaldığını vurğulayırdı. Əslində, V.Tomsonun bu mövqeni tutması Azərbaycan hökumətinin onunla diplomatik danışıqları uğurla və məharətlə aparmasından irəli gəlirdi. Milli Şura Avropa dövlətləri ilə beynəlxalq əlaqələrin yaradılmasında demokratik prinsiplərin göstərə biləcəyi təsiri də nəzərə alırdı. Azərbaycanda parlament üsul-idarəsinin təsis edilməsi Avropa dövlətləri ilə əlaqələrin yaradılmasında mühüm addım ola bilərdi. Bu məqsədlə Milli Şuranın noyabrın 16-dakı iclasında parlament üsul-idarəsinin yaradılması məsələsinə baxıldı və noyabrın 19-da seçki qanunu qəbul edildi. Dekabrın 7-də parlamentin ilk iclasının keçirilməsi Azərbaycan Respublikasının istər daxili, istərsə də xarici siyasət sahəsində mühüm hadisə oldu. İclasda F.X.Xoyski hesabat xarakterli məruzə ilə çıxış etdi, milli hökumətin daxili və xarici siyasətinin xüsusiyyətləri və qarşıda dayanan vəzifələr haqqında məlumat verdi. O, xarici siyasət sahəsi ilə bağlı çıxış edərkən Azərbaycanın ətrafında yaranmış beynəlxalq vəziyyətə aydınlıq gətirməyə çalışırdı. Dekabrın 26-da yeni hökumət kabinəsi yaradıldı və bu hadisədən iki gün sonar müttəfiqlərin Bakıdakı nümayəndəsi general V.Tomson Azərbaycan hökumətini tanıdığını bəyan etdi. Bəyanatda bütün Azərbaycan ərazisində Azərbaycan koalisyon hökumətinin yeganə qanuni hakimiyyət olduğu və müttəfiq hərbi qüvvələrin komandanlığının bu hökumətə hərtərəfli yardım göstərəcəyi bildirilirdi.

Azərbaycanın İstanbuldakı nümayəndəsi Ə.M.Topçubaşov sülh konfransında Zaqafqaziya respublikalarının vahid nümayəndəliklə iştirak etməsini nəzərdə tutaraq, dekabrın 16-da Azərbaycan Respublikası Nazirlər Şurasının sədrinə məktubunda qeyd edirdi ki, yaranmış tarixi şəraitdə Qafqaz xalqlarının dövlət müstəqilliyinin tanınmasının yeganə yolu azərbaycanlıların, gürcülərin və ermənilərin birgə addım atmalarından keçir: "Bu xalqların milli siyasi ideallarında hər hansı fərq olursa-olsun, indi onların hamısının müstəqilliyi sülh konfransında birgə işlərdən və birgə çıxışlardan asılıdır" [11].

Bu məqsədlə Zaqafqaziya konfederativ nümayəndəliyinin yaradılmasını nəzərdə tutan memorandum hazırlanmış, Fransa, İngiltərə, ABŞ, İtaliya, Yunanıstan və Yaponiyanın diplomatik nümayəndəliklərinə təqdim edilmişdir.

Prezident V.Vilson Azərbaycan Respublikasından olan nümayəndələrin Versal sülh konfransına buraxılmasının məqsədəuyğun olduğunu qeyd etdi. O, Ə.M.Topçubaşovu Azərbaycan nümayəndə heyətinin başçısı kimi qəbul etməyin tərəfdarı olduğunu bildirdi. Azərbaycan nümayəndə heyəti Fransaya gəldiyi ilk gündən etibarən Azərbaycanın siyasi, iqtisadi və hərbi vəziyyəti ilə bağlı məsələləri Avropa dövlətlərinin bu ölkədəki diplomatik nümayəndələrinin diqqətinə çatdırmaq üçün fəaliyyətə başladı. Mayın 23-də Azərbaycan nümayəndələri ilə ingilis nümayəndə heyətinin üzvü Luiz Mallet arasında görüş keçirildi. Mayın 28-də Ə.M.Topçubaşovun ABŞ nümayəndə heyətinin üzvü Q.Morqentau ilə görüşündə isə ABŞ-ın Azərbaycan hökumətinə maliyyə yardımı göstərməsinin mümkünlüyü məsələləri müzakirə olundu. Azərbaycan nümayəndə heyətinin üzvləri üçün ən mühüm hadisə onların mayın 28-də ABŞ Prezidenti V.Vilson tərəfindən qəbul edilməsi idi. Azərbaycan nümayəndə heyətinin rəhbəri Ə.M.Topçubaşov Prezident V.Vilsona müraciət edərək Azərbaycanın Millətlər Cəmiyyətinə buraxılacağına və ABŞ tərəfindən Azərbaycana yardım göstəriləcəyinə ümid etdiyini bildirdi. O, çox vaxt Avropa və Amerika mətbuatında Azərbaycan haqqında qərəzli və saxtalaşdırılmış yazılar dərc edildiyini və bu konfransda V.Vilsona əsl həqiqətlər haqqında məlumat vermək üçün imkan yarandığını qeyd etdi. Ə.M.Topçubaşov azərbaycanlıların, gürcülərin, ermənilərin və dağlıların konfederasiyasını yaratmağın mümkün olduğunu vurğulayaraq, Qafqaz Azərbaycan Respublikası nümayəndələrinin memorandumunu V.Vilsona təqdim etdi. Həmin tələblərdə Azərbaycanın müstəqilliyinin tanınması, Vilson prinsiplərinin Azərbaycan Respublikasına da aid edilməsi, Azərbaycan nümayəndələrinin sülh konfransına buraxılması, Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul edilməsi, ABŞ-ın hərbi departamentinin Azərbaycana hərbi yardım göstərməsi, ABŞ və Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin yaradılması məsələləri irəli sürülürdü [12]. Azərbaycan nümayəndə heyəti bu tələblərin ABŞ tərəfindən qəbul ediləcəyi halda, Azərbaycanın çar Rusiyasına olan borclarını tədricən ödəyəcəyinə də təminat verirdi. Təəssüf ki, Azərbaycan tərəfinin bu tələbləri V.Vilson tərəfindən qəbul edilmədi və o, Azərbaycanın istiqlaliyyətinin tanınması məsələsini açıq saxlayaraq, ABŞ-ın dünyanı kiçik hissələrə bölmək

niyyətində olmadığını bildirdi.

Həmin dövrdə Azərbaycan hökumətinin xarici siyasətinin əsas istiqamətlərindən birini Fransa, İtaliya və Böyük Britaniya kimi dövlətlərin mandatlığına Azərbaycanın münasibətini müəyyənləşdirmək təşkil edirdi. Millətlər Cəmiyyəti yaradıldıqdan sonra meydana gələn mandatlıq məsələsi Paris sülh konfransında da əsas müzakirə mövzularından biri idi. Bu məsələnin mahiyyətini dünyanın aparıcı dövlətlərinin Millətlər Cəmiyyətindən mandat aldığı ərazinin sosial-iqtisadi, siyasi və mədəni inkişafı üçün həmin qurum qarşısında məsuliyyət daşıması təşkil edirdi. Azərbaycan hökuməti özünün milli təhlükəsizliyini, hər şeydən əvvəl müstəqilliyini qoruyub saxlamaq üçün həmin dövrdə dünyada böyük nüfuzu olan dövlətlərdən biri ilə strateji tərəfdaşlıq münasibətləri qurmağı və ondan yardım almağı məqsədəuyğun hesab edirdi. Sözsüz ki, bu məsələdə Azərbaycan Respublikasına Türkiyədən yaxın dövlət ola bilməzdi. Lakin Türkiyənin Birinci dünya müharibəsindəki məğlubiyyəti bu strateji tərəfdaşlığı çətinləşdirmişdi. Eyni zamanda, Millət Cəmiyyətinin mandatlıq sisteminin özü Almaniya və Türkiyənin məğlubiyyətindən sonra bu ölkələrin keçmiş müstəm-ləkələrini idarə etmək zərurətindən yaranmışdı.

1919-cu ilin ortalarında yaranmış beynəlxalq vəziyyət, o cümlədən Kolçak və Denikin ordularının məğlub olması və Rusiyada bolşeviklərin güclənməsi Azərbaycan hökumətindən çevik xarici siyasət aparmağı tələb edirdi.

ABŞ-da fəaliyyət göstərən "Müstəqil Ermənistanın Amerika Komitəsi" bu ölkənin siyasi dairələrində Azərbaycan haqqında böhtan və yalan yaymaqla məşğul idi və bu mənfur niyyətlər Azərbaycan xalqını gözdən salmağa yönəlmişdi. Azərbaycan hökuməti ermənilərin bu cür iyrənc məqsədlərini ifşa etmək və Azərbaycanla bağlı həqiqətləri Amerika ictimaiyyətinin diqqətinə çatdırmaq üçün bu ölkədə lazımi təbliğat aparmağı vacib hesab edirdi. Həmin dövrdə Azərbaycan hökumətinin razılığına əsasən, Ə.M. Topçubaşov Nyu-York şəhərindən olan hüquq məsləhətçisi Valter Çandlerlə iki müqavilə imzaladı. Müqavilənin şərtlərinə görə, V.Çandler Azərbaycan nümayəndə heyətinin təbliğat məsələləri üzrə hüquq məsləhətçisi təyin edilirdi və o, göstərilən müddət ərzində Azərbaycan Respublikasının milli maraq və mənafelərini müdafiə etmək missiyasını öz üzərinə götürürdü. Eyni zamanda, iqtisadçı Maks Rabinov da Azərbaycan nümayəndəliyində işə qəbul edildi və bu şəxs dünya qiymətlərinə uyğun olaraq, Azərbaycandan neft alınması və digər iqtisadi məsələlərlə məşğul idi. Göründüyü kimi, Azərbaycan hökumətinin xarici siyasətində təbliğati və iqtisadi məsələlərə xüsusi diqqət yetirilirdi. Həmin vaxt Azərbaycanla Böyük Britaniya və Fransa kimi dövlətlər arasında iqtisadi və ticarət əlaqələrinin yaradılması istiqamətində mühüm addımlar atıldı. Xüsusilə, Fransa-Qafqaz Komitəsinin təşəbbüsü ilə oktyabrın 4-də keçirilən və Azərbaycan, Gürcüstan, Fransa işgüzar dairələrinin iştirak etdiyi Qafqaz konfransı mühüm əhəmiyyət daşıyırdı. Oktyabrın ortalarında Fransa Respublikasının Ticarət və Sənaye Nazirliyinin nümayəndəsi Bakıya səfər edərək, Azərbaycanın Xarici İşlər naziri M.Y.Cəfərovla danışıqlar apardı. Görüş zamanı Fransa tərəfinin nümayəndəsi öz ölkəsi ilə Azərbaycan arasında dostluq əlaqələrinin yaradılmasının vacib olduğunu bildirdi.

1920-ci ilin yanvarından aprelinədək Sovet Rusiyasının Azərbaycana qarşı ardıcıl təzyiqlər göstərməsi vəziyyətin mürəkkəbliyindən xəbər verirdi. Təbii ki, Azərbaycan hökuməti Rusiya tərəfinin notalarına öz münasibətini bildirirdi. Yanvarın 6-da N.Yusifbəylinin sədrliyi altında Azərbaycan Dövlət Müdafiə Komitəsinin iclasında Sovet Rusiyasının Azərbaycan və Gürcüstanla hərbi saziş bağlamaq təklifi müzakirə edildi. Müzakirələrin sonunda qəbul edilən qərarda Azərbaycan Respublikasının müstəqil dövlət olaraq Sovet Rusiyası ilə qarşılıqlı münasibətlər yaratmaq üçün danışıqlar aparmağa hazır olduğu bildirildi. Yanvarın 14-də Xarici İşlər naziri F.X.Xoyski G.Çiçerinə cavab notasında qeyd edirdi ki, "Azərbaycan Respublikası gələcəkdə bitərəf dövlət olmasına baxmayaraq, öz azadlığının və müstəqilliyinin hər cür xarici qəsdlərdən müdafiə edilməsində tamamilə yekdildir. Buna görə də Azərbaycan hökuməti Denikinlə, onun həmişə Azərbaycan xalqının müstəqilliyinə qəsd etdiyinə görə, qızğın mübarizə aparırdı və bunun müvəffəqiyyətli olması məqsədilə qonşu gürcü hökuməti ilə hərbi müdafiə ittifaqı bağladı. Azərbaycan hökuməti tərəfindən qəbul edilmiş yuxarıda qeyd edilən xarici siyasətin istiqaməti ona Azərbaycan və digər xalqlar

arasında mehriban münasibətlərin qurulmasına göstəriş verir. Buna əsasən Azərbaycan hökuməti danışıqlar yolu ilə hər iki dövlətin müstəqilliyi prinsiplərindən irəli gələn rus və Azərbaycan xalqları arasında mehriban qonşuluq münasibətləri yaratmağa hazırdır".

Çətin şəraitdə, nəhayət ki, Avropa dövlətləri öz qərarlarını verdilər. Yanvarın 11-də Ali Şuranın qəbul etdiyi qərarda bəyan edildi ki, "müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar". Fevralın 7-də Yaponiya hökuməti də Ali Şuranın bu qərarını müdafiə etdiyi halda, ABŞ bu məsələni rəsmi surətdə dəstəkləmədiyini bildirdi. Həmin vaxt ABŞ hökumətinin mövqeyi bundan ibarət idi ki, Birləşmiş Ştatlar Böyük Britaniyanın və Fransanın Azərbaycana və Gürcüstana yardım göstərməsinə etiraz etmir, lakin onların müstəqilliyinin tanınmasını Rusiyanın parçalanması kimi dəyərləndirir. Azərbaycan Respublikasının müstəqilliyinin Paris sülh konfransında tanınması Azərbaycan hökumətinin, xüsusilə Azərbaycan nümayəndə heyətinin uğurlu xarici siyasəti və diplomatik fəaliyyəti nəticəsində mümkün oldu. Bu tarixi hadisə Azərbaycanda böyük təmtəraqla qeyd edildi.

Həmin dövrdə Avropa dövlətlərinin Bakıda konsulluqları fəaliyyətə başladı, Azərbaycan hökuməti ilə ABŞ, Böyük Britaniya və İtaliya arasında iqtisadi əlaqələrin qurulması yönündə mühüm işlər görüldü. Azərbaycanla İran arasında diplomatik münasibətlər yaradıldı. Martın 20-də Azərbaycan Respublikası ilə İran arasında dostluq haqqında müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin böyük uğurlarından biri idi. Müqavilənin birinci maddəsinə görə, İran hökuməti Azərbaycan Respublikasının müstəqilliyini de-yure tanıdığını bəyan etdi. 1920-ci il aprelin 15-də Azərbaycan parlamentində Avropa dövlətlərinə və ABŞ-a diplomatik nümayəndəliklər göndərmək haqqında qanun layihəsi müzakirə edildi. Parlamentin aprelin 19-da keçirilən iclasında isə Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis etmək haqqında qanun qəbul olundu. Azərbaycan hökumətinin 1920-ci ilin aprel böhranına qədərki dövrdə xarici siyasət sahəsində qazandığı nailiyyətlər xalqımızın milli istiqlaliyyətinin tanınmasında mühüm rol oynamışdır. 1918-1920-ci illərdə xarici siyasət kursunun müəyyənləşməsində və mühüm diplomatik uğurların qazanılmasında Ə.M.Topçubaşov, F.X.Xoyski və M.Hacınski kimi şəxsiyyətlərin böyük əməyi vardır. 1918-20-ci illərdə aparılan xarici siyasət dünyada Azərbaycanın sivil, demokratik respublika kimi tanınmasında böyük rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə /Baş red. Yaqub Mahmudov B., Lider, 2004, c. I. 440 s; 2005, c. II.- 472 s.r). B., Elm, 2001, c. v. 672 s.
2. Azərbaycan Xalq Cümhuriyyətinin 82-ci ildönümünə həsr olunmuş Respublika elmi konfransının materialları /Red. hey. Mustafazadə T.T., Qafarov T. B., və b. B., Elm, 2000, 130 s.
3. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика. (Документы и материалы). Баку, 1998
4. Armaoğlu Tahir. 20 Yüzyıl siyasi tarihi (1914 -1980). Ankara, 1989
5. Baskın Oran. Türk Dış politikası.Kurtuluş savaşından bugüne. Olqular, belqeler, yorumlar. (cilt I, 1919 -1980). İstanbul, 2002
6. Swietochowski T. Russian Azerbaijan/ 1905-1920. Cambridge, 1985
7. Wolf, Stuart (ed). Nationalism in Europe 1815 to the Present London: Routledqe, 1996
8. Azərbaycan tarixi. Yeddi cilddə.(1900-1920-ci illərdə), Bakı, 1998
9. Aşırlı A. Cümhuriyyət dövri mətbuatında Qafqaz İslam Ordusu /Rəyçi Şamil Vəliyev. B., Nurlan, 2007, 185 s.
10. Abdullayev M. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq münasibətlər sistemində /Mahir Abdullayev. Beynəlxalq münasibətlər tarixi (XX əsr). B., 2003, s. 64-88
11. Hacıyeva Almaz. Beynəlxalq münasibətlər tarixi (1871-1919-cu illər). Dərs vəsaiti. Bakı, 2001
12. Cəmil Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993

**SUMMARY**

**Azad Bayramov**

**THE BASIC DIRECTIONS OF THE FOREIGN POLITICS OF THE AZERBAIJAN DEMOKRATIC REPUBLIC**

Centenary of the Azerbaijan Democratic Republic was the first democratic country in the east to found the first of many, including 100 th anniversary celebrated by Mr. President instructed.One of the most important issues facing the country de facto recognition of the Azerbaijan Democratic Republic in a short time gained independence recently, it was hard work tirelessly towards youth.The main trends in the foreign policy of the Democratic Republic of Azerbaijan were in the difficult conditions, in order to regulate relations with fraternal Ottoman Turkey, Europe or Russia, to introduce good neighborhood policy and to recognize the independence of Azerbaijan by European countries. During the 23-month rule, the most important achievement of the foreign policy of the Democratic Republic of Azerbaijan was the de facto recognition of the independence of the People's Republic of Azerbaijan by the states participating in the Paris Peace Conference organized for the redistribution of the world.

***Key words**: The people, the parliament, ministers, foreign policy, Turkey, conferences, world*

**РЕЗЮМЕ**

**Азад Байрамов**

**ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ**

По указу президента, было поручено торжественное празднование столетней годовщины Азербайджанской Демократической Республики, являющиеся первой демократической страной на Востоке, которая заложила основы многих стран. Одна из наиболее важных проблем, стоящих перед молодой страной, которая недавно обрела независимость,является неустанная и усердная работапризнанием Азербайджанской Демократической Республики де-факто. Основными направлениями внешней политики Азербайджанской Демократической Республики в сложной ситуации было необходимо установить отношения с братской Османской Турцией, Европой или Россией, ввести добрососедскую политику, также велись усилия, направленные на признание независимости Азербайджана европейскими странами. Важнейшим достижением внешней политики Азербайджанской Демократической Республики в течение 23 месячного правления стало фактическое признание независимости республики, участвующими в Парижской мирной конференции, проводимой для перераспределения мира.

***Ключевые слова:** народ, парламент, политика, внешняя, министр, Турция, конференция, мир*

---

***Məqaləni çapa təqdim etdi:** Fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev*
***Məqalə daxil olmuşdur:** 03 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:** 12 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 142-144
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 142-144
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 142-144

# İQTİSADİYYAT

**AĞARZA RÜSTƏMOV**
**MEHRİBAN İMANOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.43**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA AQRAR SEKTORUN ROLU

*Məqalədə əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sahənin rolu geniş təhlil edilmişdir. Aqrar bölmənin inkişafına dövlət qayğısı, həmin sahədə son dövrlərdə keçirilən islahatlar, aqrar sahəyə dövlət qayğısı, eyni zamanda idarəetmə mexanizminin təkmilləşdirilməsi məsələləri ətraflı şəkildə təhlil edilmişdir.*

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, aqrar islahatlar, intensiv inkişaf, aqrar məhsullar idxalı, torpaq islahatı, sosial-iqtisadi inkişaf, aqrolizinq və s.*

Bütün dövrlərdə kənd təsərrüfatı iqtisadiyyatın ən mühüm sahələrindən biri olmaqla, ölkə əhalisinin ərzaq, yüngül və yeyinti sənaye sahələrinin isə xammala olan tələbatının ödənilməsində önəmli rola malik olmuşdur. Əhalinin istehsal etdiyi gündəlik tələbat məhsullarının $\frac{3}{4}$ hissəsi kənd təsərrüfatlı təbiət olduğundan bu sahə bilavasitə cəmiyyət üzvlərinin yaşayış səviyyəsini xarakterizə edən maddi istehsal sferası kimi xarakterizə olunur. Kənd təsərrüfatı cəmiyyətin həyatında sosial-iqtisadi səviyyə daşımaqla yanaşı, eyni zamanda siyasi və strateji əhəmiyyətə də malikdir. Kənd təsərrüfatının sosial-iqtisadi əhəmiyyəti onun önəmli istehsal sahəsi olmaqla cəmiyyətin ilkin təbii ehtiyatlarının qarşılanmasında oynadığı rolla şərtlənir. Hər bir ölkədə ərzaq məhsullarının qıtlığı və istehlak bazarında kəskin qiymət artımının baş verməsi fonunda cəmiyyətdə yarana biləcək ziddiyətlərin vətəndaş sülhünün və sabitliyin pozulmasına gətirib çıxarması, kənd təsərrüfatının strateji əhəmiyyəti isə onun bilavasitə dövlətin ərzaq müstəqilliyinin təmin edilməsində önəmli, daha doğrusu, əvəzedilməz maddi istehsal sferası kimi çıxış etməsi ilə xarakterizə olunur.

Zahirən elə görsənir ki, kənd təsərrüfatı sadə istehsal sahəsidir, amma maddi istehsalın digər sahələrinə görə kənd təsərrüfatının özünəməxsus mürəkkəb cəhətləri var ki, onlar aşağıdakılardır:

- kənd təsərrüfatında torpaq əsas istehsal vasitəsi kimi çıxış edir;
- torpaq resurslarının məhdudluğu və bu baxımdan kənd təsərrüfatının təşkilindən asılı olan intensiv amillərə əsaslanma labüdlüyü;
- kənd təsərrüfatı istehsalının mövsümi xarakter daşıması, istehsal dövrü ilə iş dövrü arasında uyğunsuzluğun mövcudluğu;
- kənd təsərrüfatı istehsalının təbii-iqlim şəraitindən asılılığı;
- kənd təsərrüfatının az gəlirliliyi;
- kənd təsərrüfatının daxili və xarici rəqabətin əlverişsiz təzahürlərinə effektiv reaksiya göstərmək iqtidarında olmaması.

Müstəqillik əldə etdikdən sonra ilk islahatlar məhz Naxçıvan Muxtar Respublikasından başlamışdır. Bildiyimiz kimi, Naxçıvan Muxtar Respublikasında aparılan aqrar islahatların əsas mənbəyi məhz ondan ibarət olmuşdur ki, yeni yaranaraq, fəaliyyət göstərərək kənd təsərrüfatı qurumları təşəbbüskarlığa və sərbəst fəaliyyətə malik olmaqla, öz maddi-texniki imkanlarından daha səmərəli istifadə edə bilsinlər. Eyni zamanda bu prosesdə iri texnoloji istehsalların xüsusi mülkiyyətə daha səmərəli uzanması və inkişafı prosesi baş verə bilər. Çünki ayrılıqda xırda təsərrüfat subyektləri və fermerlər

özlərinin hüquqi-təşkilati formasına, müəyyən rentabellik göstəriciləri səviyyəsinin olmasına baxmayaraq, müəyyən təsərrüfatçılıq fəaliyyətinə nail olsalar da, səmərəli kooperasiya və inteqrasiya əlaqələri olan iri kənd təsərrüfatı müəssisələri ilə ciddi rəqabət aparmaq səviyyəsində deyillər.

"Torpaq islahatı haqqında "Azərbaycan Respublikasının Qanununun 1996-cı ildə qəbul edilməsinə baxmayaraq, bu məsələnin təməli əslində Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisində rəhbərlik etdiyi dövrdə 1992-ci ildə Culfa rayonunun Şurut və Kal kəndlərindəki torpaqlarının kəndlilərə verilməsi ilə qoyulmuşdur. Torpaq vətəndaş münasibətlərində həyata keçirilən tarixi –inqilabi hadisənin birinci mərhələsinin yekunlarını Ulu Öndər olduqca yüksək qiymətləndirərək deyirdi:

"Biz, torpaq islahatının aparılmasında radikal tədbirlərə əl atmışıq. Deməliyəm ki, nəticə idealdır. Özü də bu, hələlik, başlanğıcdır".

Beləliklə, H.Əliyev təşəbbüsü və rəhbərliyi ilə ümumxalq müzakirələrindən sonra torpaq proqramı hazırlandı və həmin proqram əsasında torpaq islahatlarının həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı. İndi qürurla deyə bilərik ki, ölkəmizdə aparılan torpaq islahatları tarixə "Heydər Əliyev torpaq islahatları" modeli kimi düşdü. Burada eyni zamanda deyə bilərəm ki, Ulu Öndər Heydər Əliyevin çıxışlarından birində qeyd etmişdir ki, "Kənd əhalisini zorla deyil, psixoloji cəhətdən hazırlamaq lazımdır ki, onlar özləri kəndlərdə torpaqların özəlləşdirilməsinin üstünlüyünü görüb, torpaqlarının özəlləşdirməsini tələb etsinlər.

Naxçıvan Muxtar Respublikasında torpaqların və eyni zamanda kolxoz və sovxozların mülkiyyətinin özəlləşdirilməsinin ilk mərhələsi 2000-ci ildə başa çatdırıldı: 205 kənd 138 kolxoz, sovxoz və birlikləri əhatə edən islahatlar nəticəsində 70 763 ailəyə və ya 24046 nəfərə, 42 043 torpaq sahəsi verilib"

Yuxarıda göstərdiyimiz islahatların və idarəetmənin təkmilləşdirilməsinin nəticəsidir ki, hal-hazırda muxtar respublikada yüksək sürətlə və dinamik inkişaf edir. Görülən tədbirlərin nəticəsidir ki, 2018-ci ildə muxtar respublikada 480 milyon manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,48% çoxdur.

Muxtar respublikada əkinəyararlı torpaqların məhdud həcmdə olması səbəbindən kənd təsərrüfatının inkişafında intensiv amillərin roluna diqqət artırılmış, əl əməyini yüngülləşdirən az vaxtda daha çox iş görməyə imkan verən texnika və avadanlıqların gətirilməsi 2018-ci ildə də davam etdirilmiş ,"Naxçıvan Aqrolizinq ASC" xətti ilə 321 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası gətirilmiş, məhsul istehsalçılarına 5156 ton mineral gübrə güzəştli şərtlərlə verilmişdir.

Xüsusilə 2018-ci ildə xeyli torpaq əkin dövriyyəsinə cəlb olunmuşdur. Keçən il Kəngərli rayonu Böyükdüz kəndi ərazisində 616 ha sahəni əhatə edən qapalı suvarma şəbəkəsi qurulmuşdur. Son dövrlərdə muxtar respublikada aqrar bölmədə üzümçülük, tütünçülük, meyvə-tərəvəz, heyvandarlıq, baramaçılıq, kartofçuluq və digər sahələr yüksək templə inkişaf etmişdir. Təsərrüfatın yeni formaları, xüsusilə "Ailə təsərrüfatları" yaranır ki, bu yeni yaranan təsərrüfatlar dövlət qayğısı ilə yüksək dərəcədə əhatə olunur və həmin təsərrüfatlar inkişaf etdirilir.

Bütün bunların nəticəsidir ki, muxtar respublikada kənd təsərrüfatı məhsullarını idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir. Lakin bir cümləni də qeyd etmək lazımdır ki, bunun üçün istehsalçılar qarşısında vəzifə qoyulur ki, ixrac olunan məhsullar dünya standartlarına cavab verməlidir.

## ƏDƏBİYYAT


1. Bağırov E. "Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı". Bakı, 2015, s.193
2. Azərbaycan Respublikasının Konstitusiyası
3. Alıyev İ.H. Azərbaycan Rspublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı, Elm, 2003, 315 s.
4. Abbasov T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf problmləri. Bakı, 2006
5. Əlirzayeva T.Ə. Əlirzayev Ə.T. Əhalinin gəlirləri və istehlakın maliyyə mexanizmləri. Elm, 2007

**SUMMARY**

**Agharza Rustamov, Mehriban Imanova**

**THE ROLE OF THE AGRICULTURAL SECTOR IN ENSURING FOOD SAFETY OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

The article analyzes the role of the agricultural sector in ensuring food security of the population. The issues of state care for the development of the agrarian sector, recent reforms in this area, as well as the improvement of the management mechanism have been analyzed in detail.

***Key words:*** *food security, agrarian reforms, intensive development, import of agricultural products, land reform, socio-economic development, agro-leasing, etc.*

**РЕЗЮМЕ**

**Агарза Рустамов, Мехрибан Иманова**

**РОЛЬ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ОБЕСПЕЧЕНИИ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

В статье анализируется роль аграрного сектора в обеспечении продовольственной безопасности населения. Подробно проанализированы вопросы государственной заботы о развитии аграрного сектора, недавние реформы в этой сфере, а также совершенствование механизма управления.

***Ключевые слова:*** *продовольственная безопасность, аграрные реформы, интенсивное развитие, импорт сельскохозяйственной продукции, земельная реформа, социально-экономическое развитие, агролизинг и др.*

***Məqalə daxil olmuşdur:*** *04 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 iyun 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 145-149
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 145-149
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 145-149

**NAZİM ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.43**

# AQRAR SEKTORUN İNKİŞAFINDA ƏSAS ŞƏRT NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİ TƏMİN ETMƏKDİR

*Regionların sosial-iqtisadi inkişafı dövlətin regional siyasətindən asılıdır. Dövlətin regional siyasəti ölkə ərazisinin tarazlı inkişafına istiqamətləndirilmiş siyasətin tərkib hissəsidir. Regional siyasətin obyektiv əsasını ölkə ərazisinin təbii iqlim şəraitinin, təbii ehtiyatların iqtisadi və sosial inkişafın, istehsalın ixtisaslaşması səviyyəsi, maddi-texniki təminatın, əhalinin məşğulluğunun, adət-ənənələrinin müxtəlifliyi və habelə hər bir regionun xüsusiyyətləri təşkil edir.*

***Açar sözlər:*** *Naxçıvan, aqrar sektor, ərzaq təhlükəsizliyi, taxıl, kartof, üzüm, tərəvəz*

Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafı siyasəti konkret ərazinin xüsusiyyətlərini nəzərə almaqla sosial-iqtisadi, elmi-texniki, ekoloji sahədə həyata keçirilən tədbirlər sistemidir. Regionlarda yerli xammal və materiallardan, təbii ehtiyatlardan və əmək resurslarından səmərəli istifadə etməklə bazar iqtisadiyyatı prinsiplərinə əsaslanaraq aqrar sektorun qarşısına çox böyük vəzifələr qoyulmuşdur.

Ölkədə sosial-iqtisadi inkişafı sürətləndirmək və problemləri kompleks həll etmək məqsədilə 15-dən çox dövlət proqramı həyata keçirilməsinə baxmayaraq, "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərmanında orta müddətdə qarşıda olduqca ciddi və yeni vəzifələr qoyulmuşdur. Bu fərmanla aqrar sektorda islahatların ikinci mərhələsinə başlanmasının əsas istiqamətləri müəyyən edilmişdir.

Ölkə Prezidentinin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" bir çox məsələlərin həlli üçün geniş imkanlar açmışdır. Bu proqram regionların yerli xüsusiyyətləri nəzərə alınmaqla aqrar sektorun inkişaf etdirilməsi üçün konkret tədbirləri özündə əks etdirmişdir.

Aqrar sektorda makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi ilə yanaşı, regionların, hər bir rayon üzrə aqroservis xidmətlərinin, toxumçuluğun, baytarlıq xidmətinin, aqrokimyəvi xidmətin inkişaf etdirilməsi, mövcud olan emal müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması və yenilərinin yaradılması məqsədilə konkret tədbirlər müəyyənləşdirilmişdir.

2004-2008-ci illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası artıq aqrar sektorda öz müsbət nəticələrini vermişdir. Beş il ərzində həyata keçirilən kompleks tədbirlər nəticəsində ölkədə 27,5 mindən çox yeni müəssisə yaradıldı, 547,5 min daimi yeni iş yeri açıldı, yoxsulluğun səviyyəsi 69 faizdən 13,2 faizədək azaldıldı. Ölkədə istehsal olunan ümumi daxili məhsul istehsalı 2,6 dəfə, qeyri-neft sektorunda 1,8 dəfə artım əldə olundu və əhalinin gəlirləri isə dörd dəfədən çox artdı.

Birinci dövlət proqramının davamı olaraq 2009-cu il 14 aprel tarixli fərmanla "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na dair ikinci və 27 fevral 2014-cü il tarixli fərmanla "Azərbaycan Respublikası regionlarının 2014-2018-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na dair üçüncü Dövlət Proqramı qəbul olundu.

Aparılan təhlillər onu deməyə əsas verir ki, birinci dövlət proqramı kimi ikinci və üçüncü dövlət proqramları da müvəffəqiyyətlə icra olunmuşdur. Regionların sürətli iqtisadi inkişafı təmin edilmişdir.

Məlumdur ki, ölkəmizdə ilk iqtisadi rayonlaşdırma məsələsinə hələ 1956-cı ildə başlanılmış və 12 iqtisadi rayon müəyyənləşdirilmişdir. Lakin rayonlaşma müəyyən mübahisəli məsələlər olduğundan keçən əsrin 80 və 90-cı illərində bu məsələlər daha da təkmilləşdirilərək 10 iqtisadi rayon şəbəkəsi müəyyən edilmişdir.

İqtisadi rayonlar aşağıdakılardır:

1. Abşeron iqtisadi rayonu;
2. Quba-Xaçmaz iqtisadi rayonu;
3. Şəki-Zaqatala iqtisadi rayonu;
4. Dağlıq Şirvan iqtisadi rayonu;
5. Gəncə-Qazax iqtisadi rayonu;
6. Kəlbəcər-Laçın iqtisadi rayonu;
7. Yuxarı Qarabağ iqtisadi rayonu;
8. Aran iqtisadi rayonu;
9. Lənkəran iqtisadi rayonu;
10. Naxçıvan iqtisadi rayonu.

Yuxarıda göstərilən iqtisadi rayonlar içərisində Naxçıvan iqtisadi rayonu özünün xüsusi çəkisinə və inkişaf sürətinə görə qabaqcıl yerlərdən birini tutur. Bu iqtisadi rayonun sahəsi 5,5 min kvadrat kilometr, əhalisi isə 01.01.2019-cu il tarixə 456 min nəfərdir.

Naxçıvan iqtisadi rayonunun tərkibinə Naxçıvan, Culfa, Ordubad şəhərləri, habelə Babək, Kəngərli, Sədərək, Şərur, Şahbuz inzibati rayonları daxildir.

Tarixin müxtəlif inkişaf mərhələlərində ölkəmizə qarşı torpaq iddiaları ilə ərazilərini genişləndirmək fikrində olan nankor qonşularımız 1988-1990-cı illərdə yenidən sərhədlərimizi pozub məkrli işğal planlarını həyata keçirməyə cəhd göstərdilər. Məhz bu planların ölkə üçün ağır nəticələrindən biri də muxtar respublikanın blokada vəziyyətinə salınması olmuşdur. Məhz həmin illərdə muxtar respublikamızda blokadanın acılarının və çətinliklərinin hər bir sahəyə mənfi təsir göstərməsinə baxmayaraq, burada iqtisadiyyatın gələcək inkişafı üçün hazırlanmış planlar mərhələli şəkildə həyata keçirilirdi. Muxtar respublika iqtisadiyyatının bütün mərhələlərində inkişafın insan sağlamlığı ilə paralel aparılması isə diqqətçəkən məqamlardandır. Bunu isə bu gündən o dövrə nəzər salarkən daha aydın şəkildə görmək mümkündür.

Məhz həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ulu öndər Heydər Əliyev kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm qərarlar qəbul etmişdir.

Ali Məclisin 1992-ci il aprel ayının 6-da həyata keçirilən sessiyasında "Naxçıvan Muxtar Respubli-kasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai malqarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmışdır. Ölkədə ilk dəfə torpaq islahatının muxtar respublikamızda həyata keçirilməsində əsas məqsəd blokada vəziyyətində yaşayan Naxçıvanın iflic olmuş iqtisadiyyatının dirçəldilməsi, eyni zamanda əhalinin sağlamlığında başlıca şərt olan rifah halının yaxşılaşdırılması idi. Bu islahatların həyata keçirilməsi nətic]əsində məhsul bolluğu yarandı, ailələr keyfiyyətli məhsullarla təmin olundu [9]

Sonrakı illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2014-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", həmçinin "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi muxtar respublika iqtisadiyyatının inkişafında müstəsna rol oynayaraq Naxçıvanın davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması,

məşğulluğun təmin olunması üçün geniş imkanlar açmışdır.

Yuxarıda qeyd olunan dövlət proqramları, imzalanan fərman və sərəncamların hər biri ilə tanış olarkən bu sənədlərdə muxtar respublika iqtisadiyyatının inkişafı ilə yanaşı, əhalinin sağlamlığının da başlıca amili kimi götürülməsinin şahidi oluruq. Bütün bunlar, yəni muxtar respublikada qida məhsulları istehsalının artması təbii ki, əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasına yönəldilmişdir. Yerli istehsal artdıqca mənşəyi məlum olmayan məhsulların muxtar respublikaya gətirilməsinin qarşısı alınır, idxal tədricən aşağı düşür və ixrac potensialı artır. Təkcə bir faktı demək kifayətdir ki, əgər muxtar respublikada 1995-ci ildə ticarət dövriyyəsində idxal 90 faiz təşkil edirdisə, bu rəqəm 2017-ci ildə cəmi 8 faiz təşkil etmişdir.

Beləliklə, muxtar respublikadan ixrac olunan məhsulların xüsusi çəkisi əgər 1995-ci ildə cəmi 10 faiz təşkil edirdisə, görülən işlər, aparılan iqtisadi islahatlar nəticəsində ixrac potensialı sürətlə artaraq 92 faizə qalxmışdır [8].

Statistik materialların təhlili həm də onu deməyə əsas verir ki, 2017-ci ildə muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsulları istehsalının həcmi 1995-ci ilə nisbətən 12 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, muxtar respublika əhalisinin qida məhsulları ilə etibarlı təminatı sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən biridir. Son illərdə qida təhlükəsizliyinin təmin edilməsi, qida məhsullarının keyfiyyətinin yüksəldilməsi və ixrac potensialının artırılması sahəsində nəzərə çarpan nailiyyətlər əldə edilmişdir.

Görülmüş tədbirlərin davamı olaraq muxtar respublikada əhalini təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin etmək, qida məhsullarının təhlükəsizliyinə nəzarət sisteminin səmərəliliyini daha da artırmaq qarşıdakı dövr üçün də əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir. Bu məqsədlə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyası Avropa Birliyi ölkələri tərəfindən beynəlxalq akreditasiyadan keçirilmiş və cəmiyyət tərəfindən verilmiş keyfiyyət sertifikatları ilə ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaranmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda aqrar islahatların əsasının ilk dəfə olaraq 1992-ci ildə Naxçıvanda qoyulması sonrakı illərdə aqrar sektorun sürətli inkişafını təmin etmişdir.

Statistik materialların təhlili göstərir ki, muxtar respublikada kənd təsərrüfatı bitkilərinin əkin sahəsi kifayət qədər artırılaraq 2007-ci ildəki 49396 hektardan 2018-ci ildə 61935 hektara çatdırılmışdır.

Əkin sahələrinin genişləndirilməsi nəticəsində Naxçıvan MR-də bitkiçilik məhsulları istehsalı artmışdır. Belə ki, son 18 ildə (2000-2018-ci illər) taxıl istehsalı 2 dəfədən çox, kartof istehsalı 4 dəfəyə yaxın, tərəvəz istehsalı 2 dəfə, bostan məhsulları 1,2 dəfə, meyvə və giləmeyvə 2 dəfə, üzüm istehsalı isə 1,1 dəfə artmışdır.

Heyvandarlıq sahəsində də son 18 ildə böyük dəyişikliklər baş vermiş, mal-qara və quşların sayı artmışdır. Muxtar respublikada 2000-ci ilə nisbətən 2018-ci ildə iribuynuzlu mal-qaranın sayı 39936 baş, qoyun-keçilərin sayı 267171 baş, quşların sayı isə 857239 baş artmışdır.

Muxtar respublikada heyvandarlıq məhsullarının istehsalı sahəsində də mühüm nailiyyətlər əldə olunmuşdur. Belə ki, son 18 ildə ət istehsalı (kəsilmiş çəkidə) 2,9 dəfə, süd 1,5 dəfə, yun 1,8 dəfə, yumurta istehsalı isə 1,9 dəfə artmışdır [2].

Hər nəfərə düşən əsas ərzaq məhsullarının istehsalı da xeyli artmışdır. Aşağıda verilən cədvəl məlumatları da bunu deməyə əsas verir.

Cədvəl məlumatlarının təhlili göstərir ki, ayrı-ayrı məhsullar üzrə, o cümlədən taxıl üzrə hər nəfərə düşən məhsul 214,2 kiloqram, kartof üzrə 108,9 kiloqram, tərəvəz üzrə 187,8, meyvə və giləmeyvə üzrə 122,7, ət üzrə 33,1, süd üzrə 184,1 kiloqram, yumurta üzrə isə 191,4 ədəd düşmüşdür. Beləliklə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar

Respublikasının 90 illiyinə həsr olunmuş yubiley iclasındakı çıxışında dediyi kimi Naxçıvan artıq özünün ərzaq təhlükəsizliyini təmin etmişdir.

*Əsas ərzaq məhsullarının istehsalı, hər bir nəfərə il ərzində (kq) [12]*

| İllər | Taxıl (təmizlənəndən sonrakı çəkidə) | Kartof | Tərəvəz | Meyvə və giləmeyvə | Ət | Süd | Yumurta |
|---|---|---|---|---|---|---|---|
| 2000 | 151 | 37 | 118 | 79 | 15 | 151 | 163 |
| 2010 | 237 | 94 | 159,4 | 96 | 25 | 187 | 158 |
| 2018 | 214,2 | 108,9 | 187,8 | 122,7 | 33,1 | 184,1 | 191,4 |

*Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafı, ölkənin kənd təsərrüfatı məhsulları ilə daha dolğun təmin olunmasının, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasını, aqrar islahatların həyata keçirilməsi nəticəsində əldə olunmuş nailiyyətlərin davamlılığını təmin etmək və daha da inkişaf etdirmək məqsədilə tədbirlər sistemi olaraq davam etdirilməlidir.

Strateji istiqamətlər aqrar sahənin inkişafına dövlət köməyinin dəstəklənməsinin genişlənməsinə, mövcud potensialdan səmərəli istifadə etməklə aqrar iqtisadiyyatın davamlı inkişafına nail olmağa, əhalinin məşğulluğuun artırılmasına yönəldilməlidir. Əsas strateji məqsəd aqrar sahənin inkişafı, daxili istehsal hesabına ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsini və ərzaq təhlükəsizliyini təmin etməkdən ibarət olmalıdır.

Fikrimizcə, bu məqsədlərə nail olmaq üçün 2020-ci ilədək aşağıda göstərilən məsələlərin həll edilməsi zəruri hesab edilir:

♦ mövcud istehsal, maliyyə, maddi-texniki və əmək potensialından daha səmərəli istifadə etməklə rəqabət qabiliyyətli ixrac yönümlü məhsul istehsalının artırılması;

♦ istehsalçıların toxum və damazlıq heyvanlara olan tələbatının yüksək səviyyədə təmin edilməsi üçün toxumçuluq və damazlıq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi;

♦ əhalinin ət və süd məhsullarına olan tələbatının ödənilməsinin yaxşılaşdırılması üçün ətlik və südlük istiqamətli özəl təsərrüfatların inkişaf etdirilməsi və bu məqsədlə yem bazasının yaradılmasının dəstəklənməsi;

♦ kənd təsərrüfatı məhsullarının emalı, aqrar infrastrukturunun və xidmətlərin inkişafı, maddi-texniki bazanın möhkəmləndirilməsi üzrə layihə və proqramların hazırlanması və reallaşdırılmasının investisiya proqramlarının dəstəklənməsi;

♦ elmi potensialdan səmərəli istifadə etməklə tədqiqatların istehsalçıların fəaliyyətinin prioritet istiqamətlərinə uyğunlaşdırılması və kadr potensialının gücləndirilməsi və s.

Hesab etmək olar ki, bu istiqamətdə nəzərdə tutulan strategiyanın reallaşdırılması kənd təsərrüfatının və emalın inkişaf etdirilməsinə, xidmət infrastrukturlarının yaxşılaşdırılmasına və bu əsasda əhalinin yoxsulluğunun azaldılmasına və ya tamamilə ləğv edilməsinə təsir göstərəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Azərnəşr, 1995
2. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", 11 fevral 2004-cü il tarixli Fərmanı
3. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", 14 aprel 2009-cu il tarixli Fərmanı
4. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", 27 fevral 2014-ci il tarixli Fərmanı
5. "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə

tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Fərmanı
6. Abbasov A.F. Ərzaq təhlükəsizliyi. Bakı, 2007, 602 s.
7. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərslik, Bakı, 2011, 522 s.
8. Əhmədov N.H. Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı. Naxçıvan, "Əcəmi", 2009
9. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, "Sabah", 2008
10. Əhmədov N.H. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan, "Əcəmi", 2015, 272 s.
11. Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı, 2005, 312 s.
12. Naxçıvan Dövlət Statistika Komitəsinin materialları. Naxçıvan, 2019

**SUMMARY**

**Nazim Ahmadov**

**THE MAIN REQUIREMENT IN THE DEVELOPMENT OF AGRARIAN SECTOR IS TO PROVIDE FOOD SAFETY OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

The issues of providing food safety in Nakhchivan Autonomous Republic are studied deeply in the article. It is mentioned that, it is not possible to provide food safety without developing agrarian sector. Also, rapid development of agrarian sector during the recent years is analyzed widely on the basis of statistic materials.

***Key words:*** *Nakhchivan, agrarian sector, food safety, grain, potato, grape, vegetable*

**РЕЗЮМЕ**

**Назим Ахмедов**

**ОСНОВНОЕ УСЛОВИЕ РАЗВИТИЯ АГРАРНОГО СЕКТОРА ЭТО ОБЕСПЕЧЕНИЕ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

В статье вопросы обеспечения продовольственной безопасности в Нахчыванской Автономной республике становятся объектом широкого исследования. Отмечается, что без развития аграрного сектора нельзя достичь продовольственной безопасности. Также в статье на основе статистических материалов анализируется быстрое развитие аграрного сектора в последние годы.

***Ключевые слова:*** *Нахчыван, аграрный сектор, продовольственная безопасность, зерно, картофель, виноград, овощи.*

***Məqalə daxil olmuşdur:*** *04 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 may 2020-ci il.*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 150-155
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 150-155
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 150-155

**BULQEYİS NOVRUZOVA**
*bulqeyis@yahoo.com*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 338.43**

# İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİNİN SƏMƏRƏLİLİYİ

*XX əsrin sonlarında dünyanın siyasi xəritəsində baş verən dəyişikliklər, iqtisadi inteqrasiya proseslərinin sürətlənməsi, qloballaşma dalğalarının bütün iqtisadiyyatlara nüfuzu, transmilli korporasiyaların güclənməsi, sosial-siyasi çaxnaşmalar iqtisadiyyatı bir resursdan asılı olan ölkələrə ciddi təhlükə yaratmaqla bərabər, onların qarşısında bu asılılığın azaldılması, iqtisadiyyatın şaxələndirilməsi və milli maraqların mühafizə edilməsi kimi ciddi tələblər qoydu.*

***Açar sözlər:*** *iqtisadiyyatın şaxələndirilməsi, milli iqtisadiyyatın şaxələndirilməsi, iqtisadi fəaliyyətin şaxələndirilməsi, sahibkarlıq fəaliyyətinin şaxələndirilməsi, istehsalın şaxələndirilməsi, sənayeləşmənin genişləndirilməsi, neftdənkənar iqtisadiyyat, qeyri-neft sektorunun inkişafı, iqtisadi fəaliyyətin müxtəlifliyi*

Hər hansı bir ölkənin iqtisadiyyatı daha çox bir sektordan asılı olduğu və digər sahələrin inkişafının zəif olduğu hallarda həmin ölkə iqtisadiyyatının diversifikasiyası zərurəti ortaya çıxır. Bu məsələ ilə əlaqədar olaraq, hələ ötən əsrin ortalarında iqtisadi ədəbiyyata "Holland sindromu" termini daxil olmuşdur. Bu hal XXI əsrin əvvəllərində Azərbaycan üçün də xarakterik olmaqla dünya iqtisadiyyatında baş verən böhran nəticəsində özünü daha qabarıq şəkildə büruzə verdi. Demək olar ki, keçid dövrünün bütün mərhələlərində ölkəmiz dünya bazarında əsasən xam neft ilə təmsil olunurdu və bu hal Azərbaycan iqtisadiyyatı üçün ciddi təhlükə hesab olunurdu.

Həmçinin respublikamız bu dövrlərdə qloballaşma proseslərinə qoşulmağa tam hazır olmadığından, yəni bu proseslərə vaxtından daha tez qoşulduğundan bu prosesin subyekti əvəzinə onun obyektinə çevrildi. Məhz bütün bunların nəticəsində ölkədə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı müasir dövrün ən aktual məsələsinə və probleminə çevrilmişdir.

Bu baxımdan Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı sadəcə neft-qaz sektoru ilə əlaqədar olmamalıdır və ölkədə iqtisadiyyatın şaxələndirilməsi tədbirləri həyata keçirilməlidir. Ona görə də qeyri-neft sahələrinin inkişaf etdirilməsinin zəruriliyi artır və bu zaman büdcə-vergi, pul-kredit və investisiya siyasətinin optimallaşdırılaraq ixracın stimullaşdırılması aktuallaşır. Respublikamızın geoiqtisadi tərəqqisi, milli maraqlarının gerçəkləşməsi və ümumilikdə iqtisadiyyatının inkişafı naminə Azərbaycanın regional və qlobal inteqrasiya proseslərinə qoşulması ən aktual məsələlər sırasındadır.

Azərbaycanın son illərdə dinamik inkişafını təmin edən başlıca amillərdən biri iqtisadiyyatının şaxələləndirilməsi siyasətinin uğurla həyata keçirilməsi, habelə prioritet istehsal sahələrinin uzlaşdırılması, inkişaf potensialının qarşılıqlı kömək mexanizmi əsasında reallaşdırılmasıdır. Bir sıra dövlətlərin təcrübəsində uğurla sınaqdan çıxmış, özünü doğrultmuş bu iqtisadi strategiya neftdən əldə olunan gəlirlərin qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsini, özəl sektorun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılmasını nəzərdə tutur. İqtisadiyyatın bütün sahələrinin inkişafı həm də makroiqtisadi sabitliyin qorunub saxlanılması və maliyyə təhlükəsizliyinin təmin olunması baxımından vacib əhəmiyyət kəsb edir.

Milli iqtisadçılarımızın fikrincə, ölkənin gələcək tərəqqisində qeyri-neft sahələri böyük çəkiyə malik olacaqdır. Belə ki, qeyri-neft sahələrinin genişləndirilməsi vasitəsilə dayanıqlı sosial-iqtisadi

tərəqqiyə müvəffəq olunması, iqtisadiyyatın və onun tərkibində qeyri-neft sektorunun şaxələndirilməsi istiqamətlərinin artırılması və ÜDM-in neftdən asılılığının azaldılaraq qeyri-neft sektorunun üstünlüyünün təmin olunması, innovasiyalı milli iqtisadiyyatın yaradılması üçün zəruri investisiya mexanizminin formalaşdırılması və s. bu kimi tədbirlərin həyata keçirilməsi bu gözləntilərin gerçəkləşməsinə imkan verəcəkdir.

Ölkəmizdə qeyri-neft sahələrinin inkişaf problemlərinin araşdırılması Azərbaycanda bu problemlərin həlli istiqamətində mühüm addımların atıldığını və bütün bunların postneft dövründə öz nəticəsini verməyə başladığını deyə bilərik. Belə ki, ötən əsrin 90-cı illərinin ikinci yarısından etibarən Azərbaycanda makroiqtisadi sabitlik, eyni zamanda sosial və siyasi gərginliyin aradan qaldırılması dövrünü müasir şəraitdə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını təmin edən başlıca amil və şərtlərin bünövrəsi kimi xarakterizə etmək olar.

Qeyd edilən dövrdə Azərbaycan iqtisadiyyatında struktur və keyfiyyət dəyişikliklərinin reallaşdırı-laraq onun bazar iqtisadiyyatının prinsiplərinə uyğun şəkildə yenilənməsinə ehtiyac duyulurdu. Aqrar islahatların həyata keçirilməsi, əsas qanunların və normativ hüquqi aktların qəbul edilməsi, özəlləşdirmə proqramlarının qeyri-neft sahələrinə tətbiqi, qiymətlərin və xarici ticarət fəaliyyətinin liberallaşdırılması, sərt pul-kredit, habelə valyuta siyasətinin aparılması, vergi və gömrük qanunvericiliyinin təkmilləşdirilməsi, xarici və daxili investisiyalar üçün əlverişli iqtisadi-hüquqi bazanın yaradılaraq riskin azaldılması, həmçinin neft gəlirlərindən səmərəli istifadə edilməsi həmin istiqamətdə atılan addımların başlanğıcı idi. Bütün bu tədbirlərin ardıcıl və nizamlı şəkildə həyata keçirilməsi XXI əsrin ilk onilliyinin sonlarında Azərbaycanda keçid dövrünün başa çatması ilə yanaşı, qeyri-neft sahələrinin inkişafına, həmçinin iqtisadiyyatın diversifikasiyası üçün lazım olan amil və şərtləri özündə ehtiva edən sosialyönümlü milli iqtisadi inkişaf modelinin formalaşmasına səbəb olmuşdur.

Ölkəmizin keçdiyi iqtisadi inkişaf yoluna nəzər salaraq neft ölkəsi kimi tanınan Azərbaycanın "qara qızıl"ın qiymətindəki ucuzlaşmalardan sonra yeni iqtisadi çağırışlara istiqamətləndiyini demək olar. Belə ki, 2018-ci ildə bütövlükdə Azərbaycan iqtisadiyyatında 1,4 faiz, o cümlədən qeyri-neft sənayesində 2 faizdən, kənd təsərrüfatında isə 3 faizdən çox artım olmuşdur ki, bu da Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatların nəticəsi kimi qiymətləndirilməlidir. İndiki dövrdə ölkə iqtisadiyyatının diversifikasiyası istiqamətində özəl sektorun önəmli rol oynadığını, xüsusilə kiçik və orta sahibkarlığın inkişafının mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmək lazımdır. Hesablamalara görə, hər il əmək bazarına 100 mindən artıq işçi qüvvəsi daxil olacaq, yaxın illərdə isə bu rəqəmin 120 minə çatacağı gözlənilir ki, onların da işlə təminatında kiçik və orta sahibkarlıq subyektləri əsas rol oynayacaqdır.

2017-ci ildə əldə edilən iqtisadi stabillik 2018-ci ildə iqtisadi artıma nail olunmasına imkan yaratdı. 2018-ci ilin iqtisadiyyatında diqqət çəkən ən mühüm məqamlardan biri o oldu ki, Azərbaycan iqtisadiyyatında qeyri-neft sektoru üzrə artımlar ümumi iqtisadi artımları üstələdi. Qeyri-neft ÜDM-ni ümumi daxili məhsulla, qeyri-neft sənayesini sənayedəki artımla müqayisə etsək, böyük fərq olduğunu görərik. Bu, ötən il qeyri-neft sektorunun daha çox və proqnozlaşdırılandan artıq inkişaf etdiyini göstərir. Qeyri-neft sənayesindəki artımın ikirəqəmli olması bir daha təsdiq edir ki, qeyri-neft sənayesi və qeyri-neft sektoru artım faizi baxımından aparıcı mövqeyini qoruyub saxlamışdır. Bu baxımdan 2018-ci il bütün əsas makroiqtisadi göstəricilərdə artımın qorunub saxlanması, eyni zamanda, artım tempinin keyfiyyət baxımından yenilənməsi və iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı imkanların artırılması ilə əlamətdar oldu.

2018-ci ildə həm ölkəmiz, həm də region üçün Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra layihələrin başlaması kimi yadda qaldı. 40 milyard dollardan artıq sərmayəsi olan, region üçün strateji əhəmiyyətli layihə sayılan Cənub Qaz Dəhlizinin açılışı həyata keçirildi. Bu, qonşu Türkiyə bazarına əlavə olaraq 8 milyard kubmetr mavi qazın nəqli, Avropaya ilk mərhələdə 10 milyard, ikinci mərhələdə 20 milyard kubmetr mavi qaz nəqli deməkdir. Bütövlükdə, layihə Avropa və Türkiyə bazarına 31 milyard kubmetrdən artıq mavi qaz nəqlinə, həmçinin Azərbaycanın Cənub Qaz Dəhlizinin reallaşmasından 120 milyard dollardan artıq gəlir əldə edə bilməsinə imkan verəcəkdir.

Eyni zamanda, Azərbaycan xaricdəki investisiya qoyuluşlarını artırmışdır. Belə ki, SOCAR-ın Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda inşa etdiyi "Star" neft emalı zavodu (NEZ) 7 milyon dollara yaxın sərmayə tutumu olan və Türkiyənin enerji məhsullarına olan tələbatını ödəyəcək bir zavoddur. Xüsusən rentabellik baxımından Türkiyə bazarındakı tələbi nəzərə alsaq, bu, Azərbaycanın xarici sərmayələrinin şaxələndirilməsi və gəlirliliyinin artırılması baxımından vacib hesab oluna bilər.

Bütövlükdə, 2018-ci ildə baş verən iqtisadi hadisələr və makroiqtisadi göstəricilərdəki artımı nəzərə alsaq, 2018-ci il növbəti il üçün daha sürətli iqtisadi artım üçün baza formalaşdırdı. Belə ki, ötən il Azərbaycanda təxminən 1 faiz iqtisadi artım qeydə alındığı halda, beynəlxalq təşkilatların proqnozlarına görə 2019-cu ildə iqtisadi artım tempinin 3,6 faizdən çox olacağı qeyd olunur. Fiskal siyasətdə proqnozlaşdırılan artımlar, xüsusən qeyri-neft sektorunun inkişafı hesabına iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı hədəflər 2019-cu ildə sürətli iqtisadi artıma nail olunması üçün bir baza formalaşdırır.

Neftin qiymətlərinin xeyli aşağı düşməsinə rəğmən, ölkədə ümumi daxili məhsulun artımı respublikada iqtisadiyyatın şaxələndirilməsi, neft amilindən asılılığın azaldılması istiqamətində həyata keçirilən siyasətin praktik nəticəsindən xəbər verir. Bu gün ölkədə iqtisadiyyatın neft gəlirlərindən asılılığı yolverilməz hesab edilməklə, neftdən əldə olunan gəlirlərdən milli iqtisadiyyatın çoxqütblü inkişafı naminə səmərəli istifadə olunmasına, qeyri-neft sektorunun daha çox respublikanın bölgələrində inkişaf etdirilməsi yolu ilə sosial və regional tarazlığın qorunmasına səy göstərilir.

İqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm nəticələrindən biri də ölkənin sənaye potensialının son illərdə əhəmiyyətli dərəcədə güclənməsidir. Sənaye potensialının gücləndirilməsi sahibkarlığa kömək tədbirlərinin davamı olmaqla perspektivli, iqtisadi nöqteyi-nəzərdən səmərəli sənaye kompleksinin formalaşmasına imkan verər. Bu çərçivədə həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, son illər qeyri-neft sənayesində müasir müəssisələrin yaradılmasının, o cümlədən texniki avadanlıqlar, metal konstruksiyalar, beton məmulatları zavodlarının, tekstil fabriklərinin və digər müəsisələrin açılıb dəstəklənməsi, sənaye parklarının və məhəllələrinin təşkili işlərinin həyata keçirilməsi, bir sıra mühüm sənaye obyektlərinin tikintisinin başa çatdırılması təqdirəlayiqdir.

Ölkədə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi siyasətinin və onun prioritet istiqamətlərindən olan regionların sosial-iqtisadi inkişafı proqramlarının da müstəsna əhəmiyyəti vardır. Yerli potensial nəzərə alınmaqla ölkənin regionlarında da texnoparkların, sənaye klasterlərinin və sənaye məhəllələrinin yaradılması imkanları araşdırılmalıdır. Yeni yaradılmış sənaye müəssisələrinə, xüsüsən də məhsullarını dünya bazarlarına ixrac edən emal sənayesi müəssisələrinə dövlət dəstəyinin göstərilməsi son dərəcə zəruridir. Onların normal fəaliyyətinə, habelə xarici sərmayədarlarla birgə qlobal layihələr həyata keçirilməsinə etibarlı təminat mexanizmləri yaradılmalıdır.

Yeni iqtisadi şəraitdə ölkəmizdə həyata keçirilən inkişaf strategiyası, ilk növbədə, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması və ixracyönümlü məhsul istehsalına keçməklə iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir. Bu gün ölkəmizin regionlarından biri olan Naxçıvan Muxtar Respublikasında yaradılan ümumi daxili məhsulun həcmi, təqribən, 2,5 milyard manata çatmaqdadır. Bu, bir daha onu göstərir ki, muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilib.

Naxçıvanın iqtisadi inkişafının təhlili göstərir ki, muxtar respublikada daxili bazarın qorunması istiqamətində həyata keçirilən tədbirlər iqtisadiyyatın şaxələndirilməsinə öz müsbət təsirini göstərmişdir. Belə ki, yerli istehsalı mümkün olan, qida təhlükəsizliyi parametrlərinə tamamilə cavab verən, istehsalında yerli xammaldan istifadə edilən əmtəələrin eyniadlı xarici analoqlarından, xüsusilə onların dempinq təsirindən sığortalanması hər bir regionda olduğu kimi, Naxçıvanda da həyata keçirilən iqtisadi tənzimləmə tədbirlərindəndir.

Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər xarici ticarət əlaqələrinin daha da genişləndirilməsinə imkan verir. Naxçıvan məhsullarının xarici bazara çıxarılması məqsədilə lazımi tədbirlərin həyata keçirilməsi onların ixrac imkanlarını daha da artırır. Eyni zamanda muxtar respublikamızda yol infrastrukturu şəbəkəsinin genişləndirilməsi və magistral yolların buraxılış qabiliyyətinin gücləndirilməsi də iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə muxtar respublikasının Şərur rayounda Şərur Sənaye Məhəlləsinin yaradılmasının qərara alınması dövlətimizin ölkənin regionlarının iqtisadi inkişafına göstərilən diqqətin ifadəsidir.

Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı istiqamətində iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Muxtar respublikada aparılan uğurlu iqtisadi nəticəsidir ki, 2019-cu ilin yanvar-iyun aylarında ümumi daxili məhsul istehsalı 1 milyard 279 milyon 637 min manatdan artıq olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1,4 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,9 faiz artaraq 2801 manatı ötmüşdür. Ümumi daxili məhsulun tərkibində ilk yeri 29,9 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 57,6 faiz təşkil etmişdir. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-iyun aylarında sənaye məhsulu 1,4 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,2 faiz, kənd təsərrüfatı məhsulu 2,8 faiz, nəqliyyat sektorunda yük daşınması 2,3 faiz, informasiya və rabitə xidmətləri 3,9 faiz artmışdır.

Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar sırasında Dünya Bankının xüsusi yeri vardır, belə ki, indiyədək Azərbaycanda həyata keçirilən layihələrə Dünya Bankından 4 milyard dollardan çox vəsait cəlb olunmuşdur. 1990-cı ildən bu vaxtadək Dünya Bankı ilə 50-dən çox layihə icra edilmişdir. 2006-2014-cü illərdə ölkədə aparılan infrastruktur quruculuğuna Dünya Bankı yaxından dəstək vermiş və bu illər ərzində daha çox nəqliyyat, enerji təchizatı, kənd təsərrüfatının inkişafı, ekoloji layihələrə diqqət yetirmişdir. Özəl sektorda vergi yükünün azaldılması üzrə əsaslı tədbirlər görülməsinin davamı kimi Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılmasını və starateji yol xəritələrinin qəbul edilməsini göstərmək olar.

Azərbaycanda aparılan iqtisadi islahatlar Dünya Bankı tərəfindən həmişə dəstəklənmiş, ölkə rəhbərliyinin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində əldə olunan nailiyyətlər yüksək qiymətləndirilmiş və Azərbaycanın digər ölkələr üçün örnək olduğu qeyd edilmişdir. Təsadüfi deyil ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışılmış və "Doing Business 2019" hesabatında Azərbaycanın 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığı və 10 ən islahatçı ölkə sırasına daxil edildiyi vurğulanmışdır.

Azərbaycanda iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən müəyyən edilməklə, ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafına, rəqabətqabiliyyətliliyin artırılmasına, dərin iqtisadi şaxələndirməyə, sənayeləşmənin genişləndirilməsinə, sahibkarlığın inkişafına, bunun üçün institusional dəstək mexanizmlərinin təkmilləşdirilməsinə və genişləndirilməsinə, iqtisadiyyatın ixrac potensialının artırılmasına, sənaye sahəsində məşğulluğun genişləndirilməsinə yönəlmişdir. Ölkə başçısı tərəfindən qəbul edilən strateji sənədlərin, strateji yol xəritələrinin, dövlət proqramlarının, fərman və sərəncamların icrası, sahibkarlıq sahəsində dövlət tənzimlənməsinin, dövlət nəzarət sisteminin təkmilləşdirilməsi istiqamətində sistemli işlər və kompleks tədbirlər həyata keçirməklə gələcəyə inkişaf üçün baza yaradan nailiyyətlər əldə oluna bilər.

Son illərdə respublikamızda diversifikasiyalı, neftdənkənar iqtisadiyyat qurulması üçün böyük işlər görülüb, zəruri infrastruktur yaradılıb, hüquqi baza möhkəmləndirilib. Bu kimi amillər isə ölkəmizin yaranmış gerilikdən tez bir zamanda çıxacağına inam yaradır. Həmçinin dövlət başçısının bu istiqamətdə qəbul etdiyi mühüm qərarlar, iqtisadiyyatın daha geniş və səmərəli şaxələndirilməsinə, investisiya qoyuluşunun, ixracyönümlü daxili istehsalın təşviq edilməsinə yönələn fərman və sərəncamlar imzalaması bunu deməyə əsas verir.

Azərbaycanda iqtisadiyyatın dövlət tənzimlənməsi prosesi demokratik prinsiplərə söykənməklə yanaşı, respublikada makroiqtisadi sabitliyin qorunub saxlanılmasına, real sektorun dinamik inkişafına, onun maliyyə təminatının gücləndirilməsinə xidmət edir. Bu məqsədyönlü siyasət öz növbəsində Azərbaycanın 2019-cu ildə də dinamik inkişaf edəcəyinə, qarşıya qoyduğu bir sıra vəzifələri uğurla yerinə yetirəcəyinə etibarlı zəmin yaradır.

Dövlət başçısının iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılması istiqamətində həyata keçirdiyi tədbirlər ardıcıllığı, səmərəliliyi və sistemliliyi ilə diqqəti xüsusi cəlb edir. İ.Əliyevin dediyi kimi: "Biz öz siyasətimizi elə aparmalıyıq ki, guya Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələrində və ilk növbədə, qeyri-neft sektorunda mövcud strukturlar inkişaf etdirilməlidir. Biz yalnız bu yolla Azərbaycanı hərtərəfli inkişaf etmiş dövlətə çevirə bilərik".

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı;
2. “Şərur Sənaye Məhəlləsinin yaradılması və “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu 13 sentyabr tarixli Fərmanı;
3. “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı
4. Abbasov İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, Elm vəTəhsil, 2017, 501-s.
5. Eldar İbrahimov: İqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan islahatlar böyük səmərələr verir, yanvar 2019 *(http://yap.org.az/az/view/news/31352/)*
6. Fərqanə Allahverdi qızı İqtisadiyyatın şaxələndirilməsi uğura aparan əsas amillərdəndir, mart 2019, *(https://vergiler.az/news/taxes/1311.html)*
7. Eskpert: İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı hədəflər 2019-cu ildə sürətli iqtisadi artıma nail olunması üçün baza formalaşdırır, yanvar 2019, *(https://azertag.az/xeber/ 1230309)*
8. Bakıda “İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksək səviyyəli Forum” keçirilib *(https://azertag.az/xeber/1254784)*
9. İqtisadiyyatın şaxələndirilməsi qeyri-neft sektorunun inkişafına xidmət edir, *(http://respublica-news.az/index.php/iqtisadiyyat/item/11213)*


## SUMMARY

**Bulqeyis Novruzova**

## EFFICIENCY OF ECONOMIC DEVELOPMENT MEASURES


World experience shows that the socio-economic development of the country based on only one factor and the dependence of the economy on only one factor is not advisable and poses a threat of crisis. In this regard, it is possible and necessary to reduce the dependence of the country's economy on the oil sector as a result of the dynamic development of all sectors of the economy in Azerbaijan.

Therefore, at the current stage of development of our national economy, diversification of the

economy, prioritization of export-oriented production, changes in customs and tax policies, and structural reforms are priorities of the country's economic policy.

The article explores the essence of economic diversification and its socio-economic significance and the need for its development. Taking the way of economic development of our country into consideration, it has been noted that one of the main factors that has ensured Azerbaijan's dynamic development in recent years is the successful implementation of the policy of diversification of the economy. The results of economic reforms carried out in this direction have been studied and the effectiveness of the efforts to establish a diversified, non-oil economy in our country has been assessed. The role and ways of development of the non-oil sector in eliminating the dependence of the country's economy on the oil sector have been identified.

***Key words:*** *diversification of the economy, diversification of the national economy, diversification of economic activity, diversification of entrepreneurial activity, diversification of production, expansion of industrialization, non-oil economy, development of non-oil sector, variety of economic activity*

## РЕЗЮМЕ

**Булгейис Новрузова**

### ЭФФЕКТИВНОСТЬ МЕРОПРИЯТИЙ ПО ДИВЕРСИФИКАЦИИ ЭКОНОМИКИ

Мировой опыт показывает, что создание социально-экономического развития страны только на одном факторе и зависимость экономики только от одного фактора не считается целесообразным явлением и грозит опасности кризиса.

Поэтому на современном этапе развития национальной экономики диверсификация экономики, перевес производство экспортной направленности, внесение изменений таможенной и налоговой политики, проведение структурных реформ является одним из приоритетных направлений экономической политики страны.

В статье исследовано суть и социально-экономическое значение диверсификации экономики и обоснована необходимость ее развития. Комментируя пройденный путь экономического развития страны было отмечено что, успешное осуществление политики диверсификации экономики является одной из главных факторов, обеспечивающих динамичное развитие экономики Азербайджана в последние годы.

Рассмотрены результаты проводимых экономических реформ в этом направлении и оценены эффективность работы проводимой для установления диверсификационной и ненефтяной экономики в нашей республике. Определены роль ненефтяного сектора в ликвидации зависимости экономики страны от нефтяного сектора и пути развития этого сектора.

***Ключевые слова:*** *диверсификация экономики,* диверсификация *национальной* экономики, диверсификация экономической *деятельности, диверсификации предпринимательской деятельности,* диверсификация *производства, расширение индустриализации, развитие ненефтяного сектора, разнообразие экономической деятельности*

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 156-159
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 156-159
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 156-159

**ÜLVİ BAXIŞLI**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 330**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SAHİBKARLIĞIN İNKİŞAFININ SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİ

*Sahibkarlığın inkişafı iqtisadi tərəqqinin əsas meyarlarındandır. Çünki istənilən bölgənin tərəqqisi sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. İllərdir dünya təcrübəsi də göstərir ki, bazar iqtisadiyyatı şəraitində bu sahəni inkişaf etdirmədən heç bir tərəqqidən, yeniliklərin tətbiqindən, ümumilikdə isə hərtərəfli inkişafdan danışmaq mümkün deyil. Belə ki, insanların artan tələbatlarını ödəyə bilmək, mövcud resurslardan səmərəli istifadə etməklə əhalinin yaşayış səviyyəsini yüksəltmək müasir dövr iqtisadiyyatının əsas prioritetlərindəndir. Bu mənada, Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın əsas amillərindən olan sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, onun rəqabətqabiliyyətliliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən bütün tədbirlər regionun investisiya cazibədarlığının artırılmasında mühüm əhəmiyyətə malikdir.*

***Açar sözlər**: dövlət proqramı, sahibkarlıq, sənaye, iqtisadi artım, həyat səviyyəsi*

Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bazar münasibətləri istiqamətində inkişafı insanların işə olan münasibətini dəyişmiş, onların sahibkarlıqla bağlı maraqlarını daha da gücləndirmişdir. Artıq muxtar respublikada iqtisadiyyatın formalaşmasında özəl sektor, xüsusilə də kiçik və orta sahibkarlıq mühüm rol oynayır.

İqtisadiyyat sahəsində aparılan islahatlar muxtar respublikada bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olmasına şərait yaratmış, investisiyalar, müasir texnologiyalar və idarəetmə təcrübəsi cəlb etməklə rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, yeni iş yerlərinin açılmasına və nəticə etibarilə xalqın maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

Sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə sahibkarlığın hüquqi bazası dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilmişdir. İdarəetmənin və iqtisadiyyatın bütün sahələrində mühüm əhəmiyyətə malik qanunlar, proqramlar və fərmanlar qəbul edilmişdir. Sahibkarlıq infrastrukturunun zəruri mexanizmləri yaradılmışdır. Sahibkarlara maliyyə, informasiya və məsləhət xidmətləri göstərən strukturlar formalaşmışdır. Sahibkarlığın inkişafı üçün zəruri baza formalaşdıran özəlləşdirmə prosesinin birinci mərhələsi başa çatmış, özəlləşdirmə sahəsində II Dövlət Proqramı qəbul edilmişdir. Bunun nəticəsində artıq iri və orta müəssisələrin səhmdar cəmiyyətlərə çevrilməsi və özəlləşdirilməsi növbəti həlledici mərhələyə daxil olmuşdur. Bu mərhələnin həyata keçirilməsində başlıca vəzifə səmərəli sahibkarlıq bölməsinin yaradılmasından ibarətdir.

Naxçıvanda mövcud olan təbii sərvətlərdən və istehsal-əmək ehtiyatlarından səmərəli istifadə ötən dövr ərzində sənaye və kənd təsərrüfatı sahələrində sərmayə qoyuluşlarının həcminin artmasına şərait yaradıb. Region əhalisinin tələbatlarının ödənilməsi, xüsusən də blokada şəraitində zəruri olan məhsulların istehsalı baxımından buradakı özəl sektor qarşısında ilk mərhələdə çox çətin həll edilə biləcək məsələlər idi. Lakin zaman keçdikcə bütün bunlar mərhələli şəkildə həll olunub. Bu mənada, muxtar respublikada sahibkarlıq potensialının formalaşdırılması həmişə dövlətin diqqət mərkəzində saxlanılıb. Dünya təcrübəsinə əsasən biznesə gedən yolda əldə olunan uğurlar təkcə bazarın tələbatı ilə deyil, həm də dövlət və sosial maraqların ödənilməsi ilə mümkündür. Başqa sözlə, sahibkar təkcə öz mənfəəti üçün deyil, həm də biznesi ilə digər insanlar üçün faydalı ola bilirsə, bu zaman o, işində uğur qazanacaqdır. Muxtar respublikamızda sahibkarlığın inkişaf yoluna nəzər saldıqda görürük ki, ötən dövr ərzində özəl sektorun üzərinə düşən vəzifələr, ümumən, bazar iqtisadiyyatı şəraitində

mövcud olan dövlət-vətəndaş-sahibkar münasibətlərinin formalaşması ilə öz həllini tapıb. Bu bir daha sahibkarlığın cəmiyyətimizdəki artan nüfuzundan, onun daşıdığı məsuliyyətin ağırlığından xəbər verir. Əgər bir vaxtlar muxtar respublikamızda sahibkarlar yalnız kiçikhəcmli işlərlə kifayətlənirdilərsə, indi onlar ən müxtəlif istehsal və kənd təsərrüfatı sahələrində, sağlamlıq, turizm, ticarət, digər xidmət sektorlarında genişhəcmli layihələr həyata keçirirlər.

Naxçıvan Muxtar Respublikasında sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötmüşdür. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, bu məhsulların 126 növü ərzaq, 257 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Bu gün muxtar respublikada istər sənayenin, istərsə də kənd təsərrüfatının inkişafı sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait nəticəsində mümkün olmuşdur. Bir faktı qeyd etmək yerinə düşər ki, hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. Sənaye sahəsində məhsul istehsalının 94 faizi, tikintidə görülən işlərin və nəqliyyat xidmətinin 78 faizi, rabitə xidmətinin 82 faizi, kənd təsərrüfatı, ticarət və ictimai-iaşə xidmətlərinin isə 100 faizi özəl bölmənin payına düşür ki, bu da çox yüksək göstəricilərdir. Sahibkarlığa dövlət dəstəyi və onun inkişafı əhalinin məşğulluq səviyyəsinə də əsaslı dəyişiklik yaratmışdır, təkcə 2018-ci ildə muxtar respublikada 2827 yeni iş yeri yaradılmışdır ki, onun da 2782-si və ya 98,4%-i daimi iş yerləridir.

İqtisadiyyatın sənayeləşməsini sürətləndirmək yolu ilə muxtar respublikanın güclü sənaye mərkəzinə çevrilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi öz nəticəsini verməkdədir. Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikasında rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, bunun nəticəsində yeni iş yerləri yaradılıb. Sənaye məhsulları istehsalının ilbəil sürətlə artması da bu sahədə nəzərə çarpan inkişafın əsas göstəricilərindən biri kimi dəyərləndirilir. İnkişafın mühüm göstəricisi olan ümumi daxili məhsulun (ÜDM) tərkibində sənayenin ilk yeri tutması da bunu təsdiq edir. Belə ki, muxtar respublikada 2018-ci ildə 2 milyard 773 milyon 20 min 500 manatlıq ÜDM istehsal olunub ki, onun da tərkibində ilk yeri sənaye sahəsi tutur. Həmin dövrdə sənaye üzrə 621 milyon 450 min manat dəyərində məhsul istehsal edilib. Bu da 2017-ci il ilə müqayisədə 1,6 faiz çoxdur. Onu da qeyd edək ki, hər bir nəfərə düşən ÜDM-in həcmi 2017-ci il ilə müqayisədə 1,9 faiz artaraq 6101 manatı ötüb. Bu, muxtar respublikanın hərtərəfli inkişafının nəticəsidir.

Bu tədbirlərin davamı olaraq qarışıq yem istehsalı, qaynaq çubuğu, kimyəvi tərkibli tikinti materialları istehsalı, plastik tara, tullantı yağların yenidən emalı və bərk sürtkü yağlarının, plastik səbət, xalça, yun və boyaq bitkilərinin tədarükü, Şahbuz rayonunun Badamlı qəsəbəsində "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yeni mineral su istehsalı sahəsi, heyvandarlıq, balıqçılıq, quşçuluq təsərrüfatları, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, soyuducu anbar və müxtəlif xidmətlər üzrə 20 sahənin yaradılması davam etdirilib. 2018-ci ildə muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 50 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 18 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilmişdir. Sənayenin inkişafı üçün bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2018-ci ildə 5 milyon 172 min manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 9,1 dəfə çoxdur.

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları da davamlı olaraq yaxşılaşdırılıb. 2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə, ümumilikdə, 30 milyon 760 min 400 manat məbləğində kreditlər verilib. Bu da bir il öncəki göstəricidən 2,3 dəfə çoxdur.

Muxtar respublikamızda iqtisadiyyatın ən vacib sahəsi olan kənd təsərrüfatında istehsalın və ixracın stimullaşdırılması, məhsulun rəqabətqabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə dövlət dəstəyi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş və icrası uğurla başa çatdırılmış "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)", "2008-2015-ci illərdə Naxçıvan

Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", 2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", həmçinin "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi muxtar respublika iqtisadiyyatını gücləndirib, kənd təsərrüfatının kompleks inkişafını təmin edib.

Əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması muxtar respublikada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması əkinçiliyin inkişafında yeni istiqamətlər açıb, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olub. Bundan başqa, yüksək-keyfiyyətli süd və ət məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılır. Məhz bütün bunların nəticəsidir ki, təkcə 2018-ci ildə 480 milyon 21 min 200 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çoxdur.

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaradıb, 2018-ci ildə 483 milyon 431 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2017-ci illə müqayisədə 5,1% artaraq 424 milyon 266 min 600 ABŞ dolları, 59 milyon 165 min ABŞ dollarını idxal təşkil etmiş və 365 milyon 101 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

Göründüyü kimi, 30 ilə yaxındır, blokada şəraitində yaşasa da, Naxçıvan Muxtar Respublikası hərtərəfli və dayanıqlı inkişafa nail olub. Bütün bunlar əsası ulu öndərimiz Heydər Əliyevin tərəfindən qoyulmuş və ölkə başçısı cənab İlham Əliyev tərəfindən davam etdirilən balanslaşdırılmış sosial-iqtisadi siyasətin, muxtar respublikada ali məclisin sədri, cənab Vasif Talıbov tərəfindən muxtar respublikada uğurla həyata keçirilməsinin əyani göstəriciləridir.

## ƏDƏBİYYAT

1. Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi". Dərs vəsaiti, Bakı, 2010, s. 326
2. Qasımov C.Y., Ələsgərova F.Q. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı: tarixilik və müasirlik" dərslik, Naxçıvan, Əcəmi, 2017, 186 s.
3. Bağırov M.S., Mahmudov C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı problemləri və həlli yolları. Naxçıvan, Əcəmi, 2017, 257 s.
4. http://www.statistika.nmr.az
5. www.economy.gov.az

## SUMMARY

**Ulvi Bakhıshlı**

## SOCİO-ECONOMİC RESULTS OF ENTREPRENEURSHİP DEVELOPMENT İN NAKHCHİVAN AUTONOMOUS REPUBLİC

The article mentions entrepreneurial activities that have been achieved in Nakhchivan Autonomous Republic after being independent. The state programs implemented in this area and the economic efficiency of the projects implemented have been mentioned. It is emphasized that entrepreneurship is the basis of modern market economy and economic growth is impossible without ensuring its development.

The article also mentions interaction and dependence of the entrepreneurship with other fields of economy in Nakhchivan Autonomous Republic. State care for entrepreneurship and results of state programs implemented in this area are indicated by statistical indicators, as well as its comparative analysis.

***Key words:*** *state program, entrepreneurship, industry, economic growth, life standart*

**РЕЗЮМЕ**

**Ульви Бахышлы**

**РЕЗУЛЬТАТЫ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ПРЕДПРИНИМАТЕЛЬСТВА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ**

В статье говорится об осуществлении предпринимательской деятельности в автономной республике после обретения независимости. Здесь затронуты проводимые в жизнь в этой области государственные программы и экономическая эффективность реализованных проектов. Подчёркивается, что предпринимательство является основой современной рыночной экономики и без обеспечения его развития экономическое развитие невозможно.

Также в статье говорится о взаимной связи и зависимости предпринимательства от других отраслей экономики в автономной республике. Здесь показана государственная забота предпринимательству и статистическими показателями приведены результаты проводимых в жизнь государственных программ в этой отрасли, в то же время даны сравнительные анализы.



***Ключевые слова:*** *предпринимательство, Государственная Программа, промышленность, экономический рост, уровень жизни*

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 160-165
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 160-165
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 160-165

**HƏSƏN ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 330**

# İQTİSADİ SAHƏLƏR VƏ TƏNZİMLƏMƏ ƏMƏLİYYATLARI: AQRAR SAHƏNİN SPESİFİK TƏZAHÜRLƏRİ

*Hər bir ölkənin iqtisadi sistemi onun vahid məcmuda birləşdirilmiş sahə və istiqamətlərini ifadə etməkdədir. Müvafiq sistemin mühüm tərkib elementləri sırasında onun sahələri mühüm rol oynamaqdadır. Bəhs olunan məcrada aqrar sahə xüsusi yer tutur. Kənd təsərrüfatının iqtisadi məzmunu onun artım templəri, nisbət etibarı ilə dəyər ifadəsilə birbaşa uyğun gəlməsə də, yəni yeni yaradılan məhsul dəyərcə az olsa da, istehlak baxımından əvəzolunmazdır.*

***Açar sözlər:*** *aqrar sahə, aqrar islahatlar, sahəvi tənzimləmə, tənzimləmə vasitələri, tənzimləmə üsulları*

Əhalinin ərzaq məhsullarına, emal sənayesinin aqrar xammala olan tələbatının ödənilməsində bu sahə böyük rol oynayır. Hal-hazırda aqrar sahə üzrə həyata keçirilən iqtisadi, istehsal və digər yönlərdən olan tədbirlərin məzmunu, fikrimizcə, ilk növbədə aşağıdakı istiqamətləri əhatə etməlidir:

1.Əhali və emal sənayesinin cari dövrdəki real tələbat ifadələrinin sahə tərəfindən qarşılanması;

2.Aqrar sahə tərəfindən istehsal olunan məhsulların bölgü və reallaşdırma baxımından yuxarıdakı istiqamətlər üzrə optimal həcmlərinin müəyyən edilməsi;

3.Əhali sayı və emal sənayesi güclərinin perspektiv dövrlərdə artımını xarakterizə edəcək məhsul istehsalı həcmlərinə nail olunması;

4.Bu sahə üzrə idxala həcmləri üzrə ehtiyacların müəyyən edilməsi və s.

Həyata keçirilmiş tədqiqatlardan aydın olur ki, həm ölkə, həm də muxtar respublika əhalisinin sayında təbii və mexaniki artım müşahidə olunmaqdadır. Bu isə öz növbəsində ərzaqa olan tələbat ifadələrinin artımı ilə müşayiət olunmaqdadır. Diqqətdən yayınmamalıdır ki, son on beş ildə mərkəz və regionlarda irili-xırdalı 100-ə yaxın emal müəssisəsi açılmışdır ki, bu da ilk növbədə meyvəçilik və tərəvəzçilikdə istehlak həcmlərinin yüksəlməsi mənzərəsini sərgiləyir.

Düşüncələrin daha uzunmüddətli olması baxımından onların proqnozlaşdırılan perspektiv dövrləri də əhatə etməsi zəruridir. Qeyd etmək yerinə düşər ki, ölkə rəhbərliyi tərəfindən çoxsaylı "Strateji Yol Xəritələrinin" (o cümlədən birbaşa aqrar sahə ilə əlaqəli olan) hazırlanması, regionların inkişafını özündə xarakterizə edən artıq dördüncü Dövlət Proqramının ardıcıl icrası emal sənayesi baxımından da özündə kifayət qədər tutarlı maddələri əks etdirir. Belə vəziyyət isə istehlak olunacaq aqrar xammalın ümumi və növlər üzrə həcmlərinə, proqnozlaşdırılan tələbat əsasında onların hazır məhsul çeşidləri üzrə məqsədyönlü paylanmasına xüsusi diqqətin yönəldilməsini zəruriləşdirir. Bəhs etdiyimiz məsələlər aqrar sahə üzrə sistemli tənzimləyici fəaliyyətin təşkili və həyata keçirilməsini şərtləndirir.

Kənd təsərrüfatında nizamlayıcı fəaliyyətin icrası birbaşa və dolayı metodlara əsaslanır. Aqrar sahənin tənzimlənməsi zamanı istifadə olunan, fərdi bloklar şəklində ifadə edilmiş birbaşa və dolayı metodlar öz rəngarəngliyi ilə fərqlənir. Birbaşa metodlar sırasında ilk yer dövlət proqnozlarının işlənilməsinə, onların icra zamanı hansı effektlərlə müşahidə olunmasına ayrılmışdır. Vahid sistemin ifadəsi kimi təzahür edən bu proqnozlar öz növbəsində birbaşa araşdırma obyekti haqda məlumat

verməklə yanaşı, onun hansı amillərin təsirinə məruz qalacağı barədə də təsəvvür yaratmalıdır. Aqrar sfera üzrə dövlət proqnozlarının icrasında istər ümumi sahə yanaşması, istərsə də sahə daxilində təşəkkül tapmış ayrı-ayrı elementlərin (məhsul növü, istehsalın təşkili imkanı, təchizat məsələləri və s.) perspektiv dövrdə vəziyyətini xarakterizə edəcək mövqelər aydın ifadə olunmalıdır.

Proqnozlar həmçinin sahə daxilində olan geriləmə və çatışmazlıqların aradan qaldırılmasına xidmət edəcək proqramların işlənilməsinə də imkan yaradır. Sahəvi proqramların məqsəd və vəzifələrindən, əhatə dairəsindən və s. şərtlərdən asılı olaraq, ümumiləşdirilərək iki istiqamətdə işlənilməsi nəzərdə tutulur: a) aqrar sahədə istehsalın və infrastrukturun inkişafı, təkmilləşdirilməsi, bəzi hallarda isə transformasiyasını əhatə edən ümumsahəvi proqramlar (sahənin maddi-texniki bazasının yüksəldilməsini, məhsuldarlığın artırılmasını, sahə üzrə əmək resurslarından istifadəni, infrastruktur təminatının yaxşılaşdırılmasını, sığorta və digər məsələləri əhatə edən proqramlar); b) bu sahənin hər hansı fəaliyyət istiqaməti ilə birbaşa əlaqəli olan konkret proqramlar (taxılçılığın, kartofçuluğun, meyvəçiliyin, heyvandarlığın, arıçılığın və s. istiqamətlərin inkişafına yönələn, bəlli müddətlərlə çərçivələnən Dövlət Proqramları).

Proqnoz və proqramlarla yanaşı, aqrar sahəni əhatə edən planların hazırlanması və həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Müxtəlif miqyasları nəzərdə tutan, fərqli idarəetmə səviyyə və istiqamətlərini əhatə edən planlar məqsəd etibarı ilə həmin sahəyə aid vahidlərdə işlərin daha yaxşı, idarəetmə, təşkilolunma, elmi-texniki tərəqqi və digər amillər əsas götürülməklə, mütərəqqi metodlara əsaslanan təşkilini və istehsalın təkmilləşdirilməsi fonunda məhsul bolluğunun yaradılmasını nəzərdə tutur.

Dövlətin aqrar sahədə hazırladığı müvafiq idarəetmə təyinatlı proqnozlar, həmçinin bir çox hallarda tənzimləmənin alət və vasitələrinə də aydınlıq gətirir. O, gələcək dövrləri əhatə edən və sferanın iqtisadi inkişaf vəziyyətini əks etdirən proqnozların hazırlanmasında çoxvariantlılıq prinsipinə əməl edir ki, bu da perspektiv dövrdə yaranmış real situasiyalar üzrə optimal variantdan istifadəni mümkün edir. Aqrar sahə üzrə işlənilmiş proqnozlar əsasında dövlətin bu istiqamətdə olan inkişaf prespektivləri ilə yanaşı, onun sonrakı dövrlərdə subyektlərlə bağlı atacağı addımlara da aydınlıq gətirilir.

Aqrar sahədə aparılan iqtisadi siyasətin tərkib elementlərindən birini də dövlət mülkiyyəti əsasında formalaşan, ona birbaşa aidiyyatı ilə seçilən (Kənd Təsərrüfatı Nazirliyinin tabeçiliyində olan) subyektlərin yaradılması və fəaliyyətinin təşkilidir. Qeyri-dövlət mülkiyyətinə aid aqrar subyektlərdə planlaşdırma fəaliyyəti əsasən onların özü tərəfindən mikrosəviyyədə aparıldığı halda, dövlət aqrar müəssisələrində bu fəaliyyət birbaşa dövlətin özü tərəfindən icra olunur. Dövlət proqramları hazırlanılmasında əsas məqsədlərdən biri kimi nəzərdə tutulan son nəticələrin əldə etmək üçün ehtiyyatların səfərbərliyə alınması imkanlarının öyrənilməsi çıxış edir. Belə vəziyyətdə dövlət sahənin və ya onun tərkib istiqamətlərinin əsas problemlərinə aydınlıq gətirir və onları hazırladığı proqramlar vasitəsilə aradan qaldırmağa çalışır.

Müasir dövrdə aqrar sahədə tətbiq olunan birbaşa metodlardan biri də sağlam işgüzar, rəqabətədayanıqlı sahibkarlıq mühitinin formalaşması və bu əsasda iri sahibkarlıq subyektlərinin yaradılmasına üstünlüyün verilməsidir. Belə ifadə olunma iki mühüm məqama diqqəti çəkir:

1. Respublikanın, o cümlədən regionun kənd təsərrüfatı bölməsi daha üstün komponentlərə malik sahibkarlıq mühiti ilə əhatə olunmaqdadır. Burada əsas məqsəd – öncəki sosialist sistemindən fərqli olaraq, tələbatın nəbzinin istehsalçılar tərəfindən tutulması, işgüzarlığın artırılması, aqrar istehsalçılar "cəbhəsinin" formalaşdırılması və bu sferada sağlam rəqabət mühitinin bərqərar olması və məqsədyönlü təkamülü, süni təsir elementlərinin hasilat və reallaşdırma məkanlarına təsirinin maksimal dərəcədə aşağı salınması kimi problemlərin müsbət həll olunmasını nəzərdə tutmaqdadır;

2. İstehsal, maliyyə və digər baxımdan böyük imkanlara malik olacaq kənd təsərrüfatı istiqamətinə aid iri təsərrüfatların ölkənin ayrı-ayrı regionlarında yaradılması və zamanla bu tendensiyanın inkişaf etdirilməsi, sürətləndirilməsi. Statistik məlumatlardan aydın olur ki, aqrar sahədə fəaliyyət göstərən təsərrüfatların əksəriyyəti (70%-dən çoxu) orta hesabla 3-3,5 hektar torpaq sahəsinə malikdirlər. Bu isə müəyyən mənada istehsalın həcm-çeşid genişləndirilməsi üçün maneə rolunda çıxış edir. Belə vəziyyətdə çıxış yolu kimi torpaq payları bəlli olan təsərrüfatların

birləşdirilməsi və ya yeni yaradılan subyektlər üçün daha böyük torpaq sahələrinin (məşğuliyyət forması və ixtisaslaşmasından asılı olaraq, ən azı 20-50 hektar) ayrılması göstərilə bilər. Yaranacaq maliyyə-iqtisadi vəziyyət ilk növbədə qənaət rejiminə müsbət təsiri ilə fərqlənəcəkdir.

Nəzərdən yayınmamalıdır ki, Kür-Araz ovalığında artıq bir neçə ildir ki, aparılan ardıcıl və məqsədyönlü meliorasiya və irriqasiya tədbirləri nəticəsində aktiv iqtisadi dövriyyəyə cəlbi mümkün olan istehsala yararlı torpaqların məhs bu məcrada istifadəsi bəhs olunan istiqamətdə daha nəticələr vermək iqtidarındadır. İri təsərrüfatlarda kompleks xərclərin, torpaqların texnika ilə işlənilməsi xərclərinin səviyyələri ən azı 4-5 dəfə aşağı düşür ki, bu da istehsal maya dəyərində və satış qiymətlərində özünün büruzə vermiş olur. Digər tərəfdən, istehsal həcmlərinin növ-çeşid elementləri baxımından artması, qiymətlərin elmi əsaslandırılmış, məqsədyönlü, bazar tələbləri nəzərə alınmaqla təyini subyektlərin maliyyə resurslarının artımı ilə nəticələnir ki, bu da yeni əsas fondların subyektlər tərəfindən əldə olunması, mövcud olanlarının modernləşdirilməsi, daha məhsuldar toxum və heyvan sortlarına, kompleksliliyi ilə seçilən yem növlərinə müraciət olunması və digər bu kimi məsələlərin həllini asanlaşdırır.

Kənd təsərrüfatında tətbiqi mümkün olan birbaşa metodlar, istifadə olunan “yollar” sırasında dövlət sifarişləri və dövlət satınalma sisteminin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Dövlət sifarişlərinin məqsədi dövlət orqanları və sosial xarakterli tədiblər üzrə tələblərin ilk növbədə məhs yerli aqrar istehsal məhsulları hesabına ödənilməsindən ibarətdir. Bu əsasda “dövlət ↔ aqrar sahə istehsalçıları” tandemi nəzərə alınmaqla, qarşılıqlı maraqların (məhsulların həcm, qiymət, keyfiyyət, istifadə imkanları və digər parametrləri üzrə) qorunması zərurəti ilə satınalma imkanlarına sistemli baxış həyata keçirilməli və optimal qərarların verilməsi əsasında mübadilə prosesinə gedilməlidir. Dövlət satınalmalar sistemi vasitəsilə kənd təsərrüfatı məhsullarının tamhəcmli birdəfəlik və ya mərhələli əl dəyişdirməsi baş verə bilər. Müvafiq proseslərin mümkünlüyü, adətən, əlaqəli tenderlərin keçirilməsi əsasında, qarşılıqlı razılşamaların əldə olunması və alqı-satqı müqavilələrin bağlanması yolu ilə mümkün olur. Alqı-satqı əməliyyatları birbaşa pul ödəmələri, barter qaydasında dəyişdirilmə və ya qarışıq formada həyata keçirilə bilər. Dövlət satınalma sistemlərinin tərkibində aqrar məhsulların əldə olunmasına görə ödənişin birbaşa Ali Dövlət İcra Orqanı tərəfindən, ayrı-ayrı orqanların mərkəzi (maliyyə) strukturları tərəfindən və ya artıq təsdiq olunmuş qaydalara riayət etməklə yerli subyektlər tərəfindən icra edilməsi mümkündür.

Kənd təsərrüfatı sahəsi üzrə fəaliyyətin tənzimlənməsində birbaşa metodlarla yanaşı, dolayı metodların tətbiqi də mümkündür və məqsədəmüvafiqdir. Bu metodlar, əsasən, maliyyə-iqtisadi müstəvisinin mühüm istiqamətlərini özündə əks etdirir. Onların sırasında qiymətlərin, yaradılmış ehtiyatlara müvafiq ödənişlərin, vergiqoyma fəaliyyətinin, kreditə görə ödənilən faizlərin və kredit güzəştlərinin, valyuta məzənnələri və valyuta mübadiləsi şərtlərinin tənzimlənməsinin, digər dolayı tənzimləmə metodlarının tətbiqi özünəməxsusluğu ilə fərqlənir. İstehsalda maddiləşmiş əməyin (xərclər formasında) və istehsalçının (satıcı subyektin) gəlirinin məcmu ifadəsi olan qiymət iqtisadi fəaliyyətin mühüm komponenti, tənzimləmə fəaliyyətinin əsas obyektlərindən biri hesab olunur. Aqrar sferada reallaşdırma prosesinin aktiv iştirakçısı rolunda çıxış etməklə o, müxtəlif maddi obyektlərin vahid ifadə formasına (pul şəklində) gətirilməsinə xidmət edir. Kənd təsərrüfatı üzrə tənzimləmə fəaliyyətinin təşkili və həyata keçirilməsi bir sıra spesifik məqamlarla müşayiət olunur ki, onların hər biri üzrə fərdi yanaşmanın tətbiqi zəruridir. Bu iqtisadi kateqoriya bir tərəfdən ayrı-ayrı aqroməhsullar üzrə dövlət satınalma qiymətlərinin açıqlanması ilə tənzimləməyə məruz qalır. Fərqli kənd təsərrüfatı məhsullarına özünün ehtiyac və tələblərini bildirən dövlət eyni zamanda onları hansı qiymətlə əldə edəcəyi barədə istehsalçılara “sifariş” göndərir.

Qiymət səviyyəsi ilə razılaşmayan istehsalçılar həmin məhsulların satışını başqa yollarla da həyata keçirmək imkanına malikdirlər. Ərzaq bazarları, satış-yarmarkalar, fermer mağazaları, yaşıl marketlər, elektron ticarət vasitəsilə, daha yüksək qiymətə barter qaydasında və ya digər üsullarla reallaşdırma mümkünlüyü onlara qanunvericilik normaları tərəfindən tanınır ki, bu da liberal təməl elementlərindəndir. Sadalananlarla yanaşı, həmin məhsulların müəyyən müddət anbarlarda saxlana-

raq digər mövsümlərdə daha yüksək qiymətə satışı da həyata keçirilə bilər. Lakin yaddan çıxarılmamalıdır ki, qeyri-istehsal mövsümlərində dövlət də bir sıra addımların (bir sıra məhsullar üzrə bəzən hətta inzibati) atılması ilə tədbirləri həyata keçirir ki, bu da qiymət səviyyələrinin nisbi sabitliyinin qorunmasına xidmət edir. Bu addımlardan biri kimi digər ölkələrdən (xüsusilə də kənd təsərrüfatı baxımından yüksək inkişafa malik sərhədyanı ölkələrdən) idxal əsasında tələbatın ödənilməsinin təmin edilməsi göstərilə bilər.

Digər birinci dərəcəli əhəmiyyət kəsb etməyən məhsulların qiymətləri, adətən, bazar tarazlığı əsasında müəyyən edilir, belə hallarda əsaslı tənzimləyici addımlardan istifadə olunmur. İstehsal proqnozlarından həcm etibarı ilə daha çox hasil edilmiş məhsulların daxili bazardakı qiymətlərinin stabilliyinin qorunması, yerli istehsalçıların iqtisadi (maliyyə resursları baxımından) müdafiəsi məqsədi ilə də dövlət bir sıra tənzimləmə alətlərindən istifadə etmək iqtidarındandır. Belə ki, xarici partnyorların tapılmasına köməklik göstərilməsi, “yaşıl koridorların” yaradılması daxildə istehsal olunan aqroməhsulların daha sürətlə ixracını təmin etməklə yanaşı, onun qiymətindəki məqbul səviyyəni də tutdurmağa imkan verir.

Nümunəvi təsnifatda “ehtiyatlara görə ödəmələr” adlı maddənin mövcudluğu özünün bəlli mürəkkəbliyi ilə seçilir. Belə ki, burada yaranmış situasiyadan asılı olaraq, bir tərəfdən artıq formalaşdırılmış ehtiyatlara görə nəzərdə tutulan pul və natura şəklindəki ödənişlərdən, digər tərəfdən isə aqrar subyektin nəzərdə tutduğu, yaratmaq istədiyi müxtəlif növlü ehtiyatlara görə sərf edəcəyi məbləğlərdən söhbət gedə bilər. Fikirlərimizi ikinci hissənin üzərində cəmləyərək qeyd edə bilərik ki, bu istiqamətdə ehtiyatın növü və təyinatından asılı olaraq, müxtəlif tənzimləyici, hüquqi-normativ sənədlərin qəbulu və uyğun addımların atılması mümkündür. Məsələn, aqrar subyektə ehtiyat olaraq toxumun, gübrənin və digər zəruri ehtiyatların istehsal dövrünün əvvəlində paylayıcı və ya sifarişçi subyekt tərəfindən dəyəri ödənilmədən təqdim olunması onun qarşısında məhsul istehsalının başa çatması dövründə natural və ya pul şəklində ödənişin edilməsi öhdəliyini yaratmış olur. Bu halda tərəflər arasında gəlinmiş ikitərəfli və ya çoxtərəfli razılaşmalara əsasən qiymət, həcm, keyfiyyət, növ, sort, çeşid və s. tələblərə uyğun “borcun” nizamlayıcı şərtlər daxilində qaytarılması baş tutmalıdır (ekstremal hallar, fors-major vəziyyətləri istisna olmaqla).

Vergiqoyma – tənzimləmənin mühüm elementi, qiymətin formalaşması və xalis gəlirin müəyyən edilməsinin amillərindəndir. Onun təsnifatda dolayı təsir metodlarından biri kimi göstərilməsi də məhz bundan irəli gəlir. Lakin qeyd olunmalıdır ki, kənd təsərrüfatı fəaliyyəti ilə bağlı bu iqtisadi alətdən birbaşa istifadə imkanları hələ Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə məhdudlaşdırılmışdır. 1994-cü ildən etibarən aqrar sahədə fəaliyyəti təmin olunan subyektlər onlarla bağlı tətbiqi nəzərdə tutulan doqquz vergi növünün səkkizindən azad edilmişlər (torpaq vergisi istisna olmaqla). Atılan tənzimləyici addımı əsas məqsədi kənd təsərrüfatı vahidlərinin ilkin maliyyə imkanlarının formalaşdırılmasından və onların artırılmasından ibarət olmuşdur. Ayrı-ayrı zaman kəsiklərində bu imtiyaz üç-beş illik müddətlərə uzaldılmış, haliyədə də aqrar istehsal vahidləri bunlardan istifadə etməkdədir. Bununla belə aqrar subyektlər təkcə fəaliyyətin birbaşa təşkili ilə əlaqəli vergi ödəməsinə cəlb olunmayıb, təsərrüfatdankənar iqtisadi əlaqələrdə də bu alətin təsirinə məruz qalmaq iqtidarındadırlar. Buna əyani nümunə kimi fərdi qaydada, yəni “Aqrolizinq” xidmətlərindən kənar) yeni texnika və texniki vasitələrin əldə olunması, istehsalın kənar komponentlərinin alınması və fəaliyyətlə əlaqədar digər əməliyyatlar göstərilə bilər.

Kənd təsərrüfatı fəaliyyəti üzrə sahəvi tənzimlənmədə mühüm iqtisadi alətlərdən biri kimi kredit ödənişləri və bu əməliyyatlar üzrə nəzərdə tutula biləcək güzəştlər çıxış edir. İstehsalın genişləndirilməsi və təkmilləşdirilməsi, onun maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə kənd təsərrüfatında fəaliyyət göstərən fiziki və hüquqi şəxslər müxtəlif kreditləşdirmə əməliyyatlarından istifadə etmək hüququna malikdirlər. Bəhs olunan əməliyyatlarda qarşı tərəf kimi birbaşa dövlət orqanları (müxtəlif strukturlarının timsalında. Məsələn, İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Fondu, Kənd Təsərrüfatı Nazirliyi nəzdində “Aqrolizinq” ASC), banklar, bank olmayan maliyyə təşkilatları və ya təchizat fəaliyyətini həyata keçirən qurumlar iştirak edə bilərlər.

Fikirlərimizi ümumiləşdirərək qeyd etmək mümkündür ki, qarşılığı borc vəsaitləri rolunda

çıxış edən kreditlərin aqrar sahənin inkişafına yönəldilən hissəsi üçün dövlət özünün çoxsaylı proqramlarında bir sıra güzəştlərin edilməsini nəzərdə tutur. Belə ki, istər ilkin ödəniş məbləğlərinin səviyyəsinin aşağı salınması, istərsə də bəlli ödənişlərin edilməsi zamanı məbləğin bir hissəsinin dövlət vəsaitləri hesabına qarşılanması buna bariz nümunədir. Məsələn, "Aqrolizinq" MMC-nin subyektlərində texnikanın əldə olunması zamanı ilkin ödənişin on faizdən endirilməsi və ya dəyəri on min manat müəyyən edilən suvarma sistemlərinin kreditli alışı halında məbləğin iyirmi faizinin dövlət tərəfindən ödənilməsi, qiyməti beş min manat müəyyən edilmiş hər baş cins malqaranın iki min manatlıq hissəsinin dövlət tərəfindən ödənilməsi dövlət tərəfindən müəyyən edilən kredit güzəştlərinin həcmindən xəbər verir. Əsas məqsədin aqrar subyektlərin daha sürətlə inkişafının təmin edilməsindən ibarət olduğunu göstərən bu addımlar dolayı tənzimləmə yolları vasitəsilə aqrar sahibkarların icra planlarının müddətlərinin qısaldılmasına, onların sürətlə həyata keçirilməsinə yönəldilmişdir. Rəsmi statistikadan da aydın olduğu kimi, haliyədə Azərbaycan Respublikasının ixrac potensialında neft məhsullarından sonra kənd təsərrüfatı məhsulları kifayət qədər böyük çəkiyə malikdirlər. Bu baxımdan aqrar sahədə valyuta məzənnələrindən istifadə qaydaları, valyuta mübadiləsinin şərtləri mühüm tənzimləmə aləti kimi çıxış etməkdədir. Bu qaydalar ilk növbədə "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununda və aidiyyəti ilə seçilən digər hüquqi normativ aktlarda nəzərdə tutulmuş və haliyədə tətbiq olunmaqdadır.

Fikirləri ümumiləşdirərək qeyd etmək mümkündür ki, yuxarıda nəzərdən keçirilən birbaşa və dolayı tənzimləmə metodları və vasitələri aqrar sahənin inkişaf meyl və yolları ilə, həmçinin ən optimal seçim startegiyaları ilə müəyyənləşdirilmişdir. Kənd təsərrüfatı sahəsi üzrə tətbiq olunan metodlar eyni zamanda ilkin informasiyanı təqdim edən element rolunda çıxış edir. Əldə olunan məlumatların qruplaşdırılması və təhlili, sonraki zəruri idarəetmə və tənzimləmə təyinatlı qərarların düzgün, tələblərə uyğun və məqsədyönlü qəbuluna xidmət edir. Beynəlxalq təcrübədə belə metodların genişlik dairəsi daha böyükdür. Lakin onların ümumilikdə Azərbaycanın kənd təsərrüfatı sektoruna tətbiq imkanları yerli şərait və xüsusiyyətlər, istehsalın və sonrakı reallaşdırma proseslərinin adət və ənənələri, qanunvericilik bazası və digər şərtlər əsasında məhdudlaşmaq-dadır. Nəzərdən keçirdiyimiz fəsildə müasir şəraitdə iqtisadiyyat sahələrinin, xüsusilə də aqrar sektorun tənzimlənməsinin nəzəri-metodoloji baxımdan mühüm məsələlərinin şərhinə həsr olunmuşdur. Ümumi yanaşmada yaranan nəticə isə ondan ibarətdir ki, təməl nöqtə hesab olunan nəzəri və metodoloji əsaslar sonrakı real vəziyyətin qiymətləndirilməsi və perspektiv imkanların araşdırılması baxımından vacibdir, onların dəqiq müəyyən edilməsi və sisteminin düzgün qurulması zəruridir və sonrakı müsbət təsirlərlə müşayiət olunmaqdadır.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazar: konseptual əsaslar və inkişaf istiqamətləri. Bakı, AzTU-nun mətbəəsi, 2015, 301 s.
2. Abbasov İ.D. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı, Səda, 2011, 418 s.
3. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, ADİU-nun mətbəəsi, 2007, 792 s.
4. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, Elm, 2006, 380 s.
5. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan, Əcəmi, 2016, 344 s.
6. Hüseynov X.A. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı. Naxçıvan, Əcəmi, 2016, 352 s.
7. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və idarə edilməsi. Bakı, Nurlan, 2011, 272 s.
8. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşdirmə siyasətinin konseptual əsasları. Bakı, Avropa, 2013, 417 s.
9. Кузнецов В.В. Экономика сельского хозяйства. Саратов: Юность, 2007, 446 с.
10. Малыш М.Н. Государственное регулирование экономики. СПб: Наука, 2010, 499 с.

11. Оболенский В.П. Показатели эффективности и конкурентоспособности в сельском хозяйстве. Казань: Прогресс, 2015, 662 с.
12. Серова Е.С. Аграрные реформы в переходных экономиках: общие цели и различные траек¬тории. Новосибирск: Экомир, 2009, 229 с.

**SUMMARY**

**Hassan Abbasov**

**STATE POLICY FOR INTRA-BRANCH REGULATION, ITS TRENDS IN REGIONAL FRAME AND ORGANIZATIONAL MECHANISMS**

In the Conceptual bases and principles of regulation activity are focused on in the Republic of Azerbaijan in historical evolution and modern time intersection.

In total regulation activity, intra-branch regulation is considered one of the essential trends. In the work, one of the major goals is the explanation of the essence and significance of intra-branch regulation and determination of the main trends. The investigation of main regulatory elements in the intra-branch frame such as cost and financial opportunities of economic environment, organization of production process, profitability, efficient organization and management foster detailed characterization revealing the peculiarities in the issue presented.

***Key words:*** *economic field, intra-branch regulation,regulation policy, regional economy, regional regulation*

**РЕЗЮМЕ**

**Гасан Аббасов**

**ЭКОНОМИЧЕСКИЕ ОТРАСЛИ И РЕГУЛИРУЮЩИЕ ОПЕРАЦИИ: ОСОБЫЕ ОТЧЕТЫ СЕЛЬСКОГО СЕКТОРА**

Современный этап экономического развития сопровождается организованной трансформацией и эволюцией сфер деятельности в стране в целом, включая ее регионы. В этой связи определение отраслевого назначения должно использоваться как условие для определения экономических инструментов, которые необходимо использовать.

Рассмотренные в статье аспекты охарактеризованы с точки зрения теоретических и методологических аспектов. С этой точки зрения, основной упор в отраслевом распределении должен быть сделан на проведении полевых работ в сельском хозяйстве, применении конкретных методов и инструментов с регулированием изучаемой деятельности.

Процесс включает в себя подготовку и реализацию общих и специальных государственных программ по регулированию и развитию аграрного сектора, налоговой и таможенной политики, связанной с их деятельностью, организацию работы и процедур закупок, смягчение финансовых и кредитных условий. объяснению содержания инструментов было отведено обширное место.

***Ключевые слова:*** *аграрная отрасль, аграрные реформы, отраслевое регулирование, средства регулирования, способы регулирования*

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 166-168
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 166-168
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 166-168

**KƏMALƏ TƏHMƏZBƏYOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 330**

# ELM VƏ TEXNİKA MÜASİR DÖVRÜN TƏLƏBİDİR

*Bu gün Azərbaycan cəmiyyətinin innovatik təşkili beynəlxalq inteqrasiya şəraitində investisiya səmərəliliyini, proporsiyanallığı, ritmik fəaliyyəti, elmi, texnikanı, ticarəti, siyasəti, maliyyəni, sosial əlaqələrin fasiləsizliyini, rəqabət qabiliyyətliliyini, istehsalın artımını, turizmin inkişafını və bütün sahələrdə keyfiyyətin yaxşılaşdırılmasını, informasiya axınlarının gücləndirilməsinə və elektron ticarətin, maddi rifah halının yaxşılaşdırılmasına və bir çox sahələrdə inkişaf etmiş ölkələrlə bir sırada dayanmağa imkan vermişdir.*

***Açar sözlər**: biznes, texnologiya, innovasiya, inksal, "Doinq biznes"*

Hazırda innovasiya-kommunikasiya sisteminin yeni texnologiyalarla təminatı məlumat bazasının möhkəmləndirilməsinə iqtisadi, sosial, elmi əlaqələrin gücləndirilməsinə səbəb olmuşdur. Belə ki, informasiya texnologiyalarının yaranması XX əsrin 60-cı illərinə təsadüf edir. Bu zaman ilk yaradılmağa və informasiya texnologiyaları təkmilləşməyə başlamışdır. İnternetin inkişafı, yeni-yeni proqram və sistemlərin yaradılması, qloballaşma XX əsrin 90-cı illərindən daha sürətlə inkşaf etmişdir. Hazırda informasiya-kommunikasiya texnologiyaları üç əsas prinsip üzrə inkişaf edir:

1) kompüterdə sürətli rejimdə iş;
2) proqram məhsullarının qarşılıqlı əlaqələndirilməsi;
3) proqramlaşmada həm verilənlərin, həm də məsələnin qoyuluşunun dəyişdirilməsi prosesinin çevikliyi.

Azərbaycan iqtisadiyyatının yüksək texnologiyalara əsaslı iqtisadiyyat sahələri vasitəsilə diversifikasi-yalaşdırılması prosesləri sürətlənir. Sumqayıtda elektrotexnika məmulatları üzrə texnologiyalar parkı son illər Azərbaycanda yaradılan ən müasir və yüksək texnologiyalar əsaslı istehsalatlar şəbəkəsi kimi diqqəti cəlb edir. Ölkəmizdə texnoparkların digər modellərinin də yaradılmasına maraq xeyli yüksəkdir və hazırda kimya xammallarının emalı istiqamətində texnoparka rezidentlərin cəlb edilməsi prosesləri intensivləşir. "Ölkə rəhbərinin 21 dekabr 2011-ci il tarixli fərmanı ilə yaradılmış Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin genişlənməsi ilə yüksək rəqabətqabiliyyətli kimya məhsullarının istehsalının çeşidi və ixrac potensialı əsaslı şəkildə artır.

Bakı şəhərində Balaxanı Sənaye Parkının və Yüksək Texnologiyalar Parkının, həmçinin Mingəçevir Sənaye Parkının yaradılması da iqtisadiyyatımızın davamlı inkişafının və rəqabət qabiliyyətinin artırılmasında, elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiyalar sahələrinin genişləndiril-məsində, elmi tədqiqatların aparılmasında yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılmasında, yüksək dünya standartlarına cavab verən ixracyönümlü məhsulların çeşidinin artırılmasında əhəmiyyətli rol oynayacaq. "(Səfa əlyeva.if.d.) Son dövrlər, yəni 2018-ci ilidə Azərbaycan bu sahəyə əsaslı diqqət ayırmış və bu ilin 9 ayı ərzində İKT sektoru üzrə investisiya qoyuluşlarının 69% artıraraq 225 milyon manata çatdırmışdır. Hazırda Trans-Avroasiya informasiya magistralı TASİM layihəsi üzrə müvafiq danışıqlar davam etdirilir. TASİM konsersiumuna daxil olan dövlətlərin operatorları arasında layihənin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması ilə bağlı artıq protokol imzalanmışdır. İKT geniş tətbiqi informasiya mübadiləsinin həcminin artması, məlumatların vahid mərkəzdə və təhlükəsiz saxlanması ölkədə Data mərkəzinin yaradılmasını zəruri etmişdir. Azərbaycanın iqtisadi və siyasi sabitliyi innovatik texnologiyalar mərkəzinə çevrilməsi, məhz Data mərkəzinin ölkəmizdə quraşdırılmasına şərait

yaradıb. Respublikamızda Açıq hökumət məlumatları Portalı yaradılıb və vətəndaşların post, elektron xidmətlərindən daha keyfiyyətli təminatı üçün 7 yeni şəbəkə xidmətləri yaradılıb. Bu gün rəqabətlilik hesabatına görə ölkəmiz dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkədir. Belə ki, Azərbaycan əhalinin elektriklə təchizatına görə 100% bal alaraq dünyada ilk pilləyə yüksəlmişdir. Ölkəmiz dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yerdə qərarlaşıb. "Doninq Biznes - 2018" hesabatında islahatların səmərəliliyinə görə Azərbaycan 10 indikatordan 6 üzvü öz mövqeyini möhkəmləndirərək Avropa və Mərkəzi Asiya Regionlarında 3 ən islahatçı ölkələrdən biri olub, dünya üzrə 190 ölkə içərisində 57-ci yerdə qərarlaşıb. Beynəlxalq "Modus" agentliyinin son hesabatına görə Azərbaycan iqtisadiyyatı 2018-ci ildə 1.5 %, 2019-cu ildə isə 3% yüksələcəkdir. Azərbaycanın no-hausu hesab edilən Asan Xidmət mərkəzləri məhz yeni texnologiyalara əsaslanmışdır. Bu gün Azərbaycan bir çox sahələrlə yanaşı, Asan Xidmət mərkəzlərinin fəaliyyətini də dünyaya no-hau kimi təqdim edir.

Bu gün Azərbaycan təcrübələr mərkəzinə çevrilməkdədir və eyni zamanda dünya yeni texnologiyalar sahəsində baş verən müsbət kəşfləri, texnologiyaları Azərbaycana gətirməyə və onun bütün sahələrdə tətbiqinə çox maraqlıdır.

Bu məqsədlə ölkəmizdə yeniliklər bazarlarının təzələnməsinə və yeniliklər təcrübə mərkəzlərinin yaradılmasına böyük ehtiyac yaranmışdır. Bu ölkəyə gətirilən innovasiyalardan və investisiyalardan səmərəli istifadə olunmasına imkan yaradar. Bunun üçün ölkəmiz regionlar üzrə aşağıdakıları tətbiq etməlidir:

1) Ölkədə innovasiya sahibkarlığının genişləndirilməsi və təchizatı;

2) İnnovasiyaların və investisiyaların səmərəlilik dərəcəsinin əvvəlcədən sahibkarlara bildirilməsi;

Yəni qoyulacaq investisiyalar və investisiyaların səmərəliliyinin əvvəlcədən hesablanaraq sahibkara bildirməsi üçün müəyyən mərkəzlərin yaradılması.

Ölkəmizdə innovasiyaları və investisiyaların səmərəlilik göstəricisini aşağıdakı düsturla hesablamaq olar:

$$E_q = Q:K_n$$

$$E_1 = L:K_1$$

En innovasiyanın iq-səmərəliliyi, $E_1$ - investisiyanın iq səmərəliliyi, Q - yeni məhsulun bazar qiyməti .$l_1$-hesabat dövründə yeni məhsulun iq nəticələri, $K_n$ - innovasiya xərci, $K_i$ - investisiya xərci.

3) innovasiyalar və investisiya bazarları haqqında məlumat mərkəzlərinin və əlqələndirici təşkilatlarının yaradılması;

4) yeni texnologiyalar üzrə mütəxəssislərin hazırlanması və onlardan istifadə genişliyinin təşkili;

5) yeniliklər bazarında istehlakçıları qane edən qiymətlərin müəyyənləşdirilməsi.

Azərbaycanın bugünki uğurlu innovatik fəaliyyətinin bariz nümunələrindən biri də yeni texnologiyalarla təmin olunmuş Azərbaycanın Türkiyədəki "Star" neftayırma zavodu, "Socar-Polymerik" birinci və ikinci layihəsinin həyata keçirilməsi, üçüncü peykimizin kosmosa buraxılması Cənab İlham Əliyevin daxili və xarici siyasətinin nəticəsidir.

## ƏDƏBİYYAT


1. Vaqif Niftullayev. Sahibkarlığın əsasları. Bakı, 2002
2. Azərbaycan qəzeti. 14.X.2018
3. Şərq qapısı. 12.X.2018
4. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2017
5. Telman Hüseynov. Müəssisələrin iqtisadiyyatı. Bakı, 2003

## SUMMARY

**Kamala Tahmazbayova**

**SCIENCE AND TECHNOLOGY ARE THE DEMANDS OF THE MODERN AGE**

Today innovative formation of Azerbaijan societies, efficient investment in international integration rhythmic activity of proportionality security of sci-tech, trade, political, financial relations, competitiveness, manufactural increase, inpraement in tourism,improvement of qualityin all fields,strengthening information flows, stimulates improving material welfare of international e-trade, and standing necnby with the developed countries.

***Key words***: *business, technology, doing busines, innovation, inckal*



## РЕЗЮМЕ

**Камала Тахмазбаева**

**НАУКА И ТЕХНОЛОГИИ - ТРЕБОВАНИЯ СОВРЕМЕННОГО ВЕКА**

Сегодня инновационные образования Азербайджанского обшества, эффективные инвестиции в международную интеграцию, ритмическая активность пропорциональности, безопасность научно–технических, торговых, политичесних, финансовых отношений, конкуретоспособность, увеличение производства, улучшение туризма, повышение качества во всех областях, укрепление информационных потоков стилимулирует улучшение материального благосостаяния международной електронной торговли и дал импульс стоять в одном ряду с развитыми странами.

***Ключевые слова***: *бизнес, домиринованный бизнес, технология, инновачия,инкчал*



***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 169-173
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 169-173
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 169-173

**BƏHRİYYƏ ABBASOVA**
*bahriya.abasova@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 330**

# REGİONAL İNKİŞAF VƏ SAHİBKARLIĞA KÖMƏK FONDUNUN İNVESTİSİYA QOYULUŞUNDA MÜHÜM ROLU

*Məqalədə həyata keçirilən dövlət proqramlarının və dövlətin apardığı məqsədyönlü iqtisadi siyasətin, milli sərvətimizin artırılmasında iqtisadiyyatın bütün sahələrinə yatırılan investisiyaların mühüm əhəmiyyət kəsb etdiyi şərh edilir. Belə ki, bazar iqtisadiyyatındakı qlobal rəqabət mühitində davamlı iqtisadi artım və sabit dinamikalı inkişaf nə qədər arzu ediləndirsə, bunun təmin olunması üçün investisiya mənbələrinin də mövcudluğu bir o qədər zəruridir.*

*Naxçıvan Muxtar Respublikasında sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı əhalinin işgüzarlıq fəaliyyətinin artırılması, dünya ölkələrinin qabaqcıl təcrübəsinin Naxçıvana gətirilməsi muxtar respublikada müasir texnologoyaların tətbiqinə əsaslanan istehsal, emal və infrastruktur sahələrinin yaradılması məqsədilə güzəştli kredit dəstəyi göstərən Sahibkarlığa Kömək Fondu bu baxımdan çox əhəmiyyətli investisiya mənbəyidir. İnvestisiya stabil inkişafın mühüm göstəricisidir. Eyni zamanda investisiyalar istehsal resurslarının artırılmasını və nəticə etibarilə, iqtisadi yüksəliş tempini təmin edir.*

***Açar sözlər:*** *investisiya, güzəştli kredit, region, sahibkarlıq, iqtisadi artım, stabil inkişaf*

Azərbaycanın hər yerində olduğu kimi, Naxcıvanda da surətli inkişaf dövrü müşahidə olunur. Qeyd etməliyik ki, bu gün muxtar respublikamız sürətli inkişaf yolunda olan regionların içərisində ön sırada durur. Buna nail olmaq üçün qədim diyarımızda başlıca amil olan sabitlik təmin edilib. Sabitlik, yurd yerinə bağlılıq, dünənə ehtiram, sabaha cavabdehlik hisslərinin başlıca amil olduğu bu yurd yerində istənilən nəticəyə nail olmaq mümkündür.

Milli sərvətimizin artırılmasında iqtisadiyyatın bütün sahələrinə yatırılan investisiyaların mühüm əhəmiyyəti vardır. Ötən ilin yekunlarına əsasən ölkəmizin iqtisadi regionları arasında investisiya reytinqinə görə Naxçıvan Muxtar Respublikası birinci olmuşdur. Bu, muxtar rspublika iqtisadiyyatında müxtəlif sahələrin inkişaf etdirilməsi üçün sərf edilən investisiyaların rolunu bir daha təsdiq edir. Belə ki, bazar iqtisadiyyatındakı qlobal rəqabət mühitində davamlı iqtisadi artım və sabit dinamikalı inkişaf nə qədər arzu ediləndirsə, bunun təmin olunması üçün investisiya mənbələrinin də mövcudluğu bir o qədər zəruridir.

Yarandığı dövrdən bu günədək keçən müddət ərzində Naxçıvan Muxtar Respublikasında sahib-karlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı əhalinin işgüzarlıq fəaliyyətinin artırılması, dünya ölkələrinin qabaqcıl təcrübəsinin Naxçıvana gətirilməsi muxtar respublikada müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal, emal və infrastruktur sahələrinin yaradılması məqsədilə güzəştli kredit dəstəyi göstərən Sahibkarlığa Kömək Fondu bu baxımdan çox əhəmiyyətli investisiya mənbəyidir (1).

İnvestisiya stabil inkişafın mühüm göstəricisidir. Eyni zamanda investisiyalar istehsal resurslarının artırılmasını və nəticə etibarilə, iqtisadi yüksəliş tempini təmin edir. Başqa sözlə, sabaha qoyulan kapital kimi investisiyaların köməyi ilə milli sərvətimiz artırılır. İqtisadiyyatın istehsal və qeyri-istehsal sferalarına uzunmüddətli kapital qoyuluşları proseslərinin özündə əks etdirən investisiya, mahiyyət etibarilə insan kapitalının formalaşmasına yönəldilir. Çünki bəzən investisiyalara, sadəcə istehsalın genişlənməsi və modernləşdirilməsi, yaxud istehsal

infrastrukturunun yaradılması mənbəyi kimi baxırıq. Eyni zamanda uğurlu investisiya siyasətinin nəticəsi kimi cəmiyyətin ən mühüm mədəni inkişaf göstəriciləri arasında möhkəm yer tutan sosial infrastruktur, elm, təhsil, səhiyyə, mədəniyyət, turizm, idman kimi sahələrdə canlanmanı, kadr hazırlığı, demoqrafik artımda müsbət meylləri və ekoloji təhlükəsizlikdə olan sabitliyi də görürük. Odur ki, cəmiyyətin iqtisadi-mədəni inkişafının bütün sahələrində həmişə öz əhəmiyyətini göstərən dövlət investisiya siyasətinə mühüm tənzimləyici və stimullaşdırıcı vasitə kimi də baxmaq mümkündür.

Sahibkarlığa kömək fondu da həyata keçirdiyi missiya ilə məhz bu məqsədlərə çatmağı xidmət edir. Azad iqtisadiyyat, azad düşüncə və sərbəst qərar qəbul etmə şəraiti tələb edir. İqtisadi mühiti düzgün qiymətləndirmək, baş verən dəyişikliklərə lazımi reaksiyanı təmin etmək, şəxsi və ümumi mənafelərdəki uyğunsuzluqları hər gün, hər saat aradan qaldırmaqda olan, sahibkarlıq fəaliyyətinin müxtəlif çalarlı növləri bazarın formalaşmasının mühüm atributlarıdır (4).

Bazar iqtisadiyatına keçidlə əlaqədar sahibkarlıq fəaliyyəti hamının məşğul ola biləcəyi sahəyə çevrildi. Nəyi, necə, nə qədər istehsal edəcəyini, kimə satacağını daha yaxşı müəyyənləşdirə bilən sahibkar bazar qanunları ilə fəaliyyət göstərərək iqtisadi problemləri daha effektiv həll etmək qabiliyyətindədir. Sahibkarlığa geniş yer verən ölkələrin təcrübəsi göstərir ki, sahibkarların fərdi uğurları bütövlükdə cəmiyyətin müvəffəqiyyətini şərtləndirir.

Sahibkarlığın inkişafı dövlət tənzimlənmə obyekti olaraq münasibətlər sistemi ilə müəyyən olunur. Sahibkarlığın maliyyə imkanları, onun maddi-texniki bazası, istehsal olunmuş məhsul və xidmətlərin reallaşması istiqamətində sahibkarlar və dövlət arasında münasibət formaları meydana gəlir. Fəaliyyətin bu növünün spesifik xüsusiyyətləri, müəssisələrin ixtisaslaşma səviyyəsi, istehsal olunmuş məhsulun marketinq quruluşu, həmin sahibkarların idxal və ixrac prosesində rolu müəssisələrin tənzimlənmə dairəsini və mexanizmlərinin əhatə dairəsini müəyyənləşdirir (4).

Müasir Azərbaycanda regional inkişaf dövlətin iqtisadi inkişaf prioritetləri arasında mühüm yer tutur. 2003-cü ildən başlayaraq istər ölkə səviyyəsində, istərsə də muxtar respublikamızda regional inkişaf üzrə qəbul olunmuş dövlət proqramları, müxtəlif sahələrin inkişafı üzrə konkret nəticələr əldə etməyi nəzərdə tutan dövlət əhəmiyyətli qərarlar qəbul olunub. İcrası uğurla başa çatdırılan "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və icrası başa çatan "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafın Dövlət Proqramı"nda, həmçinin digər dövlət sənədlərində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində Sahibkarlığa Kömək Fondunun verdiyi güzəştli kreditlərin böyük rolu olub.

Sahibkarlığa Kömək Fondu Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində 2000-ci ildə yaradılıb. Həmin vaxtdan 2018-ci ilin 1 yanvar tarixədək keçən dövr ərzində fond vasitəsilə 1244 layihənin maliyyələşdirilməsinə 136 milyon 182 min 282 manat həcmində güzəştli kreditlər verilib. Reallaş-dırılan layihələr arasında sənaye, kənd təsərrüfatı və xidmət sahələri üzrə ən müxtəlif profillər nəzərə çarpır. Məsələn, təkcə sənaye sahəsi üzrə baxdıqda ötən bir neçə il ərzində muxtar respublikada silikon yorğan-döşək və yataq, məsaməli beton, alçıpan, əhəng və gips, plastik tara, qızıl-gümüş zinət əşyaları, medal və döş nişanları, qaynaq çubuğu istehsal sahələri, habelə işlənmiş təkərlərin üzlənməsi, müasirtipli istixana komplekslərinin, soyuducu anbarlarının, dördüncü nəsil mobil rabitə şəbəkəsi sahələrinin yaradılması üçün fond tərəfindən kreditlər verilib.

Muxtar respublikamızın brend məhsulu kimi tanınan Naxçıvan duzu və NAZ Lifan avtomobilləri istehsalının stimullaşdırılması, yeni istehlakçılar, eləcə də regiona gələn turistlər tərəfindən həvəslə alınan "Naxçıvan məhsulları", "Prestij Naxçıvan Pivəsi", D-adlı qaymaq" MMC-nin fəaliyyətinin genişləndirilməsi məqsədilə fond tərəfindən verilmiş kreditlər diqqəti cəlb edir. Ümumilikdə, ötən 17 il ərzində fond tərəfindən sənaye üzrə 238 layihə üçün ayrılmış vəsaitlərin həcmi 81 milyon 178 min 742 manat olub.

Hazırda sahibkarlığın inkişafında maliyyə mənbəyi olaraq investisiyaların istifadəsi və onun respublikaya axınının stimullaşdırılması mexanizmlərinin əsaslandırılması mühüm rol oynayır. Daxili investorların sahibkarlığa cəlb edilməsi kapital axınının qarşısını alan tədbirlərlə əlaqədardır.

Daxili bazarın qorunması və maliyyə bazarının təşkilində inzibati-bürokratik əngəllərin aradan qaldırılmasını tələb edir. İnvestisiyaların formalaşma mənbələri sahibkarlığın struktur siyasətində subyektlərin rolunu müəyyən edir. Müəssisə və təşkilatların öz vəsaitləri hesabına kapital qoyuluşu onların özünü müəyyənləşdirmə imkanlarını artırır, hər bir sahibkarın sərbəstliyinə və ahəngdar təşkilati tədbirlərin həyata keçirməsinə imkan verir (2).

Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsi əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm arqument olmaqla cəmiyyət üzvlərinin yaşayış imkanlarını nə dərəcədə reallaşdırmasını şərtləndirir. Bu proses əslində fasiləsiz, davamlı xarakter daşıyır, ən azı ona görə ki, bəşəriyyət heç zaman istehlakı dayandıra bilməz. Belə ki, istehlakın dayandırılması hər bir fərdin fiziki mövcudluğunun sonu deməkdir. Odur ki, qida məhsullarının istehsalı davamlı olaraq artırılmalıdır. Məhz bu baxımdan bəşəriyyətin tarixi inkişaf mərhələsində ərzaq təminatının yaxşılaşdırılması beynəlxalq miqyas almaqla ölkələrin milli təhlükəsizliyində öz aktuallığını saxlamışdır.

Müasir Azərbaycanın qurucusu, iqtisadi inkişafın Azərbaycan modelinin müəllifi Ümummilli lider Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadiyyatın bütün sahələrində köklü islahatlar aparılmış, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" nın icrası da muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatını yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaradır.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət proqramları aqrar sektorun haliyədəki və perspektiv inkişafı üçün baza rolunu oynamaqdadır. Kənd təsərrüfatı muxtar respublikamızın iqtisadiyyatının əsas sektorlarındandır. Məhz aqrar bölmənin məhsulları hesabına Naxçıvanda ərzaq təhlükəsizliyi təmin olunub və yüzlərlə emal müəssisəsi üçün etibarlı xammal bazası yaradılıb. Bura həm də çox geniş məşğulluq sahəsidir. Qəbul edilən dövlət proqramlarının icrası istiqamətində muxtar respublukamızda əksər kənd təsərrüfatı məhsullarının istehsalı üzrə, ümumilikdə, 968 layihə maliyyələşdirilib. Bunlardan taxılçılıq üzrə 124, heyvandarlıq üzrə 248, kartofçuluq üzrə 269, üzümçülük üzrə 8, arıçılıq üzrə 105, quşçuluq üzrə 84, bağçılıq üzrə 65, balıqçılıq üzrə 14 və digər layihələrin reallaşdırılması təmin edilib, daxili bazarın yüksək keyfiyyətli Naxçıvan məhsulları ilə təchiz olunmasına şərait yaradılıb. Bunlardan əlavə, fondun güzəştli kreditləri ilə yaradılmış 9 heyvandarlıq və 23 istixana kompleksləri və 11 soyuducu anbar iqlim şəraitindən asılı olmayaraq, muxtar respublikamızda hər cür ərzaq məhsullarına olan tələbatın ödənilməsində mühüm əhəmiyyətə malikdir. Görülən bütün işlərin nəticəsidir ki, bu gün Naxçıvanda etibarlı ərzaq təminatı yaradılıb, bu torpaqda yetişdirilə bilən hər cür nemətlərin istehsalına başlayaraq, idxaldan asılılıq maksimum dərəcədə azaldılıb. Ötən ildə də Sahibkarlığa Kömək Fondu muxtar respublika sahibkarlarının uğurlu işinə dəstək olub. Belə ki, bu dövrdə 25 layihə üçün verilmiş 1 milyon 978 min manat vəsaitdən real sektorda öz əhəmiyyəti ilə həmişə seçilən sahələr bəhrələnib. Nəticədə, yeni layihələr reallaşdırılıb, bir sıra layihələr dəstəklənib. Göstərilən sahələr arasında həm kəmiyyət, həm də keyfiyyətcə yeni məzmun kəsb edən layihələr olması diqqətçəkicidir. Həyata keçirilən bu layihələrin seçimində onların iqtisadi səmərəliliyi, blokadada olan Naxçıvan üçün əhəmiyyətli, daima məşğulluğa təsiri və bazar payı kimi göstəricilər əsas yer tutur. Bütün bunlar da onu deməyə əsas verir ki, Sahibkarlığa Kömək Fondu ötən illərdə qazanılmış təcrübəni uğurla davam etdirərək qarşıdakı dövrdə də Naxçıvanın sürətli inkişafı üçün etibarlı investisiya mənbəyi rolunu oynayacaq.

Vəsait qoyuluşu çərçivəsində 2018-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 927 milyon 993 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricilərdən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 861 milyon 631 min manatı və ya 92,8 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

Bəhs olunan dövrdə 411 milyon 443 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 23241 tonu, süd istehsalı isə 80608 tonu ötmüşdür. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 4,5 faiz, süd istehsalı isə 1,4 faiz artmışdır. Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2018-ci ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 47 milyon 784 min 300 manat məbləğində kreditlər verilmişdir. Bu da bir öncəki göstəricidən 1,7 dəfə çoxdur. Verilmiş kreditlərin 5 milyon 251 min 800 manatı və yaxud 11 faizi qısamüddətli, 42 milyon 532 min 500 manatı və yaxud 89 faizi uzunmüddətli kreditlər olmuşdur.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunmuşdur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yeni imkanlar hesabına ödənilir.

Sahibkarlığın maliyyə əsasında dövlət büdcəsində sahibkarlığın büdcəsinə ayrılan vəsait, müəssisə mənfəətindən əsas fondların və iş qüvvəsinin stimullaşdırılması üçün ayrılan vəsaitlər və xarici ölkələrin hüquqi və fiziki şəxslərin istehsala yönəldiyi kapital qoyuluşu mühüm rol oynayır.

## ƏDƏBİYYAT

1. Abbasov T.A. Naxçıvan MR-də aqrar sahibkarlığın inkişafının əsas istiqamətləri. Bakı, ADPU-nun mətbəəsi, 2005, 66 s.
2. Abbasov T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf istiqamətləri. Bakı, ADPU, 2006, 287 s.
3. Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı, ADPU, 2005, 160 s.
4. Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri. Bakı, Elm, 2000, 114 s.
5. Qəribov A.H. Azad iqtisadi zonalar: imkanlar və perspektivlər. Bakı, Təhsil, 2001, 136 s.
6. Şirəliyev A.İ., Rüstəmov A.A. Bazar və bazar mexanizmi. Naxçıvan, Qeyrət, 2002, 40 s.
7. Vəliyev T.S. İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti. Bakı, Elm, 2000, 170 s.
8. İmanova M.T. Bazarın marketinq tətqiqinin regional problemləri: müasir vəziyyət və perspektivlər. Bakı, Nurlan, 2010, 207 s.
9. "Şərq qapısı" qəzeti, 20 dekabr 2018-ci il
10. "Şərq qapısı" qəzeti, 1 fevral 2018-ci il

## SUMMARY

**Bahriye Abbasova**

### THE REGIONAL DEVELOPMENT AND THE IMPORTANT ROLE OF FUND FOR ASSISTING ENTREPRENEURSHIP IN INVESTMENT

In the article commented the great importance of the state programs implemented and the government's purposeful economic policy, the investment in all sectors of the economy for raising our national wealth.

It is important that the state programs implemented in the article and the government's purposeful economic policy, the investment in all sectors of the economy are of great importance in raising our national wealth. So, as long as sustainable economic growth and stable dynamical development are in the global competitive environment in the market economy, the availability of investment sources is so important to ensure that.

The Fund for Assistance to Entrepreneurship is great importance investment for preferential credit support for the development of entrepreneurship in Nakhchivan Autonomous Republic, especially small and medium entrepreneurship, for increasing the business activity of the population, for bringing the world's best practices to Nakhchivan and for establishment of production, processing

and infrastructure areas based on the application of modern technologies in the autonomous republic. The investment is the important indicator of stabil development. Also, investment provides increasing of production resources and at last the pace of economic growth.

***Key words:*** *investment, preferential credit, region, entrepreneurship, economy growth, stabil development.*

**РЕЗЮМЕ**

**Бахрия Аббасова**

**РЕГИОНАЛЬНОЕ РАЗВИТИЕ И ВАЖНАЯ РОЛЬ В ИНВЕСТИРОВАНИИ ФОНДА ПОМОЩИ ПРЕДПРИНИМАТЕЛЯМ**

В статье говорится о Государственных Программах, о целенаправленной экономической политике государства, о важности инвестиций, вложенных во все сферы экономики в целях увеличения национального достояния страны. Доступность источников инвестиций настолько необходима, насколько желаемо стабильное динамическое развитие и неуклонный экономический рост в среде глобальной конкуренции в рыночной экономике.

В целях развития предпринимательства, особенно, малого и среднего предпринимательства в Нахчыванской Автономной Республике, повышения трудоспособности населения, внедрения мирового опыта в Нахчыване, создание производственных, обрабатывающих и инфраструктурных сфер, основанных на внедрение новейшей технологии в автономной республике Фонд Помощи Предпринимателелям, предоставляющий льготную кредитную поддержку является важным инвестиционным источником. Инвестиция главный показатель стабильного развития. В то же время, инвестиции обеспечивают повышение производственных ресурсов и в результате, темпы экономического роста.

***Ключевые слова:*** *инвестиция, льготные кредиты, регион, предпринимательство, экономический рост, стабильное развитие.*

---

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 iyun 2020-ci il*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 174-181
NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 174-181
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 174-181

**NƏCİBƏ HACIYEVA**
*nadjiba_h@mail.ru*
*Bakı Dövlət Universiteti*

**UOT: 338.012**

# AQRAR SAHƏDƏ FƏALİYYƏT GÖSTƏRƏN MÜƏSSİSƏLƏRİN İDARƏ EDİLMƏSİNİN TƏHLİLİ PROBLEMLƏRİ

*Dünyada baş verən ekoloji-iqlim dəyişkənliyi, resursların tükənmə təhlükəsinin artması, hərbi-siyasi münaqişələr, bazar iqtisadiyyatına xas olan qalxma-enmələr, milli valyutaların dayanıqlığı problemləri, ölkələrin ərzaq təhlükəsizliyi, insanların sağlamlığının qorunması və bu kimi bir sıra proseslər iqtisadi sistemin bütün sahələrinə təsir edir. Milli gəlirin formalaşmasında önəmli əhəmiyyət kəsb edərək istehlak bazarının dörddə üçünün xammal bazası olan aqrar müəssisəsinin mallarının keyfiyyəti təkcə insanların sağlamlığına deyil, bütün iqtisadiyyatın inkişafına təsirsiz ötüşmür.*

***Açar sözlər:*** *aqrar, müəssisə, sistemli təhlil, qərarların qəbulu, prosedur*

Sənayenin və texniki tərəqqinin, standartlarının dünya üzrə fərqliliyi, gen mühəndisliyinin inkişafı fonunda sağlam qidalanma əsasında genofondların qorunması cəhdləri və bu zəmində ölkələrarası rəqabətin kəskinləşməsi iqtisadiyyatın vacib hissəsi sayılan aqrar sektora diqqətin artırılmasını və dəyişən tələblərin təsiri altında yeni yanaşmaların gündəmə gəlməsini zəruri etmişdir. Prezident İlham Əliyev tərəfindən 24 noyabr 2003-cü ildə imzalanmış «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Fərmana, 16 yanvar 2014-cü il tarixli "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncama və 16 aprel 2014-cü il tarixli "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmana, 11 aprel 2017-ci il tarixli "Azərbaycan Respublika-sında kənd təsərrüfatının inkişafı ilə bağlı tədbirlər haqqında" Sərəncama əsasən aqrar sahədə iqtisadi problemlərin həllini sürətləndirmək, müsbət meylli inkişafa nailolma kimi vəzifələr qarşıya qoyulmuşdur.

Aqrar sahədə sahibkarlığın inkişaf etdirilməsi islahatın ana xəttini təşkil etməklə, hər bir aqrar müəssisəsinin inkişaf trayektoriyasının proqnozlaşdırılmasını, strategiyasının seçilməsi üçün fəaliyyətinin mütəmadi təhlil edilməsini tələb edir. Hazırki dövrdə, strateji və cari planlaşdırmanın keyfiyyətcə yeni səviyyəyə keçməsilə və xarici investorlar üçün daha cazibədar olmaq məqsədilə müəssisələr öz fəaliyyətində qənaət imkanlarını, modernləşmə üçün sərmayə qoyuluşuna yönələcək yığım imkanlarının təhlili ilə paralel risklərin dəqiqliklə dəyərləndirilməsinə ehtiyac duyur. Bununla yanaşı, müəssisənin fəaliyyətinin maliyyə, vergi və idarəetmə uçotunun vəziyyətinin müəyyən edilməsi üçün dünya təcrübəsində geniş tətbiq edilən təhlil üsullardan istifadə olunur. Lakin kifayət qədər işlənib hazırlanmış təhlil metodologiyasının olmasına baxmayaraq, onların heç də hamısı hər zaman idarəetmə qərarlarının qəbul edilməsi üçün qarşıya qoyulan tələblərə cavab vermir. Xüsusilə xarici bazarın vəziyyəti, ona çıxışla bağlı olan maliyyə təhlillərinin olmaması inflyasiya dövründə müəssisələrdə problem kimi ortaya çıxır. Kompleks şəklində aparılan sistemli təhlilin əsas məqsədi müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin vəziyyətini, imkan və təhlükələri obyektiv və dəqiq göstərməkdir. Bu məqsədə qarşılıqlı əlaqəli olan problemlərin analitik həlli nəticəsində nail oluna bilir. Nəzərə alaq ki, aqrar sektorun inkişafı sosial, iqtisadi, ekoloji, siyasi və hüquqi şərtlərin qarşılıqlı təsiri altında reallaşdığından bu şərtlərin qarşılıqlı nəzərə alınması dayanıqlı inkişafı təmin edə bilir. Nəticədə biznes, investisiya və rəqabətqabiliyyətlilik üçün əlverişli mühitin formalaşdırılması üçün

bütün bu şərtlərin kompleks halında təhlil edilməsi, problemə sistemli yanaşılmanı zəruri edir. Hazırda sistemli təhlilin həyata keçirilməsi istiqamətində çətinliklərin mövcudluğu onun təkmilləşdirilməsi üçün nəzəri-praktiki araşdırmalara ehtiyacı artırmışdır.

**Aqrar sahədə fəaliyyət göstərən müəssisələrin idarə edilməsində sistemli təhlilin tətbiqi zəruriliyi.**

Aqrar sahədə fəaliyyət göstərən müəssisələrin idarə edilməsində maliyyə və iqtisadi vəziyyətin təhlili daim aparılır. Sual olunur ki, bəs onda müəssisələr tərəfindən sistemli təhlilin aparılması nə dərəcədə zəruridir? Apardığımız araşdırmalar [6,10,18,19] bu qənaətə gəlməyə imkan verir ki, fəaliyyəti müxtəlif bucaq altında kompleks şəkildə araşdırmağa ehtiyac yaranan zaman sistemli təhlildən istifadə olunur ki, o da özündə həm maliyyə, həm də iqtisadi vəziyyətin təhlilini birləşdirir. Bu isə sistemli təhlilin müəssisədə mövcud olan və ya yarana biləcək problemin daha dəqiq müəyyən edilməsinə, inkişaf baxımından daha geniş imkanların təyin edilməsinə şərait yaradır.

Qeyd etməliyik ki, müxtəlif alimlər tərəfindən "sistemli təhlil" termini birmənalı olaraq şərh edilmir. Bəzi əsərlərdə sistemli təhlil planlaşdırma ilə bağlı idarəetmə funksiyalarına sistem konsepsiyalarının əlavə edilməsi kimi verilir və əsas məqsədin sistemlərin öyrənilməsi metodikası olduğu vurğulanır. Müasir iqtisadi lüğətdə sistemli təhlil sistem elementləri arasındakı qarşılıqlı əlaqələri nəzərə alaraq, mürəkkəb, çox səviyyəli və çoxkomponentli sistemlərin, obyektlərin kompleks yanaşma əsasında öyrənilməsi üçün bir sıra metod və vasitələrdən ibarət olması kimi verilir. Sistemin təhlilin planlaşdırma və idarəetmə prosesində, idarəetmə qərarlarının hazırlanmasında və qəbul olunmasında mühüm rol oynadığı bildirilir [16]. N.Həsənov sistemli təhlilin aktuallığı ilə bağlı qeyd edir ki, "sistemli təhlil prosesinə strateji planlaşdırma və layihələşdirmə sistemlərinin metodologiyaya əsaslanan, elmi idrakın və sosial praktikanın dayandığından, bu əsasda bütöv birləşmələrin müzakirə obyektinə çevrilməsi məsələləri günümüzün problemlərindəndir." [1, s.108.] Digər alimlərin əsərlərində sistemli təhlil "sistemin təhlil edilməsi" və ya "təşkilatların sistem şəklində idarə olunması" terminlərinin sinonimi kimi istifadə edilir. Belə ki, Y.V.Luçenko sistemli təhlilə tərif verərək qeyd edir ki, "sistemli təhlil" sistemlərin elə təhlilidir ki, hissələrin öyrənilməsi zamanı yalnız bütöv sistem deyil, sistemin strukturu və elementlərinin qarşılıqlı əlaqəsinin öyrənilməsi prosesi bütün sistemin məqsədi və funksiyası baxımından həyata keçirilir [12]. Konstruktiv pragmatizmə istiqamətlənən L.Bertalanffi, V.Sadovski, M.Mesaroviç, Y.Takahara sistemli təhlil və sistemlərin ümumi nəzəriyyəsi arasındakı əsas fərqi müəyyənləşdiriblər [17]. Onlar tədqiq edilən obyektlər kimi xüsusi sistemləri deyil, növlərindən asılı olmayaraq, ümumiləşdirilmiş sistemlərə tətbiq olunan modellər, prinsiplər və qanunları qeyd edirlər. L.Bertalanffi praktiki problemlərin təzyiqi altında yeni bir nəzəri paradiqmanı (bir ölçülüdən çoxölçülü elmi paradiqmaya keçid) gündəmə gətirir və bu sistemli yanaşma adlanır [5].

Prof. S.V.Salahov sistemli təhlilin ölkəmizdə həyata keçirilməsi ilə bağlı qeyd edir: "Azərbaycan yeni iqtisadi modelə keçidi təmin etmək üçün əvvəlcədən sistemli bir yanaşmanı ortaya qoydu. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi kursa uyğun olaraq, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində yaradılan platformada çoxsaylı yerli və xarici ekspertin hazırladığı strateji yol xəritələri faktiki olaraq yeni iqtisadi modelə keçid üçün sistemli bir yanaşmanı təmin etdi." [2]. Aqrar sektorun inkişafının dayanıqlı olmasını təmin etmək məqsədi ilə yuxarıda qeyd edilən şərtlərin bir-biri ilə bağlılığı və qarşılıqlı tamamlaması, qarşılıqlı əlaqədə olması nəzərə alınmalı və onların aralarında olan ziddiyyətlərin yalnız aqrar sektor üçün deyil, bütün iqtisadi sistemə mənfi təsir edəcəyi danılmazdır. Bu səbəbdən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı olan FAO-nun eksperti P.Hurst aqrar sahənin inkişafına ekoloji, iqtisadi, sosial və mədəniyyət baxımından sistemli yanaşmanı formalaşdırılaraq məhsul istehsalının onların tələblərinə uyğunlaş-dırıldığını qeyd etmişdir [4].

Yuxarıdakıları nəzərə alaraq tərəfimizdən qeyd etməliyik ki, sistemli təhlil aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- ✓ vahidlik - sistemin bütöv şəkildə və hissələrinin toplusu kimi birgə araşdırılması;
- ✓ inkişaf - sistemin dəyişkənliyini, inkişaf qabiliyyətini, ətraf mühitin dinamikasını nəzərə alaraq məlumatların yığılmasını;
- ✓ qlobal məqsədin olması - qlobal hədəf seçərkən məsuliyyətin təyini (alt sistemlər üçün optimal olanlar bütün sistem üçün optimal olmaya bilir);

✓ funksionallıq - strukturu və funksiyaları birgə nəzərdən keçirmək, struktur üzərində funksiyaların prioritetliyini təyin etmək;

✓ mərkəzsizləşmə - mərkəzləşmə və qeyri-mərkəzləşdirmənin uzlaşdırılması;

✓ iyerarxiya – sistemin hissələrin tabeliyinə və sıralanmasına riayət etmək;

✓ qeyri-müəyyənlik - hadisələrin ehtimal olunan gedişatını nəzərə almaq;

✓ təşkiletmə - qərarların və nəticələrin həyata keçirilməsi dərəcəsinin müəyyənləşdirilməsi.

Sistemli təhlilin əsas problemi formal metodların və qeyri-rəsmi, çox zaman mütəxəssis rəyi əsasında toplanan məlumatların uzlaşdırılmasıdır. Sonuncu problemin yeni həll yollarını tapmaq üçün sistemli təhlil istifadə edilməklə qərarlarının nəticələrini də nəzərə alır, yəni onları formallaşdırmaqla qərarların dəstəklənməsini və ya dəyişdirilməsini təmin etdirir. Lakin daha sonralar E.Kveyd sistemli təhlilin problemli vəziyyətlərdə “rəhbərə üstün hesab olunan hərəkətləri seçməyə kömək edən metod” çərçivəsindən daha geniş mənaya malik olduğunu qeyd edir [9]. Həqiqətən də sistemli təhlili həyata keçirmək üçün müəyyən ardıcıllıqda prosedurların reallaşdırılması vacib şərtlərdən biridir. Belə ki, prosedurlarda baş vermiş nöqsanlar, sonradan düzəldilməsi mümkün olsa da belə, nəticə baxımından gözlənilən effekti verməyə bilir. Ona görə fikrimizcə, sistem təhlilində aşağıdakı sxem 1-də təqdim etdiyimiz prosedur ardıcıllığı nəzərə alınmalıdır:




***Sxem 1. Sistemli təhlilin prosedur ardıcıllığı***

Yuxarıda göstərilənləri nəzərə alaraq, sistemli təhlilin tərifini formalaşdıran zaman aşağıdakıları xüsusilə vurğulamaq lazımdır:

- müxtəlif riyazi metodlardan istifadə etməklə həll edilə bilməyən problemləri həll etmək üçün sistemli təhlil istifadə olunur. Yəni qeyri-müəyyən vəziyyətdə qərar qəbuletmə zamanı problemlərin həllində yalnız formal üsullar deyil, keyfiyyət təhlili üsullarından da istifadə (məsələn, intuisiya və qərar qəbul edənlərin təcrübəsinin nəzərə alınması və s.) edilir;
- vahid metodologiya əsasında müxtəlif üsulları birləşdirə bilir;
- elmi əsaslı dünyagörüşünə əsaslanır;
- müxtəlif sahələrdə çalışan mütəxəssislərin bilik, intuisiya və mühakimələrini bir araya qoyaraq onları müəyyən bir intizama tabe olmağa məcbur edir;
- məqsədlərə və onların yaranmasına diqqət yetirir.

Ancaq sistemli təhlil digər təhlil istiqamətlərindən fərqlənir. Bu fərqlərin əsas xüsusiyyətləri aşağıdakılardır:

✓ sistemli təhlildə məqsədlərin formalaşdırılması, strukturlaşdırılması və məqsədlərin təhlili prosesinin təşkili üçün vasitələr mövcud olmalıdır. Yəni digər təhlil istiqamətləri məqsədləri qoyur,

bunlara nail olmaq üçün variantları və bu variantlardan ən yaxşısını seçmək yollarını müəyyən edirsə, sistemli təhlil ilk növbədə obyektlərə hədəfqoyma və qərarvermə qabiliyyətinə malik aktiv sistem kimi baxır, daha sonra məqsədlərə nail olmaq üçün qəbul edilmiş qərarların həyata keçirilməsini müəyyən edir;

✓ sistemli təhlilin mərhələləri, sub-mərhələləri və tətbiq edilməsi üsullarını müəyyənləşdirən metodologiyanı inkişaf etdirmək və istifadə etmək imkanının olması. Qeyd edək ki, metodologiya formal metod və modellərlə yanaşı, mütəxəssislərin intuisiyasına əsaslanan üsulları da özündə birləşdirir ki, bu da onların biliklərindən istifadə etməyə imkan yaratmaqla həlli çətin olan, xüsusilə aqrar müəssisələrin fəaliyyətində, iqtisadi problemlərin həlli üçün cəlbedicidir.

Beləliklə, sistemli təhlil idarəetmə sisteminin zəruri elementidir. Müəssisələrdə idarəçiliyin həyata keçirilməsinin əsas vəzifələrindən biri şirkətin bazar şərtlərinə uyğun strateji məqsədlərinin müəyyənləş-dirilməsi və buna nail olmaq üçün sistemli təhlilə keçiddir.

**Aqrar sahədə fəaliyyət göstərən müəssisələrin idarə edilməsinin təhlilində mövcud olan problemlər**

Müəssisələrin idarə edilməsində önəmli olan və araşdırma əsasında daim təkmilləşdirilən siyasətlər qismində:

- ✓ İstehsal, texnoloji və innovasiya siyasəti;
- ✓ Təchizat və satış siyasəti;
- ✓ Qiymət siyasəti;
- ✓ İnvestisiya siyasəti;
- ✓ Kadr siyasəti çıxış edir.

Bu siyasətlərin hər biri müəssisələr üçün vacib addımların atılmasında mühüm əhəmiyyət kəsb edir. Amma onların hansına daha çox önəm verməsi müəssisə rəhbərinin fəaliyyətə baxışından asılı olur. Belə ki, uzun zaman istehsal müəssisələrinin fəaliyyətini təhlil edən zaman istehsal prosesinə daha çox diqqət yetirilmişdir. Lakin son zmanlar aqrar sahədə fəaliyyət göstərən müəssisələrin tərəfdaş tədarükçülərin seçilməsində, məhdud satış bazarları çərçivəsində öz məhsullarının səmərəli satışında, qiymət və maliyyə fəaliyyətində problemləri mövcuddur. Əlbəttə, nəzəri cəhətdən bu problemlər həll edilə bilər. Lakin praktiki baxımdan bu problemlərin həlli hər bir idarəetmə səviyyəsində idarəetmə proseslərinin keyfiyyəti ilə çox bağlıdır [1]. Dövlət bölməsinə aid olan müəssisələrdə əgər təhlil daha çox planın yerinə yetirilməsinin əsaslandırılmasına və onun yerinə yetirilməsinin monitorinqinə, təsərrüfat hesabının və iqtisadi rejimin gücləndirilməsinə, itki və ziyanla mübarizəyə, plandan kənarlaşmanın səbəblərinin aydınlaşdırılmasına və heyətin fəaliyyətinin qiymətləndirilməsinə yönəlirsə, özəl müəssisələrdə risk və rəqabət mübarizəsi qorxusunun yüksək olması ilə yanaşı, qərarların qəbulu zamanı gələcəkdə də fəaliyyət göstərə bilməsi imkanının nəzərdə tutulması təhlilin aparılmasında vəziyyəti tamam dəyişir. "İnkişaf strategiyasını tərtib edərkən, makromühitin müxtəlif komponentlərini öyrənərkən aşağıdakı iki məqamı həmişə nəzərə almaq çox vacibdir. Birincisi odur ki, makromühitin bütün komponentləri bir-birinə çox güclü təsir edir. Bu komponentin dəyişilməsi makromühitin digər komponentlərinin mütləq dəyişilməsinə gətirib çıxarır. Ona görə də onların öyrənilməsi və təhlili ayrıca deyil, sistemli şəkildə aparılmalıdır ki, ayrıca komponentin dəyişilməsini təkcə izləmək yox, həm də bu dəyişikliklərin makromühitin digər komponentlərinə təsirini aydınlaşdırmaqda mümkün olsun. İkincisi, makromühitin ayrı-ayrı komponentlərinin təsir dərəcəsi müxtəlif şirkətlər üçün müxtəlifdir. Xüsusilə də təsir dərəcəsi şirkətin ölçüsündən, onun sahə mənsubiyyətindən, yerləşdiyi ərazidən və s. asılıdır. Hesab edilir ki, iri şirkətlərin makromühitdən daha böyük asılılığı var, nəinki kiçik şirkətlərin"[1,s.31-32]. Müəssisənin əsas daxili və xarici problemlərinin müəyyənləşdirilməsi, onların həlli üçün optimal yolların hazırlanması üçün bazardakı rəqabət mövqeyinin, maliyyə-təsərrüfat fəaliyyətinin təhlili aparılır. Bu zaman:

- müəssisənin istehlak etdiyi məhsullarını və müəssisənin istehsal etdiyi məhsulların bazarları təhlil edilir və bu bazarların inkişaf dinamikası proqnozlaşdırılaraq təhlil edilir;

- daha səmərəli, etibarlı və ödəmə qabiliyyətli tədarükçülərin və istehlakçıların müəyyən edilməsi üçün hər bir məhsul növü bazarını xarakterizə edən məlumatların təhlili aparılır.

Bu təhlil sistemli şəkildə aparılmaqla son nəticədə düzgün qərarların qəbuluna şərait yaradır.

Praktikada biznes tərəfdaşının maliyyə fəaliyyəti ilə bağlı əsas (bəzi hallarda hətta yeganə) məlumat mənbəyi kimi mühasibat hesabatı çıxış edir. Müəssisənin maliyyə hesabatları uçot məlumatlarına əsaslanır və müəssisənin ictimaiyyət və biznes tərəfdaşları ilə informasiya əlaqəsidir. Hər bir müəssisə məhsulların satışını (həcmi, çeşidi və satış müddəti) plana uyğun aparmağa çalışır. Reallıqda aqrar istehsalın səmərəliliyinin artırılması üçün yalnız məhsulların istehsalını artırmaq deyil, həm də iqtisadiyyatda qənaətbəxş istifadəsini həyata keçirmək üçün satış kanalları boyunca bölüşdürməsi vacibdir. Kənd təsərrüfatı müəssisələri bütün məhsullarının sürətli reallaşmasının həyata keçirilməsində maraqlıdır və bu onların maliyyə vəziyyətinə birbaşa təsir göstərdiyindən maliyyə baxımından güclənməsinə, işçilərinin isə vəziyyətinin yaxşılaşmasına kömək edir. Bu zaman maliyyə vəziyyətinin təhlili nəticədə proqnozlaşdırmaya yönələrək gələcək strateji planlaşdırmanın əsasını qoyur. Bu səbəbdən müəssisələr yalnız taktiki xarakterli deyil, həm də gələcək fəaliyyətləri ilə bağlı strateji qərarların qəbulu üçün dəqiq, tam və vaxtında olan informasiyaya malik olmaq problemi ilə üzləşirlər. Bunun üçün metod, metodologiya ilə yanaşı, texniki vasitələrin olması da vacibdir. Sistemli təhlilin texniki əsasını müasir kompüter və informasiya sistemləri təşkil edir. Praktikada bir çox şirkətlər, xidmət yönümlü (SOA) və problemlərin həlli üçün ERP sistemlərinin proqramlarının istifadəsinə keçir. Proqram daxili proseslərin itkisini azaltmaqla ümumi qazancı artırmağa imkan verir. Sistemlər real vaxt rejimində işləyir və şirkətin bütün şöbələrinin səmərəliliyini artıra, proqnozlaşdırmağa imkan verə bilir. İstehsalın idarə edilməsi texnologiyası hazırda xarici müəssisələrdə geniş tətbiq edilən MES sistemi vasitəsi ilə daha effektiv olur. Texnoloji prosesi və müəssisə rəhbərliyinin iş səviyyələrini vahid informasiya kompleksinə birləşdirərək müəssisəsi üçün bir çox vacib vəzifələri həll edir. Bununla birlikdə, müəssisədə mövcud olan bütün avtomatlaşdırılmış sistemlərdən maksimum effekt yalnız bütün sistemlərin tez və vaxtında məlumat mübadiləsi edə biləcəyi vahid informasiya məkanı yarandıqda əldə edilə bilər. Bəzən informasiya sistemlərindən istifadədə yaranan problemlər qərarların səhv və ya gecikmiş olmasına gətirib çıxarır.

Kənd təsərrüfatında gəlir digər sahələrə nisbətən daha aşağı templə artır. Hazırda aqrar sahədə fəaliyyət göstərən müəssisələırin rəqabət qabiliyyətli olması onların xərclərinin azaldılması fonunda məhsuldarlığının artırılması tələbini qoyur. Yəni səmərəliliyin təhlili maya dəyəri ilə rentabellik göstərici-lərinin diqqətdə saxlanmasına yönəlir. Lakin dəyişən iqtisadiyyatda müəssisələr üçün bir çox fəaliyyət göstəriciləri əsas hesab edilmir. Məsələn, fəaliyyət göstərən müəssisə üçün alınan xalis gəlirin miqdarı, əmək haqqı hesablanmayan kəndli (fermer) təsərrüfatı üçün isə ümumi gəlir vacibdir. Qiymətin isə məhsula tələb və tələbdən asılı olması səbəbindən artıq maya dəyəri və məhsuldarlıq ikinci plana keçir. Kənd istehsalçısı rentabelliyin faizi ilə deyil, gəlirin mütləq dəyəri ilə maraqlanır.

Ölkəmizdə istehsal olunan əsas kənd təsərrüfatı məhsullarının bu göstəricilər üzrə təhlili üçün aşağıdakı cəbvəl 1-in məlumatlarına diqqət yetirsək görərik ki, 2005-ci illə müqayisədə bir çox əksər məhsulların maya dəyərində 1-3 dəfə artımı müşahidə edildiyi halda, rentabellik göstəricisi əksər məhsullarda cəmi 1-2 dəfə artmışdır. Rentabellik göstəriciləri üzrə müsbət mövqedə olan məhsullar sırasına iribuynuzlu mal-qara, quş ətini, emal üçün şəkər çuğundurunu və bostan məhsullarını qeyd edə bilərik.

Kənd təsərrüfatının mühəndis və texniki xidmətlər, konsaltinq, informasiya və marketinq xidmətləri yaxşılaşdırılmasına çox ehtiyacı var. Bir çox müəssisədə dövriyyə kapitalının olmaması və yüksək kredit yükünün mövcud olması müəssisələrin inkişafını və istehsalın modernləşdirilməsini maliyyələşdirməsində və istehsal üçün xammalın ilkin alınmasında problemlər yaradır. Bu cür problemlərin səbəbləri maliyyə idarəetməsində səhv hesablamalar və kifayət qədər gəlir əldə edilməməsi ilə əlaqədardır. Bu, marketinq və satış sahəsindəki problemlərdən, idarəetmə uçotunun keyfiyyətlə yerinə yetirilməməsindən və büdcənin olmamasından asılıdır [18]. Hazırda ”Made in Azerbaijan” brendinin təşviqi aparılır və buna dövlət dəstəyinin yüksək olduğu müşahidə edilir. Lakin gələcəkdə müəssisələr marketinq tədbirləri üçün büdcələrini müəyyən edərkən bu xərclər iqtisadi baxımdan yenidən təhlil edilməlidir. Potensial ixrac bazarları haqqında fermerlərin məlumatlandırılması prosesi mütəmadi aparılmalıdır.

**Cədvəl 1.**

**Kənd təsərrüfatı müəssisələrində məhsul satışının rentabelliyi və kənd təsərrüfatı məhsullarının bir sentnerinin maya dəyəri**

| Göstəricilərin adı | 2005 | | 2018 | | Müqayisə (2018/2005) | |
|---|---|---|---|---|---|---|
| | bir sentnerin maya dəyəri manat | məhsul satışının rentabel-liyi % | bir sentnerin maya dəyəri manat | məhsul satışının rentabel-liyi % | bir sentnerin maya dəyəri manat | məhsul satışının rentabel-liyi % |
| Dənli bitkilər | 8,05 | 35,5 | 16,22 | 56,2 | 2,0 | 1,6 |
| Çəltik | - | - | 54,00 | 12,0 | - | - |
| Xam pambıq | 21,64 | 26,3 | 45,24 | 27,2 | 2,1 | 1,0 |
| Şəkər çuğunduru (emal üçün) | 2,99 | 6,3 | 3,22 | 55,0 | 1,1 | 8,7 |
| Tütün | 31,65 | 37,3 | 73,76 | 87,7 | 2,3 | 2,4 |
| Yaşıl çay yarpağı | 25,55 | 5,5 | 61,07 | 15,6 | 2,4 | 2,8 |
| Kartof | 11,06 | 25,4 | 21,41 | 27,5 | 1,9 | 1,1 |
| Tərəvəz (açıq torpaqda) | 4,70 | 20,3 | 9,20 | 42,8 | 2,0 | 2,1 |
| Bostan məhsulları | 5,80 | 19,6 | 8,76 | 73,6 | 1,5 | 3,8 |
| Meyvə və giləmeyvə | 6,81 | 20,0 | 40,27 | 28,5 | 5,9 | 1,4 |
| Üzüm | 10,54 | 180,0 | 31,62 | 6,2 | 3,0 | 0,0 |
| Iribuynuzlu mal-qara | 112,84 | 1,5 | 347,55 | 70,3 | 3,1 | 46,9 |
| Qoyun və keçi | 98,21 | 33,5 | 299,37 | 68,7 | 3,0 | 2,1 |
| Donuz | 110,16 | -4,9 | 1100,00 | - | 10,0 | - |
| Quş | 127,13 | 1,9 | 228,17 | 10,3 | 1,8 | 5,4 |
| Süd | 18,03 | 17,6 | 48,82 | 20,2 | 2,7 | 1,1 |
| Yun | 49,62 | 26,4 | 111,91 | 41,4 | 2,3 | 1,6 |
| Yumurta (min ədədlə) | 41,93 | 15,6 | 156,12 | - | 3,7 | - |

Mənbə: https://www.stat.gov.az/source/agriculture/

Sistemli təhlil vahid məqsədə çatmaq üçün bir sıra üstünlüyü təmin edir. Yəni sistemli təhlil onun tərkibindəki hissələrin cəmindən daha geniş mahiyyətə malikdir. O, tərkibindəki müxtəlif təhlillərin (elementlərin) malik olmadığı yeni keyfiyyətlərə malik ola bilir və bu keyfiyyət həmin qarşılıqlı təhlillərin törəməsindən formalaşa bilir. Bu baxımdan istehsalın və kommersiya fəaliyyətinin idarə edilməsi nəticəsinin müsbət olması üçün sistemli təhlil elementlərinin tətbiqinə və onların birgə qarşılıqlı təsirinin öyrənilməsinə ehtiyac artır. Sistemli təhlil elementlərinin tətbiqi istehsal prosesində itkilərin azaldılmasına, rentabelliyin artmasına və ən əsası isə müəssisələrə öz hesabına sərmayələri artırmağa, fəaliyyətini genişləndirməyə imkan verir. Bazarda mövqeyini möhkəmləndirməyə və sabit maliyyə vəziyyətinə nail olmağa imkan verən sistemli kompleks təhlil müəssəsilərə yeni, daha geniş imkanlar açır. Maliyyə, marketinq, qiymət, istehsal prosesinin menecmenti, mühasibat uçotunun və iqtisadi təhlilin məlumatları əsasında sistemli təhlilin təşkili düzgün qərarların qəbul edilməsi şansını artırır və müəssisənin dayanıqlığını gücləndirir.

Qeyd etməliyik ki, aqrar sahədə fəaliyyət göstərən müəssisələrin idarə edilməsində istifadə edilən sistemli təhlilin həyata keçirilməsi zamanı müəssisələr aşağıdakı problemlərlə üzləşir:

1) təhlil böyük həcmli verilənlərin araşdırılmasını tələb edir. Yerli istehsalın hazırkı səviyyəsi, istehsal olunan oxşar və əvəzedici məhsulların və istehlak olunan xammal, materialların idxalı və ixrac həcmi ilə bağlı məlumatların axtarışı, onların sistemləşdirilməsi, məlumatların monitorinqinin aparılması çətinliyi;

2) təhlil üçün vacib olan, lakin rəqiblərin bəzi hallarda kommersiya sirri kimi qeyd etdikləri maya dəyəri xərcləri və hesablaşma formalarının (nağd pul, əvvəlcədən ödəmə, hissə-hissə ödəmə ilə bağlı) müəyyən edilməsində çətinliklər;

3) idarəetmə uçotunun yetərli səviyyədə aparılmaması.

Qərarların qəbuluna təsir edən sistemli təhlilin aparılması üçün müəssisənin maliyyə, marketinq, satış, istehsal və digər bölmələri arasında sıx əməkdaşlıq və operativ şəkildə informasiya mübadiləsi tələb edilir. Nəzərə alsaq ki, əmtəə və maliyyə bazarlarında dəyişiklikləri izləyərək müəssisələrin strategiya və davranış taktikasını tənzimləmək, buna ehtiyacın olması barədə vaxtında məlumat vermək üçün sistemli təhlilin mütə-madi aparılması lazımdır.

## ƏDƏBİYYAT


1. Həsənov N. Biznesin inkişaf strategiyası. Dərslik. Bakı, 2016, www:/ Users/User/Downloads/Biznesin_inki%C5%9Faf_strategiyas%C4%B1_1536671164.pdf
2. Salahov S.V. İqtisadi islahatlar: yeni iqtisadi modelə keçid. İqtisadiyyatın dövlət tənzimlənməsi 06(301)-2017 http://www.elibrary.az/docs/JURNAL/jrn2017_428.pdf
3. Statistika Komitəsinin məlumatları www.stat.gov.az
4. Peter H. Agricultural workers and their contribution to sustainable agriculture and rural development. FAO, 2005, 91 p. http://www.ilo.org
5. Берталанфи Л. Общая теория систем – обзор проблем и результатов. – В кн.: Системные исследования. – М., 1969. (Bertalanffy L. von. General systems theory. Foundations, development, applications, 2 ed., – N.Y., 1969.)
6. Булыгина О. В., Емельянов А. А., Емельянова Н. З., Кукушкин А. А. Системный анализ в управлении. Учебное пособие М.:"Инфра-М, Форум", 2017, 288 с.
7. Волкова В.Н.«Теория систем и системный анализ в управлении организациями: Справочник». Учебное пособие. М. "Финансы и статистика" 2006,848 с.
8. Заде Л. Основы нового подхода к анализу сложных систем и процессов принятия решений. Новое в жизни, науке, технике. Серия «Математика и кибернетика», №.7. – М., 1974.
9. Квейд Э. Методы системного анализа. – В кн.: Новое в теории и практике управления производством США. – М., 1971.
10. Кориков А., Павлов С. «Теория систем и системный анализ. Учебное пособие». М.:"Инфра-М,Форум", 2014, 288 с.
11. Кублин И. М., Санинский С.А. Проблемы управления предприятиями аграрного сектора и направления их решения // Вестник Саратовского государственного социально-экономического университета. 2014. №3 (52). URL: https://cyberleninka.ru/article/n/problemy-upravleniya-predpriyatiyami-agrarnogo-sektora-i-napravleniya-ih-resheniya
12. Луценко Е.В. Теоретические основы и технология адаптивного семантического анализа в поддержке принятия решений (на примере универсальной автоматизированной системы распознавания образов "ЭЙДОС-5.1"). - Краснодар: КЮИ МВД РФ, 1996. – 280 с. http://lc.kubagro.ru/aidos/aidos06_lec/lec_03.htm
13. Математическая теория конструирования систем управления: учебник для вузов / В. Н. Афанасьев, Колмановский В. Б., Носов В. Р. - Москва: Высш. шк., 2003. 310 с.
14. Месарович М.,Такахара Я.Общая теория систем:математические основы. М., 1998
15. Новиков Н. И. Некоторые проблемы совершенствования системы управления предприятияем в современных условиях и пути их решения / Н. И. Новиков, Г. В. Новикова // Международный научно-исследовательский журнал. 2012. №5 (5). с. 48-50. URL:https://research-journal.org/economical/nekotorye-problemy-sovershenstvovaniya-sistemy-upravleniya-predpriyatiyaem-v-sovremennyx-usloviyax-i-puti-ix-resheniya/
16. Райзберг Б.А., Лозовский Л.Ш., Стародубцева Е.Б. Современный экономический словарь. 2-е изд., испр. М.: ИНФРА-М. 479 с. 1999

17. Садовский В.Н. Основания общей теории систем. М., 1974
18. Сарангова А.В. Бурлинова А.С.Решение проблем управления на производстве, http://izron.ru/articles/tendentsii-razvitiya-ekonomiki-i-menedzhmenta-sbornik-nauchnykh-trudov-po-itogam-mezhdunarodnoy-nauch/sektsiya-1-ekonomicheskaya-teoriya-spetsialnost-08-00-01/reshenie-problem-upravleniya-na-proizvodstve/
19. Теория систем и системный анализ: Учеб. пособие. К.: МАУП, 2003, 368 с. http://victor-safronov.ru/systems-analysis/lectures/surmin.html
20. Тимченко Т.Н. Системный анализ в управлении. Учебное пособие. М.:"РИОР", 2018, 288 с.
21. Философский энциклопедический словарь. М.: Советская энциклопедия. Гл. Редакция: Л.Ф. Ильичёв, П. Н. Федосеев, С. М. Ковалёв, В. Г. Панов. 1983 https://dic.academic.ru/dic.nsf/enc_philosophy/4794/СИСТЕМНЫЙ
22. Хакен Г. Информация и самоорганизация: Макроскопический подход к сложным системам. М., 1991

## SUMMARY

**Nadjiba Hajiyeva**

### PROBLEMS OF AGRICULTURAL ENTERPRISE MANAGEMENT ANALYSIS

The main purpose of the article is to clarify the difficulties faced in the analysis of the management of enterprises in the agricultural sector. The author investigated the degree of use of analytical tools used in enterprise management. The objectives of the study are to reveal the systematic procedures theoretically and practically and the functions used in enterprise management, to improve systematic analysis and identify challenges faced by enterprises. The author comments on the systematic analysis of various scientists, the positions and approaches of theoretical schools. The author showed positive and distinctive features that distinguish him from other types of analysis. The author in the article gave consistency of procedures of system analysis, and also suggested ways to overcome difficulties arising in practice.

***Key words:*** *agrar sector, enterprise, systemized analyze, decision making, procedure*

## РЕЗЮМЕ

**Наджиба Гаджиева**

### ПРОБЛЕМЫ АНАЛИЗА УПРАВЛЕНИЯ АГРАРНЫМИ ПРЕДПРИЯТИЯМИ

Основной целью статьи является выяснение трудностей, возникающих при анализе управления предприятий аграрного сектора. Автор исследовал степень использования аналитических инструментов, используемых в управлении предприятием. Задачи, поставленные в исследовании, состоят в том, чтобы теоретически и практически раскрыть систематические процедуры и функции, используемые в управлении предприятием, повысить эффективность систематического анализа и выявить проблемы, с которыми сталкиваются предприятия. Автор комментирует систематический анализ различных ученых, положения и подходы теоретических школ. Автор показал положительные и отличительные черты, которые отличают его от других видов анализа. Автор в статье дал последовательность процедур системного анализа, а также предложил пути преодоления трудностей, возникающих на практике.

***Ключевые слова:*** *аграрный сектор, предприятие, системный анализ, принятие решений, процедура*

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 iyun 2020-ci il*

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ/ ELMİ ƏSƏRLƏR/ 2020, № 2 (103), 182-186**
**NAKHCHIVAN STATE UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2020, № 2 (103), 182-186**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ/ НАУЧНЫЕ ТРУДЫ/ 2020, № 2 (103), 182-186**

**ЭЛЬМАР ДАДАШЕВ**
*elmar-dadashov@ mail.ru*
*Бакинский Государственный Университет*

**UOT:39.73**

# МЕТОДЫ ФИНАНСИРОВАНИЕ МАЛЫХ ПРЕДПРИЯТИЙ И СПОСОБЫ ОПРЕДЕЛЕНИЯ РАБОТОСПОСОБНОСТИ ИДЕИ

*Если уже решено, какое предприятие нужно создать, и определено, какие средства понадобятся для создания и начала работы такого предприятия, следующий вопрос на который должен ответить предприниматель – где взять необходимые для этого деньги? Наиболее распространенными источниками денег, используемыми для создания малых предприятий, являются: личные сбережения владельца; деньги близких друзей и родственников; средства индивидуальных инвесторов.*

***Ключевые слова:*** *предприятие, индивидуальная трудовая деятельность, перспективная идея, кредитование микро-предприятий, финансовая поддержка*

Большинство новых предприятий финансируются за счет личных сбережений владельца, а также возможно, определенных средств, предоставляемых семьей и друзьями. Посторонние люди могут помочь финансировать предприятие, став его совладельцами – покупая долю в предприятии вместе с правом участия в его прибылях – или ссужая некоторую сумму денег, которая должна быть возвращена через определенный период времени вместе с процентами, составляющими стоимость ссуды [6, с.175-177]. Совладельцы акционерного предприятия могут либо принимать активное участие повседневной деятельности компании – в качестве работающего партнера – либо вовсе не участвовать в ней. Помните: каждого, кто ссужает деньги или вкладывает свои средства в будущее предприятие, будет очень интересовать, как обстоят дела у предприятия, и такой человек, возможно, захочет принимать участие в принятии управленческих решений. Как отнесетесь к такой перспективе? Ключевым моментом бизнес-плана является определение размера сбережений, необходимых для начала работы предприятия, а также того, каким образом можно заполучить эти средства [11, с.34-39]. Начинать предприниматель должен с оценки своих собственных финансовых возможностей. Сколько денег вам необходимо для создания предприятия? Что вы хотите заполучить – ссуду или партнера, который будет владеть долей в фирме и участвовать в ее прибылях? Какую долю вы готовы уступить? Какой процент вы готовы выплачивать по ссуде? Помните: инвесторы обычно не участвуют в деле, инициатор которого не хочет рисковать своими собственными деньгами, поэтому не рассчитывайте, что они согласятся финансировать все расходы по создания предприятия. Также определите, могут ли инвесторы внести свой вклад в создание вашей фирмы в виде помощи в управлении помимо или вместо денежного участия. Если вы получите отказ, попросите ваших собеседников высказать свое мнение о вашем плане и, если это возможно, предложить пути его усовершенствования [3, с. 236-238]. Не могут ли они рекомендовать кого-либо еще, кто мог бы заинтересоваться вашей идеей, и не затруднит ли их представить вас этим людям? В большинстве банков весьма трудно получить ссуду на создание малого предприятия. Будучи консерваторами по своему духу, банки предпочитают ссужать крупные суммы денег более опытным фирмам, которые уже хорошо зарекомендовали себя в плане погашения кредитов и могут предложить достаточную гарантию возвращения денег. Однако у вас все же есть возможность приобретения хорошей репутации у кредиторов

и установления деловых отношений с банком, который мог бы помочь росту вашего предприятия. Один из способов-открыть срочный счет в банке [7, с.157-159]. Регулярно вносите вклады на такой счет. По истечении по крайней мере одного года, даже если в тот момент вам не очень будут нужны деньги, обратитесь в банк с просьбой предоставить вам небольшую ссуду, которую вы могли бы вернуть, используя в качестве гарантии средства на вашем счету. Поскольку в этом случае возврат ссуды полностью обеспечен, у банка не будет причины отказать вам в ее предоставлении. По возможности, постарайтесь возвратить полученные деньги вовремя до образования просроченного долга. Это поможет вам убедить банк, что он не слишком рискует, ссужая вам деньги. Для многих людей, занимающихся индивидуальной трудовой деятельностью, и потенциальных владельцев частных предприятий в развивающихся и бывших коммунистических странах даже очень незначительная сумма денег может сыграть решающую роль, позволив им создать или расширить свое малое предприятие. Однако поскольку такие люди часто не в состоянии представить надежную гарантию возвращения ссуды или сведения о ранее полученных и успешно возвращенных кредитах, и им нужна лишь незначительная сумма денег, большинство коммерческих банков в этих странах не видят выгоды в предоставлении им кредитов. Однако многие из этих трудолюбивых предпринимателей обнаруживают, что у них есть альтернативный источник капитала. Эту идею называют «кредитованием микро-предприятий », и в настоящее время она становится все более популярной у многих международных государственных и частных агентств по экономическому развитию. Действуя через свои местные филиалы, эти микро-кредиторы предоставляют очень небольшие краткосрочные ссуды – обычно по существующим рыночным процентным ставкам – частным лицам, которые, возможно, никогда раньше не переступала порог коммерческого банка [9, с.52-60]. Идея предоставления микро-ссуд получила распространение по всему миру. В то время, как большинство микро-кредиторов принадлежат или находятся под контролем некоммерческих организаций или агентств, пользующихся поддержкой правительства, эта идея постепенно завоевывает популярность и среди коммерческих учреждений. Теперь если вам действительно понадобится ссуда для покупки оборудования или товаров, смело обращайтесь в банк, но как и в первый раз, убедитесь, что сможете вовремя вернуть деньги. Если вам необходимо приобрести оборудование, обратитесь к продавцу с просьбой позволить вам вносить плату частями в течении некоторого периода времени вместо того, чтобы оплачивать полную стоимость оборудования за один раз. Это поможет вам высвободить ваш оборотный капитал и решить проблему с наличностью. Обычно оптовые торговцы и поставщики просят новые фирмы оплачивать покупку наложенным платежом. Быть может, они согласятся выслать вам счет для оплаты купленных вами товаров в течении нескольких месяцев с момента доставки. Часто оказывается, что ваши поставщики становятся наиболее значительным источником кредитов, поэтому всегда старайтесь оплачивать присланные ими счета вовремя и ни днем позже. Значит, что у вас есть?-идея создать предприятие, которое, по вашему мнению, сможет приносить хороший доход [1, с. 28-32]. Одним из наилучших способов первичной проверки вашей идеи на работоспособность является «уравновешивающий» прогноз, сравнивающий ожидаемый объем продаж вашего предприятия с предполагаемыми расходами за первый год работы. Чтобы составить такой прогноз, вам необходимо прежде оценить следующие численные показатели работы вашей фирмы:

1) Доходы от продаж, равные общему количеству денег, которые ваше предприятие будет ежемесячно получать от продаж в течение первого года работы.

2) Постоянные расходы, иногда называемые также «накладными расходами», равные общей сумме счетов, которые вы должны оплачивать каждый месяц – например, арендная плата – независимо от того, насколько хорошо или плохо идут ваши дела.

3) Валовая прибыль с одной продажи, равная количеству денег, остающихся от доходов с каждой продажи после вычета суммы, которую вы должны затратить непосредственно для

покупки или изготовления товаров, которые вы продаете.

4) «Уравновешивающие» доходы от продаж, равные количеству денег, которые предприятие должно ежемесячно получать от продаж, чтобы оплачивать все выставленные ему счета [5, с.317-320].

Значит для претворения прогноза в жизнь, сначала надо отметить на листе бумаги, сколько денег было заработано за последний год(доход), и откуда поступали эти деньги [10, с.46-48]. После этого, нужно составьте список обычных расходов на жизнь, таких как арендная плата, затраты на продукты питания, развлечения и т.п. Вычтя сумму личных расходов из суммы дохода, определяем собственные потенциальные сбережения. Если раз пересмотрите список этих расходов. Нет ли среди них таких, которые не являются абсолютно необходимыми и которые можно уменьшить или исключить вообще? Не могли бы вы найти для себя еще одну работу, чтобы повысить ваш доход? Насколько такая дополнительная работа может увеличить размер ваших потенциальных сбережений за год? После этого составьте список всех ваших личных долгов. Например, если вы покупаете дом в рассрочку, то какова оставшаяся сумма платежей? Если ли у вас какие-либо невыплаченные ссуды или другие долги? Составьте еще один список, включив в него все, что у вас есть(ваши активы) и вы могли бы продать, указать реально возможную сумму, которую вы можете выручить от этой продажи. Вычтите общую стоимость ваших активов, которые могут быть проданы, из суммы ваших долгов. Так сколько же вы можете занять? Если бы вы сократили свои ежемесячные расходы на жизнь, увеличили доход, уменьшили долги и распродали часть вашего личного имущества, то сколько бы времени вам понадобилось, чтобы накопить достаточно денег для начала предпринимательской деятельности? Если вы не в состоянии скопить достаточно денег, или для открытия вашего дела требуется слишком много времени, то нельзя ли соответственно уменьшить размер будущей компании? Нельзя ли вам управлять своим предприятием из дома? Не удастся ли на первых порах начать работу, не приобретая специального оборудования? Вместо того, чтобы тратить наличные деньги на покупку всего необходимого нового оборудования, нельзя ли взять часть его в аренду или приобрести бывшее в употреблении оборудование? [8, с.53-57]. Убедитесь, что в конечном счете такой вариант не обойдется вам из-за расходов на ремонт и поломок дороже, чем покупка нового оборудования. Если это вообще возможно, как правило, лучше финансировать ваше предприятие из собственных сбережений. При этом вам не придется беспокоиться о возвращении ссуды или иметь дело с посторонними инвесторами. Однако не следует сразу вкладывать в ваше предприятие все свои сбережения. Оставьте себе больше денег, чем те, которые, как вы предполагаете, вам понадобятся, на тот случай, если вы столкнетесь с неожиданными проблемами или незапланированными расходами. Люди, которые знают вас лучше, могут являться неплохим источником первоначального капитала или краткосрочных ссуд, предоставляемых уже после того, как вы начнете заниматься бизнесом. Хотя семья и друзья, возможно, отнесутся а вам с большим пониманием, чем банкир, ваши отношения с ними в этом вопросе должны оставаться деловыми. Покажите им свой бизнес-план [4, с.12-14]. Как и в случае любого другого потенциального инвестора, не преувеличиваете свои возможности, планы и ожидаемые результаты. Если ваши близкие или друзья захотят помочь вам с финансовой точки зрения, составьте договор с ними в письменном виде. Обычно в любом обществе есть преуспевающие торговцы, специалисты и руководящие работники, у которых есть деньги для вложения в перспективную идею. Как правило, такие инвесторы предпочитают участвовать в таком деле, где они уже знакомы с его инициатором или знают кого-то, кто может поручиться за него, а также в котором у них уже есть некоторые знания или опыт.

**Выводы:**

Каждая идея малого бизнеса должна быть оценена. Таким образом, несмотря на идею, в некоторых случаях это невозможно реализовать, и в будущем она потеряет шансы стать крупным бизнесом. Причиной этого является, недостаток финансирования или недоверие к

владельцу идеи. Надо перенимать опыт у каждого малого предприятия имеющий международный опыт и локальный успех у местных предпринимателей. Механизм налоговых вычетов должен быть еще более усовершенствован, а сумма льготного кредита должна быть увеличена, для развития ключевых областей малого и среднего бизнеса. Совершенствование местной законодательной базы для эффективной работы малых предприятий, защита их прав и интересов, а также принятие новых законов и нормативных актов. Для ускорения конкуренции в рыночной экономике малые предприятия должны принять и внедрить кодекс конкуренции.

**ЛИТЕРАТУРЫ**

1. Байдина О.С., Байдин Е.В. Факторы риска банков при работе со средним и малым бизнесом // Деньги и кредит. 2011, №11, с. 28-32
2. Бочарова О.Н. Направления совершенствования государственной поддержки и кредитования малого и среднего предпринимательства// Социально-экономические явления и процессы. 2013, № 10. с. 26-30
3. Бусыгин, А.В. Предпринимательство - основной курс: Учеб.для студентов вузов. М.: Интерпракс, 2009, 430 с.
4. Высоцкая О.А. О критериях отнесения субъектов предпринимательства к малому и среднему бизнесу// Вестник Самарской гуманитарной академии. Серия «Право». 2012. № 2(12).с.12-14
5. Девятаева Н.В.Проблемы кредитования малого и среднего бизнеса в России / Н.В. Девятаева, И.В. Трифонова // Молодой ученый. 2013, №6, с. 317-320
6. Кузнецова А.Ю. Проблемы развития и основные направления поддержки малого и среднего предпринимательства / А.Ю. Кузнецова, Н.В. Девятаева // Молодой ученый. 2012, № 5, с. 175-177
7. Логунов Э.О. Особенности управления кредитными рисками коммерческого банка / Э. О. Логунов // Молодой ученый. 2012, №4, с. 157-159
8. Майданская, А.Н. Поддержка малого бизнеса на региональном уровне // Финансы. 2012, №6, с.53-57
9. Оценка состояния и динамики кредитования малого и среднего бизнеса. // Финансы и кредит. 2014, № 14(590). стр. 52-60
10. Тихомирова Е.В. Кредитование малого и среднего бизнеса - перспективное направление кредитной политики банков // Деньги и кредит. 2010, №1, с.46-48
11. Хамидуллин Ф.Ф. Развитие методологии исследования малого бизнеса // Проблемы современной экономики. 2006, № 3/4 (19/20), с.34-39

**XÜLASƏ**

**Elmar Dadaşov**

**KİÇİK MÜƏSSİSƏLƏRİ MALİYYƏLƏŞDİRMƏ METODLARI VƏ İDEANIN İŞ QABİLİYYƏTİNİ MÜƏYYƏNLƏŞDİRMƏK ÜÇÜN METODLAR**

Bildiyiniz kimi, bazar iqtisadi şəraitinin mövcudluğu, bazar münasibətlərinə keçid və işgüzar fəallığın artması kiçik müəssisələrə marağı artırdı. Nəticədə kiçik müəssisələr keçmiş dövrlərə nisbətən daha qabaqcıl olub və işgüzar fəaliyyəti genişlənib. Kiçik biznes, əsasən, özəl investor tərəfindən təşkil olunur və çox vaxt fərdi və sadə şəkildə idarə olunur. Bu ən çox yayılmış forma. Digər tərəfdən, bunlar həm də bir istehsal vahidinin böyük bir təşkilatdan, müəssisədən ayrılmasının nəticəsidir. Bəzən bu, digər müvafiq mülkiyyət formaları əsasında dövlət, dövlət kooperativ müəssisələri, fərdi şəxslər və digər təşkilatçılar tərəfindən də təşkil edilə bilər. Sahibkar olma perspektivinin uğurlu ola biləcəyi vaxtlar olur. Bir fikri var, amma onun həyata keçirilməsi üçün maddi dəstək yoxdur və buna görə də bu amil çox vacibdir. Kiçik müəssisələr, ümumiyyətlə,

kreditlər, dövlət dəstəyi və ya şəxsi fondlar hesabına yaradılır. Yəni təcrübəsiz bir sahibkarın bir iş üçün yaxşı bir fikri varsa, lakin maddi imkanları yoxdursa, bu o demək deyil ki, onun fikri gerçəkləşməyəcəkdir. Əsas odur ki, bu fikir uğurlu bir iş üçün uyğundur.

***Açar sözlər:*** *müəssisə, özünüməşğulluq, perspektivli fikir, mikro müəssisələrə borc vermək, maliyyə dəstəyi*

**SUMMARY**

**Elmar Dadashev**

**METHODS FINANCING SMALL ENTERPRISES AND METHODS FOR DETERMINING THE WORKABILITY OF IDEA**

As you know, the presence of market economic conditions, the transition to market relations and increased business activity have increased interest in small enterprises. As a result, small enterprises are more advanced than in past times, and their business activity has expanded. Small business is organized mainly by a private investor and is often managed individually and simply. This is the most common form. On the other hand, they are also the result of the separation of a production unit from a large organization, enterprise. Sometimes it can also be organized by the state, state cooperative enterprises, private individuals and other organizers on the basis of other relevant forms of ownership. There are times when the prospect of becoming an entrepreneur can be successful. He has an idea, but there is no financial support for its implementation, and therefore this factor is very important. Small businesses are usually created through loans, government support, or personal funds. That is, if a novice entrepreneur has a good idea for a business, but does not have financial resources, this does not mean that his idea will not come true. The main thing is that this idea is suitable for a successful business.

***Key words:*** *enterprise, self-employment, promising idea, lending to micro-enterprises, financial support*

---

***Məqaləni çapa təqdim etdi:*** *İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov*
***Məqalə daxil olmuşdur:*** *04 iyun 2020-ci il*
***Çapa qəbul edilmişdir:*** *09 iyun 2020-ci il*

# MÜNDƏRİCAT

## TARİX


1. **Elbrus İsayev.** Tarixi ipək yolu və Naxçıvanın şəhər mədəniyyəti..........................................3
2. **İsmayıl Hacıyev.** Qərbi Zəngəzur və Göyçə gölü ərazilərinin Ermənistan SSR tərkibinə verilməsi Sovet dövlətinin Antiazərbaycan siyasətinin tərkib hissəsidir..........................................9
3. **Zəhmət Şahverdiyev, Zamin Əliyev.** Naxçıvanın Muxtariyyət statusunun qorunmasında Heydər Əliyevin rolu..........................................16
4. **Fəxrəddin Cəfərov, Nadir Hüseynbəyli.** Naxçıvan tərəqqi illərində..........................................19
5. **Abdulla Mustafayev, İlqar Kəngərli.** Heydər Əliyev və Naxçıvanda demokratik dövlət quruculuğu..........................................25
6. **Qadir Əkbərov.** Muxtariyyətin ilk on ilində Naxçıvanda maarif işinin təşkili və elm..................30
7. **Sübhi Kəngərli. Heydər Əliyev muzeyi**..........................................35
8. **Turan Həşimova, Vəli Baxşəliyev.** Naxçıvanın orta tunc dövrünün metal əşyalarında əks olunan inanclar..........................................39
9. **Nurlana Əliyeva.** Naxçıvanda əkinçiliyin tarixi coğrafiyası (XIX-XX əsrin əvvəlləri)................44
10. **Zeynəb Quliyeva.** Arpaçay vadisinin boyalı keramikası (Eneolit dövrü materialları əsasında)..........................................51


## SOSİAL ELMLƏR VƏ HÜQUQ


11. **Məmməd Rzayev, Abbas Əhmədov.** Müasir qloballaşma şəraitində ictimai həyatın humanistləşməsi..........................................57
12. **Rafiq Rəhimov, Nadir Hüseynbəyli.** Kəngərlilər nəsli repressiya illərində............................62
13. **Qərib Allahverdiyev.** Müasir informasiya cəmiyyətində hakimiyyətin iqtisadi və siyasi forması arasında münasibət məsələsinə dair (inkişaf etmiş kapitalist ölkələrin misalında)..........................................67
14. **Şamxal Məmmədov.** XIX əsrin sonları və XX əsrin əvvəllərində Cənubi Qafqazda “erməni məsələsi” və toqquşan rus-erməni maraqları..........................................72
15. **Vaqif Qurbanov, Qəhrəman Behbudov.** Beynəlxalq kommersiya arbitrajının anlayışı və işlərə baxılması qaydası..........................................80
16. **Bağır Babayev.** Əhməd bəy Ağaoğlunun siyasi baxışlarında "Ümmətçilik"dən millətçiliyə keçidin xüsusiyyətləri..........................................84
17. **Gülçin Ağayeva.** Xəzər dənizinin hüquqi statusu problemi və sahilyanı dövlətlər arasında dənizdə silahlanma yarışının ortaya çıxması..........................................92
18. **Kamran Vəlizadə.** Sosial fəlsəfədə siyasi şüur kateqoriyası haqqında......................................98
19. **Aysel Abbasova.** Azərbaycanın enerji təhlükəsizliyi siyasəti..........................................103
20. **Aytəkin Qəhrəmanova.** Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin tərkib hissəsi kimi (sosial siyasət)..........................................107
21. **Rəşad Əsgərov.** Azərbaycan fəlsəfə tarixi elmində Heydər Hüseynov şəxsiyyəti...................116
22. **Elnurə Əzizova.** Ərəbdilli məqtəl yazıçılığında orijinallıq məsələsi: “Məqtəlül-Hüseyn” və “Nurul-eyn fi məşhədil-Hüseyn” əsərlərinin müqayisəli təhlilinə dair bəzi qeydlər..........................................122
23. **Nigar Hüseynova.** Müasir Azərbaycan mədəniyyətinin inkişafında tolerantlıq prinsiplərinin rolu..........................................130
24. **Azad Bayramov.** Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin başlıca istiqamətləri..........................................136

## İQTİSADİYYAT

25. **Ağarza Rüstəmov, Mehriban İmanova.** Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sektorun rolu....142
26. **Nazim Əhmədov.** Aqrar sektorun inkişafında əsas şərt Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyini təmin etməkdir....145
27. **Bulqeyis Novruzova.** İqtisadiyyatın şaxələndirilməsi tədbirlərinin səmərəliliyi....150
28. **Ülvi Baxışlı.** Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafının sosial-iqtisadi nəticələri....156
29. **Həsən Abbasov.** İqtisadi sahələr və tənzimləmə əməliyyatları: aqrar sahənin spesifik təzahürləri....160
30. **Kəmalə Təhməzbəyova.** Elm və texnika müasir dövrün tələbidir....166
31. **Bəhriyyə Abbasova.** Regional inkişaf və sahibkarlığa kömək fondunun investisiya qoyuluşunda mühüm rolu....169
32. **Nəcibə Hacıyeva.** Aqrar sahədə fəaliyyət göstərən müəssisələrin idarə edilməsinin təhlili problemləri....174
33. **Эльмар Дадашев.** Методы финансирование малых предприятий и способы определения работоспособности идеи....182

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası 30 aprel 2010-cu il tarixli (protokol №10-R) qərarı ilə Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının aşağıdakı seriyalarını müstəqil jurnallar kimi tanımışdır:

1. Elmi əsərlər. *Humanitar elmlər seriyası*
2. Elmi əsərlər. *İctimai elmlər seriyası*
3. Elmi əsərlər. *Təbiət elmləri və tibb seriyası*
4. Elmi əsərlər. *Fizika-riyaziyyat və texnika elmləri seriyası*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubuna əsasən "Elmi əsərlər" jurnalına çap üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Məqalənin mətni – 17 sm x 25 sm formatında, sətirlərarası – 1 intervalla, Times New Roman-12 (Azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.
2. Müəllifin (müəlliflərin) adı və soyadı, elmi dərəcəsi tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.
3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə CD-lə (disklə) birlikdə təqdim edilməlidir, CD-lər geri qaytarılmır.

4. Ədəbiyyat siyahısı AAK-ın "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan Təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələblərinə uyğun tərtib olunmalıdır.
5. Məqalənin xülasəsi və açar sözləri rus və ingilis dillərində olmalıdır (150-200 söz)

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir.** *Məs.: Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007, 696 s.*

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir.** *Məs.: Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 300 s.*

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** *Məs.: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2004, 440 s.*

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır:** *Məs.: Hacıyev İ.M. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, bunun qarşısının alınması. // NDU-nun Elmi əsərləri. İctimai elmlər seriyası, 2011, №1, s.13-18*

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir:** *Məs.: Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-beş min il./ "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: Nurlan, 2007, s.20-27*

**Dissertasiyaya aşağıdakı kimi istinad olmalıdır:** *Məs.: Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi: Pedaqoji elm.dok. ... . dis. Naxçıvan, 2005, 240 s.*

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız "avtoreferat" sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır:** *Məs.: Şeremetyevski P.A. Naxçıvanın duz yataqları. "525-ci qəzet" qəz., Bakı, 28 iyul 2012*

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir.** *Məs.: Naxçıvan MDTA: f.19, siy.3, iş 56 v.7-9*

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

**Elmi əsərlər jurnalında çap olunan məqalələrin elektron variantı ilə

**www. ndu.edu.az.** saytında tanış olmaq olar.

***P.S: Kənar müəssisələrdən NDU-nun "Elmi əsərlər"inə məqalə göndərən müəlliflər NDU rektorunun adına, təmsil olunduğu müəssisə rəhbərinin məktubunu da təqdim etməlidir. Növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcəkdir.***

***REDAKSİYA HEYƏTİ***

## TO THE AUTHORS!

By its 30 April, 2010 (minutes J\b 10-R) decision of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic has admitted the following series of the journal **"Scientific works" of Nakhchivan State University as independent journals:**

**1. Scientific works. Humanitarian sciences series**

**2. Scientific works. Social sciences series**

**3. Scientific works. Nature sciences and medicine series**

**4. Scientific works. Physics-mathematics and technical sciences series**

By the letter Ns 48-01947/16, 20 December, 2010 of the Chairman of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic the articles submitted for publication in the journal **"Scientific works"** of NSU should follow the following the rules:

**1. Papers should be typed in single space ,{4 size (17sm x 25sm) format, in l2pt Times New Roman (in Azerbaijani -in Latin alphabet, in Russian - in Cyrillic, in English –in the English alphabet).**

**2. Name(s) and surname(s) of the author(s) and affiliation(s), their scientific degree should be given in full, their e-mail address and complete address (university, organization) should be shown.**

**3. Each article should include UOT indexes or codes of PACS type and keywords (keywords should be in the language in which the article and abstracts have been written).**

The articles and abstracts (in three languages) should be submitted in computer typed form and electronic form (in CD disk); CDs ate not given back.

**4. List of literature (References) should meet the 10.2 -10.4. 6. requirements of the section "Used Literature" of the Instruction of the HAC "Rules for Dissertations" which is in power.**

**5.The abstract and key words of the article should be in Russian and English language (150-200 words) Sources in "References" are shown as follows:**

Books (monographies, text-books, etc.) Habibbayli I.A. Literary-historioal memory and modernism. **Baki, Nurlan, 2007,696 p.**

Multi-authored books ( collective monographies and text-books) Noah prophet, world's gale and Nakhchivan: **Adjami, 2010, 300 p.**

Multi-volume publications Encyclopedia of the Azerbaijan People's Republic. In 2 volumes, I volume, **Baki, Lider Publishing house, 2004,440 p.**

**Articles/ Papers Hajiyev LM. Tenitorial claims of the Atmenians against Azerbaijan during the Azerbaijan People's Republic and its prevention. //** Scientific works of NSU. Social sciences series, 2011, Nr 1, pp. 13-18.

Series of articles and conference materials Habibbayli I.A. Age of the city Nakhchivan- five thousand years. **/ Materials of the scientificpractical conference "Establishment of Nakhchivan Autonomous Republic: history and modernism". Baki, Nurlan, 2007, pp.20-27**

**Thesis /Dissertation Hassanli O.G.** Use system of regional ethnographic materials in the formation of student personality: Doctor of pedagogical sciences ... Disselt, Nakhchivan, 2005, 240 p.

**The same is applied to the Synopsis of thesis, only the word "synopsis of thesis" is added.** Newspaper materials Sheremetyevski P. A. Salt deposits of Nakhchivan. Newspaper "Newspaper 525", Baki, 28 July,20l2.

**Archive materials Nakhchivan MDTA:** f. 19, list 3, work 56 v.7-9

The literature ofthe last 5-10 years in the references is specially prefened.

**P.S: The authors from other enterprises should also submit the letter by his/her head to the rector of NSU for publication of their papers. the papers which do not meet these requirements will not be admitted.**

## К СВЕДЕНИЮ АВТОРОВ!

Высшая Аттестационная Комиссия при Президенте Азербайджанской Республики по решению (протокол № 10-Р) от 30 апреля 2010 года признал как самостоятельные журналы нижеследующие серии журнала **«Научные труды» Нахчыванского Государственного Университета:**

1. **Научные труды.** ***Серия гуманитарных наук***
2. **Научные труды.** ***Серия общественных наук***
3. **Научные труды.** ***Серия естественных и медицинских наук***
4. **Научные труды.** ***Серия физико-математических и технических наук***

На основани письма № 48-01-947/16 от 20 декабря 2010 года председателя Высшей Аттестационной Комисси при Президенте Азербайджанской Республики статьи, представленные для публикации в журнале **«Научные труды»**, должны составляться на основе нижеследующих требований:

1. Текст статьи должен быть набран в формате 17 см x 25 см, межстрочный интервал 1 на компьютере в программе Times New Roman-12 (на азербайджанском языке латинским, на русском – на кирили, на английском – на английском алфавите).

2. Имя и фамилию автора (авторов), ученую степень следует написать полностью, указать адрес электронной почты, название предприятия (организации), где работает.

3. В каждой статье следует дать индексы УДК или коды типа PACS (ключевые слова должны быть написаны на языке статьи и резюме).

4. Ключевые слова статьи должны быть на русском и английском языках.(150-200 слов)

Статьи и резюме должны быть набраны на компьютере (на трех языках) и представлены в электронной версии на диске СД (СД не возвращаются).

5.Список литературы должен составляться в соответствии с требованиями раздела 10.2-10.4.6 «Использованная литература» существующей Инструкции ВАК «О порядках составления Диссертаций».

**Библиографическое описание книг (монографий, учебников и т.д.) составляется названием книги.** *Напр.: Габиббейли И.А. Литературно-историческая память и современность. Баку, Нурлан, 2007, 696 с.*

**Книги, в которых не указан автор, и которые имеют более четырех авторов (коллективные монографии или учебники), даются по названию книги.** *Напр.: Пророк Ной, всемирный потап и Нахчыван: Аджеми, 2010, 300 с.*

**На многотомное издание ссылка дается в нижеследующем порядке:** *Напр.: Энциклопедия Азербайджанской Народной Республики. В 2-х томах, том I, Баку, издательство Лидер, 2004, 440 с.*

**Ссылка на статьи должна быть в нижеследующем порядке:** *Напр.: Гаджиев И.М. Территориальные притязания армян к Азербайджану в период Азербайджанской Народной Республики и их предотвращение. // Научные труды НГУ. Серия общественных наук, 2011, № 1, с. 13-18.*

**На источники по сборникам статей и материалам конференций следует указать так:** *Напр.: Габиббейли И.А. Городу Нахчыван – пять тысяч лет. / Материалы научно-практической конференции на тему: «Создание Нахчыванской Автономной Республики: история и современность». Баку: Нурлан, 2007, с. 20-27.*

**На диссертацию следует ссылаться так:** *Напр.: Гасанлы О.Г. Система использования краеведческих материалов в формировании личности ученика: Дис… доктора педагогических наук. Нахчыван, 2005, 240 с.*

**На автореферат диссертации ссылка дается также, но следует добавить слово «автореферат».**

**Ссылка на газетные материалы производится так:** *Напр.: Шереметевски Р.А. Сольные скважины Нахчывана. Газ. «525-я газета», Баку, 28 июля 2012*

**Ссылка на архивные материалы дается так***: Напр.: НГИА Нахчывана: ф.19, оп.3, д. 56, лл.7-9.*

В списке использованной литературы следует предпочитать литературу последних 5-10 лет.

**П.С.: Присылающие в «Научные труды» НГУ статьи из других организаций авторы, должны представить на имя ректора НГУ письмо руководителя организацию, которую они представляют. Статьи, не отвечающие на эти требования, не будут в последующем приняты издательством.**

**РЕДКОЛЛЕГИЯ**

## DÜZƏLİŞLƏR ÜÇÜN SƏHİFƏ

## PAGE FOR CORRECTION

## СТРАНИЦА ДЛЯ КОРРЕКЦИЙ

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Samir Tarverdiyev |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Aparıcı redaktor: | Günel Məmmədova |
| Aparıcı redaktor: | Sitarə Əlizadə |
| Aparıcı korrektor: | Roza Abdullayeva |

Yığılmağa verilib: 11. VI. 2020
Çapa imzalanıb: 16. VI. 2020
Formatı: 60/90, 32/1, həcmi 11.9 ç/v
Sifariş № 138, sayı 100 nüsxə

NDU-nun «Qeyrət» nəşriyyatının mətbəəsində çap olunmuşdur.

**REDAKSİYANIN ÜNVANI:** *7000. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*“Qeyrət” nəşriyyatı*

**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61

**E-mail:** *elmi.hisse@mail.ru*